AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 13

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2023

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №13

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

DİLÇİLİK

HƏBİBLİ REYHAN YUSİF QIZI
Bakı Dövlət Universiteti
rhabibli@bsu.edu.az
Z.Xəlilov, 23

TİBBİ EPONİMLƏRİN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə tibb sahəsində işlənən eponimlərdən bəhs olunur. Elmi mətnlərdə eponimlərdən istifadə artıq bir ənənəyə çevrilib. Tibbin elə bir sahəsi yoxdur ki, orada eponim işlənməsin. Tibbdə xəstəliklərin, sindromların, tədqiqat metodlarının, əməliyyatların, müxtəlif ləvazimatların və s. adlandırılması üçün eponimlərdən istifadə olunur. Eponimlərin əsas xüsusiyyəti budur ki, böyük həcmli konstruksiyaları daha qısa və lakonik formalarla əvəzləyir. Eponimin semantikasında müəyyən elmi cərəyanın, nəzəriyyənin, ixtira və kəşfin və s. banisi olan şəxslə bağlı informasiya başlıca yer tutur. Tərkibində xüsusi adlar olan eponimlərin formalaşması şüurlu şəkildə baş verir. Bu prosesdə advermə qaydaları nəzərə alınır, kommunikasiya və məlumatın ötürülməsi onimlər vasitəsilə həyata keçirilir. Eponimlərin beynəlmiləlliyi kommunikasiya prosesini asanlaşdırır.

Açar sözlər: eponim, tibbi mətn, xüsusi ad, nominasiya, antroponim

Onomastik nominasiya sahəsində adyaratma imkanları kommunikasiya və insan fəaliyyətinin nəticələrinin inikası üçün vacib olan yeni onimlərin yaradılmasına yönəlir. Bu onimlər onomastikada elmin proqressiv nailiyyətlərini əks etdirir. Həmin dil vahidləri koqnitiv proseslərdə iştirak etdiyi üçün hər zaman diqqəti cəlb edir.

Elmdə xüsusi adlardan düzələn eponimlərin işlənməsi artıq bir ənənəyə çevrilib. "Hər hansı bir addan – toponim, antroponim, ədəbi qəhrəman və s.-dən törəmiş ümumi və ya xüsusi isim" eponim adlanır [8]. N.Podolskaya onomastik terminlər lüğətində bu termini belə izah edir: "Müəyyən cəhətdən məşhur olan şəxsdir ki, adı istənilən digər onimin əmələ gəlməsinə xidmət edir" [12, s. 150]. Bu məqalədə tərkibində insan adları olan eponimlər nəzərdən keçiriləcək.

Eponimlərin tərkibində işlənən xüsusi adlar müəyyən dövrü səciyyələndirir. Bu adlar həm müasir, həm də vaxtilə yaşayıb fəaliyyət göstərmiş görkəmli şəxslərə aid ola bilər. Eyni zamanda, real antroponimlər eponimyaratmada üstünlük təşkil edir. Eponimin semantikasında müəyyən elmi cərəyanın, nəzəriyyənin, ixtira və kəşfin və s. banisi olan şəxslə bağlı informasiya başlıca yer tutur. Eponimlər müxtəlif üsullarla yaranır: ya sadəcə xüsusi addan, ya da onim və apelyativ leksikadan (və ya termindən) ibarət olur.

Eponimlərin formalaşması şüurlu şəkildə baş verir. Bu prosesdə advermə qaydaları nəzərə alınır, kommunikasiya və məlumatın ötürülməsi onimlər vasitəsilə həyata keçirilir. Eponimlərin beynəlmiləlliyi kommunikasiya prosesini asanlaşdırır.

Eponimlərin bir qismi dildə yeni deyil. Amma onların yaranma səbəbinin müəyyənləşdirilməsinə, etimologiyasına maraq azalmır. Anlayışın müəyyən sahədəki mühüm şəxslə əlaqəsini göstərməklə həmin məfhumun adlandırılması zəruriliyi ortaya çıxır.

Bir çox elm sahələri eponimlərlə zəngindir. Tibb elmində də xeyli eponimlər vardır. Tibbin elə bir sahəsi yoxdur ki, orada eponim işlənməsin. "Eponimik terminlərin əksəriyyəti tibbin nevrologiya, cərrahiyyə, daxili xəstəliklər və travmatologiya sahələrində daha çoxdur, bu da onunla əlaqədardır ki, həmin sahələr ənənəvi şəkildə daha çox xəstəlikləri və müvafiq olaraq onların əlamətlərini özündə birləşdirir" [9, s.119]. Onların əsas xüsusiyyəti budur ki, böyük həcmli konstruksiyaları daha qısa və lakonik formalarla əvəzləyir. Eponimlərə çox vaxt onda müraciət edirlər ki, anlayışın mahiyyətini adekvat əks etdirmək mümkün olmur. Xüsusi adın terminlə birləşməsi nominasiyanın ən uyğun variantlarına çevrilir. Nominasiya prosesində müəllif çalışır ki, adlandırılan obyektə xas müəyyən konseptual əlamətləri əks etdirsin. Motivləşmə barədə fikir müxtəlifliyinə baxmayaraq, əksər hallarda eponimlər dildə möhkəmlənir.

"Tibbi mətn – elə bir ixtisaslaşdırılmış tibb məqaləsi və ya xüsusi mətndir ki, onların məzmunu bilavasitə insanın sağlamlığı məsələləri ilə bağlıdır" [15]. Bu mətnlərdə işlənən eponimlər arasında alim və həkimlərin adları üstünlük təşkil edir. Tibbi mətnlərdə təsvir olunan predmetin tərifi, xəstəliklərin dəqiq və ətraflı xarakteristikası verilir.

Xəstəlik əlamətləri (simptom, refleks, fenomen) çox vaxt bir xüsusi addan ibarət olur. Çünki simptom, adətən, bir mütəxəssis tərəfindən müşahidə edilir. Sindromların adları 1-dən 4-ə qədər alim adından ibarət ola bilər.

Tibbi mətnlərdə ikikomponentli struktura malik eponimlər üstünlük təşkil edir, amma bir neçə alimin xidmətini nümayiş etdirən çoxkomponentli vahidlər də var.

Eponimlərin təhlili onların bir sıra səciyyəvi xüsusiyyətlərinin üzə çıxarılmasına imkan verir. N.V.Novinskaya onların bu tiplərini fərqləndirir:

"1. Tərkibində böyük və çox mühüm kəşf etmiş, elmi məktəb və istiqamətlərə və s. rəhbərlik etmiş şəxslərin ad və soyadları olan eponimlər;

2. Tərkibində şəxsin şərəfinə və ya xatirəsinə obyektlərə verilmiş adlar, soyadlar olan terminlər" [11].

Tibbi terminologiyada eponimləri bu qruplara bölürlər: mifologizmlər; ədəbi personajların adlarından ibarət terminlər; alimlərin və həkimlərin adlarından ibarət terminlər. Tibb elmində eponimlər sindromların, əməliyyatların, xəstəliklərin, reaksiyaların, tədqiqat metodlarının adları kimi tətbiq olunur – məsələn, Bexterev xəstəliyi, Montec sınığı, Vasserman reaksiyası, Pikvik sindromu və başqaları [10].

Faktlar və müşahidələr göstərir ki, antroponimik model əsasında yaranan eponimlər daha məhsuldardır. Həqiqətən də, nümunələr eponimlərinin tərkibində alimlərin və həkimlərin adlarının daha çox işləndiyini sübut edir. Antroponim mənsubluq, aidlik əlamətini daha yaxşı təcəssüm etdirir. Bu tipli eponimlər daha çox iki sözlü olur. Ən geniş yayılmış üsul isə budur: komponentlərindən biri eponimdəki xüsusi adın, elmi anlayışın işarəsi kimi ümumi isim olan söz birləşmələrinin əmələ gəlməsi.

Tərkibində eponim olan xəstəlik adları "sindrom", "xəstəlik" sözləri və ya müəyyən bir tibbi terminlə əmələ gəlir:

Ridel tireoditi – alman cərrahı Bernhard Ridelin şərəfinə adlandırılmışdır. B.Ridel fibroz xroniki tireoditin formasını təsvir etmişdir. Xroniki pankreatitə Ridel şişi də deyilir.

De Kerven tireoditi – bu xəstəlik isveçrəli cərrah Fritz De Kervendən sonra "De Quervain tendinitis" kimi tanınır. "O, 1895-ci ildə hərəkət zamanı baş barmaqda yaranan ağrının təsvirini əks etdirmişdir" [6].

Mondor xəstəliyi – iki fransız cərrahı Jan-Batist Mondor və Aleksandr Merfinin şərəfinə adlandırılmış bir xəstəlikdir.

Plammer xəstəliyi – öz adını amerikalı fizioloq, həkim-endokrinoloq Henri Stenli Plammerin şərəfinə almışdır. O, 1913-cü ildə xəstəliyin yaratdığı patoloji vəziyyəti təsvir etmiş və tədqiqatını nəşr etdirmişdir [bax: 7].

Brayt xəstəliyi – böyrək xəstəliyidir. İngiltərəli alim R.Brayt 1827-ci ildə böyrəkləri zədələyən arterial hipertenziyanın ilk dəfə təsvirini vermişdir.

Kron xəstəliyi – 1932-ci ildə Nyu-Yorkdan olan üç həkim: Berril Kron, Leon Ginzburq və Qordon Oppenheymer bağırsaq iltihabının yeni növünü təsvir edən məqalə çap etdirmişdi. Öncə Kron adı gəldiyi üçün xəstəlik onun şərəfinə adlandırılmışdır.

Hantinqton xəstəliyi – 1872-ci ildə neyrodegenerativ pozğunluğun effektlərini təsvir edən Corc Hantinqtonun adını daşıyır.

Tey-Saks xəstəliyi – bu nadir irsi xəstəliyi iki həkim bir-birindən xəbərsiz təsvir etmişdir: 1881-ci ildə britaniyalı oftalmoloq Uorren Tey və 1887-ci ildə amerikalı nevroloq Bernard Saks. Ona görə də xəstəlik ikisinin də adını daşıyır [1].

Addison xəstəliyi – Tomas Addison ilk dəfə 1855-ci ildə böyrəküstü vəzinin xəstəliyini təsvir etdiyi üçün xəstəlik belə adlanır. Amma Addison appendisitin erkən tədqiqatını da aparmış və nəşr etdirmişdir [14].

Mellori-Veys sindromu – ilk dəfə 1929-cu ildə Kennet Mellori və Soma Veys tərəfindən müəyyən edilmiş xəstəlikdir.

Zollinger-Ellison sindromu – 1955-ci ildə Robert Zollinger və Edvin Ellison tərəfindən müəyyənləşdirilmiş xəstəlik olaraq məlumdur. Amma xəstəlik adı kimi 1956-cı ildən etibarən işlənməyə başlanmışdır.

Ormond sindromu – XX əsrin 40-cı illərində uroloq Con Ormond bu xəstəliklə bağlı öz müşahidələrini nəşr etdirmişdir.

Asperger sindromu – avstriyalı pediatr Hans Aspergerin şərəfinə adlandırılan bu xəstəlik autistik spektrin pozğunluğudur. Alim 1944-cü ildə bu xəstəliyi təsvir etsə də, onun araşdırmaları 1981-ci ilə qədər diqqətdən kənarda qalmışdır [14].

Giyen-Barre sindromu – bu sindromun təsviri 1916-cı ildə fransız həkimlər Jorj Giyen və Jan Barre tərəfindən həyata keçirilmiş və daha sonra çap edilmişdir.

Rett sindromu – 1980-ci ildə kəşf olunub. Xəstəliyin klassik və atipik variantları var. Bu xəstəlik pediatr Andreas Rettin adı belə adlanır. Rett ilk dəfə 1966-ci ildə bu sindromu təsvir etmişdir.

Qardner sindromu – ilk dəfə 1951-ci ildə amerikalı həkim-genetik E.C.Qardner tərəfindən təsvir olunmuş bu sindrom nadir rast gəlinən genetik xəstəlikdir [bax: 4].

Vilyams sindromu – "elf siması"sindromu da adlanır. Sindrom 1961-ci ildə Yeni Zelandiyadan olan kardioloq Con Vilyams tərəfindən təsvir edilmişdir.

Kotar sindromu – buna "gəzən cəsəd" sindromu da deyilir. İlk dəfə 1880-ci ildər fransız nevroloq Cules Kotard tərəfindən kəşf edilib, ruhi xəstəlikdir.

Ogilvi sindromu – bu vəziyyət barədə ilk dəfə məlumat verən britaniyalı cərrah Vilyam Ogilvi olmuşdur.

Eponimiyada cərrahi əməliyyatların adları da özünəməxsus mövqeyə malikdir:

Latarje əməliyyatı – Mişel Latarjenin 1954-cü ildə təsvir etdiyi metodikadır. "Travamtoloq-ortopedlərin praktikasında geniş tətbiq olunan bu prosedur çiyin oynağını stabilləşdirir" [5].

Əməliyyatların xüsusi metodika ilə həyata keçirilmə prosesi də eponimlərlə adlanır:

Ru üsulu ilə mədənin rezeksiyası – bu mədə əməliyyatını həyata keçirən isveçrəli cərrah Sezar Ru olmuşdur. "Məhz S.Runun bu metodikanın populyarlaşmasında böyük xidməti olmuşdur" [13, s.5]. Ona görə də həmin əməliyyat variantı onun şərəfinə belə adlanır.

Bundan əlavə, Piroqov kəsiyi, Berqman kəsiyi, Şmiden tikişi, Finneyin piloromiotomiyası, Toproverin qastrostomiyası və s. kimi üsullar da tətbiq olunur. Ştamm-Senn-Kader üsulu, Buyalski və Mak-Uorterin drenaj üsulu, S.S.Yudinin "ilbiz" üsulu və s. kimi nümunələr də tibbin, fiziologiyanın inkişafında böyük xidmətləri olan insanların adlarını əks etdirir.

Bəzi mikroblar onları kəşf edənlərin adını daşıyır: Leffler çöpü, Kox çöpü və s.

Xəstəliklərin diaqnostikası üçün təyin edilən meyarlar da eponimlərlə əlaqədardır: Koxun müddəaları, Haggit təsnifatı (1985-ci ildə Haggit poliplər üçün təsnifat təklif etmişdir), Koxer sınağı və s.

Finkelşteyn testi – de Kerven xəstəliyinin diaqnostikası üçün klassik testdir. Bu test Finkelşteynin fərziyyəsi əsasında meydana çıxmışdır və onun şərəfinə belə adlanır. Testin məqsədi bilək və barmağın patologiyasını üzə çıxarmaq olmuşdur [bax: 3].

Orqanizmdə müxtəlif səbəblərdən baş verən vəziyyətlərin adları onları aşkar edən mütəxəssislərin adlarından əmələ gəlir. Məsələn:

Folkman kontrakturu – oynaqda vəziyyət adıdır. XIX əsrdə yaşamış alman həkim Rixard fon Folkman ilk dəfə bu vəziyyəti təsvir etmişdir.

Dupuytren kontrakturu – fransız cərrah baron Dupuytrenin (XIX əsr) adı ilə bağlıdır.

Barret qida borusu – bu vəziyyət ingilis cərrah Norman Barrettin adından əmələ gəlmişdir. "İxtisaslaşmış bağırsaq metaplaziyasının olması Barret qida borusu diaqnozunun qoyulması üçün tələb olunan şərtlərdəndir" [2, s.121].

Simptomların, yəni həkim tərəfindən müayinə zamanı üzə çıxarılan daxili patoloji prosesin zahiri əlamətinin (işarəsinin) adları eponimlərlə əlaqədar olur. Məsələn, endkrinologiyada simptomlar – Jofrua simptomu, Qrefe simptomu, Mebius simptomu, Dalrimpel sindromu, Koxer simptomu, Ştelvaq simptomu və s.

Ayrı-ayrı mütəxəssislərin adları orqanizmin müəyyən hissəslərinə də verilir: Riolan qövsü, Qriffits nöqtəsi, Zudek nöqtəsi, Moşkovits arteriyası, Auerbax düyünü, Meyssner düyünü, Kennon sfinkteri, Berri bağı, Barret qida borusu, Oddi sfinkteri və s.

Tibbi alətlərin yaradılması və təkmilləşməsində xidmətləri olan alim və həkimlərin adları eponim kimi çıxış edir: Len lövhəciyi, Ospanov aparatı, Cilyi mişarı, Vişnevski drenajı, Blekmor zondu, Koxer sıxacı və s.

Beləliklə, tibbi eponimlər müxtəlif sahələrdə özünü göstərir. Onlar müvafiq sahədə xidməti olan şəxslərin adlarını əks etdirir. Nümunələrdən də aydın oldu ki, antroponimlərdən əmələ gələn eponimlər tibbi mətnlərdə çox rast gəlinir. Eponimlər mütəxəssislərə mövcud situasiyanı, xəstənin vəziyyətini tez anlamağa imkan verir. Onlar elmi informasiyanın ötürülməsini sadələşdirir, alimlərin adlarını əbədiləşdirir və gələcək nəsillər üçün saxlayır. Eyni zamanda, eponimlərdən istifadə elmin inkişaf mənzərəsini də aydınlaşdırır.

Ədəbiyyat

1. Болезнь Тея – Сакса // URL: https://ru.wikipedia.org/wiki

2. Camalov F.H., Şərifov E.Y., Pənahov D.M. Cərrahi xəstəliklər. Dərslik. Bakı 2021, 563 s.

3.https://kinesiopro.ru/blog/test-finkelshtejna/

4.https://med-portal.az/proktoloji-xestelikler/qardner-sindromu/

5.https://orthoteam.ru/blog/latarzhe-ne-prosto-krasivoe-slovo-no-i-vysokotehnologichnaja-operacija/

6.https://reabilitasiya.az/reabilitasiya/ortopedik-reabilitasiya/de-kerven-tendovaginiti-stenozla%C5%9Fm%C4%B1%C5%9F-tendovaginit

7. https://volgograd.medsi.ru/spravochnik-zabolevaniy/bolezn-plammera/

8.https://www.azleks.az/az/online-dictionary/eponym

9. Гаранин А.А., Гаранина Р.М. О месте эпонимов в современной медицинской терминологии // Вопросы ономастики, 2019. т.16 № 3, с.110-124

10. Григорьева Е.Н. Эпонимы в судебной медицине. Судебно-медицинская квалификация «именных» переломов костей предплечья [электронный ресурс] // Судебная Медицина Наука | Практика | Образование. – Том 5 №1s, приложение, апрель 2019. – С. 39–40. URL: https://www.for-medex.ru/jour/issue/viewFile/21/21

11. Новинская Н.В. Термины-эпонимы в языке науки [электронный ресурс] // Вестник РУДН, серия Русский и иностранные языки и методика их преподавания. – 2013. – № 4. – С. 107-110. URL: https://cyberleninka.ru/article/n/terminy-eponimy-v-yazyke-nauki

12. Подольская Н.В. Словарь русской ономастической терминологии. – М.: Наука, 1988. – 192 с.

13. Резекция желудка по способу Ру: учеб. пособие / А. П. Михайлов, А. М. Данилов, А. Н. Напалков, В. П. Земляной, Б. В. Сигуа. — СПб.: Издательство ГБОУ ВПО СЗГМУ им. И. И. Мечникова, 2013. — 32 с.

14. 13 заболеваний, названных в честь людей [электронный ресурс] // URL: https://ru.triniradio.net/13-medical-conditions-named-after-people

15. Щербакова Е.Н. Особенности реализации медицинского дискурса в масс-медийных текстах, посвященных развитию и здоровью детей [электронный ресурс] // URL: https://core.ac.uk/download/162319915.pdf

ГАБИБЛИ Р.Ю.

ОСОБЕННОСТИ МЕДИЦИНСКИХ ЭПОНИМОВ

РЕЗЮМЕ

В статье речь идет об эпонимах, употребляющихся в области медицины. Использование эпонимов в научных текстах стало своего рода традицией. Нет такой области медицины, чтобы в ней не употреблялись эпонимы. Эпонимы используются в медицине для наименования болезней, синдромов, исследовательских методов, различных медицинских принадлежностей и т.д. Основная особенность эпонимов заключается в том, что они заменяют объемные конструкции более краткими и лаконичными формами. В семантике эпонима главное место занимает информация, связанная с основоположником, родоначальником определенного научного учения, теории, открытия, изобретения и т.д. Формирование эпонимов, в состав которых входят имена собственные, происходит осознанно. В данном процессе принимаются во внимание правила номинации; коммуникация и передача информации осуществляется посредством онимов. Интернациональный характер эпонимов облегчает процесс коммуникации.

Ключевые слова: эпонимы, медицинский текст, имя собственное, номинация, антропоним

HABIBLI R.Y.

THE PECULIARITIES OF MEDICAL EPONYMS

SUMMARY

The article deals with eponyms used in medicine. The use of eponyms in scientific texts has become a kind of tradition. There is no area of medicine that does not involve eponyms. Eponyms are used in medicine for names of diseases, syndromes, research methods, various medical supplies, etc. The main feature of eponyms is that they replace voluminous constructions in shorter and more laconic forms. The main place in the semantics of an eponym is occupied by information related to the founder of a certain scientific doctrine, theory, discoveries, inventions, etc. Formation of eponyms which include proper names occurs consciously. In this process the nomination rules are taken into account; communication and transmission of information is carried out through onyms. The international nature of eponyms facilitates the communication process.

Keywords: eponyms, medical text, proper name, nomination, anthroponym

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Sevinc Məmmədova filologiya üzrə fəlsəfə doktoru, dosent tərəfindən çapa tövsiyə olunmuşdur

MƏTANƏT BƏKİR QIZI ƏMRAHOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
amrahova.metanet.76@gmail.com.

DİLDƏ DETERMİNANT VƏ DETERMİNASİYA NƏZƏRİYYƏSİ HAQQINDA

Açar sözlər: *determinant, determinansiya, dil, sintaksis, cümlə.*
Ключевые слова: *определитель, детерминация, язык, синтаксис, предложение.*
Keywords: *determinant, determination, language, syntax, sentence.*

Dilçilikdə determinantlardan bəhs etməzdən öncə ilk növbədə "determinant" termininə nəzər salmaq lazımdır. Dilçilik terminlərinin son nəşr olunmuş lüğətində oxuyuruq: "Determinant- cümlənin əvvəlində gəlib, onun bütün üzvlərinə aid olan sərbəst söz-forması, söz birləşməsidir" [3, s.136]. Zənnimizcə, lüğətdə determinant dilçilik termininin izahı olduqca kiçik verilib və nümunə ilə izah olunmayıb. Halbuki, dilçilikdə yeni öyrənildiyi üçün geniş izahata daha çox ehtiyac vardır. Deməli, determinant cümlənin başında gəlir və bütün cümlə üzvlərinə aid olur. Bəs determinant özü hansı leksik vahidlərlə ifadə olunur? Determinant ilk növbədə söz və söz birləşmələri ilə ifadə olunur. Lakin bununla belə, determinatlar frazeoloji vahidlərlə də reallaşır. Çox zaman da determinantlarla xüsusiləşmiş üzvlər və ümumiləşdirici cümlə üzvləri qarışdırılır. Halbuki, onlar nə qədər oxşar olsa da, fərqli xüsusiyyətləri də mövcuddur. Determinant üzv semantik baxımdan cümlənin subyekti, obyekti və zərfliyi rolunda çıxış edir. Xüsusiləşmələr isə zərflik və tamamlığa aid olur.

Nitqdə həm determinant üzv, həm də xüsusiləşmiş üzv semantik baxımdan qabardılmış, diqqət çəkən üzvdür. Hər ikisi aktuallığa xidmət edir. Hər ikisinin yaranmasında vurğu, intonasiya, qoşma, köməkçi sözlər xüsusi rol oynayır. Lakin xüsusiləşmiş üzv, həm semantik, həm də qrammatik baxımdan xəbərlə əlaqəyə girir və sintaktik təhlil olunur. Determinant üzv isə xəbərlə qrammatik əlaqəyə girmir, onunla semantik baxımdan bağlı olur, bütün cümləni izah edir. Xüsusiləşmiş tamamlıq cümlədəki xəbərin obyektini, determinant isə predikatın obyektini və ya subyektini bildirir, cümlənin teması olur.

Q.Kazımov qoşmalı xüsusiləşmələrlə yanaşı, ikinci qrup xüsusiləşmələrdən də bəhs edir. "Xüsusiləşməni əmələ gətirən ikinci qrup leksik-qrammatik vasitələr xüsusən, xüsusilə, o cümlədən, özü də, hətta, illa da və s. modal sözlərdən, bağlayıcılardan ibarətdir. Bunlar xüsusiləşən üzvdən əvvəl gəlir, onu aydın fasilə ilə özündən əvvəlki hissədən ayırır... xüsusiləşmənin bu növünü "...ara sözlü, bağlayıcılı

(dəqiqləşdirici) xüsusiləşmiş üzvlər" adlandırmaq olar"[4,s.232]. Qeyd edək ki, xüsusiləşmənin bu növü- dəqiqləşdirici xüsusiləşmiş üzv cümlədə determinant obyekt, subyekt və ya zərflik ola bilər. Məsələn, *Hətta mənə də möhlət verilmədi. Xüsusən yay günlərində* Cıdır düzünə gələnlərin sayı artır, şənlik etmək, Qarabağın təmiz havasını nəfəsinə çəkmək üçün hamı bura can atırdı.

Ümumiləşdirici üzvlərə gəlincə, onlar söz və ya söz birləşməsindən ibarət, həmcins üzvləri bir məhfumla birləşdirən, onlarda eyni qrammatik formada olan üzvlərdir. Ümumiləşdirici üzv də xüsusiləşmələr kimi cümlədə asılı olduğu üzvlə həm semantik, həm sintaktik əlaqəyə girir. Eyni zamanda həm həmcins üzvlər, həm də ümumiləşdirici üzvlər birlikdə cümlənin aktual üzvlənməsində iştirak edə və determinantın ifadə vasitəsi ola bilər. Məsələn*, Dostdan, tanışdan, qonşulardan, bir sözlə- hamıdan* üz döndərmişdi. Bu məqamda biz ümumiləşdirici üzvdən deyil, subyekt determinantın ifadə vasitəsindən bəhs edəcəyik. Onun ismin çıxışlıq halında olub, sadalama intonasiyası ilə, eyni zamanda ümümiləşdirici sözlə əlaqələndiyi, vəziyyətin subyekti mənasında olduğunu qeyd edəcəyik.

Formal əlaqə vasitələrindən olan determinantlar son illər mətn dilçiliyi ilə birlikdə tədqiq olunmağa başlamışdır. Əsasən mətnin sintaktik bütövləri arasında birləşdirici vastə olan determinantların mətn yaratmada çox böyük önəmi vardır. Mətnin komponentlərini bir-birinə bağlayan bu sintaktik bütöv mətndə əsas faktor sayılır. Bildiyimiz kimi, ölkəmizdə mətn sintaksisi son illərdə tədqiq olunmağa başlamışdır. "Dilçilik elmində son zamanlara qədər sintaktik səviyyənin iyerarxik münasibətlər baxımından son vahidi kimi müstəqil və ayrıca götürülmüş cümlə qəbul edilirdi. Hətta tədqiqatçılar struktur baxımından bir neçə predikativ birləşmə ilə qarşılaşdıqda belə , onlar, nə qədər qəribə olsa da, yenə də faktiki olaraq cümlə haqqında danışırdılar" [2,s.220].

Əgər məntiq elmi obyektiv gerçəkliyin qanunlarını müxtəlif formaları ilə ifadə edirsə, sintaksis nitqin qurulmasının tarixi qanunlarını söz birləşməsi və cümlə ilə bərabər, mətnlərlə də reallaşdırır. Cümlə kimi, mətn də nitqin bütöv vahidi hesab olunur. Dildə mətnin bütövlüyü müxtəlif vasitələrlə qorunub saxlanılır ki, bunlardan da biri determinantlardır. "Cümlənin bəzi üzvləri yalnız bu və ya digər baş üzvə deyil, bütövlükdə cümləyə aiddir, cümlənin ümumi məzmunu ilə bağlı olur. Bu cür üzvlərə determinant deyilir (latınca determinans sözündən olub, müəyyənləşdirən, aydınlaşdıran mənasındadır)" [3,s.152]. Determinant üzv olmaları həmin söz və söz birləşmələrinə cümlənin bütöv tərkibi ilə eyni səviyyədə əlaqələnib, cümlənin ümumi məzmunu ilə bağlanmalarına şərait yaradır. Bu da öz növbəsində cümlənin tərkib hissələri arasındakı münasibətin ikili xarakter daşımasına və müvafiq olaraq cümlə daxilində ikili sintaktik əlaqələrin meydana çıxmasına şərait yaradır.

Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakterli olur və cümlənin cümlələr birliyində, mətn mühitində struktur-semantik xüsusiyyətlərini bütöv şəkildə reallaşdıra bilmir. Cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur.

Mətnin psixolinqvistik təbiətə malik olması da onun ötürdüyü informasiyanın məntiqi-semantik bütövlüyü, tamlığı ilə şərtlənərək obyekt barədə insan təxəyyülündə əmələ gələn xüsusi bir psixolinqvistik fenomenə çevrilir. Nitq məhsulunun məntiqi-semantik bütövlüyü danışanın əqli ilə dediklərinin birbaşa və yaxud dolayısı yolla üst-üstə düşməsi kimi dərk edilir.

Mürəkkəb sintaktik bütöv əslində mətndir. Mətnlə mürəkkəb sintaktik bütöv arasında bərabərlik işarəsi qoyulduğu halda, abzasla mətn arasında müəyyən fərqlər mövcuddur. Alimlər mürəkkəb sintaktik bütövü dil faktı kimi dəyərləndirirlər. Əlbəttə ki, alimlərin bir qismi. Bir qisim alimlər isə abzası nitq vahidi kimi dəyərləndirirlər. Mətnin tədqiqatçılarının digər bir qrupu isə bu fikirdədirlər ki, abzas və mürəkkəb sintaktik bütöv tam fərqli anlayışlardır. Mürəkkəb sintaktik bütöv içərisində bir neçə abzası cəmləşdirə bilir və eyni zamanda abzas özü də tərkibində bir neçə sintaktik bütövü birləşdirir. Gördüyümüz kimi, mətn sintaksisinin son zamanlar bu qədər geniş ampulada tədqiq olunmasına baxmayaraq bu sahədəki ziddiyyətli fikirlər səngimək bilmir. Mətn sintaksisinin tədqiqi olmadan isə determinantlardan söz açmaq qeyri-mümkündür. Mətn sintaksisinin tədqiqində isə akademik Kamal Abdullanın yeri və xidmətləri danılmazdır. İlk dəfə Azərbaycan dilçiliyində determinantlara ayrıca bölmə həsr etmişdir [1, s.152].

Determinant üzv əsasən cümlənin əvvəlində yerləşən, bütöv cümlə ilə əlaqə yarada bilən leksik vahiddir. İ.İ.Kovtunova bildirir ki, "... cümlə determinantlara və predikativ qruplara bölünür" [5,s.63]. Burdan belə nəticəyə gəlirik ki, Rusiya dilçiliyində də cümləyə bir bütöv kimi baxılır və bu bütövün determinant və predikat kimi tərkib hissələri mövcuddur. Predikatın özü isə mübtəda və xəbər hissələrinə ayrılır. Cümlənin determinant üzvü kimi zaman, yer, səbəb, məqsəd, güzəşt, şərt zərfliklər iştirak edə bilir.

Determinantlar sözlərlə və söz birləşmələri ilə və yaxud frazeoloji birləşmələrlə ifadə olunur. Sözlərlə ifadə olunan determinantlar: *Dünən bəziləri tək, bəziləri isə uşaqla tədbirə gəlmişdir.* Bu cümlədə "dünən" determinantdır. Bu determinant leksik vahidlə ifadə olunub. Leksik vahid isə cümlə üzvü kimi zaman zərfliyidir. *Dünən* mətnin hipertemasının mərkəzində yer alır.

Söz birləşməsi ilə ifadə olunan determinantlar: *Şəhərin mərkəzində ölkənin hər yerindən gələn cavanlar, qocalar, ahıllar qarışqa kimi qaynaşırdı.* Bu cümlədə isə determinant - *şəhərin mərkəzində* söz birləşməsidir. Determinant ismi söz birləşməsi ilə ifadə olunub. Cümlə üzvü kimi isə məkan zərfliyi funksiyasındadır.

Frazeoloji birləşmə ilə ifadə olunan determinantlar: *O, gözləri kəlləsinə çıxaraq yanından ötüşən maşınlara, avtobuslar, trolleybuslara heyrətlə baxa-baxa dövrə vururdu (*Ə.Məmmədxanlı*).* Bu cümlədə isə frazeoloji birləşmə tərz-hərəkət zərfliyi statusunda çıxış edir. Determinant isə frazeoloji birləşmə ilə ifadə olunmuşdur. Əslində determinantlar mətn içərisində daha aydın izah oluna bilir. Məsələn, aşağıdakı mətn içərisində determinantların sərhədlərini belə müəyyənləşdirməyə cəhd göstərəcəyik. *"Şəhərə gəldiyi ilk gün küçələri gəzib ətrafındakılara-ilk dəfə*

gördüklərinə maraqla baxdı. Gördü ki, şəhər tamam başqa bir aləmdir. Adamlar qarışqa kimi qaynaşır, insanlar ora-bura gedirdilər. Qəribədir ki, qaynaşan insanlar heç biri bir-birini tanımır, kənddən fərqli olaraq heç biri o birisinə salam verib kəlimə kəsmirdilər" (İ.Hüseynov). Mətndəki "*şəhərə gəldiyi ilk gün"* zaman determinantı sayılır. Mətnin hipertemasını formalaşdıran, yaradan əsas vahid sayılır. Ümumiyyətlə, yer və məkan zərfliklər ilə ifadə olunan determinantlar sayca daha çoxdur və bədii mətnlərdə bu kimi dil vahidlərinə daha çox rast gəlinir. "Determinant üzvün mövcudluğunun qəbul edilməsi bir daha cümləyə müəyyən bitkin bir bütöv kimi baxmaq imkanı verir. Cümlənin bütün yerdə qalan tərkibinin və determinant üzvün bir-birilə uyğunlaşması prinsipləri və əlaqəyə girmə üsulları nəticə etibarilə cümlənin bir bütöv kimi quruluşunun istiqamətini də formalaşdıran amillərə dönür" [1,s.153].

Determinantlar haqqında bu qısa araşdırmadan sonra belə qərar gəldik ki, determinantlar dilin ən böyük vahidi olan mətnin yaranmasında önəmli rola malikdir. Determinantlar mətnin təşkilində aktiv rol oynayaraq mətn hipertemasının əsasını təşkil edirlər. Mətnin komponentləri arasında sintaktik səviyyədə əsas strukturbirləşdirici rol oynayırlar. Məhz determinant üzvün varlığını qəbul edərək biz cümləyə müəyyən bitkin bir bütöv kimi baxa bilirik. Determinant da digər cümlə tərkibləri ilə bir yerdə cümlənin bir bütöv halda var olma amillərini formalaşdırır. Formal əlaqə vasitələrindən olan determinantlar son illər mətn dilçiliyi ilə birlikdə tədqiq olunmağa başlamışdır. Əsasən mətnin sintaktik bütövləri arasında birləşdirici vastə olan determinantların mətn yaratmada çox böyük önəmi vardır. Mətnin komponentlərini bir-birinə bağlayan bu sintaktik bütöv mətndə əsas faktor sayılır.

Determinant ilk növbədə riyaziyyat termini kimi məşhurdur. Riyaziyyatla yanaşı, "determinant" termininə dilçilikdə də rast gəlinir. Əslində, determinant probleminin dilçilikdə qoyuluşuna ümumi şəkildə nəzər saldıqda şahidi oluruq ki, həmin anlayış ümumi dilçiliyə məhz riyaziyyatdan gətirilmiş və hesab – cəbr elmində istifadə olunan determinant anlayışı ilə dilçilikdə istifadə edilən eyni terminin mahiyyətcə yaxınlığı vardır. Onların hər ikisinin mahiyyətində-məzmununda "quruluş-düzülüş" anlayışı dayanır. Maraqlıdır ki, türkoloji dilçilikdə də indiyə qədər determinantlarla bağlı sistemli araşdırmalar aparılmamışdır. Q. Kazımov determinanta belə tərif verir: "Cümlənin bəzi üzvləri yalnız bu və ya digər baş üzvə deyil, bütövlükdə cümləyə aid olur, cümlənin ümumi məzmunu ilə bağlı olur. Bu cür üzvlərə determinant deyilir *(latınca detenninans sözündən olub, müəyyənləşdirən, aydınlaşdıran mənasındadır).* Determinant cümlənin həcmini genişləndirən sərbəst söz-formaları, söz birləşmələridir" [2,s152].

Dilçilkdə bəzən "determinant konstruksiyalar" terminindən də istifadə edilir. "Determinant konstruksiya" termini dedikdə biz iki sintaktik əlaqəli üzvün hər hansı birləşməsini nəzərdə tuturuq, onlardan birincisi digərinə münasibətdə determinant təyinedici, ikincisi isə, sintaksisin istənilən səviyyəsində təyin edilən, diferensial xüsusiyyətli determinantdır. "Cümlədə səbəb-nəticə əlaqəsini ifadə edən

konstruksiyalarla bağlı olan determinantlar, kauzativ determinant konstruksiya adlanır. Sintaktik səviyyəsindən asılı olaraq kauzativ determinant konstruksiyalar bölünən və bölünməyən birləşmələrdir, məsələn, söz birləşmələri, səbəb qoşma üzvləri olan sadə cümlələr, səbəb determinantları olan müxtəlif mürəkkəbləşdirici bloklar, tabeli mürəkkəb cümlələr, tabesiz mürəkkəb cümlələr, bir hissəsinin digərinə münasibətdə səbəb determinantı kimi çıxış etdiyi qapalı quruluşlu cümlələr və nəhayət, mürəkkəb sintaktik bütövlər, habelə öz aralarında səbəb əlaqəsi olan daha böyük mətn parçaları" [6,s.7]. Beləliklə, biz "determinant" terminindən geniş mənada hissələri bir tərəfdən səbəb-nəticə əlaqələri ilə sıx bağlı olan, digər tərəfdən isə hər hansı mürəkkəblik və əhatə dairəsi olan semantik ikiüzvlü və qarşılaşdırılmaya malik strukturu ifadə etmək üçün istifadə edirik.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abdulla K.M. Azərbaycan dilində mürəkkəb sintaktit bütövlər./K. M. Abdullayev, A.Y. Məmmədov, M.M. Musayev, Ş. Hüseynoa Bakı: Mütərcim, – 2012. – 605 s.
2. Abdulla K.M. Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri /K.M. Abdulla. – Bakı: Elm, – 1983. – 300s.
3. Kazımov Q. Azərbaycan dilinin qrammatikası / Q.Kazımov. –Bakı: Elm və təhsil, –2017. –310 s.
4. Kazımov Q. Seçilmiş əsərləri:[10 cilddə] /Q.Kazımov. – Bakı: Nurlan, Nurlan, – 5c. – 2008. – 499 s.
5. Ковтунова, И. И. Современный русский язык. Порядок слов и актуальное членение предложения/ И. И. Ковтунова. –Москва: –1976. –239с.
6. Лекант, П.А. Синтаксис простого предложения в современном русском языке/ П.А. Лекант. – Москва: –1974. –160 с.

DİLDƏ DETERMİNANT VƏ DETERMİNASİYA NƏZƏRİYYƏSİ HAQQINDA

XÜLASƏ

Determinantlar obyektiv aləmdə olan əşya, predmet, hərəkər, hadisələr arasında olan məna bağlılığının forma cəhətdən reallaşmasına şərait yaradır. Determinantlar dil faktlarının fövqündə duraraq cümləni vahid kimi formalaşdıra bilir və cümlə üzvləri arasında məna əlaqələrinin formalaşmasına səbəb olur. Bu da öz növbəsində obyektiv reallığın predmet və hadisələri arasındakı əlaqə və münasibətlərin dillə ifadəsinə xidmət edir. Determinant- cümlənin əvvəlində gəlib, onun bütün üzvlərinə aid olan sərbəst söz-forması, söz birləşməsidir. Determinant – cümlənin bütün tərkibinə aid olub, onu bütövlükdə genişləndirən və onun ayrı-ayrı

üzvlərindən heç biri ilə əlaqəsi olmayan cümlə üzvüdür. Determinant cümlə ilə zahirən bənzər yanaşma, lakin özünəməxsus şərtsiz, sərtbəst, müstəqil şəkildə əlaqələnir. Məqalənin yazılmasında müxtəlif elmi mənbələrdən istifadə edilmişdir.

ОБ ДЕТЕРМИНАНТЕ И ТЕОРИ ДЕТЕРМИНАЦИОННОСТИ В ЯЗЫКЕ

РЕЗЮМЕ

Детерминанты создают условия для формальной реализации смысловой связи между предметами, субъектами, действиями и событиями объективного мира. Детерминанты способны образовывать предложение как единое целое, стоя над языковыми фактами, и приводят к формированию смысловых отношений между членами предложения. Это, в свою очередь, служит для выражения отношений между предметами и событиями объективной действительности посредством языка. Определитель – свободная словоформа, словосочетание, стоящее в начале предложения и принадлежащее всем его членам. Определитель – член предложения, принадлежащий всему составу предложения, расширяющий его в целом и не связанный ни с одним из его отдельных членов. На первый взгляд схожий подход с определительным предложением, но он связан уникальным, безусловным, жестким, независимым образом. При написании статьи использовались различные научные источники.

ON DETERMINANT AND DETERMINATION THEORY IN LANGUAGE

SUMMARY

Determinants create conditions for the formal realization of the meaning connection between objects, subjects, actions, and events in the objective world. Determinants are able to form a sentence as a unit by standing above linguistic facts and lead to the formation of meaning relationships between sentence members. This, in turn, serves to express the relationship between objects and events of objective reality through language. Determinant is a free word-form, word combination that comes at the beginning of a sentence and belongs to all its members. Determinant - a sentence member that belongs to the entire composition of the sentence, expands it as a whole and is not related to any of its separate members. A seemingly similar approach to the determinative sentence, but it is connected in a unique, unconditional, rigid, independent way. Various scientific sources were used in writing the article.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: ***filologiya elmləri doktoru, professor İsmayıl Kazımov***
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏSƏDOVA MƏHƏBBƏT NƏCƏF QIZI,
dosent, fil.ü.f.d.,
mehebbet.a.16@gmail.com
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Bakı ş. Ayna Sultanova, 5

DEYİKTİK FUNKSİYALI ƏVƏZLİKLƏR

Annotasiya

Məqalədə əvəzliklərin deyiktik funksiyasından bəhs olunur. Qeyd olunur ki, əvəzliklər özlərinin leksik mənası olmaması ilə fərqlənir. Onlar cümlə və diskurs daxilində referensiyaya xidmət edir. Referentiv vahidlər olan əvəzliklər ostensiv təbiətə malikdirlər. Hər hansı bir obyekti işarələmək üçün əvəzliklər istifadə olunur. Onlar deyiktik funksiyanı cümlə daxilində yerinə yetirirlər. Dialoji nitqdə ünsiyyət zamanı danışana və dinləyənə məlum olmayan obyekti işarələmək üçün deyiktik vahidlərdən istifadə olunur. İşarə əvəzlikləri bu funksiyanı yerinə yetirir. Bu zaman deyiktik vahid dəyişə bilir. Bu dəyişməyə səbəb əşyaların yaxında və uzaqda yerləşməsindən asılı olur. Əvəzliklər indeksiallıq funksiyası icra edirlər. Bu da onların jestlərlə əlaqəli davranışıdır. İşarələnən obyekt həm də əl, baxış, göz və sair orqanların işarəsi ilə birgə işlənir. Şəxs əvəzlikləri də deyiktik funksiyanın daşıyıcısıdırlar. Onların da anlaşılması kontekstdən asılı olur.

Açar sözlər: əvəzlik, deyiksis, kontekst, diskurs, ostensiv, linqvistika.
Keywords: pronoun, deixis, context, discourse, ostensive, linguistics.
Ключевые слова: местоимение, дейксис, контекст, дискурс, остенсивный, лингвистика.

Azərbaycan dilinin morfoloji sistemində əvəzlik nitq hissəsi bir sıya özünəməxsus, səciyyəvi xüsusiyyətləri ilə həm əsas nitq hissələrindən, həm də köməkçi nitq hissələrindən fərqlənir. Nitq hissələrindəki yeri hələ də mübahisə doğuran, gah əsas nitq hissəsi sayılan, gah da köməkçi nitq hissələrinə aid edilən, ayrıca leksik mənaya malik olan sözləri əvəz etmək əsas qayəsi olan əvəzliklər öz funksianallığı baxımından da digər nitq hissələrindən əsaslı şəkildə fərqlənirlər. Belə ki, dilçilikdə ayrıca leksik məna tutumundan məhrum olan, yalnız leksik- qrammatik məna daşıyan, dildə işlənən leksik vahidləri əvəz edərək onların yerində işlənən, həmin leksik vahidlərə istinad edərək işarə edən "əvəzlik" termini altında işarələnən sözlər diskurs çərçivəsində, yaxud diskurs daxilində deyiktik funksiya daşıyırlar. "Deyiktik elementlər, bir- birlərinə və kommunikasiya aktının digər üzvlərinə aid işarələr münasibətini yaradan işarə funksiyalarına malikdirlər" [1,s.42-43]. Əvəzliklər deyiktik ifadələr kimi öz mənasında verilmiş nitq aktının iştirakçılarına və ya nitq situasiyasına istinadı ehtiva edir. Qədim yunan dilindən (δεῖξις-işarə) termin kimi alınıb işlənən deyiksis "dilçilikdə leksik və qrammatik vasitələrlə ifadə olunan dil vahidinin mənası və ya funksiyası kimi göstəricidir" [2]. Dil işarəsindən bəhs edən Ə. Rəcəbli dilin "fikir ifadə edən işarələr sistemi" olmasını qeyd edir [3, s.94].

Belə ki, nitq aktının iştirakçılarına və yaxud nitq situasiyasına deyiktik funksiya daşıyan əvəzliklərin vasitəsi ilə istinad olunur. "Deyiksis dilçilikdə müəyyən sözlərin və ifadələrin mənasının nitqdə kontekstual informasiyasını tələb edən hadisədir" [4]. Kontekstual ifadə deyəndə kontekst daxilində müəyyən məfhumların işarə edən sözlər altında verilməsi və yalnız kontekstin iştirakçılarına aydın və bəlli olması nəzərdə tutulur. Məsələn:

"Good heavens! cried Elizabeth.-but how could that be?" [9].

"-İlahi!- Elizabet səsləndi.-Bu görünməmiş haldır!" [10].

Həm ingilis dilində, həm də Azərbayvan dilində verilən bu diskursiv parçada ingilis dilində "that", Azərbaycan dilində isə "o, bu" işarə əvəzliyi ilə tərcüməsi kontekstdən kənar heç bir məlumat vermədən implisit halda nəyə isə bir işarə edir. Ancaq nə olduğu sözsüz ki, kontekst, yaxud mətnin davamı olmasa, aydın olmur, bilinmir. Yalnız mətn davam olunanda söhbətin nədən getdiyi aşkarlanır. Mətnin davamında:

"-How could his will be disregarded?" [9]

"-Mister Darsi atasının iradəsinə necə etina etməyə bilər?!" [10] verilən izahda artıq "that" "o, bu" deyiktik vahidlərinin əvəz etdiyi diskursun mənası aşkar olunur.

Ümumiyyətlə, deyksis nitq aktının iştirakçılarını- danışanı və dinləyəni, məkanını və vaxtını daxil edən tipik nitq şəraitinin əsas komponentlərinin göstərilməsini reallaşdırır. Başqa sözlə desək, "deyiksis termini nitq iştirakçılarını, cari nitq hadisəsinin məkanını və nitq iştirakçılarını da daxil edən situasiya və ya diskurs kontekstinin elementlərini göstərmək üçün işlədilən linqvistik ifadələrin sinfinə aid edilir" [4]. Məsələn:

"-We are not on friendly terms, and it always gives me pain to meet him, but I have no reason to avoid him but what I might proclaim to all the world, a sense of very great ill-usage, and most painful regrets at his being what he is…His behavior to myself has been scandalous, but I verily believe I could forgive him anything and everything, rather his disappointing the hopes…" [9]

"-Biz dost münasibətində deyilik və onu görmək həmişə mənə ağırdır. Ancaq ondan qaçmağımın bütün dünyaya açıb deyə biləcəklərimdən başqa heç bir səbəbi mövcud deyil. Bir də onun belə bir insana çevrilməsi məni dözülməz ağrıdır. O mənə çox pisliklər edib. Ancaq mən hər şeyi ona bağışlayardım, atasının xatirəsini rüsvay etməsəydi və onun ümüdlərini bu cür puça çıxarmasaydı" [10].

Verilən bu diskursda işlədilən III şəxs tək əvəzliyinin bütün paradiqmaları- he, him, his şəxs və yiyəlik əvəzlikləri kontekstdən kənar diskurs daxilində söhbətin kimdən getdiyini bildirmir. Ancaq he, him, his III şəxs və yiyəlik əvəzliyinin paradiqmaları ilə kodlaşan şəxsin danışanın keçmiş tanışı olduğu və dinləyənə də məlum olduğu anlaşılır.

"Müasir dilçilikdə deyksis nitq aktının iştirakçılarını (danışanı və dinləyəni), yerini və zamanını daxil edən tipik nitq şəraitinin əsas komponentlərinə işarə kimi

başa düşülür. Kommunikativ aktın əsas parametrlərinə müvafiq olaraq deyksisin üç kateqoriyası fərqləndirilir: Şəxs, zaman və məkan deyiksisləri" [5, s.3]. Şəxs deyiksisi əsasən birinci və ikinci şəxs əvəzlikləri mən-I və sən-you əvəzlikləri ilə işarələnir. Məsələn:

"-Do you want to know who has taken it?"

"-You want to tell me, and I have no objection to hearing it." [9].

"Sən billmək istərdin ki, kim orada yaşayacaq?"

"-Sən mənə demək istəyirsən və mənim dinləməyə etirazım yoxdur." [10].

Bu diskurs daxilində birinci və ikinci şəxs əvəzlikləri mən-I və sən-you əvəzlikləri danışanın və dinləyənin özünə işarə edərək işlənirlər. Boş şifter kimi dəyərləndirilə bilən mən-I və sən-you əvəzlikləri danışanın kim olmasından asıllı olaraq dəyişə bilirlər. Belə ki, "-Do you want to know who has taken it?" sual cümləsi ilə müraciət edən nitq aktı iştirakçısı öz həmsöhbətinə "you" deyə müraciət edir. Onun həmsöhbəti, yəni nitq aktı iştirakçısı olan dinləyən də eyni zamanda öz həmsöhbətinə cavabında eyni əvəzliklə ona müraciət edir. Buradan aydın görünür ki, referentiv vahidlər olan əvəzliklər şifter rolunu oyanaya bilir, yəni nitq situasiyasından asılı olaraq danışanın həmsöhbətinə "you" "sən, siz" ikinci şəxs əvəzliyi ilə müraciət etməsi həmsöhbətlərin hansının danışan, hanısını dinləyən olmasından asılıdır. Kontekst daxilində danışan rolunu oynayan şəxs həmsöhbətini deyiktik vahid "you" "sən, siz" ikinci şəxs əvəzlikləri ilə işarə edəcək. Qeyd etmək lazımdır ki, əsas məna yüklü nominal vahidlərdən, yəni leksik məna daşıyan sözlərdən fərqli olaraq deyktik funksiyalı əvəzliklərin daşıdığı məna işləndikləri kontekstdən birbaşa asılıdır.

"Sən billmək istərdin ki, kim orada yaşayacaq?" diskursiv parçada məkan deyiksisi "orada" əvəzliyi ilə işarələnmişdir. Belə ki, "orada" deyiktik vahidi kontekst iştirakçılarına yaxşı bəlli olan hansısa yeri, məkanı işarələyir. Yaxud:

"I wonder whether he is likely to be in this country much longer." [9].

"Bəs mister Darsi buralarda uzun müddət yaşayacaq?" [10].

Bu diskursiv parçada ingilis dilində verilən "in this country" məkan bildirən birləşmə Azərbaycan dilində "buralarda" məkan deyiksisi ilə transformasiya edilir. Azərbaycan dilində işlənən "buralarda" məkan deyiksisi ilə diskursun iştirakçılarına əvvəlcədən məlum olan məkan işarələnir.

Zaman deyiksis kimi "o" işarə əvəzliyinin işlənməsinə nəzər salaq: "-Ancaq onda onun üçün hansı səbəblər ola bilər?" [10]. "Onda" zaman deyiksisi hansısa ilin, hansısa ayın, hansısa gününə işarə edir və duskurs iştirakçıları- dinləyən də, danışan da həmin zamandan xəbərdardılar.

Müxtəlifsistemli dillər olan Azərbaycan və ingilis dilləri "deyiktiklər" və ya "deyiktik ifadələr" kimi öyrənilən vahidlərlə zəngindir. Belə ifadələrə diskurs daxilində öz işləklikləri ilə fəallıq göstərən əvəzliklər parlaq nümunədir. Əvəzliklərin semantik mənadan məhrum olması, və yalnız diskurs sərhədləri çərçivəsində deyiktik funksiyanı icra etmək üçün referentiv vahidə çevrilməsi bu orijinal nitq hissəsinin

dilin koqnitiv sistemində əhəmiyyətli rol oynamasına səbəb olur. İnsanın idrakı fəaliyyəti ilə danışıq aktının, nitq aktının, bir sözlə kontekstin, yəni nitq situasiyasının həm işayələdiyi obyekt, həm də işarələnən obyekti ola bilir. Əvəzliklərin diskurs daxilində sərgilədikləri referentiv təbiəti onların deyksisin kodlaşma vasitəsi funksiyasını daşımasına təminat verir. Elə bu səbəb də əvəzliklərin aid olduğu dilin quruluşunda mərkəzi yer tutmasına təkan verir.

Deyiktik markerlər kimi dildə təzahür edən əvəzlik sisteminin səciyyəvi xüsusiyyətləri və onların funksionallığı həmin dilin mühüm səciyyəvi xüsusiyyətləri ilə sıx bağlı olur. Əvəzliklərin deyiktik işarələr kimi davranış sərgilədiyindən bəhs edən F. Veysəlli onların ostensiv təbiətini diqqət önünə çəkir və dialoqda Azərbaycan dilinin əvəzliklər sistemindən birinci və ikinci [mən] və [sən] şəxs əvəzliklərinin işarələmə funksiyasını yerinə yetirdiyini qeyd edir [6, s.37-39]. Deyiksisin "cümlədə və söyləmdə adı çəkilən obyekt və şeylərə mövqe bildirmək" [7, s.194] olduğunu qeyd edən F. Veysəlli "linqvistik strukturda bu mövqeyin bildirilməsinə deyiktik ifadə deyildiyini" [7, s.194] qeyd edir. Sözsüz ki, ünsiyyət zamanı, dialoji nitq iştirakçıları hər hansı bir obyekt haqqında müəyyən məlumat almaq almaq məqsədilə həmin obyekti işarələyib söruşurlar: "Bu nədir?" "What is this?" Nitq aktının iştirakçısı da işarələnən obyektə işarə edərək cavab verir: "Bu qutudur". "This is a box". Məkan baxımından nisbətən uzaqda yerləşən obyekt haqqında soruşanda yenə nitq iştirakçısı, yəni danışan dinləyəndən işarələnən obyekt haqqında lazımı informasiya toplamaq məqsədilə soruşur: "O nədir?" "What is that?" Nitq aktının ikinci iştirakçısı, dinləyən şəxs işarələnən obyektə baxaraq cavab verəndə obyektin məkanca birinci obyektdən uzaq məsafədə yerləşdiyinə işarə edən referentiv vahid olan deyiksisdən istifadə edir. "O kitabdır". "That is a book". Göstərilən nümunələrdə işarələnən obyekti göstərmək üçün nitq aktı iştirakçılarından həm danışanın, həm də dinləyənin işlətdikləri Azərbaycan dilində "bu" və "o", ingilis dilində də "this" və "that" işarə əvəzlikləri ostensiv təbiətli işarələyici sözlər, başqa sözlə desək, deyiksislərdir. Bu deyiktik vahidlər bir qayda olaraq bir obyekti, bəzən bütöv bir konteksti əvəz edərək həmin kontekstə işarə edir. Məsələn:

"This was invitation enough" [9]. . "Ondan bundan artıq şey tələb olunmurdu" [10]. Birinci cümlədə verilən "this" işarə əvəzliyi əvvəldən danışana məlum olan müəyyən informasiyanı müsahibinə ötürmək istəyinə işarə edərək bütöv bir dikursu əvəz edir. Yəni, "this" işarə əvəzliyi ilə kodlaşan diskursun mətn yaratmaq qabiliyyəti aşkar olur. Həmin cümlənin azərbaycan dilinə transformasiya edilən qarşılığında "bundan"- çıxışlıq halda olan "bu" işarə əvəzliyinin də mətn yaratma özəlliyini əks olunur.

Deyiksislər canlı danışıqda, nitq prosesində həm böyüklərin, həm də kiçik yaşlı uşaqların nitqlərində fəal şəkildə işlətdikləri linqvistik vahidlərdir. Deyiktik vahidlər F. Veysəllinin də qeyd etdiyi kimi yaşlı insanlara nisbətən "kiçik yaşlılar şəxs (mən, məni, sən, səni və s.), məkan deyiksisini daha çox işlədirlər" [7, s.194].

Əlbəttə ki, böyüklərdən fərqli olaraq kiçik yaşlı uşaqlarda onları əhatə edən aləmə tam bələdlik, gerçəkliyin predmetləri ilə mükəmməl tanışlıq yetərli reallaşmadığı üçün az yaşlı individ üçün işarələyici sözləri intensiv işlətmək adi haldır. Belə ki, vacibliyi "linqvistik və fiziki" kontekstdə vurğulanan [7, s.194-195] belə işarələr müəyyən kontekst daxilində, müəyyən situasiya çərçivəsində nitq aktı iştirakçılarından danışana da, dinləyənə də məlum olan insanlar, obyektlər və onları əhatə edən digər şeylər haqqında söhbət gedəndə işləklik qazana və nitq prosesində reallaşa bilirlər.

"Referensiyanın söyləmin mənasının kontekstlə şərtlənən aspekti" [8, s.311] olduğunu qeyd edən C. Layons verilən ifadələrin "aktual referensiya məqamlarının kontekstual faktorlardan asılı olduğunu" [8, s.311] bildirir. Bu baxımdan əlavə leksik mənaya malik olmayan, başa sözlə desək müstəqil semantikadan məhrum olan və şifter sözlər kimi nitq prosesində fəallıqları ilə seçilən əvəzliklərin referentiv vahidlər kimi davranış sərgilədikləri danılmaz olduğundan onların kommunikasiya prosesində anlaşılması kontekstə bağlanmış olur. Yəni, kontekstdən kənar əvəzlik termini altında işarələnmiş sözün mahiyyəti bəlli olmur. Əvəzliklərin indeksallıq və deyktik funksiyasından bəhs edən C. Layons "etimoloji cəhətdən indeksallıq və deyksisin jest referensiyasına əsaslandığını" [8, s.317] vurğulayır. Latın dilində şəhadət barmağına deyilən "indeks" [8, s.317] (*ingilis dilində: index finger*-kursiv mənimdir-Ə.M.) terminindən yaranan indeksallıq deyksisin bir növü kimi çıxış edərək nitq zamanı, komminukasiya prosesində nitqə aydınlıq gətirmək. Nitqi daha da anlaşılan etmək məqsədi ilə ünsiyyət zamanı jestlərdən istifadə etmək, şəhadət barmağı ilə obyektləri işarələyərək dialoq aparmaq nitq iştirakçıları olan danışan və dinləyənin nitq fəaliyyəti çərçivəsində olur. Bu zaman əvəzliklərdən şəxs və işarə əvəzlikləri xüsusi indeksallıq və deyiktiklik sərgiləyirlər. Məsələn: "I should not object to taking you both, as you are neither of you large".-"You are all kindness" (Ceyn Ostin) [9]. "Mən hətta ikinizi də götürə bilərdim-axı siz çox arıqsınız"-" Siz qeyri-adi dərəcədə xeyitxahsiniz" [10]. Verdiyimiz bu nümunədə "I" (mən) və "you" (siz) birinci şəxs tək və ikinci şəxs cəm əvəzliklərinin kontekstdən kənar mənasının anlaşılmaz olduğu, yalnız diskurs daxilində aşkarlandığı, kontekstlə bağlı olaraq hansı şəxslərə aid olduğu və indeksiallıqla onlardan yalnız birini deyil hər ikisini nəzərdə tutduğu məlum olur.

Beləliklə, leksik- qrammatik mənaya malik olan əvəzliklərin deyiktik funksiya daşıması onların referentiv təbiətindən qaynaqlanır. Belə ki, özlərinin leksik semantikası yoxluğundan ən çox şəxs və işarə əvəzlikləri müəyyən verilən kontekst çərçivəsində nitq prosesində danışana və dinləyənə məlum olan obyektləri işarələmək üçün kommunikasiya aktında fəallığı ilə seçilirlər. Deyiksis şəxs, məkan və zaman kateqoriyalarına ayrılır ki, bu kateqoriyalar kontekst daxilində deyiktik vahidlər kimi fəallıq göstərən, deyiktik funksiyalı əvəzliklərlə işarələnirlər. Kiçik yaşlılarda bu deyiktik vahidlərdən istifadə etmək daha çox müşahidə olunur. Bu deyiktik vahidlərin kodu altındakı sözləri anlamaq üçün kontekstin olması mühüm

şərtddir. Belə ki, bu deyiksislərin işarələdiyi məvhumlar konteks daxilində məlum olur.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Məmmədov A. "Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi". Bakı-"Elm"-2001.
2. Дейксис. https://ru.wikipedia.org/wiki/%D0%94%D0%B5%D0%B9%D0%BA%D1%81%D0%B8%D1%81
3. Rəcəbli Ə. "Struktur dilçilik". Bakı-"Nurlan"-2005.
4. Deixis. http://en.wikipedia.org/wiki/Deixis.
5. Талески А. "Специфика дейктической функции местоимения я в политическом дискурсе русского и чешского языков (на материале чешского национального корпуса)". 2020. https://www.researchgate.net/publication/344224923
6. Veysəlli F. "Semiotika". Bakı-"Mütərcim"-2010.
7. Veysəlli F. "Struktur dilçiliyin əsasları". Bakı-"Mütərcim"-2009.
8. Layons C. "Linqvistik semantika: Giriş". Bakı-"Prestige çap evi"-2014.
9. Austen J. "Pride and Prejudice". London-"Wordsworth Classics"-1999.
10. Ostin C. "Qürur və qərəz". Bakı-"Əli və Nino nəşriyyatı"-2014.

ASADOVA M.N.

THE PRONOUNS WITH DEICTIC FUNCTIONS

SUMMARY

The article deals with the deictic function of pronouns. It is noted that pronouns differ from not having a lexical meaning. They serve as references in sentences and discourse. The pronouns that are referential units have indicative character. Pronouns are used to denote any object. They perform a deictic function within the sentence. In dialogical speech, deictic units are used to refer to an object that is unknown to the speaker and the listener during the communication. The demonstrative pronouns perform this function. At this time, the deictic unit can change. The reason for such a change depends on the location of objects nearby and far away. The pronouns perform an indexical function. This is their behavior related to gestures. The signified object is also used together with the sign of hands, vision, eyes and other organs. The personal pronouns also perform the deictic function. Their understanding also depends on the context.

АСАДОВА М.Н.

МЕСТОИМЕНИЯ С ДЕЙКТИЧЕСКОЙ ФУНКЦИЯМИ

РЕЗЮМЕ

В статье рассматривается дейктическая функция местоимений. Отмечается, что местоимения отличаются от местоимений, не имеющих лексического значения. Они служат ссылками в предложениях и дискурсе. Местоимения, являющиеся референциальными единицами, имеют указательный характер. Местоимения используются для обозначения любого предмета. Они выполняют дейктическую функцию внутри предложения. В диалогической речи дейктические единицы используются для обозначения предмета, неизвестного говорящему и слушающему во время общения. Эту функцию выполняют указательные местоимения. В это время может меняться дейктическая единица. Причина такого изменения зависит от расположения объектов вблизи и вдали. Местоимения выполняют индексиальную функцию. Это их поведение, связанное с жестами. Означаемый предмет употребляется также вместе со знаком рук, зрения, глаз и других органов. Личные местоимения выполняют также дейктическую функцию. Их понимание также зависит от контекста.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Musəvi Zülfiyyə Qabil qızı, dosent, fil.ü.f.d.
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏRYƏM ƏSƏDOVA NAMİQ
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
Bakı şəhəri, H. Cavid prospekti,115
e-mail: maryam.asadova29@gmail.com

FELİ XƏBƏRƏ MALİK OLAN CÜMLƏLƏRDƏ ASPEKTUALLIQ

Xülasə

Feil əsas nitq hissəsi kimi unikal xüsusiyyətlərə malikdir. Feil məlumatı çatdırmaq üçün müəyyən morfoloji funksiyaları və cümlədə zəruri elementləri təyin etmək üçün bəzi sintaktik funksiyaları özündə cəmləşdirir[3.səh.118]. Dilçiliyin funksional sahəsinin predmeti kimi nitq hissələri bölməsinin əsas komponenti olan feil aspektuallıq anlayışı ilə xarakterizə olunur. Feil və feilin tərz kateqoriyaları aspektuallıq vasitəsilə real təsir imkanları əhatə edir. Aspektuallıq, bir qayda olaraq unikal xüsusiyyətlərə malik olub zaman anlayışı ilə də sıx əlaqədardır. Aspektuallıq, ənənəvi olaraq tarixən mövcud olan, hər dildə fərqli şəkildə ifadə olunan anlayışdır. Aspektuallıq praqmatik kateqoriya qismində də çıxış edir, başqa sözlə təsvir etsək, praktikada xüsusi olaraq istifadəsi təmin edilir. Funksional dilçilik qrammatikası və praqmatikanın mövzusu olan aspektuallıq əksər dillərdə felin tərzini tənzimləyir. Əksər dillərdə isə aspektual kateqoriya zaman formalarından biri kimi təqdim olunur. Dilçiliyin müasir inkişaf mərhələsi aspektual kateqoriyaları onun dəqiq sərhədlərini müəyyən edir. Əksər hallarda aspektuallıq zamanın daxilində öyrənilib tədqiq edilir. Bu zaman aspektuallıq anlayışı hərəkət axınının xüsusiyyətlərini təcəssüm etdirir.

Açar sözlər: aspektuallıq, feil, feili xəbər, feillərdə tərz kateqoriyası

АСПЕКТУАЛЬНОСТЬ В ПРЕДЛОЖЕНИЯХ С ГЛАГОЛОМ

Резюме

Как основная часть речи глагол характеризуется уникальными особенностями. Глагол включает в себя определенные морфологические функции по передаче информации и некоторые синтаксические функции по определению необходимых элементов в предложении [3. с. 118].Глагол, являющийся основным компонентом деления частей речи, являющегося функциональной областью языкознания, определяется понятием аспектуальности. Глаголы и глагольно-модальные категории приобретают реальное влияние через аспектуальность. Аспектуальность, как правило, обладает уникальными свойствами и тесно связана с понятием времени. Аспектуальность – традиционно исторически существующее понятие, выраженное в каждом языке по-разному. Аспектуальность является прагматическим исследованием категории и специально предусмотрено ее

использование на практике. Аспектуальность, предмет разделов грамматики и прагматики функциональной лингвистики, также управляет временем глагола в большинстве языков. Видовая категория представлена как одна из временных форм. Видовые категории языкознания на современном этапе развития определяют его точные границы. В большинстве случаев аспектуальность приобретается со временем. Эта концепция воплощает в себе особенности транспортного потока. Исторически изучение аспектуальности обеспечило конкретное применение на практике в качестве прагматической категории. Аспектуальность - предмет разделов грамматики и прагматики функциональной лингвистики - узко представлена в большинстве языков.

Ключевые слова: лингвистика, речь, аспектуальность, глагол, глагольная новость, категория образа действия в глаголах

Aspectuality in sentences with verbal predicates

Summary

As the main part of speech the verb is characterized by unique features. The verb includes certain morphological functions to convey information and some syntactic functions to determine the necessary elements in the sentence [3. p. 118]. The verb, which is the main component of the division of parts of speech, which is a functional area of linguistics, is defined by the concept of aspectuality. Verbs and verb-modal categories gain real influence through aspectuality. Aspectuality, as a rule, has unique properties and is closely related to the concept of time. Aspectuality is a traditionally historically existing concept, expressed differently in each language. Aspectuality is a pragmatic category study and its use in practice is specifically provided. Aspectuality, the subject of the grammar and pragmatics sections of functional linguistics, also governs verb tense in most languages. The aspectual category is presented as one of the tense forms. Aspectual categories of linguistics at the modern stage of development determine its exact boundaries. In most cases, aspectuality is learned over time. This concept embodies the characteristics of the traffic flow. Historically, the study of aspectuality has provided a specific use in practice as a pragmatic category. Aspectuality, the subject of grammar and pragmatics sections, functional linguistics, is narrowly represented in most languages.

Key words: linguistics, aspectuality, verb, verbal predicate, category of manner in verbs

Dilin həm təcrübi, həm də nəzəri baxımdan tədqiqi böyük əhəmiyyət kəsb edir. Dilçiliyə dair bir sıra mürəkkəb xüsusiyyətlər var. Onları yalnız qarşılıqlı şəkildə tədqiq etdikdə istənilən nəticə əldə etmək mümkündür. Belə sahələrə misal kimi modallıq, temporallıq, aspektuallıq və s. göstərə bilərik. Tədqiqatlar tarixi boyunca, bir çox tədqiqatçının diqqətini cəlb edən aspektuallıq dilçilik tarixinin ən

qədim sahələrindən biri olub nitq hissələrinin feil növü haqqında məsələlərə məntiqi və məqsədli yanaşmanı özündə ehtiva edir. Aspektuallıq, müvafiq mövqe mahiyyəti daşıdığından feil növlərinin kateqoriyasını və mövcud semantik əlaqələri öyrənir. Aspektuallıq həmçinin modallığı da ehtiva etdiyindən nitqin ümumi məzmununun xarakterini müəyyənləşdirir. Aspektuallıq fellərin təhlilini praqmatik yolla izah edir. Aspektuallıq, bitkin fikir ifadə edən fellərlə işlənir, prosesin davamını ifadə edən feillərlə isə təfsir olunur. Belə olan halda fellərdən sonra xətti ardıcıllıqla ifadə olunan fikir işlənə bilər. Semantik baxımdan bir-birinə yaxın olan əsas fellərin arasındakı ziddiyyətin təhlili aspektuallığın əsas obyektini təşkil edir.

İlk dəfə rus filoloq A.V.Bondarko tərəfindən işlənib hazırlanan funksional qrammatika nəzəriyyəsinə əsaslanaraq aspektuallığı bu cür şərh edə bilərik. "*Aspektuallıq – hərəkətin zamanla necə axmasını və paylanmasını səciyyələndirən semantik kateqorik əlamət kimi xarakterizə olunur*". Aspektuallıq həm ierarxik təşkil edilən tərkib kimi, həm də, bu tərkib hissəsini təşkil edən bütün komponentlərin qarşılıqlı təsiri kimi bir çox dilçilər tərəfindən tədqiq edilmişdir. Bu mövzu haqqında olan əsərlər daha çox rus dilçilərinə aiddir. Onlara misal kimi, M.Y. Qlovinskaya, O.K. Qrekova, A.M. Lomov, S.Maslova və başqalarınının tədqiqatları böyük maraq doğurur. İngilis dilçilərindən B. Komri, R.İ. Binnik, H. J. Verkul və s.; italyan dilçilərindən P.M.Bertinetto, M.Berretta, F. Rosi və s. bu mövzuya diqqət ayırmışlar.

Aspektuallığı xarakterizə edən və onun əsas tərkib hissəsi olan aspekt də daim dilçiliyə dair tədqiqatlar zamanı diqqət mərkəzində olmuşdur. Bu barədə britaniyalı dilçi B. Komrinin fikirlərinə nəzər yetirək. "Aspekt söyləm anından asılı olmayaraq situasiyanın daxili zaman strukturu ilə bağlı məlumatları kodlaşdırır" Onun fikrincə, zaman və aspekt bir-birindən tamamilə fərqlənir. Məsələn, italyan dilində lui ha letto. (o oxudu) və lui leggeva (o oxuyurdu.), yaxud ingilis dilində he was reading (o yazırdı) və he read (o yazdı.) – bu cümlələr arasındakı fərq zamanla yox aspekt ilə əlaqəlidir. Çünki hər iki dildə verilən iki nümunə də keçmiş zamana xasdır. Belə olan halda da, zamanla aspektin fərqli olduğunu görürük. Düzdür, müxtəlif dillərin qrammatika kitablarında onları keçmiş zaman formaları kimi qələmə versələr də, Komri təkidlə bu kimi cütləri bitmiş və bitməmiş tərz kimi qəbul etmə tərəfdarı idi. Fransız linqvisti olan Holtun "aspekt hadisələrin gedişatını anlama üsullarıdır." tərifinə istinadən Komri deyilənləri ümumiləşdirərək aspektə qısaca bu cür şərh vermişdir. "Aspekt hansısa bir hadisənin, situasiyanın daxili temporal ardıcıllığını görə bilmək üçün müxtəlif baxış üsuludur."

Aspektuallıq müasir dil üslubunun formalaşmasında əsas rol oynayır və özünəməxsus daxili qaydalara malikdir. Morfoloji baxımdan diqqət yetirsək, məlum olur ki, dilin lüğət tərkibində ən geniş işləklik imkanlarına malik olan nitq hissəsi feildir[5. səh. 30]. Feil, əsas danışıq bölməsi olaraq həm ədəbi, həm də məişət üslubunda istifadə olunur. Feil, nitqə emosional-ekspressiv məna aşılayır və ona sintaktik baxımdan səciyyəvi xüsusiyyət qazandırır. Feil o qədər geniş bir sahəni əhatə edir ki, həm qədim qrammatiklər, həm də müasir dilçilər bununla bağlı

müxtəlif genişmiqyaslı tədqiqatlar aparıb müxtəlif cür tərif vermişlər. Onlar arasında bəzi geniş yayılmış müddəalara nəzər salaq. İtalyan dilçilərindən feili şərh edərkən, bu cür izah edirlər. "Hind- Avropa dillərində feil qrammatik vasitələrlə və bəzi analoji üsullarla zaman, aspekt, tərz, şəxs, növ və kəmiyyət bildirir. Bu proses aşağıdakı yollarla baş verir;

1. müəyyən suffikslərin köməyi ilə və ya feil kökünün son saitinin dəyişmə yolu ilə. Məsələn; "andare" (getmək) feilinin indiki zamanda şəxsə görə təsriflənməsi buna bariz nümunədir. Belə ki, feil kökü dəyişikliyə uğrayaraq, -*vado, vai, va*,... kimi şəxsə görə dəyişir.
2. feilin fleksiyaya uğraması və təsriflənməsi yolu ilə. Məsələn: "scrivere" (yazmaq) feili -*loro scrivono* formasında zaman, şəxs, kəmiyyət, növ ifadə edir. [8]

Feil əsas nitq hissəsi kimi dil üslubunu zənginləşdirir və fərdiliyi təmin edir. Kateqoriya baxımından feil morfologiyanın çoxmənalığını və frazeoloji birləşmələrin yaranmasını tənzimləyir. Feil, əsasən bir fikrin digər şəxsə bitmiş mənada çatdırılmasını təmin edərək cümlənin tamamlanmasını reallaşdırır. Əsas nitq hissəsi kimi feilin səciyyəvi xüsusiyyətlərini daha aydın şəkildə müəyyən etmək üçün dilçiliyin digər sahələri ilə diferensial şəkildə tədqiq etmək tələb olunur. Hərəkət bildirən nitq hissəsi kimi feilin qanunauyğunluqları və lüğəvi mənaları aspektuallıq vasitəsiylə çoxkateqoriyalı kompleks olaraq təhlil edir. Müvafiq təsriflənmə formaları ilə yəni, əmr, xəbər, arzu, lazım, vacib, şərt və frazeoloji birləşmələrlə işlənən xəbər növü vardır ki, ona feili xəbər deyilir[2. səh. 116]. Feili xəbər cümlə hüdudları çərçivəsində hərəkət bildirir. Aparılan tədqiqatlara nəzər saldıqda məlum olur ki, feil nitq hissəsi olaraq cümlənin əsas tərkibini təşkil edən parametrləri konstruktiv olaraq əlaqələndirdiyi kimi feili xəbər də, cümlədə bir-biri ilə fərqli məna kəsb edən iki fikir olduqda oxşar meyillərin təzahürü şərtlənir. Bundan əlavə, predikatlar (dilçilikdə feili xəbər həm də bu cür adlanır) həmişə məntiqi-semantik funksiyanı yetirir və digər cümlə üzvü olan tamamlığı seçib idarə edən və cümlə ilə rabitəsini təmin edən element kimi təsvir edilir. Onlar həm də aktantlara tematik rolların təyin edilməsində iştirak edir; başqa sözlə, təsvir etmək lazım gələrsə, predikatlar vasitəsiylə təsvir edilən məzmun şəxs, zaman, aspekt və modallıq kimi qrammatik vasitələrlə ifadə olunur və kommunikativ akta uyğun olaraq zaman-məkan hüdüdlarını icra edir. [7]

Aspektuallıq isə feil ilə ifadə olunan xəbərin semantik subyektlərini müəyyənləşdirir. Feil, cümlənin konseptuallaşdırma üsulu ilə təhlilinə şərait yaradır. Yəni, hadisələrin danışan tərəfdən izahı təklif olunur. Cümlənin aspektual baxımdan təhlili də bütün nominal arqumentlərin səbəb-nəticə əlaqələrini tənzimləyir. Aspektuallıq baxımından məlumatların təhlili daha çox konstruktiv səciyyəyə malik olur. Feilin xəbər və ya hərəkət baxımından təhlili bu mərhələləri əhatə edir: başlanğıc, davam, sonladırma.

Hər hansı bir hadisənin müəyyən edilməmiş bir müddət ərzində təkrarlanmasının elmi dildə təfsiri də feil sayəsində mümkün olur. Aspektuallıq faktoru bu və ya digər şəkildə türk dillərində də vardır. Ancaq bir çox dünya dillərində olduğu kimi ümumtürk dilində aspektullığın konkret bir kateqoriya olaraq morfoloji göstəriciləri yoxdur [6. səh.21]. Yəni bir üst səviyyədə müəyyənləşdirilən aspektlər aspektuallıq, zaman, səbəbiyyət və s. semantik kateqoriyalara görə bir-birindən seçilməlidir. Bir alt səviyyədəki aspektlər isə hər şeydən öncə, kateqoriya qurucu əlamətlərə görə müəyyən olunmalıdır. Bunlar qrammatik, leksik və leksikoqrafik xarakterli təsnifləndirici, şəkilləndirici sözdüzəltmə morfoloji əlamətləri və felin növ şəkilçiləri və ya hal, felin zaman, şəkil sözdəyişdirici şəkilçilərinə və s. görə bir-birindən ayrılmalıdır [6. səh.24].

Feil hal-hərəkətin icra olunmasını sona qədər izləyir və cümlənin morfoloji üsulunu təyin edir. Bu baxımdan feilin müvafiq tərzi və ya sintaktik kateqoriyası məsələsi diqqəti cəlb edir. Feilin tərz kataqoriyası tərz şəkilçilərinin köməyilə tənzimlənir. Qeyd edək ki, feilin tərz kateqoriyası əsasən 2 üsulla(morfoloji və sintaktik) əmələ gəlir[5. səh.116]. Morfoloji üsulla tərz mənasının yaranması üçün tərz şəkilçiləri adlandırılan xüsusi şəkilçilərdən və zaman şəkilçilərindən istifadə olunur. Zaman şəkilçiləri ilə ifadə olunan işi icra olunub qurtarmasına və bitib-bitməməsinə görə iki qrupa ayırmaq olar:

1. işin icra olunub bitdiyini göstərənlər;
2. işin bitmədiyini – davam etməkdə olduğunu və ya başlanmadığını göstərənlər.

Birinci qrup işin icra olunub bitdiyini göstərən tərz, bitmiş tərz adlanır: yazdım, yazdı, yazmısan, yazmışıq, yazıbsan, yazmışdınız, yazmışmış və s. İkinci qrup işin icrasının başlandığını, lakin bitmədiyini, davam etməkdə olduğunu və ya icrasına başlanmadığını göstərən tərz, bitməmiş tərz adlanır: yazıram, yazırmışsan, yazardım, yazarmışsan, yazmaqdayam, yazmaqdayıq yazmaqda idiniz, yazmaqda imişsən; yazacağam, yazarsan, yazsın, yazmalıdır, yazasıdır, yaza, yazsalar və s. Bir sıra şəkilçilər hərəkətin kəmiyyət şəklinin dəyişməsinə səbəb olur və hərəkətin sürəkliliyini, təkrar-təkrar və davamlı şəkildə icrasını bildirir. Bu şəkilçilər bir neçə sözlə, bəzən bir-iki feillə işlənir. Bunlar mahiyyət etibarı ilə sözdüzəldici şəkilçilərdir:

-ala, -ələ şəkilçisi: eşmək – eşələmək, ovmaq – ovalamaq, və s.

-ın, -in, -un, -ün şəkilçisi: yaymaq – yayınmaq, döymək – döyünmək, çırpmaq – çırpınmaq, demək – deyinmək və s.

-ıx, -ik, -ux, -ük şəkilçisi: durmaq – duruxmaq

döymək – döyükmək, keyimək – keyikmək, bezmək – bezikmək və s.

- la, -lə şəkilçisi: tapdamaq – tapdalamaq, çalxamaq – çalxalamaq və s.

-ış, -iş şəkilçisi: yazmaq – yazışmaq və s.

-ı, -i şəkilçisi: qazmaq – qazımaq, sürmək – sürümək və s.

Sayca az olan bu şəkilçiləri qəbul edən sözlərdə də işin icra olunub qurtarması, bitib bitməməsi zaman şəkilçiləri ilə müəyyənləşir. Məsələn: qovladı – bitmiş tərz; qovlayır – bitməmiş tərz.

Sintaktik üsulla tərz mənasının yaranması üçün analitik feillərdən istifadə edilir. -ıb, - ib, -ub, -üb; -araq, -ərək; - a-a, -ə-ə şəkilçili feli bağlama şəxsli feillə birləşərək analitik forma əmələ gətirir [4. səh214]. Məsələn: duruxub durmaq; ağlayaraq gözləmək; baxa-baxa qalmaq və s.

Aspektuallıq və ya felin tərz kateqoriyası faktına və onun dilin qrammatik səviyyəsində ifadəsinə bağlı olaraq əldə edilən birinci nəticə türkoloji dilçilikdə dövrünə görə o zamanlar yeni bir elmi-metodik kəşf səciyyəsi daşıyırdı. İkinci nəticə isə türkoloji dilçilikdə daha "Altay dilinin qrammatikası" əsərindən etibarən mövcud idi. Beləliklə, 1950-ci illərin sonu və 1960-cı illərdən etibarən sözügedən fenomen, yuxarıda da göstərildiyi kimi, artıq sadəcə qrammatika səviyyəsində deyil, öncə leksik və sintaktik olaraq, günümüzdə isə kontekstual və konseptual baxımlardan da işıqlandırılmaqdadır [13. səh.128].

İtalyan dilində aspektuallığın ifadə vasitələri kimi *stare per* +*məsdər*(nəsə etməyə başlamaq, hazırlaşmaq),*smettere di* +məsdər (nəyisə etməyi dayandırmaq) və s.kimi feli birləşmələr iştirak edir. Məsələn:

- *Lui sta uscendo.* – O çıxmaq üzrədir.yəni o, çıxmağa hazırlaşır.
- *Lucia e Ugo Hanno smesso di fumare.* – Luçia və Uqo siqaret çəkməyi dayandırıb(tərgizib)

Aspektuallığın feilin tərz kateqoriyası və semantik tərzin müəyyən edilməsi ilə bağlı olduğunu da qeyd etmək vacibdir. Danışanın söyləmin məzmununa münasibətini xarakterizə etdiyi üçün aspektuallıq bu baxımdan modallıq kateqoriyası ilə oxşardır [1. səh.376].

Ənənəvi qrammatikada feli xəbər modallıq və aspektuallıq ifadə edən element qismində çıxış edir. Xəbər deyilən və ya təsdiq edilən əsas cümlə üzvü olub yüksək semantik sıxlığa malik element kimi xarakterizə olunur. Onu cümlədən çıxardıqda, cümlənin nəinki qrammatik norması pozular, həm də cümlə özünün informativ funksiyasını itirər. Feilə və feili xəbərə məxsus yaxud onunla sıx əlaqədar cümlələrin leksik, morfoloji və sintaktik müstəvidəki əlamətləri aspektuallıq baxımından təhlil oluna bilər. Belə ki, feili xəbərdə aspektuallıq cümlədə yeni mənaların yüklənməsi nəticəsində müvafiq kateqoriya səviyyəsi əldə edir. Cümlədə sözlərin dəyişdirilməsi müvafiq formaların yaranmasını şərtləndirir və aspektuallıq koqnitiv olaraq yeni bir tərz kateqoriyası səviyyəsini əldə edir. Qrammatik kateqoriyaların ifadə olunmasında funksional baza təşkil edən feil xəbərin müvafiq olaraq təsriflənməsinə xidmət edir.

Ədəbiyyat siyahısı

1. Abbasov, İ.Ə., Kazımbəy M.A. Türk-tatar dilinin ümumi qrammatikası (Azərbaycan dilinin ilk elmi qrammatikası). Bakı: Zərdabi LTD MMC, – 2017 – 1007 s.
2. Abdullayev Ə., Seyidov Y., Ağamalı H., Müasir Azərbaycan dili,IV hissə. Sintaksis. Bakı, "Şərq-Qərb", 2007, 424 s
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. (Morfologiya). III hissə. Bakı, 2007.
4. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, «Nurlan», 2010, 400 s
5. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild . Bakı, 2019. 464 s.
6. Musayev M.M. Türkoloji dilçilik. Bakı, 2012. 441 s.

İnternet saytları

7. https://digilib.phil.muni.cz/sites/default/files/pdf/114837.pdf
8. https://www.treccani.it/vocabolario/verbo/

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.ü.d. Günel Bayramova
tərəfindən çapa tövsiyə olunmuşdur

ABDULLAYEVA CƏMİLƏ RAMİZ QIZI
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
jamila-aul@mail.ru

İNGİLİS DİLİNDƏ SOMATİZM KOMPONENTLİ EMOSEMİYALI FRAZEOLOGİZMLƏR

XÜLASƏ

Emosemiyalı frazeologizmlər arasında somatizm komponentli ifadələr xüsusilə diqqəti cəlb edir. Emosiyaların bilavasitə insanın psixikası, emosional durumu ilə bağlılığı, həmin durumların şübhəsiz ki, insan fiziologiyasında əks olunması bədən üzvlərinin adlarının hiss-həyəcan bildirən frazeologizmlərin formalaşmasında aktiv iştirakını şərtləndirmişdir. Belə ki, emosional durum bədən üzvlərində fəsadlara yol açа bilir və bunun nəticəsində hiss-həyəcan bildirən ifadələrin meydana çıxması mümkün olur. Emosional durum bilavasitə bədən üzvlərinin iştirakı ilə kinestetik həll qazanır, yəni bədən dili ilə ifadə tapır və bu zaman müvafiq xarakterli emosemiyalı frazeologizmlər formalaşa bilir.

Dünyanın dil mənzərəsi insanın dünya haqqında təsəvvürlərinə əsaslanır. Əgər dünya – insandırsa və insan – dünya qarşılıqlı münasibətlərindən doğan mühitdirsə, bu zaman dünyanın mənzərəsi mühit və insan haqqında məlumatların təkrar dəyərləndirməsinin nəticəsidir. Bu mənada, insanın ətraf aləmin qavranılması zamanı öz bədəni, bədəninin reaksiyaları prizmasından yanaşması tam anlaşılandır. Başqa sözlə desək, qədim frazeologizmlərdə leksikanın qədim plastının aktivlik nümayiş etdirməsi məntiqə müvafiqdir. Digər tərəfdən söhbət qədim və lakonik ifadələrdən gedirsə, burada allyuzial fona istinad edən frazeologizmlərin deyil, konkret denotatların implikasiya zəncirinin bir tərəfi kimi çıxış etməsindən yaranan metaforalara üstünlük verilməsi vacibdir.

Açar sözlər: emosemiyalı, ingilis dili, komponent, somatizmlər, frazeologizmlər

Emosemiyalı frazeologizmlərin insanın yaşadığı hiss-həyəcanlarla bağlılığı həmin ifadələrin qədimliyinə, metaforik reallaşma baxımından emosional fonla əlaqəli olan implikasiya obyektlərilə müqayisəyə istinad etməsini şərtləndirir. Təsadüfi deyil ki, ingilis dilindəki emosemiyalı frazeologizmlərin komponentar-semantik planda təhlili burada somatizmlər kimi qədim leksik qat say baxımından üstünlük təşkil edir.

"Somatizm" termini F.O.Vakk tərəfindən dilçiliyə gətirilmişdir [5, s.152]. İstənilən dilin frazeoloji sisteminin təxminən 15%-ni məhz somatik ifadələr təşkil edir. "Somatik frazeologizm" termini isə E.M.Mordkoviç tərəfindən dilçilik elminə gətirilmişdir [7, s.244]. Xatırladaq ki, "somatik" termini yunan dilindəki *soma* "bədən" sözünə əsaslanır və "bədənə aid", "bədən üzvü" anlamında işlənir [2, s.23].

N.A.Vlasovanın bildirdiyi kimi, "hələ indiyə qədər bədən üzvlərini adlandıra bilməyən xalq aşkar olunmayıb. Somatizmlər istənilən insan toplumu üçün elə vacib olan anlayış və münasibətləri ifadə edirlər ki, onlarsız insan nitqini təsəvvür etmək mümkün deyil" [6, s.27]. F.O.Vakk haqlı olaraq hesab edirdi ki, insan öz bədən üzvlərini ən erkən mərhələdə adlandırmağa başladığından həmin dil faktlarının yer aldığı frazeoloji vahidlər demək olar ki, bir qayda olaraq, frazeoloji sistemin ən qədim qatında yer alır [5, s.154].

Müəyyən psixosomatik durumlarda insanın özünə təlqini nəticəsində yaşanan psixo-emosional durumlar mövcuddur ki, onlar da özünün metaforik adlandırması, məcazlı nominasiyası ilə (məsələn, ürəkdən daş asılmaq, əsəbdən başına qan vurmaq və s.) seçilir. Qeyd etmək lazımdır ki, "psixosomatika", "psixosomatik (reaksiyalar)" termini yunan dilindəki *psyche* "ruh" və *soma* "bədən" terminlərinin birləşməsi əsasında yaranmışdır. Psixosomatik reaksiyalar bədən və psixikanın üzvü bağlılığını əyani şəkildə nümayiş etdirir. N.M.Popovanın bildirdiyinə görə, bizim nitqimizdə yer alan "(kiminsə) başına çıxmaq", "(kimi isə) həzm edə bilməmək", "kiməsə baş ağrısı vermək", "ürəyi yerində olmamaq" və s. frazeoloji birləşmələr bilavasitə psixosomatik reaksiyaları əks etdirir [9].

İngilis dilinin frazeoloji sistemində somatizm komponentli emosemiyalı ifadələr arasında *head, heart, eye* bədən üzvləri adlarının yer aldığı frazeologizmlər daha çox say üstünlüyü nümayiş etdirirlər. Onların semantik müstəvidə təhlili somatizm komponentli frazeologizmlərin emotivlik anlamını ifadə etməsində müəyyən məna universallıqlarının izləndiyini söyləməyə əsas verir. Azərbaycan və ingilis dillərindəki somatik frazeoloji vahidlərin müqayisəli şəkildə araşdırmasını aparmış Ə.H.Hacıyeva bu məqamı xüsusi diqqətə alaraq yazır: "İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin təhlili göstərir ki, bu sahədə dillər arasında xeyli oxşarlıqlar vardır. Bu oxşarlığı demək olar ki, bir çox dünya dillərinə də şamil etmək olar" [2, s.59]. Bu mənada heç də təsadüfi deyil ki, təhlilə cəlb etdiyimiz bir çox frazeoloji vahidlər Azərbaycan, rus və digər dillərdə tam və ya qismən semantik ekvivalentlərinə malikdirlər.

İngilis dilindəki *head* "baş" komponentli frazeoloji vahidlərin rus, tatar və digər dillərdəki analoqları ilə müqayisəsindən çıxış etmiş L.Sakayeva əksər mədəniyyətlər üçün bu orqanın həlledici vacibliyi ilə bağlı təsəvvürlərin xarakterik olduğunu və bu mövqeyin frazeoloji sistemə sirayət etdiyini bildirmişdir. Dilçi həmçinin ən müxtəlif dillərdə "baş" komponentinin zəngin hisslər qammasının, insanın ruhi vəziyyətinin və onun ətraf aləm və hadisələrə münasibətinin ifadəsinə xidmət edən frazeologizmlərdə, habelə hərəkət və davranışların müsbət və ya mənfi qiymətləndirilməsi ilə və xüsusən də psixi fəaliyyətlə bağlı qiymətləndirmə ilə əlaqədar frazeoloji vahidlərin formalaşmasında sayca üstünlük nümayiş etdirməsi faktını vurğulamışdır [8, s.216]. İzləyəcəyimiz nümunələr arasında həm müsbət, həm də mənfi emosiyaları səciyyələndirən ifadələr mövcuddur.

I. Müsbət semantikalı "head" komponentli ifadələr: *bother/trouble one's (pretty little) head about smb./smth*. "kimə görə isə/nə üçünsə çox narahat olmaq, nigaran qalmaq", *(keep) a cool head* "soyuqqanlı, sakit adam" və s.

II. Mənfi semantikalı "head" komponentli ifadələr: *have a big/swelled head* "təkəbbürlənmə, özünü dartma", *give someone a big head*, *get the big head* "mənəm-mənəm demək, burnunu dik tutmaq, lovğalanmaq, *draw down (anger/scorn) upon one's head* "bir kəsin qəzəbinə tuş gəlmək, bir kəsi hirsləndirmək, bir kəsdə ikrah doğurmaq", *call down the wrath of God on smb's head* "bəd-dua etmək" və s.

"Heart" komponentli emosemiyalı frazeoloji vahidlərə gəlincə, *head* komponentli emosemiyalı frazeologizmlərdən fərqli olaraq, bu qrup ifadələr arasında müsbət semantikalı ifadələr sayca daha çoxdur. Bununla belə, ürəyin insanın emosiya və hisslərinin istinadgahı olması faktı, kədər, sevinc, rahatlıq, sevgi və s. emosional-psixoloji durumların ifadəsi üçün frazeoloji vahidlərin məhz bu komponent ətrafında cəmlənməsinə yol açmışdır. Belə frazeologizmlər həmin orqanın fəaliyyət ritmindəki pozuntuların, qeyri-adi fiziki durumların metaforik təsviri əsasında meydana gəlir [3, s.138].

I. Müsbət emosiyaları səciyyələndirən "heart" komponentli emosemiyalı frazeologizmlər: *give one's heart to smb.* "bir kəsə ürəyini/qəlbini vermək", *the heart that once truly loves never forgets* "bir dəfə həqiqətən sevmiş ürək heç vaxt unutmaz", *close to (near) one's heart* "ürəyinə/qəlbinə yaxın", *after one's (own) heart* "ürəyincə, ürəyə yatan", *from the heart* "səmimi qəlbdən", *with all heart* "ürəkdən, tam səmimi", *a light heart* "şənlik, qayğısızlıq", *an open heart* "açıq ürəklilik, səmimilik", *have one's whole heart in smth.* "ürəyini qoymaq, kimin üçün isə səmimi qəlbdən çox çalışmaq", *do one's heart good* "bir kəsi sevindirmək", *put heart in (into) smb.* "bir kəsin əhvalını qaldırmaq, ruhlandırmaq", *take heart* "ürəklənmək", *pluck up one's heart* "mərdlik göstərmək, ruhdan düşməmək" və s.

II. Mənfi emosiyaları səciyyələndirən "heart" komponentli emosemiyalı frazeologizmlər: *break one's heart* "dərd çəkmək", *break smb's heart* "bir kəsin ürəyini qırmaq", *put smb. out of heart* "bir kəsin inamını qırmaq, bir kəsi sarsıtmaq", *a broken heart* "qırıq qəlb", *wring smb's heart* "(kiminsə) ürəyini sıxmaq", *one's heart is broken* "ürəyi qırıq olmaq", *eat one's heart out* "dinməz-söyləməz əzab çəkmək, qüssədən ürəyini yemək, özünü üzmək" və s.

Somatik frazeologizmlərin nümunəsində dünyanın dil mənzərəsindəki universal və etnospesifik xüsusiyyətləri araşdırmış R.Batsuren "implisit ifadə tapan etnik biliklərin" frazeoloji sistemin formalaşmasındakı həlledici rolunu vurğulayaraq arxetip təsəvvürlərə görə, "göz" komponentinin insan həyatındakı ən dəyərli nəsnə ilə əlaqələndirildiyini önə sürmüşdür. Məsələn, *as an apple of one's eye* "göz bəbəyi kimi" [4, s.14]. Maraqlıdır ki, Azərbaycan dilindəki "göz(ümün) işığı", rus dilindəki "свет очей (моих)" ifadəsinin qarşılığı olan *light of smb's eyes* emosemiyalı frazeologizmi R.Batsurenin dediklərini əyani şəkildə təsdiqləyir. *Eye* komponentli

emosemiyalı frazeologizmləri də müsbət və mənfi emosiyaların səciyyələndirilməsi baxımından fərqləndirsək, aşağıdakı qruplaşdırma ilə qarşılaşacağıq:

I. Müsbət emosiyaları səciyyələndirən və ya pozitiv anlama malik olan ifadələr: *collect eyes* "diqqəti cəlb etmək, gözalıcı olmaq", *feast one's eyes* (*on*) "gözü düşmək", *the desire (light) of smb's eyes* "(kiminsə) gözünün işığı" və s.

II. Mənfi emosiyaları səciyyələndirən və ya peyorativ semantikaya malik olan ifadələr: *do smb. in the eye* "kimi isə aldatmaq, kələk gəlmək", *an eye for an eye and tooth for tooth* "gözə göz, dişə diş", *evil eye* "bəd nəzər, nəfs, (bədxah) göz" və s.

Gözə gəlmək anlayışının universal olması, bir insanın neqativ münasibətinin digər insanın energetik aurasına mənfi təsir göstərməsi fikrinin ən fərqli mədəniyyətlər tərəfindən qəbul edilməsi, "gözə gəlmək, (kiminsə) nəfsinə gəlmək, nəfsi tutmaq" kimi anlayışların digər mədəniyyətlər üçün, o cümlədən də Azərbaycan linqvokulturoloji mühiti üçün yad olmaması *evil eye* emosemiyalı frazeologizminin lakuna olmamasını şərtləndirmişdir [1, s.209].

İngilis dilində tərkibində *finger, hand, foot, face, cheek, neck, stomach və s.* somatizmlərin yer aldığı çox az sayda emosemiyalı frazeologizmlər mövcuddur. Lakin həmin frazeoloji birləşmələr arasında ən fərqli emosiyalar spektrini əhatə edən ifadələrə təsadüf etmək olar: *point the finger of scorn at smb.* "bir kəsə rişxənd etmək, bir kəsə gülmək", *snap one's fingers at smb/smth.* "bir kəsə/nəyəsə saymamazlıq etmək, nəyəsə etinasız yanaşmaq", *the high hand* "yekəxanalıq, təkəbbür", *carry (sweep/take) off his feet* "ümidləndirmək, heyranlıq yaratmaq, başını gicəlləndirmək, həvəs oyatmaq", *cold feet* "qorxaqlıq, cəsarətsizlik", *cast* (*fling/throw*) *smth. in smb's face* "bir şeyi bir kəsin üzünə vurmaq, başına qaxmaq", *give cheek* "söz qaytarmaq, kobud cavab vermək, ədəbsizlik etmək", *a stiff neck* "inadkarlıq, tərslik", *get smb. up on his ear* "bir kəsi qəzəbləndirmək, bərk hirsləndirmək, cin atına mindirmək", *be (get) on one's ear* "qəzəblənmək, hirsindən partlamaq", *curl smb's hair* və ya *make smb's hair curl* "heyrətləndirmək, heyrətə salmaq, mat qoymaq", *as hard as nails* "qəddar, qəlbsiz, hissiyyatsız", *be fed to the teeth* "boğaza yığılmaq, cana doymaq, *be after (out for) smb's blood* "bir kəsin pisliyini istəmək, bədbəxtliyini diləmək", *have no stomach for smth.* "arzusunda, həvəsində olmamaq", *to get butterflies in one's stomach* "bərk həyəcanlanmaq" və s.

Göründüyü kimi, ingilis dilinin frazeoloji sistemində insanın müsbət və ya mənfi anlar keçirərkən yaşadığı hiss-həyəcanlarının, emosional gərginlik anındakı vəziyyətinin yol açdığı psixosomatik reaksiyalar həmin emosiyaların metaforik adlandırılmasında bilavasitə iştirak etmişdir. İngilis dilində emosemiyalı frazeologizmlərin komponentar müstəvidə təhlili isə bu qrup ifadələrdə leksik səviyyənin ən qədim plastını əhatə edən leksik vahidlər – somatizmlərin yer aldığı frazeologizmlərin say baxımından yüksək üstünlüyə malik olduğunu söyləməyə əsas verir. Konkret olaraq, izlədiyimiz nümunələrdə olduğu kimi, *heart, head, eye, foot, hand, finger* və s. somatizmlərin iştirakını təsbit etmək olar. Həmin somatizmlərin

yer aldığı ifadələr psixosomatik reaksiyalara uyğun olaraq məcazlaşmaya məruz qalmış və müvafiq frazeoloji anlam kəsb etmişlər.

Ədəbiyyat

1. Ammer C. The American Heritage Dictionary of Idioms (2nd edition). Boston: Houghton Mifflin Harcourt, 2013, 506 p.
2. Hacıyeva Ə.H. İngilis və Azərbaycan dillərində somatik frazeologiyanın əsasları. Bakı: Nurlan, 2008, 276 s.
3. Siefring J. Oxford Dictionary of Idioms, Second Edition. Oxford: Oxford University Press, 2004, 351 p.
4. Батсурэн Р. Отображение универсальных и этноспецифических черт языковой картины мира во фразеологических фондах английского, русского и монгольского языков (на материале фразеологизмов-соматизмов и зоонимов): Автореф. дис. ... канд. наук. Саратов, 2010, 26 с.
5. Вакк Ф.О. О соматической фразеологии эстонского языка // Вопросы фразеологии и составления фразеологических словарей, Баку: Эльм, 1968, с.152-155.
6. Власова Н.А. Фразеологическое гнездо с вершиной «глаз» в общенародном языке и говорах: Автореф. дис. ... канд. филол. наук. Орел, 1997, 31 с.
7. Мордкович Э.М. Семантико-тематические группы соматических фразеологизмов // Актуальные проблемы фразеологии, Новосибирск, 1971, 260 с.
8. Сакаева Л.Р. Позитивные соматические фразеологические единицы с компонентом "голова" в русском, английском и таджикском языках // Вестник Чувашского университета: Гуманитарные науки, Чебоксары, 2008, №1, с. 214-218
9. http://en.wikipedia.org/wiki

Jamila Abdullayeva

EMOTIVE PHRASEOLOGISMS WITH SOMATIC COMPONENTS IN THE ENGLISH LANGUAGE

SUMMARY

Expressions with somatic components attract special attention among the emotive phraseological units. The direct connection of emotions with the mental and emotional state of a person, and the reflection of those states in human physiology, undoubtedly, conditioned the active participation of the names of body parts in the formation of phraseologisms expressing feelings and excitement. Thus, the emotional state can lead to complications in the body parts, as a result of which the appearance of phraseologisms expressing feelings and excitement becomes possible. The emotional state acquires a kinesthetic solution with the direct participation of the

body parts, that is, it finds expression through body language, and at this time, emotive phraseological units of the corresponding nature can be formed.

The linguistic picture of the world is based on a person's ideas about the world. If the world is a human and a human is the environment born from the interaction of the world, then the picture of the world is the result of the re-evaluation of information about the environment and the human. In this sense, the approach of a person in the perception of the surrounding world through the prism of the reactions of his/her own body is completely understandable. In other words, it is logical that the ancient layer of the lexicon demonstrates activity in ancient phraseologisms. On the other hand, if we are talking about ancient and laconic expressions, it is important to give preference to metaphors arising from specific denotations acting as one side of the implication chain, rather than phraseologisms referring to the allusive background.

Key words: emotive, English, component, somatisms, phraseological units

Джамиля Абдуллаева

ЭМОТИВНЫЕ ФРАЗЕОЛОГИЗМЫ С СОМАТИЧЕСКИМ КОМПОНЕНТОМ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Среди эмотивных фразеологизмов особого внимания привлекают выражения с соматическим компонентом. Непосредственная связь эмоций с психикой и эмоциональным состоянием человека, отражение этих состояний в физиологии человека обусловили активное участие названий частей тела в формировании фразеологизмов, обозначающих чувства и волнение. Так, эмоциональное состояние способно привести к осложнениям в частях тела, в результате чего становится возможным появление фразеологизмов выражающих чувство-возбуждение. Эмоциональное состояние приобретает кинестетическое решение при непосредственном участии частей тела, то есть находит выражение с помощью языка тела, и в это время может формироваться эмотивные фразеологизмы соответствующего характера.

Языковая картина мира основана на представлениях человека о мире. Если мир – это человек, а человек-это среда, рожденная в результате взаимодействия мира, то картина мира является результатом переоценки информации об окружающей среде и человеке. В этом смысле вполне понятен подход человека к восприятию окружающего мира через призму собственного тела, реакций своего организма. Иными словами, логично, что древняя пласт лексики проявляет активность в древних фразеологизмах. С другой стороны, если речь идет о древних и лаконичных выражениях, важно отдавать

предпочтение метафорам, возникающим из конкретных денотатов, выступающих одной из сторон импликационной цепи, а не фразеологизмам, относящимся к аллюзионному фону.

Ключевые слова: эмотивный, английский язык, компонент, соматизмы, фразеологические единицы

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, baş müəllim Səfərova Xuraman Rəhman qızı tərəfindən çapa tövsiyə olunmuşdur

***Dos.* ƏSƏDOVA DÜRDANƏ ƏSƏD QIZI,**
d_nagiyeva@mail.ru
ƏLİZADƏ TAMARA ŞƏRBƏT QIZI,
tamara59@rambler.ru
İMANOVA IRADƏ İSA QIZI
irade@mail.ru
Azərbaycan Tibb Universiteti
Azərbaycan *dili kafedrası*

AZƏRBAYCANDA NATİQLİK SƏNƏTİNİN İNKİŞAF TARİXİ

Xülasə

Məqalədə Azərbaycan dilinin tarixən regional mövqeyindən və dövlət dili kimi inkişaf mərhələlərindən bəhs edilir. Azərbaycan dilinin təşəkkülünün tarixi proseslərini və onun regionda ümumi ünsiyyət dili kimi yayılma arealını açır. Bildirilir ki, Azərbaycan dili uzun müddət dövlət dilindən kənarda qalıb, milli dil səviyyəsində mövcudluğunu qoruyub saxlayıb, onun immunitetini daha da gücləndirib. Hətta orta əsrlərdə yaşamış erməni şairləri də Qafqazda məşhurlaşmaq üçün Azərbaycan dilindən istifadə edirdilər.

Tədqiqatda Azərbaycan dilinin siyasi-dövlət dili kimi inkişafının beş mərhələsi qeyd olunur.

Azərbaycan dilinin Ş.İ.Xətai dövründə ilk dəfə olaraq dövlət dili səviyyəsinə yüksəldiyi, lakin bundan sonra uzun müddət dövlət idarəçiliyindən kənarda qaldığı göstərilir. Məqalədə izah edilir ki, Azərbaycan dilinin siyasi dil kimi inkişafının əsas mərhələsi 20-ci əsrə təsadüf edir.

Açar sözlər: Azərbaycan dili, tarixi şərait, dövlətçilik, regional mövqe, dil quruculuğu, H.Əliyev mərhələsi.

Əvvəlki dövrlərdə olduğu kimi, Şah İsmayılın dövründə də Azərbaycan əhalisinin dili Azərbaycan türkcəsi idi. Lakin hökmdar ilk dəfə ana dilimizə dövlət dili statusu qazandırmış, onun dövlət idarəçiliyində daimi hakim mövqeyinin möhkəmlənməsindən ötrü tarixi əhəmiyyətli addımlar atmışdır. Şah İsmayıl ana dilimizin inkişafı istiqamətində gördüyü işlərdə dövrünün siyasi vəziyyətini, əhalinin sosial durumunu və etnik tərkibini də nəzərə alır, xarici təsirləri özünün intellekti və nüfuzu sayəsində zərərsizləşdirə bilirdi. Dövlət müstəqilliyinin əbədiləşməsindən ötrü osmanlıların sünni məzhəbinin müqabilində şiəliyi yaymaqla bərabər, dövlət dilini və onun adını da beynəlxalq aləmə tam fərqli bir şəkildə - xalqın işlətdiyi kimi **türk dili** adıyla çatdırmışdır. Fransız səyyahı J.B.Tavemye Qafqazda gördüyü həqiqətləri qələmə alarkən bu tarixi faktı qeyd etmişdir: “Saray adamlarının dili türk

dilidir” (2, s. 185).

Eynilə XVII əsrdə Azərbaycanda olmuş alman alimi E.Kemfer yazrdı: “Səfəvilər sülaləsinin ana dili olan türk danışığı İran sarayında geniş yayılmış bir dildir... İş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək suç sayılır” (7, s.85).

XIX-XX əsrlər artıq Azərbaycan dilinin ən sürətli tərəqqi və çiçəklənmə dövrü olmuş, bunun nəticəsində ana dilimiz müasir dünyanın funksional baxımdan ən inkişaf etmiş dillərindən birinə çevrilmişdir.

XIX əsrdən başlayaraq ölkəmizdə milli dilin siyasi mövqeyini və etnolinqvistik proseslərin inkişaf istiqamətini təyin edən mühüm amillər sırasında ilk növbədə Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalını qeyd etmək vacibdir. Rusiya imperiyasının müstəmləkə siyasətinin ideoloji əsasını ruslaşdırma xətti təşkil etdiyi üçün ölkədə dillərin qeyri-bərabərliyi prinsipi qanunvericilik səviyyəsində təsbit olunmuşdu. Qonşu regionların dillərinə, məsələn, gürcü və erməni dillərinə nisbətən çarizmin Azərbaycan dilinə münasibəti daha dözülməz idi və bu dilin cəmiyyət həyatının əsas sahələrindən sıxışdırılıb çıxarılması üçün hər cür qadağalar tətbiq olunurdu. Görkəmli etnolinqvist Y.Deşeriyevin hesablamalarına görə, Rusiya imperiyası dövründə Azərbaycan dili ictimai-siyasi, sosial-iqtisadi, mədəni və elmi həyatın əsas 22 sahəsindən yalnız 9-da fəaliyyət göstərirdi. Qalan sahələrdə isə rus dili hökm sürürdü (1, s. 148).

Azərbaycan dilinin funksional baxımdan inkişafı sahəsində əsaslı dəyişikliklərə isə yalnız 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra nail olmaq mümkün oldu. Bu sahədə atılan ilk addım isə müvafiq hüquqi bazanın yaradılması idi. 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə yeni və ən yeni dövrdə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi. Həmin fərmanda deyilir: "Dövləti lisan türk dili qəbul edilərək, ilərüdə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dövlət vəzifələri başında duranlar bu lisanı öyrənə ***bilənlər olana qədər hökumət müəssisələrində rus dili iste'malına da müsaidə edilsin”.*** Formanda türkco - Azərbaycan dili Cümhuriyyətin dövlət dili elan olunmaqla o da qeyd edilir ki, vəzifə başında olan şəxslərin hamısı bu dövlət dilini, yəni azərbaycanlıların ana dilini, beşik dilini bilməlidir. Bu gerçəklik idi ki, o zamanın Azərbaycan ziyalıları ana dilində ali təhsil görməmişdilər, hələ dövlət dilini hamısı mükəmməl ədəbi dil səviyyəsində, məsələn, Ü.Hacıbəyli, Ə.Haqverdiyev, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, M.Şahtaxtılı və başqaları kimi bilmirdilər. Doğrudur, bunlar və belələri də ana dilində təhsil görməmişdilər. Ancaq onlar yazıçı, jurnalist olaraq ədəbi dili kamil səviyyədə bilirdilər.

Ana dilinin bütün sahələrdə dövlət dili kimi işlənməsini təmin etmək üçün müntəzəm tədbirlər görülürdü. 1918-ci il avqustun 28-də Azərbaycan hökumətinin ibtidai və orta məktəblərdə təhsilin ana dilində aparılması haqqında fərmanı verildi. Beləliklə, bir neçə gün sonra sentyabrda məktəblərdə dərslər bütünlüklə ana dilində - azərbaycanca gedəcəkdi. Deməli, təhsil sistemi milliləşdirilmiş olurdu. Bu, dövlət

dili haqqında fərmandan sonra ana dilini yeganə dövlət dili kimi hazırlamaq yolunda atılan ən həlledici addım idi.

Sovet dönəminin hələ 20-30-cu illərində «dil quruculuğu» termin-anlayışı ortaya çıxır və bu əslində konstruktiv xarakter daşıyır. Həmin dönəmdə mədəni təbdirlərin içərisində əlifba, termin, həmçinin də ədəbi dillərə yanaşma, əlbəttə, köhnə quruluşdan xilas olmuş xalqlar üçün mühüm önəmə malik idi.

Sovet dönəminin dil siyasəti və dil quruculuğu «mədəni-mənəvi faktorlar silsiləsində xüsusilə fərqlənir; dilə bir tərəfdən yeni sosialist mədəni-maarif işinin tərkib hissəsi və onun vasitəsi- bu tədbirin həyata keçiricisi, digər tərəfdən, onu daşıyan xalqın cismən yaşama və mənəvi varlıq faktoru kimi baxılır. Beləliklə, məktəblə, maariflə bağlı əlifba, imla məsələləri, elmi tərəqqi ilə əlaqədar termin məsələləri ətrafındakı mübahisə səviyyəli söhbətlər də, teatrın, səhnənin, ədəbiyyatın, mətbuatın xəlqiliyi, anlaşıqlı olması haqqındakı mükalimələr də, geniş siyasi auditoriya və dövlət ünsiyyət forması barəsindəki tədbirlər də bilavasitə dillə bağlanır, dil qızğın siyasi müharibə meydanında sosialist inqilabının fəth etməli olacağı vacib qalalardan birinə çevrilir.

1920-ci ilin aprelində hakimiyyəti ələ keçirən bolşeviklər qeyri-rus xalqlarının Sovet hakimiyyətinə olan münasibətini "‘isindirmək” məqsədilə milli dillərin inkişafı üçün minimum şərait yaratmağa məcbur oldular. Bu məqsədlə, 1921-ci il martın 29-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov "Azərbaycan SSR idarələrində Azərbaycan dilində kargüzarlığın tətbiqinin təşkili haqqında” sərəncam imzaladı. 1923-cü il iyunun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə ana dilimiz "türk dili" adı ilə Azərbaycan SSR-nin dövlət dili elan edildi. Lakin SSRİ-nin bütün ərazisində olduğu kimi, Azərbaycanda da dövlət dili faktiki olaraq rus dili idi.

Dil quruculuğunun əsas istiqamətlərindən biri əlifba məsələsi idi ki, bu sahədə aparılan “islahatlar” mühüm siyasi məzmun kəsb edirdi. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940- cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılınası

yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyil, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirirdi.

1950-ci illərin ortalarından başlayaraq, yəni Stalinin ölümündən sonra repressiya maşınının dayanması və totalitar rejimin aradan qaldırılması nəticəsində milli dillərin dövlət müstəvisində taleyinin müəyyənləşməsi üçün əlverişli imkanlar meydana gəldi. 1956-cı ildə Azərbaycan SSR KPMK-nın rəhbəri İ.Mustafayev və Ali Sovetin Rəyasət Heyətinin sədri M.İbrahimovun birgə səyləri nəticəsində Azərbaycan SSR Ali Sovetin sessiyası Əsas Qanuna dövlət dili haqqında maddə əlavə edilməsi barəsində qərar qəbul etdi. Sessiyada Rəsul Rzanın çıxışı alqışlarla qarşılandı. Beləliklə, ana dilimiz dövlət dili statusu aldı. Lakin Azərbaycan dilinin dövlət dili olması xəbəri SSRİ-də "bomba kimi" partladı. Bakının böyük zavodlarının bir qrup qeyri- azərbaycanlı fəhləsi Moskvaya - Xruşşova, Voroşilova qərarın düzgün olmadığı barədə müraciət göndərdi: "*Azərbaycanlılar həyasızcasına iclasları, kargüzarlıq işlərini öz dillərində aparmağa başlayıblar. Bakıda bu ola bilməz. Əks təqdirdə narazılıq güclənəcək"* (3, s. 43).

Ən acınacaqlı məqam isə bu aksiyaya ruslaşmış azərbaycanlıların qoşulması idi. Bakı məktəblisi, milliyətcə rus olan bir şagird görün Xruşşova nə yazır: "*Azərbaycan dilinin keçilməsi nəinki rus məktəblərində, heç Azərbaycan məktəblərinin özündə belə lazım deyildir. Azərbaycan dilində danışmaq kimə lazımdır? Ölçü götürün.* Bütün bu şovinist etirazlardan və etnik qıcıqlardan doğan narazılıqlar Moskvada böyük əks-səda yaratdığından qərarın icrasının qarşısı yerindəcə alınmış oldu.

Azərbaycan dilinin dövlət dili kimi formalaşmasında Heydər Əliyev mərhələsi. Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib. 1969-cu ildən başlayaraq, H.Əliyevin uğurla yürütdüyü dil siyasəti respublikamızda dilin ictimai, mədəni, sosial və siyasi əhəmiyyətini aktuallaşdırmış, Azərbaycan dilinin dövlət dili müstəvisində hüquqi mövqeyini müəyyənləşdirmişdir.

Mübtəda +xəbər + vasitəsiz tamamlıq+vasitəli tamamlıq

Qeyd: Bütün ikinci dərəcəli üzvlər xəbərdən sonra gəlir. Məsələn:

Je vais à la maison - Mən evə gedirəm, mübtəda + xəbər + yer zərfliyi

Je me lève à sept heures – Mən səhər saat 7-də qalxıram, mübtəda + xəbər + zaman zərfliyi

Je marche vite - Mən tez-tez yeriyirəm: mübtəda + xəbər + tərz-hərəkət zərfliyi və.s

Qeyd: Zaman və yer zərfliklərі həm cümlənin əvvəlində, həm də sonunda işlənə bilər. Məsələn:

Zaman zərfliyi: Ali se lève à sept heures, À sept heures, Ali se lève.

Yer zərfliyi: Il ya un livre sur la table. Sur la table il ya un livre.

Yer zərfliyi yalnız **"Il ya"**(var, vardır) tərkibli cümlələrdə bu cür işlənir. Başqa hallarda yalnız xəbərdən sonra gəlir. Məsələn:

Hemaye va à l'université - Həmayə universitetə gedir.

À l'université Hemaye va (olmaz).

Bəs niyə fransız dilində cümlələrdə söz sırası sabitdir və niyə cümlə üzvlərinin yerini dəyişmək olmaz (Sual cümlələrində inversiya müstəsna olmaqla)?

Çünki fransız dilində cümlədəki sözlər arasında rabitə yaradan (Azərbaycan dilində, rus dilində və bütün şəkilçili dillərdə olduğu kimi) şəkilçilər yoxdur, o saat məna dəyişər. [1]

Məsələn:

Kenan cherche Sona – Kənan Sonanı axtarır.

Sona cherche Kenan – Sona Kənanı axtarır.

Bununla belə Azərbaycan dilində söz sırası dəyişərsə, məna dəyişmir, çünki şəkilçi qoymur ki, fikirimiz yanlış anlaşılsın.

Kənan Sonanı axtarır.

Sonanı Kənan axtarır ("nı" şəkilçisi).

Bəs onda fransız dilində cümlə qurarkən bu şəkilçiləri nə əvəz edir?

Fransız dilində bu şəkilçiləri köməkçi sözlər **"Les mots outils" (köməkçi sözlər)** əvəz edir. **Köməkçi sözlər bunlardır:** Les articles - artikllər, Les verbes auxiliaires - Köməkçi fellər, Les adjectifs possessifs- mənsubiyyət sifətləri, Les adjectifs démonstratifs - işarə sifətləri, Les prépositions - sözönülər, Les pronoms personnels - şəxs əvəzlikləri, Adverbes outils - köməkçi zərflər. [7]

Morfem və leksemlər…

Bu mənada məşhur dilçi alimlər hesab edirlər ki, fransız dilininin qrammatikası dildə dil nizamı yaradır və bu dilin qrammatikası iki hissədən – morfologiya və sintaksisdən ibarətdir ki, bu sahələr də bir -birinə sıx bağlıdırlar. Morfologiya sözləri, onların quruluşu, formalaşması və dəyişməsini, bununla yanaşı, nitq hissələri və onların qrammatik kateqoriyalarını öyrənir. Bundan başqa, morfologiya morfemləri öyrənir, fonemlərdən ibarət olan morfemlər isə öz növbəsində sintaktik əlaqələrin yaranmasına töhfə verir. [4] Məhz buna görə də, alimlər belə qənaətə gəlirlər ki, morfologiya cümlə quruluşunu öyrənən sintaksislə sıx bağlıdır. Çünki morfemlər dilin məna yükü daşıyan kiçik bir vahidi kimi qəbul olunur. Morfemin ən ali səviyyəsi isə sözdür. Məsələn fransız dilində "chou- fleur" (gül kələmi) sözündə iki morfem var: "chou" və fleur. Bu morfemlərin hər ikisinin ayrılıqda müstəqil mənaları var və birgə şəkildə də vahid məna ifadə ediblər. Fransız dilindəki "Chapeau" (papaq) sözündə də "chap" "eau" olmaqla iki morfem mövcuddur, lakin bu morfemlər ayrı-ayrılıqda məna kəsb etmirlər, onlar birləşərək, söz şəklində vahid məna ifadə edə bilirlər. Morfemin iki növü vardır:

1) Leksik morfemlər və ya leksemlər

2) Qrammatik morfemlər

Leksik və qrammatik morfemləri konkret misal üzərində izah edək.

Məsələn: "chanteur" (kişi ifaçı) sözündəki "chant" leksemdir, çünki o "chant" bu "chanteur" sözünü buna bənzər sözlərdən- "balayeur", "voleur" kimi sözlərdən fərqləndirir. "eur" isə qrammatik morfemdir, onun vasitəsilə "chanteur" sözünün kişi cinsində olduğunu müəyyən etmək olur. Bundan başqa, bəzi dilçi alimlər morfemləri azad və asılı olmaqla iki hissəyə bölürlər. İddia edirlər ki, məsələn "vendeur"(satıcı) sözündəki "vend" sözün kökü olduğu üçün azad morfem, "eur" isə affiks olduğu üçün asılı morfem hesab olunur. Bu mənada ki, affikslər heç zaman müstəqil forma təşkil edə bilmirlər. [5]

Görkəmli fransız dilçi alim André Martinet özünün "Elément de Linquistique Générale" əsərində "Monème"ləri iki kateqoriyaya – leksikologiyaya aid olan leksem və morfemlərə bölür. Alim konret cümlə üzərində izah verir:

- *Le petit Paul me chante des chansons.*

Bu cümlədəki "petit", "chant", "chanson" sözləri leksem, "le", "me", "e", "des", "s" isə morfem kimi qiymətləndirilir. Alim hesab edir ki, bütün bu morfem və leksemlər, birləşərək, "monème" yaradırlar. [6]

"Les syntagmes"ın formalaşması

André Martinet yazır ki, "monème"lər də birləşərək, "syntagmes"ları formalaşdırırlar**.** Məsələn:

-L'équipe de Sainte-Etienne remporte la Coupe de France (Sainte-Etienne komandası yenidən Fransa kubokunu qazandı) cümləsində

1- "L'équipe de Sainte-Etienne » və «la Coupe de France » "syntagmes"dırlar.

2 - remporte (rem- port-e) isə "monème" birləşməsidir, bu da ayrılmaz "syntagme" hesab olunur.

Bütün bunlar isə sonda vahid fikir ifadə edən bir cümləyə çevrilir. Bu mənada André Martinet dili unsiyyət aləti kimi qiymətləndirir. Onu da vurğulamaq yerinə düşər ki, yuxarıda bəhs olunan bütün mövzular ən sonda dilin leksikasını təşkil edir. [2] Leksika yunan sözüdür: lexikos - lüğət, loqos - təlim anlamını verir. Leksikanı öyrənən dilçilik bölməsi isə leksikologiya adlanır. Leksikologiyada sözlərin mahiyyəti, onların kəsb etdiyi məna yükü, forma və məzmunca əmələ gətirdiyi qruplar, sözlərin mənşəyi və işlənmə dairəsi əxz olunur. Bir sözlə, dilin lüğət tərkibinə daxil olan bütün söz, termin vo frazeologizmlərin toplusu leksika adlanır. Məşhur alim Marie-Françoise Mortureux « La lexicologie entre langue et discours » əsərində diqqətlərə ərz edir ki, leksik vahidlərin formalaşmasında neologizmlərin rolu böyükdür. Çünki neologizmlər həm yeni, həm də leksikləşməyə həssas dil aktı kimi tanınır. O, mahiyyətcə diffuziya prosesində olan sözlərə tətbiq olunur, lakin onlar ümumi olaraq dildə pasport aldıqdan sonra lüğətlərə daxil edilir. Bu o anlama gəlir ki, dildə yaranan yeni sözlər istifadə olunsalar da, bəzən leksik bazaya inteqrasiya oluna bilmirlər və yaxud da əksinə onlar dildə ümumişlək hala gəlib,

leksik vahidə çevrilə bilirlər və lüğətlərə daxil edilirlər, bu da onların leksikləşmə göstəricisi kimi təqdim edilir.

Leksika özü istifadə arealına görə bir neçə sahəyə bölünür:

İctimai, siyasi, iqtisadi, hərbi, hüquqi, mədəni, idman və poetik leksika mövcuddur ki, bu leksik vahidlərin düzəlməsi üçün «Les locutions verbales» dan (felli ifadə) istifadə olunur. «Les locutions verbales» dilin hərəkət semantikalı leksik vahidi hesab olunur və fransız dilində yuxarıda sadalanan sahələrlə bağlı çoxsaylı ümumişlək hal alan «Les locutions verbales»lar mövcuddur ki, onların vasitəsilə hər hansı bir fikir daha dəqiq, daha səlis və daha estetik ifadə edilir.

Öncə İctimai leksikaya diqqət çəkək. O, müasir Fransız dilinin lüğət tərkibində mühüm yer tutur. Cəmiyyətdə, istehsalat prosesində, ictimai həyatın müxtəlif sahələrində intensiv dəyişmə özünü göstərir.

İctimai leksikanı təşkil edən «Les locutions verbales» (felli ifadələr)ların az, lakin dildə daha çox işlənən hissəsi aşağıdakılardır.

Jeter un coup d'œil – Nəzər yetirmək (Il suffit de jeter un coup d'œil sur leur longue histoire). **Jeter un replique**- replika atmaq (Ils m'obligent à jeter ma replique de ak). (**Passer un coup de fil** - Əlaqəyə çıxmaq, (Si vous êtes en quête d'une belle GT originale, il est peut-être encore temps de passer un coup de fil au concessionnaire Lexus le plus proch). **İl pleut des cordes** - Güclü yağış yağır (Il pleuvait des cordes quand je suis parti ce matin). **Plevoir comme vache qui pisse -** Şiddətli yağış yağır (Kit et Suzanna voudraient passer ce soir pour l'apéritif ? Ce serait fun, table ouverte à partir de 19 heures, venez comme vous êtes, barbeuque s'il ne pleut pas comme vache qui pisse). **Donner un coup de main** - Yardım əli uzatmaq (Pour se sortir de la misère et donner un coup de main au reste du monde, les Américains devront se montrer solidaires et ça ne s'annonce pas simple). **Donner mal à la tête** - Baş ağrısı vermək (Cette quesion me donne mal mal à la tête). **Donner la leçon -** dərs vermək (L'imaginaire sert à donner une leçon de vie, de la façon la plus synthétique possible). **Donner rendez-vous -** Görüş vermək (Vous pourrez y afficher des messages personnalisés, y donner rendez-vous à un ancien collègue ou y consulter la liste de tous les participants». **Donner vos coordonnées -** Əlaqə nömrələri vermək (Veuillez nous donner vos coordonnées et nous les ajouterons à notre liste d'envoi). **Donner un bout de fil -** İp ucu vermək (İl nous donne un bout de fil pour trouver la réponse de la question). **Donner un coup de poing -** Yumruq vurmaq (Ce qui arrive plus souvent qu'autrement-il suffit de prendre l'exemple de la revue Sports Illustrated-c'est que nous finissons par donner un coup de poing sur le nez des Américains). D**onner le rapport - Rəy vermək (**L'agent doit donner le rapport de mission au Secrétaire Exécutif dans trois jours au maximum après la fin de mission). **Donner l'accord -** Razılıq vermək (Avant de donner

l'accord prévu au premier alinéa, le contrôleur du groupe consulte les membres du collège des contrôleurs). D**onner des conseils -** Məsləhət vermək (Pour donner des conseils en français vous pouvez utiliser différentes structures). **Donner raison -** haqq vermək (Le groupe Europe des nations n'est pas loin de leur donner raison, mais à l'issue d'un raisonnement bien différent). **Donner l'alerte -** həyəcan təbili çalmaq (Les Boches préparaient un « sale » coup, et Luc, de quart au périscope, avait donné l'alerte à sa tranchée. Presque aussitôt le bacchanal se déchaîne : les obus pleuvent, les parapets sautent). **Donner la réaction sévère -** Ciddi reaksiya vermək (Le lgén Dallaire amorce la table ronde en demandant aux syndicats de se sentir complètement libres de lui donner la réaction de leurs membres). **Donner l'enthousiasme -** Həvəs, nəşə vermək (Ce travail me donne l'enthousiasme).

Entrer en contacte - Əlaqə yaratmaq (Nous allons entrer en contact avec d'autres écoles de la commune et des villes alentour pour proposer des interventions).

Mettre en relation - Əlaqə qurmaq (Le but est de mettre en relation ces informations avec les données sur la qualité de l'environnement ambiant afin de détermine). [3] **Mettre le point (**Il est temps de mettre le point final à ce malheureux chapitre et de penser à planifier l'avenir de la plaque tournante du transport au Canada). **Mettre en jeu** - Oyuna gətirmək (Il a mis sa vie en jeu pour pouvoir battre ce record du monde).

Mettre en œuvre - Həyata keçirmək (Il a mis en oeuvre ses connaissances pour réaliser son invention). **Mettre en page -** Səhifəyə yerləşdirmək (Vous pouvez mettre en page votre propre album photo. En toute facilité depuis votre ordinateur). **Mettre en place -** Yoluna qoymaq (L'entreprise a mis en place un plan d'action pour améliorer les ventes). **Mettre en garde** – Həbs etmək (Je me dois de vous mettre en garde sur son utilisation) **Mettre en pratique** – Həyata keçirmək (Il y a des choses fort belles en théorie, qu'il est impossible de mettre en pratique).

Mettre en relief - Diqqətlərə ərz etmək (Pour mettre en relief un groupe de mots dans une phrase, on peut utiliser différents procédés qui varient selon la fonction de ce groupe). **Mettre en avant -** İrəli sürmək (On peut aussi mettre en avant des tensions au niveau du raffinage). **Mettre en scène –** Səhnələşdirmək (Le roman, qui se passe dans le milieu des souteneurs et des prostituées du quartier du boulevard Sébastopol et du quartier Montparnasse, met en scène plusieurs personnages liés par la même maladie, la syphilis). **Mettre en valeur -** Dəyər vermək, qiymət qoymaq (L'intercommunalité pour profiter des retombées de l'autoroute A71, tel est le pari de trois communes, Verneix, Saint-Angel et Chamblet qui se sont unies dans un syndicat intercommunal pour mettre en valeur l'atout de leur situation avec le carrefour de la Croix de Fragne, aux extrémités du tronçon commun A 71-Route Centre Europe Atlantique). **Mettre fin à -** Son qoymaq (İl a haussé le ton, il a mis fin à la dispute entre ses enfants). **Mettre l'accent sur -** Vurğu qoymaq (Je pense qu'il convient encore de mettre l'accent sur la sécurité). **Mettre au courant -** Hali etmək (Et maintenant, nous allons devoir jouer les trouble-fête et

mettre Lilah au courant. Crois-moi, ça va chier dans le ventilo). **Mettre de travers** - tərsinə geyinmək (C'était vivement recommandé, disons. C'est vrai que ça m'aurait mis de travers qu'on me dise non mais bon... sur le principe, la Table ronde... c'est pas obligatoire). **Mettre en prison** - həbs etmək (En fait, ce n'est pas vrai qu'on a le droit d'arbitrairement mettre en prison des personnes). **Mettre à l'écart -** Uşaqlaşdırmaq (Je sais que ces idiots t'ont encore mis à l'écart). **Mettre au ban** - Kənara qoymaq (En 1706, l'électeur de Bavière fut mis au ban de l'Empire par la diète de Ratisbonne). **Mettre sa main au feu -** Əlini daşın altına qoymaq (Je mets ma main au feu que c'est Glory, elle aime les grosses bébêtes). **Mettre à feu et à sang -** Özünü oda- alova atmaq (Je ne crois pas qu'il y ait matière à soutenir que l'OTAN est une force agressive qui veut résolument mettre à feu et à sang l'Afghanistan et d'autres pays du monde). **Mettre un frein -** Tormozlamaq (Cependant, je crois que nous avons aujourd'hui la possibilité de mettre un frein à la croissance de la consommation de cette drogue). **Mettre d'accord -** Razı salmaq (Notre esprit d'envie, de méfiance et de dissensions nous empêchera, longtemps encore je le crains, de nous mettre d'accord!). **Mettre la main - ə**l qoymaq (Elle a en effet mis les trois moyens d'information d'accord en commençant par occuper la radio, puis en mettant la main sur la télévision, tuant au passage une quatorzaine de Lituaniens indépendantistes et sans armes). **Se mettre en retard -** Gecikmək (On va se mettre en retard, chef). [8] **Commander un taxi** - Taksi sifariş etmək (Vous pouvez également commander un taxi à votre arrivée par notre intermédiaire). **Serrer la main** - Əlini sıxmaq (Jo, qui a coaché Max pendant quatre ans, est « germophobe ». Il ne serre la main à personne, préférant tendre son poing fermé). **Tenir une réunion** -İclas keçirmək (La Commission considère qu'il n'est pas nécessaire de tenir une réunion pour participer à un accord existant depuis si longtemps). **Fourrer son nez partout** - Burnunu hər yerə soxmaq (Je commence à en avoir assez que tu fourres ton nez là où il ne devrait pas être, Nolan). **Fondre en larme** - Göz yaşı axıtmaq

(Il fondit en larmes quand on lui parla de la mort de son fils). [9]

Être au courant - Hali olmaq (Non, c'était mon idée… Et Paul n'était pas au courant. Seuls Susanna et quelques domestiques étaient dans la confidence. Je te le jure!) **Être en retard -** Gecikmək (Je ne veux pas être en retard à mon premier cours). **Être en avance -** Əvvəl olmaq (Être en avance sur son temps, le prendre de vitesse et le vaincre de vive lutte). **Être à l'heure -** Vaxtında olmaq (Paolo m'attend déjà devant les portes tournantes pour la pause-déjeuner. Il a son regard agacé des jours où je ne suis pas parfaitement à l'heure). **Être en mesure de faire quelque chose** - Nəysə etmək iqtidarında olmaq. ('ayant pas envie de me mettre à continuer les Harmonies', j'achève le pamphlet Ce qu'on voit et ce qu'on ne voit pas, et je serai probablement en mesure de vous l'envoyer d'ici à quelques jours). **Être en forme -** Formada olmaq (Il veut être sûr d'être en forme et remettre la partie ce vendredi). **Être dans la lune** -göylə getmək (Ah, çà ! qu'est-ce qu'elle a ? Elle est dans la

lune!). **Être à l'aise -** rahat olmaq **(**Ils voulaient juste être à l'aise avec elle). **Être mal à l'aise -** Narahat olmaq (En uxorilocalité par contre l'homme est mal à l'aise et la femme plus en confort : le surplus de longévité est pour cette dernière). **Être enceinte -** Hamilə olmaq (Le résultat de votre test de grossesse est tombé : vous êtes enceinte!) **Être à vous -** Sizin ixtiyarınızda olmaq (Laissez-moi la vie, Mon Seigneur, et je suis à vous). [10] **Prendre votre temps -** Özünə vaxt ayrımaq (Bref il faut prendre le temps de chercher l'assureur compétent).). **Prendre sa retraite -** İistefa vermək (Et ce médecin de renommée mondiale n'a pas l'intention de prendre sa retraite). **Prendre part -** tərəf tutmaq (J'ai moi aussi très envie de prendre part à ce movement). **Prendre en otage - girov götürmək** (Les voyageurs de l'A380 ont été pris en otage par un groupe terroriste). **Prendre un verre -** Qədəh qaldırmaq (Antoine l'avait abordé le premier, bruyant et cordial comme il l'avait toujours été. Il avait insisté pour qu'ils prissent un verre au café de la Paix). P**rendre un toaste -** Tost söyləmək (Destouches tapait sur son verre avec son couteau comme pour porter un toast au début d'un banquet!). **Prendre rendez-vous** – Görüş götürmək (Permettez à vos administrés de prendre rendez-vous). **Prendre les mésures nécessaires** – Lazımi ölçülər götürmək (Une autre question se pose, la question de l'aide aux régions affectées par le virus pour leur permettre de prendre les mesures nécessaires). [11] **Atteindre le but** – Arzuya çatmaq **(**Pour atteindre ce but, les musiciens se sont beaucoup intéressés au style). **Avoir le pied à l'etrier -** Start götürmək (C'est un assez bon début pour mettre le pied à l'étrier et d'y aller au petit trot). **Avoir l'air fâché** – Əsəbi görünmək. (M. Todd Russell: N'ayez pas l'air aussi fâché). **Avoir du mal à faire quelque chose** – Nəysə etməkdən çəkinmək. (J'ai du mal à porter ce colis, il est trop lourd). **Avoir ton age** - Sən yaşda olanda (Tu sais, quand j'avais ton âge... rien ne pouvait me retenir). **Porter la plainte** – Şikayət etmək (Je veux porter plainte contre mes parents). **S'en souvenir comme si c'était hier** – dünənki kimi xatırlayıramaq. (Je me souviens, comme si c'était hier, du moment où j'ai vu Jennifer donnée naissance à Shane). **Se fouler le pièd** – ayağını tapdalamaq (En fait, elle a glissé dans la salle de bains et elle s'est foulé le pied en tombant). **Manger un bout -** Bir tikə yemək yemək (Allons manger un bout, puis on ira à la réunion). **Attraper la grippe -** Qripə yoluxmaq (J'ai déjà attrapé la pauvreté, je refuse d'attraper la grippe). **Se rincer la bouche** -ağzını yumaq (Faut-il se rincer la bouche après le bossage?). **Tomber sous l'influence -** Təsir altına düşmək (Ces populations peuvent facilement tomber sous l'influence d'une idéologie fondamentaliste et extrémiste et devenir eux-mêmes). **Tomber d'accord** – Razı qalmaq (Enfin, lors même que l'évidence mathématique eut forcé les deux partis à tomber d'accord des faits et des lois, le débat continue pendant tout le siècle entre les impulsionistes et les attractionistes). **Ne laisse rien au hasard** – Heç nəyi təsadüfə buraxma! (Le docteur Robinson ne laisse rien au hasard). **Pleurer à chaudes larmes** – Hönkürtü ilə ağlamaq (Il venait de la quitter sur le quai et elle pleurait à chaudes larmes parce qu'il partait loin). **Saluer de ma part** – Özü tərəfindən salamlamaq.

(Veuillez saluer de ma part votre personnel courtois et professionnel). **Se saluer d'un signe de tête** – Başı ilə salamlaşmaq (Il se salue ses amis d'un signe de tête). **Coller une baffe** –Şillə ilişdirmək (je veux lui coller une baffe). **Semer de l'argent** - pul xərcləmək.(Il faut semer de l'argent pour en récolter). **Arriver au but** – Məqsədə çatmaq (Pour arriver au but, il faut être tétu). **Bourrer la tête de quelqu'un de quelque chose** - Kiminsə başını doldurmaq. (Voici toutes les réponses Bourrer la tête de quelqu'un de quelque chose). **Demander de l'aide** – Kömək istəmək (Ils ne devraient pas avoir à sombrer dans la pauvreté et demander l'aide des banques alimentaires). [12] **Demander le compte -** hesab soruşmaq (Quand un individu agit constamment de manière irrespectueuse avec les autres, on devrait lui demander des comptes). **Demander des conseils** – Məsləhət almaq (Bien des gens qui viennent demander des conseils n'ont aucune idée du montant de leurs dépenses et de leurs dettes). **Demander l'asile -** Sığınacaq istəmək (Qu'est-ce qu'une demande d'asile et qui peut demander cette forme de protection en France?). **Demander la main** – Elçi getmək (Prince, je vous demande la main de madame la comtesse Isabelle de Lineuil, votre fille). **Briser la resistance -** Müqavimətini qırmaq **(**C'était une guerre de plus en plus sale, où la terreur servait de stratégie pour tenter encore une fois de briser la résistance des civils). **Ouvrir le compte -** hesab açmaq (Pour ouvrir votre compte en ligne : 4 étapes suffisent!) **Placer en détention -** həbsə salmaq(Entre 13 et 16 ans, ils ne peuvent être placés en détention provisoire que dans deux cas). **Blanchir l'argent -** pul "ağartmaq" (Pour blanchir leur argent, les criminels ont également recours aux techniques suivantes). **Tirer la leçon** - dərs götürmək (Il encourage les participants à tirer une leçon de cet atelier : continuer à bâtir divers réseaux individuels, à construire ces réseaux et à les garder actifs et vivants!) **Picoler à cul sec** – Həddən çox içki içmək. **(**Lors d'une célébration, il peut arriver que l'on picole un verre ou une bouteille "cul sec). **Capter la chaine** – Kanal tutmaq (Et Fox News est encore plus populaire, mais nous ne pouvons pas capter cette chaîne). **Capter l'attention** – Diqqət cəlb etmək (Les 7 façons de capter l'attention de quelqu'un!) **Justifier cette idée** – Fikri əsaslandırmaq (Je ne trouve aucun précédent pour justifier cette idée). **Lancer des flammes** – «od püskürmək" (Il aura la force de dix hommes... et ses yeux pourront lancer des flammes**). Porter les fardeaux les uns des autres** – Başqasının yükünü daşımaq **(**La Bible, en particulier dans le Nouveau Testament, met l'accent sur l'importance de porter les fardeaux les uns des autres comme moyen d'accomplir la loi du Christ). **Porter une santé** – Sağlıq demək (À la fin du repas, on porta des santés). **Trouver l'issue** – Çıxış yolu tapmaq (Il faut pouvoir passer à autre chose, survoler ce labyrinthe afin d'en trouver l'issue, faire comme si le ressentiment n'avait pas de passé raciner au pouvoir). **Trouver un moment** – Məqam tapmaq (Il doit à présent trouver un moment approprié pour le faire). **Devenir stérile -** Qısır olmaq (J'ai peur de devenir stérile». C**ouper le pont-** əlaqələri kəsmək (Dans l'esprit des bonshommes (il prononçait bonhommes) c'est une manière de couper les ponts derrière eux, ils en ont l'habitude**). Sacrifier sa vie**

- Həyatını qurban vermək (Nous devons essayer de changer ce monde où la haine peut mener une personne à sacrifier sa vie pour massacrer d'innocentes victimes). **Apporter de la joie -** sevinc gətirmək (Un enfant peut apporter de la joie et de l'amour et procurer aux femmes et aux hommes le sentiment d'avoir un but et de valoir quelque chose). **Se sentir dans son assiette** – Özünü narahat hiss etmək (Quelqu'un s'est plaint de ne pas se sentir dans son assiette au retour?). **Se sentir comme sur les épines -** Özünü tikan üstündə hiss etmək (Quand il est à Bakou, Il se sent comme sur les épines). **Respecter une minute de silence** – bir dəqiqəlik sükutla yad etmək **(**Demain à midi, cette Assemblée respectera une minute de silence en hommage aux enfants victimes de l'horreur à Beslan**). Hisser le drapeau** – Bayraq ucaltmaq (La cérémonie du matin pour hisser le drapeau sur la colline du Parlement gravitera autour du thème du centenaire de la Marine canadienne). **Négliger ses affaires** – İşlərini başlı-başına buraxmaq (Lors de la création de votre société, il est donc important de ne pas négliger ses affires). **Prodiguer les conseils – Tövsiyə vermək (**Elle entretient savamment le mythe autour de ses produits en publiant de nombreux ouvrages dans lesquels elle prodigue des conseils de beauté et de nutrition). **Féliciter du fond du cœur** – Qəlbinin dərinliyindən təbrik etmək (Je vous félicite du fond de mon coeur : un salut du fond du cœur à vous tous, hommes, femmes, jeunes filles et garçons). **Sécouer la vue** – Gündəmi silkələmək (Cette information a sécoué la vue de la France**). Voir le jour – Gün görmək (**L'accouchement de ma femme a été très compliqué. Heureusement, le médecin qui s'occupait d'elle était très compétent et mon fils a pu voir le jour sans problème). **Faire face à** – Öhdəsindən gəlmək (Mais la hotte de cuisine peut aider à faire face à ce problème). F**aire la navette – g**ediş-gəliş etmək (Sans voiture, vous ne pouviez certainement plus faire la navette). **Lever les vêtements** – paltarlarını çıxarmaq. **Aller au-delà de qch** – Haşiyə çıxmaq (La législation ne lui permet pas d'aller au-delà). **Perdre le fil** – Kələfin ucunu itirmək (Je ne sais plus où j'en étais, vous m'avez fait perdre le fil de mon discours). **Parler derrière le dos des gens** – Adamların arxasınca danışmaq.(Comment appelle-t-on les gens qui parlent derrière votre dos, mais n'aiment pas que l'on fasse pareil pour eux?). **Verser des larmes de crocodile -**timsah göz yaşları axıtmaq(Et il me plante là en disant: - Cesse de verser des larmes de crocodile !)[13] Bütün bu ifadələr fransız dilində, ictimai leksikada daha aktiv istifadə olunan leksik vahidlərin müəyyən bir hissəsidir.

ƏDƏBİYYAT

1.B.B İsmayılov, Grammaire française Syntaxe 1. Bakı, "Nurlan", 2008, 256 səh.

2.Roland Eluerd tome-1 Pour aborder la linquistique, Les Editions ESF, 17, rue, Viète, 75017 Paris, 160 səh.

3.V.Q. QAK, V.V.Qriqorev, "Teoriya i Praktika Perevoda" Moskva, "İnterdialekt" 2005, 454 səh.

4.B.B. İsmayılov, O.A. Əmirbəyov “Phonetique Française”, Bakı, “Nurlan” 2006 310 səh.

5.Simon Bouquet, “İntroduction à la lecture de Saussure” Paris, Edition Payot-Rivages, 1997, 391 səh.

6. Həsrət Həsənov, Müasir Azərbaycan dilinin leksikası, Bakı, “Nurlan” 2005, 452 səh.

7.Ayyət Əhməd Le Français Professionnel et Pratique, Bakı, «Ecoprint» 2023, 472 səh.

8. https://www.cairn.info/la-semantique--9782130548560-page-63.htm?fbclid=IwAR3hF Yvv YVWdE1q_UA1Yz BeEsr5OGmv_ZFDGe2 SYuosfeVEMP2Wj_7GSGRY

9. https://hal.science/hal-00934830/document? fbclid=IwAR2vYy9 GimBak9zJiBNLg2t6E-lNzkhUcRlv0U-nmS2BN9JKGSN9_KPvEBg

10. https://fac.umc.edu.dz/fll/images/cours-fran%C3%A7ais/M1/ Sciences%20du%20 langage/ M1 %20SL%20lexico%20sem%20Bellilet.pdf?fbclid=IwAR265pPzy FjUjC7 UzJTeoKyPM6-rX8UhjEO68kKgIu6B3inc3bgh7_45nKQ

11. https://journals.openedition.org/linx /730?fbclid=IwA R1V_uhoAZBcBxUsnFphr Y6Tih6PWReoTsNZNXwYGA4zI89sGkeVfv2PYQk

12. https://www.lalanguefrancaise.com/dictionnaire/definition/unite-lexicale?fbclid= Iw AR28MakPZ scJJ9FvG5 zIY4s76nQoFRsdprm PwxRVwEhRkGZ5hKNKcBNxvMg#0

13. https://www.linguee.fr/francais-anglais/traduction/la+question+ se+pose+ plut% C3 %B4t+ pour.html

АБДУЛЛАЕВ. А.А

ОБЩИЙ СЛОВАРЬ ВО ФРАНЦУЗСКОМ И ЕГО ФУНКЦИОНАЛЬНЫЕ ХАРАКТЕРИСТИКИ

РЕЗЮМЕ

Общественная лексика занимает важное место в лексике современного французского языка. Во французском языке социальные выражения и термины состоят из разных лексических систем. Лексические системы отдельных предметных областей образуют микросистемы. В различных сферах общественной жизни регулярно происходят интенсивные изменения. Общественный лексикон составляют выражения, связанные с

новым отношением к событиям общественной жизни, изменениями в средствах производства, философском мировоззрении людей. Соответственно, каждое изменение образует новые простые и глагольные словосочетания. Эти фразы входят в лексический фонд людей и способствуют более полному, точному и плавному выражению мысли. В этом смысле лексические единицы, выражающие новое социальное содержание, употребляются как в прямом, так и в переносном смысле. А

иногда удается выразить идеи, которые, кажется, трудно выразить точнее, через выражения, рожденные из социального лексикона.

Ключевые слова: морфема, лексема, лексические единицы, общественный лексикон, монема, синтагма.

ABDULLAYEV.A.A

COMMON VOCABULARY IN FRENCH AND ITS FUNCTIONAL CHARACTERISTICS

SUMMARY

The public lexicon occupies an important place in the vocabulary of the modern French language. In French, social expressions and terms consist of different lexical systems. Separate domain lexical systems form microsystems Regularly intensive changes take place in various spheres of social life. The public lexicon consists of expressions related to a new attitude to events in social life, changes in the means of production, and people's philosophical outlook. Accordingly, each change forms new simple and verb phrases. These phrases enter the lexical fund of people and encourage a more complete, accurate and smooth expression of the thought. In this sense, lexical units expressing new social content are used both literally and figuratively. And sometimes it is possible to express the ideas that

seem difficult to express more precisely, through the expressions born from the social lexicon.

Key words: morpheme, lexeme, lexical units, public lexicon, monem, syntagm

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Nərgiz Seyidova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏHMƏDLİ MAYA PAŞA QIZI
Azərbaycan Memarlıq
və İnşaat Universiteti

AZƏRBAYCAN DİLİNDƏ FEİLİN QAYIDIŞ NÖVÜ VƏ ONUN İNGİLİS DİLİNDƏ QARŞILIĞI

Xülasə

Məqalədə Azərbaycan dilində feilin qayıdış növü və onun ingilis dilində qarşılığından bəhs edilir. Semantik baxımdan universal xarakter daşımasına baxmayaraq, feilin qayıdış növü bir çox dillərdə konkret qrammatik ifadə vasitələrinə malik olduğu halda digər dillərdə həmin məna ayrı-ayrı leksik vasitələrlə ifadə olunur. Azərbaycan dilində feilin qayıdış növü passiv növlə eyni morfoloji əlamətlərə malikdir. Qeyd edilir ki, ingilis dilində feilin qayıdış növü probleminin əsas səbəbi qayıdış növ və qayıdışlıq mənası anlayışlarının qarışdırılmasıdır. Bu dildə müxtəlif ifadə vasitələrinə malik olan qayıdışlıq mənası mövcuddur, lakin feilin qayıdış növü yoxdur. Bəzi dilçilərin ingilis dilində feilin qayıdış növünü qəbul etməsi məhz bu dildə qayıdışlıq kateqoriyasının mövcudluğu ilə bağlıdır. Lakin qayıdışılq kateqoriyasının mövcud olması qayıdış növün mövcudluğunu şərtləndirmir.

Felin qayıdış növü təsirli feillərdən düzəlir. Həmin feillər müxtəlif qayıdış növ şəkilçiləri qəbul edərək təsirsiz feillərə çevrilir. Azərbaycan dilində mövcud olan feilin qayıdış növü ingilis dilində, əsasən, öz təzahürünü qayıdış əvəzliyi ilə tapır. Məhz bunun nəticəsidir ki, bir çox tədqiqatçılar müasir ingilis dilində felin qayıdış növFeilin bu növü işi görənlə üzərində iş icra olunan əşyanın arasındakı münasibəti bildirir;burada subyekt eyni zamanda obyekti də əvəz edir.Başqa sözlə desək,subyekt eyni zamanda obyekt hesab olunur,işin icrası onun üzərinə düşür.Belə feillərin obyektini subyektin özündən xaricdə axtarmaq doğru deyildir.ünün mövcudluğundan danışırlar.

Açar sözlər: feil, qayıdış növ, aktiv növ, passiv növ, subyekt, obyekt,

Резюме

В статье говорится о возвратном типе глагола в азербайджанском языке и его эквиваленте в английском языке. Несмотря на свой универсальный характер, с семантической точки зрения, возвратный тип глагола во одних языках имеет конкретные грамматические средства выражения в то время как в других языках то же значение выражается отдельными лексическими средствами. В азербайджанском языке возвратная форма глагола имеет те же морфологические особенности, что и пассивная форма. Отмечается, что основной причиной проблемы типа возвратности глагола в английском языке является смешением понятий типа возвратности и значение возвратности. В английском языке есть значение возвратности, которое имеет различные средства выражения, но у глагола нет типа возвратности. Тот факт, что

некоторые лингвисты принимают за возвратный тип глагола в английском языке, обусловлен существованием в этом языке категории возвратности. Однако существование возвращаемой категории не подразумевает существование возвращаемого типа.

Возвратный тип глагола образуется из активных глаголов. Эти глаголы становятся пассивными глаголами, принимая различные типы возвратных суффиксов. Возвратная форма глагола, существующая в азербайджанском языке, в английском языке, в основном, выражается возвратным местоимением. Именно вследствие этого многие исследователи говорят о существовании возвратного типа глагола в современном английском языке.

Ключевые слова: глагол, возвратная форма, пассивная форма, активный глагол, обект, субект

Summary

The article talks about the reflexive type of the verb in Azerbaijani and its equivalent in English. Despite its universal character from the semantic point of view, in many languages the reflexive type of the verb has specific grammatical means of expression, while in other languages the same meaning is expressed by separate lexical means. In Azerbaijani, the reflexive form of the verb has the same morphological features as the passive form. It is noted that the main reason for the problem of the type of the verb in English is the confusion of the concepts of reflexive type and the meaning of return. This language has the meaning of reflexive, which has various means of expression, but the verb has no reflexive type. The fact that some linguists accept the reflexive type of the verb in English is due to the existence of the category of in this language. However, the existence of a reflexive category does not imply the existence of a reflexive type.

The reflexive type of the verb consists of active verbs. Those verbs become passive verbs by accepting different types of reflexive suffixes. The reflexive form of the verb that exists in the Azerbaijani language is mainly expressed in the English language with the reflexive pronoun. It is as a result of this that many researchers talk about the existence of the reflexive type of the verb in modern English.

Keywords: verb, reflexive form, passive form, object, active verb, passive verb

Feilin qayıdış növü bir çox dillərdə konkret qrammatik ifadə vasitələrinə malik olduğu halda, digər dillərdə həmin məna ayrı-ayrı leksik vasitələrlə öz təzahürünü tapır.

Qayıdış növ bütün müasir türk dillərində mövcuddur. Hətta qayıdış növün ulu türk dilində olmasını güman etməyə bütün əsaslar var. Müasir Azərbaycan dilində feilin qayıdış növü konkret qrammatik ifadə vasitələrinə malikdir [1, s.260] .

Feilin bu növü işi görənlə üzərində iş icra olunan əşyanın arasındakı münasibəti bildirir;burada subyekt eyni zamanda obyekti də əvəz edir.Başqa sözlə

desək,subyekt eyni zamanda obyekt hesab olunur,işin icrası onun üzərinə düşür.Belə feillərin obyektini subyektin özündən xaricdə axtarmaq doğru deyildir.

Müasir ingilis dilində feilin qayıdış mənasının ifadəsi haqqında söylənən fikirlər bir-birindən əsaslı surətdə fərqlənir. Tədqiqatçıların həmin məsələyə münasibətini iki qrupa ayırmaq olar: **a)**müasir ingilis dilində feilin qayıdış növü mövcuddur; **b)** müasir ingilis dilində feilin qrammatik qayıdış növü mövcud deyil. Qayıdış növ haqqında xüsusi tədqiqat aparan Ş.Q.Qulubəyli qeyd edir ki, bu gün qayıdışlıq anlayışına xas olan invariant mənanın müxtəlif variant və çalarlarının, eləcə də onların dilin müxtəlif yaruslarına aid olan ifadə vasitələrinin tədqiqi son dərəcə aktualdır. Çünki feillə bağlı əksər kateqoriyalar universal xarakter daşıyır [2, s.3].

Dilçilik ədəbiyyatında qayıdışlıq, eləcə də qayıdış növ haqqında müxtəlif dövrlərdə fərqli fikirlər söylənmişdir. Müasir ingilis dilində qayıdışlıq kateqoriyasının mübahisəli izahı belə bir vəziyyətlə bağlıdır. Bir linqvistik kateqoriya kimi qayıdışlığın bu dildə özünəməxsus ifadə vasitələri var və o elə aydın şəkildə ifadə olunur ki, semantik prinsiplər nöqteyi-nəzərindən onun mövcudluğunu qəbul etməmək qeyri-mümkündür. Lakin, eyni zamanda, həmin vasitələr feilin qrammatik növ kateqoriyasının ifadə vasitələri deyil.

Deməli, ingilis dilində feilin qayıdış növü probleminin əsas səbəbi qayıdış növ və qayıdışlıq mənası anlayışlarının qarışdırılmasıdır. Bu dildə müxtəlif ifadə vasitələrinə malik olan qayıdışlıq mənası mövcuddur, lakin feilin qayıdış növü yoxdur. Bəzi dilçilərin ingilis dilində feilin qayıdış növünü qəbul etməsi məhz bu dildə qayıdışlıq kateqoriyasının mövcudluğu ilə bağlıdır. Lakin qayıdışılq kateqoriyasının mövcud olması qayıdış növün mövcudluğunu çərtləndirmir.

Qayıdışlıq kateqoriyası daha geniş anlayışdır və qayıdış nğv həmin kateqoriyanın ifadə vasitələrindən biridir. Ş.Q.Qulubəyli qeyd edir ki, qayıdışlıq dedikdə hərəkətin subyekt və obyektinin eynireferentliyinin ifadə olunduğu istənilən məna nəzərdə tutulur, yəni semantik planda subyekt eyni zamanda hərəkətin obyekti olursa, deməli, ifadə vasitələrindən asılı olmayaraq qayıdışlıq ifadə olunur. Aşağıdakılar obyekt ola bilər:

1. a) subyekt bütövlükdə; b) subyektin, daha doğrusu, subyektin bədəninin bir hissəsi;

2. a) subyektin fiziki vəziyyəti; b) subyektin daxili, ruhi vəziyyəti;

3. a) şəxs və ya qeyri-şəxsdən ibarət olan canlı subyekt; b) cansız subyekt.

Verilən bu tərifdən belə bir ümumi nəticəyə gəlmək olar ki, icraçının icra etdiyi hərəkət onun özünə qarşı yönəlmiş, istiqamətlənmiş olur.

Azərbaycan dilində feilin qayıdış növü tarixən passiv növlə eyni olmuş və eyni məna ifadə etmişdir. Təsadüfi deyil ki, iki növ ayrıca formalaşdıqdan sonra da eyni morfoloji əlamətə malikdir: **-ıl,-il, -ul, - ül** *, -ın* **-in, -un, -ün** [3, s.147].

Eyni zamanda Azərbaycan dilçiliyində belə bir fikir də söylənir ki, **-ıl, -il, -ul, -ül** şəkilçiləri, əsasən, passiv növün işlənməsində, **-ın, -in, -un, -ün** şəkilçiləri isə

qayıdış növün yaranmasında iştirak edir. Şübhəsiz, burada bu və ya digər feilin leksik mənası mühüm rol oynayır [4, s.253]. Məsələn,

1. *Çayın suyu çəkildi (qayıdış növ).*

2. *Çayın suyu tarlaya çəkildi (passiv növ).*

Birinci cümlənin işləndiyi mətni belə təsəvvür etmək olar. *Çayın suyu çəkildi sonra biz çayı keçdik.* Bu cümləni aktiv növə çevirmək olmaz, çevirsək də çox süni səslənir. Lakin ikinci cümləni asanlıqla aktiv növə çevirmək olar: *Sakinlər çayın suyunu tarlaya çəkdilər.*

Passiv növ ilə qayıdış növü fərqləndirmək üçün aşağıdakıları nəzərə almaq lazımdır

1. Passiv növün işləndiyi cümlələrdə obyekt subyekti əvəz edir, qayıdış növdə isə subyekt bildirən söz fəal olur və obyektə ehtiyac qalmır. Məsələn,

Sona döşəməni yudu → Döşəmə yuyuldu (passiv növ).

Sona üzünü yudu → Sona yuyundu (qayıdış növ).

Deməli, qayıdış növdə subyekt fəal olduğu üçün obyekt bildirən söz öz əhəmiyyətini itirir.

2.Passiv növdə hərəkətin kim tərəfindən icra olunduğunu əksər hallarda bərpa etmək mümkündür, lakin qayıdış növdə bunu etmək mümkün deyil.

Məktub yazıldı → Məktub Əli tərəfindən yazıldı.

Gül açıldı cümləsində belə dəyişiklik aparmaq olmaz. Ona görə ki, qayıdış növdə hər bir halda mübtəda fəaldır.

3. Passiv növ, əsasən, üçüncü şəxsə, qayıdış növ isə hər üç şəxsə aid ola bilir.

Məktub göndərildi – Məktublar göndərildi (Passiv növ).

Mən geyindim – Biz geyindik.

Sən geyindin – Siz geyindiniz.

O geyindi – Onlar geyindilər.

Eyni zamanda elə feillər də vardır ki, feilin passiv növündə birinci və ikinci şəxslərə də aid ola bilir. Belə hallarda icra olunan hərəkət danışan şəxsə yönəlir:

Mən döyüldüm. → Onlar məni döydü.

Sən döyüldün. → Onlar səni döydü.

O döyüldü. → Onlar onu döydü.

Biz döyüldük. → Onlar bizi döydülər.

Siz döyüldünüz. → Onlar sizi döydülər.

Onlar döyüldülər. → Onlar onları döydülər.

Bir qayda olaraq feilin qayıdış növü təsirli feillərdən düzəlir. Həmin feillər müxtəlif qayıdış növ şəkilçiləri qəbul edərək təsirsiz feilə çevrilir.

M.Mirzəliyeva qeyd edir ki, müasir Azərbaycan dilində qayıdış növ şəkilçilərinin təsirsiz feillərlə işlənməsi hallarına təsadüf edilmir. İndi konkret olaraq dil nümunələrinə müraciət edək:

1.*Gözləri şeh ilə dolmuş çiçəklər yavaş-yavaş açılırdı.*

2. *Təpələrin ağız-ağıza qovuşduğu yerə çatanda gözünü yumub atın yalına yatdı. Kəhər götürüldü.*

3. *Üstü dəyəli arabaların böyründə ocaq tüstülənirdi.*

4. *O, yenidən çırpındı. Canını qurtarmaq üçün var-qüvvəsini toplayıb dartındı.*

5. *Güləsər uçum-uçum uçunurdu.*

Nümunələrdəki qayıdış növ şəkilçiləri ilə passiv növ şəkilçilərinin eyni olmasına baxmayaraq, söhbət feilin qayıdış növündən gedir. Həmin cümlələrin heç birində əsas meyar olan – passiv növün aktiv növə transformasiyası mümkün deyil. Məsələn, birinci cümləni – *Çiçəklər açılırdı – Onlar çiçəkləri açırdılar* şəklində işlətmək qeyri-mümkündür, çünki bu, reallığı düzgün əks etdirmir. İkinci meyarı da tətbiq etmək mümkün deyil, yəni hərəkətin subyektini bərpa etmək olmur. *O, dartındı* cümləsində kim tərəfindən dartınmasını söyləmək məntiqi baxımdan düzgün səslənmir. Həmin cümlələrdə icra olunan hərəkət bilavasitə subyektin özünə qarşı yönəlmiş olur.

Qeyd etmək lazımdır ki, müasir Azərbaycan dilində feilin qayıdış növü digər şəkilçilərlə də ifadə oluna bilir. Formaca aktiv növə oxşasa da, ifadə etdiyi məna baxımından o qayıdış mənası ifadə edir. Həmin şəkilçilərə aşağıdakılar daxil edilir.

-lan, -lən: *O, həyəcanlandı. O, şənləndi.*

-laş, -ləş: *O, uzaqlaşdı. O, gözəlləşdi.*

-ıq, -ik, -ux: *O, gecikdi. O, darıxdı.*

Dildə elə şəkilçilər vardır ki, onların bu və ya digər qrupa aid edilməsi bir qədər mübahisə doğurur. Belələrinə feilin məna növlərinin şəkli əlamətlərini nümunə göstərmək olar. Biz, xüsusilə sözyaratmada əvəzsiz rol oynayan leksik, yəni sözdüzəldici şəkilçilərdən, formadüzəldici və qrammatik şəkilçilərdən, eləcə də bu şəkilçilərin əmələ gətirdiyi leksik, semantik, qrammatik, frazeoloji xüsusiyyətlərdən bəhs etməklə əslində türk dillərində feilin məna növlərinin söz yaradıcılığı prosesinə münasibətini də aydınlaşdırmış oluruq.

Bu sahədə elmi axtarış və araşdırmalar nə qədər dəyərli və qiymətli olsa da, dilçilikdə bu məsələdə qəti fikir ayrılığına son qoyulmamışdır. Təsadüfi deyildir ki, hələ bu gün də məna növ şəkilçili feillərin quruluşca düzəltmə sayılıb-sayılmaması məsələsi dəqiqləşdirilməmişdir.

Deməli, məna növ şəkilçilərinin düzəltmə feil əmələ gətirdiyini söyləmək, əslində həmin şəkilçilərin sözdüzəldici olduğunu iddia etmək olardı. İlk növbədə məna növ şəkilçilərinin mənşəyini, onların yaranma və inkişaf tarixini, kəsb etdiyi xüsusiyyətləri müəyyənləşdirməli, həmin şəkilçilərin dildə daşıdığı vəzifəni dəqiqləşdirməliyik.

Dilçilik ədəbiyyatında, o cümlədən türkologiyada şəkilçilərin funksiyalarına görə müxtəlif qruplara ayrıldığı dəfələrlə qeyd edilmişdir. Grammatika kitablarının bəzilərində vəzifələrinə görə şəkilçiləri ənənəvi olaraq iki yerə ayırırlar: *1) sözdüzəldici və 2) sözdəyişdirici.*

Bu cür bölgünü qəbul edən dilçilər feilin məna növ kateqoriyasına məxsus morfoloji əlamətləri sözdüzəldici şəkilçilər sırasına daxil edirlər [5, s.106].

S.Cəfərov həmin bölgü ilə razılaşmayaraq yazır: "Belə bir bölgü şəkilçilərin mahiyyətini, onların əsas funksiyalarını və bütün semantik xüsusiyyətlərini meydana çıxara bilmədiyi kimi, leksika və qrammatika arasındakı tərkibi əlaqə və münasibəti də tamamilə açа bilmir» [6. s.78].

Dilçilərin digər bir qismi mövcud şəkilçiləri üç yerə ayırır: *1) sözdüzəldici; 2) sözdəyişdirici; 3) formadüzəldici.*

Elə buradaca bir məsələyə də toxunmaq istərdik. Söhbət - *lan,-lən, həmçinin - laş,- ləş* və *-lat,-lət* şəkilçilərinin təşəkkül və inkişafından gedir. *-lan², -laş², -lat²* formal əlamətlərindəki - *n, -ş və -t* ünsürləri bəzən məna növ şəkilçiləri kimi qəbul edilmir. Yəqin ki, bu zaman bəzi feillərdə həmin şəkilçilərin tərkib hissələrinə ayrılmadığı əsas götürülür [7.s.30].

Elə buradaca bir məsələyə də toxunmaq istərdik. Söhbət - lan,-lən, həmçinin - laş,- ləş və -lat,-lət şəkilçilərinin təşəkkül və inkişafından gedir. -lan², -laş², -lat² formal əlamətlərindəki - n, -ş və -t ünsürləri bəzən məna növ şəkilçiləri kimi qəbul edilmir. Yəqin ki, bu zaman bəzi feillərdə həmin şəkilçilərin tərkib hissələrinə ayrılmadığı əsas götürülür.

Qayıdış növünə xas olan xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, bu növdə işlənən feil *öz* qayıdış əvəzliyini tələb edir. Məsələn, *O, özünü bəzədi.* Eyni zamanda bu əvəzlik düşə də bilər: *geyinmək, soyunmaq, çırmanmaq, burulmaq* və s. feillər qayıdış növdə öz əvəzliyi ilə işlənə bilmir. Dil nümunələrinə müraciət edək.

1. *Dinməz-söyləməz paltarını geyindi.*

2. *Çərkəz suyun qırağına çatan kimi paltarını soyundu.*

Bizcə, *öz* əvəzliyinin düşməsi ondan irəli gəlir ki, paltar ismində mənsubiyyət şəkilçisinin işlənməsi sanki ona maneçilik törədir. Verilən bu qısa məlumatdan belə qənaətə gəlmək olar ki, müasir Azərbaycan dilində feilin qayıdış növü çox mürəkkəb və rəngarəng ifadə xüsusiyyətlərinə malikdir. Xüsusən, qayıdış növün morfoloji ifadə vasitələri öz müxtəlifliyinə görə daha çox diqqəti cəlb edir.

Sual oluna bilər: Müasir ingilis dilində feilin qayıdış növü məsələsi necə təqdim edilir?

Müasir ingilis dilində feilin iki növü var: *aktiv növ, passiv növ*. Düzdür, feilin qayıdış, qarşılıq və orta növlərinin mövcudluğu haqqında fikir söyləyənlər də yox deyil.

Həmin müəlliflər məsələyə qrammatik forma baxımından yanaşaraq müasir ingilis dilində iki növün îlmàsı fikrinə tərəfdar çıxırlar. Onlar qayıdış və qarşılıq növün olması fikri ilə razılaşmırlar. Onlar belə hesab edirlər ki, **1)** *He washed himself. She dressed herself* tipli cümlələrdə qayıdış mənası feillə deyil, tamamlıq funksiyası daşıyan qayıdış əvəzliyi ilə ifadə olunur; **2)** *washed* və *himself* sözləri başqa-başqa nitq hissələrinə mənsub sözlərdir. Onlar müxtəlif leksik və qrammatik mənalara malikdir; **3)** əgər *washed himself* birləşməsini analitik söz hesab etsək, o

zaman feilin cins kateqoriyasına malik olduğunu qəbul etməliyik, çünki biz wash himself deyə bildiyimiz kimi *wash herself* də deyə bilərik, *himself* kişi, *herself* isə qadın cinsinə malikdir. Bu isə mümkün deyil; **4)** Bir sıra hallarda qayıdış mənası qayıdış əvəzliyi olmadan da ifadə edilə bilər. Məsələn, *He dressed quickl*y.

Təxminən eyni sözləri bu müəlliflər *washed each other, washed one another* birləşmələri haqqında da söyləyirlər. Beləliklə, də həmin müəlliflər müasir ingilis dilində yalnız iki növün (*aktiv növün, passiv növün*) olması fikrinə tərəfdar çıxırlar [8.s.130]. Bir daha təkrar etmək istərdik ki, biz də müasir ingilis dilində feilin iki növünün olması fikrini əsas götürürük. Belə bir vəziyyətdə məntiqi sual meydana çıxır. Bu iki növ Azərbaycan dilində hansı vasitələrlə öz təzahürünü tapır?

Dil nümunələrinin təhlili göstərir ki, bu suala iki aspektdən cavab vermək olar. Birincisi və ən əsası ondan ibarətdir ki, Azərbaycan dilində mövcud olan feilin qayıdış növü ingilis dilində, əsasən, öz təzahürünü şəxs və yiyəlik əvəzliklərinin sonuna self(tək şəxslər) və selves(cəm şəxslər) sonluqlarını artırmaqla qayıdış əvəzliyi vasitəsilə tapır. Məhz bunun nəticəsidir ki, yuxarıda qeyd edildiyi kimi, bir çox tədqiqatçılar müasir ingilis dilində feilin qayıdış növünün mövcudluğundan danışırlar. Dil nümunələrinə müraciət edək.

1. *And Lord Henry flung himself down on the sofa, and opened his cigarette case*

- Lord Henri özünü divanın üstünə atdı və siqaret qutusunu açdı.

2. *When I find that I am growing old, I shall kill myself - Mən qocaldığımı hiss edəndə özümü öldürəcəyəm.*

3. *He threw himself into a chair, and began to think - O, özünü stulun üstünə atdı və fikirləşməyə başladı.*

4. *When we blame ourselves we feel that no one else has a right to blame us. - Biz özümüzü günahlandıranda hiss edirik ki, heç kəsin bizi günahlandırmağa hüququ yoxdur.*

5. *I am so sorry you have given yourself, the trouble of coming. - Mən təəssüflənirəm ki, siz buraya gəlməkdə özünüzə əziyyət vermisiniz.*

Nümunələrdən göründüyü kimi hər bir halda öz qayıdış əvəzliyinin qarşılığı kimi müasir ingilis dilində qayıdış əvəzlikləri işlənir. Eyni zamanda heç də bütün hallarda qayıdış əvəzliklərinin işlənməsi feilin qayıdış növünün qarşılığı kimi özünü göstərmir. Odur ki, qısaca olaraq müasir ingilis dilində qayıdış əvəzliklərinin ifadə etdikləri məna variantlarına nəzər salmaq yerinə düşərdi. İngilis dilçiliyində belə bir fikir söylənir ki, ənənəvi şəkildə qayıdış əvəzliyi kimi adlandırılan *self pronouns* iki qrupa ayrılır: **a)** qayıdış əvəzliklər; **b)** emfatik əvəzliklər. Bu fikrin əsas tərəfdarlarından biri V.N.Jiqadlo və b. müəlliflərdir. Onlara görə mübtəda tərəfindən icra olunan hərəkətin özünə qayıtdığını göstərən əvəzliklər qayıdış əvəzlikləri, xüsusi intonasiyaya malik olan və əlavə kimi çıxış edən əvəzliklər isə emfatik əvəzliklər adlanır [3.s.57-58].

Qeyd etmək istərdik ki, göstərilən bu fikir əksər dilçilər tərəfindən qəbul edilmir. Bizim zənnimizcə, adı çəkilən əvəzlikləri süni olaraq iki qrupa ayırmaq reallığı düzgün əks etdirmir.

Deməli, qayıdış əvəzliyinin bütün hallarda işlənməsi Azərbaycan dilində mövcud olan qayıdış növün qarşılığı kimi çıxış etmir. Nümunələrdə də olduğu kimi belə hallarda qayıdış əvəzliyi təsirli feillərdən sonra işlənir. Qayıdış əvəzlikləri əlavə funksiyasında işləndikdə icra olunan hərəkət mübtədanın özünə qayıtmır. Məsələn,

1. No; I did it myself. - Xeyr, mən bunu özüm etdim.

2. Some day you will be in love yourself. - Bir gün özün seviləcəksən.

3. I myself used to receive many bouquets at one time. - Mən özüm eyni vaxtda çoxlu buket alardım.

4. You will see it yourself to-night. - Bu gecə siz onu özünüz görəcəksiniz.

Qayıdış əvəzlikləri əlavə funksiyasında işlənərkən icra olunan hərəkət mübtədaya qarşı yönəlmir. Sadəcə olaraq qayıdış əvəzliyi icra olunan hərəkətin mübtəda tərəfindən yerinə yetirildiyini daha qabarıq şəkildə nəzərə çatdırmaq üçün işlədilir.

Aydın olur ki, qayıdış əvəzliklərinin bütün işlənmə hallarını feilin qayıdış mənası hesab etmək olmaz. Hər bir hala xüsusi olaraq yanaşmaq lazımdır. Bəzi hallarda feilin qayıdış növü ayır-ayrı feillər vasitəsilə də ifadə olunur. Nümunələrə nəzər salaq.

1. I am not surprised. - Mən təəccüblənmirəm.

2. The man bowed and retired. - Kişi təzim etdi və geri çəkildi.

3. He shuddered, and felt afraid…. - O, titrədi və qorxdu.

4. He was amazed at the sudden impression…. - Qəfil təəssüratdan o, heyrətlən(miş)di.

5. I am very much interested in Mr. Gray at present. - Mən hal hazırda Cənab Qreylə daha çox maraqlanıram.

Müasir Azərbaycan dilindəki, qayıdış növün ingilis dilində qarşılığını və ifadə vasitələrini vermək olduqca çətindir, hətta bir çox hallarda bunu etmək qeyri mümkündür.

Aparılan tədqiqatlarda da o fikir əsas götürülür ki, qayıdış əvəzliklərinin işlənməsi hec də müasir ingilis dilində qrammatik qayıdış növün mövcudluğunu göstərmir.

Istifadə olunmuş ədəbiyyat siyahısı

1. Serebrennikov, B.A., Hacıyeva, N.Z. Türk dillərinin müqayisəli-tarixi qrammatikası. / B.A.Serebrennikov, N.Z.Haciyeva. –Bakı: “Səda” nəşriyyatı, – 2002. – 380 s.
2. Qulubəyli, Ş.Q. Müasir Azərbaycan və ingilis dillərində feilin qayıdış kateqoriyası. /Filol.elm.nam. ... dis. avtoref. /– Naxçıvan, 2007. – 22 s.

3. Жигадло, В.Н., Иванова, И.П., Иофик, Л.Л. Современный английский язык. Теоретический курс грамматики. –М.: Из-во литературы на иностранных языках. –1956. – 350 с.
4. Əhmədli, M.P. Müasir İngilis dilində felin növ kateqoriyası haqqında.// AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər, – Bakı: – 2015, № 2, s. 146-151
5. Mirzəliyeva, M.M. Seçilmiş əsərləri. I cild, Türk dillərində felin məna növ kateqoriyası./ M.M.Mirzəliyeva. – Bakı: – 2020. – 204 s.
6. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. -Bakı: -1960, -140 s.
7. Rüstəmov R. Azərbaycan dili dialekt və şivələrində feil. Bakı: -1965, - 120s/
8. Мирзалиева, М.М. Категория залога в современном азербайджанском языке и смежные явления./ Автореф.дис. … канд.фил.наук./ – Баку,1976. –33 s.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məmmədova Aygün tərəfindən çapa tövsiyə olunmuşdur

MEHDİZADƏ GÜNEL ELDAR QIZI
AMEA İ.Nəsimi adına Dilçilik institutu
Email: gunel.meh@gmail.com

İNGİLİS DİLİNDƏN ALINMALAR VƏ ONLARIN MÜASİR DİLÇİLİKDƏ ŞƏRHİ
(müxtəlif anlayışların təhlili və şərhi)

Xülasə. Bu məqalə çərçivəsində dilçilikdə "alınma", "interfernsiya" və "inglisizimlər" anlayışlarını anlamaq üçün müxtəlif yanaşmaları araşdırılır. Burada müxtəlif strukturlu dillərin materialına əsaslanan, dil əlaqələri kontekstində söz alma prosesi ilə bağlı alimlərin fikirlərini ümumiləşdirən aktual tədqiqat təqdim edilir. Müəllif dilin psixolinqvistik, struktur və semantik aspektlərinə əsaslanan fikir və mülahizələri, həmçinin terminologiya və alınmalarla bağlı təsnifatlar haqqında müxtəlif yanaşmaları ətraflı araşdırır. Məqalə alınmanın müxtəlif aspektlərini və onun dil sistemlərinə təsirini dərk etməyin vacibliyini vurğulayır, həmçinin dilçilik tədqiqatları üçün yeni anlayışlar təqdim edir. Onun praktiki əhəmiyyəti dillərin qarşılıqlı əlaqəsi və dil əlaqələri prosesi haqqında biliklərin zənginləşdirilməsindən ibarətdir.

Açar sözlər: dil əlaqəsi, alınma, müasir dilçilik, interferensiya, inglisizimlər

АНГЛИЙСКИЕ ЗАИМСТВОВАНИЯ И ИХ ИНТЕПРЕТАЦИИ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ
(анализ и сопоставление различных концепций)

Аннотация. Данная статья рассматривает разнообразные подходы к пониманию понятий «заимствование», «интерференция» и «англицизмы» в лингвистике. Она представляет актуальное исследование на материале разноструктурных языков, обобщающее точки зрения ученых на процесс заимствования в контексте языкового контакта. Автор подробно рассматривает определения, основанные на психолингвистических, структурных, и семантических аспектах языка, а также различные точки зрения на терминологию и классификацию явлений заимствования. Статья подчеркивает важность понимания различных аспектов заимствования и его влияния на языковые системы, а также предоставляет новые инсайты для лингвистических исследований. Ее практическая значимость заключается в обогащении знаний о взаимодействии языков и процессах языкового контакта.

Ключевые слова: языковой контакт, заимствование, современная лингвистика, интерференция, англицизмы.

ENGLISH BORROWINGS AND THEIR INTERPRETATIONS IN MODERN LINGUISTICS
(analysis and comparison of various concepts)

Annotation. This article examines various approaches to understanding the concepts of "borrowing", "interference" and "englishisms" in linguistics. It presents an up-to-date study based on the material of differently structured languages, summarizing the points of view of scientists on the process of borrowing in the context of language contact. The author examines in detail definitions based on psycholinguistic, structural, and semantic aspects of language, as well as various points of view on terminology and classification of borrowing phenomena. The article highlights the importance of understanding the various aspects of borrowing and its impact on language systems, and also provides new insights for linguistic research. Its practical significance lies in enriching knowledge about the interaction of languages and the processes of language contact.

Key words: language contact, borrowing, modern linguistics, interference, englishisms.

Giriş. Müasir dilçiliyin təfsirində alınmalar dillərin qarşılıqlı əlaqəsi vasitəsilə başqa dillərə yol tapan və onların tarixi inkişafında son dərəcə mühüm rol oynayan əcnəbi sözlərdir. Dilin müasir səviyyəsində də müşahidə edilən bilən alınmalar və onların mənimsənilməsi prosesi çox aktual məsələ olmaqla tədqiqatçıların daim diqqət mərkəzindədir.

Bun ən tipik nümunəsi kimi ingilis dilinə məxsus sözlərin digər dillər tərəfindən mənimsənilməsini nəzərdən keçirmək olar. İngilis dili dünya dilləri arasında aparıcı yer tutur və hazırda dünyada 400 milyondan çox insan üçün bu dil ana dili, 300 milyon üçün ikinci dil, daha 500 milyon üçün isə köməkçi dil funnksiyasını yerinə yetirir. İngilis dili gözəlliyi, melodikliyi, zəngin lüğəti və sadə qrammatikası ilə elm, diplomatiya, biznes və təhsil sahəsində əlverişli dilə çevrilmişdir. Beynəlxalq forumlarda, konfranslarda, hesabatlarda və qanunvericilikdə bu dildən geniş istifadə olunur [6].

İngilis dilindən digər dillərə sözlərin keçidi prosesinin öyrənilməsi ilə bağlı elmi müzakirələr bir neçə əsrdir ki davam etməkdədir. Qloballaşma və vahid mədəni cəmiyyətin yaradılması bizi ona gətirib çıxarır ki, Avropa dillərinin lüğət tərkibi tədricən bir-birinə yaxınlaşaraq vahid unitar blok təşkil edir. Bəzi alimlər bu prosesi Avropa dillərinin "leksikasının uyğunlaşdırılması" adlandırırlar [1, s. 21; 2, s. 92].

"İnglisizimlər" mövzusu akademik və ictimai dairələrdə müxtəlif cəhətlərdən daim müzakirə olunur və nəzərdən keçirilir. Bəzi dilçilər prosesin yalnız mənfi tərəflərini gördükləri halda, digərləri isə xarici dilin təsirinin keçmiş mərhələləri ilə müqayisə edərək, anglisizm dalğasını obyektiv və elmi şəkildə araşdırmağa və onun perspektivi olan müstəvidə təqdim etməyə çalışırlar [4, s.65; 7, s. 189].

2014-cü ildə Höte adına İnstitutun prezidenti Klaus-Diter Lemann "İnglisizmlər dil üçün təhlükə deyil" mövzusuna həsr olunmuş tədbirdə Alman mətbuat agentliyinə verdiyi müsahibədə demişdi: "Alman dili heyrətamiz dərəcədə zəngindir və inglisizmlər bu dil üçün təhlükə deyil. Lakin bəzi bölgələrdə dil və onun məzmunu təhlükə altındadır" [9].

Diaxronik cəhətdən yanaşıldıqda qeyd edilməlidir ki, alman dili, digər dillərdən daha çox xarici dillərin təsirinə qarşı çıxdığı və alınma elementləri öz resursları hesabına yeniləri ilə əvəz etməyə çalışdığı üçün tədqiqat obyekti kimi bizim üçün böyük maraq kəsb edir.

Müşasir dilçilikdə alınmaların tədqiqi tarixindən. Dillərdə alınma problemi mürəkkəb leksik-semantik hadisədir və müasir dilçiliyin çox maraqlı və ciddi məsələlərindən hesab edilir. Kifayət qədər çoxsaylı araşdırmalara baxmayaraq, bu problem dilçilikdə tədqiqatçılar tərəfindən tamamilə fərqli şəkildə şərh olunur və bu sahədə yekdil fikir sərgilənmir.

Məşhur dilçi-alim İ.A.Boduen de Kurtene dillərin "bir-birinə qarışması", onların qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi probleminə diqqət yetirən tədqiqatçılardan biri olmuşdur. O, "dillərin qarışması" prosesini özündə birləşdirən və onların bir-birinə nüfuzetmə prosesini fərdi olanın, xüsusi olan və universal olanın fəlsəfi kateqoriyaları baxımından nəzərdən keçirildiyi yeni yanaşmanı əks etdirən dil alınmaları nəzəriyyəsini işləyib hazırlamışdır. Onun fikrincə, alınma hadisəsi bütün mövcud dillərə xasdır, çünki dünyada alınma sözləri olmayan dil yoxdur, "*alınması olmayan dil bütövlükdə yoxdur və ola da bilməz*" [21, s. 363].

H.Paul isə dillərin bir-birinə nüfuz etməsindən danışaraq, onların bir-birinə "toxunması" haqqında fikirlər irəli sürürdü [11, s. 390].

Alman dilçisi O.Behagel də H.Paul kimi "dil əlaqələri" dediksə "iki dilin bir-birinə toxunması"nı nəzərdə tuturdur [3, s. 128]. Britaniyalı alim D.Kristal da dildə alınmaların əsas səbəbi kimi dillərin bir-biri ilə qarşılqlı mübadilə prosesində olmasını görürdü. O, dil əlaqələri haqqında belə yazırdı: " 'Dil əlaqəsi' termini *sosiolinqvistikada istifadə olunur və coğrafi davamlılıq və ya sosial yaxınlıq səbəbi ilə dillər və dialektlər arasında qarşılıqlı təsir vəziyyətini ifadə edir. Təmas vəziyyətinin nəticəsi kimi, linqvistik baxımdan, alınmaların, fonoloji və qrammatik dəyişikliklərin, qarışıq nitq formalarının artmasıdır. İkidilliliyin müxtəlif növlərinin çoxalması müşahidə olunur*" [5, s.102].

L.V.Şerba isə dillərin bir-birinə təsiri haqqında araşdırmalarında "dillərin qarşılıqlı təsiri" terminini irəli sürmüşdür [32, s. 21]. N.S.Trubetskoy isə "dillərin qarışması" anlayışı ilə bağlı qeydlərində bu anlayışı Babil qülləsində dil və mədəniyyətlərin müxtəlifliyi kimi "dillərin qovuşması" kontekstində nəzərdən keçririr ki, bu da linqvistik konseptdə nəzərdə tutulan "dillərin qarışması"ndan uzaqdır [29].

Alman-ingilis alınmaları probleminə həsr olunmuş əsərlərdə alman dilinə alınma sözlərin leksik səviyyədə keçidlərinin sayının artması faktının amerikalı alim E.Sepirin də araşdırmalarında dəfələrlə öz təsdiqini tapdığını görmək olar [15].

A.A.Reformatski isə əcnəbi sözlərin mənimsənilməsinə formal proses kimi baxırdı: "*Əcnəbi dildən alınmaların mənimsənilməsi, ilk növbədə, onları mənimənsyən dilin qrammatik və fonetik strukturuna tabe etməkdir*" [27, s. 36].

Beləliklə, göründüyü kimi dil əlaqələri ilə bağlı fərqli termilər, anlayışlar, yanaşmalar mövcuddur. Bununla belə düşünürük ki, yuxarıda qeyd edilən yanaşmaların heç birində dil əlaqəsi anlayışının müfəssəl şərhi təqdim edilmir.

Dil əlaqəsi. "Dil əlaqəsi" termini dilçilikdə yaranmış və sosiolinqvisyikanın banisi hesab edilən amerikalı dilçi U.Vaynrayxın təqdim etdiyi tərifdən sonra qəbul edilməyə başladı. O yazırdı: "İki və ya daha artıq sayda dil bir qrup insan arasında eyni bir fərd (şəxs) tərəfindən bir-birini əvəz etməklə işlədildikdə bir-biri ilə təmasda olur" [16, s. 15].

Beləliklə, bu dillər bir fərdin şüurunda yer alır və dilə laqəsi, yəni alınma nəticəsi kimi yalnız cəmiyyətdə linqvistik məna qazanır. Onlardan yalnız cəmiyyətə nüfuz edənlər uzun müddət dilin lüğət tərkibində qalır. Başqa sözlə desək, dil əlaqəsi üçün iki cəmiyyət arasında birbaşa və ya dolayı əlaqənin olması vacib şərtdir.

U.Vaynrayx dil əlaqəsi şərtlərini psixolinqvistik cəhətdən izah edir, bu baxımdan onun yanaşmasında individuallıq ön planda dayanır. U.Vaynrayx bir dilin lüğət tərkibinin niyə əcnəbi sözlərin qəbuluna, yəni sözlərin alınmasına açıq olmasının izahını verir. Bu dilin alt sisteminin strukturundan irəli gəlir.

Yuxarıdakıları ümumiləşdirdikdə, bir daha aydın olur ki, indiyədək həm alınma prosesinin özü, həm də onun tərifi ilə bağlı suallara dəqiq birmənalı cavab yoxdur.

Alınmaların müəyyən edilməsində yanaşmalar. Amerikalı alim E.Haugen alınma sözlər haqqında belə yazır: "*Alınma sözlər, bir qayda olaraq, lakin onlar bir sıra əlaqəli morfemləri tərkiblərində saxlayır*" [30, s. 7, 13]. Digər bir amerikalı alim V.Yanq "*ingilis dilindən, eləcə də onu digər variantlarından (Kanada, Avstralliya, Cənubi Amerika şivələrindən) mənimsənilən bütün alınmaları inglisizmlər adlandırır*" [17, s. 7].

Bu sarada dayanan tədqiqatçılardan olan İ.H.Felizon da alınmanı bir linqvistik vahidin bir dildən digərinə keçidi prosesi kimi səciyyələndirir [12, s. 176].

Rus dilçilərindən Yu.A.Jlutenko və digərləri belə hesab edirlər ki, "*alınmalar dillər arasındakı əlaqələrin itdiyindən sonra da bir zamanlar mövcud olmuş dil əlaqələri əsasında bir dildən başqa dilə keçən elementlərdir*" [21, s. 17]. V.Belkinin fikrinə görə "*Alınma prosesi dillər arasındakı uzunmüddətli əlaqənin nəticəsində bir dilə məxsus elementlərin digər dilin sisteminə daxil olmasıdır*" [20, s. 132]. L.P.Krısinə görə alınma bir proses kimi dilin müxtəlif səviyyələrindən olan elementlərin aktıv şəkildə digər səviyyələrə keçdidir (məsələn fonetikadan leksikaya və s.) [24, s. 12]. Bununla yanaşı o, alınmanı "*səviyyəsi və formaları ilə fərqlənən dil*

materialının bir dil tərəfindən digər dildən dil materialının onların arasında dildənkənar təmaslar nəticəsində mənimsənilməsindən ibarət universal dil hadisəsi" kimi də dəyərləndirir [25, s. 146].

Alman dilçisi P. Fon Polens alınma haqqında iki tərif irəli sürür. Birincisi budur ki, "*alınma dil fəaliyyətinin və tarixi dəyişməsinin tərkib hissəsidir*" [13, s. 76]. İkincisi isə alınmanı "*linqvistik ifadənin B dilindən A dilinə keçid prosesi və nəticəsi kimi xarakterizə edir ki, bu da əsasən A dilində müəyyən hadisələri ifadə etmək üçün müvafiq vasitələrin olmaması ilə baş verir*" [14, s. 54].

Bəzi dilçilər alınmanı proses, digərləri isə bu prosesin nəticəsi kimi dəyərləndirirlər. İ.Çernışeva və M.Stepanov da P. Fon Polens kimi "alınma" termini ilə həm prosesi, həm də onun nəticəsini ifadə edirlər [4, s. 47-49]. S.V.Muxin isə hesab edir ki, "alınma" termini həm proses, həm bu prosesin nəticəsi, həm də konkret şəkildə mənimsənilmiş leksik vahid anlamında işlədilə bilər [26, s. 15].

T.Levandovskiy "alınma söz" dedikdə, "*digər dildən müəyyən bir dilə keçən elə sözləri nəzərdə tutur ki, resipient dilin strukturuna və qanunauyğunluqlarına zidd olaraq, mənbə dilin strukturuna tabe olsun*", "alınma"nın özü isə, onun fikrincə, "*linqvistik ifadənin xarici dildən doğma dilə keçid prosesi və nəticəsi, əsasən qəbul edən dildə dildənkənar reallıqda yaranan obyekt və hadisələrin təyinatı olmadığı hallarda baş verir*" [10]. N.Şanskiy isə "alınma" dedikdə "*müəyyən alınma faktların dillə mənimsənilməsi prosesi*"ni nəzərdə tutur [31, s. 85]. Alınmaların müəyyən edilməsində bu yanaşma yanaşma, sanki, eyni vahid prosesin iki tərəfi kimi bir-biri ilə sıx əlaqəli olan "alınma" və "assimilyasiya" anlayışlarını müəyyən edir.

Bəzi tədqiqatçılar isə "alınma" ilə "interferensiya" anlayışlarını eyniləşdirirlər [21], digərləri isə alınmanı bir dilin digərinin təsiri altında olan formalarındakı struktur və semantik dəyişikliklərlə müqayisə edirlər. Üçüncü bir yanaşma da var ki, bu yanaşmaya görə alınma yalnız ikinci dilin əldə edilməsi prosesini xarakterizə edir və bu dildə əlaqə dəyişiklikləri "alınma" termini ilə təyin olunur [19, s. 46].

XX əsrin ikinci yarısında dilçilər öz elmi tədqiqatlarında alınma prosesini nəzərə alaraq, həm müəyyən sözlərin, həm də dilin struktur elementlərinin bir dildən digər dilə keçməsinin mümkünlüyünə xüsusi diqqət yetirməyə başladılar. O.S.Axmanova da özünün məşhur "Dilçilik terminləri lüğəti"ndə mənimsəmə anlayışının geniş tərifini verməklə eyni nəticəyə gəldiyini sərgiləyir: "*Alınma yeni anlayışları ifadə etmək, mövcud olanlardan daha da fərqləndirmək və əvvəllər naməlum obyektləri təyin etmək üçün digər dillərin leksik fonduna müraciət edilmədir"* [18, s. 150].

Alınmaların əsas məğzini açmaq üçün A.Smirnitskiy [28], L.R.Zinder, T.Stroyeva [23] və digərləri, ilk növbədə, alınma hadisəsini bu anlayışın ikitərəfli təbiəti nöqteyi-nəzərindən, yəni bir dilin elementinin başqa bir dilin leksik tərkibinə nüfuz etməsi prosesi kimi nəzərdən keçirməyi təklif edirlər. Bu fenomenin hər iki aspektini fərqləndirərkən, onlar "alınma" və "alınma söz" terminlərindən istifadə edirlər. A.İ.Smirnitski qeyd edir ki, "*söz əvvəllər mövcud olduğu dilin sistemini*

pozur, başqa bir dilin sisteminə daxil olur və həmin dilin qaydalarına görə uyğunlaşır" [28, s. 234-235, 245].

Bu diferensiasiya əsasən leksika sahəsində həyata keçirilir, çünki, əsasən, sözlər alınma olur. Bunu tədqiqatçılar onunla izah edirlər ki, terminlərdən istifadə "*bu dildə təkcə leksik deyil, həm də müxtəlif dil səviyyələrinin digər elementləri: fonemlər, morfemlər, leksemlər, affikslər, ifadələr*"in mənimsənilməsinə xidmət edir [24, s. 12].

Yuxarıda qeyd edilənləri təhlil etdikdə məlum olur ki, ingilis dilinin dünyanın dil mənzərəsinə təsiri, şübhəsiz ki, müxtəlifsistemli dillərə təsirin bariz nümunəsidir. İngilis dili həyatın müxtəlif sahələrinə, o cümlədən elm, biznes, təhsil və texnologiyaya nüfuz edir. Bu, ingilis dilinin zəngin lüğəti və sadə qrammatikaya malik olması ilə əlaqədardır ki, bu da ondan beynəlxalq ünsiyyətdə istifadəni rahat edir.

Təhlil olunan elmi material alimlərin alınma hadisəsinə müxtəlif baxışlarını və yanaşmalarını sərgiləyir. Bəzi dilçilər bu hadisənin söz ehtiyatını zənginləşdirmək və mədəniyyətlərarası ünsiyyəti asanlaşdırmaq kimi müsbət cəhətlərini vurğulayır, digərləri isə daha ehtiyatlı davranaraq dildə təzahür edən milli və mədəni kimliyin itirilməsi ilə bağlı narahatlıqlarını ifadə edirlər.

Dilçilikdə alınma anlayışının nəzərdən keçirilən müxtəlif tərif və şərhləri onun çoxşaxəliliyini və mürəkkəbliyini vurğulayır. Qeyd etmək lazımdır ki, alınmalarla bağlı nəzərdən keçirilən fərqli baxışlar müxtəlif kontekstlərdə və dil təmaslarının vəziyyətlərində tətbiq oluna bilər. Bu yanaşmaların müxtəlifliyi onu göstərir ki, alınma həm leksik vahidlərin bir dildən digərinə sadə köçürülməsini, həm də daha dərin semantik dəyişiklikləri, alınmanı mənimsəyən dil sisteminə uyğunlaşmanı və hətta morfoloji çevrilmələri əhatə edə bilən çoxşaxəli bir hadisədir.

Qloballaşmanın və mədəni mübadilənin getdikcə daha mühüm rol oynadığı müasir dünyada alınma prosesinin geniş və düzgün izahı çox aktuallaşır. Dillərin və mədəniyyətlərin qarşılıqlı təsirinin təhlil və araşdırılması bu sahə ilə bağlı bir çox yeni fikirlər ortaya qoya bilər.

Nəticə. Alınma problemi ətrafında aparılan elmi müzakirələr göstərir ki, bu prosesin müsbət və mənfi tərəfləri ilə bağlı dilçilərin fikirləri də fərqlidir. Bununla belə, müxtəlif nöqteyi-nəzərlərə baxmayaraq, bir şey aydındır ki, alınma bir psroses kimi dillərin tarixi inkişafında mühüm rol oynayır.

Alınmaların öyrənilməsi bizə dillər və mədəniyyətlər arasında qarşılıqlı əlaqə prosesini başa düşməyə imkan verir. Avropa dillərinin lüğət komponentlərinin uyğunlaşdırılması prosesi dil sistemlərində daimi təkamül və dəyişikliklərdən xəbər verir. Nəzərə almaq lazımdır ki, bəzi dillər, məsələn, alman dili, öz söz ehtiyatını və qrammatikasını qoruyub saxlamağa çalışır, alınmalara qarşı daha mühafizəkardır.

Praktiki nöqteyi-nəzərdən dilçilikdə alınmalarla bağlı araşdırmalar fonunda illərin necə qarşılıqlı əlaqədə olduğunu və bir-birinə təsir etdiyini başa düşmək müasir qloballaşma və mədəni mübadilə kontekstində vacibdir.

Beləliklə, laınmalarla bağlı gələcək tədqiqatlar dil əlaqəsi proseslərini və onların dil sistemlərinin inkişafına təsirini daha dərindən başa düşməyə kömək edə bilər.

Ədəbiyyat siyahısı

1. Bär, Jochen A. Deutsch im Jahr 2000. Eine sprachhistorische Standortbestimmung. Die deutsche Sprache zur Jahrtausendwende. Sprachkultur oder Sprachverfall? / Jochen A. Bär // Karin M. Eichhoff-Cyrus, R. Hoberg (Hrsg.); – Mannheim. – Leipzig, Wien, Zürich, 2000. — s. 9-34.

2. Bechet-Tsarnos V., Martens D. Wirtschaftsanglizismen. Eine kontrastive Analyse des Französischen, Deutschen und Neugriechischen / V.Bechet-Tsarnos, D.Martens — Tübingen, 2005. — 276 S.

3. Behagel, O. Die deutsche Sprache. Halle (Saale), 1958. 313 S.

4. Chernysheva, I.I., Stepanova, M.D. Lexikologie der deutschen Sprache / I.I.Chernysheva, M.D.Stepanova. — Moscow: Высшая школа, 1975. — 256 p.

5. Crystal D. English as a Global Language / D. Crystal — Cambridge: Cambridge University Press , 2004. — 102 p.

6. English as an international language. Почему английский — международный язык? // ИНГЛЕКС. — 2015 — URL: https://englex.ru/english-as-an-international-language/ (дата обращения: 26.09.2023)

7. Gardt, A., Huppauf, B. Globalization and the Future of German. Berlin / A.Gerdt, B.Huppauf — New York: Mouton de Gruyter, 2004. — 375 p.

8. Hohenhaus P. Neuanglodeutsch. Zur vermeintlichen Bedrohung des Deutschen durch das Englische. In German as a foreign Language, Vol. 1, 2001, pp.57-87.

9. Lehmann, C. D. Deutsche Sprache: Anglizismen bedrohen die Sprache nicht// DEUTSCHLANDFUNK — 2014 — URL: URL: https://www.deutschlandfunk.de/deutsche-sprache-anglizismen-bedrohen-die-sprache-nicht-100.html

10. Lewandowski, Th. Linguistisches Worterbuch / Th.Lewandowski. — Band 1-3, — Heidelberg, 1996. — 415 S.

11. Paul, H. Prinzipien der Sprachgeschichte / H.Paul. — Tübingen, 1995. — 400 S.

12. Phelizon, J.H.Vocabulaire de la linguistique / J.H.Phelizon. — Paris: Eds Roudel, 1976. — 280 p.

13. Polenz, P. Neue Ziele und Methoden der Wortbildungslehre. Beitrage zur Geschichte der deutschen Sprache und Literatur / P.Polenz. — Tübingen, 1972. — 398 S.

14. Polenz, P. Deutsche Sprachgeschichte. 17. und 18. Jahrhundert / P.Polenz. — Band II. — Berlin, 1994. — 498 S.

15. Sapir, E. Die Sprache. Eine Einführung in das Wesen der Sprache / E.Sapir. — München; Hueber, 1961. — 205 S.

16. Weinreich, U. Sprachen in Kontakt: Ergebnisse und Probleme der Zweisprachigkeitsforschung / U. Weinreich. — München, 1977. — 281 S.

17. Yang, W. Anglizismen im Deutschen; am Beispiel Nachrichtenmagazins Der Spiegel / W.Yang — Tübingen, 1990. — 246 S.

18. Ахманова О.С. Словарь лингвистических терминов / О.С. Ахманова — Москва: УРСС, 2004. — 607 с.

19. Багана Ж. Контактная лингвистика / Ж. Багана, Е.В. Хапилина — Белгород: БелГу, 2007. — 140 с.

20. Белкин В.М. Арабская лексикология / В.М. Белкин — Москва: Изд-во Московского университета, 1975. — 132 с.

21. Бодуэн де Куртенэ И.А.. О смешанном характере всех языков / И.А. Бодуэн де Куртенэ // Избранные труды по общему языкознанию; — Москва: 1, 1963. — с. 362-372.

22. Жлуктенко Ю.А. Лингвистические аспекты двуязычия / Ю.А. Жлуктенко — Киев: Виша школа, 1974. — 174 с.

23. Зиндер Л.Р. Современный немецкий язык / Л.Р. Зиндер, Т.В. Строева — Москва: Изд-во лит. на инстр. яз., 1957. — 420 с.

24. Крысин Л.П. Иноязычные слова в современном русском языке / Л.П. Крысин — Москва: Наука, 1968. — 208 с.

25. Крысин Л.П.. Иноязычные слова в современном русском языке / Л.П. Крысин // Русский язык конца XX столетия (1985-1995) ; под ред. Е. А. Земской — Москва: Языки русской культуры, 2000. — с. 142-161.

26. Мухин С.В. Системно-функциональные характеристики фразеологической кальки французского происхождения в современном английском языке : дис. ...канд. : 10.02.04 : защищена 2005-10-31 : утв. 2005-12-27 / С.В. Мухин — Москва: 2005.— 234 с.

27. Реформатский А.А. Введение в языковедение / А.А. Реформатский — Москва: Аспект-Пресс, 2021. — 536 с.

28. Смирницкий А.И. Лексикология английского языка / А.И. Смирницкий — Москва: МГУ, Омен, 1998. — 260 с.

29. Трубецкой Н.С. Наследие Чингисхана / Н.С. Трубецкой // Вавилонская башня и смешение языков. — 1923 — URL: http://az.lib.ru/t/trubeckoj_-n_s/text_1922_vavilpnskaya_bashnya.shtml (дата обращения: 29.08.2023)

30. Хауген Э.. Языковой контакт / Э. Хауген // Новое в лингвистике; — Вып. 6. — Москва: Издательство иностранной литературы, 1972. — с. 61-80. - URL: https://pdfslide.net/documents/-55cfe3e65503467d968b6de8.html?page=1

31. Шанский Н.М. Лексикология современного русского языка / Н.М. Шанский — Москва: Просвещение, 2009. — 312 с.

32. Щерба Л.В.. О понятии слияния языков / Л.В. Щерба // Избранные работы по языкознанию; — Вып. 1. — Ленинград: Изд-во Ленинградского университета, 1956. — с. 40-53.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.e.d., dos. Nərmin Əbülfəz qızı Rəcəbova
tərəfindən çapa tövsiyə olunmuşdur

Dosent, f.ü.f.d.**BƏNÖVŞƏ NİYAZ QIZI HACIYEVA**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
b.haciyeva@mail.ru
https://orcid.org/0000-0002-8683-3825

TÜRKİYƏ TÜRKCƏSİNDƏ ARXAİK SÖZLƏRİN LEKSİK-SEMANTİK VƏ QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *leksikologiya, arxaizmlər, leksik-semantik məna, qrammatik məna, tarixizmlər.*

Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər dildə əks olunur. Dildə mütəmadi olaraq yeni sözlər əmələ gəlir, bəzi sözlər köhnələrək tədricən istifadədən qalır. Arxaizmlər yunan dilindən tərcümədə (archalos) qədim mənasını verən «archaşcos» sözündən əmələ gəlmişdir. «Arxaik» sözü mənşəcə yunan dilində «arxaios» (ilk, ən qədim) və ikos şəkilçisindən törədilmişdir. Əslində dilçilikdə arxaizmlər neologizmlərin antonimi olaraq qəbul edilə bilər. Dilin lüğət tərkibi daim dinamikdir, inkişafdadır. Ümumiyyətlə, dildəki yeni sözlərin sayı dilin fəal fondundan çıxan sözlərin sayından həmişə çox olur. Elmi-texniki tərəqqinin çox inkişaf etdiyi müasir dövrümüzdə neologizmlərin əmələ gəlməsi və dil daxili aktivləşməsi prosesi çox aktualdır. Bunun əksi olan dildəki sözlərin arxaikləşməsi prosesi nisbətən ləng prosesdir.Dilin fəal lüğət fondu dedikdə mənası hamı tərəfindən başa düşülən ümumişlək sözlər nəzərdə tutulmaqdadır.Dilin qeyri-fəal lüğət fondu dedikdə isə köhnəlmiş sözlər və neologizmlər nəzərdə tutulur ki, bunların da dildə passivliyi başa düşüləndir. Dildə köhnəlmiş sözlərin özləri də iki qrupa ayrılır ki, bunlara da arxaizmlər və tarixizmlər aid edilməkdədir.Arxaizmlərin üç başlıq altında qruplaşdırılması yanaşması fikrimizcə, daha doğrudur. Çünki bu arxaik səslər, arxaik şəkilçilər və arxaik sözlər olmaq etibarilə üç bölgüdə özünü daha çox göstərir. Arxaik səslər dedikdə Türk dilində ən çox b-m dəyişmələri, sağır N (nun) səsi, k-g dəyişmələri göstərilə bilər.

Arxaik şəkilçilərə -iban, -üban, -malu[2] , -sar [2] və s.şəkilçiləri nümunə göstərə bilərik. Üçüncü qrupu təşkil edən arxaik sözlər istər arxaik səslər, istərsə də arxaik şəkilçilərə görə daha geniş sahəni ehtiva etməkdədir: ayruk (*başqa, digər*), aşak (*aşağı*), depretmek (*tərpətmək*), dürüşmek (*çalışmak, qayret göstərmək*).

Məqalədə arxaizmlərin leksik -semantik xüsusiyyətləri araşdırılmış və nümunələr təhlil olunmuşdur.

Dil ictimai hadisə olduğu üçün bütün tarixi hadisələr, cəmiyyətdəki dəyişikliklər dildə əks olunur. Dildə mütəmadi olaraq yeni sözlər əmələ gəlir, bəzi sözlər köhnələrək tədricən istifadədən qalır. Arxaizmlər yunan dilindən tərcümədə (archalos) qədim mənasını verən «archaşcos» sözündən əmələ gəlmişdir. «Arxaik» sözü mənşəcə yunan dilində «arxaios» (ilk, ən qədim) və ikos şəkilçisindən

törədilmişdir.

Əslində dilçilikdə arxaizmlər neologizmlərin antonimi olaraq qəbul edilə bilər. Dilin lüğət tərkibi daim dinamikdir, inkişafdadır. Ümumiyyətlə, dildəki yeni sözlərin sayı dilin fəal fondundan çıxan sözlərin sayından həmişə çox olur. Elmi-texniki tərəqqinin çox inkişaf etdiyi müasir dövrümüzdə neologizmlərin əmələ gəlməsi və dil daxili aktivləşməsi prosesi çox aktualdır. Bunun əksi olan dildəki sözlərin arxaikləşməsi prosesi nisbətən ləng prosesdir.

Bəzi sözlər müəyyən dövrdə fəal işlənir, müəyyən müddətdən sonra bu sözlərin istifadə dairəsi daralır, bəzən yeni məna kəsb edərək dilin lüğət fondunda yenidən fəallığını bərpa edir. Məsələn, Azərbaycan dilində "ismarıc" sözü əvvəlcə xəbər, tapşırıq» mənasında fəal işləndiyi halda XX əsrin II yarısından etibarən seyrək işlədilmişdir. XXI əsrin əvvəllərindən yenə də «ismarıc» sözünün işlənmə dairəsi genişlənmiş və söz «mesaj» sözü ilə yaxın mənada işlədilməyə başlamışdır. Son illərdə isə söz dilin aktiv fonduna daxil olsa da, işlənmə fəallığının nisbətən azalması müşahidə olunmaqdadır. Ümumiyyətlə, dilin lüğət fondu dilin fəal lüğət fondu və dilin qeyri-fəal lüğət fondu olmaq etibarilə iki yerə ayrılır.

Dilin fəal lüğət fondu dedikdə mənası hamı tərəfindən başa düşülən ümumişlək sözlər nəzərdə tutulmaqdadır.Dilin qeyri-fəal lüğət fondu dedikdə isə köhnəlmiş sözlər və neologizmlər nəzərdə tutulur ki, bunların da dildə passivliyi başa düşüləndir. Dildə köhnəlmiş sözlərin özləri də iki qrupa ayrılır ki, bunlara da arxaizmlər və tarixizmlər aid edilməkdədir.

Hər hansı bir əşyanın və hadisənin adı zamanla köhnələrək yenisi ilə əvəz oluna bilir. Bu prosesdə köhnəlmiş sözlər arxaizmləri meydana gətirmiş olur:

arı- temiz	uçmağ - cennet
ırak – uzak	ayıtmak – demek
damu – cehennem	varmak – gitmek

Verilmiş nümunələr arxaik sözlərdir. Qeyd edək ki «uçmağ» sözü də fəallığını yenidən bərpa etmiş sözlər sırasındadır. «Cənnət» mənasını verir, artıq fəallığını bərpa edərək günümüzdə «arxaik söz» olmaqdan çıxmış və dilin fəal lüğət fonduna daxil edilmişdir. Müasir Türk ədəbi dilində «Yeri uçmağ olsun» deyimi şəklində artıq sıx şəkildə işlədilməkdədir.

Ümumiyyətlə arxaizmlərin üç başlıq altında qruplaşdırılması yanaşması fikrimizcə, daha doğrudur. Çünki bu arxaik səslər, arxaik şəkilçilər və arxaik sözlər olmaq etibarilə üç bölgüdə özünü daha çox göstərir.

Arxaik səslər dedikdə Türk dilində ən çox b-m dəyişmələri, sağır N (nun) səsi, k-g dəyişmələri göstərilə bilər:

Qədim Türk dilində	Müasir Türk dillərində:
Men, min, bin	ben,mən
gönül	gönül, könül
a**n**rı	anrı
Ta**n**rı	Tanrı

Arxaik şəkilçilər dedikdə aşağıdakı şəkilçiləri nümunə göstərə bilərik.

İban, üban → görüben, kalkuban, deyüben.

-alu[2] → (feili bağlama şəkilçisi) – müasir variantı – alı[2] şəklində bu gün də türk dilində feili bağlama şəkilçisi olaraq işlədilməkdədir. Zaman mənasını ifadə edir. Kifayət qədər məhsuldar şəkilçidir. Köye taşın**alı** bir yıl olmuştu artık.Amma Azərbaycan dilində şəkilçi fəallığını itirmiş, arxaikləşmişdir.

-malu- feilin vacib şəklinin şəkilçisi- müasir variantı malı şəklindədir.

-sar+ şəxs əvəzlikləri (feilin şərt şəkli) okusar ben, okusar sen, okusar o) Günümüzdə şəkilçi -sa şəklində işlədilməkdədir. Örneğın: Dilden gelen elden gel**se**, her yoksul bey olurdu. Köpeğin duası kabul ol**sa**, gökten kemik yağardı.

Üçüncü qrupu təşkil edən arxaik sözlər istər arxaik səslər, istərsə də arxaik şəkilçilərə görə daha geniş sahəni ehtiva etməkdədir:

1) içre, görset, ayıtmak, arkalık, imdi, pantol.
2) ayruk (başqa, digər), aşak (aşağı),

3) depretmek (tərpətmək), dürüşmek (çalışmak, qayret göstərmək).

Haydar Ediskun "Dilbilgisi" əsərində sözlərin mənalarının qalıcı xarakterli olmayıb, dəyişkən xarakterli olduğunu vurğulayır, bu prosesin ictimai dəyişikliklər və mədəni inkişafla bağlı olduğunu qeyd edir. Bu dəyişikliklərlə bağlı olaraq **yüz yazısı** (gelin makyajı), **soygun kadın** (düğünde misafirleri karşılayan kadın**, ince yemek** (düğün yemeği), **düyün saçısı** (düğün hediyesi) , paçalık (düğünün ertesi gün gelinin giydiği elbise) və digər sözlər tədricən dildən çıxmışdır. (3, s.93)

Kalemtıraş (qələmyonan,əsaən qamışdan düzəldilən qələmləri yonmaq üçün istifadə edilirdi) və onun hattati,katibi,cam kırığı, izmarit,söğüt yaprağı kimi növləri, **palanga** (Ortaoyunun oynandığı meydan), **papara** (Ortaoyunda çalınan zurnanın adı), maşlah (qısa əba), **hotoz, Mecidi fes, Azizi fes,pelerinli çarşaf**, **getr, cübbe** (geyim adları), **hanto**, **talika**,**koçu**, **lando**,**katip odası** (atlı gəzinti arabalarının növləri), **musikar, çenk, şeştar, kudüm, santur** (musiqi alətlərinin adları) sözləri tədricən Türk dilində işləkliyini itirmişdir. (3, s. 93)

T.Əfəndiyeva «Azərbaycan dilinin leksik üslubiyyatı» əsərində qeyd edir ki, arxaizmlər fəal iştirakdan məhrum olmuş, dilin aktiv fondundan passiv fonduna keçmiş sözlərdir. Müəllif haqlı olaraq qeyd edir ki, arxaizmlər olduqca geniş məfhumdur. Leksik-semantik arxaizmlərin izah edilməsi prosesində «arxaizmlər» termini yerinə daha dar mənanı ifadə edən «arxaik sözlər» termininin işlədilməsi daha məqsədəuyğundur. Arxaikləşmə prosesi dildə tədricən baş verən mürəkkəb və uzunmuddətli bir prosesdir. (5, s.227). Sözün lüğətin aktiv fondundan passiv fonduna keçməsi nəticəsində onun mənası bəzən cəmiyyətdəki insanların yaşlı hissəsi üçün anlaşıqlı olur. Lakin gənc nəsil üçün aktivliyini itirməsi səbəbindən anlaşılmaz olur. Bəzən sözlər zamanla yeni mənalar kəsb edirlər. Məsələn «efendim» sözü yunan mənşəli olub, vaxtilə Osmanlı sarayında müəyyən rütbə, titul mənasını ifadə edirdi. XIX əsrdə bu söz müraciət forması olaraq şahzadələrə, din xadimlərinə, xarici vətəndaşlara və müsəlman olmayanlara, eyni zamanda mülki şəxslərə müraciət

forması olaraq işlədilirdi. Dövlət məmurlarının rütbəsinin tərkib hissəsi olaraq «Paşa» və «Bəy» titullarının ortasında yer tuturdu. Lakin zamanla 1934-cü ildə Türkiyə Respublikasında rütbələrin və köhnə müraciət formalarının ləğvindən sonra «efendi» sözünün rəsmi müraciət forması kimi işlədilməsinə son qoyulmuşdur (1, s. 80) Deməli, «efendi» sözü tarixizm kimi getdikcə aradan çıxmış, amma yeni mənalarda işlədilərək arxaikləşməmişdir.

Bu söz müraciət forması kimi danışıq zamanı işlədilir və situativ olaraq müxtəlif mənalar qazanır. (1, s.80)

1) - Ali! --.

- Efendim! (verilmiş nümunədə "efendim" sözü «buradayam» mənasını verir.

2) "Hangi üniversiteden mezunsunuz? "

"Efendim?" (Bu situasiyada "efendim" sözü «zəhmət olmasa, eşitmədim, sualı təkrar edərsiniz» mənasında işlədilir.)

3) Oldukça efendi bir adam idi. (Bu nümunədə isə "efendim" sözü «çox mədəni, kübar» mənasında işlədilmişdir.

Göründüyü kimi tarixizm kimi lüğətin passiv fonduna daxil olan "efendim" sözü yeni mənaları ilə lüğətin aktiv fonduna daxil ola bilmişdir.

Ə.Dəmirçizadə haqlı olaraq qeyd edir ki, «Arxaik sözlərin hamısı eyni aqibətli olmur. Bunlardan bəzisi tamamilə unudulur, bəzisi məhdud dairədə – dialekt, şivə sözlərinə çevrilərək yaşayır, bəzisi başqa bir dilə keçir», əsil mənsubiyyət olan dil üçün arxaikləşmiş olur, nəhayət bəzisi yenidən işlək söz hüququ kəsb etmiş olur. (4 , s.99)

Sözlərin arxaikləşmə səbəbləri olaraq müxtəlif yanaşmalar mövcuddur. Əgər sözün ifadə etdiyi əşya müəyyən tarixi inkişaf müddətində öz aktuallığını itirsə, bu zaman söz arxaikləşməyə məruz qalır. Bu əşya, eyni zamanda hadisə və ya rütbə ola bilər.

Kama (qəmə), kapıkulu (Osmanlı Dövlətində görevli), yeniçeri (Osmanlı dövlətində əsgər) sözləri buna misal ola bilər.

Bəzən sözün sinonimi onun işlədilmə sahəsinin daralmasına, tədricən arxaikləşməsinə gətirib çıxarır. Məsələn, Türk dilində mektep sözünün yerinə «okul» sözü tərcih edilməkdədir. Anadokul, ortaokul, yüksekokul kimi sözlər də yetərincə geniş işləklik dairəsinə malikdir. Eləcə də «lisan» yerinə «dil», serdar yerinə «başçı», «cariye» yerinə «yardımcı» (yardımcı sözünün başqa mənaları da istisna edilmir) sözləri işlədilməkdədir.

Zamanla dilə yeni sözlərin daxil olması ölkənin ictimai-siyasi həyatında baş verən dəyişikliklərlə bağlı olur. Məsələn, XIX əsrdə Türk dilinə fransız dilindən xeyli sayda sözlər keçmiş, bunların bəziləri dilin aktiv fondundan çıxmış, bəziləri isə hələ də işlədilməkdə davam etməkdədir.

Randevü, abajur, pancur, sör, sözləri dilin aktiv fondundan çıxmış , passiv fonduna daxil olmuş nümunələrdir.

Fransız dilindən alınma etajer, mersi, asansör, diyet, kuaför, garoz, ambalaj,

ampul, balon, bariyer, bonfile, garson sözləri hələ də işlədilməkdədir və dilin aktiv fondunda qalmaqda davam edirlər.

"İmdi" sözü şimdi, "pantol" sözü pantolon, "çeri" sözü asker, "tamu" sözü cehennem, "yağu" sözü düşman, "yad" sözü yabancı sözü ilə əvəz olunaraq Türk dilinin aktiv lüğət fondunda yer almışdır.

Hər hansı bir dilin köhnəlmiş sözləri və cümlə quruluşları əsasən bu elementləri özündə birləşdirən ədəbi əsərlərdə işlədilmişdir.

M.Kaplan arxaizmləri söz və yazıdakı köhnə sözlər, deyimlər və ifadə şəkillərini əhatə etdiyini vurğulayır. Dilin nə arxaizmə, nə də neologizmlərə dözümlü olmadığını, əbəbi şeirin dilin daim yaşayan sözlərə əsaslanmaq məcburiyyətində olduğunu qeyd edir.

Türk dilində alınma Ərəb-fars dillərindən alınma sözlərin arxaikləşmiş nümunələri və qarşılıqları.	Türk dilində Avropa dillərindən alınma sözlərin arxaikləşmiş nümunələri və qarşılıqları.
ab – su abluka – mühasirə ababi müaşeret – görgü kuralları ağuş – kucak amme – kamu amme hukuku – kamu tüzesi ananevi – geleneksel asri – çağdaş basiretli – öngörülü beynelmilel – uluslararası cürüm – suç darbi mesel – atasözü destur – savulun devasa – irice ebat – boyum emare – belirti esef – üzüntü, acı evsaf – nitelikler ezkaza – yanlışlıkla faraziye – varsayım fütur – önemseme gureba – kimsesizler haris – açgözlü sayru – hasta hatmetmek – bitirmek	aforoz – dışlama angaşman – bağlantı bijüteri – takı dermatolog – deribilim doktrin – öğretı esans – konu fiyonk – kelebek garnizon – alay hegemoniya – egemenlik, baskı iskonto – indirim manifesto – bildik pansiyon – barınak trotuvar – kaldırım rejisör- yönetmen bombe- şişkinlik averaj- ortalama bonkör- cömert kambiyo- dış ticaret aforizma- özdeyiş brülör- yakaç

havadis – salık peder – baba heyelan – göçük hicret etmek – göç etmek künfeyekun – darmadağın mancana – fıçı mazbata – tutanak mücavir – komşu mucrim – suçlu	

Ərəb –fars, eləcə də Avropa dillərindən alınmış aşağıdakı nümunələr isə bu gün də qarşılıqlarının olmasına baxmayaraq, lüğətin aktiv fondundan çıxmamışdır və bu nümunələrdən əksəriyyəti kifayət qədər sıx işləklik dairəsinə malikdir:

akabininde – sonunda
alafranga – Fransalı, Avrupalı
alenen – açıkça
arıza – bozukluk
arzuhal – dılekçe
asayiş – düzen
beyhude – boşuna
binaen – dayanarak
caiz – uygun
cazip – çekici
cengaver – şövalye
cüsseli – iriyarı
efsun – büyü
çiroz - çelimsiz
hummalı – yoğun
istirham – rica
kademe – basamak
mazhar olmak – erişmek, hali olmak
meziyet- üstünlük
esna – an
fani – ölümlü
fazilet – erdem
fer – paklaklık, ışık
feza – uzay
fobi – ürkü
fonksiyon - işlev

Dildəki sözlərin arxaikləşməsi dilin daxili qanunları və tarixi inkişaf prosesi ilə sıx şəkildə bağlı olan bir prosesdir.Sonda ümumiləşdirmə apararaq onu da qeyd etməliyik ki, arxaizmləri tamamilə işlək olmayan sözlər hesab etmək olmaz.Arxaik sözlər köhnəlmiş olsa da, dildən tamamilə çıxmır, dilin müəyyən üslublarında ,əsasən bədii və elmi üslubda yazılmış nümunələrdə aktivliklərini kifayət qədər qoruyub saxlaya bilirlər.Bəzi sözlər tarixin bəlli bir dövründə ictimai, iqtisadi və siyasi proseslər nəticəsində yarandığı kimi zaman dəyişdikcə yeni mühitin tələblərinə uyğun olaraq da dəyişirlər. Tarixi proseslərlə bağlı dəyişmələrdə əşya və hadisələrin bir çoxu dəyişir və bəziləri də mövcud olmur. Bu qəbildən olan köhnəlmiş sözlər dildə tarixizmlər olaraq adlandırılır.Türk dilindəki yeniçeri,tekfur, otag,devşirme,timar,Divani-tuğra ,Divani Risalet, Divan i- İşraf, candar, alemdar, çaşniğir, abdar, cülus, emiri- şikar sözləri məhz bu dəyişmələrə məruz qalmış, müəyyən dövrlərdə işlənmiş, indi isə lüğətin aktiv fondundan çıxmış tarixizmlərə aid edilir.

İstifadə edilmiş ədəbiyyat:

1. Rəsulov.Ə, Rüstəmov R.Ə. ”Türk dili”, Bakı Universiteti Nəşriyyatı, Bakı, 2007, 308 s.
2. Muharrem Ergin. “Türk Dilbilgisi”, İstanbul, Boğaziçi Yayınları, 1987. 407 s.
3. Ediskun Haydar. ”Dilbilgisi”, İstanbul, 389s.
4. Dəmirçizadə Ə. “Azərbaycan dilinin üslubiyyatı” “Azərtədrisnəşr” Bakı,1962, 268 s.
5. Əfəndiyeva Türkan “Azərbaycan dilinin leksik üslubiyyatı”, “Elm” nəşriyyatı, Bakı 1980, 249 s.
6. Xəlilov B. “Muasir Azərbaycan dilinin leksikologiyası”, Bakı, Nurlan nəşriyyatı, 2008, 442 s.
7. Korkmaz Z.Türkiye Türkçesi Grameri. Türk Dil Kurumu yayınları, 4.Baskı, Ankara 2014, 1027 s.
8. Erdem M.D., Karataş M., Hirik E. “Yeni Turk Dili”, Maarif Mektepleri Yayınları, Ankara, 716 s.

к. ф. н., доцент Б.Н.Гаджиева

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ И ГРАММАТИЧЕСКИЕ ОСОБЕННОСТИ АРХАИЗМОВ В СОВРЕМЕННОМ ЛИТЕРАТУРНОМ ТУРЕЦКОМ ЯЗЫКЕ.

РЕЗЮМЕ

Ключевые слова: *лексикология, архаизмы, лексико – семантическое значение, историзмы, грамматическое значение.*

Язык является социальным явлением, поэтому все исторические события, изменения в обществе отражаются в языке. В языке постоянно появляются новые слова, некоторые слова устаревают и постепенно выходят из употребления.

Архаизмы произошли от греческого слова «archaikos», которое в переводе означает «древний». Слово «архаичный» происходит от греческого «arxaios» (первый, самый древний) и суффикса «ikos». На самом деле, в лингвистике архаизмы могут рассматриваться как антонимы неологизмов.

Лексический состав языка всегда динамичен и находится в развитии. В целом, количество новых слов в языке всегда превышает количество слов, выходящих из активного использования. В современную эпоху, когда научно-технический прогресс развивается очень быстро, процесс появления неологизмов и активизация внутриязыковой динамики очень актуальны. Процесс архаизации слов в языке, напротив, относительно медленный. Под активным лексическим фондом языка понимаются общеупотребительные слова, значение которых понятно всем. Под неактивным лексическим фондом понимаются устаревшие слова и неологизмы, пассивность которых в языке

очевидна. Устаревшие слова также делятся на две группы: архаизмы и историзмы.

Мы считаем, что подход к классификации архаизмов по трем категориям является более правильным. Это архаичные звуки, архаичные суффиксы и архаичные слова, которые наиболее заметно проявляются в трех областях. К архаичным звукам в тюркских языках можно отнести изменения b-m, глухой N (нун), изменения k-g. В качестве примеров архаичных суффиксов можно привести -iban, -üban, -malu[2], -sar[2] и т.д. Третью группу составляют архаичные слова, которые включают более широкий спектр как архаичных звуков, так и архаичных суффиксов: ayruk (другой), aşak (ниже), depretmek (волноваться), dürüşmek (стараться, прилагать усилия). В статье исследованы лексико-семантические особенности архаизмов, а также приведены примеры анализа.

Phd. Assoc. Prof. Dr.
B.N.Hajiyeva

SUMMARY
LEXICAL-SEMANTIC AND GRAMMATIK FEATURES OF ARCHAICMS IN MODERN TURKISH LITERARY LANGUAGE.

Key words: *lexiology, acrhaisms,lexical- semantic meaning,grammatical meaning, historicizms.*

Language is a social phenomenon, therefore all historical events and changes in society are reflected in language. New words constantly appear in the language, while some words become obsolete and gradually fall out of use.

Archaic words originated from the Greek word "archaikos", which translates as "ancient". The word "archaic" itself is derived from the Greek "arxaios" (first, most ancient) and the suffix "ikos". In fact, in linguistics, archaisms can be considered as antonyms of neologisms.

The lexical composition of a language is always dynamic and evolving. Generally, the number of new words in a language always exceeds the number of words falling out of active use. In the modern era, with rapid scientific and technical progress, the emergence of neologisms and the activation of internal linguistic dynamics are very relevant. The process of archaization of words in the language, in contrast, is relatively slow. The active lexical fund of a language refers to commonly used words whose meanings are understood by everyone. The inactive lexical fund refers to obsolete words and neologisms, whose passivity in the language is evident. Obsolete words themselves are also divided into two groups: archaisms and historisms.

We believe that the approach to classifying archaisms into three categories is more correct. These are archaic sounds, archaic suffixes, and archaic words, which

are most noticeably manifested in three areas. Archaic sounds in Turkic languages include b-m changes, the deaf N (nun) sound, and k-g changes. Examples of archaic suffixes include -iban, -üban, -malu[2], -sar[2], etc. The third group consists of archaic words, which cover a wider range of both archaic sounds and archaic suffixes: ayruk (other), aşak (below), depretmek (to agitate), dürüşmek (to strive, to make an effort). The article investigates the lexical-semantic features of archaisms and provides examples of analysis.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru, professor R.Ə.Rüstəmov tərəfindən çapa tövsiyə olunmuşdur

NƏZRİN CƏFƏROVA
nazrin.ghozalova@yahoo.com
Odlar Yurdu Universiteti,II kurs,magistr
2 Koroğlu Rəhimov küçəsi,Bakı

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TARİXİ MƏNBƏYİNİN ÖYRƏNİLMƏSİ

Danışıq aktına hazır şəkildə daxil olan frazeoloji vahidlərin leksik-semantik əlaqələri, işlədilmə xüsusiyyətləri daim dilçilərin diqqət mərkəzində olmuşdur. Dilçilikdə frazeoloji vahidlərin öyrənilməsi tarixi uzun olsa da, ingilis dili frazeoloji materiallarının tədqiqi frazeologiyanın öyrənilməsində tipoloji və beynəlmiləl yaxınlaşma aspektlərinin aydınlaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir.

Dilçilikdə frazeoloji vahidlərin müəyyənləşdirilməsi, onların tədqiqi üsulları, təsnifi və lüğətlərdə əks etdirilməsi məsələlərini frazeologiya elmi öyrənir. Frazeologiya sabit birləşmələrin qanunauyğun inkişafını, mənşəyini və yaranmasını, xüsusiyyətlərini, forma və məzmun zənginliyini, işlədilmə imkanını, semantik və qrammatik strukturunu, söz və sərbəst birləşmələrlə əlaqəsini və s. tədqiq edir [2, s.208]. Frazeologizm, frazeoloji vahid sözlərin semantik cəhətdən sərbəst olmayan birləşməsidir. Bu birləşmə onunla sintaktik quruluş formasına görə yaxın olan söz birləşməsi və cümlə kimi nitq prosesində yaranmır. Leksik komponentlərin mənalarındakı semantik sürüşmələr, dayanıqlıq və təkrar canlandırma frazeologizmin qarşılıqlı əlaqəli universal və fərqləndirici əlamətidir.

Frazeoloji vahidlərə dair müasir elmi baxışın əsasını Ş.Balli və V.V. Vinoqradovun frazeoloji nəzəriyyələrinin müddəaları təşkil edir. Dilçilikdə frazeologiya nəzəriyyəsinin banisi, isveç dilçisi Şarl Balli söz birləşmələrini 4 qrupa ayırır: sərbəst, adi, frazeoloji qrup və frazeoloji birləşmələr. Həmçinin o, frazeologizmin mövcudluğunu onun semantik xüsusiyyətlərində görür, bununla da idiomlu və idiomsuz sabit söz qruplarını bir-birindən fərqləndirərək ziddiyyətə səbəb olur [20, s.21].

V.V.Vinoqradov ilk dəfə olaraq frazeoloji vahidlər məsələsinin əhatə dairəsini müəyyənləşdirmiş, onların bölünməzliyi və sabitliyi əsasında fərqləndirilməsi və təsnif edilməsi prinsiplərini təklif etmiş, onların təbiətinin izah edilməsi yollarını göstərmiş, frazeoloji vahidlərin üç tipini (frazeoloji qovuşmalar, frazeoloji birliklər və frazeoloji birləşmələr) müəyyən etmişdir [20, s.140-162]. V.Vinoqradovun frazeoloji konsepsiyası keçmiş sovet dilçiliyində ingilis dilinin frazeologiyası problemlərinin işlənməsi üçün stimul olmuşdur. Frazeoloji vahidlər artıq əsaslandırılmış, məhz xüsusi semantik özünəməxsusluğu olan leksik komplekslər kimi müəyyənlik kəsb etmişdir[18, s.3-4].

N.Amosova frazeoloji vahidlərin tədqiqi sahəsində ingilis və Amerika dilçiliyində mövcud olan vəziyyəti belə xarakterizə edir: "...frazeologiya sahəsində bizim anlayış və metodlarımız nə qədər işlənib hazırlanmış olsa da, ingilis və Amerika dilçiliyində belə bir təlim ümumiyyətlə yoxdur. ...İngilis və Amerika dilçiliyində idiomatikanın elmi şəkildə işlənməsi faktiki olaraq bəzi "ifadələr" lüğətlərindən, yaxud dil üzrə təcrübi vəsaitlərə yazılmış qısa qeydlərdən ibarətdir [18, s. 11].

İngilisdilli tədqiqatçılardan J.C.Boll, E.Patrik, L.P.Smit, F.X.Vizentelli, L.C.Bekkerin bu sahəyə dair fikir və mülahizələrini araşdırdıqdan sonra N.N.Amosova belə bir qənatə gəlir: " Ingilis və Amerika dilçilərinin əsərlərində nə frazeologiyanın tədqiqat predmetinin dəqiq hüdudlarını, nə obyektiv təhlil metodikasını, nə də "sabit söz birləşmələri" nəzəriyyəsinin elmi şəkildə işlənib-hazırlanmış əsas anlayışlarını tapmaq olar"[18, s.19]. İngilis və amerikan dilçiləri sabit söz birləşmələrinə daha çox tətbiqi dilçilik prizmasından yanaşmış, səylərini idiomatik birləşmələrin lüğətlərini tərtib etmək üzərində cəmləşdirmişlər. Qərbdə belə bir elm sahəsi olmadığından frazeologiya termini daha çox üslubi məqamlarda işlədilmişdir. Məcazilik, sabitlik, dildə hazır vəziyyətdə olma frazeoloji vahidin müəyyənedici xüsusiyyətləri hesab edilir [9, s.15,].Aparılan tədqiqat işlərində sabitlik frazeologizmlərin əsas fərqləndirici əlaməti hesab olunur. Frazeoloji vahidlərin komponentləri arasındakı leksik, semantik, paradiqmatik və sintaktik asılılıq frazeologizmliyin mühüm cəhətidir [15, s.26].

Frazeoloji vahidlərdə dilin iki mühüm işarəvilik və ifadəlilik xassəsi təzahür edir. Frazeoloji vahidlər onları təşkil edən əsas tərkib hissənin hansı nitq hissəsi olması ilə əlaqədar olaraq deyil, bütöv tamın hansı nitq hissəsinə müvafiq gəlməsindən asılı olaraq feli, ismi, predikativ və s. birləşmələr şəklində formalaşır. Frazeoloji vahidlərin mənası ona daxil olan komponentlərin mənasından asılı olmur və burada onların strukturu, xarakteri, semantikası və funksiyaları əsas rol oynayır. Frazeoloji vahidlərin bütün növləri (idiomlar, atalar sözləri, zərbi-məsəllər və s.) mətnin obrazlılığını artırır, onun tərtibində bilavasitə iştirak edir. İngilis dilində frazeoloji vahidlərin müxtəlif struktur variantlığının mövcudluğu onlardan şifahi nitqdə hər hansı şəkildə istifadə olunmasına yol açır. İngilis dili dərslərində mənimsənilməli olan frazeoloji vahidlər təcrid edilmiş şəkildə deyil, kommunikasiya yönümlü şəkildə mənimsənilməlidir. Frazeoloji vahidlərin tədrisində onların malik olduğu milli-mədəni xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. Real dil mühitinin olmadığı bir şəraitdə müəllim tələbələrin əldə olunmuş bilikləri praktikaya tətbiq etmək maraqlarını stimullaşdıraraq onları xarici dildə ünsiyyətə sövq etməlidir. Dilin lüğət tərkibinin kommunikativ kompetensiyanın formalaşdırılması kontekstində tədrisi məqsədilə istifadə edilən, leksik bacarıq və kommunikasiyanın inkişaf etdirilməsinə yönəldilmiş təlim materiallarının seçilməsi xarici dillərin tədrisi metodikasında günün tələbləri səviyyəsində araşdırılmamış məsələlər siyahısına daxildir. Leksik vahidlərin kommunikativ kompetensiyanın formalaşdırılması

kontekstində mənimsənilməsi məqsədilə söz və söz birləşmələri funksional yönümlü şəkildə aşılanmalıdır. İngilis dilində leksikanın tədrisi prosesində yalnız sözlər deyil, həm də sərbəst söz birləşmələri və frazeoloji vahidlər təqdim olunmalıdır. Hər bir dildə frazeoloji birləşmələr olduğu kimi, ingilis dilində də belə vahidlər mövcuddur.

Frazeoloji vahidlərin tədrisi öyrənilən dilin lüğət tərkibi haqqında təsəvvürlərin genişləndirilməsinə, dünyagörüşün artmasına, dildə baş verən tarixi dəyişikliklər haqqında biliyin əldə olunmasına və ən əsası isə dilin yaxşı mənimsənilməsinə kömək edərək nitqi zənginləşdirir.

Xarici dildə düzgün ünsiyyət sözlərin düzgün tələffüzü və ya cümlənin düzgün qrammatik strukturundan əlavə, həm də düzgün söz seçimi və həmin sözlərin digər sözlərlə düzgün birləşdirilməsindən asılıdır. İstənilən sözün mənasının düzgün şəkildə dərki onun hansı anlayışı ifadə etməsi ilə birbaşa bağlıdır. İngilis dilində frazeoloji vahidlərin tədrisi müasir dilçiliyin mürəkkəb və bu vaxtadək kifayət qədər araşdırılmamış problemlərindən biridir. Qeyd olunan fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, dil sistemində frazeologizmlərin məna bütövlüyü, onların semantik, leksik və sintaktik sabitliyi əsas şərtlərdəndir. Frazeologizmlərin leksik sabitliyi onu təşkil edən komponentlərin daimiliyinə, sintaktik sabitlik isə komponentlərin sırasına görə dəyişilməz qalmasına əsaslanır. Frazeologizmlərin struktur sabitliyi onların tərkibcə dəyişməməsi ilə bağlıdır və məna bütövlüyü isə tərkib hissələrin leksik mənasının zəifləməsi nəticəsində əmələ gəlir. Semantik cəhətdən frazeologizmlər öz bütövlüyü ilə səciyyələnir, sintaktik cəhətdən isə bir-birinə uyğun olmayan müxtəlif sözlərin qovuşmasına görə fərqlənir.

Frazeologizmlərin struktur və semantik xüsusiyyətləri son dövrlərdə kifayət qədər aktual olan dilçilik məsələlərinə çevrilmişdir. Bu istiqamətdə aparılan tədqiqat işləri dil və mədəniyyət arasındakı münasibətlər sisteminin qurulmasına, tipoloji müqayisələrin aparılmasına, dillər və mədəniyyətlərarası oxşar və fərqli cəhətlərin üzə çıxmasına zəmin yaradır. Çünki burada frazeologizmlərin bir çox aspektdən tədqiqi araşdırma obyektinə çevrilir. A. Molotkov rus linqvistlərinin XIX əsrin ikinci yarısından etibarən söz birləşmələri içərisində frazeologizmlərin xüsusi strukturunu müəyyənləşdirməyə başladıqlarını və A.Potebnya, F.Fortunatov, A.Şaxmatov, V.Teliya və başqalarının öz tədqiqatları ilə frazeologiyanın nəzəri əsaslarını yaratdıqlarını qeyd edir [19, s. 7].

Hər bir frazeoloji vahidin daxili strukturu vardır. Frazeoloji vahidlərin komponentləri artdıqca, nəinki struktur sxem, həmçinin semantik tutum da mürəkkəbləşir. Bu frazeoloji vahidlərin əsasını təşkil edən obrazlar müəyyən müəyyən bir səhnəyə bənzəyir. Birincisi, cümlə semantikası mürəkkəbləşir, ifadə olunan çalarlar çoxalır. Ikincisi, frazeoloji vahidin funksional məzmunu artır. Üçüncüsü də, bütün bunların nəticəsində frazeoloji vahidin kommunikativ effekti genişlənir [6, s. 19].

Frazeologizmə yeni komponentin əlavə edilməsi mənanın əlavə çalarının yaranmasına səbəb olur. Məsələn, *a dog in the manger*- başqasına imkan verməyən,

hamını acılayan , hamını qapan; *dog smb's footsteps// dog the footsteps of smb* – it kimi izləmək; a surely dog – kobud, qəzəbli, hirsli, hər kəsi təhqir edən.İngilis dilində çoxluq təşkil edən bu kimi idiomlarda komponentlərin sayı, onlar arasındakı semantik əlaqələr, tamın ümumi mənasının formalaşmasına təsir edir.

Bütöv mənanın yaranmasında komponentlərin iştirak dərəcəsi frazeologizmin sabit söz birləşməsinə qarşı qoyulma xüsusiyyətindən asılıdır. V.P. Jukovun fikrncə, frazeologizm sərbəst birləşmənin fonunda metaforik effekt verirsə, onda tam mənanın yaranmasında komponentlərin iştirak dərəcəsi bərabərdir. Əksinə, əgər birləşmənin bütöv mənası motivləşərsə, onda bu məna qismən tam olur və bu halda birləşmənin ayrı-ayrı komponentləri semantik baxımdan ümumi mənaya doğru meyllənir[21, s.133].

M.Mirzəliyeva göstərir ki, bütövün ümumi mənası komponentlərin mənalarından doğmur, açılmasına ehtiyac duyulan daxili formaya və obraza əsaslanır. Çünki əslində bu komponentlər semantik baxımdan deaktuallaşmaya məruz qalmışdır. Çünki onların daxili forması və ya obrazı aydın görünür [15, s.93].

Dilin mühüm zənginləşmə mənbələrindən biri olan frazeologiyanın tərkibində obrazlılıq əsasında bir-birindən köklü surətdə fərqlənən müxtəlif qrup frazeologizmlər leksik məna və qrammatik kateqoriya kimi iki mühüm əlamətlə səciyyələnir. Müasir ingilis frazeologizmləri onu təşkil edən komponentlərin hansı nitq hissəsindən yaranmasına və morfoloji paradiqmasına görə bir neçə qrupa bölünür. Müasir ingilis dilində frazeologizmlərin ən çox rast gəlinən növü feli frazeoloji vahidlərdir. İngilis dilində feli frazeoloji vahidlərin struktur modellərinin, leksik-semantik cəhətlərinin qanunauyğunluqlarına aid tədqiqat işində feili frazeoloji vahidlərin aşağıdakı hissələri qeyd olunur.

ƏDƏBİYYAT:

1.Adilov İ. Qanadlı sözlər. -Bakı, Yazıçı, -1988.- 440 s.

2.Adilov M., Yusifov G. Sabit söz birləşmələri. -Bakı: Maarif.- 1991,-152 s.

3.Ağaverdi X. Paremioloji vahidlərin praqmatik mətn funksiyası //Elmi axtarışlar XV.- Bakı: Səda, -2013.-s. 38-42.

4.Aslanova U.B. Alman və Azərbaycan dillərində neqativ və pozitiv frazeologiya problemi. -Bakı, "Elm və təhsil", -2010. -232 s.

5.Aslanova U.B. Kontekstual və sintaktik frazeologizmlərin praqmatikası. "Elm və təhsil", - 2012, 164 s.

6.Makkai A. İdiom Structure in English. Paris: The Hague, Mouton.- 1972.

7.Hajiyeva A, Najafov E, Jafarov A. English Phraseology.- Baku- 2009- 228 p.

8.Jenifer Seidle., W.Mc.Mordie. English Idioms and How to Use Them.- Moscow, Vyssaya skola,- 1983.

NƏZRIN CƏFƏROVA

FRAZEOLOJI BIRLƏŞMƏLƏRIN TARIXI MƏNBƏYININ ÖYRƏNILMƏSI

NƏTICƏ

Müasir dövrdə dil vahidlərinin müxtəlif aspektdən tədqiqi frazeoloji vahidlərin də struktur tiplərini, komponentləri arasındakı fərqli cəhətləri, onların müxtəlif funksiyalarda işlənən tiplərini müəyyənləşdirməyə, frazelogiyanı dərindən dərk etməyə kömək etmiş və tədqiqatın istiqamətini bu sahəyə yönəltmişdir. Hər bir dilin lüğət tərkibi dil daşıyıcılarının həyat və məişəti, adət və ənənələri, əxlaqi görüşləri, mədəniyyəti, tarixi və s. ilə bağlı xeyli sayda leksik vahidlərlə zəngindir. Frazeoloji vahidlər təfəkkür və dil əlaqəsinin mürəkkəb münasibətində formalaşıb inkişaf edən vahidlər olmaqla hadisə və faktlara yalnız nominativ, informativ münasibət deyil, həmçinin özündə dilin obrazlı vasitələr fondunu nümayiş etdirdiyindən fərdi-emosional münasibəti də ehtiva edir. Dildə frazeoloji vahidlərin yaranması konkret cəmiyyətin dil mədəniyyəti, dünyagörüşü və s. ilə bağlıdır ki, bu da onların praqmatikasının zənginliyinə və mürəkkəbliyinə dəlalət edir. Frazeoloji vahidləri məxsus olduğu xalqın düşüncə tərzi ilə müəyyən edilən həqiqətin hansısa modelinə uyğun gələn dil fenomeni kimi qəbul etsək, onda belə birləşmələr dil vahidi şəklində məlum yeniliyi başqa forma və məzmunda ifadə edir.

NAZRIN CAFAROVA

STUDY OF THE HISTORICAL SOURCE OF PHRASEOLOGICAL COMBINATIONS

SUMMARY

In modern times, the study of language units from different aspects has helped to determine the structural types of phraseological units, the differences between their components, their types used in different functions, to deeply understand phraseology, and has directed the direction of research to this field. The vocabulary of each language reflects the life and everyday life of the speakers, customs and traditions, moral views, culture, history, etc. is rich in a large number of lexical units related to Phraseological units, being units formed and developed in the complex relationship of thought and language, include not only a nominative, informative attitude to events and facts, but also an individual-emotional attitude, as the language demonstrates a fund of figurative means. The emergence of phraseological units in the language depends on the linguistic culture, outlook, etc. of a specific society. which indicates the richness and complexity of their pragmatics. If we consider phraseological units as linguistic phenomena that correspond to some model of truth determined by the way of thinking of the people to which they belong, then such combinations express the known novelty in the form of a linguistic unit in a different form and content.

NAZRIN CAFAROVA

ИССЛЕДОВАНИЕ ИСТОРИЧЕСКОГО ИСТОЧНИКА ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ

КРАТКОЕ СОДЕРЖАНИЕ

В современное время изучение языковых единиц с разных сторон помогло определить структурные типы фразеологизмов, различия между их компонентами, их типами, используемыми в разных функциях, глубоко понять фразеологию и направило направление исследований на это. поле. Лексика каждого языка отражает жизнь и повседневную жизнь носителей, обычаи и традиции, нравственные взгляды, культуру, историю и т. д. богат большим количеством лексических единиц, связанных с Фразеологические единицы, будучи единицами, формирующимися и развивающимися в сложных взаимоотношениях мысли и языка, включают в себя не только номинативное, информативное отношение к событиям и фактам, но и индивидуально-эмоциональное отношение, поскольку язык демонстрирует фонд изобразительных средств. Появление фразеологизмов в языке зависит от языковой культуры, мировоззрения и т. д. конкретного общества. что указывает на богатство и сложность их прагматики. Если рассматривать фразеологизмы как языковые явления, соответствующие некоторой модели истины, определяемой образом мышления народа, к которому они принадлежат, то такие сочетания выражают известную новизну в виде языковой единицы в иной форме и содержании.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: dos.Nəsirova Ülviyyə
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC HÜSEYNOVA
Azərbaycan Dillər Universiteti
sevinc747@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN METONİMİK BAZASI

Xülasə

Frazeoloji tədqiqatlar dilçiliyin son dövrlərdə inkişaf edən sahələrindən biridir. Linqvistik və ekstralinqvistik amillərlə sıx bağlı olan frazeoloji vahidlərin tipoloji aspektdə tədqiqi bir çox elm sahələri üçün dəyərli nəzəri faktlar verir.Bu aspektdə J.Ostin və İ.Əfəndiyevin əsərlərində frazeoloji birləşmələrin müqayisəli araşdırılması ingilis və azərbaycan dillərində frazeoloji birləşmələrin tipologiyası haqqında nəsə deməyə imkan yaradır.Xüsusilə hər iki dildə metonimik bazada formalaşan frazeoloji vahidlərin tutuşdurularaq onların ümumi cəhətlərinin müəyyənləşdirilməsi bütün insanların şüurundakı frazem strukturunun ümumi xüsusiyyətləri barədə nəzəri fikir irəli sürməyə əsas verir.Buna görə də ingilis və azərbaycan ədəbi dilləri kontekstində J.Ostin və İ.Əfəndiyevin əsərlərində frazeoloji birləşmələrin əlaqəli öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

C. Ostin və İ.Əfəndiyevin əsərləri üzrə təhlilə cəlb etdiyimiz frazeoloji birləşmələr tipoloji xüsusiyyətlərə malikdir. Bu prosesdə eyni vaxtda metonimikləşmə əsasında yeni frazeoloji vahid formalaşmışdır. Metonimik baza əsasında arxesemdən yeni sem formalaşmışdır. Bu, frazeoloji vahidin semantikasıdır. J.Ostin və İ.Əfəndiyevin əsərlərində frazeoloji birləşmələrin meydana gəlməsinin bir üsulu kimi metonimikləşmə mexanizmi universal xüsusiyyətlərə malikdir.

Açar sözlər: Frazeoloji birləşmələr, metonimiya, baza, arxisem, sem.

Dil dinamik sistemə malikdir. Onun səviyyələri daim inkişaf edir, zənginləşir. Lakin inkişaf tempinə görə dilin səviyyələri fərqli xüsusiyyətlərlə səciyyələnir. Məsələn, fonetik, morfoloji və sintaktik səviyyənin inkişaf və dəyişmə sürəti leksik səviyyə ilə müqayisədə ləngdir. Buna da səbəb dil səviyyələrinin özünün xüsusiyyətləridir. Dilin strukturunu şərtləndirən bu proseslər bütün dəyişmələrə qarşı davamlıdır və kifayət qədər müqavimət gücünə malikdir və bir çox hallarda onların təkmilləşməsi və zənginləşməsi əsas olaraq dilin daxili qanunları ilə tənzimlənir. Extralinqvistik amillər nə qədər təsiredici gücə malik olsalar da, dilin qrammatik strukturunun dinamizmini leksik səviyyədəki kimi təmin etmir, çünki dilin leksik səviyyəsi ictimai-siyas və mədəni hadisələrlə daha çox əlaqələnir. Ona görə də insanların həyati təcrübəsi ,cəmiyyət hadisələri dilin leksik sisteminə ciddi təsir göstərir, daha doğrusu, həmin hadisələr dilin leksikasında öz əksini tapır.Ona

görə də dilin leksik səviyyəsinin inkişaf digər səviyyə vahidləri ilə müqayisədə daha dəyişkəndir.

Dilin leksik səviyyəsi müvafiq sistemə leksik-semantik sistemə malikdir. Leksik semantika qrammatik semantikadan fərqli olaraq ,denotatların insan idrakında proyeksiyalarının müxtəlif aspektləri ilə bağlıdır. Leksika təkcə sözlərin nominativ funksiyaları ilə tamamlanmır, dilin ehtiyac səviyyəsindən asılı olaraq başqa dillərdən sözlər almaqla kifayətlənmir, birinci dərəcəli olaraq dilin öz balansına müraciət edir. Dilin leksik balansı dedikdə dialekt və şivə leksikası , eləcə də müxtəlif assosiasiyalar vasitəsi ilə sözlərin semantik strukturunuin genişlənməsi nəzərdə tutulur.Bu aspektdəki prosesdə dildə mövcud olan müxtəlif məcaz mexanizmlərinin işə düşməsi mühüm rol oynayır. Bu mexanizmlər məcaz növlərindən asılı olaraq müxtəlifdir, çünki məcazlar assosiativ köçürmələrin xüsusiyyətinə görə fərqlənir.Onların bəziləri konkret olaraq bir və ya bir neçə leksik vahidlərlə bağlı olduğu kimi, həm də fikir çöçürmələri ilə də əlaqələnir. Bunların içərisində metonimik köçürmələr daha qədim tarixə malikdir.

XX əsrin ortalarına qədər ritorikada məcaz köçürmələri içərisində metaforalara daha çox müraciət olunmuş, onun üslubi aspekti daha dərindən tədqiq olunmuşdur. Lakin bu sahədəki tədqiqatlar dərinləşdikcə, problemin tipoloji tədqiqinin verdiyi faktların təhlili göstərdi ki, metonimiya ad köçürməsi kimi özünəməxsus assosiativ mexanizmə malikdir (1) **.**Dünyanı dərk etməyin bu forması digər məcaz növləri ilə müqayisədə daha qədim və konseptual idrak forması kimi səciyyələnə bilər . Məcazlar assosiasiyalarla səciyyələnən köçürmə mexanizminə malikdir. Bu idrak forması bəşəri inkişafın elə bir mərhələsində formalaşmşdr ki,insanlar özü ilə özünü və təbiəti, eləcə də təbiətlə təbiəti təmasda təsəvvür edir.Bu düşüncə tərzi insanlarda məntiqi idrakın meydana gəlməsi və inkişafı ilə bağlıdır. Köçürmə geniş analyşdır, bunların içərisində assosiativ köçürmələr leksik semantika ilə sıx bağlıdır. Bu kontekstdə metonimik köçürmələr ad köçürmələri ilə bağlıdır. Əşya və hadisələrin adn n situasiyadan asılı olaraq digərinin üzərinə köçürülməsi və ya başqa cür adlandırılması həm üslubi, həm də ritorikm xüsusiyyətlərə malikdir. Bunun digər təsiredici aspektləri əvvəldə qeyd etiyimiz kimi, sözün semantik strukturunun inkişafı, milli-mental xüsusiyyətlərin metonimik assosiasiyalarda öz əksini tapması, onların həm də xüsusi və universal xüsusiyyətləri ilə bağlıdr.Bu mənada metonimik köçürmə insanın koqnitiv sistemində çox mürəkkəb proseslərlə müşayət olunur. Belə proseslərdən biri dildə frazeoloji birləşmələrin meydana gəlməsində metonimik köçürmələrin rolundan ibarətdir.. Frazeoloji birləşmələrin yaranmasında metaforik köçürmələr çox fəal rol oynayır və onlarda metoforik əlamətlər daha aydın nəzərə çarpır. Metonimik köçürmələr əsasında formalaşan frazeoloji birləşmələrdə adlandırmanın xüsusi aspekti meydana gəlir və bunun nəticəsində sözün semantik genişlənməsinin yeni aspekti formalaşır. Metonimik köçürmələrin frazeoloji aspektindən bəhs edən O.A.Titova yazır:

"Frazeologi metonimiyanın ilkin semantikanın yenidən nəzərdən keçirilməsi vacibdir. Metonimləşmə prosesində frazeoloji vahidin komponentlərində semantik sürüşmə baş verir ki, bu da referentin dəyişməsinə səbəb olur: Head(baş) - intellektual çatışmazlıq/kafilik; mouth(ağız) – lağlağılıq, söz-söhbət. Frazeologiləşmə prosesində metonimik köçürmə nəticəsində arxetip semantikanın semi son nəticədə frazeologi semantikanın tərkib hissəsi kimi çıxış edir. Metonimləşmə zamanı ilkin ifadənin mənasının arxiseması və diferensial seması qorunub saxlanılır, lakin linqvistik vahidin ilkin mənasının arxisemı yeni - frazeoloji - mənanın diferensial xüsusiyyətinə çevrilir. Sözlərin sərbəst birləşməsinin potensial semlərdən biri yenilənir ki, bu da diferensial semaya çevrilir ki, bu da ilkin frazanın strukturu ilə müqayisədə frazeoloji vahiddə semantik strukturunun mürəkkəbləşməsinə gətirib çıxarır" (3). Göründüyü kimi, O. A. Titova frazeologiyalaşmiş metonimiyalarda arxisem ilə diferensial sem arasındakı əlaqəni müqayisə etməklə onların münasibətlərini təyin edir. Arxitep semantika frazeolojiləşmə prosesində yeni semin yaranma bazas kimi təqdim olunur və qeyd olunur ki, metonimikləşmə prosesində frazeoloji vahidin komponentlərində sürüşmə baş verir ki, bu da referentin dəyişməsinə səbəb olur. Nəticə isə potensial semlərdən biri yenilənir; frazeoloji vahid formalaşır.

Bu tip frazeoloji birləşmələr bədii mətnlər üçün çox səciyyəvidir və konkret yazıçı üslubu ilə bağlıdır. Bu mənada məşhur ingilis yazıçısı Jeyn Ostini qeyd etmək lazımdır. Onun bir çox romanlarında metonimik bazalı frazeologizmlərə rast gəlməl mümkündür. Nümunələrə baxaq:

1.The subjection in which his father had brought him up had given him originally great humility of manner; but it was now a good deal counteracted by the self-conceit of a weak head, (ağılsız, zəif ağıllı, intellektual cəhətdın zəif)living in retirement, and the consequential feelings of early and unexpected prosperity. (4). "Weak head" misalaında "head", "ağılsız bir insan"ın ifadəçisi olmaqla metonimik frazeoloji birləşmədir. Bu misalda metonimiklik yuxarıda deyildiyi kimi ,"heard" sözünün potensial semantik vahid olması ilə bağlıdır və onda yaranan yeni sem insan anlayışının situasiyaya uyğun olaraq yenidən işlənilməsi ilə bağlıdır (**"Head " - "baş,", "başçı"**(2). Deməli, yeni semi reallaşdıran situasiyadır.Burada potensial vahid isə "heard" leksemidir.

Digər misal:

2.Elizabeth's spirits were so high on this occasion, that though she did not often speak unnecessarily to Mr. Collins, she could not help asking him whether he intended to accept Mr. Bingley's invitation, and if he did, whether he would think it proper to join in the evening's amusement; and she was rather surprised to find that he entertained no scruple whatever ***on that head*** *(o başda)., and was very far from dreading a rebuke either from the Archbishop, or Lady Catherine de Bourgh, by venturing to dance (4).*

Verilən misalda “ no scruple whateyer on that head” (başda heç bir tələş, heç bir narahatçılıq yox idi). “ Baş” “insan”, “vücud” sözünə sinonim olaraq işlədilir. İfadənin frazeolojiliyi ondadır ki,vicdan, tələş həmin situasiyada baş sözünün əvəz etdiyi insan anlamı ilə bağlıdır. Eyni vaxtda həm metonimiklik, həm də frazeolojilik birləşir, bir-birini tamamlayır.

Azərbaycan yazışıları da bu çox effektiv üslubi vasitədən tez-tez istifadə edirlər. Bu mənada İlyas Əfəndiyevin əsərlərini misal kimi göstərmək olar. Onun əsərlərində işlənilən metonimik frazeoloji birləşmələrdə yeni semlərin meydana çıxması Ostinin yaradıcılığındakı kimi yeni semlərin formalaşması ilə səciyyələnir. Nümunələrə müraciət edək:

1.”O, bəlkə də bu qəhrəmanın , çirkin oğlanın yerində gözəl bir gənc görmək istəyərdi. Yoxsa onun belə olmadığına təəssüf edirdi.... kim bilir, bəlkə də. onun məğlub könlündə cilvələnən aydın. Şirin duyğular üzərinə ***“ çirkinliyin qara buludu”*** *çökürdü. Bəlkə də, gənc qız bu soyuq və eybəcər buludu könlündən qovmaq istəyirdi .*” (5,20).

2.“ Bir dəfə idman təlimi zamanı beş kilometri hamıdan tez qaçıb , birinci dəfə lenti qıran həsənə baxan Gülara öz-özü ilə danışırmış kimi , “bax əsil kişi buna deyərlər -“, deyə pıçıldadı. Eyni zamanda Həsənin qızarıb tərləmiş üzünə , qabarmış saçlarına baxaraq təntimiş bir hərəkətlə üzünü çevirdi. Əslində , tutduğu çiçəyi dırnaqları ilə didib yerə tökdü. Mənə elə gəldi ki. O, indicə hönkürtü ilə ağlayacaq. Mən” ***çirkinlik buludu*** *“deyə düşünürdüm”* (5,21). Verilmiş misalda “ çirkinliyin qara buludu” metonimiyanın bir növü olan metolepsisdir; təhkiyə obyektinin müəllif tərəfindən özünəməxsus adlandırmasıdır. İfadənin frazeolojiliyi onun “çirkinlik buludu” olmasındadır, metonimikliyi isə ifadənin hədəfi yeni çür adlandırmasındadır (metalepsis olaraq). Yeni sem isə “çirkinlik” anlayışının semantik strukturunda metonimik mənanın formasıdır.

Göründüyü kimi, metonimik frazeoloji birləşmələr formalaşma prosesində mürəkkəb əqli əməliyyatın nəticəsi kimi meydana gəlir. Qeyd olunan frazeoloji birləşmələrdə frazeolojilik nisbətən zəif hiss olunur, buna da səbəb onların frazeolojiləşmənin ilkin mərhələsində olması ilə bağlıdır. Bununla əlaqədar O. A. Titova yazır (səh.....): “*Metonimik yenidən düşünmə zamanı onun əsasında formalaşmış frazeoloji birləşmələrdə sərbəst birləşmənin mənası qismən qorunub saxlanılır ki, bu da onun ilkin frazasının arxisem və diferensial semasının saxlanması ilə bağlıdır. Eyni zamanda, ilkin ifadənin arxiseması ilə frazeoloji vahidin diferensial seması arasında əlaqə vardır”* (3).

Frazeolojiliyin güclü hiss olunduğu misallara baxaq:

“On his approaching them soon afterwards, though without seeming to have any intention of speaking, Miss Lucas defied her friend to mention such a subject to him; which immediately provoking Elizabeth to do it, she turned to him and said:

"Did you not think, Mr. Darcy, that I expressed myself uncommonly well just now, when I was teasing Colonel Forster to give us a ball at Meryton?"

"With great energy; but it is always a subject which makes a lady energetic."

"You are severe on us."

"It will be her turn soon to be teased," said Miss Lucas.

"I am going to open the instrument, Eliza, and you know what follows."

"You are a very strange creature by way of a friend!—always wanting me to play and sing before anybody and everybody!

If my vanity had taken a musical turn, you would have been invaluable; but as it is, I would really rather not sit down before those who must be in the habit of hearing the very best performers."

On Miss Lucas's persevering, however, she added,

"Very well, if it must be so, it must."

And gravely glancing at Mr. Darcy,

"There is a fine old saying, which everybody here is of course familiar with:

***'Keep your breath to cool your porridge'**; and I shall keep mine to swell my song."*(4).

Zahirən ilkin semantikaya yaxın olan "***'Keep your breath to cool your porridge'(*** Sıyığınızın soyuması üçün nəfəsinizi tutun") frazeoloji birləşməsi metonimik frazeoloji birləşmədir. Bu ifadədə fikr çox incə və həssas şəkildə frazeoloji qəlibə salınmışdır. Onun metonimikliyi fikrin metonimik mexanizm əsasında həmin ifadənin üzərinə köçürməsindədir ; frazeolojiliyi isə metonimik assosiasiyaya malik olmasındadır. Həssas olmaq semantikası üzərində köklənən bu frazeoloji vahidin ilkin mənası ilə frazeoloji mənası arasında bağlılıq frazeoloji cümlə səviyyəsindədir; predikativ xüsusiyyətə malikdir.Atalar sözü kimi mövcud olan bu ifadə qeyd olunan situasiyada frazeoloji cəciyyə daşıyır .Onun frazeolojilik səviyyəsi situasiyaya nəzərən müəyyənləşir və qeyd olunan frazemin daxili mənası ilə əlaqəsi yeni çaların formalaşması kontekstində müəyyənləşir. İlyas Əfəndiyevin əsərlərində analoji fakta nəzər salaq:

***"Onun sir-sifətini hara qoyaq**... yox! Mən bunun necə sevgi olduğunu necə anlaylm. O, öz hədəfində yanılmadı. Ən yaralı yerimdən vurdu"* (5,22).

***"Onun sir-sifətini hara qoyaq**... "* frazeoloji birləşməsi predikativ əlamətə malikdir; cümlə quruluşludur. Metonimik köçürmə əsasında formalaşmışdır; onun daşıdığı məna belədir:"çox çirkindir".Qeyd olunan misalda propozisiya həmin frazeoloji birləşmənin metonimik semantikasının əsasında dayanır. "Sir-sifət"əsasında yaranan frazem xüsusinin ümumini əvəz etməsi prinsipi əsasında formalaşmışdır.

Frazeoloji birləşmələrin daxili mənası ilə situasiyadan asılı olarq sonradan işlənən mənası frazem kontekstində yeni semdir və lüğəvi vahiddir. Bunlar arasında əlaqə arxisemlə yeni sem münasibətləri hududundadır:

"They attacked him in various ways—with barefaced questions, ingenious suppositions, and distant surmises; but he eluded the skill of them all, and they were

at last obliged to accept the ***second-hand*** *intelligence of their neighbour, Lady Lucas.*

Her report was highly favourable.

Sir William had been delighted with him.

He was quite young, wonderfully handsome, extremely agreeable, and, to crown the whole, he meant to be at the next assembly with a large party.

Nothing could be more delightful!"(4). **"the second-hand intelligence"-** metonimik frazeoloji birləşmə kimi sonradan formalaşan mənanın daşıyıcısıdır; onun mənası "digərindən alınmış ağıl, başqasının sözü ilə hərəkət etmək " semantikasıdır. Azərbaycan dilində bu ifadənin kalkası olan "ikinci əl" ifadəsi işlənir. Lakin metonimik frazeoloji birləşmə kimi, ilkin semantika baza olaraq mövcud olur, onun mənası daha genişdir, frazeoloji birləşmə kimi isə onun semi bir ədəddir. Baza semləri sistemində bir həlqəni təşkil edir. Digər tərəfdən ,frazem semantikası üslubi səciyyə daşımaqla mətndə praqmatik rola malik olur. Qeyd olunan metonimik frazeoloji birləşmələr dilin leksik sisteminin inkişafı kontekstində mühüm yer tutur.

Metonimik frazeoloji birləşmələr üslubi baxımdan çoximkanlıdır. Misallara müraciət edək:

" He paused in hopes of an answer; but his companion was not disposed to make any; and Elizabeth at that instant moving towards them, he was struck with the action of doing a very gallant thing, and called out to her:

"My dear Miss Eliza, why are you not dancing?

Mr. Darcy, you must allow me to present this young lady to you as a very desirable partner.

You cannot refuse to dance, I am sure when so much beauty is before you."

And, ***taking her hand,*** *he would have given it to Mr. Darcy who, though extremely surprised, was not unwilling to receive it, when she instantly drew back, and said with some discomposure to Sir William:*

"Indeed, sir, I have not the least intention of dancing.

I entreat you not to suppose that I moved this way in order to beg for a partner."

Mr. Darcy, with grave propriety, requested to be allowed the honour ***of her hand,*** *but in vain.*

Elizabeth was determined; nor did Sir William at all shake her purpose by his attempt at persuasion (4). .

"Taking her hand" –"onun əlindən tutaraq" və ***"the honour of her hand"- əlinin şərəfinə (ləyaqətinə),*** metonimik səciyyəli frazeoloji vahidlərdir. Məsələ sadəcə kiminsə əlindən tutmaqdan getmir, "əlləri birləşdirmək"dən gedir. Bu semantika frazeoloji vahidin semi olaraq təhlilə cəlb etdiyimiz mətn parçasında mövcuddur.Bu semlər ilkin semantik bazanın strukturunu zənginləşdirir. Qeyd olunan frazemlər mətn semantikasında mühüm üslubi funksiya yerinə yetirir.

Metonimik frazeoloji birləşmələrdə metonimiyaların formalaşma prinsiplərinə uyğun olaraq məntiqi prinsip gözlənilir və ha bu tam hiss olunur. Məsələn:

"*He concluded with representing to her the strength of that attachment which, in spite of all his endeavours, he had found impossible to conquer; and with expressing his hope that it would now be rewarded by her* ***acceptance of his hand"*** **(əlinin qəbulu).** (4).

Verilmiş misalda "***acceptance of his hand". sözbə söz tərcümədə " əlinin qəbulu"*** bütövlükdə insanın (sevgi və yaxud evlilik təklifinin) qəbul edilməsi ilə assosiasiya olunur; söhbət cənab Dersinin onu qəbul etməsindən gedir. Göründüyü kimi,frazemin metonimik ifadəsi fikrin daha emosional, təsirli və dəqiq ifadısinə imkan vermişdir.Üslubi vahid kimi qeyd olunan əlamətlərin daşıyıcısına çevrilmişdir. Digər misallarda da bunu görmək olur:

"Her mother stepped forwards, embraced her, and welcomed her with rapture; ***gave her hand,*** *with an affectionate smile, to Wickham, who followed his lady; and wished them both joy with an alacrity which shewed no doubt of their happines"*(4).

" ***Gave her hand"*** əlini vermək salamlaşmağın metonimik ifadə formasıdır, həm də frazeoloji birləşmə olaraq üslubi yükə malikdir; görüşməyin obrazlı formasıdır. Bu frazeoloji birləşmənin dəyərləndirmə kontekstində öz çaları vardır.Yəni bu görüşmə adi görüşmədən fərqli olaraq , ünsiyyət prosesində daşıdığı üslubi məna daşıyıcısıdır.

Faktları nəzərdən keçirəndə metonimik frazeoloji birləşmələrin C.Ostin yaradıcılığında mühüm rola malik olduğunu müşahidə edirik. Onların işlənmə məqamları rəğbət, hörmət, can atma kimi üslubi semantika ilə zəngindir.Müəllif və ya obrazların dilində həmin ifadələrin işlənilməsi müəllif intensiyasının dəqiq çatdırılmasında mühüm rol oynayır:

"*He would scarcely be ten pounds a year the loser by the hundred that was to be paid them; for, what with her board and pocket allowance, and the continual presents in money which passed to her through her* ***mother's hands,*** *Lydia's expenses had been very little within that sum"* (4)**.**

"Mother's hands"- "anasının əli ilə ona keçən"," anasından ona keçən"frazeoloji birləşməsi "anasının verdiyi" anlamına gəlir.

İ.Əfəndiyevin əsərlərində orijinal frazeoloji birləşmələrə və ya frazeoloji cəhətdən yüngül motivləşməyə məruz qalan metonimiyalara rast gəlinir. Həmin metonimiyalar bədii dilə təzə gəlişi ilə diqqəti tez cəlb edir, oxucusunun qəlbinə yol tapır:

1." Səriyyə pəncərəni açdı. Mən pianinonu yoxlamadan dərhal coşqun və həyəcanlı vals çaldım. Mən yalqızlığı sevmirəm! Mən təklikdən qorxuram! Əbədi təklik dəhşətdir., Məndaha coşqun, daha coşqun akkordlar vurmağa çalışırdım. ***Mən dünyanı coşqun şən səslərlə doldurmaq istəyirdim.*** *Mən təkliyi sevmirdim, sevmirdim(6,39).*

2." Heç bir ata onun üçün Nəriman ola bilməzdi. ***Ayağını quru yerə dəyməyə qoymazdı.*** *Könlündən nə keçsə, hazır olub. Gəncədə Kənd Təsərrüfatı İnstitutunda oxuyan zaman üç-dörd dəfə yanına gələrdik. Payızda yoldaşlarını yığıb kəndə qonaq gətirərdi. Kişi gedib onlara ceyran vurardı. Onu da deyim ki, kişinin əməyini itirmədi. Cavanlığına baxmayaraq , lap institutun özündə də başına and işərdilər"(* 6,51).

"Mən dünyanı coşqun şən səslərlə doldurmaq istəyirdim"," Ayağını quru yerə dəyməyə qoymazdı."ilkin mərhələdə frazeolojiləşən , daxili forması ilə çox yaxın olan metonimik frazeoloji birləşmədir.Dünyanı şən görmək istəyən,hər azusu yerinə yetirilən semantikası bu frazeoloji birləşmələrdə proipozitiv məna daşıyır.

Ədəbiyyat siyahısı

1.Denroche Charles 2014 *Metonymy and Language*. New York: Routledge, De Mendoza Francisco Ruiz 2021 Conceptual Metonymy Theory revisited: some definitional and taxonomic issues 1. The Routledge Handbook of Cognitive Linguistics

2.İngiliscə-Azərbaycanca lüğət. Bakı Şərq-Qərb. 2004 . 1320 s.

3.Титова Ольга Анатольевна.Метафора и метонимия как источники создания образности английских фразеологизмов-антропономинантовТекст научной статьи по специальности «Языкознание и литературоведение» :https://cyberleninka.ru › article › metafora-i-metonimi).

4.Ostin j.. Pride and prejudice/Internet Archive :https://archive.org › details..

5.Əfəndiyev İ. . "Gözlənilməyən sevgi" Seç. əsərl. I cild. Bakı Avrasiya Press.2005.s: 20, (280).

6.Əfəndiyev İ. . " Söyüdlü arx" Seç. əsərl. I cild. Bakı Avrasiya Press.2005. 280.

SEVINJ HUSEYNOVA

METONYMIC BASE OF PHRASEOLOGICAL COMBINATIONS IN ENGLISH AND AZERBAIJAN LANGUAGES

Summary

Phraseological research is one of the recently developing fields of linguistics. The study of phraseological units closely related to linguistic and extralinguistic factors in the typological aspect provides valuable theoretical facts for many fields of science. In this aspect, the comparative study of phraseological units in the works of J. Austin and I. Efendiyev makes it possible to say something about the typology of phraseological units in English and Azerbaijani languages.

Reconciling the phraseological units formed on the metonymic basis in both languages and determining their common aspects gives a reason to propose a theoretical idea about the common features of the phrase structure in the minds of all people. Therefore, in the context of English and Azerbaijani literary languages, the

related study of phraseological units in the works of J. Austin and I. Efendiyev is important. is important. The phraseological units we have included in the analysis of the works of J. Austin and I. Efendiyev have typological characteristics. In this process, a new phraseological unit was formed on the basis of simultaneous metonymization. Based on the metonymic basis, a new sem was formed from archesem. This is the semantics of the phraseological unit. In the works of J. Austin and I. Efendiyev, the mechanism of metonymization as a method of formation of phraseological combinations has universal features.

Key words: Phraseological combinations, metonymy, base, archisem, sem.

СЕВИНДЖ ГУСЕЙНОВА

МЕТОНИМИЧЕСКАЯ БАЗА ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Резюме

Фразеологические исследования являются одной из недавно развивающихся областей языкознания.Изучение фразеологизмов, тесно связанных с лингвистическими и экстралингвистическими факторами, в типологическом аспекте дает ценные теоретические факты для многих областей науки. В этом аспекте Дж. Остин и И. Сравнительное изучение фразеологизмов в произведениях Эфендиева позволяет кое-что сказать о типологии фразеологизмов в английском и азербайджанском языках.

В частности, о сочетании фразеологизмов, образованных на метонимической основе в двух языках и определение их общих аспектов дает основание предложить теоретическое представление об общих характеристиках фразового строя в сознании всех людей.В контексте английского и азербайджанского литературных языков связанное с ними изучение фразеологических сочетаний в Важное значение имеют работы Дж. Остина и И. Эфендиева. Проанализированные нами фразеологизмы в работах Остина и И. Эфендиева имеют типологические особенности. В этом процессе на основе метонимизации сформировалась новая фразеологическая единица. Механизм метонимизации как способа образования сложных слов имеет универсальные черты.

Ключевые слова: Фразеологические соединения, метонимия, основа, архисема, сема.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.d.dosent V.Z.Babayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

HƏŞİMOVA NƏRGİZ POLAD QIZI
Azərbaycan Universiteti
"Tərcümə və Filologiya" kafedrasının doktorantı

İNGİLİS DİLİNDƏ ŞƏXSİYYƏTİ SƏCİYYƏLƏNDİRƏN ATALAR SÖZLƏRİ VƏ ZƏRB-MƏSƏLLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ VARİANTLARI

Xülasə

İngilis dilində şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllərin öz sintaktik xüsusiyyətləri vardır. Bu məqalədə insanı səciyyələndirən atalar sözü və zərb-məsələlərdən bəhs edilir.Burada şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb-məsələlərin əsas xüsusiyyətləri təhlil edilir. Belə atalar sözləri və zərb-məsələlərin sintaktik quruluşu öyrənilir. İnsanı səciyyələndirən atalar sözləri və məsəllərə sadə və mürəkkəb cümlə şəklində rast gəlinir. Öz növbəsində, cümlələr müxtəsər, geniş və yarımçıq ola bilər. Şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb-məsələlər tabesiz və tabeli mürəkkəb cümlə şəklində də ola bilər. Bu tabesiz mürəkkəb cümlələr müxtəlif mənaları ifadə edə bilir. Bu mənalar bunlardır: ziddiyyət, nəticə, bölüşdürmə, aydınlaşdırma və s. Tabesiz mürəkkəb cümlələr aşağıdakı bağlayıcılardan istifadə etməklə birləşdirilir, məsələn: but, and, so, not..nor, neither..nor, either..or və s. Belə mürəkkəb atalar sözləri və zərb-məsəllərin tərkib hissələrinin bir-birinə bağlanmasında intonasiyanın da böyük rolu var. Mürəkkəb cümlə quruluşlu insanı səciyyələndirən atalar sözləri və zərb-məsələlərin müxtəlif variantları var. Onlar nominal budaq cümlələrlə ifadə edilə bilər. Onlardan mübtəda, predikativ, tamamlıq və təyin budaq cümlələrində geniş istifadə olunur. Bu atalar sözləri və zərb-məsələlər zərflik budaq cümlələrində də işlənə bilər. Onlar "zaman", "şərt-səbəb", "yer", "müqayisə"zərfliyi budaq cümlələrində ifadə edə bilərlər.

Açar sözlər: Atalar sözləri, zərb məsəllər, frazeologiya, sintaktik quruluş, tabeli mürəkkəb cümlə.

Atalar sözləri və zərb məsəllər aid olduqları xalqın frazeolji sisteminin mühüm bir qolunu təşkil edir və xalq müdrikliyinin inikasıdır. Əsrlərdən bəri cilalanıb bugünümüzə qədər gəlib çıxan atalar sözləri və zərb məsəllər özlərinin leksik sistemində işləndikləri xalqın tarixini, keçmişini, həyat yolunu, məişətini adət və ənənələri, mənəvi dünyasını, düşüncəsini əks etdirir. İ.V.Arnold atalar sözlərini belə səciyyələndirir: "Atalar sözləri xalq müdrikliyinin, həqiqətin, yaxud mənəvi dərsi dəqiq və mücərrəd tərzdə ifadə edən qısa yığcam tanış epiqramatik deyimdir [2, s. 179].

Atalar sözləri frazeologiyanın bir qolu olub olmaması haqqında müqayisəli fikirlər mövcuddur [2, s.66-89], ancaq biz V.V.Vinoqradovun atalar sözlərinin frazeoloji ifadələrlə birlikdə öyrənilməsi [3, 177] fikrinin tərəfdarıyıq. Çünki, həm frazeoloji vahidlər, həm də atalar sözləri və zərb məsəllər aid olduqları xalqın mücərrəd təfəkkürünün məhsuludur, yəni bir növ kimlik pasportudur. A.V.Kunin də öz frazeoloji vahidlərlə bağlı verdiyi təsnifatında atalar sözlərini və zərb məsəlləri frazeoloji vahidlər sırasına daxil edir. Onun fikrincə frazeologiyanın bir qolu olan bu vahidlərin əsas meyarlarından biri onların stabil, dəyişməz struktura malik olmaları və bütöv bir məna daşımalarıdır. Belə ki, semantik tutumunda çox dərin bir mənanı ehtiva edən atalar sözləri və zərb məsəllər frazeoloji vahidlər kimi müəyyən situasiya, şərait və dövrdə təşəkkül tapmış, formalaşmış və bugünümüzə qədər gəlib çatmışıdır. Ə. Hacıyeva qeyd edir: "Bunların ənənəyə görə daşıdığı məna, komponentlərinin bütövlükdə mənasından və sintaktik quruluşundan asılıdır. Belə ifadələr düzəldilmir, bunlardan dildə hazır şəkildə istifadə edilir" [4, s.28].

Atalar sözləri ilə zərb məsəllərin bir çox ümumi cəhətləri var ki, bunlardan da başlıcası onların leksik komponentlərinin daimi mənalarının ənənəvi və əksərən fiqurativ olmalarıdır. Azərbaycan və ingilis dilinin frazeoloji sisteminin zəngin və böyük bir qolunu təşkil edən və xalq müdrikliyinin ifadəsi olan bu qanadlı sözlər hər iki dildə hazır şəkildə təzahür edilir. Dərin mənaya malik olan və daşıdığı semantik yükün ibarət olduğu komponentlərin birbaşa mənasından asılı olmayıb, yalnız məcazi məna daşıdığı atalar sözləri və zərb məsəllər əsrlərdən bəri cilalanaraq sanki bir güzgü kimi xalqın psixologiyasını, həyata baxışını özündə əks etdirir. Atalar sözləri və zərb məsəllərin böyük və mühüm bir semantik qolunu şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllərtəşkil edir. Bu tip atalar sözləri insanın mənəviyyatını, şəxsiyyətini, düşüncələrini, həyata baxışlarını, əxlaqını, fəaliyyətini, psixoloji əhval-ruhiyyəsini, idrak səviyyəsini, zəkasını əks etdirir və aid olduğu dildə və eyni zamanda leksikasını təşkil etdiyi xalqın nitqində də öyüd, nəsihət, yol göstərmə, tərbiyəvi çağırış, müsbət keyfiyyətlər aşılama, mənfi keyfiyyətləri tənqid etmə, qınama, xoş əməllərə ruhlandırma konotasiyalı parameoloji vahidlərdir. Rəngarəng semantika sərgiləyən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllərhəm də rəngarəng sintaktik quruluşa da malikdirlər. Belə ki, frazeologiyanın xüsusi bu növü olan belə parameoloji vahidlərin sintaktik strukturunu nəzərdən keçirdikdə xalqın müdriklik ifadəsi olan bu atalar sözləri və zərb- məsələlərin rəngarəng sintaktik quruluş sərgilədiyinin şahidi oluruq. "Cümlə tipli atalar sözləri müxtəlif cümlə tiplərinin böyük bir çeşidində təzahür edirlər... Bu cümlə tiplərinə sadə, tabesiz, tabeli mürəkkəb və tabesiz- tabeli mürəkkəb cümlələr aiddir...." [5, s.3]. Həm Azərbaycan dilində, həm də ingilis dilində şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər zəngin məna çalarları əks etdirdiyi kimi, zəngin sintaktik quruluşda da çıxış edir. Belə ki, bu tip atalar sözləri və zərb məsəllər sadə cümlə, yarımçıq cümlə, tabesiz mürəkkəb cümlə və ayrı-ayrı tip tabeli mürəkkəb cümlə növləri strukturunda Azərbaycan və ingilis dillərində təzahür edirlər. Belə

parameoloji vahidlər komponentləri tabesizlik və tabelilik əlaqələri hesabına birləşən tabesiz və tabeli mürəkkəb cümlələr formasında vahid bir mənanın ifadəsinə xidmət edir. Sadə cümlə formasında olan şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllərinin sintaktik quruluşuna nəzər saldıqda onların müxtəlifsistemli Azərbaycan və ingilis dillərində həm müxtəsər, həm də geniş sadə cümlə kimi təzahür etdiyinin şahidi oluruq. Müxtəsər sadə cümlə formasında olan şəxsiyyəti səciyyələndirən atalar sözləri və məsəllər qarşılaşdırılan hər iki dildə müxtəlif semantika, məna çaları ilə təzahür edir. Məsələn:

Sadə müxtəsər cümlə formasında dildə təzahür edən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

One man, no man- Tək əldən səs çıxmaz.

Sadə geniş cümlə formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

İngilis dilində: Hasty climbers have sudden falls. Bu atalar sözü Azərbaycan dilinə ekvivalent tərcümə yolu ilə tərcümə olunur: Tələsən təndirə düşər. Öyüd, nəsihət səciyyəli bu atalar sözünün həm ingilis dilində, həm də Azərbaycan dilində olan ifadəsi səbirsizliyin, tələsmənin insanın həyatındakı mənfi izi, neqativ təsiri və nəticəsini vurğulayır.

The face is the index of the mind- Üz ürəyin güzgüsüdür. Ekvivalent üsulu ilə tərcümə olunan

The devil lurks behind the cross. Quzu dərisinə girən qoyun.

One scabbed sheep will mar (or infects) a whole flock –Bir qotur keçi bütöv sürünü korlayar.

İnkarlıq bildirən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Don’t bite the hand that feeds you.-İşıq gələn yerə barmaq tıxama.

Yarımçıq cümlə formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

All in good time.-Hər şeyin öz zamanı.

Jackdaw in peacock’s feathers.-Canavar quzu dərisində.

Əmr cümləsi ilə ifadə olunan şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Take the bull by the horns, but take a man at his (her) word.- Adamı sözündən tutarlar, heyvanı buynuzundan.

Love me, love my dog.-İtə hörmət edərlər yiyəsinə görə.

Speak when you are spoken to.-Danışmaq qızıldırsa, susmaq gümüşdür.

Come when you are called.- Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə.

Sual cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Can leopard change its skin?- Qozbeli qəbir düzəldər.

Tabesiz mürəkkəb cümlə formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Ziddiyyət mənalı

Promise little, but do much – Az vəd et , çox iş gör.

Pride goes before and shame follows after.- Öyünməyin ardınca utanmaq gəlir

Say nothing, think more. Az danış, çox düşün.

Müqayisə mənalı:

An ill wound is cured, not an ill name.-Pis yara sağalar, pis ad getməz.

Morning is wiser than the evening // It's always easier to think in the morning //

Aydınlaşdırma mənalı:

To call a spade a spade (to call the things by their own names).- Ağa ağ, qaraya qara (deyərlər).

Bölüşdürmə mənalı

One beats the bush, and another catches the bird.- Kim qazana, kim yeyə?

Nəticə mənalı:

The great talkers, the least doers.- Kim çox danışırsa, o çox az iş görər.

"such"

Such carpenters such chips –Mal yiyəsinə oxşayar.

"So"

As a man is so is his company.- Dostunu mənə göstər, sənin kim olduğunu deyim.

"But"

The devil may get in by the keyhole, but the door won't let him out.-Tamahkarı yalançı aldadar. Tamah səni aldatmasın, başına əngəl açar.

"And"

Pride goes before and shame follows after. Öyünməyin ardınca utanmaq gəlir.

One man makes a chair and another sits in it. Kim qazanar, kim yeyər.Eşşək qazanar, at yeyər.

"Whether… or"

The man is a moon whether it shines or not

Ay işıq saçsa da, saçmasa da, yenə də aydır.

"the... the"

The more, the merrier. -Məclis nə qədər böyük olsa, bir o qədər şən keçər.

The more you have , the more you want.-Allah verdikcə bəndə gümana düşər.

"neither...nor"

Love is neither bought nor sold.-Məhəbbət nə alınır, nə də satılır.

"Not … nor"

Trust not a new friend nor an old enemy Qarı düşmən dost olmaz.

Tabeli mürəkkəb cümlə strukturlu şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllərin komponentləri "tabelilik əlaqəsinin ifadə üsulu" olan "bağlayıcılar,

bağlayıcı sözlər (bağlayıcı əvəzliklər və bağlayıcı zərflər) və tabelilik intonasiyası" [6, s.40] ilə bağlanır. Ayrı-ayrı budaq cümlələrin nümunəsində şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəlləri nəzərdən keçirək:

Mübtəda budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

That which was bitter to endure may be sweet to remember. –Dar günlərin də xatirəsi bəzən şirin olur.

Predicative budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

That's where the shoe pinches.İndi bildim bəla hardan gəlir, daş hardan düşür.

Children are what you make them.-Ot kökü üstündə bitər.

Tamamlıq budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Never put off till tomorrow what can you do today.- Bu günün işini sabaha qoymazlar. Bugünkü işi sabaha qoymaz ağıllı kişi.

He knows which way the wind blows.-Küləyin haradan əsdiyi bilinir.

Təyin budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

A fool is a man who is wise too late.- Axmaq o adamdır ki, çox gec ağıllanır.

The evil we bring on ourselves are hardest to bear. İnsanın öz-özünə elədiyini aləm yığılsa, edə bilməz; The dog that fetches will carry.Sənə qıybət qıran, səndən də özgəyə danışar.

Zaman budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

The cat shuts its eyes while it steals cream.- Dəvəquşu başını kola salıb, quyruğundan xəbəri yox.

A liar is not believed when he speaks the truth.-Yalançının evi yandı, heç kəs inanmadı.

All things are difficult before they are easy.-Hər bir işin əvvəli çətindir.

Don't halloo till you are out of the wood.-Arxı hoppanmamış hop demə.

Don't judge a man until you have walked in his boots.-daş nə bilir kəsək nə çəkir.// İnsanın yerində olmayınca onun nə çəkdiyini hardan biləsən?

Şərt budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

If you tend to your garden, it will blossom.- Bağa baxarsan bağ olar, baxmasan dağ olar.

If a donkey bray at you, don't bray at him.-Anqıran eşşəyin başına döyməzlər.

Müqayisə budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

The devil is not so black as he is painted –Hər şey deyildiyi qədər çətin deyil.Şeytan təsvir edildiyi qədər qara deyil.

Səbəb budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

The devil knows many things because he is old. -"Qoca qurd" Təcrübəli adam çox bilir.

Şərti şumda kəsək, xırmanda yabalaşmayaq.

Yer budaq cümləsi formasında işlənən şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər:

Faults are thick where love is thin.-Sevgi azalanda nöqsanlar çoxalır.

İngilis dilində şəxsiyyəti səciyyələndirən atalar sözlərinin sintaktik xüsusiyyətlərini nəzərdən keçirdikdə bu tip atalar sözlərinin rəngarəng cümlə strukturuna, cümlə növlərinə malik olduğunu görmək olur. Nəzərdən keçirdiyimiz və təhlil etdiyimiz atalar sözlərinin həm təsdiqdə, həm də inkarda, həm nəqli, həm sual, həm də əmr cümləsi kimi işləndiyinin şahidi olunur. İngilis dilində şəxsiyyəti səciyyələndirən atalar sözləri sadə və mürəkkəb cümlə kimi bu dildə təzahür edir. Mürəkkəb cümlə strukturuna malik olan atalar sözləri tabesiz və tabeli mürəkkəb cümlə quruluşunda dildə işlənir. Tabesiz mürəkkəb strukturlu ingilis dilində şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər ziddiyyət, müqayisə, aydınlaşdırma, nəticə və bölüşdürmə mənaları daşıyırlar və belə tabesiz mürəkkəb cümlə formalı atalar sözləri və zərb məsəllərin komponentləri bir- birinə həm intonasiya ilə, həm də tabesizlik bağlayıcılarının köməyi ilə bağlanırlar. İngilis dilində nəzərdən keçirdiyimiz tabeli mürəkkəb cümlə strukturlu şəxsiyyəti səciyyələndirən atalar sözləri və zərb məsəllər mübtəda, predikativ, tamamlıq, təyin budaq cümlələri və zaman, səbəb, şərt, yer, müqayisə zərfliyi budaq cümlələri kimi təzahür edirlər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Arnold I.V "The English Word. Moscow " Visshaya shcola"- 1986.
2. Əlizadə Z. "Azərbaycan atalar sözlərinin həyatı". Bakı-"Yazıçı"-1985.
3. Hajiyeva A., Najafli Elmar "Contrastive lexicology". Baku "Science and Education"- 2010.
4. Hacıyeva Ə."İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri".Bakı-"Nurlan"-2004.
5. Marcas Mac Coinnigh "Structural Aspects of Proverbs" https://www.degruyter.com/document/doi/10.2478/9783110410167.5/html?lang=en
6. Əsədova M. "İngilis və Azərbaycan dillərində tamamlıq budaq cümlələri". Bakı Nurlan 2007.
7. Abasquliyev T. "İngilis dilində atalar sözləri və onların Azərbaycan və rus dillərinə tərcüməsi". Bakı-"Elm" nəşriyyatı- 1981.
8. Abbasov A. "Dicionary of English- Azerbaijan Proverbs and Sayings". Bakı-"Turan evi"- 2009.

Hashimova N. P.

Summary

SYNTACTIC CHARACTERISTICS OF WORDS AND REPRESENTATIONS CHARACTERIZING PERSONALITY IN THE ENGLISH LANGUAGE AND THEIR TRANSLATION OPTIONS INTO AZERBAIJANIAN LANGUAGE

ortalarında Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində "Onomastika mərkəzi" yaradılmış, A. Qurbanovun təşəbbüsü ilə yaradılmış bu elmi mərkəzdə külli miqdarda onomalogiyanın ən aktual və vacib problemlərinə dair tədqiqat işləri keyfiyyətli şəkildə yerinə yetirilmişdir (1, 108). A.Qurbanov 1988-ci ildə nəşr etdirdiyi "Azərbaycan dilinin onomalogiyası" adlı dərs vəsaitində etnonimlərin bəzi fonetik, leksik, semantik, morfoloji əlamətlərinə xüsusi bölmələr ayırmış və göstərmişdir ki, "bunları araşdırarkən qədim lüğətlərə, klassiklərin əsərlərinə, tarixi mənbələrə yaxından yanaşıldığı kimi, dialekt və şivələrə də müqayisəli sürətdə mütləq yanaşmaq lazımdır (2, 304). Dərs vəsaitində bəzi Azərbaycan- türk mənşəli etnotoponimlərin linqvistik tərkibinə türkologiyanın son nailiyyətləri aspektindən yanaşılmış, onların tərkibindəki dialekt və şivə ünsürlərinə də diqqət yetirilmişdir ki, tədqiqat prosesində bu linqvistik faktlara istinad edilməklə səmərəli elmi-nəzəri ümumiləşdirmələr əldə etmək mümkündür. Onomolagiyamızda Qərbi Azərbaycanda (indiki Ermənistada) coğrafi adların linqvistik əlamət və xüsusiyyətlərinin sistemli və fundamental araşdırılması ideyası da ilk dəfə A.Qurbanov tərəfindən irəli sürülmüş, bu sahədə xeyli sayda tarixi coğrafi, dilçilik istiqamətində mənbələr yaradılmışdır. Araşdırmalarımız göstərir ki, Qərbi Azərbaycan toponimik sistemində dialekt və şivə elementlərinə əksər elmi mənbələrdə biganə yanaşılmış, ötəri və epizodik fikirlər səsləndirilmişdir. Halbuki toponimlərin tərkibində mövcud olan dialekt və şivə ünüsürlərini nəzərə alıb lazımi elmi səviyyədə araşdırıb öyrənmək və məimsəmək də olduqca vacib və aktual məsələlərdəndir, çünki coğrafi adların yaranması və dəyişilməsi əksər məqamlarda dialekt və şivə elementləri, vahidləri hesabına baş vermişdir.

Tanınmış toponimist-alim T.Əhmədov 1991-ci ildə çap etdirdiyi "Azərbaycan toponimikasının əsasları" adlı dərs vəsaitində xalqımızın dili, tarixi, etnogenezi və etnoqrafiyası ilə sıx bağlı olan coğrafi adlar sistemində geniş prizmalardan nəzər salmış, mükəmməl linqvistik təhlillət aparmış, yeni gəldikdə Azərbaycan-türk mənşəli toponimlərinin yaranma və formalaşmasında iştirak etmiş poledialekt ünsürlərini özlərində mühafizə etmiş toponim və mikrotoponimlərin fonetik, leksik, semantik tərkiblərin həm dilimizin yazıyaqədərki, həm də ondan sonrakı dövrləri üzrə tədqiq etmiş, lakin əsərdə daha çox toponimlərdə dialekt və şivə elementlərini Azərbaycanın şimal bölgələrinə məxsus coğrafi adlar əsasında aparmış və belə bir düzgün qənaətə gəlmişdir ki, "Müasir Azərbaycan toponimlər sistemindı fəaliyyət göstərən paleotoponimlərdə bu əraziyə yürüşləri və məskunlaşmaları qeyd edilən qədim türk qəbilə və tayfa dillərinin (dialektlərinin) müxtəlif qatlarına aid elementlərə təsadüf olunmaqdadır" (3, 241). Qeyd etməliyik ki, yazının kəşfindən sonrakı dövrlərdə çağdaş türkcələrin demək olar ki, hamısı türk dilinin ləhcələri (dialektləri) hesab olunurdu və müxtəlif ayrılmaların, parçalanmaların, yenidən birləşmələrinin, coğrafi baxımdan uzaq düşmələrin nəticəsində qohum türkcələrin çoxu müstəqil dil statusuna yiyələndilər. Müşahidələr göstərir ki, ən qədim etnonimlərin əksəriyyəti qəbilə quruluşunun dağılması ilə əlaqədar olaraq, qəbilə

başçılarının əsl adları, ləqəb və titulları tayfa adına transformasiya edilə bilirdi və bunlar müxtəlif dialekt arealında müəyyən fonetik sait və samit uyğunluqları şəklinə uyğunlaşdırılaraq istifadə edilmişdir. "Qəbilənin ümumi məşğuliyyəti, peşəsi də bəzən münafiq şəxs adının da dəyişməsinə, dəvəçi, quşçu və s. kimi etnonimlər-qəbilə adları da bu cür yaranmışdır. Hətta bəzən şəxs ancaq qəbilənin ümumi adı ilə adlanmış və tarixdə əsl adı unudulmuş, onun yalnız qəbilə adı ilə bağlı olan adı qalmışdır" (4, 94). Onomatoloq-tədqiqatçı Aydın Paşanın 1992-ci ildə nəşr etdirdiyi "Azərbaycan antroponomiyasının leksik problemləri" adlı monoqrafiyasında Azərbaycan şəxs adları (əsl ad, ata və soy adları, ləqəb, titul, təxəllüs) dilimizin leksik, qanun və normaları əsasında geniş tədqiq edilsə də, həmin antroponimlərin etnonimə, yaxud da etnotoponimə transformasiyası prosesində hansı poleodialekt elementləri qəbul etməsi məsələsi unudulmuşdur. Həsən Mirzəyevin 2006-cı ildə çap etdirdiyi irihəcmli "Azərbaycan toponimləri və şivə sözləri" dərs vəsaitində konkret olaraq Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimləri linqvistik təhlilə cəlb edilmiş və coğrafi adların bəzilərində özünü göstərən şivə sözlərinin ümumiliyi və fərdiliyi, denotatla əlaqəliliyi, arxaikliyi və müasirliyi, mücərrədliyi və konkretliyi, apelyativliyi və etimologiyası zəngin coğrafi ad sistemi əsasında şərh edilmişdir. Əsər olduqca maraqlı və orijinal sistem əsasında yazılmış, əvvəlcə Dərələyəzə məxsus ayrı-ayrı yaşayış məntəqə adlarının tarixi-etimoloji təhlili verilmiş, sonra isə hər bir yaşayış məntəqəsi ərazisində mövcud olan mikrotoponimlərin semantik sıralanma əsasında bütün növləri üzrə statistikası təqdim olunmuş və alimin özünün qeyd etdiyi kimi, səhhəti imkan vermədiyindən 1000-dən çox mikro coğrafi adlarda şivə elementlərini açıq vəziyyətdə saxlamış, onların linqvistik araşdırılmasını gələcək nəsillərin ixtiyarına buraxmışdır (5, 8). Toponimlərin tərkibində mühafizə olunmuş poleodialekt və şivə elementlərinin araşdırılması prosesində Həsən Mirzəyevin gərgin zəhmətə qatlaşaraq yerli informatorlardan topladığı coğrafi adlar zəngin material mənbəyi kimi olduqca böyük dəyərə malikdir (6, 135).

Eradan əvvəl və eradan sonrakı dövrlərdə türk-Azərbaycan mənşəli toponimlərin tərkibində muhafizə olunmuş poleodialekt ünsürlərinin bir çoxu xüsusilə etnotoponimlər etnohidronim və etnooronimlər respublikamızın görkəmli toponimləri A.A.Axundov, A.Qurbanov, Ə.Hüseynzadə, Y.Yusifov, K.Əliyev, V.Qukasyan, Q.Qeybullayev, T.Əhmədov və başqaları tərəfindən çox cüzi şəkildə öyrənilsə də, o, bütov və sistemli şəkildə, dialektologiya, xüsusən də, tarixi dialektologiya baxımından müstəqil tədqiqat obyekti kimi açıq vəziyyətdə qalmaqdadır. E.Əzizov 2016-cı ildə nəşr etdirdiyi "Azərbaycan dilinin tarixi dialektologiyası" adlı dərs vəsaitində toponimlərin fonetik, leksik, semantik tərkibdə fəaliyyət göstərən dialekt və şivə elementlərini ən güclü linqvistik göstəricilərdən hesab edir və onlara coğrafi adların tərkibində daha etibarlı və cüzi dəyişikliklərə məruz qalaraq işlənməsindən danışmışdır (10, 8). A.Axundova görə, konkret bir dilin tarixi dialektologiyası üçün mühüm problemlərdən biri müəyyən bir dilin dialektlərə ayrılması ilə ümumxalq dilinin münasibəti məsələsidir (8, 244). T.Hacıyev belə

hesab edir ki, dialektlərin tarixi öyrənilərkən xalqın etnik tərkibinin aydınlaşdırılması tarixi dialektologiyanın yaradılmasının tərkib hissələrindən biridir (9, 300). S.Əlizadənin qənaətinə görə, Azərbaycan dilinin tarixi dialektologiyası öz axtarışlarını ümumxalq Azərbaycan dilinin əsasında dayanmış qəbilə-tayfa dillərinə məxsus daha qədim faktlara yönəltməlidir (10, 153). Bütün qeyd edilən tarixi dialektologiya üçün meyar və prinsiplər söz yox ki, toponimlərə də tətbiq edilməli, coğrafi adların linqvistik xüsusiyyətləri bu xüsusda araşdırılıb, etimoloji təhlil süzgəcindən keçirilməlidir.

Zaman və məkan daxilində ulu babalarımız Qərbi Azərbaycan ərazisində mövcud olmuş dağlara, dərələrə, təpələrə, yaylaqlara, qayalara, yoxuşlara, enişlərə və s. adlar vermişlər ki, bunların hər biri ayrı-ayrılıqda fonetik, leksik, semantik baxımından dialekt və şivə elementləri ilə zəngindir. Bu linqvistik ünsürləri indiki Ermənistan ərazisində mövcud olan oronimik adların tərkibində-komponentlərində sezən coğrafiyaçı alimlər B. Budaqov və N. Məmmədov özlərinin əsərlərindəsəthi də olsa, toxunmuş, ermənilərin yalançı, dırnaqarası vətənpərvərlərinin bu yer-yurd adlarını dəyişdirərək özününküləşdirmə siyasətini ürəkağrısı ilə kəskin şəkildə tənqid atəşinə tutmuşlar (11, 4:12,38;13,29).

Coğrafi adalrın yaranması dilin inkişaf tarixi ilə sıx bağlıdır və bu yer-yird adlarının da müəyyən bir qismi dilin özü kimi çox qədimdir. Bunu görə də təbii olaraq toponimlərin tədqiqində toponimlərin tərkibində dilin ən qədim xüsusiyyətlərinə və eyni zamanda, dialekt və şivə elementlərinə, forma və mənalarına ölkəmiz müstəqillik qazandıqdan sonrakı illərdən çap edilmiş "Toponimik izahla lüğət"lərdə də nəzər yetirilmiş, yeri gəldikdə bəzi coğrafi adlarda təsadüf edilən arxaikləşmiş sözlər və onların dialekt və şivələrdəki izləri də qısa şəkildə şərhini, izahını tapmışdır ki, təhlil prosesində bu mənbələrə istinad etməklə araşdırma işinin səmərələliyini yüksək səviyyədə reallaşdırmaq olar.

Coğrafi adlar, xüsusən də paleotoponimlərin yarandığı dövrlərdən fərqli olaraq dialekt və şivələrdə kəskin forma dəyişmələrinə təbii olaraq məruz qala bilir və belə formaların müəyyən qədər bərpasına nail olmaq üçün dialektloji materialların istifadə edilməsinə İ.Bayramov "Qərbi Azərbaycanın toponimlər sistemi" adlı monoqrafiyasında qısa şəkildə toxunmuşdur (14, 14).

M.Hüseynova "Qərbi Azərbaycan paleotoponimlərinin liqnvistik-etimoloji təhlili" adlı monoqrafiyasında xalqımızın ən qədim yaşayış məskənlərindən olan indiki Ermənistan ərazisində mövcud olmuş coğrafi adların ən qədim dil xüsusiyyətlərindən bəhs etmiş, dialekt və şivə ünsürlərinin coğrafi ad yaradıcılığındakı tarixi rolundan geniş danışmış, toponimlərin xalqımızın etnik tərkibini özündə yüksək şəkildə əks etdirməklə türkdilli tayfa və etnosların adlarını çağdaş dövrümüzə qədər bir mənəvi abidə kimi qoruyub saxlaması yollarını, üsullarını xarakterizə etmişdir. Mahirə xanım yüksək toponimist səriştə nümayiş etdirərək, Qərbi Azərbaycanın toponimik sistemindəki yer-yurd adlarını komponentlər üzrə linqvistik təhlilə cəlb etmiş, "art//ard", "ay", "van",

“hay//erməni”, “kuti//quti”, “Qəmərli”, “Əkərək”, “Qapan”, “ağ//qara”, “al//ala”, “sarı”, “göy” və s. leksik vahidlərininin dialekt və şivələrdəki forma və mənalarının polisemiyasını arqumentləşdirilmiş dil faktları, qədim abidələr, izahlı lüğətlər, folklor örnəkləri, dialekt və şivə materialları əsasında dolğun şəkildə tədqiq etmişdir. Araşdırmaçı coğrafi adları paleotoponimləri linqvistik təhlilə komponentlər, elementlər, ünsürlər cəlb edərkən yazıdan əvvəlki və yazıdan sonrakı dövrlərdə yaranmış və formalaşmış türk-Azərbaycan mənşəli yer-yurd adlarına düzgün olaraq konseptual münasibət bildirmiş, Azərbaycan dilinin dialekt və şivə areallarında bu elementlərin qalıqlarını görmüş, paleotoponimlərin etnolinqvistik dialekt və şivə müstəvisində tədqiqində bu ünsürlərin böyük rolunu vurğulayaraq belə qənaətə gəlmişdir ki, “Qərbi Azərbaycan paleotoponimlərinin komponent müstəvisində tədqiq edilməsinin olduqca elmi-siyasi cəhətdən böyük əhəmiyyəti vardır və bu onunla şərtlənir ki, antik dövrlərdən üzü bəri bu yerd yerləri Azərbaycan türklərinə məxsus olmuş, türkmənşəli etnoslar bu coğrafiyanın ən qədim və aborigen sakinləri olmuşlar (15, 241).

Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimlərinin linqvistik aspektdə tədqiqində S.Sadıqovanın da kifayət qədər rolu olmuşdur. Tədqiqatçı 2014-cü ildə nəşr etdirdiyi “Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili” adlı dərs vəsaitində Dərələyəzə məxsus yer-yurd adlarının tərkibində bir sıra dialekt elementləri aşkar etmiş və belə ümumiləşdirici fikir irəli sürmüşdür ki, “Dərələyəz mahalının toponimlərinin tədqiqi dil tarixi və dialektoloji tədqiqatlar üçün də zəngin mənbədir. Müasir dilimiz üçün işləkliyinə görə passiv fonda keçən, yəni arxaizm və dialekt söz sayılan leksemlər Dərələyəzin toponimlərində mühafizə edilib saxlanmışdır” (16, 177).

Nəticə

Keçən əsrin oratalarından günümüzə qədər çap olunmuş məqalə, monoqrafiya, dərs vəsaitlərində Qərbi Azərbaycan topnimlərinin tərkibində mühafizə edilmiş dislekt və şivə elementlərinin linqvistik xüsusiyyətlərinə tam və bütöv şəkildə diqqət yetirilməmiş, onların sistemli araşdırılması üçün əlimizdə zəngin linqvistik materiallar mövcuddur ki, bu coğrafi adların dialekt və şivə kontekstində öyrənilməsinin siyasi-ictimai əhəmiyyəti olduqca böyük önəm kəsb edir və həmin obyekt adlarının ermənilərə deyil, Azərbaycan türklərinə məxsusluğunu birmənalı şəkildə təsdiqləyir. İndiki Ermənistanda tarixən mövcud olmuş toponimlərin tərkibində mühafizə edilmiş şivə elementlərinin tarixi qədər qədimdir və onlar ulu Azərbaycan xalqının antik dövrlərdən bu yerlərdə məskən salmış əcdadlarımızın mənəvi yadigarları və qan yaddasının silinməz varisləridir.

Ədəbiyyat

1. Seyidəliyev N. Asud Qurbanov. Bakı, “Elm və təhsil”, 2018, 405 s.
2. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası, Bakı, “Maarif”, 1988, 596s.
3. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı; Bakı Universiteti Nəşriyyatı, 1991, 312s.
4. Aydın P. Azərbaycan antroponimiyasının leksik problemləri. Bakı, “Maarif”, 1992, 252 s.
5. Mirzəyev H. Azərbaycan toponimləri və şivə sözləri. Bakı, “Elm; 2006,536s
6. Hüseynova M. Həsən Mirzəəyevin yaradıcılığında filologiya məsələləri. Bakı, ADPU-nun nəşri, 2016, 231 s.
7. Axundov A. Ümumi dilçilik. Bakı, “Maarif”, 1929, 403 s.
8. Гаджиев Т.И. Некоторые вопросы создания историцеской диалектологии азербайджанского языка// Лингивистическая география и проблемы истории языка, ч. II, 1981, 296-300.
9. Ализаде С.К. Принуины построения азербайджанской историческое диалектологии\\ Конференчия по диалектологии тюрческой языков, 1982, стр. 153-154
10. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, “Elm və təhsil”, 2016, 348 s.
11. Budaqov B. “Redaktordan” N. Məmmədovun “Azərbaycanın yer adları (oronimliyi). Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1993,s. 3-5
12. Budaqov B. Türk uluslarının yer yaddaşı, Bakı, “Elm”, 1994, 272 s.
13. Məmmədov N. Azərbaycanın yer adları (oronimiya). Bakı, Azərnəşr, 1993, 272 s.
14. Bayramov İ. Qərbi Azərbaycanın toponimlər sistemi, Bakı, “Elm”, 2005 432 s.
15. Hüseynova M. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. Bakı, ADPU nəşriyyatı, 2023, 256 s.
16. Sadıqova S. Müasir Azərbaycan dilinin leksikologiyası: Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında (dərs vəsaiti), Bakı, ADPU, 2014, 194 s.

Мамедова Нигяр Орудж

Краткое изложение состояния исследования диалектных элементов в западноазербайджанских топонимах в нашей ономологии

Резюме

Исследование и выявление в нашем языкознании, а значит и в нашей ономологии, исторической эволюции диалектных элементов, сохранившихся в составе топонимов Западного Азербайджана (ныне Армении), путей его внутреннего развития, углубленный и обширный анализ его лингвистического Ресурсы являются одними из наиболее актуальных проблем, стоящих перед

филологической наукой. Необходимо признать, что анализ фонетических, лексических, морфологических и семантических аспектов языковых особенностей диалектных элементов, сохранившихся в топонимах тюрко-азербайджанского происхождения в современной Армении, не является систематическим и комплексным в нашем языкознании, иными словами, он не стал идеальным объектом исследования. Однако диалектные элементы также сыграли важную роль в составе топонимов Западного Азербайджана, т.е. в их создании и формировании. Диалект и диалектные элементы также способны отражать в составе топонимов фонетические, лексико-семантические и грамматические ресурсы нашего языка с древнейших времен до последних веков. Хотя в топонимах древнейших периодов, существовавших на территории Западного Азербайджана, довольно легко выявить сохранившиеся полидиалектные фонетические и лексические элементы, то есть лексические ресурсы, их довольно легко привлечь к аналитическому анализу, но Отразить лексико-семантические, морфологические диалектные элементы этих слов - то же самое, что сказать о географических названиях, - вызывает столько же затруднений. На этот вопрос мы пытаемся ответить в статье, каков статус изучения географических названий, сформированных на основе упомянутых языковых ресурсов, в азербайджанской ономатике?

Ключевые слова: фонетические, лексические, семантические, морфологические диалектные элементы и их отражение в топонимах, азербайджанская ономология, состояние исследования, взгляд на изучение диалектных элементов в топонимах.

Mammadova Nigar Oruj

Brief summary of the state of research of dialect elements in West Azerbaijani toponyms in our onomology

Resume

Research and identification in our linguistics, and therefore in our onomology, the historical evolution of dialect elements preserved in the toponyms of Western Azerbaijan (now Armenia), the ways of its internal development, an in-depth and extensive analysis of its linguistic resources are among the most pressing problems facing before philological science. It must be recognized that the analysis of phonetic, lexical, morphological and semantic aspects of the linguistic features of dialect elements preserved in toponyms of Turkic-Azerbaijani origin in modern Armenia is not systematic and comprehensive in our linguistics, in other words, it has not become an ideal object of study. However, dialect elements also played an important role in the composition of the toponyms of Western Azerbaijan, i.e. in their creation and formation. Dialect and dialect elements are also capable of reflecting in the composition of toponyms the phonetic, lexical-semantic and grammatical resources of our language from ancient times to recent centuries.

Although in the toponyms of the most ancient periods that existed on the territory of Western Azerbaijan, it is quite easy to identify preserved polydialectal phonetic and lexical elements, that is, lexical resources, they are quite easy to attract to analytical analysis, but reflecting the lexical-semantic, morphological dialect elements of these words is the same What to say about geographical names causes just as many difficulties. We are trying to answer this question in the article, what is the status of the study of geographical names formed on the basis of the mentioned linguistic resources in Azerbaijani onomatics?

Key words: phonetic, lexical, semantic, morphological dialect elements and their reflection in toponyms, Azerbaijani onomology, state of research, view on the study of dialect elements in toponyms.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: f.ü.f.d.,dos.Könül Səmədova
tərəfindən çapa tövsiyə olunmuşdur

NİLUFƏR MƏMMƏDZADƏ
nilufar.mammadzada@gmail.com
Odlar Yurdu Universiteti, II kurs,magistr
2 Koroğlu Rəhimov küçəsi, Bakı

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ZAMAN FORMALARININ TƏDQİQİ TARİXİ

Zamanlar sistemi qarşılaşdırılan ingilis və müasir Azərbaycan dilini öz qrammatik-morfoloji tiplərinə görə bir-birindən geniş şəkildə fərqləndirir.İngilis dili öz qrammatik quruluşuna görə flektiv-analitik dillər qrupuna daxildir. Bu dil German qrupunun Qərbi German yarım qrupuna aiddir.Müasir ingilis dilində qrammatik quruluşunda köməkçi sözlər mühüm rol oynayır. Belə ki, müasir ingilis dilində feilə məxsus olan zaman formalarının əksəriyyəti köməkçi feillərlə əmələ gəlir.

Analitik sözdəyişkənliyi ingilis dilinin feillərində müstəsna dərəcədə məhsuldardır. Analitik sözdəyişmənin tipik nümunəsi onların anlitik növ zaman formalarının (perfect, continuous və passiv formalar) əmələ gəlməsinə kömək edir.L,S,Barxudarov Future İndefinite analitik formasını istisna edərək yazır ki, “shall/ will +infinitive” konstruksiyası (söz forması deyil) söz birləşməsidir ki, bunun da birinci komponenti modal feildir. Lakin belə bir şərh əsla inandırıcı deyil, çünki burada semantik cəhət nəzərə alınmır. Çoxsaylı dil faktları göstərir ki, shall və will məsdərlə birləşdikdə çox vaxt modallıq kateqoriyasının mənasını itirərək sırf köməkçi ünsür kimi, yəni gələcək zamanın qrammatik mənasının göstəricisi və ya morfemi kimi işlədilir (7, s.22)

Azərbaycan dilində mühüm qrammatik kateqoriyalardan olan feili zaman bu dildə sintetik yolla əmələ gəlir.

Ingilis və Azərbaycan dilləri həm geneloji, həm də tipoloji quruluş cəhətdən müxtəlif sistemli dillər qrupuna daxildir. İngilis dili Hind –Avropa dillərinin german, Azərbaycan dili isə türk dillərinin oğuz qrupuna daxildir.

İngilis dilində “tenses” sistemi 16 formada xəbər şəklində və şəxslərdə əhatə olunur. Bunlar aşağıdakılardır:

Speak/speaks	am(is) speaking
Spoke	was/were speaking
Shall/will speak	shall/will be speaking
Should/would speak	should/would be speaking
Have/has spoken	have/has been speaking
Had spoken	had been speaking
Shall/will have spoken	shall/will have been speaking
Should/would have spoken	should/would have been speaking (6, s.101)

Zaman kateqoriyası ingilis dilində hamının qəbul etdiyi kateqoriyadır.

Adətən,zaman kateqoriyası zaman münasibətlərini qrammatik cəhətdən ifadə edir. Üç zaman dövrü – indiki,keçmiş və gələcək ingilis dilində üç mütləq zaman formaları ilə İndefinite qrupunda (Present indefinite, Past indefinite, Future indefinite) təqdim olunur.

Bundan əlavə, həmin dildə nisbi zaman formaları Perfect qrupunda (Present Perfect, Past Perfect, Future Perfect) verilir.

"Perfekt zaman formaları sadəcə olaraq təkcə hərəkətin zaman dövrlərindən birinə aid olmasını göstərmir, onlar eyni zamanda göstərir ki, Hərəkət hər hansı bir hərkətlə və ya indiki, keçmiş, yaxud gələcək zamanda müəyyən bir anla əlaqədardır. Bu formalar bir hərəkətin başqa bir hərəkətdən əvvəl və ya müəyyən bir ana qədər baş verdiyini göstərir" (6,s.102).

Müxtəlif sistemli dillərdə qrammatik zaman formalaşma üsullarına görə 2 qrupa ayırmaq olar:

1.Şəkilçilərlə düzələn qrammatik zaman formaları.

2. Köməkçi feillərlə əmələ gələn qrammatik zaman formaları.

Şəkilçilərlə düzələn qrammatik zaman formaları çox sadə üsullardan hesab olunur. Azərbaycan dili quruluşca iltisaqi-aqqlütinativ olduğu üçün qrammatik zamanın bu dildə formalaşmasının üsulları da sadədir. Bu morfolojiləşmə üsuludur.

B.M.Çarlston qrammatik zaman formalarına aid yazdığı araşdırmalarda belə qənaətə gəlir ki, ingilis dilində üç zaman sferasında ancaq üç feili zaman mövcud ola bilər (6, s.266).

O.Yespersen ingilis dilində feilin zamanlar sisteminin iki formasını-Continuous (sürəkli, uzun süeən zaman forması) və Prerfect Continuous (sürəkli-perfekt) fərqləndirir və belə hesab edir ki, indiki zaman nəzəri cəhətdən riyazi nöqtədən ibarətdir, an daimi hərəkət zaman axınındadır .

Qans Veber feili zamanla obyektiv zamanı fərqləndirərək belə hesab edir ki, feili (qrammatik) zaman, həqiqətən, hərəkətin obyektiv axını ilə bağlı deyil. Feili zaman hərəkətin perspektivlərinə, ona münasibətlə, uyğun nöqtəsilə əks olunur (8, s.25-26).

Bu fikir qrammatik (feili) zamanla obyektiv zamanın münasibətini , əlaqəsini inkar etdiyi üçün etiraz doğurur.

V.L.Filatov ingilis dilində Past Continuos qrammatik zaman formasının məna və işlənmə imkanlarını monoqrafik şəkildə öyrənmişdir.

Adətən zaman kateqoriyası zaman münasibətlərini qrammatik cəhətdən ifadə edir. Əksər tədqiqatlarda üç zaman dövrü –indiki,keçmiş və gələcək, ingilis dilində üç mütləq zaman formaları ilə İndefinite qrupunda (Present İndefinite, Past İndefinite, Future İndefinite) təqdim olunur (9, s.102).

İngilis dilində nisbi zaman formaları isə Perfect (Present Perfect, Past Perfect, Future Perfect) təqdim edilir.

"Bitmiş zaman formaları sadəcə olaraq yalnız hərəkətin müəyyən bir zaman müddətində icra edilmiş bitmiş və ya müəyyən bir andan başlanaraq hal-hazırda,

eləcə də keçmişdə və gələcəkdə davam edən hərəkətləri bildirmək üçün işlədilir" (9, s.102).

Müasir ingilis dilində bitmiş formaların əsas mənası keçmişdə, indi və gələcəkdə müəyyən məqama baş vermiş hərəkəti ifadə etməkdir. İndiki zamanın bitmiş forması nitq anına nəticəsi göz qabağında olan hərəkəti bildirir. Keçmiş zamanın bitmiş forması keçmişdə baş vermiş hərəkəti ifadə edir və özündə bitkinlik və əvvəl gəlmə semasını daşıyır. Gələcək zamanın bitmiş forması gələcəkdə müəyyən məqama bitəcək hərəkəti bildirmək kimi əsas mənası ilə yanaşı həm də ehtimal olunan keçmiş hərəkəti də ifadə edə bilir.

İngilis dilində feilin zaman formaları Azərbaycan tələbələri üçün yazılmış qrammatika kitablarında da geniş şərh edilmişdir. H.Rəhimov və T.Hidayətzadənin "İngilis dilinin praktik qrammatikası" adlı dərs vəsaitində feilin zaman formaları məlum növdə dörd qrupa ayrılaraq izah edilmişdir.

1.İndefinite "qeyri-müəyyən" zaman qrupu. Bu qrupa indiki İndefinite zaman forması (The Present İndefinite Tense Form), keçmiş İndefinite zaman forması (The Past İndefinite Tense Form), gələcək İndefinite zaman forması (The Future İndefinite Tense Form) daxil edilir.

2. Continuous "davamlı" zaman qrupu. Bu zaman qrupuna indiki Continuous zaman ,keçmiş, gələcək Continuous zaman formaları daxildir.

3. Perfect "bitmiş" zaman qrupunaindiki, keçmiş və gələcək Perfect zaman formaları daxil edilir.

4. Perfect continuous zaman qrupuna isə indiki, keçmiş və gələcək Perfect Continuous zaman formaları daxil edilir (5, s.93-94).

Zaman formaları ingilis və Azərbaycan dillərinin materialları əsasında bəzi məqalələrdə qarşılaşdırılmışdır.

Oruc Musayevin "İngilis dilinin qrammatikası" dərsliyində də zaman formaları 4 qrup daxilində məlum və məchul növlərin tərkibində izah edilmişdir. Dərslikdə qeyri-müəyyən, davamedici, bitmiş və davam edib bitmiş zaman formalarının ingilis dilində düzəldilməsi, işlədilməsi, Azərbaycan dilində qarşılığı məsələləri tədqiq olunmuşdur (4, s.96).

Azərbaycan dilçiliyində feilin zamanlar sistemi haqqında ilk məlumat 30-cu illərdə verilmişdir. Ə.Dəmirçizadə və D.Quliyev birgə yazdıqları tədqiqat əsərində feilin zamanları sadə və mürəkkəb olmaqla 2 yerə ayırmışlar. Sadə keçmiş zaman zamanın üç forması: 1)yaxın keçmiş (-dı), uzaq keçmiş (-mış), nisbi keçmiş (-ıb) olduğunu göstərmişlər (2,s.76).

İ. Əfəndiyev feil haqqında sonrakı araşdırmalarında yuxarıdakı 7 zaman formasını süni şəkildə şişirdərək 13-ə çatdırmışdır. Bu formalar aşağıdakılardır: şühudi keçmiş, nəqli keçmiş, uzaq keçmiş, bitməmiş keçmiş, müzareli keçmiş , gələcəkli keçmiş, nəqli rəvayət , bitməmiş rəvayət, müzareli rəvayət, gələcəkli rəvayət; indiki zaman üzrə: indiki zaman, gələcək zaman üzrə: müəyyən gələcək, müzare (3,s.82).

İ.Əfəndiyev –idi, -imiş hissəcikləri ilə formalaşan mürəkkəb xəbər formasını da feilin zamanlarına aid edərək formaların sayını artırmışdır.

A.Axundovun feilin zamanlarına həsr etdiyi monoqrafik işi sistemliyinə və samballığına görə bu sahədə yazılmış digər araşdırmalardan fərqlənir. Müəllif əsərdə feil zamanlarını müəyyənləşdirən meyarları göstərməklə yanaşı , feilin zaman kateqoriyasının ümumi səviyyəsi haqqında ümumi dilçilikdə və rus dilçiliyində olan ən mühüm mülahizələri nəzərdən keçirmiş, əsas türkoloji ədəbiyyatda bu məsələnin qoyuluşundan bəhs etmiş və feil zamanları haqqında Azərbaycan dilçiliyində olan fikirlərin xülasəsini vermişdir (1, s.80).

A.Axundovun fikrinə görə feilin zamanlarına tam obyektiv formalar kimi yanaşılmalıdır (1,s.11). O, Azərbaycan dilində feilin zamanlarının miqdarını çoxaldan tədqiqatçılarla düzgün olaraq razılaşmır, dilimizdə uzaq, bitməmiş, müzareli, gələcəkli və s. Keçmişin olmadığını və digər süniliklərlə barışmır.

Xüsusaən də A.Axundov qrammatika və obyektiv-fəlsəfi zamanlar arasındakı uyğunluqlara və fərqli cəhətlərə münasibəti təqdirəlayiqdir. Çünki bəzi tədqiqatlarda qrammatik zamanın obyektivliyi, onun obyektiv zamanı əks etdirməsi nəzərə alınmır, zamanın qrammatik ifadə formaları diqqətdən kənarda qalır. Beləliklə, A.Axundov Azərbaycan dilçiliyində ilk dəfə olaraq feil zamanlarının obyektiv zamanın bilavasitə inikası olması, obyektiv aləm hadisələri ilə dilin qrammatikası arasında müstəqim uyğunluğun olması məsələsinə toxunmuşdur(1, s.7-3).

A.Axundovun bu sistemi monoqrafiyasında hər üç zamanın (keçmiş, indiki və gələcək) tarixən inkişafı, qrammatik xüsusiyyətləri semantik cəhətləri ifadə etdiyi funksiyalar, təzahür formaları, üslubi xüsusiyyətləri və s. haqqında dərin məlumat verilir.

Ədəbiyyat:

1. Axundov A.A Feilin Zamanları , Bakı , 1961,139 s.
2. Dəmirçizadə Ə, Quliyev D. Qrammatika.Bakı,1938.
3. Əfəndiyev İ. Feil .Azərbaycan dilinin qrammatikası .I, Bakı, 1951,s 182-183.
4. Musayev O. İngilis dilinin qrammatikası, Bakı, Maarif,1979,360 s.
5. Rəhimov İ,Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası, Bakı,Maarif,1966,314 s.
6.Charleston B/M 1955/ A reconsideration of the problem of time ,tense and aspect in modern English//English Studies.1955.№36, p.263-278.
7.Duskova L. The perfect tenses in English as the perfective aspect in Czech//Philologica Pragensia, 1974, №17, p 67-91.
8.Weber T.Das Tempussustem des Deutchen and des Franzosischen, 1954
9.Барабаш Т.А Грамматика английского языка М: Высшая школа, 1983,240 с.

Nilufər Məmmədzadə

İngilis və Azərbaycan dillərində zaman formalarının tədqiqi tarixi

Xülasə

Bu məqalə ingilis və Azərbaycan dillərində olan zaman formalarının tədqiqat tarixindən bəhs edir. Zamanlar sistemi ingilis və müasir Azərbaycan dilini öz qrammatik-morfoloji tiplərinə görə bir-birindən geniş şəkildə fərqləndirir. Qeyd edək ki, müasir ingilis dilində feilə məxsus olan zaman formalarının əksəriyyəti köməkçi feillərlə əmələ gəlir. Bir çox alimlərin hər iki dilin zaman formalarının tarixi ilə bağlı araşdırmaları vardır. Ingilis və Azərbaycan dilləri həm geneloji, həm də tipoloji quruluş cəhətdən müxtəlif sistemli dillər qrupuna daxildir. İngilis dili Hind –Avropa dillərinin german, Azərbaycan dili isə türk dillərinin oğuz qrupuna daxildir. Qeyd edək ki ingilis dilində “tenses” sistemi 16 formada xəbər şəklində və şəxslərdə əhatə olunur. .

Üç zaman dövrü – indiki,keçmiş və gələcək ingilis dilində üç mütləq zaman formaları ilə İndefinite qrupunda (Present indefinite, Past indefinite, Future indefinite) təqdim olunur.Azərbaycan dilçiliyində feilin zamanlar sistemi haqqında ilk məlumat 30-cu illərdə verilmişdir. A.Axundov Azərbaycan dilçiliyində ilk dəfə olaraq feil zamanlarının obyektiv zamanın bilavasitə inikası olması məsələsinə toxunmuşdur.

Nilufar Mammadzade

History of the study of tense forms in English and Azerbaijani languages.

Summary

This article deals with the research history of English and Azerbaijani tenses.The system of tenses widely distinguishes the English and modern Azerbaijani languages from each other according to their grammatical and morphological types. Note that most of the verb tenses in modern English are formed with auxiliary verbs. Many scholars have researched the history of the tenses of both languages. English and Azerbaijani languages are included in the group of languages with different systems both geneologically and typologically.

The English language belongs to the Germanic group of Indo-European languages, and the Azerbaijani language belongs to the Oghuz group of Turkic languages. It should be noted that the "tenses" system in English is covered in 16 forms in the form of news and persons.

Three tenses - present, past and future are presented in English with three absolute tense forms in the Indefinite group (Present indefinite, Past indefinite, Future indefinite).The first information about the tense system of the verb in Azerbaijani linguistics was given in the 1930s. For the first time in Azerbaijani linguistics, A. Akhundov touched on the issue of verb tenses being the direct reflection of the objective tense.

Нилуфар Мамедзаде

История изучения временных форм в английском и азербайджанском языках.

Резюме

В данной статье рассматривается история исследования времен английского и азербайджанского языков. Система времен широко отличает английский и современный азербайджанский языки друг от друга по грамматическим и морфологическим типам. Обратите внимание, что большинство времен глаголов в современном английском языке образуются с помощью вспомогательных глаголов. Многие ученые исследовали историю времен обоих языков. Английский и азербайджанский языки входят в группу языков с разной системой как генологически, так и типологически. Английский язык относится к германской группе индоевропейских языков, а азербайджанский язык — к огузской группе тюркских языков.

Следует отметить, что система времен в английском языке представлена 16 формами в виде новостей и лиц.

Три времени - настоящее, прошедшее и будущее представлены в английском языке тремя формами абсолютного времени в группе Indefinite (Present indefinite, Past indefinite, Future indefinite).Первые сведения о временной системе глагола в азербайджанском языкознании были даны в 1930-е годы. Впервые в азербайджанском языкознании А. Ахундов затронул вопрос времен глаголов, являющихся прямым отражением предметного времени.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: dos.Nəsirova Ülviyyə
tərəfindən çapa tövsiyə olunmuşdur

ORCİD İD:0000-0002-5311-0065
MIRZOEVA ULKAR ADIL
Baku Slavic University,
Phd student of the Faculty of Philology

THE HISTORY OF NUMBER FORMATION AND ITS REFLECTION IN WORLD CULTURE

ABSTRACT

In the article, the object of research is numbers in multi-system languages. The relevance of the research lies in the consideration of the concept of number and its definition in world languages, which is represented as one of the facets of general culture, since it is with them that socio-cultural information comes into close connection. To achieve this goal, it is necessary to solve the following tasks: 1. characterize the numbers from the standpoint of structural analysis; 2. to identify the system of numerical concepts in multi-system languages; 3. define the concept of the lexical model "numbers". The special position occupied by the number 10, of course, is related to the number of human fingers, and this is still evident in modern use not only in the logical structure of the decimal number system, but also in English names of numbers. In order for zero to realize its potential in mathematics, it is necessary that each number up to the base digit have its own symbol. The problem of the place of the numeral among the Russian parts of speech, the problem of the criteria by which a word can be attributed to this part of speech, the problem of the digits of the numeral and how they should be distinguished, in the XIX century. they have not found their final solution. The first serious attempts to determine the numerals by grammatical features were made only in the XX century, but this approach in Russian linguistics has not fully prevailed today. The boundaries of the numeral are still controversial.

Key words: numeral, multi-system languages, lexical model, socio-cultural information

Numerical formulations are the way we organize numbers in a text. Designations are often closely related to the language used, because there is a connection between how words are formed in speech and how they are formed in writing. There may be many designations for the use of numerical nominations, depending on the context and application. Notation can also change greatly over time, even if the number system as a whole changes slightly.

Just as the first attempts at writing appeared long before the development of speech, so the first attempts at graphical representation of numbers appeared long before people learned to count. Probably the earliest way of keeping records was

some kind of counting system involving physical objects such as pebbles or sticks. Judging by today's habits of indigenous peoples, as well as by the oldest preserved traces of written or sculptural records, the earliest figures were simple notches on a stick, scratches on a stone, marks on a piece of pottery. Having no fixed units of measurement, coins, trade that goes beyond the roughest exchange, a system of taxation and other needs other than those necessary to maintain life, people did not feel the need for written numbers until the beginning of the so-called historical times. That's why civilizations like the Greek, Egyptian, and Hebrew added symbols to represent greater values. For example, in Ancient Egypt, a coil of rope meant “100”, while a lotus flower meant “1000”; then these symbols were repeated as many times as necessary (for example, three lotus flowers for "3000"). However, these systems still created problems when representing complex quantities (i.e., non-rounded numbers). Over time, civilizations such as the Babylonians, Ancient China, and the Aztecs developed calculus systems called “positional” systems. This meant that the symbol acquired a different meaning depending on the position it occupied in the “numerical” sequence. For example, the number “2” in “142” (units of measurement) acquires a value other than “2,477,145” (million). As a result, the calculus system used in most countries of the world meets this criterion.

One of the most important additions was 0. In positional number systems, zero was represented by leaving an empty space, which often caused confusion, since “62” could mean 62, 602 or 620. In the Babylonian and Mayan systems, the written number is still too cumbersome for efficient arithmetic calculation, and the zero symbol is only partially effective.

In order for zero to realize its potential in mathematics, it is necessary that each number up to the base digit have its own symbol. Apparently, this was first achieved in India. The figures that are now used internationally have been gradually appearing since about the 3rd century BC, when some of them appear in the Ashoka inscriptions.

The Indians use a dot or a small circle when the place in the number does not matter, and they give this point a Sanskrit name - sunya, which means "empty". The system had fully evolved by about 800 AD, when it was also adopted in Baghdad. The Arabs use the same "empty" dot or circle symbol, and it gives the equivalent Arabic name sifr.

In practical arithmetic, merchants were far ahead of scribes, since the idea of zero was used in the market long before its introduction into writing systems. This is the most important element of the simplest calculating machine of mankind - the abacus. It is believed that the Babylonians and Phoenicians used this method of calculation - originally simple furrows drawn on the ground in which you can put pebbles -, possibly as early as 1000 BC.

In a later and more convenient form, which can still be seen in many parts of the world, the abacus consists of a frame in which the pebbles are arranged in clear

rows strung on rods. Zero is represented by any row in which there is no pebble at the active end of the rod.

The special position occupied by the number 10, of course, is related to the number of human fingers, and this is still evident in modern use not only in the logical structure of the decimal number system, but also in English names of numbers. Thus, eleven comes from the Old English endleofan, literally meaning "[ten and] one remaining [over]", and twelve comes from twelf, which means "two remaining"; the endings -teen and -ty both refer to ten, and one hundred comes originally from the ancient Greek term meaning "ten times [ten]".

However, it should not be concluded that 10 is either the only possible basis or the only one actually used. The pair system, in which the score is "one, two, two and one, two twos, two and two and one" and so on, is found among the ethnologically oldest tribes of Australia, in many Papuan languages of the Torres Strait and the adjacent coast of New Guinea, among some African pygmies and in various South American tribes. The indigenous peoples of Tierra del Fuego and the South American continent use number systems with three and four bases. The quaternary scale, or the number system with a fivefold base, is very old, but in its pure form it seems to be currently used only by speakers of Saraweka, the South American Arawak language; in other places it is combined with the decimal or six-digit number system, where the base is 20. Similarly, the pure six-digit scale seems to occur only occasionally in northwest Africa and is otherwise combined with the duodecimal, or 12th, number system. In the course of history, the decimal system eventually eclipsed all others. Nevertheless, there are still many remnants of other systems, mainly in commercial and household units, where changes are always met with resistance from traditions. Thus, 12 occurs as the number of inches in a foot, months in a year, ounces in a pound (troy weight or apothecary weight) and twice 12 hours in a day, and both the dozen and the gross measure are divided into twelve. In English, base 20 is found mainly in the score ("Four points and seven years ago..."); in French, it is preserved in the word quatre-vingts ("four twenties"), denoting 80; other traces are found in Ancient Celtic, Gaelic, Danish and Welsh. Base 60 is still used when measuring time and angles. In our century, another international language has appeared, which is used by most of us, but which few people know about. It is a binary computer language. When interpreting encoded material with electricity, it is easy to achieve speed in solving a simple problem, and complexity only complicates it. Thus, the simplest possible counting system is the best, which means a system with the lowest possible base - 2, not 10. Instead of zero and 9 digits in the decimal system, the binary system contains only zero and 1. Thus, the binary equivalent is 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10 is 1, 10, 11, 100, 101, 110, 111, 1000, 1001 and 1010 and so on indefinitely. A radically new approach to numerals as one of the parts of the terminological system reflecting their genetic, historical and semantic capabilities, as well as the structure of individual numerals in the history of Russian culture, may to

some extent change the generally accepted idea of their semantic originality and approach the problems associated with their grammatical features in a different way. "The basis of the logical definition of the concept of number, as well as the basis of the formation of this concept in the genetic plan, is the account, one unambiguous correlation of the elements of two sets, one recalculated with the other, which is the standard of this account" [3]. The problem of the place of the numeral among the Russian parts of speech, the problem of the criteria by which a word can be attributed to this part of speech, the problem of the digits of the numeral and how they should be distinguished, in the XIX century. They have not found their final solution. The first serious attempts to determine the numerals by grammatical features were made only in the XX century, but this approach in Russian linguistics has not fully prevailed today. The boundaries of the numeral are still controversial. Numerals are very interesting in this regard; on the one hand, their appearance refers to the initial stage of the origin of formal logic: numbers are already elements of human thinking and consciousness connected with formal logic. Therefore, a formal logical apparatus can be applied to numerals, therefore there is something in common in the genesis of numbers and in the logical definition of a number. But, on the other hand, numbers and numerals appeared at the very dawn of formal logical thinking [3].

To some extent, numbers can be considered a "borrowed" element from everyday language, since in numbers one can observe the process of creolization of natural language with the symbolic system of science, characteristic of the modern era, when science and technology have rapidly penetrated into everyday life.

Each number has its own symbolism, which, as a rule, is not the same in different cultures. In addition to their abstract quantitative or ordinal meaning, numbers in the language of folk culture acquire some additional meanings, certain associations and become objects of evaluation and symbolism. In this sense, numbers are no different from other characteristics of the human environment. Just as folk traditions give meaning and evaluate the characteristics of color, space and time. Since numbers are the result of counting, numbering, measuring and weighing, we must start with how these actions are interpreted in folklore. Numbers are often interpreted as something dangerous, they have a magical meaning, and it is believed that with their help you can master the account and tilt it at your discretion.

"In modern scientific research, the point of view is increasingly recognized, according to which the term is considered as a unit of the national language, acting as a linguistic means of nominating special knowledge, i.e. a scientific concept in the system of concepts of science, technology and other spheres of professional activity. At the same time, the language of science and technology is understood as an autonomous functional subsystem of the national language. Isolating the language of science as a subsystem of the general literary language, researchers proceed from the polystructure of the latter and its functional variation" [4].

The modern concept of terminology has developed mainly from criticism of previous stages. The main difference seems to be related to the general trend of normativity in language, that is, the opposition of normative and descriptive trends.

THE LIST OF REFERANCE

1. Clapham C., Nicholson J. The Concise Oxford Dictionary of Mathematics. USA: Oxford University Press, Fourth edition, 2009, 876 p.
2. Haruna U. I., Abubakar A., Shitu L. W. & Jummai A. The Impact of Mathematical Terminologies on the Understanding of Mathematics in Senior Secondary Schools in Yobe State, nternational Journal of Research and Innovation in Applied Science (IJRIAS) | Volume V, Issue XI, November 2020, p.47-51
3. Suprun, A. E. Slavyanskie chislitelnyie. Stanovlenie chislitelnyih kak osoboy chasti rechi. Minsk: BGU, 2020 [Elektronnyiy resurs] https://www.elib.bsu.by/bitstream/123456789/250894/4/Suprun_1_is.pdf
4. *https://www.dissercat.com/content/diplomaticheskaya-terminologiya-russkogo-yazyka-i-ee-semantizatsiya-v-uchebnom-dvuyazychnom-*

У.А.Мирзоева

АННОТАЦИЯ

История образования числа и ее отражение в мировой культуре

В статье объектом исследования служат числа в разносистемных языках. Актуальность исследования заключается в рассмотрении понятия числа и его определения в мировых языках, репрезентирующейся как одна из граней общей культуры, поскольку именно с ними вступает в теснейшую связь социокультурная информация. Для достижения поставленной цели необходимо решение следующих задач: 1. охарактеризовать числа с позиций структурного анализа; 2. выявить систему числовых понятий в разносистемных языках; 3. определить понятие лексической модели «числа». Особое положение, занимаемое числом 10, конечно же, связано с количеством пальцев человека, и это проявляется и в современном употреблении не только в логической структуре десятичной системы счисления, но и в английских названиях чисел. Чтобы ноль реализовал свой потенциал в математике, необходимо, чтобы каждое число до базовой цифры имело свой символ. Проблема места числительного среди русских частей речи, проблема критериев, по которым слово может быть отнесено к этой части речи, проблема разрядов числительного и то, как следует их выделять, в XIX в. так и не нашли своего окончательного решения. Первые серьезные попытки определять числительное по грамматическим чертам были предприняты лишь в XX в., однако такой

подход в русской лингвистике и сегодня до конца не возобладал. Границы числительного до сих пор остаются спорными.

Ключевые слова: числительное, разносистемные языки, лексическая модель, социокультурная информация.

Ü.A.Mirzəyeva

Sayların yaranma tarixi və dünya mədəniyyətinə əks olunması

XÜLASƏ

Məqalədə tədqiqat obyekti müxtəlif sistem dillərindəki saylardı. Tədqiqatın aktuallığı ümumi mədəniyyətin cəhətlərindən biri kimi təmsil olunan say anlayışının və dünya dillərində tərifinin nəzərdən keçirilməsindədir, çünki onlarla sosial-mədəni məlumatlar ən yaxın əlaqəyə girir. Mövzuya aid olan aşağıdakı problemləri həll etmək lazımdır: 1. rəqəmləri struktur təhlili baxımından xarakterizə etmək; 2. müxtəlif sistemli dillərdə ədədi anlayışlar sistemini müəyyənləşdirmək; 3. "Say" leksik modeli anlayışını müəyyənləşdirmək. 10 rəqəminin tutduğu xüsusi mövqe, təbii ki, insan barmaqlarının sayı ilə bağlıdır və bu, müasir istifadədə təkcə onluq say sisteminin məntiqi strukturunda deyil, həm də ingiliscə ədəd adlarında özünü göstərir. Sıfırın riyaziyyatda öz potensialını həyata keçirməsi üçün əsas rəqəmdən əvvəl hər bir ədədin öz simvolu olmalıdır. Sayın nitq hissələri arasında yeri problemi, sözün bu nitq hissəsi kimi təsnif oluna biləcəyi meyarlar problemi, say kateqoriyaları problemi və onları necə ayırmaq lazımdır, 19-cu əsrdən heç vaxt öz son həllini tapmadı. Sayın qrammatik əlamətlərlə müəyyən etmək üçün ilk ciddi cəhdlər yalnız 20-ci əsrdə edilmiş, lakin bu yanaşma dilçilikdə hələ tam üstünlük təşkil etməmişdir. Sayın sərhədləri hələ də mübahisəlidir.

Açar sözlər: rəqəm, çoxsistemli dillər, leksik model, sosial-mədəni məlumat

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: prof. S.A.Məhərrəmova
tərəfindən çapa tövsiyə olunmuşdur

SƏFƏRLİ GÜNAL ƏLYAR QIZI
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADİU(UNEC), "Azərbaycan dili" kafedrası
banus78@mail.ru

ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİN FRAZEOLOGİYANIN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU

Xülasə

Müəyyən qaydalar əsasında qurulan, qanunauyğunluğa cavab verən nitq dəqiq və ifadəliliyi ilə seçilir. İfadəli nitqə sabit birləşmələri də daxildir. Dildəki sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin məcmusu frazeologizm adlanır. Frazeologizmlər frazeologiya sahəsində öyrənilir. Frazeologiya iki müstəvidə araşdırılır: diaxronik və sinxronik. Buna baxmayaraq, hələ ki müstəqil sahə kimi fəaliyyət göstərə bilmir.

Frazeologizmlərin araşdırılması həm dilçilik, həm də bədii dil baxımından əhəmiyyətlidir. Frazeoloji sabit ifadələr və ibarələr obrazlı şəkildə işlənən frazeologizmlərdir. Frazeoloji sabit ifadə və ibarələri bir sıra əlamətlərinə görə fərqlənir.

Məqalədə atalar sözləri və məsəllər frazeoloji sabit ifadələr kimi tədqiq edilir. Atalar sözü və məsəllərin frazeoloji vahid kimi götürülməsi mübahisəli məsələlərdəndir. Bu səbəbdən də zərb məsəllər, atalar sözləri, rəvayətli ifadələr, qarğışlar, alqışlar, aforizmlər və bu kimi ifadələrin yeri müəyyənləşməmiş, dilçilikdə mübahisələrə də səbəb olmuş, bu səbəbədən də mövzunu aktuallaşdırmışdır.

Açar sözlər: frazeologiya, sabit ifadə, dilçilik, atalar sözü, məsəl, frazeoloji ifadə

Atalar sözü və məsəllər xalqın tarixən sınaqdan çıxardığı həyat müşahidələrinin bədii ifadəsidir. Formaca kiçik, lakin zəngin məzmun çalarına malik olan bu nümunələrin özünəməxsus tələbləri vardır. Atalar sözündə hökm qəti şəkildə təsdiqlənir [10, 279].

Atalar sözləri əcdadlarımızın uzun əsrlik müşahidələrinin, təcrübələrinin ümumiləşdirilməsindən yaranmışdır. Bu müdrik kəlamlar bir hökm şəklində formalaşaraq frazeoloji sabit ifadələri yaratmış, gələcək nəsillərə ötürmüşdür.

Frazeoloji vahidlər mənşəcə sözlər, söz birləşmələri və cümlələrlə bağlıdır. Bu vahidlər öz inkişafının təşəkkül dövründə sözlərin, söz birləşmələrinin və cümlələrin məcazlaşma prosesinə məruz qalmış, semantik bütövlük, işlənmə sabitliyi, struktur qapalılıq və yeniləşmə qazanmaqla frazeologizmləşməsi nəticəsində yaranmış, uzun bir dövr sürmüşdür. Bu proses təşəkkül dövrü, keçid dövrü və sabitlik dövrünü özündə cəmləşdirən mərhələlərdən keçir.

Frazeoloji sabit ifadələr "sözlərin həqiqi mənası üzərində yaranıb, öz lüğəvi tərkibinə və qrammatik qovuşmasına görə möhkəm, həm də aydın və obrazlı olan vahidlərə **frazeoloji ifadə** deyilir"[9, 367].

Atalar sözü və məsəllərin frazeoloji vahid kimi götürülməsi mübahisəli məsələlərdəndir. Bu səbəbdən də zərb məsəllər, atalar sözləri və bu kimi ifadələrin yeri dilçilikdə mübahisələrə də səbəb olmuş, mövzunu aktuallaşdırmışdır. Bu sahədə professorlardan Səlim Cəfərov, Afat Qurbanov, Ziynət Əlizadə, Samət Əlizadə və başqaları janrın yaranması, mənşə xüsusiyyətləri ilə yanaşı, leksik-semantik və frazeoloji əsasları barədə dəyərli tədqiqatlar aparmışlar.

Atalar sözü və məsəlləri frazeologiya ilə bağlılığı məsələ barəsində fikirlər söyləyənlər isə çox zaman iki cəbhədə dayanırlar:

1. Atalar sözü və məsəlləri frazeologiya bölməsinə aid edənlər (A.Qurbanov, S.Cəfərov);

2. Atalar sözü və məsəlləri frazeologiya bölməsinə aid etməyənlər (H.Bayramov).

Atalar sözləri və məsəllər, adətən, dəyişmir, dildə hazır şəkildə işlənir, cümlə quruluşlu frazeologizmlə bağlıdır. Lakin bəzi hallarda dəyişkənlik də özünü göstərir. Məsələn: El bir olsa, dağ oynadar yerindən // El bir olsa, zərbi-kərən sındırar.// El bir olsa, dağ oynadan yerindən, güc ("söz" variantına da rast gəlinir) bir olsa, zərbi-kərən sındırar. Gec olsun, güc olsun // Gec olsun, güc olmasın.

Atalar sözlərinin frazeologiyanın zənginləşməsindəki rolunu danmamalıyıq. Bu da bir neçə vasitə ilə baş verir:

a) Atalar sözlərinin bir hissəsinin ixtisarı ilə: "Üz verdikcə astar istər" atalar sözündən "üz vermək" frazeoloji vahid, "Sözü ağzında bişir, sonra çıxart" atalar sözündən "sözü ağızda bişirmək" formalaşmışdır.

b) Nəsihət xarakterli atalar sözlərinin, məsəlin bir hissəsinin dəyişməsi ilə: "Əsnəmək əsnəmək gətirər, vay samanlıqdakının halına" məsəlində birinci hissəsinin tez-tez işlədilməsinin şahidi oluruq. "Oxunu atıb yayını gizlətmə" atalar sözündən "Ox atıb yay gizlətmək" frazeoloji vahidi yaranıb.

Şifahi xalq ədəbiyyatının qədim abidələrindən olan "Kitabi-Dədə Qorqud"da çoxlu atalar sözü vardır ki, bu nümunələrdəki ifadələr dilimizdə daşlamışdır: "Kül təpəcik olmaz", "Qarı düşmən dost olmaz", "At işlər, ər öyünər", "Çıxan can geri dönməz", "Əski pambıq bez olmaz", "Qonağı gəlməyən qara evlər yıxılsa yey", "Oğul dəxi neyləsin, baba ölüb, mal qalmasa?", "Baba malından nə fayda, başda dövlət olmasa" və s.

Folklorda frazeoloji sabit ifadələrin bir çoxu qadınlar haqqındadır:

“Qız qızıldır, qədrini bilsin gərək!
Qız evlərdə tanınar, ipək – dəzgahda!
Qız anadan qorxmasa öyüd almaz!“ [14, 75]

Qadına verilən yüksək qiymətin göstəricisi olan bu frazeoloji sabit ifadələr xalqın dünyagörüşü, qadına verdiyi dəyərin göstəricisidir. Türk etnik-mədəni sisteminin, adət və ənənəsinin ədəbi – tarixi salnaməsi sayılan “Dədə Qorqud” dastanında qadına hörmətlə yanaşılır. Oğuznamələrdə yer alan “Ana haqqı – tanrı haqqı” sabit ifadəsi [14, 195] dilimizdə daşlaşmışdır. “Kitabi-Dədə Qorqud”

dastanında qadınlarla bağlı olan sabit ifadələrdə qadına, anaya olan hörmət və sevgi, onun sədaqəti, hər şeydən üstün tutulması əks olunmuşdur. Dastanda qadınlar xarakterizə olunur:

Qadınlar dörd türlüdür,
Birisi solduran soydur,
Birisi dolduran toydur.
Birisi evin dayağıdır.
Birisi necə söylərsə, bayağıdır [*14, 17*].

Hələ dastanın müqəddiməsində Oğuz elinin ehtiramla yanaşdığı Qorqud Atanın kəlamlarında ata və oğul münasibətləri ilə bağlı dəyərli fikirlər yer alır. Bilici ozan xalqımızın təfəkküründə formalaşan bu hikmətamiz mənaları dastanın üslubuna uyğun tərzdə belə ifadə edir:

Oğul atanın yetiridir, iki gözünün biridir,
Dövlətlü oğul qopsa, ocağının közidir.
Oğul dəxı neyləsün baba ölüb mal qalmasa,
Baba malından nə faidə, başda dövlət olmasa... [*14, 20*].

Frazeoloji sabit ifadələr – zərb-məsəl, atalar sözü və məsəllər kimi ifadələrin yaranmasında somatik vahidlərin rolu böyükdür. Somatik ifadələr bədən üzvləri ilə bağlı olan sözlərdir. Sabit leksik birləşmələrdə çoxsaylı bədən üzvlərinin adlarına rast gəlirik:

Ağızdan çıxanı qaytarmaq olmaz.
Ağızdan çıxan başa dəyər.
Baş sağ olsun, papaq tapılar.
Başa gələn dildən gələr.
Başı baş edən - ayaq, ayağı ayaq edən - dayaq.

"Başım hara, ayağım ora", "Mənim başımın bildiyini, onun ayağı bilmir" kimi ideyimlərdə məcazilik gizli şəkildədir.

Somatik sözlərlə əmələ gələn sabit birləşmələr və ibarələr dilin leksik-semnatik quruluşunu zənginləşdirir, dilə ifadəlilik, obrazlılıq gətirir.

Frazeoloji sabit ifadələr xalqın dünyagörüşü ilə bağlı olduğu üçün kultla bağlılıq da özünü göstərir. Məsələn, "ağac" sözünü atalar sözü və məsəllərdə rast gəlirik. Bu söz fərqli semantik kontekstlərdə yeni mənalar qazanır.

"Ağac" sözü ilə bağlı bir çox atalar sözləri vardır:

1) Ağac öz dibinə kölgə salar// Ağac dibindən su içər. - Bu nümunədə insanın cəmiyyətdəki davranışdan söz açılır. Yəni insan öz əməllərinin nəticəsini görər.

2) Ağac olan yerdə budaq sınar - Yəni iş olan yerdə səhv də olar.

3) Anası gəzən ağacı, qızı budaq - budaq gəzər - Burada genetik faktorun önəmli rol oynadığı göstərilir.

4) Ağacı qurd içindən yeyər. - Bu nümunədə paxıllıq kimi pis xüsusiyyətlər tənqid olunur və paxıllığın insana verdiyi zərərlərdən söz açılır.

5) Ağac bar verəndə başını aşağı əyər. - Bu nümunədə təvazökarlıqdan söhbət gedir, yəni insan ucaldıqca öz sadəliyini itirməz.

6) Ağacı baltalayanda "sapı məndəndir" demiş. Bu məsələ uyğun "sapı özündən olan baltalar" ifadəsi yaranmışdır. Bu nümunədə ən ağır zərbələrin insanın etibar etdiyi yaxınlarından gəldiyinə işarə edilir.

7) Ağaclı kəndi sel aparmaz// Ağac sınanada budaq nəyə gərəkdir? - "Ağac" sözü arxa-dayaq mənasını verir.

8) "Ağac sınanda baltalı da gələr, baltasız da..." və ya "Yıxılana balta vuran çox olar" atalar sözlərində isə vəzifədən gedən, əvvəlki mövqeyini və statusunu itirən, böhtana düşən insanların təklənməsinə işarə edilir.

Göründüyü kimi, frazeoloji sabit ifadələrin mənası onların əsas mənasından irəli gəlmir. Bu sözlərdəki bədii stereotiplik söz birləşməsinə daxil olan söz komponentlərinin uyğunluğu da vacib amillərdəndir, hətta bu komponentlərdən biri dəyişsə, məna da dəyişə bilər. Eləcə də atalar sözü və məsəllərdə işlənən ifadələrin əksəriyyəti məcazlıq daşıdığı üçün frazeoloji birləşmələrin yaranmasında da böyük rol oynamışdır.

ƏDƏBİYYAT:

Elmi ədəbiyyat

Azərbaycan dilində:

1. Adilov M.İ. Qanadlı sözlər. Bakı: Yazıçı, 1988, 438 səh.
2. Adilov M., Yusifov G. Sabit söz birləşmələri. Bakı: Maarif, 1991, 152 səh.
3. Babayev A. Dilçiliyə giriş. Dərslik. Bakı: Maarif, 2004, 504 səh.
4. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif, 1978, 175 səh.
5. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə. Bakı: Şərq-Qərb, 2007, 192 səh.
6. Hüseynov M. Poetik frazeologiya (1960-1980-ci illər Azərbaycan poeziyasınən materialları əsasında). Bakı:Elm və təhsil, 2013, 166 səh.
7. Hüseynzadə M. Müasir Azərbaycan dili (Morfologiya). Bakı:2007, 280 səh.
8. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 səh.
9. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. İki cilddə. I cild. Bakı: Elm və təhsil, 2010, 452 səh.
10. Nəbiyev A. M. Azərbaycan xalq ədəbiyyatı. 2cilddə, 1-ci c., Bakı: Çıraq, 2009, 640 səh.
11. Nəbiyev N. Frazeologizmlərin tədqiqi metodları haqqında // Dilçilik məsələləri. 2005, №1(2), səh.96-103.
12. Orucov Ə. Azərbaycan dili frazeoloji izahlı lüğətinin nəzəri əsasları. Bakı: SSRİ nəşriyyatı, 1965, 123 səh.

Bədii ədəbiyyat:

13. Atalar sözü. Bakı: Öndər nəşriyyat, 2004, 264 səh.
14. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. B., Öndər nəşriyyat, 2004, 376 səh.

Гюнал Сафарли

Роль пословицы и поговорки в обогащении фразеологии

Резюме

Построенная на основе определенных правил и отвечающая определенным закономерностям речь отличается точностью и выразительностью. Выразительная речь включает и устойчивые выражения. Совокупность устойчивых сочетаний слов, речевых оборотов и выражений называется фразеологизмом. Фразеологизмы изучаются в области фразеологии. Фразеология исследуется в двух аспектах: диахрония и синхрония. Несмотря на это, она пока не может функционировать в качестве самостоятельной области.

Исследование фразеологизмов важно как с лингвистической точки зрения, так и с точки зрения художественного языка. Фразеологические устойчивые выражения и речевые обороты являются образно используемыми фразеологизмами. Фразеологические устойчивые выражения и фразы отличаются по ряду признаков. Об этих признаках широко рассказывается в статье.

Начиная с фольклорных образцов, от азербайджанских поэтов древних и среднихвеков до писателей современного периода,все пользовались фразеологическими единицами. Больше всего они используются в драматических произведениях. Использование народных высказываний всегда имело место и в стихах.

В статье пословицы и поговорки исследуются как фразеологические устойчивые выражения. Следует также отметить, что причисление пословиц и поговорок к фразеологическим единицам является спорным вопросом. По этой причине не определено место поговорок, пословиц, проклятий, благословений, афоризмов и подобных выражений, что стало причиной дискуссий в лингвистике и актуализировало тему.

Ключевые слова: фразеология, устойчивое выражение, лингвистика, пословица, поговорка, фразеологическое выражение

Gunal Safarli

The role of proverbs and sayings in the enrichment of phraseology

Summary

A speech that is based on certain rules and meets the regulations is distinguished by its precision and expressiveness. Expressive speech also includes the fixed units. The totality of fixed word combinations, indivisible phrases and and expressions in the language is called phraseology. Phraseologisms are studied in the field of phraseology. Phraseology is studied in two ways: diachronic and synchronistic. However, it still does not function as an independent field.

The study of phraseology is important both in terms of linguistics and literary language. Phraseological fixed expressions and phrases are figurative phraseologisms. Phraseological fixed expressions and phrases are differ by a number of features. These features are widely discussed in the article.

From folklore examples, poems of ancient and medival Azerbaijani literature to the writers of the modern era, each one has benefited from phraseological fixed expressions. Phraseological phrases mainly are used in dramatic works. The use of folk phrases has always been existed in the poems too.

In the article,proverbs and parables are explored as phraseological fixed expressions. It should be noted that the using of proverbs and parables as a phraseological units is a controversial issue. For this reason, parables, proverbs, legendary phrases, curses, applauses, aphorisms and such expressions were not identified and caused controversy in linguistics, and therefore actualized the topic.

Keywords: phraseology, fixed expressions, linguistics, proverbs, parables, phraseological expressions

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: dosent Aybəniz Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA AYBƏNİZ MƏHƏRRƏM QIZI
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADİU(UNEC), "Azərbaycan dili" kafedrası, Bakı
AZ 1001, Bakı, İstiqlaliyyət küç.6
ayten.meherremqizi@gmail.com
Orcid: 0000-0003-1605-5869

SABİT SÖZ BİRLƏŞMƏLƏRİNDƏ İNANCLARIN TƏZAHÜRÜ

XÜLASƏ

Sabit söz birləşmələri dilimizin lüğət tərkibində önəmli yer tutur. Məcazlaşma nəticəsində dildə təşəkkül tapmış sabit ifadələr frazeologizm adlanır. Frazeologizmlər dilimizdə söz birləşməsi və cümlə şəklində mövcuddur. Azərbaycan dilinin bir çox frazeologizmlərində xalq inancları ehtiva olunur. Azərbaycan xalqı suyu, ağacı, odu, Günəşi, Ayı, göyü, dağı və bir çox varlıqları müqəddəs hesab etmiş, onlarla bağlı bir çox inanclar ortaya çıxmışdır. Bu inanclar qədim şifahi xalq ədəbiyyat nümunələrində də, qəlibləşən söz birləşmələrində də öz əksini tapmışdır. Türk xalqlarının kultları sırasında su, ağac, dağ və s. var. Bu sözlərlə bağlı dilimizdə xeyli frazeoloji birləşmələrə rast gəlirik. Bu frazeoloji birləşmələrin mahiyyətinə nəzərə salsaq, xalq inancları ilə bağlılığını görə bilərik. Tədqiqatda frazeologizmlərin alt qatları araşdırılır, inanclarla bağlılığı ortaya çıxarılır. Araşdırma zamanı həm türk xalqlarının, həm də digər xalqların inanclarına da nəzər salınır, frazeologizmlər ümumi müstəvidə təhlil edirilir. Məqalədə frazeologizmlərin bağlı olduğu inanclar təhlil edilir. Frazeologizmlərdə üzdə olmayan, alt qatında gizlənən, mahiyyətində kök salmış inanclar da ortaya çıxarılır.

Açar sözlər: frazeologizm, inanc, kult, ağac, dağ, su

Giriş

Dilin lüğət tərkibində olan sözlərin hər birinin müəyyən leksik mənası mövcuddur. Sözlər çoxcəhətli və çoxaspektli olub, dildə işləndikcə xalqın təfəkkür tərzi, dünyagörüşü, adət-ənənələri, məişət və təsərrüfat həyatı ilə bağlı məna çalarları yaradır.

Etnoqrafik leksikanın öyrənilməsi xalqın mədəniyyətinin, onun adət və ənənələrinin, müəyyən mərasimlərinin izahına xidmət edir. "Etnoqrafiya tarix elminin xalqları / etnosları/, onların məişəti, adət və ənənələrini, etnik birliklərin yaranması və inkişafı prosesini, xalqın etnogenezini və etnik tarixini, ən qədim ictimai və mədəniyyət formalarını, mədəni sərvətlər və xalq yaradıcılığıcı sahəsindəki mütərəqqi ənənələri öyrənən bölməsidir" (10,10).

Azərbaycan dilinin etnoqrafik leksika mövzusuna məişət leksikası, maddi və mənəvi mədəniyyətə aid, adət-ənənə ilə, folklorla bağlı sözlər, frazeologizmlər və terminləri aid edir.

Dilimizdə frazeologizmlər cümlə və söz birləşməsi şəklində mövcuddur. Frazeologizmlər elə bir müstəvidə yaranır, elə bir dil qatını təşkil edir ki, o sözlərdə mütləq xalq inancı özünü göstərir. Azərbaycan xalqının tapındığı varlıqların, müqəddəsləşdirdiyi kultların əks olunduğu frazeologizmlər üstünlük təşkil edir.

1.Kultlarla bağlı frazeologizmlər

Dilimizdə "su" sözünün işləndiyi xeyli frazeoloji sözlər vardır. Qədim Misir, Hind və Çin əfsanələrində suyun yaradılışın təməl qaynağı olduğu göstərilir. Eləcə də İncil və Quranda da su kainatın cövhəri hesab edilir. Su mifoloji, fəlsəfi düşüncədə varlığın əsasını təşkil edən dörd ünsürdən (su, od, torpaq, hava) biri hesab olunur. İstər Azərbaycan fəlsəfi düşüncəsində, istərsə də folklorunda su çox geniş yayılmışdır. Ona görə də su ilə bağlı inanclar sabit söz birləşmələrində də özünü göstərə bilir: "Gözüm səndən su içmir", "Ağzına su alıb oturmaq", "Susuz aparıb-gətirmək", "Suyu üfürə-üfürə içmək", "suyu süzülə-süzülə", "suyu şirin gəlmək", "sudan quru çıxmaq" və s.

"Gözüm səndən su içmir" ifadəsini tədqiqatçı Ramazan Qafarlı Su anası ilə bağlı olan inancla əlaqələndirir: " Azərbaycan türklərinin qədim inancına görə, Su anası – su ruhu dumanlı havada qəflətən göldən çıxır və əlindəki qızıl qabdan rastlaşdığı adamlara doğru su çiləyir. Damcılar kimin üstünə düşsə, o adam həmin gün şərlə qarşılaşır. Doğrudan da, elə ki, dumanlı havada yağış damcılamağa başlayır, qəflətən adamın üzünə su düşəndə, səksənir, qorxu hissi keçirir. Bizcə, dilimizdə “gözüm səndən su içmir” deyimi də həmin inancla əlaqədar yaranmışdır" (13,7).

Türk xalqlarında ağacın müqəddəs hesab edildiyini bu sözlə bağlı frazeoloji birləşmələrdən və xalq ədəbiyyatdan da bilmək olar.

"Ayıq yatmaq" mənasını verən "ağac başında yatmaq", "dava etmək/savaşmaq" anlamında işlənən "ağac-ağaca qoymaq" kimi frazeoloji birləşmələr məhz xalq inancından qaynaqlanır.

Dilimizdə işlənən "Çörək ağacı", "Qədir ağacı" fadələri də məhz qədim inanclara söykənir." Tənbəl, əyilib yerdən nəyisə qaldırmayan insanlara "Nə olub, qarnında əncir ağacı var?!" sualı verilir.

"Ağac zoomorfik totemi türkdilli xalqlarda o qədər geniş yayılmışdır ki, bəzi qəbilələrə, soylara, boylara, adlı-sanlı sərkərdələrə, dövlət adamlarına ağacı /ağac adını- İ.M./ ad qoymuşlar. V.L.Seroşevski hələ 1890-cı ildə qeyd etmişdir ki, bir çox türkdilli xalqlarda ağac onqonu da olmuşdur" (10, 228). Ona görə də bir insan nüfuzdan düşəndə "ağacı əlindən düşdü" ifadəsini işlədirlər.

Ağaca parça bağlayıb arzu tutmaq, onu "dilək ağacı" adlandırmaq da etiqadla bağlıdır. Alma, nar, armud ağacı dilək ağacı hesab olunur. Novruz bayramında bar verməyən ağacı qorxutmaq inamı da mövcuddur. Novruz bayramında ağaclarla bağlı bir çox inanclar mövcuddur:

Əncir ağacın burmaq – Hər kəs bir niyyət edib əncir ağacının budağın burar. Biri niyyət edər ki, mən ziyarətə gedəcəm. Səhər tezdən gedib baxar, iri buruq

budağ düzəlsə, sevinər ki, niyyəti qəbul olub, gedər səfərə hazırlaşar, yoxsa budağın buruğu düzəlməyibsə, ondadır ki, niyyət qəbul olmayıb.

Söyüd ağacından istək– Söyüd ağacın qucaqlayıb Allahdan bir şey istərlər (12, 88).

"Bar verən ağacı kəsməzlər" ifadəsində həm qazancın gəldiyi yerin qarşısını kəsməmək məsləhət edilməklə yanaşı, həm də kökündə inanc dayanır. Dağdağan ağacını da kəsmək günahdır. İnanca görə, bar verən ağaca balta vurarkən ağac insanı qarğıyır. Ağacın, xüsusilə, dağdağan ağacının gözqaytarma xüsusiyyəti olduğu da məlumdur. İnanca görə, dağdağan ağacından kiçik bir parça götürüb gözmuncuğu ilə birgə uşağın yaxasına taxılsa, göz qaytarar.

Azərbaycanın qədim xalq nağıllarında ağac altı xaotik məkan kimi də verilmişdir. Qeyd edək ki, "Məlikməmməd" nağılında yeraltı dünyaya keçid məkan alma ağacının altından başlayır. Bir çox xalqların təsəvvüründə də ağac altı xaotik məkan kimi təsvir edilmişdir. "Kazan tatarları cırtdan qocanı *şekə, şökə (şökə pəri*) adlandırırlar. Təsəvvürə görə, *şekə* ağacın kökünün altında yaşayır" (5,39). "İncili Mərcanın nağılı" adlı Azərbaycan nağılında da ağac altı xaotik məkan kimi təsvir edilir. Ağac ilə bağlı ifadələrin bəzilərini məhz yeraltı dünya ilə bağlamaq olar.

Türk xalqlarının yeraltı dünya ilə bağlı inancları da frazeoloji birləşmələrdə öz əksini tapır. Əsasən, sehirli nağıllarla ötürülən yeraltı dünya ilə bağlı xalq dünyagörüşü alqış və qarğışlarda da öz əksini tapır:

Qara yerə girəsən - yeraltı, qaranlıq dünyaya inam.

Ağ günə çıxasan - İşıqlı dünyaya inam

Türk düşüncəsində kultlaşan sözlərdən də biri dağdır. Dağ kosmoloji sistemin bütün əsas parametr xüsusiyyətlərini özündə birləşdirir. Dünyanın mərkəzi hissəsində təsvir edilən bir sakral qüvvə mənbəyi, xaosun yaradıcı başlanğıcı, doğma el-obanın simvolu şəklində dərk edilən dağ frazeologizmlərdə də özünü göstərir. "Dağ başına qaldırmaq/çıxarmaq/qoymaq" frazeologizmi özünü dünyanın mərkəzi hesab edən, həddən artıq şişirdən, tərifləyən insanlara ünvanlanır.

İlkin əcdadların göy mənşəli ilə bağlanması, eyni zamanda da dağla əlaqələndirmə etnogenetik miflərin əsasında dayanır. Dağ mifoloji düşüncədə əski dünyagörüşə görə doğum yeri kimi “mağara - gor – beşik”lə birlikdə bir semantik düzüm formalaşdırırdı. "Dağına baxıb qar vermək" ifadəsi insanın əməlinə görə həyat yaşaması anlamındadır. Burada "dağ" sözü doğuluşdan məzara qədər olan semantik məna düzümünün bir parçasıdır.

Mənbələrdə dağın müqəddəsliyi ilə bağlı olduqca çoxlu məlumatlar mövcuddur. Məsələn, xakaslar arasında geniş şəkildə yayılmış olan bir mifopoetik düşüncə var idi ki, dağlar ildən-ilə böyüyürlər, yəni onlar bir canlı kimi təsəvvür edilirdi.Bundan başqa mənbələrdə şərqi türk xaqanlarının və eləcə də xalqın göyün ruhuna ulu dağlarda dua etmələri haqqında məlumatlara rast gəlinir. Müqəddəs hesab olunan dağ VI əsrə aid Çin qaynaqlarında "yer tanrısı" olaraq qeyd edilmişdir. Türklərin mifopoetik dünya modelinə uyğun olaraq göylə yerin bir-birinə qovuşduğu

sahədə ulu dəmir dağın olduğuna dair inamlar da mövcuddur.

Dağla bağlı olan frazeologizmlərin bəziləri qədim türk köçəri təfəkkürü ilə bağlıdır: "Dağı arana, aranı dağa dağa daşımaq", "Dağdan gəlib, bağdakını qovmaq" və s.

2. Adət-ənənələrlə bağlı inancların frazeologizmdə ehtivası

Xalq adət-ənənələrin, inancların qaynaqlandığı digər məsələ isə ana ilə bağlıdır. "Kitabi-Dədə Qorqud" dastanındakı "Ana haqqı-Tanrı haqqıdır" ifadəsində qadının Tanrı ilə bir tutulduğu məlum olur. Anaxaqanlığı dövründən qaynaqlanan bu düşüncə indiyə qədər ötürülmüşdür: "İgid oğul dayısına oxşayar" ifadəsində də ana xəttinin daha güclü olması ilə bağlıdır. "Ana dili", "Ana torpaq" ifadələri də buradan qaynaqlanır.

İsmayıl Məmmədov də öz monoqrafiyasında bu məsələyə toxunur: "...onu deyək ki, ana sözü ilə olan birləşmələrin sonsuz ehtiram və pərəstiş edilən ulu bir şəxsiyyət mərtəbəsini bildirməsini qeyd etməklə yanaşı, ana-ata, ana-bacı, ana- nənə və s.qəbildəki qoşa sözlərin dilin lap ilkin dövrlərinə aidliyi həqiqətini göstərə bilərik" (10,240).

Xalqın qədim mərasimlərində icra olunan bəzi rituallar da frazeologizmlərimizdə kök salmışdır. Məsələn, " başına kül olmaq" frazeoloji birləşmə qarğış məzmunundadır. İnanca görə, qədim türklərdə kiminsə ata-anası, yaxını ölərdisə, ölünün geyimləri, əşyaları yandırılar, külü həmin adamın başına ələnərdi. Bu mərasim bir çox xalqların adət-ənənələrində də mövcud olunmuşdur. "Şahnamə" əsərində İrəncin ölüm xəbərini eşidən qoşunun sərkərdələri, "İlliada" əsərində isə yaxın dostunun ölümünü eşidən Axilles də başlarına küllər tökür.

Maraqlı frazeologizmdən də biri "toy tutmaq" ifadəsidir. Bu ifadə omonim frazeologizmlərə aiddir. Səbəb isə birinci tərəfindəki "toy" sözünün məna fərqləri yaratmasındadır. Belə ki, buradakı "toy" sözü "tev" sözünün dissimilyasiyaya uğramış variantı olub "aldatmaq" kəlməsi ilə bağlıdır, "intiqam üçün bütün mövcud üsulları tətbiq etmək" anlamında işlədilir. Müğənnilərin toy tutması isə məhz toy mərasimi ilə bağlıdır. Toy ilə yasın (vay şəklində də işlədilir) eyni ifadələrdə işlədilməsi də dilin zənginliyindən xəbər verir.

"Toy da olsa toyuğun vayıdır, vay da olsa". (Cəmiyyətdə baş verən istənilən hadisənin müəyyən insanlara göstərdiyi mənfi təsiri), "Toyda oynamaz, vayda ağlamaz" (Heç bir işə yaramayan insanlar üçün işlədilən ifadə) cümlə şəkilli frazeologizmlərdə emosional ekspressivlik özünü göstərir.

Nəticə

Araşdırmamızdan belə nəticəyə gəldik ki, hər bir xalqın özünəməxsus frazeologizm qatı var və bir çox sabit söz birləşmələri xalqın inancından qaynaqlanır. Bu nümunələri istənilən sayda artırmaq olar. Mövzunun genişliyi onun aktuallığını saxlayır.

ƏDƏBİYYAT:

1. Adilov Musa (1998). Qanadlı sözlər. Bakı. Yazıçı. 440 s.
2. Azərbaycan dilinin izahlı lüğəti (2006). Bakı: Şərq-Qərb, 744 s.
3. Cəfərov Səlim (2007). Müasir Azarbaycan dili. II hissə. Leksika. Bakı: "Şərq-Qərb", 192 s.
4. Dəmirçizadə Əbdüləzəl (1979). Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: "Maarif", 268 s.
5. Əsgər Əfzəlləddin (2017). Azərbaycan sehrli nağıllarında qəhrəman. Bakı: Elm və təhsil, 116 s.
6. Hacıyev Tofiq (2012). Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: "Elm", 476 s.
7. Həsənov Həsrət (2005) Müasir Azərbaycan dilinin leksikası. Bakı, "Nurlan", 452 s.
8. Xəlilov Buludxan (2008). Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: "Nurlan", 442 s.
9. Xudiyev Nizami (1995). Azərbaycan ədəbi dili tarixi. Bakı: "Maarif", 496 s.
10. Məmmədov İsmayıl (2008). Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı: "Elm" nəşriyyatı, 292 s.
11. Məmmədov İsmayıl (2006) Azərbaycan dilinin semantikası. Bakı: "Xəzər" nəşriyyatı, 372 s.
12. Güney Azərbaycan folkloru (2015), IV kitab. Bakı, Elm və təhsil, 388 səh.
13. Qafarlı Ramazan (2009). İlaxır çərşənbələrin mifoloji qaynaqları. Xalq qəzeti. 17 mart.-S.7
14. İnternet resursu: https://nuhcixan.az/news/cemiyyet/4595-xalq-teqvimi-quyruq-dogdu-yoxsa-dondu
15. İnternet resursu: https://www.azleks.az/az/online-dictionary/toy+tutmaq

A.Huseinova

THE MANIFESTATION OF BELIEFS IN FIXED WORD COMBINATIONS

Summary

Fixed word combinations occupy an important place in the vocabulary of our language. Fixed expressions formed in the language as a result of metaphor are called phraseologisms. Phraseologisms exist in our language in the form of word combinations and sentences. Folk beliefs are included in many phraseology of the Azerbaijani language. The people of Azerbaijan considered water, wood, fire, sun, moon, sky, mountain and many beings as sacred, and many beliefs related to them appeared. These beliefs are reflected in the ancient oral folk literature samples and in the formed word combinations. Water, trees, mountains and etc. are among the cults of the Turkic people. We find a lot of phraseological combinations related to these

words in our language. If we consider the essence of these phraseological combinations, we can see their connection with folk beliefs. In the research, the sub-layers of phraseologisms are investigated, their connection with beliefs is revealed. During the research, the beliefs of both Turkish peoples and other peoples are looked at, and phraseologisms are analyzed on a general level. The article analyzes the beliefs associated with phraseologisms. In phraseologisms, beliefs that are not on the face, hidden in the substratum, rooted in their essence are also revealed.

Keywords: phraseology, faith, cult, tree, mountain, water

А.Гусейнова

ПРОЯВЛЕНИЕ УБЕЖДЕНИЙ В ФИКСИРОВАННЫХ СЛОВОСОЧЕТАНИЯХ

Резюме

Устойчивые словосочетания занимают важное место в словарном запасе нашего языка. Устойчивые выражения, образовавшиеся в языке в результате метафоры, называются фразеологизмами. Фразеологизмы существуют в нашем языке в виде словосочетаний и предложений. Народные поверья включены во многие фразеологии азербайджанского языка. У азербайджанского народа вода, дерево, огонь, солнце, луна, небо, горы и многие существа считались священными, и возникло множество связанных с ними верований. Эти верования отражены в древних образцах устной народной литературы и в образованных словосочетаниях. Вода, деревья, горы и т. д. входят в число культов тюркских народов. В нашем языке мы находим множество фразеологических сочетаний, связанных с этими словами. Если рассмотреть суть этих фразеологических сочетаний, то можно увидеть их связь с народными поверьями. В исследовании исследуются подслои фразеологизмов, выявляется их связь с верованиями. В ходе исследования рассматриваются верования как тюркских народов, так и других народов, анализируются фразеологизмы на общем уровне. В статье анализируются поверья, связанные с фразеологизмами. Во фразеологизмах раскрываются и убеждения, которые не на лицо, спрятаны в субстрате, укоренены в их сути.

Ключевые слова: фразеология, вера, культ, дерево, гора, вода

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: *dosent Günal Səfərli*
tərəfindən çapa tövsiyə olunmuşdur

ÜLKƏR CAVADOVA
AzMİU
e-mail: javadovaulkar@gmail.com

QEYRI-LİNVİSTİK ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN AKADEMİK YAZI BACARIQLARININ İNKİŞAFI

Xülasə

Bu məqalədə xarici dildə akademik yazı bacarıqlarının inkişafının müxtəlif aspektləri müzakirə olunur; bu sahədə müəyyən metodoloji istiqamətlərin formalaşdırılması, xarici dilin tədrisi metodları və onun məzmununun peşə hazırlığı üçün praktiki yönümünün təkmilləşdirilməsi, nitq fəaliyyətinin bütün növlərinin inteqrasiyasından bəhs edilir. Müəllif tələbələrə ingilis dilində akademik yazının öyrədilməsində didaktik prinsiplərin əhəmiyyətini açıqlayır. Tədqiq olunan problemin aktuallaşması tələbələrə xarici dildə yazmağı öyrətmək problemi, gənc mütəxəssislərin peşə hazırlığının keyfiyyətinə yeni tələblərin müəyyən edilməsi ilə bağlıdır. Məqalədə tələbələrin "Akademik yazı" fənnini tədris baxımından mənimsəmə imkanları təhlil edilir. Akademik səriştələrin formalaşması kontekstində müəyyən pedaqoji şərtlərin əhəmiyyəti üzə çıxır. Məqalədə xarici dildə akademik yazı bacarıqlarının öyrədilməsi zamanı konkret təhsil mərhələlərinin davamlılığından necə istifadə edildiyi göstərilir. Bununla əlaqədar belə bir nəticəyə gəlinir ki, akademik yazı bacarıqlarının inkişafı sistemli, məqsədyönlü, qeyri-linqvistik universitetin müəyyən bir bölməsinin xüsusiyyətlərinə mümkün qədər yaxın olmalıdır ki, bu da hər ikisinin inkişafında müsbət nəticə əldə etməyə kömək edir, tələbələrin koqnitiv və linqvistik bacarıqlarını onkişaf etdirir.

Açar sözlər: qeyri-lingvistik universitet, xarici dil, bacarıqlar, akademik yazı, metodlar

Son tədqiqatlar göstərdiyi kimi, qeyri-linqvistik universitetlərdə mütəxəssis hazırlığının aparıcı istiqamətlərindən biri xarici dildə akademik yazı bacarıqlarının inkişafıdır. Məlum olduğu kimi, hələ ötən əsrin sonlarında İngiltərə və ABŞ-ın təhsil sistemi tələbələrə xarici dildə (məsələn, fransız və ispan) yazmağı öyrətmək kimi problemlə üzləşmişdi. Bu gün müxtəlif xarici dil kurslarında akademik yazı bu və ya digər şəkildə kurrikuluma daxil edilir, lakin təcrübə göstərir ki, müasir şəraitdə akademik yazı bacarıqlarının inkişafına kompleks yanaşma zəruridir. Bu, xüsusən də Kendal Peatın məqaləsində qeyd olunur ki, Böyük Britaniya universitet tələbələri akademik yazı bacarıqlarını tam mənimsəmirlər, halbuki bu, ali təhsil almaq üçün zəruri şərtdir [8]. Bunu, məsələn, rusiyalı tələbələrin akademik savadlılıq bacarıqlarının yoxlanılması ilə bağlı tapşırıqların öhdəsindən gələ bilmədiyi Şagirdlərin Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramın (PISA) nəticələri sübut edir. Belə ki, Təhsilin Keyfiyyətinin Qiymətləndirilməsi Mərkəzinin təhlilində şagirdlər arasında təfəkkür ciddiliyinin və düşüncə dəqiqliyinin

olmaması, təhlil və ümumiləşdirmənin aşağı səviyyədə olması, onların seçimində müstəqillik və təşəbbüskarlığın zəif ifadə olunması kimi nöqsanlara yol verilir [3]. Bu baxımdan, bu problemin aktuallaşması gənc mütəxəssislərin peşəkar hazırlığının keyfiyyətinə qoyulan yeni tələblərlə müəyyən edilir ki, burada xarici dildə akademik yazı bacarığı da mühüm rol oynayır. Bu, cəmiyyətin xarici dildə şifahi və yazılı nitq söyləyən mütəxəssislərə ehtiyacı, xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrin artması ilə əlaqədardır.

Bu məqalənin məqsədi qeyri-linqvistik universitet tələbələrinin tədris baxımından akademik yazı bacarıqlarına yiyələnmələri üçün əsas yanaşmaları, mərhələləri və didaktik imkanları müəyyənləşdirmək və aşkar etməkdir. Tədqiqat problemi üzrə psixoloji və pedaqoji ədəbiyyatın nəzəri təhlili və sintezi aparılıb, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi ilə yanaşı qeyri-linqvistik universitetdə xarici dilin tədrisi probleminə dair psixoloji və pedaqoji ədəbiyyatın öyrənilməsi zamanı aşağıdakı ziddiyyətlər aşkar edilmişdir: xarici dildə akademik yazı, nitq fəaliyyətində yazının öyrənilməsinin ikinci dərəcəli əhəmiyyəti ilə əlaqədar orta məktəblərin məzunlarının və ali məktəb tələbələrinin yazılı dil biliklərinin aşağı səviyyədə olması; - tələbələrin akademik yazıya yiyələnməyə hazırlanmasının səmərəliliyinin artırılması zərurəti ilə bunun üçün pedaqoji şəraitin kifayət qədər inkişaf etdirilməməsi arasında; - xarici dildə akademik yazının məhsuldar tədrisi üçün innovativ yanaşmalardan istifadə zərurəti ilə universitetin qeyri-linqvistik kafedralarının tələbələrinin xarici dil yazısı üzrə praktiki hazırlığı üçün tədris-metodiki işlərin elmi əsaslandırılmasının kifayət qədər olmaması arasında; - nitq fəaliyyətinin müxtəlif səviyyələrində (oxu, yazma, dinləmə, danışma) xarici dilin öyrənilməsi ehtiyacı ilə onların praktikada həyata keçirilmə dərəcəsi arasında; - universitetin qeyri-linqvistik şöbələrində tədris prosesinin məzmunu, forma və metodları ilə tələbələrin peşəkar inkişafı və şəxsi inkişafı üçün məhsuldar yanaşmalara olan tələbat arasında.

Azərbaycan təhsil sistemində bu ziddiyyətlər, gördüyümüz kimi, praktiki həyata keçirmə elementləri ilə metodoloji səviyyədə həll edilməlidir. Akademik yazı bu gün əksər peşələrdə nitq fəaliyyətinin mühüm tərkib hissəsi olduğundan, akademik yazı bacarıqlarının inkişaf etdirilməsinin vacibliyinin nəzəri əsaslandırılması aşağıdakı tendensiyaları vurğulaya bilər: - akademik yazı dil və mədəniyyət vasitəsilə xarici dildə biliklərin həyata keçirilməsinə kömək edir. tədris materialının məzmunu; - akademik yazı (məsələn, ingilis dilində) oxu, danışma və dinləmə ilə qarşılıqlı əlaqədə müvafiq inteqrativ keyfiyyətlər yaradır, məsələn: gələcək mütəxəssisin peşəkar inkişafında nitq fəaliyyətinin ardıcıllığı, bütövlüyü və mürəkkəbliyi; - hər hansı bir profilli mütəxəssisin peşə hazırlığında xarici dildə akademik yazı təkcə müstəqil nitq fəaliyyəti növünə çevrilməməli, həm də tələbə şəxsiyyətinin inkişafı üçün təhsil, inkişaf və tərbiyə funksiyalarını yerinə yetirməlidir. Bunun üçün xarici dilin tədrisinin effektivliyini artırmaq və onun məzmununun akademik yazı sahəsində peşəkar hazırlığa praktiki yönümünü

təkmilləşdirmək lazımdır ki, bu da öz növbəsində aşağıdakı istiqamətlərin formalaşmasını müəyyən edir: şəxsiyyətyönümlü və fəaliyyətə əsaslanan yanaşmalar əsasında şagirdin təlim prosesi; - qeyri-linqvistik universitetdə tələbələrə tədris zamanı akademik yazıdan istifadənin praktiki həyata keçirilməsi üçün məhsuldar metodların tətbiqi; - xarici dilin öyrənilməsi zamanı akademik yazının tədrisi prosesinin təkmilləşdirilməsinin metodoloji aspektlərinin işlənib hazırlanması. Bu sahələr tələbələrin akademik yazı bacarıqlarının maksimum inkişafı ilə bağlıdır ki, bu da qeyri-linqvistik universitetdə fərdin fərdi yaradıcılığına əsaslanan məqsədyönlü və sistemli peşə hazırlığına əsaslanan məhsuldar təlimin tətbiqi ilə nitq fəaliyyətinin bütün növlərinin inteqrasiyasını nəzərdə tutur. bacarıqlar [1].

Deməli, tələbələrin ingilis dilində akademik yazı işinə məhsuldar hazırlığını həyata keçirmək üçün aşağıdakı kimi didaktik prinsiplərdən istifadə etmək lazımdır: təhsil səviyyələrinin davamlılığı (ibtidaidən yüksək səviyyəyə); nitq fəaliyyətinin öyrədilməsinin tamlığı; nitq fəaliyyətinin bütün növlərinin (oxu, yazma, dinləmə, danışma) bacarıqlı inteqrasiyası. Bu prinsiplərə ehtiyac ondan irəli gəlir ki, qeyri-linqvistik universitetdə mütəxəssis hazırlığı sistemində akademik yazı həmişə aşağıdakı komponentlərin qarşılıqlı təsirində fəaliyyət göstərəcək: müstəqil nitq fəaliyyəti növü kimi, oxumaq, danışmaq və danışmaqla yanaşı, dinləmək; oxu, dinləmə və danışma ilə inteqrasiyada tələbələrin faktiki peşəkar hazırlığının keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi. Buna görə də, tələbələrin xarici dildə akademik yazının məhsuldar öyrədilməsi üçün tələbələrə xarici dildə akademik yazının tədrisinin həm orta səviyyədən yüksək səviyyəyə qədər səmərəliliyini təmin etmək üçün mürəkkəblik və uyğunlaşma prinsiplərinə diqqət yetirmək də vacibdir. , və gələcək mütəxəssis kimi tələbələrin nitq fəaliyyətinin peşəkar keyfiyyətlərinin inkişafı [1; 2]. Bu aspektdə qeyri-linqvistik universitetlərin işinin təhlili göstərir ki, bu gün, bir qayda olaraq, xarici dildə yazmağı yalnız nitq fəaliyyətinin digər növlərinin öyrədilməsi vasitəsi kimi nəzərdən keçirən bir yanaşma tətbiq olunur, yəni, nitq fəaliyyətinin digər növləri üzrə hazırlıq səviyyəsindən geri qalır.

Bu problemi həll etmək üçün xarici dildə akademik yazı bacarıqlarının öyrədilməsi üçün müəyyən pedaqoji şərtlərin həyata keçirilməsi zəruridir ki, bu da xüsusilə aşağıdakı mərhələlərin davamlılığını təmin edərdi: 1) ilkin mərhələdə tələbələr orfoqrafiya, qrammatika, lüğət və onun tətbiqinin adekvatlığı; 2) ikinci mərhələdə akademik yazı öyrədilir, burada tələbələr test tapşırıqları əsasında formal akademik yazının yazılması üslubunda bacarıqlar formalaşdırır. Bu mərhələlər aşağıdakı pedaqoji şərtlər nəzərə alınmaqla həyata keçirilir: - xarici dilin öyrənilməsi nitq fəaliyyətinin (oxu, yazma, dinləmə və nitq) vahid prosesini təmsil edən tələbələrin tədrisinin məzmununu, forma və üsullarını təmin etməklə, onların akademik bacarıqlarını təkmilləşdirməyə yönəldilir. yazı bacarıqları; - akademik yazı bacarıqlarının inkişafında ardıcıllığı və ardıcıllığı təmin etmək üçün nitq fəaliyyətinin bütün növləri arasında mənalı və funksional əlaqələrin qurulması; - akademik yazı bacarıqlarının inkişafı ilə tələbələrin nitq fəaliyyəti zamanı yaradıcı özünü həyata

keçirmələri arasında əlaqə; - xarici dilin tədrisi prosesində ilkin, orta və təkmil təlim səviyyələrinin davamlılığı; - tələbələrin dil kompetensiyalarını mənimsəmələrini nəzərə alaraq xarici dilin tədrisinə differensial yanaşma; - xarici dildə artan çətinliklə akademik yazının öyrədilməsinin innovativ metodları ilə vahid təhsil prosesinə daimi əlavə.

Buna əsaslanaraq, "Akademik yazı" kursunu öyrənərkən qeyri-linqvistik universitetin tələbələri aşağıdakı akademik kompetensiyaları inkişaf etdirirlər: - mətnin məzmununun cümlələr və abzaslar daxilində səriştəli təşkili səviyyəsində mətn quruluşu vərdişlərinə yiyələnmək; - məqalə və mətnlərin, habelə müxtəlif işgüzar və məlumat sənədlərinin səriştəli yazılması üçün üslub və lüğət baxımından dil bacarıqlarının inkişafı; - müxtəlif səviyyəli yazılı əsərləri, o cümlədən həm özünün, həm də başqalarının mətnlərini təhlil etmək və qiymətləndirmək bacarığı; - həqiqi mənbələrlə işləmək, habelə onların qiymətləndirməsi əsasında öz nöqteyi-nəzərini əsaslandırmaq bacarığı və s. [6]. Akademik yazının xüsusiyyəti onun formal təqdimat tərzi olduğundan, tələbələr elmi lüğətdən bacarıqla istifadə etməli, mətni tərtib edərkən dəqiqlik və aydınlıq nümayiş etdirməli, həmçinin frazeoloji vahidlərdən və danışıq üslubunda olan sözlərdən sui-istifadə etməməlidirlər [4]. Bununla əlaqədar olaraq, müəllimin qarşısında şagirdlərin mətni strukturlaşdırmaq bacarığını inkişaf etdirmək vəzifəsi durur ki, onlar bu bacarıqdan sonradan öz elmi fəaliyyətlərində istifadə edə bilsinlər, çünki mətnin düzgün qurulması akademik yazının vacib tərkib hissəsidir. Şagirdlər "Akademik yazı" fənnini mənimsədikdə müəllimlər aşağıdakı fəaliyyətləri həyata keçirirlər: tələbələri müxtəlif mətn nümunələri ilə tanış etmək; bu nümunələr əsasında tələbələrə öz fikirlərini hekayə, əsaslandırma, esse və s. kimi mətn növləri ilə yazılı şəkildə ifadə etməyi öyrətmək. Beləliklə, tələbələr akademik yazı janrlarının əsas xüsusiyyətlərini bilməlidirlər, məsələn: elmi məqalə, referat, esse; elmi məqalələri müəllifin tədqiqat strategiyası nöqteyi-nəzərindən təhlil etməyi bacarmalı; müstəqil olaraq elmi məqalələrin avtoreferat və annotasiyalarını yaratmaq və s. bacarıqlarına malik olmalıdır [5].

Sonda qeyd edirik ki, bu intizam çərçivəsində hər iki formal materialın (məqalənin düzgün strukturu) mənimsənilməsini yoxlamaq üçün müvafiq nəzarət tapşırıqları tərtib edilərək öyrənilmək üçün geniş mövzular toplusu təklif edilməlidir) və məzmun aspektlərinin yoxlanılması (elmi məqalənin lüğət və qrammatikasından səriştəli istifadə). Eyni zamanda, qeyri-linqvistik universitetin fakültələrinin müxtəlif istiqamətləri əsasında dil materialının adekvat seçimi də vacibdir ki, bu da təbii olaraq tematik və janr mənsubiyyətinin nəzərə alınmasını tələb edir [1]. Yəni, sual gələcək mütəxəssislərin hazırlanmasının müəyyən spesifikliyinin ən çox tələb olunduğu, peşəkar və yüksək ixtisaslaşdırılmış lüğətin mənimsənilməsi probleminin ön plana çıxdığı müəyyən bir fakültənin mövzusunu seçməkdir. Beləliklə, bu kursun əsas xüsusiyyəti onun akademik yazı bacarıqlarının inkişafına praktiki diqqət yetirməsidir və bu, həm də tələbələrdə həm koqnitiv (fərziyyə irəli sürmək, məlumatı təhlil etmək və s.), həm də linqvistik bacarıqların paralel inkişafını təmin edir,

fikirləri formalaşdırmaq və onu linqvistik vasitələrin köməyi ilə təqdim etmək bacarığı [7].

Nəticə

Azərbaycanda son illərdə həyata keçirilən ali təhsil sisteminin müasirləşdirilməsi xarici dillərin tədrisinin təkmilləşdirilməsinin optimal yollarının tapılmasına yönəlmişdir. Bu gün tədris prosesi universitet məzunlarının beynəlxalq elmi mühitə inteqrasiyası üçün real imkanlarla sıx bağlıdır, burada siz təkcə dil biliklərini deyil, həm də tədqiqat bacarıqlarını nümayiş etdirməli olacaqsınız. Bu prosesə son illərdə xüsusi diqqət yetirilir. elmi məqalələr, məruzələr, işgüzar hesabatlar şəklində yazılı ünsiyyətə ödənilir. Bu, tələbələrin xarici dildə akademik bacarıqlarının inkişaf etdirilməsi vəzifəsini son dərəcə aktual edir.

Ədəbiyyat

1. Валеев А.А., Кондратьева И.Г. Факторы успешного обучения иноязычному профессиональному общению // Современные проблемы науки и образования. – 2014. – № 6. - URL: http://www.science-education.ru/120-16318 (дата обращения: 17.12.2014).

2. Валеева Р.А., Шакирова А.А. Гуманизация обучения иностранному языку: зарубежный опыт // Образование и саморазвитие. - 2014. - № 2 (40). – С. 72-75.

3. Новый взгляд на грамотность. По материалам международного исследования PISA-2000. – М. : Логос, 2004.

4. Поленова А.Ю., Числова А.С. A Complete Guide to Modern Writing Forms. Современные форматы письма в английском языке : учебник. - М. : Инфра-М; Академцентр, 2012.- 160 с.

5. Примерная программа дисциплины обучения иностранным языкам (в вузах неязыковых специальностей) / сост. Е.В. Мусницкая, Н.И. Гез, Н.М. Громова и др. ; Минобразования РФ. - М. : - Информика, 2000 [Электронный ресурс]. URL: http://edc.spbu.ru/new_gost/progr/in2.htm (дата обращения: 13.03.2013).

6. Academic Literacy: A Statement of Competencies Expected of Students Entering California‘s Public Colleges and Universities. – ICAS, 2002.

7. Craswell G., Writing for Academic Success. – London:Sage Publications, 2004. – 288 p.

8. Peet K. Teaching Academic Writing // Developing Teachers.com. A web site for the developing web teacher [Электронный ресурс]. URL: http://www.developingteachers.com/ articles_tchtraining/acadwrite1_kendall.htm (дата обращения: 01.03.2013).

УЛЬКАР ДЖАВАДОВА

РАЗВИТИЕ НАВЫКОВ АКАДЕМИЧЕСКОГО ПИСЬМА СТУДЕНТОВ НЕЯЗЫКОВЫХ ВУЗОВ

РЕЗЮМЕ

В данной статье рассматриваются различные аспекты развития навыков академического письма на иностранном языке; формирование определенных методических направлений в этой области; совершенствование методики преподавания иностранного языка и практическая направленность ее содержания для профессиональной подготовки используя интеграцию всех видов речевой деятельности. Автор объясняет важность дидактических принципов в обучении студентов английскому академическому письму. Актуализация изучаемой проблемы связана с проблемой обучения студентов письму на иностранном языке, определением новых требований к качеству профессиональной подготовки молодых специалистов. В статье анализируются возможности студентов в освоении предмета «Академическое письмо» с точки зрения преподавания. В контексте формирования академических навыков раскрывается важность определенных педагогических условий. В статье показано, как используется преемственность конкретных образовательных этапов при обучении навыкам академического письма на иностранном языке. В связи с этим делается вывод о том, что развитие навыков академического письма должно быть максимально приближено к особенностям навыков конкретного факультета системного, целеустремленного, неязыкового вуза, что помогает добиться положительного результата в развитии как когнитивные и лингвистические навыки учащихся.

Ключевые слова: неязыковой вуз, иностранный язык, навыки, академическое письмо, методы

ULKAR JAVADOVA

DEVELOPMENT OF ACADEMIC WRITING SKILLS OF STUDENTS IN NON-LINGUISTIC HIGHER EDUCATION INSTITUTIONS

SUMMARY

This article discusses various aspects of developing academic writing skills in a foreign language; formation of certain methodological directions in this field; improvement of foreign language teaching methods and practical orientation of its content for professional training; using the integration of all types of speech activity. The author explains the importance of didactic principles in teaching English academic writing to students. The actualization of the studied problem is related to

the problem of teaching students to write in a foreign language, the determination of new requirements for the quality of professional training of young specialists. The article analyzes the possibilities of students to master the subject "Academic writing" from the point of view of teaching. In the context of the formation of academic skills, the importance of certain pedagogical conditions are revealed. The article shows how the continuity of specific educational stages is used during the teaching of academic writing skills in a foreign language. In this regard, it is concluded that the development of academic writing skills should be as close as possible to the characteristics of a specific department of a systematic, purposeful, non-linguistic university, which helps to achieve a positive result in the development of both cognitive and linguistic skills in students.

Key words: non-linguistic higher education institution, foreign language, skills, academic writing, methods

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.ü.f.d., dos. Əsədova M.
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRANƏ NAĞIYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
terane.nagiyeva.79@mail.ru

SİNTAKTİK TƏKAMÜLÜN İNKİŞAFINDA SİNTAKTİK NORMA ƏSAS FAKT KİMİ

XÜLASƏ

Məqalədə Azərbaycan ədəbi dilinin sintaktik normaları ilə sintaktik təkamül arasında qarşılıqlı əlaqənin forma və prinsipləri, qanunauyğunluqları təhlil olunur. Dildə sintaktik normanın yaranması və inkişafını şərtləndirən amillər, tarixin müxtəlif dövrlərində cəmiyyətdə baş verən bu və ya digər hadisələrin, qohum və qohum olmayan dillərin, tərcümə ədəbiyyatının dilə təsiri hesab oluna bilər.

Dil həmişə dialektik inkişafda, təkmilləşmədə, zənginləşməkdə olan bir ünsiyyət vasitəsidir. Bu inkişaf bir-birindən fərqli dildaxili və dilxarici amillərin təsiri ilə formalaşır. Norma bütün dil daşıyıcıları tərəfindən qəbul edilmiş, dilin yaranması, inkişafı və ondan istifadəni tənzimləyən məcburi qayda, üsul kimi səciyyələndirilir. Ədəbi dilin norması kortəbii olaraq yaranmır, onun yaranmasını şərtləndirən bir çox amillər var. Məqalədə sintaktik norma sintaktik təkamül prosesinin zaman göstəricisi kimi izah olunur.

Azərbaycan ədəbi dilinin ta qədim dövrlərdən bugünümüzə kimi olan müddətdə təşəkkülü, formalaşması, inkişafı prosesində ədəbi dilin sintaktik normaları da sabit qalmamış, bu dəyişikliklərə müvafiq qayda və üsulları özündə ehtiva etmişdir. Başqa sözlə, ədəbi dildə baş verən dialektik inkişaf, forma və məzmun dəyişiklikləri normada əks olunmuş, sonradan əks hadisə baş vermiş, norma dilin sonrakı inkişaf istiqamətlərini və meyillərini tənzimləyən vasitə rolunda çıxış etməyə başlamışdır.

Məqalədə sintaktik təkamül prosesi ilə norma arasında üzvi əlaqənin olduğu qeyd olunur. Vurğulanır ki, dialektik bir hadisə olan təkamüldə normanın təsir izləri özünü büruzə verir. Bu və ya digər zaman kəsiyində sintaktik təkamülün mahiyyəti, özəllikləri, həmin dövrü səciyyələndirən sintaktik normalar nəzərə alınmaqla izah oluna bilər. Məhz bu baxımdan sintaktik təkamülün inkişafında sintaktik normanın rolu danılmazdır və onun tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

Açar sözlər: sintaktik norma, sintaktik struktur, dil sistemi, sintaktik təkamül, qarşılıqlı təsir, türk dilləri.

Azərbaycan dilinin izahlı lüğətində “norma”sözü aşağıdakı kimi izah olunur: “ Norma – qaydaya salınmış, qayda, üsul. *Hüquq normalar*.//Hamı tərəfindən qəbul edilmiş adi, məcburi qayda, nizam. *Ədəbi dil normaları. Əxlaq normaları*[1, s.498].

“İzahlı dilçilik terminləri lüğəti” ndə isə norma belə izah olunur: “Norma dildə eyni vaxtda mövcud olan nitq variantlarından öz funksiyasını ən nümunəvi şəkildə yerinə yetirmə baxımından fərqləndirilib seçilən və işlədilən variant. *Leksik norma. Morfoloji norma. Sintaktik norma.*

Norma tarixi kateqoriyadır. Müəyyən qədər ümumiliyi, sabitliyi ilə səciyyələnsə də, hər halda normanın özü də tədricən dəyişir. Çünki dil özü ictimai hadisə olub, cəmiyyətin – o dildə danışanların dəyişməsi ilə əlaqədar daima dəyişməkdədir. Dil normasının dəyişkənliyi nəticəsində belə bir vəziyyət yaranır ki, müəyyən vaxt ərzində eyni bir hadisə, əşya və s-ni ifadə etmək üçün bir yox, bir neçə ifadə üsulu meydana gəlmiş olur. Köhnə norma aradan çıxmadığı halda, həm də yeni norma(lar)yaranmış olur. Məsələn, "Sən qəzetə abunə yazılmısanmı//yazıl-mışsanmı?"[3, s. 402-403].

Normativ qrammatika isə daha çox orta və ali məktəb tələbələri üçün yazılmış dərsliklərdə təsvir olunan qrammatikalar hesab olunur. Belə qrammatikalarda mübahisəli, həllini tapmamış məsələlər verilmir. Orta və ali məktəblər üçün nəzərdə tutulmuş dərsliklərdə qrammatikanın ən ümumi və zəruri morfoloji və sintaktik qaydaları konkret nümunələr əsasında şərh olunur. Bu qəbildən olan normativ qrammatikalar bəzən praktik, passiv, qrammatika da adlanır. Belə qrammatikalar şagird və tələbələrə morfologiya və sintaksis haqqında minimum məlumat verməklə kifayətlənir. Dilçiliyin son illərdə yaranmış bir çox yeni sahələri barədə normativ qrammatikalarda məlumat verilmir[3, s. 403].

Ağamusa Axundov qrammatik normalardan bəhs edərkən yazır: "Qrammatik quruluş dilin ən yavaş dəyişilən, ən "mühafizəkar" vahidlər sistemi olsa da, inkişaf meyilləri ona da yad deyil: burada da daimi təkmilləşmə prosesi gedir və dilimizin qrammatikası ilə məşğul olanlar bunu həmişə nəzərə almağa borcludurlar [4, s.299]. Ağamusa Axundova görə, dilin qrammatik quruluşundakı inkişaf, təkmilləşmə heç də təsadüfi, necə deyərlər, ixtiyari proses olmayıb, müəyyən qaydalara əsaslanan, tələblərə cavab verən qanunauyğunluqlar sistemidir. Müəllif belə hesab edir ki, dilin bütün səviyyələrində olduğu kimi, qrammatik quruluşunda da aparıcı meyillərdən biri, bəlkə də ən birincisi dil materialına qənaətdir. Ağamusa Axundova görə, bu, ümumi tipoloji hadisə olub, demək olar ki, bütün dillərə xasdır. Ədəbi dilimizin müxtəlif üslublarında, xüsusən bədii və mətbuat üslublarında bir sıra morfoloji hadisələr nəzərə çarpır, ədəbi dilimizin qrammatik quruluşunda bir-birindən fərqli dil hadisələri özünü göstərir. Həmin qrammatik hadisələrə qiymət verilməli və onların hansılarının norma olduğu müəyyənləşdirilməlidir [4, s.299].

Ağamusa Axundov morfoloji sapmalarla yanaşı sintaktik səviyyədə də sintaktik normalaşma prosesinə toxunmuşdur. O göstərir ki, ədəbi dilimizin inkişafında özünü göstərən ikinci meyil sintaktik səviyyədə olub, söz sırası ilə bağlıdır. Ədəbi dilimizin normativ tələblərinə görə sözlərin sırası cümlədə belə olmalıdır: mübtəda, ikinci dərəcəli üzvlər, xəbər. Zaman və yer zərfliklər mübtədadan əvvəl də işlənə bilər. Lakin bu sintaktik meyil daha çox nitqin emosionallığı ilə bağlıdır və onu ədəbi dilimizin sintaktik normasının pozulması kimi səciyyələndirmək düzgün olmazdı [4, s.303].

Nizami Xudiyev dildə normaların yaranması və inkişafı prosesindən danışarkən qeyd edir ki, Azərbaycan ədəbi dilinin təşəkkülü prosesində (qədim

dövrlərdən XIII əsrə qədər) normanın əsasları yaransa da, həmin dövrlərdə variantlılıq heç də aradan qalxmamışdı. XIII-XIV əsrlərdə ədəbi dilin normaları, hər şeydən əvvəl, demokratizmi və kütləviliyi ilə diqqəti cəlb edir, digər tərəfdən isə, ümumtürklülük qalır. XIII-XIV əsrlər Azərbaycan dilinin normasında variantlılığın olması dövrün mürəkkəb etnolinqvistik proseslərindən irəli gəlir, müxtəlif türk tayfalarının, xalqlarının çox zaman sabitləşmiş dil ənənələri ilə Azərbaycana gəlişi çoxdan bu ərazidə yaşayanların dialekt xüsusiyyətlərinin ədəbi dildə daha intensiv görünməsinə təsir edir – bəzən yerli dialekt faktı gəlmə ədəbi dil norma əlaməti ilə üst-üstə düşür və beləliklə, bir neçə norma göstəricisi eyni zamanda funksionallaşır [10, s.166].

Nizami Xudiyevə görə, XIII-XIV əsrlər Azərbaycan ədəbi dilinin sintaksisi yüksək inkişaf səviyyəsi ilə diqqəti cəlb edir. Ümumiyyətlə, belə bir mülahizə mövcuddur ki, ədəbi dilin sintaksisinin inkişaf səviyyəsi ən çox xalqın intellektual tərəqqisi, danışıq dili sintaksisinin inkişafı isə kollektivin adət-ənənələri, etnik təkamülü ilə mütənasib hesab olunur. Bu mənada mərhələnin ədəbi sintaksisi mükəmməl intellektual enerjinin təzahürüdür. Söz birləşmələri, sadə və mürəkkəb cümlələr həmin mərhələdə normativ formalara malikdir. Nizami Xudiyev hesab edir ki, sintaksis, ümumiyyətlə, üslubi funksionallıqla bağlıdır, janr tipologiyası sintaksisə ciddi təsir edir, bu isə əlbəttə, normativ konstruksiyaların yoxluğu demək deyil və XIII-XIV əsrlərdə ədəbi dil "universal" sintaktik konstruksiyalarla zəngindir. Sintaksisin bu mərhələdəki elastikliyi məhz normativ formaların ifadə imkanlarının genişliyində maddi əsaslarını tapır[10, s.179].

XV-XVI əsrlərdə Azərbaycan ədəbi dilinin normaları XIII-XV əsrlərdəkindən fərqlənir, lakin bu fərq dövrlər deyil, mərhələlər ayırmağa imkan verir. Klassik üslubun nüfuzunun artması ilə klassik normalılıq güclənir, eyni zamanda XVI əsrdə folklor üslubu zəminində Azərbaycan dilinin yeni normativ sistemi formalaşır [10, s. 257].

Nizami Xudiyev XV-XVI əsrlər Azərbaycan ədəbi dilinin aparıcı cəhəti kimi izafət tərkiblərinin çox işlənməsini göstərir [10, s. 269].

XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilinin qrammatik normalarında milli əsaslar üzərində yenidən təşkilolunma halı özünü göstərir. Ümumi qrammatik kateqoriyaların ifadəsində milli norma sistemi tam qərarlaşır. Azərbaycan ədəbi dilinin milli əsaslar üzərində təşkili prosesində morfoloji norma ilə sintaktik normaların dialektik əlaqəsi güclənir – sintetizmin yüksəlişi qrammatik normanın daxili vəhdətini daha ardıcıl təmin edir. XVII- XVIII əsrlərdə sintaktik norma əsaslı şəkildə demokratikləşir, üslub diferensiasiyasının artımı sintaksisin yeni ifadə - inikas imkanlarını ortaya çıxarır [10, 354].

Nəhayət, XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin normaları nə XVII-XVIII, nə də XIX əsrdə görünməyən bir mürəkkəblik və bəzən də qeyri-sabitliklə təzahür edir. Həmin mürəkkəblik, variantlılıq və qeyri-sabitlik öz-özlüyündə tamamilə sabit "mövqe"lərin bir araya gəlmək, birləşmək meylinin nəticəsidir [10,

s.491-492]. Bu situasiya XX əsrin əvvəllərində dilin sintaktik normasının inkişafı və sabitləşməsi üçün zəmin yaratmışdır.

Nizami Xudiyev XX əsrin 20-30-cu illərdə ədəbi dilin kütləviləşməsinin daha çox sintaktik normaya təsir etdiyi qənaətindədir. Bu dövrdə ədəbi dilin sintaksisinin əsasında danışıq dili sintaksisi durur, danışıq dilinə məxsus lakoniklik, təbii emosionallıq sintaktik normada keyfiyyət faktına çevrilir. Bu zaman dialekt sintaksisi ədəbi dilin sintaktik normasının demokratikləşməsində iştirak edir, ərəb-fars sintaksisinin təsiri aradan qalxır, izafət tərkiblərinin funksionallığı azalır. Avropa-rus dillərinin təsiri ilə bir sıra sintaktik konstruksiyaların, xüsusilə mürəkkəb cümlələrin müəyyən fuksionallaşdığı diqqəti cəlb edir. Tərcümə əsərlərindən gələn mürəkkəb-konstruktiv ifadə formaları sintaktik normanın təşkilində öz işini görür [10, s. 577-578].

Dilin normaları ilə bağlı Tofiq Hacıyev və Kamil Vəliyevin fikirləri də böyük maraq doğurur. Dilçi-alimlərin fikrincə, ədəbi dil xalqın intellekti ilə üzvi əlaqədədir, ona xidmət edir və onu əks etdirir. Cəmiyyətin mədəni-əqli mahiyyəti ilə səciyyələndirilən norma ədəbi dilin səviyyəsini əks etdirir. Buna görə də, ədəbi dilin inkişafını məhz normanın təkamülü kimi anlamaq lazımdır. Normanın dəyişməsi, inkişafı, yenilənməsi müəyyən kəmiyyət fərqlərinin toplanması ilə şərtlənir. Bu kəmiyyət hədləri ədəbi dilin tarixində keçid düyünləri hesab olunur. Kəmiyyət yığımları keyfiyyət həddinə keçdikdə dövrlər yaranır. Norma, müəlliflərə görə, tərkibcə iki komponentdən ibarətdir: struktur-forma komponenti və funksional-məzmun komponenti. Birinci tərəf dilin quruluş göstəricilərini-fonetik, leksik-qrammatik cəhətləri əhatə edir. İkinci tərəfdə isə üslub rəngarəngliyi, üslubi diferensiasiyadakı çeviklik və yetkinlik, həmçinin ədəbi dilin ünsiyyət genişliyi, əqli-intellektual kamilliyi nəzərdə tutulur [9, s.47-48].

Tofiq Hacıyev və Kamil Vəliyevin həmmüəllif olduqları "Azərbaycan dili tarixi" kitabında Azərbaycan ədəbi dilinin tarixi iki mühüm dövrə ayrılır: təşəkkül dövrü və sabitləşmə dövrü. Təşəkkül dövrü təxminən IX-X əsrlərdən XVII əsrin əvvəllərinə qədərki dövrü əhatə edir. Təşəkkül dövründə iki üslubun olduğu göstərilir – klassik-kitab üslubu, danışıq-folklor üslubu.

Sabitləşmə dövrü XVII əsrin ortalarından başlanır. Həmin dövrdən başlayaraq Azərbaycan ədəbi dilinin fonetik, qrammatik və leksik cəhətdən müəyyənləşməsi, sabitləşməsi baş verir. Bu zaman normanın ikinci komponentində dəyişiklik gedir: danışıq – folklor üslubu aparıcı səviyyəyə keçir. Sabitləşmə dövrü dörd mərhələyə ayrılır: 1) XVII-XVIII əsrlər ədəbi dili – bu dövrün əsas inkişaf meyli normanın demokratikləşməsidir. Əcnəbi leksik-qrammatik faktlar ədəbi dildən sıxışdırılır, onların fəaliyyət dairəsi daralır, danışıq-folklor üslubu aparıcı üsluba çevrilir; 2) XIX əsr ədəbi dili-ərəb və fars dilləri alınma mənbəyi kimi fəaliyyətdən düşür, ədəbi dilin lüğət tərkibində rus və Avropa mənşəli sözlər getdikcə artmağa başlayır, elmi üslubun əsası kimi elmi-fəlsəfi dilin ilk nüminələri yaranır; 3) XIX əsrin sonu, XX əsrin əvvəllərində ədəbi dil – milli ədəbi dil dövrü. Bu mərhələdə XIX əsrin 70-ci

illərdən başlayaraq publisistik üslub yaranır, milli ədəbi dil formalaşır, dilin bütün üslubları fəaliyyətə başlayır; 4) 30-cu illərdən sonra müasir Azərbaycan ədəbi dili tam formalaşır, orfoqrafik və orfoepik normalar sabitləşir, alınma sözlərə münasibət müəyyənləşir, terminologiya sabitləşməyə başlayır [9, s.50-53].

Milli ədəbi dilin formalaşmasında elmi üslubun da müəyyən xidmətləri vardır. Xüsusilə, XX əsrin əvvəllərində ayrı- ayrı alimlər tərəfindən yazılmış elmi əsərlərdə milli ədəbi dilin elmi üslubunun yaranması, inkişafı və formalaşması meyillərini müşahidə etmək mümkündür. Afina Əlizadə XX əsrin əvvəllərində coğrafiya, riyaziyyat, dil, ədəbiyyat, tarixə aid Azərbaycan dilində yazılmış elmi əsərləri, lüğətləri, təlim-tədris vəsaitlərini araşdıraraq bu nəticəyə gəlmişdir ki, Azərbaycan ədəbi dilinin inkişafı və formalaşmasında, dilin morfoloji normalarının yaranmasında elmi ədəbiyyatın böyük rolu olmuşdur. Belə elmi mənbə, təlim-tədris vəsaitləri və lüğətlərə aşağıdakıları nümunə kimi göstərmək olar: H. Zərdabi "Bədəni səlamət saxlamaq düstürüləməlidir" (1914), "Torpaq, su və hava" (1912), Ü. Hacıbəyov "Hesab məsələləri" (1907), "Türk rusi və rusi-türk" (1907), N. Nərimanov "Xolera – vəba" (1909), "Traxom – göz ağrısı" (1924), Q. Mirzəzadə "Qafqaz coörafiyası" (1909), "Ümumi coğrafiya" (1912), " Hesab məsələləri" (1917), "Təfsirli xalq lüğəti" (1921), "Rəhbəre sərf" (1918), R. Əfəndiyev "Bəsirətül ətfal" (1901, 1907) və s. [7, s.3-4].

XX əsrin əvvəllərində yaranmış elmi əsərləri sadalamaqdan məqsəd həm də həmin dövrdə elmin müxtəlif sahələrinə olan maraq dairəsi ilə bağlı müəyyən təsəvvür yaratmaqdır. Həmin elmi mənbələr XX əsrin əvvəllərində elmi ədəbiyyatda müşahidə olunan dil faktlarını təhlil etmək imkanı yaradır. Sadalanan mənbələr ötən əsrin başlanğıcında mövcud olmuş leksik və sintaktik normaların yaranması və inkişaf özəlliklərini izləmək baxımından da əhəmiyyətlidir.

Kamil Əliyev Azərbaycan ədəbi dilinin üslubiyyatı ilə bağlı tədqiqatında üslubi normalar məsələsinə də toxunmuşdur. Tədqiqatçı göstərir ki, dildə fonetik, leksik, morfoloji, sintaktik normalar olduğu kimi, üslubi normalar da var. Üslubi normalar da dilin digər normaları kimi yaranır, təkmilləşir, yeni-yeni çalarlar kəsb etmiş olur. Üslubi normalar mahiyyətinə görə üslubi reallıqları təqdim edir. Həmin norma fikrin ifadəsi prosesində müvafiq funksional üsluba xas olan optimal variantın seçilməsinə əsaslanır. Bəzən üslubi normalar etika və davranış normaları ilə eyniləşdirilir. Əgər fonetik, leksik, morfoloji, sintaktik normalar ədəbi dildən düzgün istifadəyə xidmət edirsə, üslubi normalar düzgün və keyfiyyətli nitqin qurulması imkanı yaradır. Dildə leksik-qrammatik normaların pozulması üslubi normalara da mənfi təsir etmiş olur. Üslubi normalar tarixi kateqoriya kimi qiymətləndirilməlidir. Onlar ədəbi dildə bütövlükdə bir sistem təşkil edir. Müəllifin fikrincə, üslubi normanın aşağıdakı komponentləri, səciyyəvi xüsusiyyətləri vardır: aydınılıq, lakoniklik, axarlıq, bağlılıq, dəqiqlik, təbiilik, təmizlik, parlaqlıq [8, s. 37-38].

Üslubi normalar dildə daha çox sintaktik səviyyədə əks olunur və sintaktik normalarla paralel olaraq fikrin cümlə konstruksiyalarında optimal ifadəsinə xidmət edir.

Akif Miriyev 70-ci illər Azərbaycan mətbuat dilində qrammatik normalardan bəhs edərkən dövri mətbuat üslubunun sintaktik cəhətləri üzərində xüsusi olaraq dayanır. O qeyd edir ki, Azərbaycan ədəbi dilinin sintaksisində danışıq dili elementlərindən istifadə meyilləri mətbuat dilində daha qabarıq hiss olunur. Mətbuat üslubu başqa üslublarla müqayisədə daha çox ekstralinqvistik təsirlərə məruz qalır. Mətbuat dili sintaksisinin nitq mədəniyyəti və ədəbi variativlik aspektindən öyrənilməsi məhz bu baxımdan olduqca vacibdir. Müəllif müşahidələr nəticəsində belə bir qənaətə gəlir ki, Azərbaycan ədəbi dili sintaksisinin bir çox özəlliklərinin formalaşmasında və norma statusu almasında rus dilindən olan tərcümələr mühüm rol oynayır. Tərcümə mətnində rus sintaksisinin təsiri özünü təyini söz birləşmələrində və cümlədə söz sırasının pozulması hallarında göstərir [11, s. 25-29].

XVIII əsr Azərbaycan ədəbi dilini tədqiq edən Nizami Cəfərov belə bir nəticəyə gəlir ki, Azərbaycan milli ədəbi dili ondan əvvəl işlənmiş köhnə Azərbaycan dilindən (köhnə Azərbaycan dili dedikdə, XI-XII əsrlərdən XVI əsrə kimi Azərbaycanda ünsiyyət vasitəsi kimi istifadə olunan dil nəzərdə tutulur)daha orijinaldır, belə ki, sıx əlaqədə olduğu digər türk dilləri ilə yeni münasibət nümayiş etdirir. Müəllifə görə, ədəbi dil demokratikləşmə və milliləşmə istiqamətində inkişaf prosesində aşağıdakı funksional-tipoloji inkişaf mərhələlərini keçmiş olur:

I mərhələ - bütün XVI əsr boyunca;

II mərhələ - XVI əsrin sonlarından XVII əsrin ortalarına qədər;

III mərhələ - XVII əsrin sonlarından XIX əsrin ortalarına qədər.

Beləliklə, XVIII əsrdə ədəbi dilin inkişafı iki mühüm keyfiyyətin təması ilə səciyyələndirilə bilər: dilin dialektikasının əsasında klassik və folklor üslublarının qovuşması nəzərə çarpır, bu situasiyada yalnız demokratik, milli olan elementlər sabitləşir [6, s.14].

Sənubər Abdullayeva Azərbaycan nağıl və dastanlarının dili ilə bağlı araşdırmalarında sintaksisə və sintaktik normalar mövzusuna da toxunmuşdur. Azərbaycan dastan və nağıllarının dilinin sintaktik quruluşu üzərindəki müşahidələr əsasında müəllif belə bir nəticəyə gəlir ki, qoşulma konstruksiyalar, inversiyalı cümlələr, cümlə üzvlərinin sıralanma sistemi, paralel komponentlər, bədii təyin, bədii xitablar və s. sintaktik fiqurlar sintaksisin dominant cəhətlərini təşkil edir. Azərbaycan nağıl və dastanlarında sadə və mürəkkəb cümlələrin hər bir növünün müxtəlif tiplərinə rast gəlmək mümkündür. Nağıl və dastanlarda adlıq cümlələr yox dərəcəsindədir.

Folklor sintaksisində danışıq dili konstruksiyaları üstünlük təşkil edir. Son dövrlər bədii nəsrimizdə və mətbuatda geniş yayılmış qoşulma konstruksiyalar dilçilik ədəbiyyatında yeni meyil kimi göstərilsə də, bu hadisə nağıl və dastanlarda geniş yayılmışdır [2, s.27].

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbi dilində formalaşmış sintaktik qəlib və normalar oğuz qrupu türk dillərində də özünü bu və ya digər şəkildə büruzə verir. Sevindik Vəliyeva görə oğuz qrupu türk dillərində sadə cümlənin formalaşması və inkişafı prosesini izlədikdə iki istiqamət özünü daha qabarıq göstərir. Bu istiqamətlər, ilk növbədə, sadə cümlənin struktur-semantik planda araşdırılması ilə səciyyələnir. Struktur-semantik planda tədqiqin morfoloji və semantik səviyyələri forma və məzmunca bir-birindən kəskin şəkildə fərqlənən müxtəlif qrammatik kateqoriyalar əsasında formalaşır. Müəllif belə qənaətdədir ki, sadə cümlə pratürk dövründə də hakim mövqedə olmuş, sintaktik sistemdə aparıcı rol oynamışdır. "Kitabi-Dədə Qorqud" dilinin faktları əsasında sadə cümlə modellərinin təhlili göstərir ki, ilk təşəkkül dövründə ədəbi dilimiz həm sabitliyi, həm də funksional imkanlarının genişliyi və zənginliyi ilə təzahür edir. Orta yüzilliklərdə yazıya alınmış bu dastan epik dilin bir sıra xüsusiyyətlərini, o cümlədən sadə cümlə sintaksisinin konstruksiyalarını mühafizə edib saxlamışdır. Oğuz qrupu türk dillərinin müqayisəli təhlili göstərir ki, qarşılaşdırılan dillərdə sadə cümlə mürəkkəb cümləyə nisbətən üstünlük təşkil edir. Daha maraqlı bir cəhət odur ki, türk dillərində sadə cümlə mümkün budaq cümlələrinin bütün potensiallarını ehtiva etməyə, baş cümlənin təşkilinə zidd olmayan qaydalara uyğun quruluşlu cümlə əvəzediciləri yaratmağa cəhd göstərir [12, s.45-46].

Qızılgül Abdullayeva XVII əsr Azərbaycan ədəbi dilinin sintaktik normasından bəhs edərkən söz birləşmələrinin tarixi inkişafı, sadə və mürəkkəb cümlə sintaksisi məsələlərini xüsusi olaraq araşdırır. Tədqiqatçı göstərir ki, XVII əsrdə Azərbaycan cəmiyyətində baş verən milliləşmə dilin sintaktik strukturuna, eləcə də ədəbi dilin sintaktik normasına da öz təsirini göstərmişdir. Bu təsiri xəlqiləşmə kimi səciyyələndirmək olar. Bu dövrdə söz birləşmələrində sadələşmə, izafət tərkiblərinin Azərbaycan dilinin qrammatik qanunlarına uyğunlaşması baş verir. Məsələn: *duayi-xeyr/ xeyir-dua, büsati-toy/ toy-büsat, vəxti-axşam/ axşam vaxtı, abi-həyat/həyat suyu* və s.

Ümumilikdə, XVII əsrdə söz birləşməsi səviyyəsində milli qrammatik qəlib əcnəbi qəlibi üstələyir. Tədqiqatçı göstərir ki, məqsəd və intonasiyaya görə bütün cümlə növlərinə XVII əsr Azərbaycan ədəbi dilinin sintaktik sistemində rast gəlinir. Nəqli cümlə digər cümlə tiplərini üstələyir. XVII əsr Azərbaycan ədəbi dilinin sintaktik strukturunda yer alan sual cümlələrinin faiz etibarı ilə əksəriyyəti klassik şeir janrlarından biri olan qəzəl dilində işlək olan cavabsız sual cümlələridir. Müəllifin qənaətinə görə, XVII əsr mənbələrində həm təsdiq (Qanə döndü yürəgim sübhi-zənəxdanın için – Rəhməti), həm də inkar (Nihan tutma, bizi eylə xəbərdar – Fədai) rast gəlmək mümkündür [1, s.43].

Qızılgül Abdullayevanın araşdırmalarına görə XVII əsr Azərbaycan ədəbi dilində tabesiz mürəkkəb cümlələrin həm bağlayıcısız (Söküldü sipər, bölündü xudi, Saçıldı şərər, dağıldı dudi – Məsihi), həm də bağlayıcılı (Şahə mənsub olan bir qonçadır bu, Vəli qismət mənə olmuş bu inci – Fədai) formalarına rast gəlinir:

mübtəda (Mümkün degil ki, qaşların imasın anlaya – Məczub); xəbər (Aşiq öldür, canın qurban edı cananına – Zəfər); tamamlıq (Bildi ki, nədir nigarə kirdar – Məsihi); təyin (Nisbət irür ol gəncə ki, viranə ulaşmış – Əmani); zərflik (Necəsən bir ah çəksəm, Dağlarda maral yana – Sarı Aşıq); çərt (Qız ilə görüşüb qalmazsa söhbət, Qəbul etməz nə elçi, nə ərizə...- Fədai); qarşılaşdırma (Hərçənd ki, az olarsa rəğbət, Mən' arturur arzuvü həsrət – Məsihi) [1, s.44].

Onu da qeyd etmək lazımdır ki, digər budaq cümlə növlərinə nisbətdə XVII əsr Azərbaycan ədəbi dilində tamamlıq budaq cümlələri daha geniş yayılmış və işləkdir.

Nəticə olaraq Qızılgül Abdullayeva hesab edir ki, XVI əsrin sonu XVII əsrin əvvəllərindən başlayan xəlqiləşmənin norma minimumundan norma maksimumuna qalxması bu tarixi mərhələnin aparıcı inkişaf istiqaməti kimi dəyərləndirilmişdir. XVII əsr özündən əvvəlki və özündən sonrakı əsrlər arasında bir əlaqələndiricilik funksiyasını yerinə yetirdiyindən ənənə ilə yenilikçiliyi özündə qovuşduran bir körpü rolunun ifadəçisidir. Elə bu ifadəçilik funksiyasına görə o, XVII əsrin sonlarına doğru sabitləşmiş, xəlqiləşmiş, milliləşmiş Azərbaycan dilini XVIII əsrə ötürür [1, s.50-51].

XVII əsr ədəbi dilinin sintaktik quruluşunda tabeli mürəkkəb cümlənin də bütün növləri təsbit olunmuşdur:

Nəticə. İzahlı dilçilik lüğətlərində norma bütün dil daşıyıcıları tərəfindən qəbul edilmiş, dilin yaranması, inkişafı və ondan istifadəni tənzimləyən məcburi qayda, üsul kimi şərh olunur. Məqalədə sintaktik norma ilə sintaktik təkamülün qarşılıqlı əlaqə və münasibət məsələləri araşdırılır və konkret müddəalar irəli sürülür. Müəllif belə bir qənaətdədir ki, Azərbaycan ədəbi dilinin ta qədim dövrlərdən indiyə qədər olan müddətdə inkişafı və formalaşması fonunda ədəbi dilin sintaktik normaları da sabit qalmamış, bu dəyişikliklərə müvafiq qayda və üsulları özündə ehtiva etmişdir. Başqa sözlə, ədəbi dildə baş verən dialektik inkişaf, forma və məzmun dəyişiklikləri normada əks olunmuş, sonradan, norma da öz növbəsində dilin sonrakı inkişaf istiqamətlərini və meyillərini tənzimləyən vasitə rolunda çıxış etməyə başlamışdır.

Bu və ya digər zaman kəsiyində sintaktik təkamülün mahiyyəti, özəllikləri, həmin dövrü səciyyələndirən sintaktik normalar nəzərə alınmaqla izah oluna bilər. Məhz bu baxımdan sintaktik norma və sintaktik təkamül arasında qarşılıqlı əlaqə və münasibətlərin tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Abdullayeva Qızılgül. XVII əsr Azərbaycan ədəbi dili. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2023, 55 s.).
2. Abdullayeva Sənubər. Azərbaycan nağıl və dastanlarının dili. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2006, 43 s.

3. Adilov Musa, Verdiyeva Zemfira, Ağayeva Firəngiz. İzahlı dilçilik terminləri lüğəti. Bakı, "Elm və təhsil", 2020, 656 s.).
4. Axundov Ağamusa. Seçilmiş əsərləri. 2 cilddə. II cild, Bakı, "Elm və təhsil", 2012, 464 s).
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. III cild, Bakı, Şərq – Qərb, 2006, 672 s.).
6. Cəfərov Nizami. XVIII əsr Azərbaycan ədəbi dili. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1991, 51 s.
7. Əlizadə Afina. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin elmi üslubu. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1998, 54 s.
8. Əliyev Kamil. Azərbaycan ədəbi dilinin üslubiyyatının əsasları. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1989, 51 s.
9. Hacıyev Tofiq,Vəliyev Kamil. Azərbaycan dili tarixi. Bakı. "Maarif", 1983, 187 s.
10. Xudiyev Nizami. Azərbaycan ədəbi dil tarixi. Ali məktəblərüçün dərslik. bakı, " Elm və təhsil", 2018, 632 s.
11. Miriyev Akif . Azərbaycan mətbuat dilində qrammatik normalar(70-ci illər). Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 1980, 33s.
12. Vəliyev Sevindik. Oğuz qrupu türk dillərində sadə cümlə. Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2013, 51 s.

СИНТАКСИЧЕСКАЯ НОРМА КАК ОСНОВНОЙ ФАКТ РАЗВИТИЯ СИНТАКСИЧЕСКОЙ ЭВОЛЮЦИИ

Резюме

В данной статье анализируются формы и принципы связи взаимодействия синтаксических норм азербайджанского литературного языка с закономерностями синтаксической эволюции. Факторами, определяющими возникновение и развитие синтаксических норм в языке, некоторые события, происходившие в обществе в разные периоды истории, в родственных и неродственных языках, можно считать влияние переводной литературы на язык.

Язык – это средство общения, которое постоянно диалектически развивается, совершенствуется и обогащается. Эта разработка формируется под влиянием различных внутри лингвистических и экстралингвистических факторов друг от друга. Норма принята всеми поставщиками языка, развитие

языка регулируется как принудительное правило, характеризующееся как метод. Норма литературного языка не возникает спонтанно; существует множество факторов, определяющих его возникновение. В статье объясняется синтаксическая норма как временной показатель процесса синтаксической эволюции. Формирование литературного языка азербайджанского языка с древнейших времен до наших дней, в процессе его формирования и развития, синтаксические нормы литературного языка не оставались стабильными и содержали правила и методы, связанные с этими изменениями. Иными словами, в норме отразились диалектические развития, изменения формы и содержания, происходящие в литературном языке, позже произошло противоположное направление дальнейшего развития языковых норм и стало выступать средством регулирования их наклонностей. Было отмечено, что между процессом синтаксической эволюции и нормировкой данной статьи существует внутренняя связь.

В статье отмечается, что в эволюции, которая является диалектическим явлением, очевидны следы влияния нормы. Содержание синтаксического развития в данный период времени, особенности, синтаксические нормы, характеризующие этот период, можно объ-яснить, рассмотрев. С этой точки зрения роль синтаксической нормы в развитии синтаксической эволюции неоспорима, а ее изучение имеет большое научное значение.

Ключевые слова: синтаксическая норма, синтаксическая структура, языковая система, синтаксическая эволюция, взаимодействия, тюркские языки.

SYNTACTIC NORM AS A MAIN FACT IN THE DEVELOPMENT OF SYNTACTIC EVOLUTION

Summary

This article analyzes the forms and principles of relations between the interaction of syntactic norms of Azerbaijani literary language and the patterns of syntactic evolution. Factors, determining the emergence and developing of syntactic norms in a language, some events, that took place in society on different periods of history, in relative and non-relative languages, can be considered the influence of translated literature on the language.

Language is a device of communication, that is always in dialectical developing, improving and enriching. This developing is formed under the influence of various intralinguistic and extra-linguistic factors from each other. The norm had accepted by all language suppliers, the developing of the language and it is regulating as a forced rule, characterizing as the method. The norm of a literary language does not arise spontaneously; there are many factors that determine its emergence. The article explains the syntactic norm as a temporal indicator of

syntactic evolution process. The formation of the literary language of Azerbaijani from ancient times, to nowadays, in the process of its formation and developing, the syntactic norms of the literary language didn't remain stable, and contained rules and methods related to these changes. In other words, dialectical developing, changing of form and content, that occur in a literary language had reflected in the norm, and later, had happened contrary, directions for further developing of language norms and had began acting as a means of regulating their inclinations. It was noted, that there is an inner connection between the process of syntactic evolution and the norming this article.

It is noted in the article, that in evolvoment, which is a dialectical phenomenon, traces of the influence of the norm are obvious. The content of syntactic evolvoment in a given period of time,features, syntactic norms characterizing that period,can be explained by considering. From this point of view, the role of the syntactic norm in the development of syntactic evolution is undeniable, and its study is of great scientific importance.

Key words: syntactic norm, syntactic structure, language system, syntactic evolvetion, interactions, Turkic languages.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Filologiya elmləri doktoru,
professor Məsud Mahmudov
tərəfindən çapa tövsiyə olunmuşdur

F.S.SƏFƏROVA
e-mail: farida.safarova.1998@gmail.com
Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

OXU VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASI (İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA)

Açar sözlər: oxu təlimi, vərdişlər, strategiyalı oxu, səssiz oxu, oxu bacarıqları, oxu səlisliyi

Ключевые слова: чтение, привычки, стратегическое чтение, чтение молча, навыки чтения, беглость чтения

Key words: reading, habits, strategic reading, silent reading, reading skills, reading fluency

Təhsilin mövcud olan əsas funksiyalarından biri oxu təlimidir. Oxu təlimi şagirdlərin nitqinin inkişafına böyük təsir göstərir, onların özlərini şifahi və yazılı şəkildə ifadə etmək qabiliyyətlərini formalaşdırır və söz ehtiyatlarının artmasında mühüm rol oynayır. Şagirdlər oxu təlimi zamanı mətni düzgün anlama və oxu vərdişlərinə yiyələnir, sürətli oxuya bilir, verilən materialın məzmununu düzgün nəql edə bilir. Onlar eyni zamanda mətnə öz fikir və münasibətlərini bildirərək mətndə bəhs olunan hadisə və məsələləri gerçək aləmlə əlaqələndirməyi bacarır.

Oxu təlimi zamanı şagirdlərin təlim nəticələrinin yüksək olması üçün müəyyən metod, üsul və strategiyalardan istifadə etmək lazımdır. Oxu təliminin düzgün təşkil olunması da vacib məsələlərdən biridir. Oxu təliminin düzgün təşkil olunma prosesi dedikdə strategiyalı oxu nəzərdə tutulur. Alimlərin fikrincə, şagirdlərin mətnin məzmununu anlayıb başa düşərək və düşünərək oxumağına strategiyalı oxu deyilir. Bəzi alimlər isə strategiyalı oxunun şagirdlərin düşünmə bacarıqlarını inkişaf etdirdiyi üçün təlimin ən əsas məqsədi olduğunu söyləyir. Strategiyalı oxu sayəsində şagirdlər mətni düzgün anlayır və onu məharətlə təhlil edə bilmə bacarığına yiyələnirlər. Strategiyalı oxunun köməyi ilə şagirdlər daha tez düşünə bilir, mətnin məzmunu ilə bağlı suallar verə bilir, başqaları ilə fikirlərini bölüşür, oxuduğu mətnin məzmununu ümumiləşdirərək ondan nəticə çıxarmağı bacarır. Şagirdlər bütün bu sadalananların sayəsində gerçək həyatda qarşılarına çıxan problemləri həll etməyi bacarırlar. Strategiyalı oxuda şagirdlərin oxu fəaliyyəti onların təşkili və idarə etməsi əsasında həyata keçirilir. Belə ki, şagirdlər onlara verilmiş mətnin məzmununu anlayaraq problemin həllinə yönəlirlər və bununla da hədəflərinə çatmaq üçün öz fəaliyyətlərini təşkil edərək onu idarə etməyi bacarırlar.

Oxu strategiyasını qurmağı bacaran şagird mətnin oxusundan gözlənilən nəticəni artıq oxuya başlamazdan əvvəl aydın təsəvvür edə bilir. O, dəqiq bilir:

- Hansı suallar cavablandırılmalıdır?

- Oxu hansı plana əsasən təşkil edilməlidir?
- O, bu haqda artıq nələri bilir?
- Səmərəli oxu üçün nələr etmək lazımdır? [5, s. 3]

Strategiyalı oxunun köməyi ilə şagirdlər vacib idraki bacarıqlara yiyələnirlər. İdraki bacarıqlar dedikdə isə buraya təfəkkür, təxəyyül və qavrayış kimi idrak prosesləri ilə əlaqədar mühüm bacarıqlar daxil edilir. Belə ki, strategiyalı oxu nəticəsində şagirdlər mətnin məzmununu tam və düzgün şəkildə qavrayır, mətnin əsas ideyasını müəyyənləşdirə bilir, oxuduğu mətni əvvəl oxuduğu digər mətnlər ilə müqayisə edə bilir və təxəyyülündən istifadə edərək mətndə baş verən prosesləri və hadisələri beynində canlandıra bilirlər. Nəticədə onlar strategiyalı oxu nəticəsində sonda əldə etdiyi nəticələri təhlil edərək bu nəticələr barədə dərindən düşünürlər.

Aparılan tədqiqatların nəticəsinə əsasən oxu bacarıqlarına yiyələnmək mürəkkəb bir proses hesab olunur. Bu mürəkkəb prosesin uğurlu həyata keçirilməsi üçün aşağıdakı xüsusiyyətlər böyük əhəmiyyətə malikdir:

1. Sözlərdə olan səsləri bir- birindən ayırd edib fərqləndirmək;
2. Yalnız hərfləri deyil, həm də səsi anlama qabiliyyətinə yiyələnmək, hərf birləşmələrini anlamaq və onlara uyğun səslərin tələffüzünü dəyişə bilmək;
3. Sözdəki səsləri ayrı- ayrı deyil, bütöv şəkildə tələffüz etmək;
4. Sözü tanış olan hər hansı hərəkət, əşya və əlamətin ifadəsi kimi başa düşmək [5, s. 5].

Bu xüsusiyyətlərdən də aydın olur ki, oxu bacarıqlarına yiyələnmə görmə, eşitmə, tələffüz, təhlil və sözlərin mənasına yönələn mürəkkəb bir prosesdir.

Şagirdlərin oxu texnikası onların görmə sahəsindən asılı olaraq dəyişir və inkişaf edir. Yeni oxumağa başlayan şagirdin oxu texnikası və oxu bacarıqları təcrübəli oxucunun bacarıqlarından tamamilə fərqlidir. Çünki təcrübəli oxucu hər hansı bir mətni oxuyan zaman daha sürətli və dəqiq oxuyurlar, onlar oxuyan zaman tez- tez yox, yalnız bir neçə dəfə fasilə edirlər. Bunun əsas səbəbi isə onların görmə və oxuma sahəsinin daha dəqiq və geniş olmasıdır. Ancaq oxucular bəzən elə sürətli oxuyurlar ki, onlar oxuduğu mətnin məzmununu tam anlaya bilmirlər. Onlar hətta hərf birləşmələrini və hecaları da tələffüz edə bilmirlər. Belə ki, şagird “ ailə” sözünü oxuya bilir, amma bu sözü oxusa belə tələffüz edə bilmir.

Şagirdlərin oxu bacarığının inkişaf etdirilməsində eşidərək anlamanın da böyük əhəmiyyəti vardır. Belə ki, onlar sözlərin mənasını başa düşməzdən əvvəl səsləri bir- birindən fərqləndirməyi də bacarmalıdır. Şagirdlərin oxu bacarıqlarının inkişaf etdirilməsi üçün səsin təhlil edilməsi və fonetik eşitməyə yiyələnmə də çox vacibdir. Bu vərdişləri olmayan şagirdlərdə mətni oxuyan zaman müəyyən nöqsanlar ortaya çıxır. Oxu təliminin səmərəli olması üçün şagirdlər hərfləri tanımazdan əvvəl mətni cümlələrə ayırmalı, cümlələri sözlərə ayırmalı, cümlədə sözlərin sayını, sözlərdəki hecaların sayını, hecalardakı sait və samitlərin sayını müəyyənləşdirməyi bacarmalıdır.

N.D. Qalskovanın fikrincə, şagirdlərin oxu bacarıqlarına sahib olması üçün aşağıdakı 3 əsas sərişdə mühüm rol oynayır: [2, s. 192]

1. Mətndə verilmiş vacib informasiyanı müəyyən etmək və ona uyğun nəticə çıxarmağı bacarmaq;
2. Mətndəki əsas və konkret informasiyanı çıxarmaq;
3. Mətnin məzmunu və mahiyyətini dərk edə bilmək.

Oxu bacarıqlarının özünəməxsus əsas xüsusiyyətləri vardır. Buna oxu bacarığının düzgünlüyü və rəvanlığı daxil edilir. Şagirdlər istənilən oxu materiallarını və mətnləri oxuyarkən oxu prosesinin düzgün və axıcı olmasına diqqət yetirməlidirlər. Oxu prosesinin düzgün olması müəllimin oxu təlimi prosesini düzgün şəkildə təşkil etməsi nəzərdə tutulur. Oxu prosesinin düzgün təşkil edilməsi üçün aşağıdakı iki mühüm istiqamətə diqqət yetirmək lazımdır:

1. Şagirdlər görmə- anlama və tələffüz bacarıqlarını təkmilləşdirmək üçün xüsusi çalışmalardan istifadə edirlər;
2. Şagirdlər onlara təqdim edilmiş oxu materiallarını yenidən təkrar oxuyurlar.

Bəzi şagirdlər oxunun düzgünlüyü dedikdə mətnlərin və oxu materiallarının heç bir səhvə yol verilmədən və düzgün şəkildə oxunmasını başa düşürlər. Ancaq bu düzgün deyil. Məsələn, aşağı sinif şagirdlərinin oxu bacarıqlarının düzgünlüyü dedikdə onların cümlələri, sözləri, müxtəlif söz birləşmələrini düzgün oxuya bilmək, sözlərin səs və hərf tərkibini düzgün tələffüz edə bilmək bacarıqları nəzərdə tutulur. Beləliklə, əgər şagirdlər cümlələrin, sözlərin, söz birləşmələrinin səs-hərf tərkiblərini düzgün tələffüz edərsə, bəzi fonetik qüsurları aradan qaldırarsa onlar düzgün oxu bacarıqlarına yiyələnmiş hesab olunurlar. Şagirdləri oxu mətnləri ilə işləməyə sövq etməyin ən vacib yollarından biri onlara oxuduqları mətnləri nə dərəcədə bəyəndikləri və niyə bəyəndikləri haqqında sual verməkdir. Müəllimin şagirdlərdən bunları soruşmağı eyni zamanda onlara şagirdlərin mətnləri nə dərəcədə başa düşdüklərini bilməyə kömək edəcək. Müəllim həmçinin şagirdlərdən oxuduqları mətn və ya hekayədəki ən çox bəyəndikləri və ya bəyənmədikləri obrazları soruşa bilər.

Peter Vatkinz şagirdlərin mətnlər haqqında olan fikirlərini öyrənmək üçün onlara oxuduqları mətnləri müxtəlif simvollarla işarələməsini təklif edir [4, s. 315]. Onun fikrincə, əgər şagirdlər razılaşırlarsa ✓, razılaşmırlarsa mətndə başa düşmədikləri hissə olsa ?, onları təəccübləndirən bir hissə olarsa !, və ya onlar üçün gülməli olan bir hissə olarsa isə lol kimi simvollarla bunu ifadə edə bilərlər. Yuxarıda verilən bu simvollar şagirdlərin oxu mətnlərini nə dərəcədə başa düşdüklərini anlamağa kömək edir və onları oxuduqları mətnlə bağlı öz cavablarını və fikirlərini ifadə etməyə sövq edir. Eyni zamanda şagirdlər mətni oxumazdan əvvəl mətnin adına və ya başlığına baxaraq cədvəli tamamlaya bilər və oxu prosesini idarə edə bilərlər.

Metodik araşdırmaların nəticəsi göstərir ki, istər psixoloqlar, istərsə də metodistlər oxunun əhəmiyyətini nəzərə alaraq əsərlərində oxuya kifayət qədər yer

ayırmışlar. S.F.Şatilovun fikrincə yazılı nitq şifahi nitqdən öz davamlılığına görə fərqlənir. Buna görə də yazılı nitq uzun müddət saxlanıla və məlumat mənbəyi kimi saxlanıla da bilir. Beləliklə oxucu istənilən zaman yazılı nitq nümunələrinə və oxu materiallarına müraciət edə bilir və onun məzmun və forması ilə tanış olmaq imkanı qazanır [3, s. 213].

Bütün oxu situasiyaları iki yerə bölünür: 1) Mətni hər hansı bir xüsusi məlumatı əldə etmək məqsədi ilə oxumaq; 2) məlumatı əldə etmək, həmin məlumatı olduğu kimi başqalarına ötürmək [1, s. 37]. Birinci halda səssiz oxu, ikinci halda isə səsli oxu tətbiq olunur. Səsli oxu şagirdlərdə oxu vərdişlərini formalaşdırarkən bu vərdişlərdən əlavə, tələffüz vərdişlərinin də inkişaf etdirilməsinə kömək edir. Mətnlər səsli oxunmalıdır. Belə ki, səsli oxu öyrənənlərdə səlis oxu bacarıqlarının inkişaf etdirilməsinə yönələn mühüm və səmərəli üsullardan biri hesab olunur.

Öyrənənlərdə oxu vərdişlərinin formalaşma prosesi onların leksik bacarıqlarını zənginləşdirir, dil vərdişlərini formalaşdırır, kommunikativ bacarıqlarının inkişafını təmin edir və dil öyrənənlərə dili öyrənilən ölkənin mədəniyyəti, siyasi aləmi, dünyagörüşü və. s haqqında ətraflı məlumat verir.

Ədəbiyyat

1. Kərimov F., Səfiyev. Methods of teaching English in Azerbaijan. Baku: ADU Nəşriyyatı MMC, 2008, s. 37

2. Галскова Н. Д. Современная методика обучения иностранным языкам. М., АРКТИ, 2004, 192 с.

3. Шатилов, С.Ф. Методика обучения немецкому языку. Ленинград : Просвещение, 1982, 213 с.

4. Jeremy Harmer. The Practice of English Language Teaching. Cambridge University Press, fifth edition, p. 314- 315

5. Oxu-talimi- muallimlar-ucun-vasait-pdf.1

F.S.Səfərova

Oxu vərdişlərinin formalaşdırılması (ingilis dili materialları əsasında)

Xülasə

Məqalədə oxumağı öyrənmə prosesinin rolu və oxu vərdişlərinin formalaşdırılması yolları araşdırılır. Məqalədə həm də oxu prosesinin öyrədilməsinin vacibliyindən və müxtəlif oxu növlərindən bəhs edilir. Təhsilin əsas funksiyalarından biri oxumağı öyrətməkdir. Oxumağı öyrənmək şagirdlərin nitqinin inkişafına böyük təsir göstərir, onların fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək bacarıqlarını formalaşdırır, söz ehtiyatının artırılmasında mühüm rol oynayır. Oxumağın öyrənilməsi prosesində şagirdlər mətni düzgün başa düşmək və oxumaq vərdişinə yiyələnir, təqdim olunan materialın məzmununu tez oxuya və düzgün çatdıra bilirlər. Eyni zamanda mətndə qeyd olunan hadisə və məsələləri real aləmə bağlaya, mətnə öz düşüncə və münasibətlərini ifadə edə bilirlər. Xarici dilin öyrədilməsində oxu

təlimi mühüm rol oynayır. Xarici dil daşıyıcıları ünsiyyət qurmaq üçün oxu bacarıqlarının inkişaf etdirilməsini də özündə ehtiva edir. Belə ki, şagirdlərin əksəriyyəti xarici dildə danışmaq ilə yanaşı həm də xarici dildə oxumaq bacarıqlarına da yiyələnməlidir. Oxu bacarıqlarının uğurlu formalaşması üçün isə düzgün oxu prosesi həyata keçməlidir. Şagirdlər oxu təlimi zamanı onlara təqdim edilən oxu materiallarından müxtəlif növ informasiyalar əldə edirlər. Və bu prosesin nəticəsində əldə olunan informasiyalar isə şagirdlərin həm təlim prosesində, həm də onların gündəlik sosial həyatlarında onlar üçün yararlı olacaq. Oxu bacarıqları şagirdlərin hər cəhətdən formalaşmasına zəmin yaradır.

Ф.С.Сафарова

Формирование привычки чтения (на основе англоязычных материалов)

Резюме

В статье рассматривается роль процесса обучения чтению и способы формирования привычки чтения. В статье также говорится о важности обучения процессу чтения и различным видам чтения. Одной из основных функций образования является обучение чтению. Обучение чтению оказывает большое влияние на развитие речи учащихся, формирует их способность выражать свои мысли устно и письменно, играет важную роль в увеличении словарного запаса. В процессе обучения чтению учащиеся приобретают привычку правильно понимать и читать текст, умеют быстро читать и правильно передавать содержание подаваемого материала. В то же время они могут связать события и проблемы, упомянутые в тексте, с реальным миром, выражая свои мысли и отношение к тексту. Обучение чтению играет важную роль в обучении иностранному языку. Сюда также входит развитие навыков чтения для общения с носителями иностранного языка. Таким образом, большинство студентов должны приобрести навыки чтения на иностранном языке, а также говорения на иностранном языке. Для успешного формирования навыков чтения необходимо осуществлять правильный процесс чтения. Студенты усваивают различные типы информации из материалов для чтения, представленных им во время обучения чтению. И информация, полученная в результате этого процесса, будет полезна студентам как в процессе обучения, так и в повседневной общественной жизни. Навыки чтения закладывают основу для развития учащихся во всех аспектах.

F.S.Safarova

Creating reading habits (based on English language materials)

Summary

The article deals with the role of teaching reading process and ways of creating reading habits. In the article it is also said about the importance of teaching reading process and different types of reading . One of the main functions of education is teaching reading. Reading education has a great impact on the development of students' speech, shapes their ability to express themselves orally and in writing, and plays an important role in increasing their vocabulary. During the teaching reading process, students gain the habit of understanding and reading the text correctly, they can read quickly and convey the content of the given material correctly. At the same time, they can relate the events and issues mentioned in the text to the real world by expressing their thoughts and attitudes about the text. Teaching reading process plays an important role in teaching a foreign language. It also includes developing reading skills to communicate with foreign language speakers. So, most of the students should acquire the skills of reading in a foreign language as well as speaking in a foreign language. For the successful formation of reading skills, the correct reading process must be carried out. Students acquire different types of information from reading materials presented to them during reading training. And the information obtained as a result of this process will be useful for students both in the learning process and in their daily social life. Reading skills lay the groundwork for the development of students in all aspects.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.f.d. C.R.Abdullayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

Ст. преп. АГАЕВА НАИЛЯ АУЯ
nailya.agayeva21@mail.ru

УПОТРЕБЛЕНИЕ РУССКОГО ЯЗЫКА В РАЗЛИЧНЫХ СФЕРАХ И ВИДАХ ОБЩЕНИЯ

РЕЗЮМЕ

В статье «Употребление русского языка в различных сферах и видах общения» говорится об отдельных употреблениях русского языка: об употреблениях русского языка как инструмента науки, развевающегося со времён М.Ломоносова. Рассматривается русский язык как массово-коммуникативный, как художественно-изобразительный. А также употребление русского как универсального языка многих сфер и видов общения в целом. В статье упоминается об объединении текстов государственного и научного употребления средствами объективного и глубокого познания. Представляются косвенным доказательством средства языка как инструмента научного и государственного общения.

В работе говорится о создании учёными-языковедами общенаучных словарей и ориентированных для неофилологов учебников русского языка. Сообщается об обобщении методистами РКИ сведений из фонетики и грамматики.

В данной статье указывается на появление употребления русского как массово-коммуникативного языка, связанного с книгу-печатаем, которое было заменено изданием книг рукописным способом.

Упоминается, что художественно-изобразительное употребление изучалось дольше и глубже в силу высокой роли литературы.

В заключении говорится о том, что язык по воле случая приспособлен к любому требуемому употреблению.

Ключевые слова: *функциональная стилистика, терминосистема, котструктивно-стилевые запросы, художественно-изобразительный язык, факторы коммуникации, языковое чутье*

Как известно, язык, как явление социальное, выполняет различные функции, связанные с той или иной сферой человеческой деятельности. Важнейшие общественные функции языка – это общение, сообщение и воздействия. Для реализации этих функций исторически сложились и оформились отдельные разновидности языка, характеризующиеся наличием в каждой из них особых лексико-фразеологических и синтаксических средств, используемых исключительно в данной разновидности языка. Стиль языка – его разновидность, которая обслуживает какую-либо сторону общественной жизни.

Установим перечень употреблений русского языка и характеризующие особенности его как приспособленного к каждому из них особого инструмента.

Обратимся к употреблению русского языка как научного.

Сведённый к лексике, русский язык очень убеждает и потому, что в силу компьютеризации и других причин научное употребление ориентировано на иностранные заимствования. Анализ позволяет зачислить научные тексты по всем отраслям знания в ту же группу, что и законодательные, юридические, административно-деловые, судебно-процессуальные.

Употребление русского языка как инструмента науки бурно развивается со времён М.Ломоносова. К собственно научным приближаются детально изученные функциональной стилистикой производственно-хозяйственные, деловые и философско-религиозные тексты.

Так же как и тексты государственного употребления, тексты научного употребления объединены средствами объективного и глубокого познания, однако объекты наблюдения этих групп текстов различаются содержанием. Подчеркнём: именно содержанием, а не характером действий. И в том, и в другом употреблении существуют терминосистемы, но эти терминосистемы и включенные в них конкретные термины различаются. Если в первом случае объекты наблюдения и установления разномерны по деятельности, то во втором – одномерны по всем критериям, кроме цели и содержания. Это утверждение, преувеличивая роль лексики, упрощает действительное положение дел.

Однако приобщение иностранных студентов к восприятию специальности на русском языке через упорядочивание терминов приводит к хорошим результатам. Методисты РКИ и раньше обобщали, приводили в систему получаемые «в натуре» сведения из фонетики и грамматики. Более того, создавались интереснейшие описания вроде перечней «общенаучной лексики» и фонетико-граматических «справочников русского языка науки». Стимулом оказались практические потребности преподавания языка иностранным студентам в рамках продвижения русскоязычного образования.

Член Академии педагогических наук СССР Ольга Даниловна Митрофанова в своей докторской диссертации и монографии к ней разработала теоретические принципы детального и всестороннего изучения массовых и социально важных употреблений русского языка и представила стройное и педагогически ориентированное описание его употребления в научной сфере (6, с. 212). Ей принадлежит и идея сопрягать конструктивно-стилевое векторное описание употреблений языка с его собственным откликом на конструктивно-стилевые запросы людей.

Ольга Даниловна, её коллеги и ученики убедительно показали, что, несмотря на многоразличие наук, они имеют общий стилевой вектор и единые языковые терминологические и грамматические приметы. По её замыслу,

подкрепленному интенсивными исследованиями научно-технических лекций и литературы, были созданы общенаучные словари и специально ориентированные для нефилологов учебники русского языка.

В рамках практики преподавания РКИ и продвижения русскоязычного образования, эта группа учёных впервые обратилась к устной научной речи, анализу звучащих текстов лекционных курсов, семинаров, выступлений и диспутов на научных конференциях.

Не сводимые только к лексике стилистические сущности, отмечаемые языком, представляются косвенным доказательством сходства языка как инструмента научного общения и языка как инструмента государственного общения. В то же время различия объектов интереса и действия этих двух употреблений вынуждают язык по-разному фиксировать, в сущности, один и тот же конструктивно-стилевой вектор. При всём сходстве и при кажущейся достаточности терминологических подъязыков в сфере наук, язык вынужден вырабатывать для этой сферы разные, не сводимые к лексике субъязыки, захватывающие морфологию, фонетику, типы построения текста, сочетания слов, частотность форм, синтагматику как при письменно-печатной реализации высокой ролью внеязыковых сопроводителей вербальной информации: цифр, формул, графиков, таблиц, карт, рисунков, фотографий, так и при устной реализации – с иллюстрациями на доске или на экране.

Несмотря на членение по многочисленным отраслям науки, отражённое в терминосистемах, все науки имеют некоторый набор общих языковых примет, частично копирующих государственные тексты. Для обоих употреблений соблазнительна наглядность в широком смысле слова и склонность к применению новейшей техники коммуникации, не нарушающей строгость меры и этики актов общения.

Для научных употреблений существенно ощущение своего языка, языка посвящённых, ярчайшей приметой которого спужат терминосистемы, обособленные от общего языка, отделённые даже от школьной его базы.

В круг рассмотрения употреблений языка в науках вовлекается и лингвистика, парадоксально исследовавшая язык по вторичным письменным текстам и начинающая изучать его по первичным звуковым. Здесь очень важное значение имеют технические устройства, позволяющие фиксировать звуки и изображение. Определяющую роль играет Интернет, хотя его роль двойственна: ведь наряду со всеми возможностями, который он открывает науке, усиливается и опасность вторжения посторонних, корыстно пропагандирующих псевдо- и антинаучные взгляды на радость любопытствующим неучам.

Вместе с тем перед наукой стоят задачи просвещения и образования. Выполнение этих задач требует от языка науки избавиться от ореола таинственности, стать не только языком посвящённых, но и языком,

пригодным для внедрения знаний. Прежде всего, это обучение квалифицированных людей: инженеров, врачей, преподавателей и представителей других профессий, практически использующих плоды научного поиска, освоив их в учебных заведениях. Сюда же надо присовокупить всю научно-популяризаторскую лекторскую, кино- и теледеятельность, литературу вплоть до научной фантастики.

Сфера науки интересна и обязательна для всех, но не в своей повседневности, а в своих результатах.

Как же употребляется русский язык как массово-коммуникативный? Появление этого употребления языка связано с книгопечатанием, которое по мере своего совершенствования делало тиражирование текстов всё более простым и доступным, массовым. Книгапечатание заменило дорогое и количественно органиченное производство книг рукописным способом. Существующая издревле человеческая жажда потребления информации, страсть к новостям есть, всегда была и будет. Со временем преодолевалась дистанционность источника и менялась мера доверия к нему. Газетно-журнальная периодика, а за ней ещё более оперативные и веждесущие радио, телевидение, Интернет являются новостными источниками.

Современные технологии позволяют не только обращаться к аудитории напрямую, но и получать обратную связь, т.е. узнавать мнение зрителей, слушателей, читателей о сообщаемых событиях и фактах. Если ешё недавно дикторы лишь зачитывали одобренные тексты, то, теперь став ведущими, они активно, по-хозяйски комментируют то, о чём говорят.

В то же время не следует забывать про такую важную особенность этих текстов, как дистантность восприятия, очень своеобразно, иногда с точностью до наоборот роднящую их с текстами художественно-изобразительными. Идейно-содержательная нечёткость в условиях временной и пространственной отчужденности разжигает желание обсудить истинный смысл этик текстов в семье, с друзьями, на работе.

Современные технологии позволяют представлять информацию оперативно и охватывать при этом широкую аудиторию.

Обеспечение устойчивости канала связи чередованием разных потенциалов «хороших» и «плохих» новостей, чистой, непредвзятой информации и её толкований, информации и сенсации, информем и экспрессем в языке же всех СМИ стало определять суть и колебания, успехи и опасности массово-коммуникативного употребления языка.

Русский употребляется также и как художественно-изобразительный язык. Это употребление русского языка занимает особое место в истории и жизни людей в силу лингво- и литературоцентризма русского самосознания и общественного устройства. Показательно уже наивное, но неискоренимое называние образованного языка во всех употреблениях литературным, будто

бы они все ориентированы на специфическую правильность искусства сочинительства, «облагороженность» народного языка поэтами и писателями.

Нетленны художественные ценности человечества или отечественной классики, романы Л.Н.Толстого и стихотворения А.С.Пушкина! Как не уважать то, что в великих культурах эпические сочинения IX-XIII столетий: «Песнь о Нибелунгах», славное «Слово о полку Игореве» явились знаком преодоления феодальной раздробленности и устремления к объединению людей, прежде всего родственных этносов, тем более что художественные литературы стали предвестниками формирования наций, национальных языков и современных государств. Многое роднит употребления русского языка как художественно-изобразительного и как массово-коммуникативного. Оба употребления связаны с тиражированием, и оба дистантно воспринимаются. Подобно тому, как в СМИ создаются нужные им черты употребления русского языка, так же создаются и его особенности для искусства словесного творчества. Именно особенности построения текстов, скрепления частей создают иллюзию, будто перед нами совсем другой язык, отличный от обыденного. Важная причина отличия художественно-изобразительного употребления от массово-коммуникативного состоит в том, что в первом случае автор – творец, а во втором – текст является результатом труда некоего коллектива. Недаром литературоведы говорят о творческой индивидуальности, и никто не может с полной определённостью отнести публицистику к одному из двух употреблений — массово-коммуникативному или художественно-изобразительному.

Художественно-изобразительное употребление изучалось дольше и глубже, прежде всего в силу высокой роли литературы.

Поэтическое слово, в принципе, есть рефлектирующее слово. Эта поэтическая рефлексия оживляет в языке мёртвое, мотивирует немотивированное... Но в плане рассмотрения языка как искусства это будут не просто «стилистические фигуры», а воплощения второй, образной действительности, которую искусство открывает в действительности реальной, здесь снова грамматическая форма означает сразу и то, что она означает обычно, и то, что за этим обычным значением раскрывается как художественное содержание данной формы. То, что такая актуализация потенциального, наполнение его живым смыслом в языке, происходит в словесном искусстве не в каждом отдельном слове, не в каждом отдельном грамматическом факте, не имеет существенного значения» (3, с. 247, 249) В.В.Виноградов очень сочувственно и неоднократно цитирует это блестящее объяснение, правда, добавляя, что художественное слово образно вовсе не в том только отношении, будто оно непременно метафорично, что отдельные слова или словосочетания, вообще – не только те элементы языка, которые передают вещественное содержание, но также и грамматические средства

языка в художественной речи, - служат предметом художественной рефлексии.

Индивидуализацию текста некоторые исследователи прямолинейно связывают с образом автора: «В центре любого высказывания, любого текста находится авторское сознание субъекта, которое определяет и смысл, и словесную форму речевого акта в их социальной направленности» (2, с.6).

Русский язык можно считать универсальным языком многих сфер и видов общения в целом. Нет сомнения в том, что язык, в принципе, млжет быть спонтанно по воле случая припособлен к любому требуемому употреблению, личностному и случайному или распространённому. Он приспосабливается цепью специализированных, массовых, исторически устойчивых, социально принятых употреблений, т.е. стилистическими силами самого языка. Однако стилистика как наука об употреблении языка просто бесконечна по сравнению с лингвистикой, вполне укладывающейся в грамматические и словарные исследования и описания. Отдельному пользователю и не требуется владеть всеми существующими и тем более возможными употреблениями языка. Именно в обобщённых векторами отборе и композициях средств языка выявляются подъязыки, субъязыки или, если угодно, в другой терминологии — стили языка, стили речи, речевые жанры, функциональные стили. В большинстве случаев эти употребления естественно начинаются в звуковой форме в некнижной разновидности языка, соприкасаясь с книжной по мере житейских нужд. Главные из них, несомненно, семейное и детское употребления языка, посвящённые его освоению, а нередко и начальному освоению чтения. Служа базой, первейшей сферой передачи родного языка от поколения к поколению как признака этнонационального сплочения.

В школе с овладением письмом и книжностью и по мере социализации эта стихия упорядочивается, молодёжь формирует собственные взгляды на жизнь и притязания. Здесь естественнее всего складывается и перечень объединяющих носителей одного родного языка культурно-поведенческих правил вроде русских «посидеть на дорожку», «не дарить чётное число цветов», «почесать затылок», «стукнуть себя по лбу». Каждое новое поколение не только хранит полученное, но и вносит в него свой взгляд, свои притязания и вкус. Молодёжь смеётся над обычаем уходя посидеть, но... присаживается. Может меняться соотношение двух разновидностей явления языка – книжной и некнижной, а также форм осуществления и опредмечивания текста – звуковой, печатной, стихотворной, песенной, дисплейной.

Для лингвистического воспитания, выработки языкового чутья важны конструктивные научно обоснованные советы-предписания, что можно и как нужно в той или иной ситуации. Верное замечание сделал Ш. Балли: «Нередко в разговоре нас удивляет то или иное выражение, которое не соответствует общему тону беседы; это выражение не обозначает чего-нибудь такого, что нам

было бы неизвестно; мы его прекрасно понимаем, и, может быть, всего минуту назад мы встретили его на страницах газеты, где оно нас нисколько не удивило. Что же, собственно, произошло? Мы смутно чувствуем, что не употребили бы его сами или, точнее сказать, не употребили бы в данных обстоятельствах...» (1, с. 241-242).

Контекст и речевая ситуация – факторы, позволяющие не замечать небрежности, «вненормативных» явлений. Разумеется, повторение типовых вариаций значительным числом носителей литературного языка может вести к структурным изменениям, к смене норм, причем количественно незначительные или, напротив, очень существенные тенденции могут поддерживаться или нейтрализоваться в зависимости от характера взаимодействия языковых, психических и социальных факторов. Видимо, на этой основе возможны реальные прогнозы относительно путей дальнейшего развития каждого отдельного явления и их совокупности.

В трудовой деятельности язык разделяется в соответствии с характером деятельности людей — научной, производственной, управленческой и проч. Очень важную его часть, которая обретается в трудовом коллективе на работе, можно назвать и повседневно производственным употрблением, когда общение выходит за рамки, обозначенные наукой, государственностью, массовой коммуникацией и художественно-литературной. Особенно специфичен язык военных, моряков. С уважением отнесёмся и к своеобразию языка священнослужителей. Повседневное производственное употребление языка в нашу высокотехнологическую эпоху всё чаще и сложнее переплетается с научным употреблением языка.

Употребления языка могут различаться незаметно для широкой публики и даже для традиционного исследователя-профессионала, ограничивающегося пока данными печатно-письменных текстов, каждый из которых может, конечно, восприниматься потребителями субъективно оценочным мнением о его стиле – как хорошим и плохим, удачным и уродливым. Чаще всего эта оценка качества или стиля зависит от содержания, цели, формы текста, а не от собственно языка.

Литература

1. Балли Ш. Французская стилистика. М., 1961.
2. Бойко Н.В. Категория «образа автора» в современной литературной критике. Лингвистческий аспект. Харьков, 1982.
3. Винокур Г.О. Об изучении языка литературных произведений // Избранные работы по русскому языку. М., 2001
4. Караулов Ю.Н. Русский язык и языковая личность. Москва, 1987.
5. Костамаров В.Г. Русский язык на газетной полосе. Некоторые особенности языка современной газетной публицистики. Москва, 1991.

6. Митрофанова О.Д. Лингводидактические уроки и прогнозы конца XX века // Материалы IX конгресса МАПРЯЛ. Братислава, 1999
7. Храпченко М.Б. Творческая индивидуальность писателя и развитие литературы. Москва, 1990.
8. Щерба Л.В. Избранные работы по русскому языку. Москва, 1957

Naila Aghayeva

Use of the Russian language in various areas and types of communication

SUMMARY

The article "The Use of the Russian Language in Various Spheres and Types of Communication" talks about individual uses of the Russian language: the uses of the Russian language as an instrument of science, which has been floating around since the time of M. Lomonosov. The Russian language is considered as a mass communicative language, as an artistic and visual language. And also the use of Russian as a universal language of many spheres and types of communication in general. The article mentions the unification of texts of state and scientific use by means of objective and deep knowledge. They are presented as indirect evidence of the means of language as an instrument of scientific and government communication.

The work talks about the creation by linguists of general scientific dictionaries and Russian language textbooks aimed at neophilologists. The generalization of information from phonetics and grammar by RFL methodologists is reported.

This article points to the emergence of the use of Russian as a mass communicative language associated with book printing, which was replaced by the publication of books by handwritten method.

It is mentioned that artistic and visual use was studied longer and more deeply due to the high role of literature.

The conclusion states that language is, by chance, adapted to any required use.

Keys words: *functional stylistics, terminology system, structural and style requests, artistic and visual language, communication factors, linguistic sense*

Nailə Ağayeva

Rus dilinin müxtəlif sahələrdə və ünsiyyət növlərində istifadəsi

Xülasə

"Rus dilinin müxtəlif sferalarda və ünsiyyət növlərində istifadəsi" məqaləsində rus dilinin müxtəlif növ sferalarda müxtəlif ünsiyyət növü kimi istifadə edilməsi, rus dilinin elm vasitəsi kimi istifadəsi və M. Lomonosovun dövründən olan inkişafından bəhs edilir. Bundan başqa, rus dilinin kütləvi komunikasiya dili kimi bir çox sferaların və ünsiyyətlərin unikal dil seçimi və ümumilikdə ünsiyyət növü olmasından da bəhs olunur.

Məqalə dilçilər tərəfindən neofiloloqlar üçün nəzərdə tutulmuş ümumi elmi lüğətlərin və rus dili dərsliklərinin yaradılmasından bəhs edir. Rus dilinin xarici dil kimi tədrisi üzrə olan metodistləri tərəfindən fonetika və qrammatikadan məlumatların ümumiləşdirilməsi barədə də məlumat verilir. Bu məqalə rus dilindən kitab çapı ilə bağlı kütləvi ünsiyyət dili kimi istifadənin yaranmasına işarə edir ki, bu da əlyazma ilə olan kitabların nəşri ilə əvəz olunmuşdur. Ədəbiyyatın rolu yüksək olduğundan bədii və vizual istifadənin daha uzun və daha dərindən tədqiq edildiyi də məqalədə qeyd edilir.

Nəticədə qeyd olunur ki, dil təsadüfən, istənilən dil tələbinə uyğunlaşdırılmışdır.

Açar sözlər: *funksional yazı üslubu, terminologiya, struktur və üslub tələbləri, bədii-təsviri dil, kommunikativ faktorlar, linqvistik məna*

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru, dosent Fidan Baxşıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

İLAHƏ VAHİD QIZI ZEYNALLI
Azərbaycan Dillər Universiteti
ilaha8@gmail.com

BAŞLIQ VƏ BAŞLIQALTILARDA TƏKRARLAR

XÜLASƏ

Başlıq və ya onun elementləri publisistik mətnlərin əvvəlində, ortasında və sonunda daha çox təkrarlanır. Bədii əsərlərdə, xüsusən irihəcmli bədii əsərlərdə başlığın əsərin başlanğıc, orta və sonunda təkrarı məsələsi fərqli aspektlərə malikdir. Bədii əsərdə başlığın mətnin sonunda təkrarlanması ekstralinqvistik hadisə olub, konkret əsərin konseptual məzmunundan, müəllifin mövqeyindən asılıdır. Başlığın mətndə təkrarı mətnlə qlobal əlaqə yaratmaq funksiyası aparıcıdır. Belə təkrar başlıqda verilmiş informasiyanın mətnin məzmunu ilə əlaqəsinin açılmasına kömək edir, müəllif mövqeyini aydınlaşdırmağa xidmət göstərir. Başlığın bədii mətnin daxili başlıqlarında, eləcə də daxili başlıq və onun elementlərinin digər daxili başlıqlarda, həmçinin əsas mətnin müxtəlif hissələrində təkrarlanması çoxaspektli linqvistik hadisə olub, özünəməxsus xüsusiyyətlərə malikdir. Publisistik və bədii mətnlərdə başlığın mətndə tam və qismən təkrarı mümkündür. Başlığın təkrar nominasiyası və işarə ilə təkrar nominasiyası oxucunun assosiativ düşüncəsini hərəkətə gətirir, başlıq mətninə daxil edilmiş məna ilə mətnin məzmunu arasında uyğunluğu gerçəkləşdirir. Müəllif təkrar nominasiyadan başlıqla mətn arasında sıx əlaqə yaratmaq məqsədilə istifadə edir.

Açar sözlər: başlıq, mətn, təkrar, mikrokontekst, makrokonteks, nominasiya, element

Təkrar hadisəsinə mətn dilçiliyində geniş yer verilir. Təkrara əsas mətnyaradıcı vasitə kimi baxılır. Başlığın mətndə təkrar nominasiyası, mətnlə bağlılıq və əlaqəni maksimal gücləndirir. Təkrar nominasiya əlaqəni yaxın cümlələr arasında deyil, bütün mətn səviyyəsində həyata keçirir. Başlığın təkrarlanması mətndə mətn hissəsinin təkrarıdır. Yəni bu, sadəcə leksik sintaktik təkrar çərçivəsindən daha qlobal müstəviyə keçir. Mikrokontekst makrokontekst daxilində təkrarlanır. Həm də mətnin güclü mövqeyində duran vahidin təkrarı konseptual məzmun planına təsir göstərir, mətnin qlobal başlığı təmin olunur, oxucunun marağı gücləndirilir. Belə təkrar müəllifin mətni düzgün və maraqlı qurmasına inandırır.

Mətndə dil vahidlərinin təkrarının eksplisit və implisit növlərini ayırmaq olar. Birinci halda hər hansı predmetin birinci və ikinci nominasiyası arasında referensial eynilikdən söhbət gedir. Bu, koreferensiya da adlanır. Bu qrupa dil vahidlərinin mütləq təkrarı, kontekstual sinonimlərdən istifadə daxil olur. İkinci halda ilkin və ikinci nominasiya arasında referensial eynilik qeydə alınmır.

Başlığın mətndə təkrarının növlərinin təyini və onların təsnif edilməsi zamanı daha çox birdən artıq sözdən ibarət başlıqlar, xüsusən cümlələr təhlilə cəlb olunur. Qəzet materiallarında məqalənin başlıq kompleksi çox zaman başlığın özündən, alt başlıqdan, giriş abzasından (lida) ibarət olur. Belə məqalə başlıqları mətndə heç də həmişə tam təkrarlanmır.

Qəzet materiallarında və ya publisistik mətnlərdə başlığın mətndə təkrarının aşağıdakı növləri vardır: 1) sözbəsöz təkrar; 2) sözbəsöz təkrara yaxın təkrar; 3) məna təkrarı; 4)işarə təbiətli dolayı təkrar.

Sözbəsöz təkrar həm tam, həm də qismən təkrar kimi reallaşır. Sözbəsöz təkrara yaxın növdə tam və qismən morfem təkrarından istifadə olunur. Bu zaman kök morfemin qəbul etdiyi qrammatik vasitələr dəyişir.

Məna təkrarı-perifrazada başlığın propozisiya məzmunu sinonimlərlə və ya təsviri yolla verilir. Qismən məna təkrarında başlıqdakı söz və ya sözbirləşmələrinin sinonimlərindən istifadə edilir.

İşarə təbiətli dolayı təkrar zamanı antonimlərdən, müqayisələrdən, obrazlı təsvirdən və s. istifadə olunur. Başlığın ayrıca hissəsinə işarə olunan təkrar metonimiya, istehza, antonimlər və s. bilavasitə reallaşır.

Təkrar mətnyaradıcı vasitədir. Janrından, tipindən və həcmindən asılı olmayaraq mətnlərdə müxtəlif təkrar növlərinə rast gəlinir. Başlıq kompleksinin bir çox elementləri – başlıq, başlıqaltı, epiqraf, daxili başlıq, mündəricat mikrokontekst və ya mikrotekst olduğundan onların tərkibində də təkrarlardan istifadə edilir.

Təkrarın başlıq kompleksi elementlərində işlənmə xüsusiyyətlərini öyrənmək məqsədilə, ilk növbədə, təkrarın növlərini aydınlaşdırmaq lazım gəlir. Təkrar mətn dilçiliyində geniş planda tədqiq olunmuşdur. Leksik, sintaktik və semantik təkrar növləri fərqləndirilir. Təkrar olunan elementlərin bir-birinə münasibətdə yerləşmə mövqeyinə görə kontakt və distant növləri vardır. Anafora, katafora, epifora və s. kimi anlayışlar da təkrar müstəvisində öyrənilir.

Başlıq mikrokonteksti struktura daxil olan dil vahidlərinin sayı və birləşmə xüsusiyyətlərinə görə tiplərə bölünür. Ən sadə halda başlıq bir sözdən ibarət strukturdur. Məsələn, “Hamlet”, “Saz”, “Nəsimi”, “Dolça”, “Ölülər”, “Sizsiz” və s. Başlıq söz birləşməsi, söz birləşməsi ilə cümlə arasında duran, cümləyə daha yaxın olan sintaktik konstruksiya tipində, eləcə də cümlə formasında olur. Başlıq strukturunun söz-forma tərkibi və ya başlıq mikrokontekstinin söz dərinliyi artdıqca təkrar imkanları artır. Təkrar daha çox cümlədə və cümlədən böyük vahid tərkibində müşahidə edilir. Cümlə daxilində leksik və az hallarda sintaktik təkrarlardan istifadə olunur. Bütün bu cəhətlər başlıq mikrokontekstində təkrarların çox olmayacağını göstərir.

Bir əsrin başlığının başqa bir əsər başlığı ilə müqayisəsi zəminində aşkara çıxarılan təkrarlar arasında əlaqə yoxdur. Məsələn, “Qulliverin səyahəti” və “Dilçiliyə səyahət” başlıqlarındakı “səyahət” sözünün təkrarı əsərlər arasında əlaqə və bağlılıq yaratmır. Ona görə də başlıqlarda təkrar problemi ayrıca bir əsər və onun

komponentləri səviyyəsində tədqiqat obyekti olur.

Başlıq kompleksində təkrar başlıq elementlərin başlıq mikrokontekstində, mətn makrokentekstində, həmçinin başlıq kompleksinin digər komponentlərində təkrarlanması əsasında öyrənilir. Başlıq kompleksinin komponentləri irihəcmli olduqda təkrar ehtimalı artır. Bu baxımdan daxili başlıqları olan əsərlərdə elementlərin təkrarı daha çox müşahidə edilir.

K.Abdullanın "Dilçiliyə səyahət" [1] əsəri elmi-populyar janrda yazılmışdır. Müəllifin öz təbirincə desək, "dilçi olmayanlar üçün dilçilik" kitabının yazılmasında məqsəd linqvistika ilə tanışlıqdır. Əsər giriş, 8 fəsil və sonluqdan ibarətdir. Başlıq kompleksinə əsas başlıq-əsərin adı (Dilçiliyə səyahət), başlıqaltı (Dilçi olmayanlar üçün dilçilik), fəsil və fəsil başlıqlar-birinci tərtib daxili başlıqlar (I fəsil-Zalxanı istəyən var; II fəsil – Unudulmayan efemlər və s.), giriş- Mənim əziz oxucum və ya giriş əvəzi, sonluq-son söz əvəzi və yaxud dil "oyunları", II tərtib daxili başlıqlar; bu başlıqlar fəsillərin daxili hissələrinin adlarıdır. Məsələn, birinci fəsildə 1.Əhməd və Zalxa; 2.Dilçilik İnstitutundakı elmi seminarlar və akademik M.Şirəliyev: "Əhməd öldü". 3.Elm və problem. 4.Əhmədə Zalxadan nə deyək? və s.

Kitabın və ya əsas mətnin başlığı – "dilçiliyə səyahət" iki sözdən ibarətdir. B

İkinci tərtib daxili başlıqlar sayca birinci tərtib daxili başlıqlardan çoxdur. Birinci tərtib daxili başlıqların (giriş, 8 fəsil və sonluq) sayı ondur. İkinci tərtib daxili başlıqlar aşağıdakı kimi paylanır: I fəsil- 10, II fəsil-9, III fəsil-8, IV fəsil-7, V fəsil-6, VI fəsil-7, VII fəsil-8, VIII fəsil-7. Əsərdə 62 ikinci tərtib daxili başlıq vardır.

K.Abdullanın əsərində hissəyə ayırma yoxdur. Yəni əsər bir hissədən 8 fəsildən ibarətdir. Bununla yanaşı, giriş və sonluq da mətnin tərkibinə daxildir. Qeyd edildiyi kimi, K.Abdullanın "Dilçiliyə səyahət" əsərində "Zalaxanı istəyən var" fəsli 10 ikinci tərtib daxili başlığa malikdir. Müəllif ikinci tərtib daxili başlıqları I tərtib daxili başlığın altında sıralamışdır. Belə forma ikinci tərtib başlıqları sanki başlıqaltı formasında birləşdirir. Təhlil olunan əsərdə ikinci tərtib daxili başlıqlar nömrələnməklə bir-birindən ayrılır. Fəslə aid daxili başlıqların fəslin mətni daxilində paylanması daha geniş yayılmış formadır. Bu halda hər paraqraf öz adı ilə başlanır. Növbəti paraqrafın adının gəlməsi əvvəlki paraqrafın bitməsini göstərir. II tərtib daxili başlıqların xüsusiyyətlərini öyrənmək üçün belə başlıqların müxtəlif keyfiyyətli çoxluqlarını quraq.

Birinci fəslin ikinci tərtib daxili başlıqlar çoxluğunun on elementi var və həmin elementlər aşağıdakı ardıcıllıqla düzülmüşdür: 1.Əhməd və Zalxa; 2. Dilçilik İnstitutundakı elmi seminarlar və akademik M.Şirəliyev: "Əhməd öldü". 3. Elm və problem. 4.Əhmədə Zalxadan nə deyək? 5. Zalxanın doğulması və dilin mənşəyi. 6. Zalxanın böyüyüb boya-başa çatması və dilin inkişaf tarixi. 7. Zalxanın ünsiyyətdə olduğu rəfiqələri və dilin başqa dillərlə müqayisəsi. 8. Zalxanın qohum-qardaşı ilə münasibəti və dil qohumluqları. 9. Zalxanın qonşuları ilə münasibəti və dil tipləri. 10. Dilçilikdə metodlar.

İkinci çoxluq qeyd olunmuş başlıqlardakı vahidlər əsasında qurulur və həmin

çoxluğun elementləri aşağıdakılardır: “Əhməd; Zalxa; Dilçilik; İnstitutu; elm; seminar; akademik; M.Şirəliyev; ölmək; problem; demək; doğulma; dil; mənşə; böyümək; boya-başa çatmaq; inkişaf; tarix; ünsiyyət; olmaq; rəfiqə; başqa; müqayisə; qohum-qardaş; münasibət; qohumluq; qonşu; tip; metod”.

Bu çoxluq birinci fəslin ikinci tərtib başlıqlarının tərkibinə daxil olan mənalı sözlərin çoxluğudur. Mikrokontekstlərin təhlili prosesində bir sıra söz birləşmələrinin daha geniş mənalı olduğu aydınlaşır. Məsələn, Dilçilik İnstitutu, elmi seminar, dilin mənşəyi, inkişaf tarixi və s.

Leksik səviyyədə mikrokontekstlərdə təkrarlar çoxdur. Bir mikrokontektdəki söz başqa mikrokontekstlərdə təkrarlanır. Birinci fəslin II tərtib başlıqlarını ardıcıl nömrələyib onun elementlərinin təkrarlanma göstəricilərini müəyyənləşdirə bilərik. Təhlilin nəticələrini cədvəl şəklində ümumiləşdirək.

Ən çox təkrarlanan vahid “Zalxa” sözüdür. Tezliyə görə ikinci mövqeni “dil” sözü tutur. “Dil” sözü “dilçilik” düzəltmə vahidinin tərkibində də iki dəfə işlənir.

Fəslin başlığında, daha doğrusu, birinci tərtib başlıqda “Zalxa” adından istifadə edilmişdir. Digər fəsil başlıqlarında bu ad yoxdur. “Əhməd” adı səkkizinci fəslin başlığında təkrarlanır: Əhməd sabah Bakıya qatarla yola düşəcək. “Zalxa” qız, qadın adını bildirir. “Zalxanı istəyən var” başlığı oxucuya qızı istəyənin olması barədə informasiya verir. Oxucu birinci fəslin bu məsələyə həsr olunması qənaətinə gəlir. II tərtib daxili başlıqlardakı təkrarlar bu semantika ətrafında əlavə informativliyin cəmlənməsinə kömək edir. İkinci tərtib birinci başlıqda “Zalxa” adı təkrarlanır. Bu başlıq tabesizlik əlaqəsi üzrə formalaşmış söz birləşməsidir. Sözlər “və” bağlayıcısı ilə bağlanır. “Əhməd və Zalxa” adı fəslin başlığında “Zalxa” təkrarını6n köməyi ilə əlaqələnir. Verilmiş informasiyalardan semantik nəticə çıxarmaq mümkündür. Oxucu yozumuna görə Zalxanı istəyən Əhməddir. Distant təkrar və ikinci tərtibin ümumi səciyyəli məzmunu belə qənaətə gəlməyə imkan verir. Oxucu müəllifin başlıqları təqdim etməsi formasına görə əvvəlcə “Zalxanı istəyən var” başlığını oxuyur. Bundan sonra birinci fəslin bütün 10 daxili başlıqları sadalanır. İkinci paraqrafda distant təkrar olunan “Əhməd” və ona aid informasiya gözlənilməzlik yaradır. Oxucu yozumunun başlıqlar üzrə şərti bir variantını belə qurmaq olar:

Birinci başlıq: “Zalxanı istəyən var”

Birinci başlığın yozumu: “Zalxaya vurulan və ya ona nişan göndərmək və ya onunla evlənmək istəyən var.

İkinci başlıq: Əhməd və Zalxa

İkinci yozum: Zalxanı istəyən Əhməddir. Əhmədlə Zalxa bir-birini tanıyır. Əhmədlə Zalxa arasında nəsə var.

Üçüncü başlıq: Dilçilik İnstitutundakı elmi seminarlar və akademik M.Şirəliyev: “Əhməd öldü”

Üçüncü yozum: Elmi seminarda akademik M.Şirləiyev Əhmədin ölmək xəbərini verir. Əhməd Dilçilik İnstitutunda işləyirmiş. Əhmədin dilçilik institutu ilə müəyyən bağlılığı var. Əhməd Zalxanı istəyirdi amma öldü.

Dördüncü başlıq: Elm və problem.

Dördüncü yozum: Əhmədin ölməyi Dilçilik İnstitutunda problem yaratmışdır. Bəlkə Zalxa da orada işləyir.

Dördüncü yozumun başqa istiqaməti: Hər bir elmin öz problemləri var. Elm problemlərinin həllinə çalışır. Bütün bunların Əhmədə və Zalxaya birbaşa dəxli yoxdur. Dolayı dəxli ola bilər. Məsələn, Əhməd Dilçilik İnstitutunda işləyirdisə və o ölübsə, məşğul olduğu problemin öyrənilməsi yarımçıq qalmışdır və s.

Beşinci başlıq: Əhmədə Zalxadan nə deyək?

"Əhməd" və "Zalxa" adlarının həm distant, həm yaxın ətrafdakı təkrarı başlıqlararası əlaqəni gücləndirir. Semantik pozulma markeri məzmun sətiraltı informasiya və ziddiyyət doğurur. Beşinci yozum qeyri-müəyyənliklə qarşılaşır. Axı akademik "Əhməd öldü" demişdi. Əhməd ölübsə, Zalxadan ona nə demək olar ki? Ölmüş Əhmədə Zalxadan nəsə demək ehtiyacı haradan yarandı. Yoxsa Əhmədin ölüm xəbərini eşidib Zalxa başına nəsə gətirib? Bu istiqamətdə yozumu davam etdirmək olar.

Daxili başlıqların informativliyi üzrə semantik məzmunu inkişaf etdirməyə davam etsək, altıncı başlıqda da sətiraltı məna markerləri, eləcə də ziddiyyət məqamları aşkara çıxacaqdır. "Zalxanın doğulması və dilin mənşəyi" başlığının tabesizlik əlaqəsi yaradan birləşdirici "və" bağlayıcısının bir-biri ilə qarşı-qarşıya qoyduğu iki predmet arasında əlaqənin yoxluğu görünür. Zalxanın doğulmasının dilin mənşəyinə nə dəxli var? Sualı oxucunun qarşısına çıxır. Təbii ki, burada əsərin mətni ilə tanış olmadan yalnız başlıq əsasında məzmun şərhinin aparılması prosesi nəzərdə tutulur. Semantik pozulma nəticəsində aktuallaşan məzmun-sətiraltı informasiya "zalxa-dil" paraleli aparmağa zəmin yaradır. Birinci fəslin daxili başlıqlarında da bu paralel təkrar formasında özünü göstərir (cədvəl 2).

1	2	3
Zalxanın doğulması	və	dilin mənşəyi
Zalxanın boya-başa çatması	və	dilin inkişaf tarixi
Zalxanın ünsiyyətdə olduğu rəfiqələri	və	dilin başqa dillərlə müqayisəsi
Zalxanın qohum-qardaşı ilə münasibəti	və	dil qohumluqları
Zalxanın qonşuları ilə münasibəti	və	dil tipləri

Cədvəldən göründüyü kimi, "və" bağlayıcısı ilə tabesizlik əlaqəli birləşmə, konstruksiya olan daxili başlıqlar "və" bağlayıcısının sol və sağ tərəfindəki komponentlərə bölünür. Hər iki tərəfdə anoforik təkrar qeydə alınır.

Beləliklə, mətndə əsas başlıq komponentinin daxili başlıqda təkrarlanması, mətnin eyni hissəsinə, fəslin aid daxili başlıqların komponentlərinin həmin fəslə aid digər başlıqlarda təkrarlanması; eyni zamanda, təkrarın leksik, sintaktik və semantik növlərinin olması təsdiqini tapır. Həmçinin anoforik təkrar da qeydə alınır. Yəni bir başlığın əvvəlindəki söz, başqa daxili başlığın əvvəlində də gəlir (Zalxa).

K.Abdullanın "Dilçiliyə səyahət" əsərinin II fəsli "Unudulmayan efemer" adlanır. Birinci tərtibə aid edilən bu daxili başlıq fəslin ikinci tərtib sonuncu daxili

başlığında eynilə təkrarlanır. Sintaktik təkrar fəsli açır və eyni zamanda, qapayır. Bu fəsildəki daxili başlıqlarda "dil" sözünün distant təkrarından istifadə edilmişdir.

Ümumiyyətlə, əsərin digər daxili başlıqlarını təkrara görə təhlil etdikdə müxtəlif fəsillərin həm birinci, həm də ikinci tərtib daxili başlıqlarında distant təkrarların kifayət qədər istifadə edilməsi aşkar müşahidə edilir. Daxili başlıqlardakı təkrarlar mətnin müxtəlif hissələrinin bir-biri ilə sıx əlaqəsini qurur. Eyni zamanda, təkrarlar bütöv mətnin məzmun konseptual inkişafı, əsərin ideya və məzmunu, həmçinin müəllifin mövqeyi haqqında informasiya ötürür. Bəzi daxili başlıqlarda məzmun sətraltı informasiyanın aktuallaşması oxucunun marağını artırmağa xidmət göstərir.

Daxili başlıqlar mətnin nisbi bitmiş daxili hissələrinin adlarıdır. Bu başlıqlar mikromətnlər üzrə paylanır. Əsərin hər fəslindəki hər bir paraqraf bir mikrotekst yaradır. Müəyyən sayda mikrotekst bir fəsil əmələ gətirir. Fəsil daxili paraqraflara ayırma və fəsillərin sayını müəllif müəyyənləşdirir. Bu, fəslin məzmununun tamamlanması ilə təyin edilir.

"Unutmağa kimsə yox…" [1] əsərində birinci fəsil dörd hissəyə və ya paraqrafa bölünmüşdür. Qeyd edildiyi kimi, əsərdə fəsillərə ad verilməmişdir. Lakin fəsil daxili hissələr daxili başlıqlarla bir-birindən ayrılır. Birinci fəslin dörd paraqrafı aşağıdakı kimi adlandırılmışdır:

F.1.1.-Kəndə gələli iki ay altı gün sonra. Axşama yaxın bir vaxt

F 1.2.-Kəndə gəldiyi birinci axşam. Mübariz kişi ilə tanışlıq

F 1.3.-Kəndə gəldiyi birinci gecə. Bəhram kişinin evi

F 1.4.-Bəhram kişi mağaranı tapandan bir həftə sonra

Əsərin başlığı ilə birinci fəslə aid daxili başlıqlar arasında əlaqə "kimsə" və daxili başlıqlardakı adlar əsasında yaranır. Lakin bu əlaqə möhkəm və aydın deyildir. Əlaqə əsərin məzmununun açılması üçün başlıqla daxili başlıqların semantik qarşılaşdırılması heç bir faktual informasiya vermir.

Birinci fəslin daxili başlıqlarının bir-biri ilə əlaqəsi təkrarlar və açar sözlər əsasında qurulmuşdur. "Kəndə gələli" və "kəndə gəldiyi" ifadələri birinci üç paraqrafı əlaqələndirir. Müəllif hadisələrin zaman ölçülərini daxili başlıqlarda ön plana çəkir. "Kəndə gəldiyi birinci gecə" daxili başlıqlarındakı informasiya hadisələrin xronoloji ardıcıllığında pozulma aşkara çıxarır. Müəllif kəndə gələli iki ay altı gün sonrakı hadisənin nəqlindən başlayır və bu daxili başlıqdan kəndə gəldiyi birinci axşama, eləcə də birinci gecəyə qayıdır. Birinci fəslin birinci üç paraqrafının başlığında axşam və gecə sözləri istifadə olunur: "axşama yaxın bir vaxt", "birinci axşam", "birinci gecə". Müəllifin seçdiyi başlıqlar oxucunu günün qaranlıq çağına aparır, gündüz həyatını arxa plana keçirir. Birinci axşam və birinci gecə iki və üçüncü paraqraflar arasında zaman ardıcıllığını bərpa edir. Lakin dördüncü paraqrafın başlığı – "Bəhram kişi mağaranı tapandan bir həftə sonra" zaman planında naməlumluq yaradır. Nəticədə əsərin müxtəlif hissələrinin başlıqları arasındakı əlaqələrin öyrənilməsi zərurəti yaranır. Əsər "əvvəl" başlığı ilə açılır.

Əsərin adını bildirən başlıqdan sonra bu daxili başlıq ikinci mövqeni tutur, şübhəsiz ki, əsərə girişi reallaşdırır.

Oxucu əsərin zaman ardıcıllığında düzgün faktual informativliyi təmin etmək üçün "əvvəl"i və birinci paraqrafı oxumalıdır. "Kəndə gələli iki ay altı gün sonra axşama yaxın bir vaxt"da nə baş verdiyini anlamalıdır. Başlıqda təkrarlanan leksik vahidlərdən biri "əvvəl", digəri "sonra" olan antonim cütü təşkil edən sözlərdir. Məsələn, "bir gün əvvəl", "bir həftə sonra", "bir xeyli bundan əvvəl", "24 gün sonra" və s. müəllifin yaratdığı personajlar və ya bəhs etdiyi hadisələr müasir dövrün müəyyən zamanında və məkanındadır. Lakin müəllif onları gah daha əvvəlki, gah da sonrakı zamana aparır. Bu halda məkan dəyişmələrində məhdudiyyət, dayanıqlıq özünü hiss etdirir. Əsərdə əsas məkan kənd və bu kəndin bəzi məntəqələri (Bəhram kişinin evi, Qarağacın altı, Mağara, Bəng dağı, çoban papağı və s.), Moskva Akademiyadır.

Kamal Abdullanın "Unutmağa kimsə yox…" [1] əsərindəki daxili başlıqlarda əsas mətnyaradıcı vasitə olan təkrarlardan geniş istifadə edilmişdir. Burada leksik sintaktik və semantik təkrarlar çoxdur. Bəzən təkrar mətn vahidi səviyyəsinə qalxır. Mətnin ayrı-ayrı hissələrini bir-biri ilə möhkəm əlaqələndirən, güclü koheziya yaradan "yenə", "həmin", "eyni" sözləri də bir sıra daxili başlıqlarda təkrar kimi işlənir. Həmən söhbətdən 24 gün sonra. Yenə Bəhram kişinin həyəti. Yenə Qarağacın altı. Axşam, "Yenə həmən məkan". "Bəhram kişi və F.Q. Qaranlıq artıq düşüb", "F.Q ilə Bəhram kişinin eyni yuxusu" və s.

Mətn dilçiliyində başlıq və daxili başlıqlarda təkrar, başlıq mikrokontekstinin mətn daxilində tam və natamam təkrarı məsələləri az öyrənilmişdir. V.N.Kornev bu məsələyə qəzet materialları əsasında baxmağa çalışmışdır. O, qəzet məqaləsinin başlığını məqalənin əsas mətn korpusunda tam və qismən təkrarını alman dili materialları üzrə araşdırmışdır [2].

Daxili başlıqlarda təkrarların fərqli növləri vardır. Başlıq və başlıq elementlərinin əsas mətndə yerləşmə mövqelərinə görə təkrarların müxtəlif növləri vardır. Publisistik mətndə və ya kiçik həcmli bədii əsərlərdə mətnin üç mövqeyini ayırmaq olur: 1)mətnin əvvəli; 2)mətnin ortası; 3)mətnin sonu. Qeyd edək ki, belə ayırmada də şərtilik vardır. Çünki mətn müxtəlif sayda abzaslar əsasında formalaşır. Belə olan halda mətnin əvvəlinin, ortasının və sonunun hansı abzasları özündə birləşdirilməsini təyin etmək çətindir. Bölgü şərti də olsa, birinci abzas-başlanğıc (əvvəl), sonuncu abzas (son), digər abzaslar orta olmaqla aparıla bilər. Aydın olur ki, mətnin ortası həcmcə daha böyük olan hissədir. Bölgünün şərtiliyi birinci və sonuncu abzasın məzmunundan asılıdır. Başlanğıc mətnə daxil olmağı, son isə mətni qapamağı nəzərdə tutmalıdır. Mətnə daxilolma və mətni qapama anlayışları isə təyin olunmamışdır. Onlar adın semantikası baxımından yayğın məzmun daşıyır.

Əgər publisistik mətnlər üçün mətnin əvvəli, ortası və sonu anlayışlarını qəbul etmək olursa, iri həcmli bədii əsərlərdə belə ayırma aparmaq özünü doğrultmaya bilər.

Publisistikada başlığın mətnin müəyyən hissəsində - əvvəldə, ortada və sonda təkrarlanması əhəmiyyətlidir. Publisistika və mətnin başa düşülməsinə dair tədqiqatlarda başlığın məqalənin əvvəlində təkrar olunmasının oxucuya neqativ təsir göstərməsi qeyd olunur [2].

Başlığın təkrarına mətnin birinci abzasında və bəzən birinci cümləsində rast gəlinir. Belə təkrarın əsas funksiyası əsas mövzunu açmaq, sonrakı inkişafa və təhlilə keçiddir.

Publisistik mətnlərdə başlığın mətnin ortasında təkrarı, əsasən, iki formada baş verir: Sözbəsöz təkrara yaxın təkrar və başlığın tam təkrarı. Birinci növ mətnin mütəşəkkilliyini artırır, mətndaxili əlaqələri gücləndirir. Belə təkrarlar mətni qavramağa kömək göstərir.

Başlığın mətnin ortasında tam təkrar edilməsi mövzunun mərkəzi hökmünü qabartmağa və mövzunu dəyişməyə xidmət edir.

Bədii əsərlərdə daxili başlıqların bir-birinin daxilində qismən tam və qismən təkrarlanması da mümkündür. Bu hal publisistik mətn çərçivəsindən kənara çıxır, avtonom mövqe tutur.

Məlum olduğu kimi, hər hansı bir mövzu (tema) adresata yalnız tədrici yolla çatdırıla bilər. Belə ki, informasiyanı qəbul edən tərəf hələ çox şeydən xəbərsizdir və onun hadisə-faktlarla tanışlığı müəyyən fikir ardıcıllığı (təqdim) tələb edir. Tema birbaşa, heç bir hazırlıq mərhələsi olmadan təqdim edilərsə, çətin qavranılır. Belə də situativ, həyati təcrübə söykəm (istinad), cümlənin leksik-qrammatik tərkibi olmasın deyə, ümumi temanı təşkil edən hissə hadisə-faktlar üçün giriş kimi çıxış edir, yəni giriş-cümlə olur.

Adətən, bu tip cümlələrdə geniş surətdə lokativlərdən, zaman və yer zərifliklərindən istifadə olunur. Obrazlı deyilərsə, bunlar "səhnə açan" cümlələrdir. Adresatı isə, əsasən, o "səhnə" arxasında nəyin gizləndiyi maraqlandırır. Giriş-cümlə öz həllini tapmaq üçün komponent səpkisinə (parçalanmasına) yol verir və sanki zəncirvarı reaksiya gedir. Təqdim olunan ümumi tema giriş-cümlədəki rema daxilində olsa da, sonrakı cümlələr üçün mövzu özəyi, leksik "tikinti materialı" rolu oynamağa başlayır.

Giriş-cümlə 2 tip cümlədən biri ilə müşayiət oluna bilər: ya birbaşa izah-cümlə ilə, ya da hökm-cümlə ilə. Bu da adresatın fikir təqdimi zamanı yaratmaq istədiyi psixoloji gərginlikdən asılıdır. Adresat "uzun müddətli intizarda" saxlanılmalıdırsa, giriş-cümləyə hökm-cümlə; fikir tez açılmalıdırsa, izah-cümlə qoşulur.

Nəticədə demək lazımdır ki, göstərilən tip cümlələr mətn semantikasının mühüm komponentlərindən olub, onun bir çox səciyyəvi xüsusiyyətlərinin açılmasına xidmət edir.

ƏDƏBİYYAT

1.Abdulla, K. Dilçiliyə səyahət. Dilçi olmayanlar üçün dilçilik / K.Abdulla. – Bakı: Mütərcim, – 2010. – 200 s.

2.Корнев, В.Н. Повтор заголовка как средство глобальной связности публицистического текста // – Санкт-Петербург: Известия РГПУ им. Герцена – 2009. №12, – с. 231-235

3.Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev. – Bakı: Maarif, – 1998. – 281 s.

Илаха Вахид кызы Зейналлы

Резюме

Заголовок или его элементы чаще повторяются в начале, середине и конце публицистических текстов. В художественных произведениях, особенно в крупных художественных произведениях, вопрос о повторении названия в начале, середине и конце произведения имеет разные аспекты. В художественном произведении повторение названия в конце текста было экстралингвистическим явлением, зависящим от концептуального содержания конкретного произведения, авторской позиции. Повтор заголовка в тексте функция создания глобальной связи с текстом является ведущей. Такое повторение способствует раскрытию связи информации, представленной в заголовке, с содержанием текста, служит для уточнения авторской позиции. Повторение заголовка во внутренних заголовках художественного текста, а также внутреннего заголовка и его элементов в других внутренних заголовках, а также в различных частях основного текста-многоаспектное языковое явление, имеющее свои особенности. В публицистических и художественных текстах возможно полное и частичное повторение названия в тексте. Повторная номинация заголовка и повторная номинация со знаком приводят в движение ассоциативное мышление читателя, реализуя соответствие между смыслом, заложенным в текст заголовка, и содержанием текста. Автор использует повторную номинацию с целью установления тесной связи между заголовком и текстом.

Ключевые слова: заголовок, текст, повтор, микроконтекст, номинация, элемент

Ilaha Vahid gizi Zeynalli

Summary

The title or its elements are more repeated at the beginning, middle and end of journalistic texts. In works of fiction, especially in large-scale works of fiction, the question of the repetition of the title at the beginning, middle and end of the work has different aspects. In a work of fiction, the repetition of the title at the end of the text was an extralinguistic phenomenon, it depends on the conceptual content of a particular work, the position of the author. Repetition of the title in the text the function of creating a global connection with the text is leading. Such repetition helps to reveal the connection of the information given in the title with the content of the text, serves to clarify the author's position. The repetition of the title in the internal headings of the literary text, as well as the internal headings and its elements in other internal headings, as well as in different parts of the main text, was a multi-aspect linguistic phenomenon and had its own specifics. In journalistic and literary texts, full and partial repetition of the title in the text is possible. The repeated nomination of the title and the repeated nomination with a hint set in motion the associative thinking of the reader, actualizing the correspondence between the meaning embedded in the title text and the content of the text. The author uses the re-nomination in order to establish a close connection between the title and the text.

Keywords: title, text, repetition, microcontext, macrocontext, nomination,element

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent
Cavanşir Muradov
tərəfindən çapa tövsiyə olunmuşdur

TAĞI-ZADƏ CƏMALƏ FUAD QIZI
ADU,
Təhsil-2 fakültəsi nəzdində xarici dillər kafedrası
tagizadcmal@gmail.com

FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ QRAMMATİK TAPŞIRIQLARIN TƏSNİFATI

XÜLASƏ

Müasir dövrdə xarici dillərin tədrisi məsələsi xüsusilə aktualdır. Belə ki, getdikcə təhsilin xarakterində daha çox dəyişikliklər baş verir.

Fransız dilinin xarici dil kimi tədrisində qrammatika, ilk növbədə dil elementlərinin mənimsənilməsinə, daha sonra isə onları təhlil etməyə imkan verir. Fransız dilinin xarici dil kimi öyrənilməsində başlıca məqsəd bilik və bacarıqların mənimsənilməsidir və qrammatik fəaliyyət növləri ana dilinin fəaliyyətlərindən fərqli olmalıdır.

Məqalədə qrammatik tapşırıqların növləri əks etdirilir. Bu tapşırıqlar tələbələrin bilik, bacarıq və vərdişlərinin, eyni zamanda səriştələrinin formalaşması və inkişafı üçün stimulverici rola malikdir. Bilik və bacarıqların möhkəmləndirilməsi üçün yerinə yetirilən tapşırıqlar qrammatik qaydaların mənimsənilməsinə və tələbənin özünə inamın artmasına səbəb olur. Məqalədə J.P.Kuq, İ.Qrükanın və digər qrammatistlərin fikirləri araşdırılmış. Araşdırılan tapşırıq növləri xarici dilin bünövrəsinin qoyulmasında, möhkəmləndirilməsində mühüm rola malikdir. Mətnlə əlaqəli tapşırıq və çalışmaların yerinə yetirilməsi müasir fransız dilinin xarici dil kimi tədrisində qrammatikanın aydın, dəqiq izahında bir üsul kimi konsepsiyaya uyğunlaşdırılır.

Açar sözlər: qrammatik tapşırıqlar, çalışma növləri, anlama tapşırıqları, sual-cavab tipli tapşırıqlar, qapalı sual tipli tapşırıqlar, mətn tipli tapşırıqlar

Qrammatik tapşırıqların müxtəlif tipləri və növləri mövcuddur. Çünki tapşırıqlar təsrif olunma meyarlarına, xüsusiyyətlərinə görə, təbiətcə müxtəlif olurlar. H.Bess və R.Porkiə görə, tapşırıq və çalışmalar çox fərqli və müxtəlif olur: tapşırığın əsli dərsliklərdə və tədris materiallarında əksini tapır. Çalışma və tapşırıqlar linqvistik sahənin xüsusiyyətlərini daşıyır, yazılı, şifahi və digər dil bacarıqlarının tədrisinə kömək edir. Qrammatik biliklərin öyrənilməsində tapşırıqlar, xüsusilə daha effektiv vasitələrdir. Ənənəvi qrammatikanın tədrisi ilə yanaşı, funksional qrammatikanın da qaydalarını tədris edən tapşırıq və çalışma modelləri mövcuddur. Tapşırıqlar dərslikdəki və ya dərsdəki digər fəaliyyət növlərinə inteqrasiya etməklə pedaqoji məqsədin prinsiplərini əks etdirir. Çalışmalar forma və üsuluna görə də

fərqlənir [1, s. 123].

J.P.Kuq və İ.Qrükanın tipologiyasına görə tapşırıqların iki böyük kateqoriyası mövcuddur [3]. Bu kateqoriyalar dörd dil bacarığının yaranmasına, formalaşmasına və inkişafına uyğun gəlir: anlamaya xidmət göstərən, uyğun gələn tapşırıqlar və ifadə üçün yerinə yetirilən tapşırıqlar. Hər bir kateqoriyaya məxsus olan tapşırıq tipləri daxilində uyğunluq, həmahənglik mövcuddur. Bu xüsusiyyətlər qrammatik qaydalar və mətnin quruluşundan, mövzusundan asılı olaraq, şəklini dəyişdirə bilərlər, asanlaşdırıla, mürəkkəbləşdirilə və ya dilöyrənənlərin dil bilikləri səviyyələrinə adaptə oluna bilər. Bu zaman dilöyrənənlərin səviyyəsi və dərs zamanı tədris olunan mövzu və materialın məqsədi nəzərə alınır. Şifahi və yazılı vərdişlərin formalaşmasında tapşırıqlar mühüm rola malikdirlər.

Anlama tapşırıqlarını araşdırarkən qeyd etmək lazımdır ki, anlama tapşırıqları beş müxtəlif sinif kimi təsnif edilir. Bu fəaliyyət növlərinin çoxu əsasən alt siniflərindən ibarətdir: sorğu-sual (vərəqəsi), boşluq doldurma tapşırıqları və ya natamam mətnlər, bərpa edilən tapşırıqlar və ya pazl, məlumatları yerləşdirmə tapşırıqları və təhlil, sintez tapşırıqları.

Sual-cavab tapşırıqlarının əsas cəhəti və məqsədi dilöyrənənlərin sərbəstliyinin qorunub saxlanmasıdır. Bu zaman öyrənənə tədris prosesində və ya tapşırığı yerinə yetirərkən öz fikrini söyləmək və ya sualın cavabını özü təyin etmək imkanı verilir. Açıq cavablı sorğu suallarından istifadə prosesində, dilöyrənənlər artıq yiyələndikləri linqvistik bilik və bacarıqları səfərbər etməklə tapşırıqları yerinə yetirir, bu cavablar onların fikirlərini ifadə etmək, nitq bacarığına stimul verir. Buna baxmayaraq, açıq sorğu-sual zamanı, sərbəst cavab xarakteri mütləq deyil. Dilöyrənənlərin suallara cavabları qaydalar çərçivəsində normalara uyğun olmalıdır. Cavablar tam bir sistem kimi müəllimlər tərəfindən qəbul edilən və qiymətləndirilməsi mümkün olan cavablar olmalıdır. Bu cür çalışma tiplərində açıq cavablar əslində müəyyən qaydaya uyğun olaraq, təlimlərin yerinə yetirilməsi ilə təşkil edilir. Bu növ tapşırıqların çatışmazlığı dilöyrənənlər tərəfindən anlama və ifadə etmə ilə əlaqədar meydana gələn çətinliklərdir.

Çoxseçimli sual-cavab tapşırıqları üçün düzgün cavab olan variantın gizlədilməsi xarakterikdir. Səhv cavablar siyahısında olan düzgün cavabı seçmək mütləqdir. Düzgün olmayan cavablar "dağıdıcı cavab" xarakteri daşıyır. Bu səhv, düzgün olmayan variantlar dilöyrənənin diqqətini azdırmağa deyil, əksinə diqqətini artırmağa, toplamağa xidmət edir. Bu "dağıdıcı" cavablar və ya variantlar doğru cavablara istər məna, istərsə də forma baxımından yaxın olur [2, s.73]. Variantlar şəklində təşkil olunan bu cavablar qarışıqlıq və dilöyrənənlər üçün çətinlik yaratmamalıdır. Bu tip tapşırıqlarda səhvlərin düzəldilməsi asan, sürətli və həmçinin dəqiq olur. Lakin çoxseçimli sualların tərtib edilməsində, sualların və variantların qurulması, tapşırıqları formalaşdırmaq həmişə asan olmur. Doğru cavaba təxminən yaxın səhv cavab variantları seçmək mütləqdir. Çalışmalarda problem ondan ibarətdir ki, dilöyrənən mümkün boşluqları gizlədə bilir. Lakin bu imkanı limitləmək

üçün həmişə "mən bilmirəm" variantı əlavə edilə bilər.

Qapalı sual tipləri ikitərəfli struktur formasına görə əvvəldə qeyd etdiyimiz sual tiplərindən fərqlənir. Düz və ya səhv; bəli və ya xeyr kimi alternativ cavablar istifadə edilir. Onlar nisbətən uzun və çətin olmasına görə də fərqlənir. Eyni zamanda bu tapşırıqlar şifahi tədris edilən mətnlərin dilöyrənənlər tərəfindən ümumi və ya təfsilatlı, bütün incəliklərinə qədər başa düşülməsinə və dərk edilməsinə xidmət edir. Dilöyrənənlər bilirlər ki, onların həqiqətən iki seçim etmək şansları var, bu cavabı tapmaq, verilən tapşırığı yerinə yetirmək üçün bir vasitədir. Dilöyrənənlər düzgün alternativi axtararkən, onlar mətni daha yaxşı başa düşür, qavrayır və mənimsəyirlər.

İstiqamətverici, bələdçi roluna malik suallar dilöyrənənlərdə düşünmə, fikirləşmə bacarığını daha da təkmilləşdirmək üçün mühüm rol oynayır. Bu tapşırıqlarda yalnız digər cavablar arasında verilmiş doğru cavabı aşkarlamaqla kifayətlənmirik, eyni zamanda verdiyimiz cavabı izah etməliyik. Bu tapşırıqları yerinə yetirərkən dilöyrənənlərin dil qaydalarını, normalarını tapşırıqlar daxilində tətbiq etdiklərinin şahidi oluruq. Xarici dildə mövcud olan söz və ifadələrin, birləşmələrin dilöyrənənlər tərəfindən başa düşüldüyünü və mənimsənildiyini görürük. Sorğu-suallar vasitəsilə müxtəlif çalışma tipləri yaranır. Müxtəlif metodların köməyi ilə bu tip tapşırıqlar yerinə yetirilir. Tapşırıqların bu xüsusiyyəti və xarakteri onların üstünlükləri kimi təqdim edilir. Tapşırıqlar bütün dilöyrənənlərin öyrənmə səviyyələrinə uyğun olaraq sadələşdirilir, uyğunlaşdırılır. İstər yazılı, istərsə də şifahi nitqdə istənilən, arzu olunan dərəcədə dəyişdirilir və uyğunlaşdırılır. Bundan başqa bu tip tapşırıqlar ənənəvi xarakterlərinə görə qrammatikanın daha tez izah olunmasında və dilöyrənənlər tərəfindən qavranılmasında mühüm rol oynayır.

Dil biliklərinin möhkəmləndirilməsində, dildəki sözlərin, ifadələrin mətn və ya cümlə daxilində düzgün yerləşdirilməsində bərpa, natamam mətn tipli tapşırıqlar mühüm rola malikdirlər. Verilmiş mətndə və ya cümlədə boş yerləri tamamlamaq məqsədi ilə suallar tərtib edilir və bu sualların tələb etdiyi şərtlərə əsasən, mətn və ya cümlələr qrammatik və məna xüsusiyyətləri nəzərə alınaraq tamamlanır. Buraxılan, tamamlanmayan elementlər morfemlər, sözlər və ya cümləni təşkil edən sintaqmlar ola bilər. Tapşırığın ölçüləri ilə əlaqəli olaraq, buraxılan elementlərin xüsusiyyətləri göstərilə və ya göstərilməyə bilər, bu da tədris məqsədindən asılı olaraq əlavə edilə və ya uzaqlaşdırıla bilər.

Çalışmaların digər formaları da mövcuddur: mətndə dilöyrənənlər boşluqları və natamamlıqları buraxmırlar onların üzərində işləyirlər, eyni zamanda düzəldilməli səhvlər də düzəldilir. "Boşluq" tapşırıqları müxtəlif sintaqmlar və onlar arasındakı əlaqələri tamamlamaq və yerinə yetirmək məqsədilə istifadə edilən fəaliyyət növlərindən biridir. Bir çox müəlliflər struktur və boşluq tapşırıqları arasında yaxınlıq, onların eyni kökdən olması haqqında fikirlər irəli sürürlər, xüsusən də əvəzetmə və təsir dairəsini genişləndirən tapşırıqlar üçün bu xüsusiyyətlər xarakterikdir. "Boşluq" tapşırıqlar bütün sözlər üçün xarakterikdir, tamamlanmalı sözlər qrammatik, leksik, fonetik aspektdən müxtəlif ola bilər və sözlər bütün

siniflərə aid ola bilər.

P. Lamaiyu və Alii boşluq tapşırıqları, çoxseçimli sual tapşırıqları, əlaqəli qarşılıqlı yerləşdirmə, pazl, lövhələr, mətnin məna ardıcıllığı ilə tamamlanması tipli tapşırıqları təkcə fransız dilinin xarici dil kimi deyil, ana dili kimi tədrisində də istifadə olunduğunu qeyd edirlər. Tapşırıq anlayışı burada geniş fəaliyyət növlərini xarakterizə edir. Dildə mövcud olan ifadə və birləşmələrdə elementlərin dəyişkənliyinin və istifadəsinin əsasını qoyur [4, s. 112].

H.Bessenin təqdim etdiyi bölgüdə təkrarlama tapşırıqları, boşluqların tamamlanması tapşırıqları, struktur tapşırıqlar, yenidən bərpa tapşırıqları qrammatik formalar, onların müəyyənləşdirilməsi, quruluşu təşkil edən elementlərin birgəliyi, məzmun daxilində məna çalarlarının zənginliyi, onların forma ilə birgə uyğunlaşmasını nəzərdə tutur [2, s. 43].

Mətnlərin tamamlanmasına aid olan tapşırıqlarla boşluq mətnlər arasında oxşarlıqlar vardır. J.P.Küq və İ.Qrükaya görə isə müxtəlifliklər daha xarakterikdir: mətnin tamamlanması tipli tapşırıqlarda buraxılan elementlərin sayı boşluq mətnlərindəki elementlərin sayından çox olur və bu tipli tapşırıqlarda daha çox element, söz və ifadə buraxılır. Eyni zamanda əvvəlki qeyd etdiyimiz tapşırıq tipindən fərqli olaraq, buraxılan söz və ifadələr qrammatik cəhətdən eyni kateqoriyaya mənsub olmurlar. Mətn tamamlama, boşluq mətnlərinə nisbətən daha çox linqvistik xüsusiyyətlərə malikdir, bu səbəbdən də bu tip tapşırıqlar dilöyrənənlərin qavrama səviyyələrinin artmasına və ya tapşırıqların vərdiş halı almasına imkan verir. Digər tapşırıq tiplərində olduğu kimi, bu tapşırıqların çətinliyini artırmaq, azaltmaq imkanı vardır. Dərsin tədris etdiyi məqsəddən asılı olaraq hər hansı bir sənəddə, lüğətdə sıranın pozulması və ya müəyyən qayda, nizamla yazılmış mətn daxilində buraxılan sözlər, ifadələr bu tip tapşırıqlara misal ola bilər. İstər boşluq, istərsə də mətnlərin tamamlanması tipli tapşırıqların istifadə edilməsi ikitərəfli xarakter daşıyır: həm ümumi, həm də xüsusi. İlk növbədə, dilöyrənənlərdə sözlərin qrammatik funksiyalarını tanımaq, düşünmək, eyni zamanda sözlər arasında mövcud olan uzlaşma əlaqələrini təhlil etmək və mətnin ümumi mənasını başa düşmək üçün ilkin reflekslər yaradır və inkişaf etdirir: morfoloji zaman göstəriciləri (element); l'imparfait (bitməmiş hərəkəti ifadə edən keçmiş zaman, bitməmiş) il chant-ait (o oxuyur; o, oxuyurdu); cins və miqdar il/elle (s) est/sont petit-e (s). İkinci məqsəd isə fransız dilində oxu və yazı strategiyaları üzərində işləmək və dilöyrənənlərdə nəticə çıxarma bacarığı formalaşdırmağa xidmət edir; nəhayət, bir sözün mənasını bilməsək də uğursuzluğa düçar olmuruq, oxumaq və dinləmək bacarığını təkmilləşdirməklə ümumi mənanı və ya konteksti başa düşməyə çalışmalıyıq. Açıq tipli tapşırıq tiplərində olduğu kimi, bu fəaliyyət növləri də dilöyrənənləri özlərinin fikirlərini, düşüncələrini ifadə edə bilmək üçün motivə edir, onlara stimul verir, verilmiş məzmunu başa düşməyə imkan verir ki, bu da daha çox çalışmaların kommunikativ xarakterə malik olduqlarını göstərir.

Xarici dil dərsləri üçün mətni yenidən bərpa etmə tapşırıqları və ya pazllar

formasında tamamlama tapşırıqları da xarakterikdir. Bu tapşırıqlara mətnlərin məntiqi və xronoloji ardıcıllığı aid edilir, xüsusilə hekayələr və ya dəlillər, arqumentlər nəzərdə tutulur. Cümlələrə, paraqraflara bölünmüş mətnləri, eyni zamanda böyük və kiçik olmaqla digər hissələri bərpa etmək lazımdır. Çox kəsimlər, bölünmüş hissələr olsa da, tapşırıq sadədir, çünki mətnin yenidən qurulması üçün ilk növbədə mətnə uyğun hissələr kontekst çərçivəsində meyarlara uyğun şəkildə bərpa edilməlidir. Sual və tapşırıqların yerinə yetirilməsi üsulları çoxseçimlidir. Bu tipli tapşırıqları tərtib edərkən, çox vacib şərtlər var ki, onlar həll edilməlidir. Bu tip tapşırıqların yerinə yetirilməsi prosesində dilöyrənənlər tərəfindən cavabların qarışdırılması ehtimalı vardır. Mətnlərin məzmununun izah edilməsi, mətndaxili elementlərin mənimsənilməsi, təhlil olunması bu ehtimalı azaldır. Mətnin başlıqları və ya birləşdirici elementlər parçalama, bölünmə vahidi kimi nəzərə alınmır.

Tapşırıq və çalışmaları tədris edərkən onları təhlil və sintez etmək mütləqdir. Bu təsnifatda J.P.Küq və İ.Qrüka daha çox mətn və onun şərhini, izahatını, sintez və təhlilini əks etdirirlər [1]. Bu tapşırıqlar çoxlu linqvistik məhdudiyyətlər tələb edir, çünki yalnız bəzi linqvistik biliklərə yiyələnməklə kifayətlənmək lazım deyil, bərabər surətdə mütləq şəkildə mətnin yazı texnikasını, yazı qaydalarını, janrını başa düşmək lazımdır. Bu tip tapşırıqlar yuxarı və orta səviyyəli dilöyrənənlərin linqvistik bilik və bacarıqlarının daha yaxşı qiymətləndirilməsinə, ümumi mənada onların bilik və bacarıqlarının hansı səviyyəyə uyğun olduğunu müəyyənləşdirməyə imkan verir.

Ədəbiyyat:

1. Besse, H., Porquier R., Grammaire et didactiques des langues, Paris: Didier, 1991, 286 p.
2. Besse, H. Enseigner la compétence de communication? // Le français dans le monde. Paris, 1985, mai-juin, № 153, p. 41-47
3. Cuq, J-P., Gruca, I., Cours de didactique du français langue étrangère et seconde, Presses universitaires de Grenoble, 2002, 454 p.
4. Lamailloux, P., et Alii., Fabriquer des exercices de français, Paris : Hachette, 1993, 122 p.
5. Vigner, G., La grammaire en FLE, Paris, Hachette, 2004, 160 p.
6. Vigner G., L'exercice dans la classe de français, Paris, Hachette, 1984, 219p.

Tagi-zade Jamala Fuad

Classification of Grammar Tasks in Teaching French as a Foreign Language

SUMMARY

The issue of teaching foreign languages is particularly relevant in modern days. Thus, more changes are taking place in the nature of education.

In teaching French as a foreign language, grammar allows you to first master language elements and then analyzes them. The main goal of learning French as a

foreign language is the acquisition of knowledge and skills, and the types of grammatical activities should be different from those of the mother tongue.

The article describes the types of grammar tasks. These tasks have a stimulating role for the formation and development of students' knowledge, skills and habits, as well as their competence. Tasks performed to strengthen knowledge and skills lead to the mastery of grammar rules and increase the student's self-confidence. In this article is examined the opinions of J.P. Kug, I. Gruka and other grammarians and the types of tasks investigated at this time have an important role in establishing and strengthening the foundation of a foreign language. The performance of tasks and studies related to the text is adapted to the concept of teaching modern French as a foreign language as a method of clear, precise explanation of grammar.

There are different types of grammar exercises. These tasks require a lot of linguistic restrictions, because it is not necessary to be satisfied with only acquiring some linguistic knowledge, but it is also necessary to understand the writing technique, writing rules and genre of the text. This type of tasks allows for a better assessment of the linguistic knowledge and skills of upper and middle level learners and to determine the level of their knowledge and skills in a general sense.

Key words: *grammar tasks, study types, comprehension tasks, question-answer type tasks, closed question type tasks, text type tasks*

Тагы-заде Джамаля Фуад

Классификация грамматических задач в преподавании французского языка как иностранного

РЕЗЮМЕ

Вопрос обучения иностранным языкам особенно актуален в наши дни. Таким образом, в природе образования происходят новые изменения.

При обучении французскому языку как иностранному грамматика позволяет сначала освоить элементы языка, а затем проанализировать их. Основной целью изучения французского языка как иностранного является приобретение знаний и умений, при этом виды грамматической деятельности должны отличаться от видов грамматической деятельности родного языка.

В статье описаны виды грамматических задач. Эти задания имеют стимулирующую роль для формирования и развития знаний, умений и навыков учащихся, а также их компетентности. Задания, выполняемые по закреплению знаний и умений, приводят к овладению грамматическими правилами и повышают уверенность ученика в себе. В данной статье рассматриваются мнения Дж. П. Куга, И. Груки и других грамматиков, а также типы задач, исследуемых в это время, имеющие важную роль в формировании и укреплении основ иностранного языка. Выполнение заданий и занятий, связанных с текстом, адаптировано к концепции преподавания современного французского языка как иностранного как метода ясного, точного объяснения

грамматики.

Существуют различные виды грамматических упражнений. Эти задачи требуют множества лингвистических ограничений, поскольку не обязательно довольствоваться лишь приобретением некоторых лингвистических знаний, но необходимо также понимать технику письма, правила написания и жанр текста. Задания такого типа позволяют лучше оценить лингвистические знания и умения учащихся старшего и среднего уровня, а также определить уровень их знаний и умений в общем смысле.

Ключевые слова: *грамматические задачи, учебные типы, задачи на понимание, задачи типа вопрос-ответ, задачи типа закрытого вопроса, задачи типа текста*

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Əsgər Zeynalov tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
İRADƏ İSA QIZI İMANOVA
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası
alizadetamara@yahoo.com

XALQ TƏBABƏTİNDƏ TERMİN SƏCİYYƏLİ SÖZLƏR

Açar sözlər: xalq təbabəti, inanclar, folklor, dilçilik, terminlər, leksika.
Key words: folk medicine, beliefs, folklore, linguistics, terms, lexicon.
Ключевые слова: народная медицина, верования, фольклор, языкознание, термины, лексика.

Bəllidir ki, xalq təbabəti inanclara, nəsillərin uzun illər ötürdükləri biliklərə əsaslanır. Bu üsullar xalq arasında türkəçarəlik adlanır. *Yarpız, kəklikotu, çobanyastığı, qantəpər* və s. bitkilər müxtəlif narahatlıqların aradan qaldırılmasında istifadə edilir. Xüsusilə *soyuqlama, üşütmə, öskürək, boğaz ağrıları, baş və diş ağrıları* zamanı xalq təbabəti üsullarından istifadə edilir. Türkəçarəlik demək olar ki, 1930-cu ildən sonra izlənilmişdir. Azərbaycan ədəbiyyatında, etnoqrafiyasında, folklorunda, dilçiliyində xalq təbabəti məsələlərinin araşdırılması olduqca aktualdır. Bu elmlər arasındakı qarşılıqlı əlaqə baxımından araşdırmalarda xalq təbabəti maraqlı mənbələrdəndir. Xalqımızın xalq təbabəti sisteminin geniş, hərtərəfli araşdırılması yeni elmi nəticələr ortaya qoyacaqdır. Bunun üçün kompleks tədqiqat nəzərə alınmalıdır. Çünki xalq təbabəti ilə bağlı nümunələrə folklorumuzda, klassiklərimizin əsərlərində rast gəlinir. "Xalq təbabəti xalqımızın mərasim folkloru və etnoqrafiyası ilə birbaşa bağlı olduğundan, onunla harmonik vəhdət təşkil etdiyindən, başqa sözlə, xalq təbabəti bir sıra mərasimlərin, məsələn, doğuşla bağlı mərasimin bir parçası olduğundan, onun araşdırılması, müəyyən mənada elə mərasim folkloru və etnoqrafiyanın araşdırılaraq öyrənilməsi deməkdir" (3, 21).

Azərbaycan dilçiliyində xalq təbabəti leksikası qədim tarixə malikdir. Xalqımız ta qədimdən türkəçarədən, xalq təbabətinin ənənəvi üsullarından istifadə etmiş, faydasını görmüşdür. Bu gün də elmin yüksək səviyyədə inkişafına rəğmən xalqımız türkəçarəyə inanır, nəsillərin bizə ötürdüyü faydalı xalq təbabəti üsullarını inanaraq tətbiq edir və xeyirini görür. Əsrlər boyu xalqın inam süzgəcindən keçən faydalı türkəçarə üsulları bu gün də toplanır, yazıya alınır, faydası diqqətə çatdırılır, elmi tədqiqata cəlb edilir.

Azərbaycan dilinin xalq təbabətində işlənən termin səciyyəli sözlərin böyük əksəriyyəti türk mənşəli sözlərdir. Bu terminlərin içərisində ərəb, fars, eləcə də digər dillərə məxsus sözlərə rast gəlinir ki, bunlar elmi, mədəni, ictimai, siyasi münasibətlərin qarşlıqlı inkişafı nəticəsində dilimizə daxil ola bilmişdir. Xalq təbabətinə dair termin səciyyəli sözləri diqqətdən keçirərkən onları aktiv və passiv

işlənmə dərəcəsinə görə 2 qrupa ayırıldığını görmək mümkündür. Aktiv işlənənlər ümumişlək sözlər olaraq diqqəti çəkir. Passiv şəkildə işlənənlər yaşlı insanların dilindən folklor nümunələri toplayarkən onların dilində müşahidə olunur, müəyyən dialekt və şivədə məhdud şəkildə rast gəlinir. "İnsan beyninin möcüzələri çoxdur. Dastanlarımızda "ürəyə dammağın", "dalağı sancmağın", "gözləri səyriməyin", "sümüyü sancmağın" özünəməxsus psixoloji yozumu olsa da, istər fiziologiyada, istər psixologiyada onların mahiyyəti nəinki elmi zəmindən təhlil edilmiş, hətta uzun müddət birtərəfli aydınlaşdırılmışdır" (2, 15).

Xalq təbabəti terminləri də peşə-sənət sözləri qrupuna aid edilir. Bu qəbil sözləri daha çox bölgələrdə yaşlı insanların dilində izləmək mümkündür. Xalq təbabətində xalq danışıq sözləri çoxluq təşkil edir: *mamaça, əbəçi, boylu, döyənəh, şil, müsdər* və s. Q.Qəmbərova qeyd edir ki, "ümumxalq səciyyəli sözlər – təbabət leksikası bəzən xalq dilində metoforikləşir. Bu da maraqlı dil faktı olub xalqın qədim inam və etiqadına əsaslanır. Məsələn, xalq arasında xərçəng xəstəliyi - zəhrimar. şiş xəstəlikləri - yaman, qızılca – mübarək, vərəm – incə dərd , kəkliyi azmaq – həzm pozğunluğu, çiçək – gül xəstəliyi və s. işlənir" (7, 14).

Xalqımızın təbabət sahəsində bilikləri həm insan, həm heyvan xəstəliklərində inkişaf etmişdir. N.Həsənova xalq təbabətində müşahidə edilən sözlər arasında xəstəlikləri insan xəstəlikləri və heyvan xəstəliklərinin adları olaraq 2 qrupa ayıraraq aşağıdakı termin səciyyəli sözləri qeydə almışdır:

a) İnsan xəstəlikləri ilə bağlı sözlər: xora, inağ//inax, qarayara (Dilinə qarayara çıxsın), dəmrov, qotur, ala (Ciyarına ala düşsün), çivan, çiçək//suçiçəyi (Gözəlağa gözəliydi, vurdu çiçək çıxartdı), uruf tutma, ürəkgetmə, yatalax, silli//vərəm, qızılyel, yel//quluş, sancı, göbəkdüşməsi, qəbizlik, titrətmə, isitmə, sarılıx, xəlyar, boğma, qızılca (Laylay deyim ucadan, Səsim çıxsın bacadan, Tanrı səni saxlasın, Boğmadan, qızılcadan).

b) Heyvan xəstəlikləri ilə bağlı sözlər: qaradalax(dalaq xəstəliyi adı), öfgə (ağ ciyər xəstəliyinin adı), qarayanıx (iflic), yaman (qaramalda əmələ gələn bəd şiş), çiçək (səpki), dilbaş (dildə əmələ gələn yara), davax (qaramalda əmələ gələn yara), şirə (dəri xəstəliyi), qeysər (atda əmələ gələn xəstəlik)manqoy (soyuqdəymə), çər//çərrəmə (zərərverici yara), dənədüşmə//arpayadüşmə (buğda, arpa yeməkdən heyvanda əmələ gələn xəstəlik), xirtdək (boğazda əmələ gələn xəstəlik), qurdağzı (canavardan keçən xəstəlik adı), ala (atda yoluxucu xəstəlik adı), göycə, durax (sarılıq) (4, 38).

Xalq arasında işlənən bir sıra xəstəliklərin adlarına ayrılıqda diqqət edək:

Qızılca – infeksion xəstəlikdir. Dərinin üzərində qırmızı səpkilərlə müşahidə olunur. Qırmızı rəng anlamındadır. Bu gün dilimizdə "qızıl-qırmızı" ifadəsi müxtəlif məqamlarda qoşa işlənir. Uzun illərin müşahidəsinə görə, insan qızılcanı ömründə yalnız bir dəfə keçirir. Xalq arasında inanca görə, qızılca tutan insana "mürarəkdir!"

deyilib, onun yatdığı otaq tamamilə qırmızı rənglə əhatələnib, qırmızı paltar geydirilib, qırmızı üzlü yataq dəstinə üstünlük verilib.

Bu il (2023) qızılça xəstəliyi daha çox müşahidə olunur və dünyada xəstəliklərin artma səbəbindəndir ki, analarımızın, nənələrimizin təmkinlə yoluna qoya bildiyi bu xəstəlik hazırda qorxu və təşvişlə qarşılanır.

Qızılca xəstəliyi tutan insana daha çox növbənöv şirniyyat yemək tövsiyə olunub.

Göy öskürək – öskürəyin ardıcıl müşahidə edilməsi, göynəmə verməsi ilə müşahidə edildiyindən belə adalnır. Göy öskürək də yoluxan xəstəlikdir. Şivələrdə inağ adı ilə də rast gəlinir.

Sarılıq – bu xəstəlik göz dibinin saralması ilə müşahidə olunur. Xəstəliyin əlaməti olaraq öd ifrazının problemi müşahidə edilir.

Qara yara – infeksion xəstəlikdir. Xəstə heyvanla təmasda olmuş insana yoluxma ehtimalı böyükdür.

Qara su – bu xəstəlik iki anlamda müşahidə edilir: 1. elmi təbabətdə olan qlaukoma xəstəliyinin xalq arasında işlənən adı; 2. qurd xəstəliyinin fəsadı kimi ağızdan axan su mənasında.

Əsrlər boyu xalqımızın ruhundan süzülüb gələn türkəcarələr, el inancları aqillərimizin, müdriklərimizin ağızdan-ağıza ötürərək qoruyub yaşatdıqları örnəklərə bu gün də yaşamaq hüququ vermələri təqdirəlayiqdir. Əlbəttə, mütləq həkim məsləhəti və həkim tövsiyəsi əsasında qəbulu mümkün olan bir sıra türkəçarə nümunələri vardır:

Göyöskürəyə, mədə-bağırsaq xəstəliyinə tutulanlara acqarına tut bəhməzi (doşabı) içmək məsləhətdir.

Böyrək və öd kisəsi ağrılarından əziyyət çəkənlərə acqarına təbii yarpız yemək və ya yeməkdən qabaq yarpız yarpağının şirəsini içmək məsləhətdir. Bu xəstənin halını yaxşılaşdırar, müalicəsinə kömək edər.

Sarılıq xəstəliyinə tutulanlara acı qıcı yemək məsləhətdir (2, 109).

Bir sıra xəstəliklərin müalicəsində iştirak edən qeyd etdiyimiz bitkilər müalicə əhəmiyyətinə görə diqqətdə olur:

Gülxətmi (bəlğəmotu) – öskürəyə qarşı, kəskin qastritlərdə yarasağaldıcı və və iltihaba qarşı vasitə kimi istifadə olunur.

Qırxbuğum (qızılcıq) – daxili qanaxmada və dəri xəstəliklərində qankəsici vasitə kimi istifadə olunur.

Quşəppəyi – mədə-bağırsaq, böyrək ağciyər qanaxmaıarında və onlarən müalicəsində istifadə olunur.

Acı qıjı – arteskleroz, qalxanabənzər vəzi xəstəliklərində, avitaminoz və qan azlığında istifadə olunur (5, 72-73).

Ziyilin müalicəsi ilə bağlı xeyli türkəçarə qeydə alınmışdır ki, nənələrimiz zamanla bu üsuldan faydalanmışlar:

Ziyilin qopub düşməsi üçün böyük bir soğanın ortasını oyaraq oraya duz töküb saxlayır, duz əriyəndən sonra həmin mayedən götürüb gündə bir neçə dəfə ziyilin üzərinə sürtmək məsləhətdir.

Cavan qoz ağacı yarpağını suda bişirərək ziyilin üzərinə bağlamaq, yaxud gicitkən yarpağını bal ilə qatıb, təpitmə kimi qoymaq da məsləhətdir.

Əhəngi sirkə ilə qatıb ziyilə sürtməklə də onu yandırıb sağaltmaq mümkündür.

Ziyili müalicə etmək üçün əncir yarpağının südünü və ya yaş qaratikanın çubuğunu ocaqda yandırıb, onun digər ucunda əmələ gəliən köpük yağını ziyilin üzərinə yaxmaq məsləhətdir.

Nəticə olaraq deyə bilərik ki, oğuz türklərinin qədim müalicə üsullarının "Dədə Qorqud" dastanında, klassiklərimizin əsərlərində, şifahi xalq ədəbiyyatında yaşadığını nəzərə alaraq bu mövzunun geniş araşdırılmasına daim ehtiyac vardır.

Ədəbiyyat

1. Həkimova N. Azərbaycan xalq təbabəti: nəzəriyyə və təcrübə. Bakı, Elm və təhsil, 2015, 304 s.

2. Həkimova N. Azərbaycan xalqının ənənəvi bilikləri. Bakı, "Nurlan", 2011, 316 s.

3. Həkimova N., Bəxtiyar T. Mifoloji təfəkkürün xalq təbabətində izləri. Bakı, 2016, 302 s.

4. Həsənova N.E. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası. Bakı, Elm və təhsil, 2014, 156 s.

5. Hüseynova M. Rus qruplarında Azərbaycan dili dərsləri (Əczaçılıq fakültəsi üçün metodik vəsait), Bakı, 2002.

6. Xalq təbabəti. Tərtib edənlər: Quliyev Y.İ., Qasımov R,İ., "Mif", Omsk, 1991, 31 s.

7. Qəmbərova Q.G. Azərbaycan dili dialekt və şivələrinin xalq təbabəti leksikası. Bakı, "Elm və təhsil", 2022, 312 s.

Xülasə

Bəllidir ki, xalq təbabəti inanclara, nəsillərin uzun illər ötürdükləri biliklərə əsaslanır. Bir çox bitkilər müxtəlif narahatlıqların aradan qaldırılmasında istifadə edilir. Xüsusilə soyuqlama, üşütmə, öskürək, boğaz ağrıları, baş və diş ağrıları zamanı xalq təbabəti üsullarından istifadə edilir. Azərbaycan ədəbiyyatında, etnoqrafiyasında, folklorunda, dilçiliyində xalq təbabəti məsələlərinin araşdırılması olduqca aktualdır. Bu elmlər arasındakı qarşılıqlı əlaqə baxımından araşdırmalarda xalq təbabəti maraqlı mənbələrdəndir. Xalqımızın xalq təbabəti sisteminin geniş, hərtərəfli araşdırılması yeni elmi nəticələr ortaya qoyacaqdır. Bunun üçün kompleks tədqiqat nəzərə alınmalıdır. Çünki xalq təbabəti ilə bağlı nümunələrə folklorumuzda, klassiklərimizin əsərlərində rast gəlinir.

Azərbaycan dilçiliyində xalq təbabəti leksikası qədim tarixə malikdir. Xalqımız ta qədimdən türkəçarədən, xalq təbabətinin ənənəvi üsullarından istifadə etmiş, faydasını görmüşdür. Bu gün də elmin yüksək səviyyədə inkişafına rəğmən xalqımız türkəçarəyə inanır, nəsillərin bizə ötürdüyü faydalı xalq təbabəti üsullarını inanaraq tətbiq edir və xeyirini görür. Əsrlər boyu xalqın inam süzgəcindən keçən faydalı türkəçarə üsulları bu gün də toplanır, yazıya alınır, faydası diqqətə çatdırılır, elmi tədqiqata cəlb edilir.

Azərbaycan dilinin xalq təbabətində işlənən termin səciyyəli sözlərin böyük əksəriyyəti türk mənşəli sözlərdir. Bu terminlərin içərisində ərəb, fars, eləcə də digər dillərə məxsus sözlərə rast gəlinir ki, bunlar elmi, mədəni, ictimai, siyasi münasibətlərin qarşlıqlı inkişafı nəticəsində dilimizə daxil ola bilmişdir. Xalq təbabətinə dair termin səciyyəli sözləri diqqətdən keçirərkən onları aktiv və passiv işlənmə dərəcəsinə görə 2 qrupa ayırıldığını görmək mümkündür. Aktiv işlənənlər ümumişlək sözlər olaraq diqqəti çəkir. Passiv şəkildə işlənənlər yaşlı insanların dilindən folklor nümunələri toplayarkən onların dilində müşahidə olunur, müəyyən dialekt və şivədə məhdud şəkildə rast gəlinir.

Xalq təbabəti terminləri də peşə-sənət sözləri qrupuna aid edilir. Bu qəbil sözləri daha çox bölgələrdə yaşlı insanların dilində izləmək mümkündür. Xalq təbabətində xalq danışıq sözləri çoxluq təşkil edir. Məqalədə həmin sözlərin işlənmə dairəsi diqqətə çatdırılır, bir sıra örnəklər verilir, bəzi sözlərin etimologiyasına nəzər salınır.

Alizadeh T., İmanova İ.

Words characteristic of the term in folk medicine

Summary

It is clear that folk medicine is based on beliefs and knowledge passed down by generations for many years. Many herbs are used to relieve various ailments. Folk medicine methods are used especially for colds, chills, coughs, sore throats, headaches and toothaches. Researching the issues of folk medicine in Azerbaijani literature, ethnography, folklore, and linguistics is very relevant. In terms of the interaction between these sciences, folk medicine is one of the interesting sources in research. A wide and comprehensive study of the folk medicine system of our people will reveal new scientific results. For this, complex research should be considered. Because examples of folk medicine can be found in our folklore and works of our classics.

The lexicon of folk medicine in Azerbaijani linguistics has an ancient history. Our people have used traditional methods of folk medicine from ancient times and have seen its benefits. Even today, despite the high level of development of science, our people believe in Turkish medicine, believe in and apply the useful folk medicine methods handed down to us by generations, and see their benefits. Even today, useful Turkish cure methods that have passed through the people's trust filter for centuries

are collected, written down, their benefits are brought to attention, and they are involved in scientific research.

Most of the term-specific words used in the folk medicine of the Azerbaijani language are of Turkish origin. Among these terms, there are words belonging to Arabic, Persian, as well as other languages, which were able to enter our language as a result of mutual development of scientific, cultural, social and political relations. When looking at the characteristic words of folk medicine, it is possible to see that they are divided into 2 groups according to the degree of active and passive processing. Active verbs stand out as common words. Passive passives are observed in the language of older people when collecting folklore samples from their language, and are found in a limited way in certain dialects and dialects.

Folk medicine terms also belong to the group of professional-art words. It is possible to trace such words in the language of older people in more regions. In folk medicine, folk colloquialisms are the majority. The article draws attention to the scope of these words, gives a number of examples, and looks at the etymology of some words.

Ализаде Т.,
Иманова И.

Слова, характеризующие термин в народной медицине

Резюме

Понятно, что народная медицина основана на верованиях и знаниях, передаваемых поколениями на протяжении многих лет. Многие травы используются для облегчения различных недугов. Методы народной медицины используются особенно при простуде, ознобе, кашле, ангине, головной и зубной боли. Исследование вопросов народной медицины в азербайджанской литературе, этнографии, фольклоре, лингвистике весьма актуально. С точки зрения взаимодействия этих наук народная медицина является одним из интересных источников исследований. Широкое и всестороннее изучение системы народной медицины нашего народа позволит выявить новые научные результаты. Для этого необходимо провести комплексное исследование. Потому что примеры народной медицины можно найти в нашем фольклоре и произведениях наших классиков.

Лексика народной медицины в азербайджанском языкознании имеет древнюю историю. Наш народ с древних времен использовал традиционные методы народной медицины и убедился в ее пользе. Даже сегодня, несмотря на высокий уровень развития науки, наш народ верит в турецкую медицину, верит и применяет полезные методы народной медицины, переданные нам из поколения в поколение, и видит их пользу. Даже сегодня полезные турецкие методы лечения, прошедшие через фильтр доверия людей на протяжении

веков, собираются, записываются, доводятся до сведения их пользы, привлекаются к научным исследованиям.

Большинство терминоспецифичных слов, используемых в народной медицине азербайджанского языка, имеют тюркское происхождение. Среди этих терминов есть слова, принадлежащие арабскому, персидскому, а также другим языкам, которые смогли войти в наш язык в результате взаимного развития научных, культурных, социальных и политических связей. Если посмотреть на характерные слова народной медицины, то можно увидеть, что они делятся на 2 группы по степени активной и пассивной обработки. Активные глаголы выделяются как общие слова. Пассивные пассивы наблюдаются в языке пожилых людей при сборе фольклорных образцов из их языка и ограниченно встречаются в отдельных диалектах и диалектах.

Термины народной медицины также относятся к группе профессионально-художественных слов. Подобные слова можно проследить в языке пожилых людей и в других регионах. В народной медицине народные просторечия составляют большинство. В статье обращается внимание на объем этих слов, приводится ряд примеров, рассматривается этимология некоторых слов.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent **Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur**

AYNUR ŞİRİN QIZI MİRZƏYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici dillər kafedrasının baş müəllimi
Azeri_0704@yahoo

QARABAĞIN ETNOTOPONİMLƏRİ QARABAĞNAMƏLƏRDƏ

XÜLASƏ

"Qarabağın etnotoponimləri Qarabağnamələrdə" adlı məqalədə müxtəlif müəlliflər tərəfindən yazılmış " Qarabağnamə"lər tədqiqata cəlb edilmiş, toponimlər və etnotoponimlər vasitəsilə, Qarabağın əzəldən Azərbaycan torpağı olduğu , ermənilərin sonradan köçürülmə nəticəsində , gəlmə olduğu tarixi faktlarla, öz əksini tapmışdır. "Qarabağnamə" lərdə müəlliflər əsasən Qarabağın tarixi coğrafiyasını, etnik tərkibini, Qarabağda və onun ətrafında baş vermiş siyasi hadisələri, o cümlədən Azərbaycanın bu gözəl, mənzərəli guşəsində olan milli abidələrimiz, Qarabağ xanları tərəfindən yeni salınmış yaşayış məskənlərini geniş şəkildə qələmə alırlar. Mirzə Adıgözəl bəy öz əsərini Azərbaycan dilində, Mirzə Camal Cavanşir fars və Əhməd bəy Cavanşir isə rus dilində yazmışlar. " İyirmi dörd" mahalı Qarabağ xanlığının iyirmi iki mahalından biri idi. 1823- cü ildə bu mahalda 155 ailə, hər ailəyə 5 nəfər hesab etmiş olsaq 800 nəfərə yaxın adam yaşayırdı. Bu mahal Qarabağ xanlığının ən kiçik mahallarından biri idi. Burada yaşayan əhalinin sayı bütün Qarabağ xanlığı əhalisinin yüzdən birini belə təşkil etmirdi.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"əsərində Qarabağın 1736- cı ildən 1828- ci ilə kimi siyasi tarixi göstərilir.Bu illərdə Azərbaycan İran dövlətinin hakimiyyəti altından çıxdı və onda iyirmiyə yaxın müstəqil xanlıqlar əmələ gəldi. Qarabağ xanlığı isə Şuşa şəhərindən və təqribən 250 kənddən ibarət idi. Pənah xan Pənahabad qalasını (Şuşanı) tikdirir və Qarabağ üzərində öz hakimiyyətini və istiqlaliyyətini , Azərbaycanın cənub hissəsinin güclü xanlarından – Məhəmməd Həsən xan Qacardan və Fətəli xan Əfşardan cilah gücü ilə qoruyur. Eyni zamanda o, öz hakimiyyəti altında olan ərazini cənub- qərbə- Naxçıvan tərəfə və cənub- şərqə- Təbriz tərəfə genişləndirməyə çalışır. "Qarabağ xanlarının tarixinə dair" ikinci əsərin müəllifi Mirzə Camal Cavanşirdir. Əsər Qarabağın coğrafi vəziyyətinin təsviri ilə başlayır.Sonra Qarabağ xanlığının şəcərəsi verilir. "Qarabağnamələrin hər ikisi eyni dövrü əhatə edir Üçüncü "Qarabağnamə" Əhməd bəy Cavanşirin" Qarabağ xanlığının 1747-1805- ci illərdə siyasi vəziyyətinə dair" əsəridir. Bu əsər faktların çoxluğu və onların izahı etibarı ilə Qarabağ tarixini öyrənmək üçün bir vəsait kimi qəbul edilə bilər." Qarabağnamə" lər Qarabağın etnotoponimlərini öyrənmək baxımından ən zəngin mənbələrdir.

Açar sözlər: Azərbaycan, Qarabağ, Qarabağın tarixi, Qarabağnamələr, toponimlər, etnotoponimlər

Qarabağın etnotoponimlərinin tədqiqi günümüzün əsas məsələlərindəndir. Qarabağın etnotoponimlərinin araşdırılması, təkcə elmi aktuallığı ilə deyil, siyasi cəhətdən də çox əhəmiyyətlidir.

T.Hacıyev və K.Vəliyev 1983-cü ildə nəşr olunan "Azərbaycan dili tarixi" kitabında yazırlar ki, " qədim dövr tarixçiləri toponim və etnonimlərə mötəbər sənəd kimi müraciət edirlər.Həqiqətən bu qəbildən olan sözlər mövcud torpağın əsl yaddaşıdır.Bu ərazidə nəsillər dəyişir, müxtəlif dilli etnoslar gəlib-gedirlər, toponimlər isə yerində durub müşahidə aparır, gələnləri qəbul edir, gedənləri yola salır, ancaq ona ilk dəfə verilən adı özü ilə yaşadır.Azərbaycan toponimləri də bu torpağın qədim tərcümeyi- halını bizə çatdırır (1). T. Əhmədov yazır ki, coğrafi adlar hər hansı bir ərazidə tarixən mövcud olmuş və hazırda mövcud olan xalqların tarixi keçmişini, mədəniyyətini, iqtisadiyyatını, ictimai və sosial vəziyyətini , adət və ənənəsini, eləcə də dillərinin aradan çıxmış, arxaikləşmiş, müəyyən xüsusiyyətlərini əks etdirən abidələr kimi yaşamaqdadır (2,13). B.Budaqov toponimikanın coğrafiya, tarix və dilçilik elmləri ilə əlaqəsini aşağıdakı formada xarakterizə edir: " Coğrafi adlar əsasən üç ixtisas sahiblərinin- coğrafiyaşünasların, tarixçilərin və dilçilərin birgə əməyi sayəsində tədqiq edilir. Bir neçə elmin sərhədlərində yaranmış toponimika, coğrafiyasız- məkansız, dilçilik elmindən kənar-lal , tarixsiz- köksüz olardı. Ona görə toponimləri tədqiq edən hər bir şəxs hər üç elmin əsaslarına dərindən yiyələnməlidir (3,101-102). Qarabağın etnotroponimlərini tədqiq edərkən görkəmli toponimistlər T.Haciyev, K.Vəliyev, T. Əhmədovun, B.Budaqovun yazdıqları kimi coğrafi adlar, toponim və etnotoponimlər xalqın keçmişini, mədəniyyətini, ictimai və sosial vəziyyətini əks etdirən abidələr kimi nəsildən – nəslə ötürülür və Qarabağ torpağının tərcümeyi- halını nəsillərə çatdırır. Qarabağın etnotoponimlərini tədqiq etmək üçün ən etibarlı mənbələrə "Qarabağnamə"lərə müraciət edilmişdir. Əsərdəki hadisələrin çoxunu gözləri ilə görmüş, Qarabağda yaşamış, torpağını qarış- qarış gəzmiş, tarixinə mədəniyyətinə öz tohfələrini vermiş, görkəmli ziyalılarımız tərəfindən yazılmış "Qarabağnamə"lərə müraciət edilmiş, etnotoponimlərimiz seçilmiş, tədqiqata cəlb edilmiş, linqvistik təhlil edilmişdi. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın tarixini,mədəniyyətini, etnoqrafiysını, toponimlərini öyrənməkdə "Qarabağnamələr"in xüsusi əhəmiyyəti var. Qarabağın tarixini , mədəniyyətini , toponimlərini öyrənən on Qarabağnamə var. 1.Mirzə Adıgözəl bəy "Qarabağnamə", 2.Mirzə Camal Cavanşir "Tarix-e Qarabağ", 3.Əhməd bəy Cavanşir " 1747-1805-ci illərdə Qarabağ xanlığığının siyasi vəziyyətinə dair ", 4. Mirzə Yusif Qarabaği " Tarixi –safi",Mir Mehdi Xəzani "Kitabi- Tarixi- Qarabağ",6.Rzaqulu bəy Mirzə Camal oğlu " Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" , 7. Mirzə Rəhim Fəna " Tarixi- cədidi- Qarabağ", 8.Məhəmmədəli bəy Məxfi " Əhvalati – Qarabağ", 9. Həsən İxfa Əlizadə "Şuşa

şəhərinin tarixi “, 10..Nəsənəli xan Qaradaği “Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları” və b. Son zamanlarda Qarabağnamələrə tarixçilər daha çox müraciət edir. Bəzi müəlliflər iyirmidən çox “Qarabağnamə olduğunu qeyd edirlər. N. Axundov yazır ki, qeyd etməliyəm ki, XİX əsrdə çap olunan əsərlərdə Qarabağ xanlığı barədə külli miqdarda məlumat və dəlil vardır. Həmin mənbə və əsərlər əsasında bu gün Qarabağın tarixini yazmaq olardı.Lakin təəssüflə onu da qeyd etməliyəm ki, uzun müddət Ermənistanda peyda olmuş üzdəniraq müəlliflərin Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ haqqında ardı-arası kəsilmədən nəşr etdirdikləri cəfəngiyata durğunluq dövründə Azərbaycan alimlərinin və yazıçılarının yazdıqları rəyləri nə respublika,nə də respublikadan kənarda çap etmək mümkün deyildi. Qarabağ torpağında gözləri olan erməni ekstremistləri nəyin bahasına olursa-olsun Azərbaycan torpağının bu gözəl guşəsini Ermənistana birləşdirməyə can atırlar. Halbuki, xalqımız nə ASSR yaranarkən, nə də onun yaxın minillik tarixi ərzində heç kimin ərazisini zəbt etməmişdir (4, 4). Qarabağnamələr Qarabağın tarixini, toponimlərini öyrənmək baxımından ən etibarlı, dürüst mənbələrdir. Qarabağnamələri yazan müəlliflərin bir çoxu o, hadisələri görmüş, ya eşitmiş şəxslərdir. Qarabağnamələrə müraciət etdikdə, onlardan seçilmiş etnotoponimləri tarixi nöqteyi – nəzərdən , dilçilik baxımından linqvistik təhlil edəcəyik. “Qarabağnamə”lərdə müəlliflər əsasən Qarabağın tarixi coğrafiyasını, etnik tərkibini, Qarabağda və onun ətrafında baş vermiş siyasi hadisələri, o cümlədən Azərbaycanın bu gözəl, guşəsində olan milli abidələrimiz göstərilmişdir.İlk Qarabağnamə Mirzə Adıgözəl bəyin Qarabağnaməsidir.Mirzə Adıgözəl bəy “Qarabağnamə”ni 1845-ci ildə yazmışdır. Mirzə Adıgözəl bəyin “Qarabağnamə”əsərində Qarabağın 1736-cı ildən 1828- ci ilə kimi siyasi tarixi göstərilir. Bu illər ərzində siyasət aləmində bir çox hadisələr olmuşdur.1747- ci ilə kimi, yəni Nadir şah oldürülənə kimi Qarabağ İran dövlətinin hakimiyyəti altında idi. Nadir şahın ölümündən sonra , mərkəzi siyasi hakimiyyət çox zəifləmişdi.Bu illərdə Azərbaycan İran dövlətinin hakimiyyəti altından çıxdı və onda iyirmiyə yaxın müstəqil xanlıqlar əmələ gəldi. Bu dövrdə xanlıqların hər biri bir şəhərdən və iqtisadi cəhətdən onunla əlaqədar olan kəndlərdən ibarət idi.Qarabağ xanlığı isə Şuşa şəhərindən və təqribən iki yüz kənddən ibarət idi.Pənah xan Cavanşir, və “ Otuz iki” tayfalarını özünə tabe etmək üçün çalışırdı (5,17). Bu əsərdə Mirzə Adıgözəl bəy hadisələri 1826- 1828- ci illərdə Türkmənçay sülhü bağlanana kimi təsvir etmişdir. Adıgözəl bəy öz tərcümeyi- halında yazır ki, Ağa Məhəmməd şahın qoşunları yaxınlaşdığı zaman, onun atası ailəsilə və onlara tabe olan Araz çayı kənarındakı “İyirmi dörd” mahalında yaşayan köçərilərlə birlikdə Qarabağı tərk edərək Gürcüstana qaçmışdı. “İyirmi dörd” mahalı Qarabağ xanlığının iyirmi iki mahalından biri idi.Tam olmayan məlumatlara əsasən 1823- cü ildə bu mahalda 155 ailə, hər ailəyə 5 nəfər hesab etmiş olsaq 800 nəfərə yaxın adam yaşayırdı.Bu mahal Qarabağ xanlığının ən kiçik mahallarından biri idi..Burada yaşayan əhalinin sayı bütün Qarabağ xanlığı əhalisinin yüzdən birini belə təşkil etmirdi (6,858).

1823 –cü ildə həqiqi stats- sovetnik Magilevski və polkovnik A. P. Yermolov tərəfindən tərtib edilmiş "Qarabağ vilayətinin statistik təsviri"ndə göstərilir ki, Qarabağ, Şuşa , Tərtər, Ağbulaq kəndi, Danyal bəy Qmatlı obası, Barbaralı və Qaraoğlanlı kəndi, Zod kəndi, Qaraçorlu, Şadillu və s toponim və etnonimlərimiz göstərilmişdir (7,s, 152, 153,203). Qarabağnamələrdə Cavanşir, Otuziki və Kəbirli, Qarabağ elləri haqqında fərman verilir. Qarabağnamələrdən ayrı- ayrılıqda nümunələr verilir , bu tayfaların Qarabağ elinə aid olduğu misallarda göstərilir ki, Qarabağ Azərbaycanın ən qədim torpağı və ərazisidir. Məsələn , Pənahəli bəy əslən Sarıcalı tayfasındandır.Çox dövlət və nüfuz sahibi olduğuna görə, onun başına bir çox gəlib- keçən, naxırçı, muzdur, xidmətkar, çoban və ilxıçı toplandı və böyük bir oba oldu. Bu obanın adı isə "Sarıcalı" qaldı (5, 31). Əsərdə ilk Qarabağ xanı Pənah xanın olduğu göstərilir. Pənah xan igid, cəsarətli, müdrik dövlət xadimi Qarabağda müstəqil dövlət qurmuş , əraziləri genişləndirmiş şəxsdir. Cavanşir, Kəbirli, Otuziki və Gürcüstan ellərini nadir şah Xorasana sürgün etmişdi. Nadir şahın ölümündən sonra , Pənahəli bəyin himayəsi altına gəldilər. Meqri, Güney mahallarını Bərgüşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatef və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyindən aldı. Kolanıların məskəni olub, Uşacıq kəndindən Göyçə sərhəddinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri də öz əlinə keçirdi . Bundan başqa, Dəmirçi Həsənli eli, Cinni tayfası Pənah xana itaət etdilər (5, s, 38). Qarabağ vilayətiunin əsl elatı, kənd əhalisindən başqa, Cavanşir, Otuz-iki və Kəbirlilərdir.Xəmsə adı ilə məşhur olan beş mahalın hər birinin ayrı adı vardır. Bu mahalların biri-Dizaqdır.Məlikləri MəlikYeqan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkincisi –Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Əsilləri Göyçə əsilzadələrindəndir.Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncü – Xaçındır. Məlikləri Həsən Cəlalyan övladıdır. Dördüncü- Çiləbörd mahalıdır.Məlikləri məlik Allahquludur. Əsilləri Mağavizdən gəlmədir.

Beşinci- Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir.

Verilən misallarda Qarabağın etnotoponimləri qeyd olunmuş, ermənilərin gəlmə olduğu faktlarla göstərilmişdir.

İkinci Qarabağnamənin müəllifi Mirzə Camal Cavanşirdir. Əsər Qarabağın coğrafi vəziyyətinin təsviri ilə başlayır. Sonra Qarabağ xanlığının şəcərəsi verilir. Mirzə Camalın "Qarabağnamə"sində Qarabağ xanlığının öz istiqlaliyyəti uğrunda İrana qarşı ədalətli müharibələri,Rusiya ilə İran arasında davam edən vaxtaşırı döyüşlər hərtərəfli göstərilir.Əsərdə son Rusiya –İran müharibələrinə kimi Qarabağda cərəyan edən içtimai-siyasi hadisələr də müəyyən qədər öz əksini tapmışdır (8, s.105). Qarabağnamələrin hər ikisi eyni dövrü əhatə edir. Əsərdə göstərilir ki, Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin

körpüsündən Sınıq körpüyə qədər- Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və dəmirçi – Həsənli caamatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür.

Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər – Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır.

Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır. Qarabağ vilayətində salınan birinci şəhər Tərtər çayının üstündə və Kür çayının üç ağaclığında olan Bərdə şəhəri və qalasıdır (8, s.108).

Qarabağ vilayəti və Dizaq, Bərəndə, Xaçın, Çiləbörd, Talışdan ibarət olan erməni Xəmsə mahalları və elləri Nadir şah zamanına qədər Gəncə Bəylərbəyinin hökmünə tabe olmuşdur. Cavanşir, Otuziki, Bərgüşad və başqa ellər arasında kiçik xanların olmasına baxmayaraq , bunların hamısı Yelizavetpol bəylərbəyinin hökmü altında idi (8, s.109). Əsərdə - Cavanşir, Otuziki, Kəbirli,Dəmirçi Həsənli, Bərgüşad, Qaraçorlu, Hacı Samlı, Kolanı və Qapan mahalları-etnotoponimləri haqqında məlumat verilir (8, s.146).

Üçüncü əsər Əhməd bəy Cavanşirin " Qarabağ xanlığının 1747-1805 – ci illərdə siyasi vəziyyətinə dair " əsəridir. Əhmədbəyin əsərində Ağa Məhəmməd şahın Qarabağa hücumunun təsvirinə böyük yer verilir.Əhmədbəy Qarabağın tarixini 1805 –ci ilə qədər, yəni İbrahimxanın Kürəkçay sahilində Sisianovla görüşünə qədər davam etdirmişdir. Püsyan, Qarqarlı, Cinli, Dəmirçi, Həsənli, Qızıl Hacılı,Səfi- kürd, Boy-Əhmədli, Saatlı, Kəngərli köçəri tayfaları və bir çox başqaları Qarabağa Pənah xanın yanına köçüb gəldilər (9,160). Əsərdə Zərgar, Dilağarda, Yağlıvənd, Şahsevən obalarının adları göstərilmişdi (9, s, 154).

Dördüncü əsər "Tarixi- Safi"nin mündəricəsi haqqında çox müxtəsər də olsa, ilk məlumata biz " XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" adlı məqalədə və həmin məqalə müəlliflərinin iştirakı ilə yazılmış " XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı" adlı əsərdə rast gəlirik (10, s, 6). XIX əsrin salnaməçilərindən olan Mirzə Yusif Qarabağinin (1798-1864) Rusiya –İran münasibətlərinin (1800-1828) və Azərbaycan tarixinin müəyyən səhifələrini öyrənmək nöqteyi –nəzərindən qiymətli mənbələrdən birini təşkil edən " Tarixi- Safi əsəri fars dilində yazılmışdır və hələlik bizə onun yeganə bir nüsxəsi məlumdur.Mirzə Yusif əsərin müqəddiməsində öz əsərini "Tarixi- Safi" adlandırması haqqında yazır ki, mən bir zaman köhnə və yeni Əhd (yəni İncil) kimi müqəddəs kitabların mütaliəsilə məşğul oldum. Onları tamamilə öyrəndim.Tarix kitablarında təəssübkeşlikdən doğan bəzi uyğunsuzluqları gördüm. Yalan xəbərləri eşitdim. Bəzi dostların göstərişi ilə artıq tərifdən və yalan xəbərlərdən təmiz və saf bir tarix yazmaq qərarına gəldim. Mirzə Yusif Qarabağinin 1855-cü ildə yazdığı «Tarixi Safi» əsəri Gəncə və Qarabağ xanlarının şəcərəsi, İbrahimxəlil xanın qonşu xanlıqlarla qarşılıqlı münasibətləri, xanlıqlar uğrunda Rusiya ilə Qacarlar arasında baş vermiş müharibələr, Xəmsə məlikləri, Türkmənçay sülh müqaviləsi kimi bir sıra

mühüm məsələlərin öyrənilməsi üçün qiymətli mənbələrdən biridir. Nadir şah Qarabağ ellərindən ibarət olan Cavanşirlilər, Otuzikililər və Kəbirlilərin Xorasana köçürülməsi haqqında əmr verdi.Qarabağın Xəmsə mahalındakı Çiləbörd, Xaçın, Talış, Vərəndə, Dizaq mahallarına ermənilərdən məliklər təyin etdi və onlara əmr verdi ki, heç vaxt heç kəsin əmrinə tabe olmasınlar., özlərinin lazımi şikayətlərini birbaşa padşaha yetirsinlər. Buna görə də Gəncə xanlarının səlahiyyətləri əllərindən alındı və get-gedə onlar zəifləşdilər.Qarabağ bəylərbəyinin mərkəzi Gəncə bəylərbəyi idi.

Əsərdə Şuşa şəhərinin məhəllələri aşağıdakılardan ibarətdir: Mehrili, Qazançılı,Əylisli,Çiləbörd, Dərə, Aşağı məhəllə, Quyuluq, Çuxur məhlə,Hacı Yusifli, Merdinli,Cuhudlar, Saatlı, Mamayi,Xoca Mərcanlı,Çölqala və Hamamarası və s.toponimləri göstərilmişdir.

Nəticədə "Qarabağnamələr" haqqında onu deyə bilərik ki, əsər Qarabağ torpağının tarixini, etnoqrafiyasını,sərhədlərini,toponimlərimizi, etnotoponimlərimizi öyrənmək üçün əvəzsiz mənbədir."Qarabağnamələr"də "Qarabağ" xanlığının keçdiyi yol, inkişafı, əzəli və əbədi torpağımız olması tarixi faktlarla sübuta yetirilir. Əsərdə ana xətt kimi hər bolmədə açıq- aydın ermənilərin Qarabağa gəlmə olduğu , onların Azərbaycan ərazisində torpağı olmadığı öz əksini tapır. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si Azərbaycan dilində Qarabağın tarixi haqqında yazılan ilk əsərdir.

Ədəbiyyat:

1.Hacıyev.T., Vəliyev K. Azərbaycan dili tarixi, Bakı, 1983,188 s.

2.Əhmədov. T. Azərbaycan paleotoponimiyası. Bakı, 1985

3.Budaqov.B.Ə. Azərbaycan toponimləri tədqiqinin problemləri. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları.Bakı, 1987.

4. Axundov N.Qarabağ salnamələri.Bakı, 1989, 232s.

5.Mirzə Adıgözəl bəy Qarabağnamə.Bakı, 2006, 96 s.

6.Akak, c.VI.hI, sənəd,№ 1308, s,858

7.Qarabağ vilayətinin statistik təsviri. Akak, f.24 ya 21,1,iş № 117, səh, 152, 153, 203.

8.Mirzə Camal.Cavanşir Qarabaği .Qarabağ tarixi. Bakı,1989,104s.

9. Əhməd bəy Cavanşir .Qarabağ xanlığının 1747- 1805 – ci illərdə siyasi vəziyyətinə dair". Bakı, 1989, 140 s

10.Mirzə Yusif Qarabağinin Tarixi –Safi. Bakı,2006, 108 s.

ETHNOTOPONYMS OF KARABAKH IN KARABAKH LETTERS

Mirzayeva Aynur Shirin
Azerbaijan State Economic University
Head teacher of the department of foreign languages
Azeri _0704@yahoo/com

Summary

In the article "Ethnotoponyms of Karabakh in Karabakh letterss", the "Karabakh letters" written by different authors were involved in the research, and through toponyms and ethnotoponyms, it was reflected in the historical facts that Karabakh was the land of Azerbaijan from time immemorial, and that Armenians came as a result of the subsequent resettlement. Authors in the "Karabakh letters" mainly describe the historical geography, ethnic composition of Karabakh, political events that took place in and around Karabakh, including our national monuments in this beautiful, picturesque panorama of Azerbaijan, and settlements newly built by Karabakh khans. Mirza Adigozel bey wrote his work in Azerbaijani, Mirza Jamal Javanshir in Persian and Ahmadbay Javanshir in Russian.

"Twenty-four" region was one of the twenty-two districts of Karabakh Khanate. 155 families lived in this region, and if we count 5 people in each family, about 800 people lived in 1823 y. This region was one of the smallest regions of Karabakh Khanate. The population living here was not even one hundredth of the population of the entire Karabakh Khanate. The political history of Karabakh from 1736 y. to 1828 y. is shown in "Karabakh letter" by Mirza Adigozel bey. During these years, Azerbaijan came out from under the rule of the Iranian state, and about twenty independent khanates were formed in it. The Karabakh Khanate consisted of the city of Shusha and approximately 250 villages. Panah khan builds the Panahabad castle (Shusha) and protects his authority and independence over Karabakh by force of arms from the powerful khans of the southern part of Azerbaijan - Muhammad Hasan Khan Qajar and Fatali Khan Afshar. At the same time, he tries to expand the territory under his authority to the southwest - to Nakhchivan and to the southeast - to Tabriz .The author of the second work "On the history of Karabakh Khans" is Mirza Jamal Javanshir. The work begins with a description of the geographical situation of Karabakh. Then the genealogy of the Karabakh khanate is given. Both "Karabakh letters" cover the same period. The third "Karabakh letter" is Ahmed Bey Javanshir's work "On the political situation of the Karabakh Khanate in 1747-1805 y.y.". This work is accepted as a tool for learning the history of Karabakh due to the abundance of facts and their explanation. "Karabakh letter"s are the richest sources in terms of studying the ethnotoponyms of Karabakh.

Keywords: Azerbaijan, Karabakh, history of Karabakh, Karabakh letters, toponyms, ethnotoponyms.

ЭТНОТОПОНИМЫ КАРАБАХА В КАРАБАХСКИХ ПИСЬМЕНАХ

Мирзаева Айнур Ширин кызы
Азербайджанский Государственный Экономический Университет
Старший преподаватель кафедры иностранных языков
азербайджанский _0704@yahoo/com

.

В статье «Этнотопонимы Карабаха в письменностях Карабаха» написанные разными авторами «Письменности Карабаха» были привлечены к исследованию, а через топонимы и этнотопонимы отражены в исторических фактах, что Карабах испокон веков был землей Азербайджана, и что армяне пришли в результате последующего переселения. В «Письменностях Карабаха» авторы в основном описывают историческую географию Карабаха, этнический состав, политические события, происходившие в Карабахе и вокруг него, в том числе наши национальные памятники в этом прекрасном, живописном уголке Азербайджана, поселения, недавно построенные карабахскими ханами. Мирза Адыгозель бек писал свои произведения на азербайджанском языке, Мирза Джамал Джаваншир - на персидском, а Ахмадбек Джаваншир - на русском языке.

Округ «Двадцать четыре» был одним из двадцати двух округов Карабахского ханства. В 1823 году в этом округе проживало 155 семей, а если посчитать по 5 человек в каждой семье, то проживало около 800 человек. Этот округ был одним из самых маленьких округов Карабахского ханства. Проживавшее здесь население не составляло и одной сотой населения всего Карабахского ханства. Политическая история Карабаха с 1736 года по 1828 год представлена в «Письменности Карабаха» Мирзы Адыгозел бека. В эти годы Азербайджан вышел из-под власти Иранского государства, и в нем образовалось около двадцати независимых ханств. Карабахское ханство состояло из города Шуши и примерно 250 сел. Панах хан строит крепость Панахабад (Шуша) и защищает свою власть и независимость над Карабахом силой оружия от могущественных ханов южной части Азербайджана – Мухаммад Гасан хана Гаджара и Фатали хана Афшара. В то же время он пытается расширить подвластную ему территорию к югу-западу - до Нахчывана и к югу-востоку - до Тебриза.

Автором второго труда «Об истории Карабахских ханов» является Мирза Джамал Джаваншир. Работа начинается с описания географического положения Карабаха. Затем дается генеалогия Карабахского ханства. Обе "Письменности Карабаха" охватывают один и тот же период.

Третья "Письменность Карабаха" - это работа Ахмед бека Джаваншира "О политическом положении Карабахского ханства в 1747-1805 годах". Эта работа принята как пособие для изучения истории Карабаха в связи с обилием фактов и их объяснений. «Письменности Карабаха» являются богатейшими источниками в плане изучения этнотопонимов Карабаха.

Ключевые слова: Азербайджан, Карабах, история Карабаха, письменности Карабаха, топонимы, этнотопонимы

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.e.doktoru İlhami Cəfərsoy
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEVA LALƏ KAMIL QIZI
ODLAR YURDU UNİVERSİTETİ

E-mail: Laleali547@gmail.com

XARİCİ DİLİN EFFEKTİV ÖYRƏDİLMƏSİ ÜÇÜN İKT-DƏN İSTİFADƏ METODLARI

Açar sözlər: Xarici dil, effektiv, İKT, istifadə, metod.
Ключевые слова: Иностранный язык, эффективный, ИКТ, использование, метод.
Key words: Foreign language, effective, ICT, use, method.

Xülasə

Tədqiqatın əsas məqsədi xarici dilin effektiv öyrədilməsi üçün İKT-dən istifadə metodlarının təhlilinə yönəlmişdir. Tədqiqat işi söz və məntiqi ümumiləşdirmə kimi tədqiqat metodları əsasında yerinə yetirilmişdir. Multimedia, video, animasiya, audio, qrafika və masa üstü kompüterdə effektiv təqdimatlar hazırlamaq üçün test resurslarını birləşdirməyə imkan verən kompüter avadanlığı və proqram təminatının maraqlı birləşməsi kimi müəyyən edilə bilər.

Tədqiqat daxilində multimedia vasitəsi ilə xarici dilin öyrədilməsi metodu daha geniş və genişmiqyaslı istifadə olunaraq, tədrisin keyfiyyətinin yüksəlməsinə çox böyük töhfə verilməsinin imkanı və yolları araşdırılır. Xarici dilin effektiv öyrədilməsi üçün təbaşir və danışıq metodu kifayət etmir. Bunun üçün tədris ideyalarını dəyişdirməli və onların qeyri-şəxsi xüsusiyyətini bir növ tədris metodu kimi tanımaq lazımdır.

Beləliklə, tədqiqat daxilində biz dilin tədrisi məqsədini yerinə yetirmək üçün müasir təhsil texnologiyasından əsaslı şəkildə istifadə etmə yollarını araşdırırıq. Təbii ki, hər şey müəllimin münasibətindən və hazırlığından asılıdır. Daha inandırıcısı odur ki, bütün bacarıqlar multimedia alətlərindən istifadə etməklə öyrədilə bilər. Üstəlik, onlar hər cür öyrənənləri qane edə bilər, bu isə tədris kitabı ilə tədris zamanı həmişə mümkün olmur.

«Методика использования ИКТ для эффективного обучения иностранному языку»

Алиева Лала

Резюме

Основная цель исследования сосредоточена на анализе методов использования ИКТ для эффективного обучения иностранному языку. Исследовательская работа выполнялась на основе таких методов исследования, как лексика и логическое обобщение. Мультимедиа можно определить как

интересное сочетание компьютерного оборудования и программного обеспечения, которое позволяет объединять видео, анимацию, аудио, графику и ресурсы тестирования настольных компьютеров для создания эффективных презентаций.

В рамках исследования исследуются возможности и пути внесения большого вклада в улучшение качества обучения путем использования метода обучения иностранному языку средствами мультимедиа во все более широком масштабе. Метода мела и разговора недостаточно для эффективного обучения иностранному языку. Для этого необходимо изменить представления об обучении и признать их безличный характер как своеобразного метода обучения.

Таким образом, в рамках исследования мы изучаем способы эффективного использования современных образовательных технологий для достижения целей обучения языку. Конечно, все зависит от настроя и подготовки преподавателя. Еще более убедительно то, что всем навыкам можно обучить с помощью мультимедийных инструментов. Более того, они могут удовлетворить запросы самых разных учащихся, что не всегда возможно при обучении по учебнику.

"METHODS OF USİNG İCT FOR EFFECTİVE FOREİGN LANGUAGE TEACHİNG"

Aliyeva Lala

Abstract

The main goal of the research is focused on the analysis of the methods of using ICT for effective teaching of a foreign language. The research work was performed on the basis of research methods such as vocabulary and logical generalization. Multimedia can be defined as an interesting combination of computer hardware and software that allows you to combine video, animation, audio, graphics and desktop computer testing resources to produce effective presentations.

Within the study, the possibility and ways of making a great contribution to the improvement of the quality of teaching are investigated by using the method of teaching a foreign language by means of multimedia on a wider and larger scale. The chalk and talk method is not enough for effective teaching of a foreign language. For this, it is necessary to change the ideas of teaching and to recognize their impersonal nature as a kind of teaching method.

Thus, within the study, we explore ways to use modern educational technology in a meaningful way to fulfill the purpose of language teaching. Of course, everything depends on the teacher's attitude and preparation. Even more convincingly, all skills can be taught using multimedia tools. Moreover, they can satisfy all kinds of learners, which is not always possible when teaching with a textbook.

Rəqəmsal, informasiya-kommunikasiya texnologiyaları və multimedia texnologiyaları ali təhsilin bütün elmi-pedaqoji işçilərinin və xüsusən də xarici dil müəllimlərinin praktik fəaliyyətinə o qədər sürətlə daxil olub ki, müasir zamanda onlar tədris prosesinin əsaslı tərkib hissəsinə çevrilmişdir. Bunlar tələbələrin müxtəlif növ nitq fəaliyyətinin və xarici dil kommunikativ səriştəsinin formalaşmasında yeni, demək olar ki, sonsuz imkanlar təmin edir. Üstəlik, son illərdə biz fərdi elektron kursların, mühazirələri müşayiət edən multimedia təqdimatlarının potensial xidmətlərin və imkanların keyfiyyəti baxımından tamamilə yeni tədris və subyektlərarası ünsiyyət vasitəsinə - universitetin elektron informasiya və təhsil mühitinə inteqrasiyasının şahidi oluruq.

Müasir cəmiyyətin inkişaf mərhələsi informasiya prosesləri ilə xarakterizə olunur. İnformasiyalaşdırma prosesinin əsas istiqamətlərindən biri də təhsil sisteminə yeni informasiya texnologiyaları vasitələrinin tətbiqidir. Təhsilin kompüterləşdirilməsi prosesi inkişaf etdikcə tədris materialının həcmi və məzmunu artır. Təhsil sahəsində baş verən mühüm dəyişikliklər ümumtəhsil məktəblərində xarici dillərin tədrisinə də öz təsirini göstərir. Xüsusilə, tədris prosesində internet resurslarından, tədris kompüter proqramlarından, elektron lüğətlərdən, onlayn dərslərdən istifadə kimi yeni informasiya texnologiyaları tətbiq olunmağa başlandı. Hazırda müxtəlif fənlərin, xüsusən də ingilis dilinin tədrisində informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə edən bir çox metodlar mövcuddur. Qeyd olunur ki, İKT-dən istifadə xarici dilləri öyrənərkən təhsil motivasiyasını artırmağa və tələbələrin artıq əldə etdikləri bilikləri təkmilləşdirməyə kömək edir.

Bu gün öz təhsil sahəsində kompüter texnologiyasından, televiziya və internet kommunikasiyalarından istifadə etmək bacarığı ümumi savadlılığın meyarı kimi nəzərdən keçirilməlidir, bu anlayışın ənənəvi şərhi - oxumaq, yazmaq və saymaq bacarığı ilə müqayisə edilməlidir. İnformasiya və kompüter texnologiyalarından istifadə bizim üçün xarici dilin tədrisində yeni imkanlar açır, çünki biz tədris prosesinin təşkili və tədris metodlarının yeni formaları ilə qarşılaşırıq.

Həm tələbə, həm də müəllim üçün yeni imkanlar açılır: kompüter biliyə nəzarət funksiyasını öz üzərinə götürür, dərsdə vaxta qənaət etməyə kömək edir, materialı aydın şəkildə təsvir edir, başa düşülməsi çətin olan məqamları dinamikada göstərir, şagirdlərə nə çətinlik törətdiyini təkrarlayır, fərqləndirir.

Müasir İKT-nin informasiya axtarışı, tələbələri həvəsləndirmək, onların şəxsi və peşəkar səriştələrini inkişaf etdirmək, mədəniyyətlərarası, xarici dil və dillərarası ünsiyyət problemlərini effektiv və eyni zamanda həll etməyə imkan verdiyinə görə tətbiqi fərdi və ya qrupda, sinxron rejimlərdə və ya asinxron qarşılıqlı əlaqədə, habelə müstəqil və ya pedaqoji cəhətdən təşkil edilmiş iş şəraitində, təhsildə İKT-dən istifadə üsullarının pedaqoji dizaynının üçölçülü modelləri haqqında danışmağın vaxtı gəlir, həm də müxtəlif təsir göstərir. Xarici dilin öyrədilməsinin ənənəvi

metodları çərçivəsində İKT-dən "dəstəkləyici" vasitə kimi istifadə imkanlarını nəzərdən keçirmək istərdik. Məhz tədris prosesinə müasir texnologiyaların tətbiqi müasir dünyada biliklərin sürətli artım tempi ilə fərdin onu mənimsəmək imkanlarının məhdudluğu arasında müasir təhsil sisteminin əsas ziddiyyətini həll etməyə imkan verir.

"Multimedia kompüter tərəfindən çatdırılan mətn, qrafika, səs, animasiya və videonun hər hansı birləşməsidir. İstifadəçiyə - layihənin izləyicisinə - bu elementlərin nə vaxt çatdırılmasına nəzarət etməyə icazə versəniz, bu, interaktiv multimediadır. İstifadəçinin keçə biləcəyi əlaqəli elementlərin strukturunu təmin etdiyiniz zaman interaktiv multimedia hipermediaya çevrilir [1, s.2]. Multimedia, tez-tez istifadə olunduğu kimi, elektron şəkildə ötürülən və interaktiv şəkildə baxıla bilən media toplusudur. Buraya video, foto, audio və mətn daxildir. Milyonlarla insan anlayır ki, bu gün internetdə olan materialların çoxu bu meyara uyğun gəlir.

Çoxlu texnoloji və ya rəqəmsal multimedia formatları istifadəçi təcrübəsini yaxşılaşdırmaq üçün istifadə edilə bilər, məsələn, məlumatın daha sürətli və asan ötürülməsini asanlaşdırmaq. Bir neçə media məzmunu növünün birləşməsi daha yüksək səviyyəli əlaqə yaratmağa imkan verir. Onlayn multimedia getdikcə daha çox obyekt yönümlü və verilənlərə əsaslanan arxitekturaya doğru irəliləyir ki, bu da zamanla müxtəlif məzmun növləri üzrə son istifadəçi innovasiyalarını və fərdiləşdirməni dəstəkləyən tətbiqlərə imkan verir [2, s.157].

Müasir cəmiyyətin obyektiv ehtiyacı təhsil prosesinin təşkilinin optimal yollarını, təhsilin məzmunu və strukturunun rasional variantlarını tapmaqdır. Təhsilin yeni paradiqması işığında xarici dilin tədrisinin mərkəzi problemləri təlimin məqsəd və məzmununun onlara adekvat müəyyənləşdirilməsi məsələləridir. Tələbələrin xarici dil mədəniyyəti ilə ünsiyyətdə şəxsi təcrübə əldə etmə prosesi dilin mədəniyyətlərarası idrak və qarşılıqlı əlaqə vasitəsi kimi praktik istifadə vəziyyətlərinin yaradılmasını tələb edir.

Bu baxımdan, tələbələrin mədəniyyətlərarası ünsiyyət vəziyyətlərinə cəlb edilməsinə imkan verən informasiya texnologiyalarının təhsil prosesinə inteqrasiyasına obyektiv ehtiyac var, çünki bu gün qlobal İnternet tələbələrə nümayəndələrlə orijinal mədəniyyətlərarası qarşılıqlı əlaqəyə girmək üçün geniş imkanlar təqdim edir. Bu şəraitdə tələbələrin müstəqil fərdi və qrup işlərinin payının artması, izahlı və illüstrativ təlim metodlarının üstünlük təşkil etdiyi ənənəvi dərsdən yayınma, axtarışın praktiki və yaradıcı işlərinin həcminin artması tendensiyaları mövcuddur [3, s.18].

"Multimedia" termini (ingilis dilindən "çoxlu media" kimi tərcümə olunur) audio və video avadanlığı birləşdirən vasitələri olan kompüter formasında nüvəyə malik olan proqram və aparat kompleksinə əsaslanan informasiya texnologiyasını müəyyən edir.

Multimedia texnologiyalarının üstünlükləri müəllimlər arasında artıq şübhə doğurmur. Multimedia mühiti informasiya sıxlığı baxımından fərqlidir. Multimedia

təqdimatı təkcə biliklərin təqdim edilməsinə deyil, həm də nəzarətə, möhkəmləndirməyə, təkrar etməyə, ümumiləşdirməyə, sistemləşdirməyə və buna görə də didaktik funksiyaları uğurla yerinə yetirməyə xidmət edir.

Multimedia texnologiyaları fərdi təhsil trayektoriyalarının inkişafına kömək etmək üçün nəzərdə tutulmuşdur [4]:

- tədris materialının məzmununu daha çox şagirdlərin fərdi xüsusiyyətlərinə,
- bilik və bacarıqlarının səviyyəsinə uyğunlaşdırmaq.

Tələbələrin xarici dil üzrə peşəkar bilikləri mənimsəmə prosesində müasir texnologiyalardan istifadə etməsi onlara təkcə ünsiyyət bacarıqlarını deyil, həm də informasiya və texniki bacarıqları təkmilləşdirməyə imkan verən bir ixtisas kimi dil tədrisinin inteqrasiya səviyyəsini ifadə edir.

Baxılan məsələnin nəzəri və metodoloji əsasını aşağıdakı istiqamətlər üzrə elmi nailiyyətlər təşkil edir [5]:

- ali peşə təhsilinin informasiyalaşdırılmasında
- ali təhsildə informasiya texnologiyalarından istifadə imkanlarının psixoloji-pedaqoji əsaslandırılmasında
- xarici dildə tədris prosesinin təşkili və kompüter texnologiyalarının tədris və idrak prosesində

Multimedia texnologiyalarının tədris prosesinə inteqrasiyası aşağıdakılar üçün geniş imkanlar yaradır:

- tələbələrə real vaxt rejimində və gecikmə ilə ana dili ilə canlı ünsiyyətə girmək;
- tələbələrin dil mühitinə fəal cəlb edilməsi və dil baryerinin aradan qaldırılması;
- tələbələrin yaradıcı fəaliyyəti üçün;
- kommunikativ və mədəniyyətlərarası səriştələrin təkmilləşdirilməsi;
- tələbələri xarici dil və mədəniyyət öyrənməyə həvəsləndirmək.

Xarici dillərin tədrisində internet resurslarından istifadə, internet vasitələrinin tədris prosesinə inteqrasiyası bir sıra didaktik vəzifələri daha səmərəli həll etməyə imkan verir:

- müxtəlif mürəkkəblik dərəcəsinə malik internet materiallarından birbaşa istifadə etməklə oxu bacarıqlarını formalaşdırmaq və təkmilləşdirmək;
- internetdəki autentik audio mətnlər,
- həmçinin müəllim tərəfindən hazırlanmış mətnlər əsasında dinləmə bacarıqlarını təkmilləşdirmək;
- yazı və danışma bacarıqlarını təkmilləşdirmək;
- həm aktiv, həm də passiv lüğəti müasir ingilis dilindən lüğətlə doldurmağa;
- tələbələri mədəni reallıqlar, o cümlədən nitq etiketi, ünsiyyət şəraitində müxtəlif xalqların nitq davranışının xüsusiyyətləri, mədəniyyətinin xüsusiyyətləri, öyrənilən dilin ölkəsinin adət-ənənələri ilə tanış etmək;

- autentik materiallardan sistemli istifadə və həyatla əlaqə prinsipinə sadiqlik əsasında sinifdə tələbələrin xarici dil fəaliyyəti üçün davamlı motivasiya formalaşdırmaq.

Yuxarıda sadalanan metodik prinsiplər tələbələrin xarici dilin mənimsənilməsində müstəqil işinin təşkilində yaxşı həyata keçirilir, burada əməliyyat texnologiyalarından istifadə təkcə ev tapşırığının formalarını şaxələndirməyə deyil, həm də tələbə fəaliyyətinin qrup formalarını müstəqil işə fəal şəkildə daxil etməyə imkan verir [6].

Qeyd etmək lazımdır ki, multimedia texnologiyalarından istifadə "materialın tətbiqi, möhkəmləndirilməsi və təkrarlanması mərhələlərində tədrisi səmərəli şəkildə qurmağa" imkan verir. Xarici dilin tədrisi prosesində fəal şəkildə istifadə oluna bilən, onları tədris-tərbiyə vasitələri kateqoriyasına köçürən əsas hazırda mövcud texnologiyalar iki qrupa bölünə bilər:

1) sinxron ünsiyyət vasitələri

2) asinxron ünsiyyət vasitələri.

Belə ki, ali təhsildə xarici dillərin tədrisi sahəsində İKT-nin təsnifatına ənənəvi yanaşmanın fəaliyyət-funksional xüsusiyyətlərə əsaslanaraq, səriştəyönümlü məqsəd qoyma imkanları ilə birləşdirilməsinin məqsədəuyğunluğunu nəzərə alaraq və tələbə yönümlü təhsil paradiqmasında tələbənin rolunu nəzərə alaraq hesab edirik ki, aşağıdakı müddəaları nəzərə almaq lazımdır:

- xarici dil dərslərində İKT-dən istifadə prosesində tələbələr təhsilin ayrılmaz subyekti kimi çıxış etmək bacarığı və istəyini nümayiş etdirirlər.
- mədəniyyətlərarası ünsiyyət vasitəsi kimi dünya mədəniyyətini və xarici dilləri öyrənmək prosesində özünü inkişafın şəxsi mənalarını kəşf etmək;
- bu tip təhsil texnologiyası fərdin öyrənmədə subyektiv mövqeyini maksimum dərəcədə təmin etməyə imkan verir, ona şəxsi təhsil trayektoriyasını həyata keçirmək üçün məlumatın məzmununu və miqdarını seçmək imkanı verir
- İKT gələcək peşəkar fəaliyyətlərdə tələb olunan bütün növ səriştələrin hərtərəfli inkişafı üçün zəmin yaradan təlimin meta-mövzu xarakterinə yönəlib;
- İKT fərd üçün tədris materialının mənimsənilmə sürətini və dərinliyini seçmək üçün ən rahat şərait yaradır.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən müəllimlər, tələbələr və geniş oxucu kütləsi istifadə edə bilərlər.

Ədəbiyyat

1. 1.Машкина Ю.В. Методика формирования иноязычных грамматических навыков у студентов-бакалавров лингвистического вуза посредством мультимедийной программы: автореф. дис..канд педагог. наук. Н.Новгород, 2012. С. 4.

2. Палагутина М. А. Инновационные технологии обучения иностранным языкам / М. А. Палагутина, И. С. Серповская // Проблемы и перспективы развития образования: материалы междунар. заоч. науч. конф. (г. Пермь, апрель 2011 г.). Т. I. Пермь: Меркурий, 2011. С. 156-159.

3. Игнатова Н.Ю.Информационные технологии на уроках английского языка //Иностранные языки в школе. 2012 №2.С.25

4. Евстигнеев М. Н. Методика формирования компетентности учителя иностранного языка в области использования информационных и коммуникационных технологи: автореф. дисс. канд пед.наук. М., 2012. С. 15.

5. http://www.iatefl.org.pl/cal/

6. URL:http://www.teachingenglish.org.uk

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: *dos.*Ülviyyə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

RÖYA NADİR QIZI QƏHRƏMANOVA
ADPU, XDM
omerqehreman@mail.ru

AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ SİNONİM SÖZLƏRİN QƏDİM TÜRK DİLİNDƏ VARİANTLAR ÜZRƏ LİNGVİSTİK TƏHLİLİ

XÜLASƏ

Azərbaycan tarixi dialektologiyasının qarşısında mühüm problemlərdən biri də çağdaş və şivə areallarında işlənən qədim türk sinonim sözlərin linqvistik xüsusiyyətlərinin öyrənilməsidir. Şivə sinonim sözlərinin qədim türk dilində variantlar üzrə öyrənilməsi onların tarixi-müqayisəli ümumi inkişaf qanunauyğunluqlarını, hər birinin fərqli xarakterik cəhətlərini müəyyənləşdirmək üçün zəngin material verir. Hazırda şivələrimizdə mövcud olan sinonim sözlərin ilkin, yaranış, tarixi, kökü qədim türk dilinə söykənir və müəyyən dövrlərdə etnik-siyasi proseslərin nəticəsi olaraq dəfələrlə birləşmələr və daha çox da ayrılmalar baş vermis, sonda şivə sözləri ilə qədim türk dili arasında leksik səviyyədə oxşar cəhətlər qalmaqla bərabər fərqli cəhətlər, diferensasiya da yaranmışdır. Sinonim şivə sözlərini qədim türk dili ilə müqayisəli üsulla öyrənilməsi yolu ilə onların tarixi inkişaf prespektivlərini və qanunauyğunluqlarını təyin etmək mümkündür. Həmçinin də dil və şivənin təkamül prosesində baş vermis diferensasiyanın yaranmasını şərtləndirən başlıca linqvistik faktorları da üzə çıxarmaq mümkün olur ki, məqalədə bu məsələlər şərh edilir.

Açar sözlər: qədim türk dili, şivə sinonim sözləri, sinonimlər tarixi kateqoriya kimi, leksik qarşılaşdırmalar, tarixi-müqayisəli üsul.

Azərbaycan şivələrində mövcud olan qədim türk sinonim sözləri tarixi səciyyə daşıyaraq leksik-semantik xüsusiyyətləri ilə daha çox diqqəti cəlb edir. Qədim türk sinonim vahidlərinin hər biri Azərbaycan şivə areallarında fonetik, leksik-semantik forma və mənalar daşıyaraq konkret dilin öz milli əlamətləri əsasında özünü təzahür etdirir və bu proseslərin etnolinqvistik təhlilinin verilməsi xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalarımız göstərir ki, qədim türk dilinə məxsus sinonim sözlərin əksəriyyəti tarixən tək-tək şəkillərdə, formalarda işlənmiş Azərbaycan xalq dili formalaşdırdıqdan sonrakı dövrlərdə sinonim variantlar artmış və bu proses ya çalaqlanma, çarpaşlaşma, ya da ki, qoşalaşma hadisələri nəticəsində baş vermişdir. Tarixən calaqlanma, çarpaşlaşma, qoşalaşma yolu ilə təşəkkül tapmış qədim türk sözlərinin həm Azərbaycan ədəbi dilindəki, həm də şivə areallarındakı variantları xeyli saydadır. Bir variant ədəbi dilə, digəri isə şivələrə məxsus qədim sinonim sözlərin bəziləri ya sinonim cütlüklər şəklində, ya da çoxmənalı leksik vahidlər olmuşdur. Məsələn, tarixən qədim türkcədə “pay” və “ülüş” sözləri müstəqil leksik vahidlər kimi çıxış etmiş, dil və ya dialektlərin təkamülü nəticəsində həmin

sözlər çarpazlaşaraq, qoşalaşaraq cüzi fonetik tərkibcə cildini dəyişərək şivə areallarında işlənməkdədir. Azərbaycan dilinin Gəncə, Şəki, Qax, Çəmbərək, İrəvan, Vedi, Zəngibasar dialekt və şivələrində "pay" və "ülüş" sözləri qoşalaşaraq, "paypülüş", "pay-püş", "pay-ülüş", "pay-ürüş" fonetik tərkiblərində və "pay" anlamında işlənir (1, 301; 2, 395). Tarixən qədim türk dilində "pay" və "ülüş" sözlərinin müxtəlif cür səsləndirilərək eyni mənanı bildirməsi həmin sözlərin sinonim variantlılığından xəbər verir. "Pay" sözü hazırda Azərbaycan ədəbi dilində işlənsə də, "ülüş // pülüş // puş" sözünə təsadüf etmirik və bu fonetik formaların işlənmə yeri qeyd etdiyimiz kimi dialektal areallardır. İ.Bayramov da doğru olaraq göstərir ki, Qərbi Azərbaycanın Çəmbərək şivəsində "pey" mənasında işlənən "pay-pülüş" qədim türk dilində işlənmiş "ülüş" sözünün dialekt variantıdır (1, 301). Kaşğari "Divan"ında "pay" sözü "hissə" mənasında işlənmişdir (3, 132).

Türkoloji və dialektoloji əsərləri araşdırmaqla aydın olur ki, "ülüş" sözünün fonetik, tərkibi, leksik-semantik xüsusiyyətləri haqqında çox yazılıb. B.Xəlilov "ülüş" sözünün Mahmud Kaşğari "Divan"ında, Əhməd Yəsəvinin "Divani-hikmət" əsərində, Əhməd Yügnəkinin "Atəbətül-həqaiq " əsərində, "Mənzum oğuznamə"də və eyni zamanda çağdaş Azərbaycan dilinin Ağdam, Kürdəmir, Salyan, Sabirabad şivələrində "arasına halva qoyulmuş yuxa, lavaş" mənasında işləndiyini göstərmişdir (4, 128-130). B.Xəlilovun araşdırmalarında o da aydın olur ki, Mahmud Kaşğarinin lüğətində "ülük // uluğ // ülüş" allomorfları ilə işlənmiş söz "pay", "hissə", "nəsib", "xalq arasında təqvim" mənalarını bildirmişdir (4, 128).

"Ülüş" sözünün türk dillərinin ortaq malı olan qədim abidələrdə əksi göstərir ki. bu söz həm türkcədə, həm də Azərbaycan dilinin şivə areallarında xeyli sayda sinonimik variantlar uzada bilmişdir. Azərbaycan dilinin şivə areallarında "ülüş" sözü işlənsə də, ədəbi dilində sabitləşə bilməmişdir. Bu sözün "pay" forma və mənası bütün türkcələr üçün universallıq, ümumilik yaradır və eni zamanda, "ülüş" sözü başqırd türkcəsində "ölöş", qazax türkcəsində "üleş", tatar türkcəsində "öliş", özbək türkcəsində "ülüş", özbək türkcəsində "ülüş" fonetik variantlarında işlənir, həm "pay", həm də "hissə" anlamı ifadə edərək sinonimik cərgələr yaradır (5. 694-695).

Azərbaycan dilinin əksər şivələrində qoşalaşmış şəkildə "söz-sav" leksik vahidi işlənir və bu sözlərin hər biri ayrı-ayrılıqda tarixən müstəqil olmuş, mənaca sinonim dubletlər kimi işlənmişlər, sonrakı dövrlərdə türk dilinin inkişafı ilə bağlı olaraq çarpazlaşmış, qoşalaşmış şəkillərdə özünü təzahür etdirmişdir. Sinonim dupletin birinci variantındakı "söz" leksik vahidi qədim türk dilində "nitq" anlamında işlənmişdir, qədim formaları "sab // sav" fonetik tərkibində olmuş, "sav" şəkli Kaşğarinin "Divan"ında "atalar sözü, hekayə, risalə" "Qutadqu bilig" də isə "savçı" şəkillərində işlənərək "xəbərçi" mənası bildirməsi göstərilmişdir (6, 164; 7, 18). Türk dilinin dialekt parçalanmasından öncəki dövrlərdə "so // sö // sa" şəkillərində olmuş, Azərbaycan ümumxalq dili formalaşdırdıqdan sonrakı dövrlərdə "sab // soy // söz // sav // savçı // savak" şəkillərini almışdır, yəni bu şəkillər qeyd etdiyimiz köklərdən törəyərək sinonim variantlarını da yaratmışlar. Fonetik və

semantik bu törəmələrin ümumtürk dillərində işlənməsi bütün dövrlər üçün xarakterik olmuşdur. Çağdaş çavuş dilində "savak" sözü "söz" mənası bildirir (8, 161). Türk dilinin qərb şivələrində "söz anlayışı "söv // sök // soy" kəlməsi bildrir" (8, 41). "Kitabi – Dədə Qorqud" dastanlarının dilində "söy" kəlməsi "soy" fonetik tərkibində işlənmişdir: "Ananın bir "soy" dəxi söylədi, aydır" (9, 57). Bəzi mənbələrdə xalqın qədim dövrlərdən yaratdığı sayaçılarda həmin söz "söy-sov" şəklində işlədildiyi qeyd edilir (10, 8). XII əsrə aid yazılı abidədə ("Qisseyi-Yusif" də) "Söylər nersən söyləməyə sözün yaxşı – beytində həm "söy", həm də "söz" kəlimələri işlədilmişdir" (11, 121).

Xalq arasında "sözün-savın" yoxdu ki"; "sözdən-sovdan" nə var! kimi ifadələr də əsas verir deyək ki, "söz-sov" tarixən mənaca sinonim sözlər olmuş, biri ədəbi dildə sabitləşmiş, digəri isə arxaikləşsə də şivələrdə öz izini qoruyub saxlamışdır. B.Əhmədovun nəzərincə, müasir türkcələrdəki "söymək" sözü də "söylə" və "söz" kəlimələri ilə kökdaşdır. "Söymək" sözü də "söylə" və "söz" kəlimələri ilə qohumdur. "Söz söyləmək" və "söz demək" ifadələri sinonimdir. "Söyləmək" sözünün qədim forması "söyləmək" olub. İndi "söy" müstəqil kök kimi işlənmədiyindən "söylə" kəlməsi sadə söz hesab olunur (12, 232).

Hər ikisi semantik bağlılıq yaradıb biri Azərbaycan ədəbi dili üçün, digəri dialekt və şivələr üçün xarakterik olan qədim türk sinonim sözlərdən biri də "səs" və "ün" leksik vahidləridir. Ədəbi dilimiz üçün səciyyəvi olan "səs" sözü çağdaş Türkiyə türkcəsi və türkmən dili üçün də xarakterikdir (5, 764-765). Türk, Azərbaycan, türkmən dillərinin qrammatika kitablarında "səs" sözü ilə bağlı xeyli terminlərdən istifadə edilir. Mahmud Kaşğarinin lüğətində "ün" sözü sadə və düzəltəm formaları ilə qeydə alınmış və onların mənaları da göstərilmişdir: ün =səs; ün = ad-san; ündə = ünləmək, çağırmaq; ündış = çağırmaq" (14, 621-622). Türkiyə türkcəsinin ədəbi dilində əsasını "ün" sözü təşkil edən "ünlem" (qramer), ünlü (şöhrətli, məşhur), ünlü (qramer), ünsiyyet (ünsiyyət), ünsüz (qramer) sözlər işlənir (5, 928-929). Azərbaycan dilinin qrammatika kitablarında ilk dəfə Ə.Dəmirçizadə "ünlü" və "ünsüz" sözlərindən termin kimi faydalanmışdır (15, 38).

Azərbaycan dilinin dialektoloji lüğətlərində "ün" sözünün sadə və düzəltmə formaları və mənaları ilə birlikdə 4 söz qeydə alınmışdır: 1) "ün" – "səs" mənasında (Çəmbərək, Gədəbəy, İsmayıllı, Göygöl, İmişli, Laçın, Oğuz, Saatlı, Salyan, Şahbuz, Şəmkir, Şuşa, Tovuz dialekt və şivələrində); 2) ünnəx – "məlum olan; adı pisliklə çəkilən" mənasında (Qazax dialektində və Çəmbərək şivəsində); 3) ünnəməx – "səs-sorağı hər yana yayılmaq" (Əştərək şivəsində); 4) ünnəşmək – "səs-sorağı yayılmaq" (Çəmbərək şivəsində) (16, 399; 1, 395). Dilçilik termini kimi Azərbaycan dilində işlənən "ünlü" sözü Türkiyə türkcəsində həmin formada, qırğız türkcəsində "ündü", özbək türkcəsində "ünlü" fonetik tərkibində işlənir (5, 926-977).

Semantik yaxınlaşma və əlaqələnmə baxımından qədim türk dilində həm "yılan-ilan", həm də "çayan" sözləri sinonim variantlar kimi çıxış etmişlər. Tarixin müxtəlif dönəmlərində bu leksik vahidlər ayrı-ayrılıqda müstəqil sözlər kimi

işlənmiş, türk dilinin inkişafı və təkamülü ilə əlaqədar olaraq sinonimləşmişlər. Azərbaycan ədəbi dilinə məxsus qədim "yılan" sözünün ilk hecasında "y" samiti düşmüş və söz sadəcə olaraq "ilan" şəkli almışdır. Azərbaycan dilinin şivə arealı üçün xarakterik olan "çayan" sözü Kaşğari dönəmində "çadnun" fonetik tərkibində işlənmiş və "çayan, əqrəb" mənasını ifadə etmişdir (14, 124). Orta əsrlərdən sonrakı yüzilliklərdə türkcələrdə, o sıradan Azərbaycan dilinin dialektlərində sadələşmə, asanlaşma meyarı ilə əlaqədar olaraq "çadhan" sözünün orta mövqeyindəki "dh" samit qoşalığını sadəcə olaraq "y" samiti əvəzlənmişdir. Əhməd Yasəvinin "Divani-hikmət" əsərində "çayan" sözü "çiyan" (u-i) fonetikası sözü ədəbi dil statusuna yiyələnsə də, "çayan // çiyan" leksemi dialekt statusu qazanmış və Azərbaycan dilinin Böyük Qarakilsə, Goranboy, Qazax, Ordubad, Yevlax dialekt və şivələrində "əqrəb" mənasında çıxış edir (17, 94).

Qədim türk sözləri sonunda yaranmış sinonimlərin müşahidələrimiz əsasında deyə bilərik ki, cərgələrindən biri arxaikləşib, lakin şivələrdə öz izini qoruyub saxlasa da, digəri ədəbi dilə məxsus leksk vahid kimi özünü göstərir və bu cəhətdən ikiüzlü sinonim cərgə yaradan "suç" və "günah" cütlüklərinin tarixi etimoloji təhlili xüsusi maraq doğurur. Sinonim cərgələrin birinci variantındakı "suç" sözü Kaşğari dönəmindən çağdaş dövrümüzə qədər heç bir fonetik hadisəyə məruz qalmadan işlənir və "günah" mənası bildirir (14, 475). "Suç" sözü Azərbaycan dilinin Çəmbərək, Kalinino şivələrində "günah" (1, 337), Cəbrayıl, Gədəbəy, Qax, Tovuz, Zaqatala şivələrində "təqsir, günah" anlamını ifadə edir (3, 446). "Suç" sözü çağdaş qohum dillərdən yalnız Türkiyə və Azərbaycan türkcələrində işlənir (5, 796). Digər türkcələrdə isə həmin sözün sinonim mənaları "günah // cinayət, eyib, xəyanət" kimi semantik variantları çıxış edir (5, 796-797).

M.Məmmədli dialektlərdə sinonim cərgələrin yaranması yollarını üç bölgüdə qruplaşdırmış və onlara dair nümunələri də vermişdir: 1) sinonim cərgə əmələ gətirən sözlərdən biri arxaik olur; 2) dialekt sözlərin ədəbi dildəki qarşılığı ilə sinonimlik yaradır; 3) sinonimlərin tərikibi dialekt və alınma sözlərdən təşkil olunur (18, 293). Bu bölgü tam şəkildə özünü doğrultsa da, tədqiqatçı həmin sinonim variantların tarixi-etimoloji təhlilinə diqqət yetirməmişdir. Məsələn, tədqiqatçı qida məhsulunun adlarını bildirən "yoqurt-qatıx" sinonim variantlar kimi verdiyi nümunə əsasında onların dialekt və ümumtürk dillərindəki linqvistik mənzərəsini nəzərdən keçirməklə maraqlı elmi ümumiləşdirmələr əldə etmək mümükündür. Kaşğari dönəmində "yoğurt" sözü "qatıq" mənasında işlənərək sinonim tərkiblər yaratmışdır (14, 691). Fikrimizcə, "yoğurt" sözü "yoğurt" feil (yoğurmaq) + t" kök və şəkilçi modeli əsasında formalaşmış və feildən isi düzəltmişdir. "Yoğurt" sözü Azərbaycan dilinin qərb qrupu şivələrində "qatıq" sözünü bütün məna parametrləri ilə izləyən M.Hüseynovanın araşdırmalarından öyrənirik ki, "Kitabi – Dədə Qorqud" dastanlarının dilində bu söz "qatıq" mənasında, Axısqa türklərinin dilində "ayran" anlamında, qırğız dilində "ayran" mənasında və digər türkcələrdə "qatıqdan hazırlanmış içki" anlamını ifadə edir (20, 172-173).

Bəzi coğrafi appelyativlər də türk dilinin tarixi inkişafı ilə bağlı olaraq sinonim cərgələr əmələ gətirmiş, bu cərgələrdən biri arxaikləşmiş və şivə areallarında izlərini qoruyub saxlamış, digər bir variantı isə ədəbi dildə sabitləşmişdir. Buna nümunə olaraq, "yazı, çöl" sinonimik cütlüklərini göstərə bilərik. Sinonim cərgənin tərkibindəki "yazı" sözü "çöl, səhra, düzənlik" mənalarında Azərbaycan dilinin Qazax, Ordubad, Ağdam, Cəbrayıl, Füzuli, Laçın, Oğuz, Çəmbərək, Şahbuz, Tərtər, Zəngilan dialekt və şivələrində işlənir (1, 140; 3; 3, 545). "Yazı" sözü Təbriz dialektində "çöl" mənasını bildirir (21, 209). Orxon kitabələrində "yazı" sözü "çöl, səhra" mənasında işlənmişdir (22, 358). Mahmud Kaşğarinin "Divan"ında "yazı" sözü bütün bunlarla bərabər şivə areallarında çoxmənalı leksik vahidlər kimi omonimləşə də bilir. Belə ki, Qərbi Azərbaycanın Çəmbərək, Dərələyəz şivəsində isə bu söz "bəxt, tale" anlamını ifadə edərək omonimik variantlar kimi işlənir (1, 410).

"Toy" və "düyün" sözləri ən qədim türk sözləri kimi qəbilə-tayfa dilləri dövründən mövcud olmuş, türkcədə ayrı-ayrılıqda müstəqil sözlər kimi fəaliyyət göstərmiş, erkən orta əsrlərdən sonrakı yüzilliklərdə semantik yaxınlaşma nəticəsində sinonim sözlərə çevrilmişlər. T.Hacıyev və E.Əzizov hər iki sinonim sözü türkcənin qəbilə-tayfa dillərinə aid olduğunu göstərir (23, 13).

Sinonim sözlər kimi "toy" və "düyün" leksemləri qoşalaşaraq "Dədə-Qorqud" dastanlarının dilində işlənmişdir: *Yeddi gün, yeddi gecə toy-dügin edin yemə-içmə oldu* (9, 84). "Düyün" sözünün "toy" anlamında işlənməsinə dastanın digər bir yerində rast gəlirik: *Yalınçıq qızı alır oldu, kiçik düyünü elədi, ulu düyününə vəd qoydu* (9, 85). "Dastani – Əhməd Hərami" də "toy" sözü "qonaqlıq", "düyün" isə "toy" mənasında işlənib (24, 73). Çağdaş Türkiyə türkcəsində "toy" sözü işlənmir və onun əvəzində "düyün" leksemi müstəqil söz kimi fəaliyyət göstərir. Qaqauz türkcəsində "düyün" sözü "dünür, dünürçü, düyün" fonetik tərkiblərində işlənərək "toy" mənasını bildirir (13, 94), yəni qaqauzlarda da yox, yalnız "düyün" sözü mövcuddur Azərbaycan dialektologiyasında "toy" və "düyün" sinonim sözlərinin etimoloji kökü ilə bağlı iki mübahisəli fikir mövcuddur. Dialektoloq Bayram Əhmədov belə güman edir ki, "toy" sözü qədim türk dilində "doy" feili ilə bağlı olaraq yaranmış sözdür (75, 42). Etimoloq-alim Bəşir Əhmədov belə fərz edir ki, "toy" və "düyün" sözləri sinonim olub, yalnız "evlənmə" ilə bağlıdır (13, 94).

Fikrimizcə, Bəşir Əhmədovun fərziyyəsi daha ağlabatandır, çünki "toy" sözünü "doy" feili ilə deyil, "düy" feili ilə əlaqələndirmək daha düzgündür, əlbəttə, "dügün // düyün" sözünün çağdaş türkcələrdə, o sıradan Azərbaycan ədəbi dilində və şivələrində "bağlamaq" // "düyünləmək" anlamları da vardır. Deməli, "düyün" yalnız evlənmə, ailə qurma mərasimi ilə əlaqədar işlədilir və "iki gənci bağlayan, düyünləyən", "toy" isə "bayram, şadlıq" mənalarını bildirir. Çağdaş Azərbaycan dilinin Çəmbərək, Qazax, Borçalı dialekt və şivələrində "toy" sözü həm nağara, həm "aşıq, çalğıçı", həm də "toyda musiqi çalan üçlük" anlamında işlənir. Morfoloji yolla düzələn "toyçu" sözü isə Qazax dialektində və Çəmbərək, Ağdam, Şərur şivələrində "toyda musiqi çalan, çalğıçı" mənasını ifadə edir. Mürəkkəb struktura malik olan

“toyçu” sözü İrəvan, Üçkilsə, Vedi, Zəngibasar şivələrində “toyxana, mağar” mənalarını bildirir (1, 381; 3, 504). Bütün bu paradiqmaların hamısı ümumilikdə “şadlıq // şənlik” mənasını işarəliyir.

Hazırda Azərbaycan dilinin Goranboy, Qazax, Şahbuz, Şəmkir, Tovuz, Yevlax, Böyük Qarakilsə, Çəmbərək, Dərələyəz, Kalinino, Vedi, Zəngibasar dialekt və şivələrində işlənən, “çamur” sözü qədim türk leksemlərindən biri kimi “palçıq” mənasını bildirir (1,95;17,91). “Çamur” sözü İraq-türkman ləhcəsində də “palçıq” mənasında “çamur” (ı-u sait əvəzlənməsi) fonetik tərkibində işlənir (26, 352). “Çamur” sözü Dərələyəz şivəsində “bataqlıq” mənasını da bildirir (1, 95). V.V.Radlov osmalı dilində “çamur” sözünün “gil, palçıq, zığ, çirk, zibil, kir” mənalarında işləndiyini göstərmişdir (27, 193). Bu mənlar onu sübut edir ki, türk dilinin semantik inkişafı ilə bağlı olaraq qədim dövrlərdən üzü bəri qohum dillərdə “çamur” sözü öz sinonim cərgələrini daha da genişləndirmişdir. Belə ki, qeyd edilən sinonim variantların bəziləri ədəbi dilin, bəziləri isə dialekt və şivə areallarının payına düşür. “Çamur” sözünün “zığ” sinonimik variantı Azərbaycan dilinin Çəmbərək, Qarakilsə, Vedi, Zəngilan, Bakı, Naxçıvan, Ordubad, Culfa, Gədəbəy, Şərur dialekt və şivələrində “palçıq” mənasını bildirir (1, 422; 3, 558). Çağdaş Türkiyə türkcəsinin ədəbi dili və Azərbaycan dilinin dialekt və şivə arealları üçün xarakterik olub paralellik yaradan “çamur” sözünün Dərələyəz şivəsindəki “bataqlıq” mənası demək olar ki, bütün qohum türkcələr üçün səciyyəvidir və müasir özbək dilində “palçıq”, türkmən qazax, uyğur dillərində bu mənaya sinonim olaraq “lay // lil” sözlərindən də istifadə olunur (5, 114-115). “Çamur” sözünə sinonim variant kimi işlənən “kir” leksemi də müasir türkcələrdə heç bir fonetik dəyişikliyə məruz qalmadan işlənir (5, 114-115).

Nəticə. Qədim türk sözləri Azərbaycan dilinin şivə areallarında fəaliyyətini davam etdirməkdədirlər. Onların bəziləri Azərbaycan ədəbi dilində arxaikləşsə də, şivələrdə işləklik fəaliyyətini itirməmiş, sinonim cərgələrini daha da genişləndirmişlər. Dialekt leksikasındakı qədim türk sözlərinin bir hissəsi ilkin formasını və semantikasını mühafizə edib saxlamış, əksəriyyətinin tərkibində fonetik dəyişiklik baş vermiş, bəzilərinin semantikasında müəyyən transformasiyalar olmuş, nəticədə, Azərbaycan dilinin dialektləri ilə çağdaş türk dilləri və şivələri arasında ortaq inteqrativ-uyğunlaşmış sinonim cərgələr yaranmış, sinonimik variantlar meydana çıxmışdır.

Azərbaycan ədəbi dili ilə bərabər, onun şivə leksikası da qohum türkcələrlə dialekt səviyyəsində ortaq, ümumilik təşkil edən sinonimik təbəqə və laya malikdir.

Linguistic analysis of synonyms in the Azerbaijani dialects by variants in old Turkish language

Roya Nadir gizi Gahramanova

Summary.

One of the important problems facing the historical dialectology of Azerbaijan is the study of the linguistic features of the ancient Turkish synonyms used in modern and dialect areas. The study of the synonyms of dialect by variants in the ancient Turkic language provides rich material for determining their historical-comparative general development regularities, and the different characteristic aspects of each of them. The origin, origin, history, and roots of the synonyms currently existing in our dialects are based on the ancient Turkish language, and as a result of ethnic-political processes, there have been multiple mergers and even more separations in certain periods, while in the end there are similarities between the dialects and the ancient Turkish language at the lexical level. Different aspects and differentiation have also arisen. It is possible to determine their historical development perspectives and regularities by studying the synonyms of dialect words in a comparative way with the ancient Turkic language. It is also possible to reveal the main linguistic factors caused the differentiation that occurred in the evolutionary process of language and dialect, and these issues are explained in the article.

Key words: ancient Turkic language, dialect synonyms, synonyms as a historical category, lexical comparisons, historical-comparative method.

Лингвистический анализ синонимов в азербайджанских диалектах по вариантам в древнетюркском языке

Роя Надир Кахраманова

Резюме.

Одной из важных задач, стоящих перед исторической диалектологией Азербайджана, является изучение языковых особенностей древнетюркских синонимов, используемых в современных и диалектных областях. Изучение синонимов диалекта по вариантам в древнетюркском языке дает богатый материал для определения их историко-сравнительных общих закономерностей развития и различных характерных сторон каждого из них. Происхождение, происхождение, история и корни синонимов, существующих ныне в наших диалектах, основаны на древнетурецком языке, и в результате этнополитических процессов в отдельные периоды происходили множественные слияния и еще большие разделения, тогда как в В конце концов наблюдается сходство между диалектами и древнетурецким языком на лексическом уровне. Также возникли различные аспекты и дифференциации. Определить перспективы и закономерности их исторического развития можно, изучая синонимы диалектных слов в сравнительном порядке с древнетюркским языком. Также возможно выявить основные лингвистические факторы,

обусловившие дифференциацию, произошедшую в процессе эволюции языка и диалекта, и эти вопросы освещены в статье.

Ключевые слова: древнетюркский язык, диалектные синонимы, синонимы как историческая категория, лексические сравнения, историко-сравнительный метод.

Ədəbiyyat

1. Bayramov İ. "Qərbi Azərbaycan şivələrinin leksikası". Bakı, "Elm və təhsil", 2011, 440 s.
2. Kaşğarı M. Divani-lüğət-it-türk. I cild, (tərcümələrdən Z.Əskər) Bakı, "Ozan", 2006, 512 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007, 568 s.
4. Xəlilov B. 224 qədim türk sözü. Bakı, "Elm və təhsil", 2010, 350 s.
5. Karşılaştırmalı türk lehçeleri sözlüyü. I cild, Ankara, 1993, 1184 s.
6. Kaşğarı M. Divani-lüğət-it-türk. II cild, Bakı, "Ozan", 2006, 400 s.
7. Султанов Г.Х. Арабско-фарсидские заимствования в «Кутадку билик». «Советская тюркология», 1981, №4, стр. 13-22.
8. Щербак А.М. Сравнительная фонетика тюркских языков. Ленинград, «Наука», 1970, стр.201
9. Kitabi – Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov, S.Əlizadə). Bakı, "Yazıçı", 1988, 265 s.
10. Folklordan çöl materialları toplusu üzrə (bayatılar) metodiki iz (tərtibçi M.Həkimov), Bakı, APİ-nin nəşri, 1982, 103 s.
11. Əlibəyəndə E.Ədəbi şəxsiyyət və dil. Bakı, "Elm", 1982, 290s.
12. Əhmədov B. Etimoloji lüğət (araşdırmalar, mülahizələr), Bakı, "Altun kitab" nəşri, 2015, 288 s.
13. Kaşğarı M. Divani-lüğət-it-türk. IV cild, Bakı, "Ozan", 2006, 752 s.
14. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, "Maarif", 1972, 480 s.
15. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Azərb.SSR EA nəşriyyatı, 1964, 480 s.
16. Azərbaycan dilinin dialektoloji lüğəti. I cild, Ankara, 1999, 374 s.
17. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı, "Zərdabi nəşr", MMC, 2019, 352 s.
18. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. Bakı, Azərb.SSR AE nəşri, 1967, 281 s.
19. Hüseynova M. Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti. Bakı, ADPU-nun nəşri, 2018, 196 s.
20. Azərbaycan dilinin Təbriz dialekti. Bakı, 2007, 240 s.
21. Şükürlü Ə.Qədim türk yazılı abidələrinin dili. Bakı, "Maarif", 1993, 336 s.
22. Dastani – Əhməd Hərami. Bakı, "Gənclik", 1978, 118 s.

23. Əhmədov B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli (şivə materialları əsasında), Bakı, “APİ”-nin nəşri, 1990, 91 s.
24. İraq – Türkman ləhcəsi. Bakı, “Elm”, 2004, 422 s.
25. Гаджиев Т., Азизов Е. Историко-лингвистические основы создания исторической диалектологии Азербайджанского языка // Тематический сборник научных словарей АДУ. 1985, стр.11-16.
26. Радлов В.В. Опыт словаря тюркских наречий. 1893, III том, I часть, стр. 1914.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: : filologiya elmləri doktoru, professor Mahirə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR MƏMMƏDOVA
ADU
aynurheydarli@mail.ru

SLENQ ANLAYIŞI VƏ MÜASİR İNGİLİS DİLİNDƏ ONLARIN ROLU

Açar sözlər: dil, slenq, metaforizasiya, akronimlər, leksik məna, ingilisdilli mədəniyyət
Ключевые слова: язык, сленг, метафоризация, аббревиатуры, лексическое значение, англоязычная культура
Key words: language, slang, metaphorization, acronyms, lexical meaning, English-speaking culture.

Dil insanların müxtəlif sahələrdə fəaliyyətini tənzimləyən güclü vasitədir. Ünsiyyət vasitəsi olan dil güzgü kimi öz danışanlarının xüsusiyyətlərini, mədəniyyətini, tarixini əks etdirir, cəmiyyətdə baş verən bütün dəyişikliklərə reaksiya verir. Müasir dünya dinamik inkişaf edir və onunla bərabər dil də daim inkişaf edir. Cəmiyyəti bürüyən bütün hadisələr danışıq dilinin canlı inkişafına təsir edir, dünya dillərində öz əksini tapır və bəşəriyyətin leksikonuna yeni ifadələr əlavə edir.

Dünyada hər hansı bir xalqın dili donmuş substansiya deyil, o, ətrafdakı reallığı ifadə edən dinamik inkişaf edən sistemdir. Dünya dəyişir, dil də dəyişir. Və hər hansı bir ölkədə sosial qrupların sayını nəzərə alsaq, təəccüblü deyil ki, hər bir belə qrup iştirakçılar arasında danışıq ünsiyyəti üçün öz lüğətini və jarqonunu, daha dəqiq desək, konkret olaraq bu sosial qrup (peşə, yaş, sinif) üçün xarakterik olan söz və ifadələri inkişaf etdirir. Slenq dilin və müvafiq olaraq nitqin tərkib hissəsi olmaqla ondan istifadə edən cəmiyyətin dil və mədəni xüsusiyyətlərini əks etdirdiyi üçün leksikologiyanın əsas və ən problemli tərəflərindən biridir. Slenq ədəbi norma ilə üst-üstə düşməyən söz ehtiyatıdır. Slenq (ingiliscə "slang") müxtəlif insan qruplarında (peşəkar, sosial, yaş və s.) istifadə olunan xüsusi sözlərin və ya mövcud sözlərin yeni mənalarının məcmusudur. Mənası qeyri-rəsmi, qeyri-formal dil, daha dəqiq desək, insanların bir hissəsinin ünsiyyət qurduğu (alt mədəniyyət), lakin rəsmi qurumlar tərəfindən tanınmayan, akademik lüğətlərə daxil edilməyən dialektdir (bəzən buna alt dil də demək olar). Digər dillərdən fərqli olaraq slenq yalnız lüğətə təsir edir, yəni ona yeni sözlər əlavə edir və ya sözlərdən yeni mənada istifadə edir, strukturunu dəyişir.

Hal-hazırda slenq müasir dilçiliyin ən maraqlı dil sistemlərindən biridir. Slenq ingilis dilində gündəlik istifadə edilən, rəsmi olmayan ifadələrdir. Aid olduğu mühitdən kənar insanlar üçün anlaşılmaz olan slenqlər yeni və ya köhnə bir sözü yeni formada ifadə edə bilmək xüsusiyyətinə malikdir. Məsələn, gündəlik həyatda çox istifadə olunan ifadələrə awesome (möhtəşəm) (əşyalar, insanlar, müvəffəqiyyətli

işlər üçün istifadə oluna bilər), cool (əslində sərin mənasını versə də, bir çox hallarda "möhtəşəm", "əla" kimi mənalarda işlədilir), busted (tutuldun) (kimisə törətdiyi bir əməlinin başında tutmaq mənasını verir) kimi sözləri misal olaraq göstərmək olar. [2, s.184] Slenq cəmiyyətin bütün sahələrinə, məsələn, klinikalarda həkimlərin istifadə etdiyi lüğətdən tutmuş kompüter oyunçularına qədər nüfuz edir. Cəmiyyətin hər bir təbəqəsi bu konkret insan kontingentinin atributları olan ən azı bir neçə ifadədən istifadə edir. Slenq dildə möhkəm qurulub və hər bir istifadəçi qrupu üçün tamamilə təbii görünür. Və bəlkə də dil baxımından ən mobil yaş sosial qrupu gənclərdir. Gənclər arasında jarqon xüsusilə kök salıb, çünki müəyyən sözlərin köməyi ilə nitqinizi şifrələyə bilərsiniz ki, hamı nə danışdığınızı başa düşməsin. Bu günlərdə jarqondan istifadə getdikcə genişlənir. Beləliklə, məsələn, ingilis dilində olan filmlərdə çoxlu gənclik jarqonları var. Bu halda, ingilis dilində gənc jarqon müasir gənclər arasında ünsiyyətin bütün ləzzətini çatdırır və filmə özünəməxsus rəng qatır. O, qısalığı və ifadəliliyi ilə seçilir.

İngilis nitqində "slenq" sözünün tam olaraq nə vaxt meydana çıxdığı məlum deyil, lakin ingilis leksikoqrafiyasında bu terminin ilk yazılı qeydi və geniş yayılması 19-cu əsrin əvvəllərinə təsadüf edir. Bu sözün etimologiyası mübahisəli görünür. Və o günlərdə bir az fərqli məna daşıyırdı və "təhqir" sözünün sinonimi kimi çıxış edirdi. Lakin 19-cu əsrin əvvəllərində "slenq" sözü daha geniş bir anlayış qəbul edərək "xalq dili" mənasını verməyə başladı. Onu istifadə edən əhalinin yoxsul təbəqələri ilə eyniləşdirilməyə başlandı. Və 19-cu əsrin sonlarından başlayaraq bu termin ümumi qəbul edilmiş bir məna qazandı ki, bu da danışıq nitqi adlanırdı. Slenqin öyrənilməsi ingilisdilli mədəniyyətin təsirinə məruz qalmışdır. "Slenq" anlayışı "dialektizm", "jarqon", "vulqarizm", "danışıq nitqi", "xalq dili" kimi anlayışlarla qarışmışdır. Bəzi dilçilər slenqləri "ədəbi nitqin yaxınlığında dolaşan və daim cəmiyyətə yol açmağa çalışan avara bir dil" kimi xarakterizə edirdilər. Dilin bütün lüğət tərkibi iki yerə bölünür: ədəbi və qeyri-ədəbi. Ədəbi dilə daxildir: kitab sözləri; standart danışıq sözləri; neytral sözlər. Bütün bu sözlər ya ədəbiyyatda, ya da rəsmi şəraitdə şifahi nitqdə istifadə olunur. Qeyri-ədəbi lüğət aşağıdakılara bölünür: 1) peşə bildirən sözlər; 2) vulqarizmlər; 3) jarqon; 4) slenqlər. [5, s.2] Lüğətin bu hissəsi danışıq və qeyri-rəsmi xarakteri ilə seçilir.

İngilis dilindən tərcümədə slenq termininin özü ədəbi dildən fərqli olaraq təcrid olunmuş qrupun nitqi və ya ədəbi dil norması ilə üst-üstə düşməyən danışıq nitq variantı deməkdir. Slenq ilkin olaraq ayrı-ayrı sosial qruplarda yaranmış və işlənmiş söz və frazeoloji vahidlərdən ibarətdir və bu qrupların vahid oriyentasiyasını əks etdirir. Bu sözlər geniş istifadə olunaraq, əsasən öz emosional və qiymətləndirmə xarakterini saxlayır.

"Slenq" termininin mənası ilə bağlı müxtəlif fikirlər onun ən vacib xüsusiyyətlərini ümumiləşdirməyə imkan verir: 1)Slenq ədəbi lüğət deyil, yəni. bunlar ədəbi ingilis dilindən kənar sözlər və birləşmələrdir; Slenq yaranan və ilk növbədə şifahi nitqdə istifadə olunan lüğətdir; Slenq emosional yüklü lüğətdir;

2)Slenq, istifadə sərhədlərini məhdudlaşdıran söz və ifadələrin böyük əksəriyyətinin daha çox və ya daha az açıqlanan tanış konnotasiyası ilə xarakterizə olunur; 3)Bir çox slenq söz və ifadələrin tanış emosional konnotasiyası müxtəlif çalarlarla (zarafat, istehza, ironiya, rədd edən, nifrət edən, kobud və hətta vulqar) fərqlənir; 4)İstifadə sahəsindən asılı olaraq, slenqlər tanınmış və çox istifadə olunan (General Slang) və az tanınan və dar istifadə olunan (Special Slang) slenqlərə bölünə bilir; 5)Slenq insanların özlərini müəyyən sosial və peşəkar qruplarla eyniləşdirə biləcəyi müxtəlif söz və ifadələri ehtiva edir; 6)Slenqlər zamanla ayaqlaşan, ölkənin və cəmiyyətin həyatında baş verən istənilən dəyişikliyə cavab verən canlı, hərəkətli dildir.

Slenqləri xarakterizə edən əsas amillər bunlardır: orijinallıq, yenilik, qısalıq, obrazlılıq və zəka. Slenq bir sözü şifrələməyə və onu yalnız müəyyən bir şəxs üçün başa düşülməyə kömək edir. Bu kodlanmış sözləri başa düşən insanlar bir-biri ilə birlik olduqlarını hiss edirlər.

İngilis dili dünyanın ən populyar dillərindən biridir. Dünyada bir milyard yarım insan bu dildə danışır. Müxtəlif maraq sahələrinə, məşğuliyyətə, siyasət və iqtisadiyyat sahəsinə aid çoxlu sözlər bizə bu dildən gəldi. Gənclərin əsas istəyi, demək olar ki, həmişə onlar üçün ən vacib ideoloji anlayışları, bəlkə də, cəmiyyətdəki insanların əksəriyyəti üçün anlaşılmaz olan parlaq ifadəli formada birləşdirməkdir. Nitqdə slenqlərdən istifadə onu rəngarəng və emosional edir. Hər il lüğətə çoxlu yeni sözlər və abreviaturalar daxil olur. Bəziləri deyə bilər ki, bütün bunlar dil inqilabının bir hissəsidir, bəziləri isə qeyri-rəsmi şəkildə istifadə olunan söz, ifadə və akronimin belə bir əhatəyə malik olduğunu başa düşə bilmir. İngilis slenqlərinin xarakterik xüsusiyyətləri bunlardır:1)leksik vasitələr daim yenilənir, ona görə də slenqin statik hadisə olduğunu demək olmaz, daim inkişaf edir və zənginləşir; 2)məhdud mövzu, çünki əksər hallarda slenq dar dairədə istifadə olunur və həm də öz diqqət mərkəzinə malikdir; 3)emosional-qiymətləndirici söz və ifadələrin tələffüz fəaliyyəti (bu ifadələrin rənglənməsi onların yalnız müəyyən bir lenq növünün elementləri kimi qəbul edilir və buna görə də danışıq lüğəti arasında yayılmır); 4)leksik mənanın dolğunluğu [5, s. 5-6]

Gənclər arasında populyar olan kompüter texnologiyalarının və sosial şəbəkələrin inkişafı slenqlərin yaranmasına təsir edir. Məsələn: user — istifadəçi, gamer — oyunçu, fake – yalançı, süni, online – onlayn, spam – spam, login — login. Müasir musiqi və klub mədəniyyəti, eləcə də kino sənayesi gənclərin həyatına birbaşa təsir göstərir. Bu qrupa release - buraxılış, playlist - pleylist, face-control - üz nəzarəti kimi sözlər daxildir. Media və televiziya gənclərin həyatının ayrılmaz hissəsidir və buna görə də slenqlərin vəziyyətinə təsir göstərir. Media sayəsində söz ehtiyatı prime-time, DJ, stylist, talk-show, image-maker kimi sözlərlə doldu. Məşhur idman növlərinin adları, eləcə də idmanla bağlı sözlər də slenq kimi istifadə edilir. Bu qrupa fitness, referee, match, time, bodybuilding, shaping və s. daxildir. Peşəkar fəaliyyətin müxtəlif sahələrində işçilər tərəfindən tətbiq edilən sənaye terminləri: marketing, leasing, broker, manager, promoter və s. Fast food şəbəkələrinin inkişafı

bəzi slenqlərin yaranmasına səbəb olub. Məsələn: fast-food, cheeseburger, hot-dog və s. Belə sözlərin geniş istifadə tendensiyası ilk fast food mağazalarının açılması ilə əlaqədar olaraq 90-cı illərə təsadüf edir. Amerika və ingilis gənclərinin həyat tərzinin təqlidi ən böyük slenq qrupunun yaranması üçün stimul rolunu oynadı. Bu, gənclərin gündəlik ünsiyyətdə və standart gündəlik vəziyyətlərdə istifadə etdiyi sözləri ehtiva edir: boy-friend, party, looser, baby. Bu vahidlərin bəziləri lüğətimizdə möhkəm yerləşdiyi üçün artıq slenq kimi qəbul edilmir.

İngilis dilindən alınan slenqlər ənənəvi olaraq iki qrupa bölünür. Birinci qrupa Azərbaycan dilində ekvivalentlərinin olmaması səbəbindən alınma sözlər daxildir. İlk növbədə bunlar kompüter texnikası və İT texnologiyaları ilə bağlı söz və ifadələrdir (file, site). Bəzi məişət cihazlarının adları (toaster,blender) da bu qəbildən olan sözlərdir. Bu qrupa həmçinin idman terminləri və bəzi idman növlərinin adları (bowling, diving, zipline, rafting) da daxildir. Digər qrupa dilimizdə sinonimləri olan sözlər daxildir. Buna misal olaraq musiqi mədəniyyəti və media ilə bağlı sözləri göstərmək olar: "populyar mahnı" əvəzinə "hit", "plakat, afişa" əvəzinə "poster", "gözətçi" əvəzinə "security" və s.

Bəzi dilçilərin mənfi münasibətinə baxmayaraq, slenqlər istənilən dilin vacib hissəsidir və növlərə bölünə bilər, tələbə və ya gənclər tərəfindən istifadə olunan slenqlər, peşəyə görə (kompüter, kriminal, peşəkar) istifadə olunan slenqlər. Ümumi təyinatlı, yəni hamı tərəfindən istifadə edilən ən çox yayılmış danışıq ifadələrinə diqqət yetirək.

1. Shake it (up)! = Hurry!; Move faster! – tələs
2. Zip it – sus, ağzını bağla, yum ağzını
3. A grip of something = a lot of something – çox
4. A screw loose – ağlı yoxdur, dəli
5. Are you kidding? – Zarafat edirsən? Sən ciddisən?
6. XMT=excuse my typing; I am sorry I type so poorly – səhv yazdığıma görə üzr istəyirəm
7. Zero cool – super, əla
8. There you go! – Sənə əhsən
9. Top banana – bos, müdir
10. Sugar daddy - sponsor
11. Go ape – dəli olmaq
12. Dammit! = damn it or damn it all – lənət sənə
13. Vac = a vacuum cleaner - tozsoran
14. Bublin brook – qeybət edən, dedi-qodu edən
15. Whuhap? = hello - salam
16. Yello = hello - salam
17. Flying high – göyün yeddinci qatında olmaq
18. Zero = an insignificant person – lazımsız adam, heçkimsə
19. Beans - pul

20. Zippy = lively, active - aktiv
21. telly = a television set - televizor
22. Get it = understand – başa düşmək.
23. Say cheese! = Please smile! – gülümsəyin [9]
24. Lost the plot = angry, irrational, or is acting ridiculously - əsəbi
25. A cuppa = a cup of tea – bir fincan çay
26. Fiver = A five-pound note – 5 funtluq əskinaz
27. Tenner = A ten-pound note – 10 funtluq əskinaz
28. Mug = a fool or a stupid person – axmaq adam
29. Chuffed = very happy or delighted – çox xoşbəxt
30. Skint = being broke or having no money - pulsuz [10]

İngilis dilində slenqizmlərin formalaşdırılmasının xarakterik üsulu sözdə semantikaya əsaslanan metaforizasiya şəklində qoyulmuşdur, yəni slenq kimi təsnif edilən sözlər ilk mənalarından fərqli olaraq istifadə edilmişdir. metaforalaşdırma jarqonların lüğət ehtiyatını artırmaq üçün ən məhsuldar üsullardan biridir. Gənclik dilində metaforaların və metonimiyaların olması ifadəliliyə meyl və konkret obrazların arzusu ilə izah olunur: "hold on to your socks" – dözümlü olun, dayanın; "to put a blow-torch" – sehrli çubuqla toxunmaq; "stay kind" ("be healthy") – sağlam olun; "to peak career-wise" – karyera qurmaq; "to shake a bit" – rəqs etmək; "to bust out some moves" – möhtəçəm rəqs nümayiş etdirmək; "blue-stocking" – alim qadın; "sky pilot" – natiq və s. [4, s. 70-71]

Ən çoxsaylı slenqlər sinfi leksik-semantik vahidlərin yeni mənada işlənməsi ilə özünü büruzə verirdi. Məsələn: to hang out (around) - gəzmək, dolaşmaq; cool - əla; artsy – pafosla; ink (tatoo) – tatu; to hmmmm (to think) – fikirləşmək; Loads of stuff! – daha nələr-nələr; stay kind (be healthy) – sağlam ol; a feel-good (song) – pozitiv; awsome - əla; to springfeel – şən əhval-ruhiyyədə olmaq; So go and check that out! – Baxmağa dəyər!; don't mess with him – ona baş qoşma; no kidding – zarafatsız, woke - being aware of various societal issues, shook - to be surprised or shocked, basic - boring, average, or unoriginal, spill the tea - to gossip about something, chill out - relax, take it easy, hit the books – study, hit the road - to leave, hold your horses - wait a minute!, my bad - my fault or my mistake, no problem - you're welcome, not a big deal, wrap up - to finish; to bring something to a close, around-the-clock - 24/7, all day and night, non-stop, buck - one dollar, couch potato - a lazy person və s. [12]

İngilis dilli ölkəyə gəldiyiniz zaman ingilis dilinin qrammatikası ilə danışıq dili arasındakı fərqləri dərhal hiss edə bilərsiniz. Bu cür abbreviaturaları slenqlərin elementləri hesab etmək olar: Gonna – going to, wanna – want to, ama – I am, gottum – got him, got them, yep, ye – yes, dis – this, u – you, THX — thanks, dunno – don't know, PLS, PLZ — please, cause – because, lemme – let me, fam - family və s.

Slenqlərin ən çox yayılmış formaları akronimlərdir. Məsələn; btw - by the way, ss – screenshot, LOL — laughing out loud, OMG — Oh my god! Oh my goodness!, TMI — too much information, BRB — be right back, TTYL — talk to you later, WFH - working from home, DIY - do it yourself, bff — best friends forever, VIP - a very important person, FYI - for your information, SUP — What's up?, asap — as soon as possible və s. [11]

Slenqlər heç bir qrammatika qaydalarına tabe olmadan öz həyatını yaşayır. Bəzi sözlər çox tez ölür və yeniləri ilə əvəz olunur, bəziləri uzun illər yaşayır və bəzən də ədəbi dilə keçir. Hal-hazırda, ingilis slenqlərinin yerinə yetirdiyi funksiyalarla bağlı dilçilər arasında ümumi fikir yoxdur. Zəngin, stilistik rəngə boyanmış dil standart ingilis dilindən az və ya çox aydın tanış rəngə malik lüğətin olması ilə fərqlənir. Slenq bir çox məqsədlər üçün istifadə olunur, lakin əsas olanlardan biri ifadənin məqsədindən asılı olaraq çox fərqli ola bilən müəyyən emosional münasibəti ifadə etməkdir. Slenq bir-biri ilə sıx əlaqəli müxtəlif funksiyaları yerinə yetirir: kommunikativ, koqnitiv, nominativ, ifadəli, ideoloji və s. Arqonun (slenqin) əsas funksiyası təbii ki, ifadədir. Və bu, arqonun tarixən inkişaf etmiş qeyri-standart danışıq, mobil və ifadəli rəngli lüğət təbəqəsi olması, çox vaxt yumoristik və kobud məzmun daşıması ilə əlaqədardır.

Yuxarıda göstərilən bütün məlumatları təhlil edərək belə nəticəyə gələ bilərik ki, slenqlər bir növ çıxış yolu, özünü ifadə vasitəsidir, bəzi hallarda, fikirlərin qısa izahı və ya hadisələrin və ya obyektlərin adlandırılması üçün lazımdır.

ƏDƏBIYYAT

1. Məmmədzadə S. Müasir ingilis dilində slenqlər “Elm və təhsil” Bakı, 2016
2. Qaraşarlı Ç, Orucova A. Slenqin ingilis üslubi leksikasinda yeri İpək yolu, No.1, 2021
3. Seyidzadə L. Slenqin koqnitiv aspektləri Aftoreferat Bakı, 2023
4. Гамов А.Н. Основные способы формирования лексики сленга в английском языке Москва, Россия
5. Ларченкова А.С. Влияние английского языка на слен современной молодежи Белорусский Государственный Университет
6. Маковский М.М. «Современный английский сленг. Онтология, структура, этимология» Москва 2009.
7. James, Ewart “ Contemporary British slang : an up-to-date guide to the slang of modern British English” 1999.
8. Jonathon Green “Chambers Slang Dictionary” 2008
9. Richard A. Spears, McGraw-Hill’s Dictionary of American Slang and Colloquial Expressions
10. https://assets.ctfassets.net/2j65dwz7bf88
11. https://advance.ru/knowledge/articles/angliyskiy-sleng-v-sovremennom-angliyskom/

12. https://www.umass.edu/ipo/sites/default/files/slang.pdf

Aynur Məmmədova

Slenq anlayişi və müasir ingilis dilində onlarin rolu

Xülasə

Məqalə slenqlərin ingilis dilinə təsirindən bəhs edir. Məqalədə slenq dilinin obrazlı ifadə vasitələrindən biri olaraq ingilis dilinin üslubi leksikasında xüsusi yerə malik olması, bununla yanaşı dilçilikdə tutduğu bu mövqenin bir qədər müəmmalı olması qeyd edilir. Eyni zamanda slenqlərin hazırda dildə geniş işlədilən və başa düşülən dil olması, yeni mənadan ibarət olması ilə bərabər standart dildən və nəzakətli istifadədən kənarda olması fakti da vurğulanır. Hər canlı dil daim inkişaf edərək özünün danışıq və yazı üslubuna yeni termin axımını təmin edir. İnsanlar dildən istifadə etdikcə, dil və mədəniyyət arasında əlaqə gücləndikcə öz söz bazasına yeni mənalar, ifadə yolları əlavə edirlər. Bu isə özlüyündə dilin leksikonun zənginləşməsinə səbəb olur. “Slenq” ifadəsi dilin məhz bu dinamikasını əks etdirir. Müəllif “slenq” anlayışının araşdırmış, ingilis slenqlərinin xarakterik xüsusiyyətləri tədqiq etmiş, slenqlərin müasir gənclərin həyatının müxtəlif sahələrində istifadəsini təhlil etmişdir. Müəllif slenqlərin müəyyən müddətdən sonra istifadədən çıxa bilməsi və yaxud standart dilə daxil olması məqamına da toxunmuşdur. Müəllif məqaləsində slenq vahidlərindən nümunələr və onların Azərbaycan dilində tərcüməsini vermişdir.

AYNUR MAMMADOVA

THE CONCEPT OF SLANG AND THEIR ROLE IN MODERN ENGLISH

SUMMARY

The article discusses the influence of slang on the English language. In the article, it is noted that the slang language has a special place in the stylistic lexicon of the English language as one of the means of figurative expression, and that its position in linguistics is somewhat mysterious. At the same time, the fact that slangs are currently widely used and understood in the language and have a new meaning, as well as the fact that they are outside the standard language and polite usage, is also emphasized. Every living language is constantly evolving, introducing new terms into its spoken and written style. As people use language, as the connection between language and culture strengthens, they add new meanings and ways of expression to their vocabulary. This in itself leads to the enrichment of the lexicon of the language. The term "slang" reflects exactly this dynamics of language. The author investigated the concept of "slang", studied the characteristic features of English slangs, analyzed the use of slangs in various areas of the life of modern youth. The author also touched on the fact that slangs can go out of use after a certain period of time or enter

the standard language. In his article, the author gave examples of slang units and their translations in Azerbaijani.

АЙНУР МАМЕДОВА

ПОНЯТИЕ СЛЕНГА И ЕГО РОЛЬ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматривается влияние сленга на английский язык. В статье отмечается, что сленг занимает особое место в стилистическом лексиконе английского языка как одно из средств образной выразительности, а его положение в лингвистике несколько загадочно. При этом также подчеркивается тот факт, что сленги в настоящее время широко используются и понимаются в языке и имеют новое значение, а также то, что они находятся за пределами общеязыкового и вежливого употребления. Каждый живой язык постоянно развивается, внося в свой устный и письменный стиль новые термины. По мере того, как люди используют язык, по мере укрепления связи между языком и культурой, они добавляют в свой словарный запас новые значения и способы выражения. Это само по себе приводит к обогащению лексики языка. Термин «сленг» отражает именно эту динамику языка. Автор исследовал понятие «сленг», изучил характерные особенности английского сленга, проанализировал использование сленга в различных сферах жизни современной молодежи. Автор также затронул тот факт, что сленги могут выйти из употребления через определенный промежуток времени или войти в литературный язык. В своей статье автор привел примеры жаргонных единиц и их переводы на азербайджанский язык.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.f.d. Məmmədzadə A.
tərəfindən çapa tövsiyə olunmuşdur

VƏLİYEVA SƏBİNƏ ƏLİ QIZI
Azərbaycan Dillər Universiteti,
valiyeva_s@mail.ru

GENERATİV DİLÇİLİK TƏDQİQATLARINDA KOQNEYT TAMAMLIQ

XÜLASƏ

Məqalədə müasir ingilis dilində işlənən koqneyt tamamlıqların (KT) Generativ (Törəmə) Dilçilik paradiqması çərçivəsində araşdırılmasından bəhs olunur. Burada Generativ Dilçiliyin banisi N.Xomski, eləcə də M.Conz və D.Massamın koqneyt tamamlıqlarla bağlı araşdırmalarına nəzər salınır.

Danışanın linqvistik səriştəsinin təsvirinə performansdan daha çox önəm verən, dilə yüksək səviyyədə formalaşmış bir yanaşma olan Generativ Dilçilik paradiqmasında KT-lərin tədqiq edilməsinin əsas məğzi bu tərkiblərdə işlənən feillərin leksik xüsusiyyətləridir. Həmin xüsusiyyətlərə altkateqoriyalaşma çərçivələri, arqument strukturunun tənzimlənməsi, hal təyin edilməsi (və ya edilməməsi) və eləcə də, bu xüsusiyyətlərin dəyişməsi ilə nəticələnən transformasional proseslər aid edilə bilər.

Generativ Dilçilik çərçivəsində KT-lərin problemli təbiətini göstərmək üçün diqqət etməli olduğumuz birinci prinsip feilin altkateqoriyalaşma çərçivəsidir. Feilin sintaktik çevrəsini, yəni onun işlənə bildiyi tamamlıqların sayını bildirən bu termin bir çox ədəbiyyatlarda valentlik adlandırılır.

Burada nəzərə almalı olduğumuz ikinci prinsip, N.Xomskinin İdarə və Əlaqə nəzəriyyəsinin alt-nəzəriyyələrindən biri olan Teta nəzəriyyəsi isə birləşmənin leksik əsası vasitəsilə arqumentlərin tematik rollarının, başqa sözlə, semantik funksiyalarının təyin olunmasını nəzərdə tutur.

KT-lərin Generativ Dilçilik çərçivəsində araşdırılması üçün vacib olan üçüncü prinsip N.Xomskinin Hal nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən müəyyən komponentlər arasında sintaktik və ya tematik əlaqələri göstərmək üçün müəyyən leksik kateqoriyalar hal təyin edə bilər.

Generativ Dilçilik nümayəndələrindən M.Conz [1988] N.Xomskinin Hal nəzəriyyəsini yenidən nəzərdən keçirərək koqneyt tamamlıqlara adyunkt kimi, D.Massam [1990] isə KT-lərə tematik rolu ilə təsdiqlənmiş vasitəsiz tamamlıqlar kimi yanaşmağı üstün tutur.

Açar sözlər: Generativ (Törəmə) Dilçilik, koqneyt tamamlıq (KT), koqneyt tamamlıq tərkibləri (KTT), feilin altkateqoriyalaşma çərçivəsi, valentlik, Teta nəzəriyyəsi, tematik rol, Hal nəzəriyyəsi.

Generativ (Törəmə) Dilçilik dilə daha yüksək səviyyədə formalaşmış yanaşmadır və insan beyninin / şüurunun anadangəlmə komponenti olduğu iddia

edilən qrammatika nəzəriyyəsini öyrənməklə məşğul olur. Bu dilçilik modelinin banisi olan N.Xomski dil universaliləri hazırlamağı dilçilik nəzəriyyəsinin ən vacib məsələsi hesab edir. O, belə hesab edir ki, dil universaliləri bir tərəfdən dillərin aktual fərqlənmələrindən dolayı təhrif olunmamalı, digər tərəfdən isə dil öyrənməyin yeknəsəkliyi və sürətliliyi üçün kifayət qədər zəngin və müfəssəl olmalıdır [3, s. 27-28]. Dilə bu cür yanaşmanı tamamlamaq üçün generativ dilçilər dil öyrənənlərin anadangəlmə biliyinin bir hissəsi olduğu güman edilən qrammatikanın ümumi prinsiplərini işləyib hazırlamışlar. Bu prinsiplər qrammatik tədqiqatların təməl anlayışları əsasında formalaşdırılmışdır, məsələn, hal (fonetik olaraq reallaşdırılmış ismi birləşmələrin bölgüsünə əsasən), arqument quruluşu (arqumentlərin xəbərə görə bölgüsünə əsasən) və ya əlaqə (anafora, əvəzlik və s. kimi əlaqəli elementlərin bölgüsünə əsasən).

Törəmə dilçiliyində koqneyt tamamlıqlara (KT) olan müxtəlif yanaşmalardan bəhs edərkən bu dilçilik sahəsinin banisi olan N.Xomskinin [1965, 1981] feil və onu tamamlayan ismi birləşmələr arasında sintaktik və semantik əlaqələri daha yaxşı anlamaq üçün təqdim etdiyi prinsip və konseptlər çox böyük maraq doğurur. Bunlar leksemin altkateqoriyalaşma (valentlik) xüsusiyyətləri, (θ) Teta nəzəriyyəsi və Hal nəzəriyyəsidir.

1) Feilin altkateqoriyalaşma çərçivəsi, əsas etibarilə onun sintaktik çevrəsini, daha dəqiq desək, feilin işlənə bildiyi tamamlıqların cərgəsini/sayını göstərir [3, 94]. Tamamlamaya gəlincə isə, məsələn, *to love (sevmək)* feili eyni bir feili birləşmənin (FB) daxilində ismi birləşmədən (İB) dərhal öncə gəldiyini göstərən F + [_ İB] ilə vurğulanacaqdır ("təsirli" məfhumuna uyğun gəlir). *To die (ölmək)* feili isə eyni bir feili birləşmənin daxilində heç bir komplementə icazə vermədiyini göstərən F + [_ #] ilə göstəriləcəkdir ("təsirsiz" məfhumuna uyğundur).

2) (θ) Teta nəzəriyyəsi – N.Xomskinin İdarə və Əlaqə nəzəriyyəsinin alt-nəzəriyyələrindən biridir. Bu nəzəriyyə birləşmənin leksik əsası vasitəsilə arqumentlərin tematik rollarının (semantik funksiyalarının) təyin olunması ilə bağlıdır. Feillərlə bağlı olaraq, bu, aşağıdakı kimi izah oluna bilər: feili birləşmənin leksik əsası, təsirli feil tamamlıqlarını yalnız öz altkateqoriyalaşma xüsusiyyətlərini təmin etmək üçün tələb etmir, o həmçinin həmin arqumentlərə tematik status, başqa sözlə desək, semantik funksiya yükləyir. N.Xomski arqument və teta-rol arasındakı birə-bir əlaqəni yerinə yetirmək üçün formal əlaqə vasitəsi kimi xidmət edən (θ) teta-kriteriyasında hər bir ismi birləşmə və cümlə üçün (θ) teta-rol iddiasını irəli sürür:

Hər bir arqumentin yalnız və yalnız bir teta-rolu ola bilər və hər bir teta-rol yalnız və yalnız bir arqumentə aid ola bilər [4, 36].

Əgər koqneyt tamamlıq tərkibləri (KTT) feilin arqumenti (yəni vasitəsiz tamamlıq) hesab olunarsa, o zaman N.Xomskinin irəli sürdüyü bu 2 prinsiplə (altkateqoriyalaşma və Teta nəzəriyyəsi) razılaşmaq lazımdır. Məsələn, *to die a gruesome death (dəhşətli ölümlə ölmək)* birləşməsində vasitəsiz tamamlıq mövqeyində ismi birləşmənin altkateqoriyalaşma çərçivəsi F + [_ #] olan bir feildən

sonra necə işlənə bilməsini izah etmək lazımdır və beləliklə də, o, nə ismi birləşmə götürə bilər, nə də həmin ismi birləşməyə tematik rol yükləyə bilər.

3) Generativ / Törəmə Dilçiliyi çərçivəsində KT-lərin problemli təbiətini göstərmək üçün diqqət etməli olduğumuz üçüncü prinsip N.Xomskinin Hal nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən müəyyən komponentlər arasında sintaktik və ya tematik əlaqələri göstərmək üçün müəyyən leksik kateqoriyalar hal təyin edə bilər. Nəzəriyyədə deyilir ki, "fonetik matrisi olan hər bir ismin Halı olmalıdır" ki, bu da "onların (ismi birləşmələrin) işləndiyi konfiqurasiyaya görə" təyin edilir [4, 49]. Yalnız hal təyin edilmiş arqumentlərə (θ) teta-rol təyin edilə bilər. Xomski iddia edir ki, ingilis dilində "feil" və "sözönü" leksik kateqoriyaları hal təyin edəndir. Belə ki, təsirli feillər idarə etdikləri ismi birləşmələrə obyekt halı təyin edir. Koqneyt tamamlıqlara gəldikdə isə, onların ümumiyyətlə hal işarəsi ilə görünüb-görünməməsi sual altındadır və əgər belədirsə, sual oluna bilər ki, təsirsiz feillərdə hal təyin edən element hansıdır, çünki onlar hal təyin etmirlər. İngilis dilindən daha zəngin fleksiya (şəkilçi) sisteminə malik olan alman dilində nümunələr sübut edir ki, koqneyt tamamlıqlar bəzi dillərdə hal üçün işarə olunur. Alman dilində, koqneyt tamamlıqlar akuzativ hal ilə rast gəlinir:

Er starb einen qualvollen Tod.

*"He died a-*ACC *painful-*ACC *death." (O, ağrılı bir ölümlə öldü).*

Generativ / Törəmə dilçilərindən bəziləri üçün koqneyt tamamlıq tərkibləri yuxarıda qeyd etdiyimiz ümumi prinsipləri (məsələn, hal təyini və ya teta-rolların müəyyənləşdirilməsi) yoxlamaq üçün müəyyən maraq kəsb etmişdir. Onlardan M.Conz [1988] N.Xomskinin Hal nəzəriyyəsini yenidən nəzərdən keçirmək zərurəti duyaraq koqneyt tamamlıqlara adyunkt kimi yanaşmanı, D.Massam [1990] isə KT-lərə tematik rolu ilə təsdiqlənmiş vasitəsiz tamamlıqlar kimi yanaşmağı üstün tutur.

M.Conzun öz tədqiqatlarında qaldırdığı əsas məsələ koqneyt tamamlıqlara arqument kimi, yoxsa işləndiyi feillərin adyunktu kimi yanaşmaqdır. O, öz araşdırmalarında N.Xomskinin Teta nəzəriyyəsi və Hal konseptlərinə [1981] əsaslanır. M.Conzun diqqət etdiyi əsas məsələ vasitəsiz tamamlıqlı ismi birləşmələr ilə təsirsiz feillərin işləndiyi tərkiblərdir. Həmin tərkiblərdə işlənən əsas isim feilin hadisə və ya hal-vəziyyət bildirən isimləşməsidir [5, 89]. Lakin çox təəssüf ki, M.Conz KTT-lərdə olan hadisə və ya hal-vəziyyət isimləşməsi arasındakı fərqi nümunələrlə izah etməyib. Koqneyt tamamlıqlarla işlənən feil qruplarına əsasən, M.Conz koqneyt tamamlıq tərkiblərinin 2 növünü ayırır: 1) bəzi ifadələr *qeyri-erqativ* feillərlə işlənir (*dance a dance – rəqs etmək, dream a dream yuxu görmək/xəyal etmək*) və məchul növə çevrilə bilir (*A merry dance was danced by Sam – Şən rəqs Səm tərəfindən edildi*). Bu xüsusiyyətinə görə də o, onlara "həqiqi/əsl təsirli" statusunu verir [5, 91]. 2) Digər tərkiblər/ifadələr isə *erqativ* feillərlə işlənir, yəni üst strukturda (S – surface structure) mübtəda kimi görünən ismi birləşmə alt strukturda (D – deep structure) feili birləşmənin tamamlığıdır [5, 90], məsələn, *the old lady* ismi birləşməsi – *The old lady eventually died (Nəhayət, yaşlı qadın öldü).*

Öz müzakirə və mülahizələrində M.Conz aşağıdakı kimi cümlələri misal gətirərək ikinci növün üzərində xüsusi olaraq dayanır:

(1) a. *John died a gruesome death. (Con dəhşətli bir ölümlə öldü).*

b. *Bill sighed a weary sigh. (Bill yorğun bir ah çəkdi).*

Koqneyt tamamlıqların arqument statusunu sübut etmək üçün M.Conz əvvəlcə *to die (ölmək), to live (yaşamaq), to sigh (ah çəkmək)* kimi erqativ feillərin təsirli istifadəsini təklif edir. Bu yanaşmaya görə, koqneyt tamamlıqlar normal vasitəsiz tamamlıqlar kimi olmalı və obyekt hal və teta-rola malik olmalıdır. Vasitəsiz tamamlıqlar məchul növdə işlənə bilir, yəni obyekt hal və teta-rolun nəticəsində ismi birləşmə mübtəda mövqeyinə köçürülə bilir [5, 91]:

(2) a.**A gruesome death was died by John. (*Dəhşətli bir ölüm Con tərəfindən ölündü)*.

b. **A weary sigh was sighed by Bill.(*Yorğun bir ah Bill tərəfindən çəkildi).*

Lakin cümlələrin qrammatik qaydalara uyğun olmaması M.Conzu belə bir nəticəyə gəlməyə vadar edir ki, ya hal nəzəriyyəsinin ismi birləşmələrin hərəkətinə qoyduğu tələblər bəzi növ tamamlıqlar üçün fərqlidir, ya da koqneyt tamamlıqların arqumentlər kimi şərhindən imtina edərək onların adyunkt predikatlar kimi təsnif edilməsi lazımdır. M.Conz tərzi-hərəkət zərfləri ilə işlənən aşağıdakı cümlələrlə

(3) a. *John died gruesomely. (Con dəhşətli şəkildə öldü)*; b. *Bill sighed wearily. (Bill yorğunluqla ah çəkdi)* (1)-də qeyd etdiyimiz cümlələr arasındakı fərqin "mənadan daha çox üslub/tərz məsələsi" [5, 93] olduğunu müşahidə edərək ikinci alternativi seçir və beləliklə də, koqneyt tamamlıqlara tərzi-hərəkət zərfləri ilə bərabər, feili birləşmənin təyinedicisi kimi yanaşmağı təklif edir. Adyunkt-predikatlar sinfini (tərz zərfləri daxil olmaqla) təklif edən M.Zubizarretanın [1987] ardınca M.Conz da koqneyt tamamlıqları bu cür adyunkt predikatlar hesab edir və beləliklə də, ən azından teta-kriteriya problemini həll edə bilir. Lakin bununla belə, hal təyin edilməsi məsələsi bir qədər çətindir, çünki N.Xomskinin Hal nəzəriyyəsi açıq şəkildə "hər bir ismin" hal üçün qeyd olunmasını tələb edir. M.Conz müzakirə etdiyi üç mümkün həll yolundan N.Xomskinin Hal nəzəriyyəsinin modifikasiyasını ən uyğun variant hesab edir. Nəzəriyyə elə bir şəkildə dəyişdirilir ki, yalnız teta-rolu olan ismi birləşmələrin halı ola bilər (N.Xomskinin orijinal versiyasında isə hal işarəsi teta-rolların təyinindən əvvəl gəlir). Fikrimizcə, koqneyt tamamlıqların teta-rol daşımadığı iddia olunduğuna görə onlara hal təyin edilə bilməz. M.Conzun arqument xəttinin zəif tərəfi onun "KT-lər (daha dar mənada, erqativ feillərlə işlənən formalar) məchul növdə işlədilə bilməz" iddiası ilə çıxış etməsidir. Çünki bu fikir bir çox dil materiallarının təhlili ilə asanlıqla təkzib edilə bilər.

M.Conzun KT-ləri adyunkt kimi təhlil etməsi M.Zubizarreta [1987] və F.Moltmann [1989] tərəfindən dəstəklənir. Onlar iddia edir ki, KTT-lər sadəcə tərkibində zərf olan sadə feili ifadələrin üslubi variantlarıdır və həmin zərf KT-dən əvvəl gələn (mümkün) sifət təyinedicisi ilə uyğun gəlir. M.Conz KTT-lər və onların feil + zərf qarşılıqları arasında bu cür törəmə əlaqəyə işarə edərək bildirir ki, KTT-

lərdə əsas isim feil üçün surroqat rolunu oynayır, bunun da nəticəsində sifət və ya digər təyinedicilər tərəfindən ismi birləşməyə təyin edilmiş modifikasiya əlaqəsi semantik-sintaktik səviyyədə feili birləşməyə köçürülür [5, 93]. Tədqiqatçının bu təklifi tamamlıq ifadəsinin təyinsiz işləndiyi KTT-lər (4a) və ya zərf qarşılığı olmayan təyinlərlə işlənmiş KT-ləri (4b) izah edə bilmir:

(4) a. *If you tell him to jump a jump twice, he does it. (Əgər siz ona desəniz ki, iki dəfə tullan, o, bunu edir).*

b. *In the dark, I dreamed the empty dreams of the amnesiac. (Mən qaranlıqda amneziya xəstəsinin boş xəyallarını xəyal etdim).*

M.Conzun bu analizini ümumiləşdirərək qeyd edə bilərik ki, o təbii dil istifadəsində rast gəlinən KT-lərin geniş çeşidi üçün aydın həll yolları təklif etmir.

Generativ Dilçiliyin digər bir nümayəndəsi olan D.Massam KT-lərin statusunu adyunkt kimi götürən dilçilərə reaksiya olaraq zidd arqumentlərlə dolu bir araşdırma təqdim edir. O, bir sıra faktlar təqdim etməklə KT-ləri feildən pasient teta-rolu qəbul edən vasitəsiz tamamlıqlar (yəni arqumentlər) kimi götürür. D.Massam [1990] öz araşdırmasında KT-lərin xüsusiyyətləri ilə bağlı olan bir sıra məsələlərə aydınlıq gətirməyə çalışır.

M.Conz kimi, D.Massam da KTT-lərin iki müxtəlif növünü fərqləndirir: təsirsiz feillərin məhdud sayda tamamlıqlarla işləndiyi (*Tosca sang a song/an aria – Toska mahnı/ariya oxudu*) *tranzitivləşdirici* (transitivizing) *tamamlıq tərkibləri* və *həqiqi KTT-lər* [8, 163]. Birinci növ tamamlıqlar özlərini "qaydalı" tamamlıqlar kimi apararaq müxtəlif strukturlara və müxtəlif növ modifikasiyalara (məchul növdə işlənə bilmə, aktuallaşdırma – cümlədə önə gətirmə, əvəzliklə asanlıqla əvəz olunma, sual verilə bilmə və s.) imkan verirlər, lakin bu hal ikinci növ üçün xarakterik deyil.

KT-lərin nümayiş etdirdiyi xüsusiyyətlər həqiqi KT-lərin vasitəsiz tamamlıqlar kateqoriyasından çıxması fikrini dəstəkləyir. Bununla belə, D.Massamın iddia etdiyi kimi, KT-lər həm də zərfliklərin ümumi xüsusiyyətləri ilə uyğun gəlməyən xüsusiyyətlərə malikdir. O qeyd edir ki, ilk növbədə, onlar normal zərfliklərdən fərqli olaraq, vasitəsiz tamamlıqlarla birlikdə işlənə bilmir, ikincisi isə, onlara hal təyin olunduğuna görə, dildə açıq şəkildə hal işarəsi ilə işləndiyinə görə feil ilə yanaşı işlənməlidir. Bu müşahidələrin əsasında o, belə bir nəticəyə gəlir ki, KT-lər struktural tamamlıqlardır [8, 166]. "Əvvəlki" təsirsiz feillərin təsirli statusunu izah etməyə çalışan D.Massam, B.Levin və T.Rappaportun *leksik* tabelilik adlandırdığı leksik izafilik qaydasının olduğunu qeyd edir və onu feilin mənasını genişləndirən bir proses hesab edir: bu proses feilin Leksik Konseptual Strukturunda baş verərək ona məna səviyyəsi əlavə edir və yeni feilin arqumenti vəziyyət / məkan / mövcudluq dəyişikliyinə məruz qalır [7, 281]. Bu proses aşağıdakı cümlələrdə ifadə olunub:

(5) a. *Tosca sang.(Toska oxudu).*

b. *Tosca sang an aria. (Toska ariya oxudu)* [8, 171].

D.Massamın fikrinə görə, leksik tabelilik həm tranzitivləşdirici tamamlıqlar (TT), həm də KT-lər üçün keçərlidir.

O belə hesab edir ki, KT-lər agent tərəfindən həyata keçirilən bir hərəkət nəticəsində meydana gələn bir pasient kimi şərh edilə bilər və ya "Pasient hadisənin özüdür" [8, 173]. Oxşar yanaşma R.Larson [1988] tərəfindən də irəli sürülüb. O, belə hesab edir ki, qeyri-erqativ feillər də təsirli feillər kimi "tematik olaraq yenidən qurula bilir" [6, 386]. R.Larsonun "Koqneyt Tamamlığın Formalaşması" adlandırdığı bu proses KT-lərin feili birləşməyə inteqrasiyası ilə nəticələnir.

KT-lərin vasitəsiz tamamlıq statusunu təsdiqləməkdən əlavə, D.Massamın KTT araşdırmalarının bir sıra başqa nəticələri də var. İlk növbədə, onun KT-lərə "hadisə bildirən" tərifini verməsi, heç şübhəsiz ki, KT-ləri nəticə tamamlığı kimi götürən ənənəvi yanaşmalardan tamam fərqlənir. İkincisi, o, KTT-ləri qeyri-erqativ feillərə məhdudlaşdırır. Onların tematik roluna gəlincə isə, D.Massam KT-lərin "təsirə məruz qalan (affected) pasient" kimi götürülməsini təklif edir.

KT-lərin hadisəni məhdudlaşdıran zaman zərfliyi ilə birlikdə işləndiyi oxşar cümlələr də qrammatik cəhətdən düzgün göstərilir:

(6) a. ? *Casey laughed a hearty laugh in 20 seconds. (Keysi 20 saniyə ərzində ürəkdən güldü)*.

b. **Casey laughed heartily in 20 seconds*. *(Keysi 20 saniyə ərzində ürəkdən güldü)* [8, 177].

Bu, şifahi nitqdə ifadə olunan hadisənin bitdiyinin göstəricisidir, çünki yalnız müvəqqəti olaraq məhdud olan hadisələri ölçmək olar (yuxarıdakı nümunələrdə "ölçmə" *in 20 seconds* zərfliyi ilə ifadə olunub).

D.Massamın KT-ləri səciyyəvi Pasient arqumentləri ilə müqayisə etməsi onun bu iddiasını dəstəkləyir ki, KT-lər pasientin teta rolunu daşıyan vasitəsiz tamamlıqlar (arqumentlər) kimi götürülə bilər. Bu, əlbəttə ki, sual doğurur ki, nəyə görə koqneyt tamamlıqlar digər tamamlıqlardan bu qədər fərqlənir. KT-lərin məchul növdə işlənə bilməməsinə gəlincə, D.Massam bunun mütləq asılı elementi olan bütün vasitəsiz tamamlıqlar üçün xarakterik olduğunu qeyd edir, yəni onların düzəldildiyi leksik element tamamlıq dəyişəninin daxilində asılı dəyişəni əhatə edir [8, 180]. KT-lərin düzəldilmiş pasientlər olması və heç bir tamamlığın iki dəfə düzəldilə bilməməsi faktı aşağıdakı nümunədə (7a) göstərildiyi kimi KT-lərin niyə müəyyən əvəzliklərlə sərbəst əvəzlənə bilmədiyini (pronominalization) izah edir:

(7) a. **John sighed a weary sigh, then Harry sighed it. (*Con yorğun bir ah çəkdi, sonra Harri bunu çəkdi).*

b. *John sighed a weary sigh, then Harry sighed one. (Con yorğun bir ah çəkdi, sonra Harri də birini çəkdi).*

c. *John sighed a sigh, and it was a weary one. (Con bir ah çəkdi və bu, yorğun idi)* [8, 180].

Bununla belə, düzəldilmiş tamamlıqlara qeyri-müəyyən əvəzliklərlə istinad etmək olar və (7b) və (7c)-də göstərildiyi kimi KT-lərə də həmçinin [8, 181]. KT-ləri aydınlaşdırmaq üçün verilən suallara D.Massam bu cür cavab verir: "Aydındır ki, KT-ni sorğulamaq leksik olaraq veriləni sorğulamaqdır." Əgər KT-lərin adətən yeni

məlumat əlavə edən hər hansı bir modifikasiya ilə işləndiyi iddiası nəzərə alınarsa, bu izahatın özü də şübhə doğurur. Yeni bir məlumatın modifikasiya vasitəsilə KT-yə əlavə olunması kriteriyası həm də onların aktuallaşdırılmasına (topicalization) imkan verir:

(8) *It was a weary sigh that John sighed. (Conun çəkdiyi ah yorğun bir ah idi)* [8, 181].

Yekun olaraq qeyd etmək lazımdır ki, D.Massam Pasient rolu KT-lərin xüsusi teta-rolu kimi götürərək onların arqument olduğunu sübut etməyə çalışmış, eyni zamanda KT-lərin işləndiyi müxtəlif tərkiblərdəki məhdudiyyətlərin yalnız sintaktik deyil, həm də praqmatik məsələ olduğu qənaətinə gəlmişdir. Bu, həm də təyinsiz KT-lərin işləndiyi cümlələr üçün doğrudur: bu cür ifadələri qeyri-qrammatik adlandırmaq əvəzinə onları izafilik halları kimi nəzərdən keçirmək lazımdır [8, 182].

İstifadə olunmuş ədəbiyyat

1. Veysəlli F., *Dilçilik ensiklopediyası*. I cild, Bakı: Mütərcim, 2006.
2. Veysəlli F., *Dilçilik ensiklopediyası*. II cild, Bakı: Mütərcim, 2008.
3. Chomsky N., *Aspects of the Theory of Syntax*. Cambridge, Mass: MIT Press, 1965.
4. Chomsky N., *Lectures on Government and Binding*. Dordrecht: Forris Publications, 1981.
5. Jones M., *Cognate objects and the case filter*. Journal of Linguistics 24, 89-110, 1988.
6. Larson R., *On the double object construction.* Linguistic Inquiry 19, 335-391, 1988.
7. Levin B. & Rappaport T. *Lexical Subordination*. Chicago Linguistics Society, 275-289, 1988.
8. Massam D., *Cognate Objects as Thematic objects*. In: The Canadian Journal of Linguistics 35, 161-190, 1990.
9. Moltmann F., *Nominal and Clausal Event Predicates*. In: CLS 25, 300-314, 1989.
10. Zubizarreta M., *Levels of Representation in the Lexicon and in the Syntax*. Dordrecht: Forris Publications, 1987.

VALIYEVA SABINA ALI

COGNATE OBJECT IN GENERATIVE LINGUISTICS RESEARCH

SUMMARY

The article deals with the investigation of cognate objects (CO) used in modern English within the framework of Generative Linguistics (Transformational Grammar) paradigm. The research of the founder of Generative Linguistics, N. Chomsky, as well as M. Jones and D. Massam on cognate objects is reviewed here.

In the paradigm of Generative Linguistics which is a highly formalized approach to language and which places more importance on the description of a speaker's linguistic competence rather than on performance, the main focus of studying COs is the lexical properties of the verbs used in these constructions. These features include subcategorization frames, argument structure arrangements, the assignment of case (or non-assignment), as well as transformational processes which may result in the change of such specifications.

The first principle we need to focus on in order to show the problematic nature of COs within Generative Linguistics is a verb's subcategorization frame. This term, which indicates a verb's syntactic environment, more specifically, the range of complements it permits, is called valency in many literatures.

The second principle that needs to be considered here, the Theta theory, which is one of the sub-theories of N.Chomsky's Government and Binding theory, implies the assignment of thematic roles, in other words, semantic functions of the arguments by the lexical head of a phrase.

The third principle which is important for investigating COs within Generative Linguistics is N.Chomsky's Case theory. According to this theory, certain lexical categories can assign case to mark syntactic or thematic relations between certain components.

Among the representatives of Generative Linguistics, M.Jones [1988], reviewing N.Chomsky's Case theory, prefers to approach cognate objects as adjuncts, whereas D.Massam [1990] advances to treat COs as direct objects, confirmed by their thematic role.

Keywords: Generative Linguistics (Transformational Grammar), cognate object (CO), cognate object construction (COC), subcategorization frames of the verb, valency, Theta theory, thematic role, Case theory.

ВЕЛИЕВА САБИНА АЛИ ГЫЗЫ

РОДСТВЕННОЕ ДОПОЛНЕНИЕ В ГЕНЕРАТИВНОМ ЛИНГВИСТИЧЕСКОМ ИССЛЕДОВАНИИ

РЕЗЮМЕ

Статья посвящена исследованию родственных дополнений (РД), употребляемых в современном английском языке, в рамках парадигмы Генеративной Лингвистики (Трансформационной Грамматики). В статье представлены исследования основоположника Генеративной Лингвистики Н. Хомского, а также М. Джонса и Д. Массама о родственных дополнениях.

В парадигме Генеративной Лингвистики, которая представляет собой в высшей степени формализованный подход к языку и придаёт большее значение описанию языковой компетентности говорящего, а не производительности, основным фокусом изучения РД являются лексические

свойства глаголов, используемых в этих конструкциях. Эти особенности включают фреймы подкатегоризации, организации структуры аргументов, определение падежа (или его не определение), а также процессы трансформации, которые могут привести к изменению таких спецификаций.

Первый принцип, на котором нам нужно сосредоточиться, чтобы показать проблемный характер РД в Генеративной Лингвистике, это фрейм подкатегоризации глагола. Этот термин, обозначающий синтактическую среду глагола, точнее, диапазон допустимых дополнений, во многих литературных источниках называется валентностью.

Второй принцип, который необходимо здесь рассмотреть, теория Тета, являющаяся одной из подтеорий теория Управления и Связывания Н.Хомского, предполагает определение тематических ролей аргументов, иными словами, их семантических функций через лексическую основу комбинации.

Третий принцип, который важен для исследования РД в рамках Генеративной Лингвистики, это теория Падежа Н. Хомского. Согласно этой теории, определенные лексические категории могут присваивать падежи для обозначения синтаксических или тематических отношений между определенными компонентами.

Среди представителей Генеративной Лингвистики М. Джонс [1988], рассматривая теорию Падежей Н. Хомского, предпочитает подходить к родственным объектам как адъюнкт, тогда как Д. Массам [1990] продвигается к трактовке РД как прямое дополнение, что подтверждается их тематической ролью.

Ключевые слова: Генеративная Лингвистика (Трансформационная Грамматика), родственное дополнение, конструкция родственное дополнение, фреймы подкатегоризации, валентность, теория Тета, тематическая роль, теория Падежа.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: ADU-nun professoru, fil.e.d. Mahmudova Şəfaqət Abdulla qızı tərəfindən çapa tövsiyə olunmuşdur

MAMMADOVA SEVINJ
Azerbaijan State Oil And Industry University
Memmedova53@gmail.com

EFFECTIVE STRATEGIES AND WAYS OF TEACHING AND LEARNING VOCABULARY

Summary

The article discusses the relevance of vocabulary enrichment. Particular attention is paid to effective strategies and methods for mastering vocabulary. This article helps to better understand the problems that students have and find ways to solve them.

The path to mastering a foreign language is long and difficult, and most of the effort is aimed at the ability to recognize and use vocabulary units. In any learning context, but especially in the context of foreign language learning, where there are no natural environmental influences or opportunities for language practice, the challenge of learning a large amount of vocabulary in short periods of time is a necessary component of language development and depends largely on individual effort and retention ability. Fortunately, technology and apps can provide a more interesting and potentially more effective alternative to the monotony of working with word lists and rote copying of words, definitions and sentences.

When learning to read, expanding a student's vocabulary is fundamental and involves more than simply mastering a list of words with which students will be familiar. The ability to use vocabulary is much more important: in communication, learning, and knowledge of the world around us.

The practice of teaching reading shows that if students significantly expand their understanding of key words in the text they are reading, then fluency and understanding of the text read as a whole increase.

Keywords: vocabulary; methods; develop; skills; reading, teaching, learning

Vocabulary is a core subject for learners to study English. Most lessons in an English language learning program will lead them to mastery of vocabulary. Teaching vocabulary is the most important aspect in language learning because words are the basis of language. Therefore, teaching this subject effectively to students should be a concern for teachers. However, teaching vocabulary to students is not typical language teaching. There are many things to consider.

Materials, teaching method, strategy and techniques are the main points in teaching vocabulary to students. But teachers' methods are the most important among these points. The reason for this argument is the different way of teaching a student.

Methods must be prepared and implemented effectively so that students can enjoy learning and master the given vocabulary. This is because good teachers are those who know and apply techniques effectively and properly, and good techniques are useless without such good teachers. This requirement of teaching students has become a challenge for teachers. Providing and implementing the best methods for teaching vocabulary to learners is the most important requirement for teaching in every English language learning program. Technology in teaching is a collective method used in the educational process. In this paper, some vocabulary teaching methods are presented. There are many tricks for innovating the meaning of new words. The first is showing real objects and showing models. This is a very useful technique for teaching vocabulary to beginners. Showing real objects can teach a student many things about vocabulary and meaning. In demonstrating meanings, real objects or models are very effective, but when dealing with real objects. Secondly, using demonstrations and pictures, the teacher can show some words or a picture to the students. This makes learning student-centered. The teacher can practice appropriate words or vocabulary and ask students to imitate. This method is simple and can be practiced. There are various techniques used by teachers when teaching vocabulary to students: showing real objects, using demonstrations, showing pictures, drawing, linked vocabulary, translation, role-playing play, word reading, vocabulary use, contrast, identification, facial expression and gesture. These methods are found to be common methods used by teachers especially at elementary level. When using these methods, teachers use more than one method in a single meeting. For example, combining the display of a picture or real object with translation is the most common technique.

The English language is full of synonyms, homophones, and other difficult words to learn. In addition, the number of words in the English language is constantly growing and there is a need to enrich students' vocabulary, which will allow them to more clearly express their thoughts and better understand others. In order to increase our vocabulary, we can use reading, listening, writing, observation and conversation. Listening is listening to texts to train their perception and understanding by ear. Students hear the correct pronunciation of a word and this helps them pronounce and use the word correctly. There are several ways to learn a language through listening. Music is a way to learn new words by immersing yourself in the popular culture of English-speaking countries. Choose a genre that students prefer and listen, trying to hear familiar words.

Visual events

Attend English-language events with students, such as plays, matches, exhibitions, etc., to hear new words.

Letter

In the internet age, writing has become essential to learn and use. Given the one-way nature of writing, it's helpful to have a digital writing assistant like

Grammarly. Students need to use new words to expand their vocabulary. Grammarly has a feature that will help you learn new words and choose the right synonym.

Observation

Another way to learn new words is by watching others use them in context. Students will encounter a variety of situations in which they may use these words, along with the gestures, facial expressions, and mannerisms that often accompany them.

Films and television

Watching movies is a well-known way to learn words. Students receive additional hints while benefiting from listening to the pronunciation of words. Try to combine listening and reading, using English subtitles, which will help students visualize the words they hear.

Observing people.

Observe how people around you communicate. Pay attention to how they use words as well as their mannerisms.

Communication

The next stage is to use new words in speech. Communication allows students to use new vocabulary while working on pronunciation of new words and expanding their vocabulary.

When communicating with friends who speak English fluently, ask them to evaluate your pronunciation and use of vocabulary. Learn from other English language learners. Agree to use only English during your meetings.

The main way to increase your vocabulary is reading. Since reading is a one-person activity, the student has plenty of time to figure out the meaning of new words and how to use them. In order to effectively increase their vocabulary, students should develop the habit of reading every day. Reading on a regular basis will help speed up the process of building vocabulary, understand grammar rules and improve writing in no time. You can read any book, but slang is better learned when reading fiction. Dialogues between characters are typical for stories. Students should read slowly, paying attention to new words and words that characters use frequently. As students read, they should mark words that they are unsure of and return to them to check their meaning using a dictionary. By using a dictionary, students learn about ways to use words. Reading helps you understand English grammar, which has many rules and exceptions. This is a big challenge for students starting to learn English, but as they read, it will be easier for students to understand the structure of English sentences and the use of words. As students read, they reinforce grammar rules and develop fluency. Reading aloud helps reinforce grammatical material. Grammar exercises are important at the initial stage. For a deeper understanding of grammatical material, reading and listening are necessary. An important step in learning the rules is doing exercises, but reading books is the best way in the long run.

Reading will help improve students' writing. The fastest way to expand your vocabulary and improve your writing is to learn from book authors. Students need to form paragraphs and construct sentences. All this can be learned through reading. Students can choose authors and read their works. It will be useful to imitate the author's writing style and try to create dialogues between the characters.

It is necessary to understand the difference between receptive and productive vocabulary. Receptive vocabulary is vocabulary that a student recognizes and understands when he hears it, but does not use it in speech. This applies to reading and listening. Productive vocabulary is the one we use in speech and writing. The famous Swedish polyglot E. Gunnemark, who came to the conclusion: the active vocabulary at the first stages of learning a language is approximately 400-500 basic words and about 150 expressions [1]. The ways to achieve these goals are different. Expansion of the receptive vocabulary we understand occurs when a student repeatedly encounters or hears a word in context. The ability to understand a large amount of vocabulary is important. To do this, you need to work according to the following scheme [2]:

1. Choose a book on a topic that interests students. If students are not motivated to read the book, they will not learn much vocabulary.
2. You must read the chapter.
3. After students have read the chapter, ask them to go back to the beginning and choose three new words.
4. Students need to look up the meaning of words in the dictionary and pay attention to the context in which they are used.
5. Students need to go through these steps with each chapter.

To improve productive vocabulary, students need to keep a record of the words they want to use in speech.

1. Choose a book that will be of interest to students.
2. Students are required to read the chapter.
3. After students have read the chapter, ask them to go back to the beginning and choose three new words. Ask them to choose interesting and descriptive words that can be used in different contexts.
4. Students need to look up the meaning of new words in the dictionary and pay attention to the context in which they are used.
5. Write down new words in a notebook.
6. Students should complete steps 2-4 as they read each subsequent chapter.
7. Students need to review the notebook 2-3 times a week.

Students can be advised to read any literature, but it is important that the books are interesting. If a student is interested in sports, then let him read sports magazines; if he likes films, he can suggest reading scripts. If the film is based on a novel, offer to read the novel. Advise students to not just learn new words, but to write them down and then use them. But you should write down not individual

words, but sentences in which the meaning of the word is clear. For example, the word beautiful.

"The sky is beautiful", since it will not say anything about the word itself. It would be better to write something like this: "I love to see a beautiful sky that has pretty clouds and a sunshine and a nice color, a nice shade of blue because it makes me feel happy." Ask students to think beyond just one word. When writing down an unfamiliar word, choose other forms of this word. "Beautiful" is an adjective, form the form of the adverb "beautifully", the noun "beauty", the verb "beautify". You can add "beautician". By writing down all possible forms, students will learn several words instead of just one.

Another way to learn words is to memorize word roots, prefixes and suffixes. For example, the root "ject". With this root we can write the following words: "*inject, eject, object, subject"* All these words have one root and, knowing its meaning, you can understand the meaning of other words with this root.

The next method is listening. Students should listen to any English spoken. Students can use ted.com. This is a website where you can hear speeches and lectures on various topics. The scheme for working with listening is as follows: students hear a new word and write it down. If you have problems with spelling, you can write it phonetically, i.e., write down the word as it sounds, then students can clarify the transcription and find a new word. When working with new words, it is better to use not English-Azerbaijani dictionaries, but English-English explanatory ones. Students will be able to learn as many words as possible with the help of definitions.

There are other effective ways to increase your vocabulary, but they require patience and persistence.

Using small cards

On the one hand, students can write 4-5 new words. On the other hand, you need to write a sentence in which new words are used, as well as the meaning of these words. It is better to divide all the cards into three groups: the first - cards with words the meaning of which students know. These words should be reviewed from time to time. The second pile will contain words the meaning of which meaning students can guess. These cards should be reviewed frequently. The third pile contains unfamiliar words. Cards with these words must be reviewed regularly. When students have learned the word, the card must be moved to another pile. In order to learn words faster, the cards should be carried with you and constantly reviewed. Words that students know should not be forgotten, otherwise students may forget their meaning. Flashcards need to be constantly reviewed, since learning vocabulary is a constant process of memorization.

You can choose any method to expand your vocabulary, but students will truly be able to increase their vocabulary when they begin to understand the

difference between seemingly identical words and phrases, understand etymology, and feel the expressiveness and beauty of the English language.

REFERENCES

1. Dvornikova, T. M. Using the media in teaching English / T. M. Dvornikova// Intercultural communication and professionally oriented teaching of foreign languages: materials of the XIII International. scientific conf., dedicated 98th anniversary of the formation of Belarus. state University, Minsk, October 30. 2019; - Minsk: BSU, 2019. - pp. 149-152.

2. Dobrosklonskaya, T. G. Issues in the study of media texts (experience in studying modern English media speech) / T. G. Dobrosklonskaya - Ed. 2nd, stereotypical. - M.: Editorial URSS, 2005. - 286 p.

3. Arnold I.V. Lexicology of modern English: textbook. allowance / I. V. Arnold. — 2nd ed., revised. - M.: FLINTA: Nauka, 2012. - 376 p.

4. Babich G. N. Lexicology: A Current Guide. Lexicology of the English language: textbook. allowance / G. N. Babich. — 5th ed. - M.: FLINTA: Nauka, 2010. - 200 p.

5. Galperin I. R. Stylistics of the English language: Textbook (in English). Ed. 3rd. M.: Book house "LIBROKOM", 2010. - 336 p.

6. Malyuga E. N. English-language professional jargon in business discourse // Series “Modern linguistic and methodological-didactic research”. 2010. No. 2. - pp. 11–16.

7. Babanazarov, N. Sh., and L. O. Ovezgeldieva. “Modern approaches to teaching a foreign language.” (2021).

МАММАДОВА СЕВИНДЖ

ЭФФЕКТИВНЫЕ СТРАТЕГИИ И СПОСОБЫ ПРЕПОДАВАНИЯ И ИЗУЧЕНИЯ СЛОВАРНОГО ЗАПАСА

РЕЗЮМЕ

В статье рассматривается актуальность обогащения словарного запаса. Особое внимание уделяется эффективным стратегиям и методам овладения лексикой. Данная статья помогает лучше понять проблемы, возникающие у студентов и найти пути их разрешения.

Путь освоения иностранного языка долог и труден, и большая часть усилий направлена на умение распознавать и использовать словарные единицы. В любом контексте обучения, но особенно в контексте изучения иностранного языка, где нет естественного воздействия окружающей среды или возможностей для языковой практики, задача изучения большого объема словарного запаса за короткие промежутки времени является необходимым

компонентом развития языка и во многом зависит от индивидуальных усилий и способности запоминать. К счастью, технологии и приложения могут служить более интересной и потенциально более эффективной альтернативой монотонной работе со списками слов и механическому копированию слов, определений и предложений. При обучении чтению расширение словарного запаса учащегося является основополагающим, представляя собой не просто усвоение перечня слов, с которыми учащиеся будут знакомы. Гораздо большее значение имеет умение использовать словарный запас: в общении, обучении, познании окружающего мира. Практика обучения чтению показывает, что если учащиеся значительно расширяют своё понимание ключевых слов в читаемом тексте, то повышается беглость и понимание прочитанного текста в целом.

MƏMMƏDOVA SEVİNC

LÜĞƏTİN ÖYRƏDILMƏSI VƏ ÖYRƏNILMƏSI ÜÇÜN EFFEKTİV STRATEGIYALAR VƏ ÜSULLAR

XÜLASƏ

Məqalədə lüğətin zənginləşdirilməsinin aktuallığından bəhs edilir. Lüğətin mənimsənilməsi üçün effektiv strategiya və üsullara xüsusi diqqət yetirilir. Məqalə tələbələrin qarşılaşdıqları problemləri daha yaxşı başa düşməyə və onların həlli yollarını tapmağa kömək edir. Xarici dilə yiyələnmək yolu uzun və çətindir və səylərin çoxu lüğət vahidlərini tanımaq və istifadə etmək bacarığına yönəlib. İstənilən öyrənmə kontekstində, lakin xüsusilə xarici dil öyrənmə kontekstində, təbii ətraf mühit təsirlərinin və ya dil təcrübəsi üçün imkanların olmadığı bir şəraitdə, qısa müddət ərzində böyük həcmdə lüğətin öyrənilməsi problemi dilin inkişafının zəruri komponentidir və əsasən fərdi səy qabiliyyətindən asılıdır. Xoşbəxtlikdən, texnologiya və tətbiqlər söz siyahıları ilə işləmək monotonluğuna və sözlərin, təriflərin və cümlələrin əzbər surətdə kopyalanmasına daha maraqlı və potensial olaraq daha effektiv alternativ təmin edə bilər. Oxunu öyrənərkən, tələbənin lüğət ehtiyatını genişləndirmək əsas məsələdir və sadəcə tələbələrin tanış olacağı sözlərin siyahısını mənimsəməkdən daha çox şeyi əhatə edir. Söz ehtiyatından istifadə etmək bacarığı daha vacibdir: ünsiyyətdə, öyrənmədə və ətrafımızdakı dünyanı bilməkdə. Oxunu öyrətmə təcrübəsi göstərir ki, əgər tələbələr oxuduqları mətndəki açar sözlər haqqında anlayışlarını əhəmiyyətli dərəcədə genişləndirsələr, bütövlükdə oxunan mətnin səlisliyi və başa düşülməsi artır.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Məsimova tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ FİKRƏT qızı AĞALAROVA
Azərbaycan Memarlıq və İnşaat Universiteti

AŞAĞI KURS TƏLƏBƏLƏRİNƏ İNGİLİS DİLİNDƏ QRAMMATİK VƏRDİŞLƏRİN AŞILANMASININ SƏMƏRƏLİ YOLLARI

Xülasə

Məqalədə aşağı kurs tələbələrinə ingilis dilində qrammatik vərdişlərin aşılanmasının səmərəli yolları araşdırılır və müzakirə edilir. Təhsil sisteminin vacib və ayrılmaz tərkib hissələrindən biri olan ali təhsil keçirilən dinamik xarakterli islahatlar sistemində xüsusi yerə və əhəmiyyətə malikdir. İxtisas dilindən kommunikasiya məqsədilə istifadə etmək bacarığına malik olan mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin əsas vəzifəsinə çevrilmişdir. Bu gün ali təhsil qarşısında duran əsas vəzifələrdən biri dövrün tələblərinə cavab verən xarici dil müəllimlərinin hazırlanmasıdır. Dil sahəsində mütəxəssislərin günün tələblərinə cavab verən şəkildə hazırlanması, xarici, o cümlədən ingilis dili müəllimləri, tərcüməçi və dilçilərin yüksək peşə keyfiyyətlərinə yiyələnməsi, ixtisaslarını mükəmməl bilmələri mühüm əhəmiyyət kəsb edir.

Təlim prosesi zamanın tələbindən asılı olaraq daim inkişaf edir. Müasir təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan müəllim və tələbələrin funksiyaları dəyişir. Münasibətlər "subyekt-subyekt" sxeminə uyğun üfiqi istiqamətdə qurulur. Müəllimlərin rəhbərlik funksiyaları dəyişir. O daha çox təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi tələbələrin müstəqil idrak fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir.

Məqalənin məqsədi dil fakültələrinin aşağı kurs tələbələrinə qrammatik vərdişlərin uğurlu şəkildə həyata keçirilməsi üçün vacib olan amilləri müəyyənləşdirib, müasir dövrün tələblərinə uyğun olan, tələbələrin maraq və tələbatları üzərində qurulan səmərəli təlim sisteminin mahiyyətini açıqlamaqdır.

Açar sözlər: qrammatik vərdişlər, təlim modeli, induktiv metod, yaradıcı fəaliyyət, qrammatik qaydalar

Vusala Fikret Aghalarova

Summary

Effective ways to instill grammatical skills in English to junior students

Effective ways of instilling grammatical skills in English to junior students are examined and discussed in the article. Higher education, which is one of the important and integral components of the education system, has a special place and importance in the system of dynamic reforms. The training of specialists who have the ability to use the specialized language for communication purposes has become

the main task of higher schools. One of the main tasks facing higher education today is the training of foreign language teachers who meet the requirements of the time. It is important to train specialists in the field of language in accordance with the requirements of the day, to acquire high professional qualifications of foreign teachers, including English language teachers, translators and linguists, and to know their specialties perfectly.

The training process is constantly evolving depending on the demand of time. In the modern education system, the functions of teachers and students, who are at the center of the pedagogical process, are changing. Relationships are established horizontally according to the "subject-subject" scheme. The leadership functions of teachers are changing. It becomes a subject that organizes students' independent cognitive activity and active creativity as a consultant who coordinates and directs educational activities.

The purpose of the article is to identify the factors that are important for the successful implementation of grammatical habits to junior students of language faculties, and to explain the essence of an effective training system that is in accordance with the requirements of the modern era and is based on the interests and needs of students.

Keywords: grammatical habits, learning model, inductive method, creative activity, grammatical rules

ВУСАЛА ФИКРЕТ КЫЗЫ АГАЛАРОВА

РЕЗЮМЕ
ЭФФЕКТИВНЫЕ СПОСОБЫ ПРИВИТИЯ ГРАММАТИЧЕСКИХ НАВЫКОВ АНГЛИЙСКОГО ЯЗЫКА СТУДЕНТАМ МЛАДШИХ КУРСОВ

В статье рассматриваются и обсуждаются эффективные способы привития грамматических навыков английского языка студентам младших курсов.

Высшее образование, являющееся одним из важных и неотъемлемых компонентов системы образования, занимает особое место и значение в системе динамичных реформ. Подготовка специалистов, владеющих специализированным языком в целях общения, стала основной задачей высших учебных заведений. Одной из главных задач, стоящих сегодня перед высшей школой, является подготовка учителей иностранного языка, отвечающих требованиям времени. Немаловажное значение имеет подготовка специалистов в области языка таким образом, чтобы они отвечали требованиям дня, обладали высокими профессиональными качествами преподавателей

иностранных языков, в том числе английского, переводчиков и лингвистов, в совершенстве владеющих своей специальностью.

Тренировочный процесс постоянно развивается в зависимости от требований времени. В современной системе образования изменяются функции учителя и учащихся, находящихся в центре педагогического процесса. Отношения устанавливаются горизонтально по схеме «субъект-субъект». Изменяются лидерские функции учителей. Он становится предметом, организующим самостоятельную познавательную деятельность и активное творчество учащихся в качестве консультанта, координирующего и направляющего учебную деятельность.

Цель статьи - выявить факторы, важные для успешного внедрения грамматических навыков у студентов младших курсов языковых факультетов, и объяснить суть эффективной системы обучения, соответствующей требованиям современной эпохи, основываясь на интересах и потребностях учащихся.

Ключевые слова: грамматические навыки, модель обучения, индуктивный метод, творческая деятельность, грамматические правила.

Hazırda dünyada xüsusi rola malik olan və əsas ünsiyyət vasitəsinə çevrilən ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən hesab olunur. İngilis dili vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə dil fakültələrinin tələbələri özlərinin peşə sahələri ilə bağlı dünya təcrübəsindən bəhrələnərək və ondan səmərəli şəkildə istifadə edərək müvafiq biliklərə yiyələnirlər.

Dilin lüğət tərkibi dilin mənimsənilməsində ən vacib amillərdən biridir. Əgər tədris zamanı xarici dili öyrənən tələbələr dili öyrənməkdə çətinlik çəkərlərsə, bu zaman interaktiv üsuldan istifadə etmək ən optimal yoldur. Qrammatikanı tədris edərkən, müəyyən tövsiyələri nəzərə almaqla təlim prosesinin daha səmərəli şəkildə qurulması və daha uğurlu nailiyyətlərin əldə edilməsi üçün müvafiq şəraitin yaradılması mümkündür: qrammatik materiallar həm vasitəli, həm də vasitəsiz şəkildə təqdim edilə bilər. Qrammatik strukturların kontekst daxilində təqdim edilməsi həmin strukturların qrammatik mənasını tələbələrə aşılamaq və onlarda qrammatik materialların istifadə edilməsi bacarıqlarının formalaşdırılmasını təmin edir. Qrammatik strukturların mənimsənilməsi səviyyəsini müəyyənləşdirmək üçün müvafiq sualların tələbələrə verilməsi tövsiyə olunur [2, s.48].

Tələbələr yeni qrammatik strukturları müxtəlif nitq fəaliyyətlərində işlətməlidir. Qrammatik strukturlardan yaradıcı şəkildə istifadə etmək bacarığına yiyələnmək məqsədilə mənimsənilməli olan materiallar müzakirə, mübahisə, rollu oyunlar, təqdimatlar və s. şəklində istifadə edilməlidir.

Yeni qrammatik vahid və strukturlar müəllim tərəfindən təqdim edilərkən onların hansı məna kəsb etməsi anlaşıqlı xarakter daşımalıdır. Qrammatikanın təlimi

prosesini səmərəli şəkildə təşkil etmək üçün ən uğurlu olan təlim modeli kimi PPP modeli *(Presentation – Practice – Production, Təqdim etmə – Təcrübə – Yaradıcı model)* təklif olunur. Tələbələr təqdim edilən qrammatik vahidlərin nə vaxt? və necə? istifadə edilməsi haqqında məlumatlı olmalıdırlar [4, s.52]. Məsələn, ingilis dilində söz sırasından danışarkən sözlərin hansı sıra ilə düzüldüyü haqqında tələbələri məlumatlandırmaq və söz sırasının hansı səbəbdən dəyişdiyini onlara izah etmək lazımdır. Qeyd etmək lazımdır ki, dərslərin əksəriyyətində tərcümələrə daha çox yer verilir. Dərslərdə bütün yeni sözlər tərcümələri ilə tələbələrə təqdim olunur. Bu üsul tələbələrin çaşqınlığına şərait yaradır.

Tələbələrə yeni qrammatik strukturların təqdim edilməsinin bir neçə yolu vardır:

– qrammatikanın vasitəsiz öyrədilməsi zamanı müəllim qrammatik qaydaları tələbələrə izah edir və lazım olan məlumatları verir;

– qrammatikanın vasitəli öyrədilməsi zamanı müəllim tələbələrə heç bir izahat verməsə də qrammatik materialların mənimsənilməsində müxtəlif yollarla yardımçı olur.

Qrammatikanın vasitəsiz öyrədilməsi prosesində müəllim qaydaları tələbələrə izah edir və müvafiq biliklərlə təmin edir. Məsələn, ingilis dilində ümumi suallara aid qaydaları izah edərkən, müəllim indiki qeyri-müəyyən zamanda *can* modal feli vasitəsilə sual vermək formasını xəbər və mübtədanın yerlərini dəyişməklə modal feli cümlənin əvvəlinə keçirməyin vacibliyi barədə tələbələrə məlumat verir [1, s.76]. Məsələn,

I can speak English.

Can you speak English?

Qrammatika mətnə istinad olunaraq təqdim edilə bilər. Qrammatikanın vasitəsiz təqdim edilməsinin daha bir yolu tələbələrdən təqdim edilən mətndə mənimsənilməsi nəzərdə tutulan qrammatik strukturların altından xətt çəkməyi tapşırmaqdır. Sonra tələbələr özləri müstəqil surətdə qrammatik qaydaları işləyib təqdim etməlidirlər. Bu tipli tapşırıqlar cütlük və ya qrup şəklində müzakirə edilə bilər. Tələbələri düzgün istiqamətə yönəltmək məqsədilə müəllim onlara müvafiq tapşırıqlar verə bilər. Məsələn, aşağıdakı cümlələrdə keçmiş qeyri-müəyyən zaman formasına aid verilən felləri göstərin:

He looked so defenceless lying there, his hair rumpled and his face shadowed with exhaustion [10].

He had turned her world and her hopes upside-down, apparently without a second thought, and she couldn't allow him to think they might have a future – she had too much to protect now [10].

She took a deep breath to control her growing anger, clenching her hands into fists and standing stiffly erect to minimise the tremors which shook her whole body [10].

Həmin üsullar qrammatik strukturların mənimsənilməsi prosesini daha maraqlı təşkil etmək üçün istifadə edilə bilər.

Qeyd etmək lazımdır ki, təqdim olunan materialın mənimsədilməsi üçün təklif olunan iş üsulları birtipli və ya çoxtipli ola bilər. Birtipli məsələlərin həlli üçün ümumi olan cəhətlər tapılır və sxemləşdirilir, onların hamısı həmin model-sxem üzrə icra edilir. Bu prosesdə tədris materiallarının *step by step* mənimsənilməsi tələbənin idrak əməliyyatlarının məntiqi ardıcıllığına əsasən həyata keçirilir. Tələbələrin sərbəst olaraq müəllim fəaliyyətini əvəz etməsi, onların tədqiqatçılıq bacarığının formalaşmasına imkan yaradır. Konkret nümunə əsasında deyilənlərə münasibətimizi aşağıdakı kimi ifadə edə bilərik [7, s.18].

Universitet tələbələrinə təqdim olunan qrammatik materiallar əvvəlcədən müəllim tərəfindən hazırlanmış model əsasında verilmir. Mövzuya dair dərsdə aparılan tədqiqat nəticəsində materialın başa düşülməsi mərhələsindən sonra tələbələr özləri tətbiqetmə *(practice)* mərhələsində qrammatik modelləri hazırlamağa başlayırlar. Məsələn:

Ask your friend:
- when he last went to his hometown;
- which of his friends came to say good-bye to him;
- which of his family went shopping to get some food;
- whether the railway station is far from his journey;
- whether he had a pleasant journey;
- how many friends came to the station to meet him;
- how long they had to wait [9, s.66].

Nümunə kimi təqdim etdiyimiz birtipli tapşırığın yerinə yetirilməsi üçün daha bir neçə tipli cümlə modelləri hazırlanmalıdır. Lakin bu cür tapşırıqlara müraciət etməklə problemlərin həllini təmin etmək mümkün deyil. Bu cür əməliyyatlar bu və ya digər təlim situasiyasında mənimsənilməli olan leksik vahidlərin seçilməsi prosesində müəllim və tələbələri istiqamətləndirmək məqsədilə, bir növ bələdçi kimi istifadə edə bilər.

Qeyd edildiyi kimi, müzakirə obyekti olan ikinci amil çətinlik göstəricisidir. Adətən dil materiallarının təqdim edilməsi və mənimsənilməsindən danışarkən, asandan çətinə, sadədən mürəkkəbə doğru irəliləmək tövsiyə edilir. Onu da qeyd etmək lazımdır ki, lüğət vahidlərinin mənimsənilməsinin çətinlik dərəcəsini müəyyənləşdirərkən, adətən həmin prosesə tələb edilən vaxt müddətini əsas tuturlar. Eyni zamanda, problemi araşdıran müəlliflərin fikrincə, "çətinlik" meyarının kifayət qədər etibarlı və inandırıcı olması məsələsi birmənalı şəkildə qəbul edilmir və mübahisələrə səbəb olur. Burada "çətinlik" məfhumunun əsasında duran səbəblər fonologiya, morfologiya, sintaksis, leksika, və s. ilə əlaqədar ola bilər [5, s.48].

Qrammatikanın induktiv yolla öyrədilməsində müqayisə xüsusi rola malikdir. Burada təklif edilən üsullardan biri oxşar strukturların müəllim tərəfindən lövhədə göstərilməsi, forma, məna, ifadə tərzi nöqteyi-nəzərindən fərqlərin izah edilməsidir.

Daha sonra isə tapşırıqların tələbələr tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur. Bu üsulun zaman formalarının müqayisəsi baxımından istifadəsi arzuolunandır. Nümunələrə diqqət yetirək:

Death, oh, death! The world all blood, and the blood all writhing with death. The soul like the tiniest little light out on a dark sea, the sea of blood.

And the light guttering, beating, pulsing in a windless storm, wishing it could go out, yet unable. The thick darkness of blood alone it should be one great lapse into the thick, darkness of blood in agony.

Better the terrible work should go forward, the dissolving into the black sea of death, in the extremity of dissolution, than that there should be any reaching back towards life. Let the black sea of death itself Solve the problem of futurity.

Let the will of man break and give up [10].

Qrammatikanın vasitəli yolla təqdim edilməsi müəllim tərəfindən tələbələrin diqqətinin bu və ya digər qrammatik məlumat və ya qrammatik struktur üzərində cəmləşdirilməsini nəzərdə tutmur. Belə ki, müəllim tələbələrə bir hekayə söyləməklə süjet ilə bağlı situativ assosiasiya yaratmış olur.

Dərsdə mənimsənilməli olan qrammatik strukturlar *He would have....| He wouldn't have və ya I should be..., I could be..., let the...* və s. izahı zamanı yuxarıdakı cümlələrdən istifadə etmək olar [8, s.40].

Sonra müəllim tələbələrə hekayənin məzmununa aid suallar ünvanlayır. Müəllim tərəfindən verilən sualların tərtibatı tələbələrin cavablarında öz əksini tapmalıdır. Sözü gedən qrammatik strukturların tələbələrin cavablarında istifadəsini müəllim görmədikdə, diqqəti həmin strukturlara yönəltməlidir. *Would have to...| wouldn't have to ...* və s. strukturlarından istifadə etmək şərtilə tələbələr özlərinin situasiya və ya dialoqlarını qurmağa təhrik edilir. Müvafiq qrammatik materialın tələbələr tərəfindən başa düşülməsini yoxlamaq üçün müəllim suallar ünvanlaya bilər.

Qrammatikanın təlimi prosesində, daha doğrusu qrammatik strukturların təqdim edilməsi zamanı şəkillər, diaqram və müvafiq cədvəllərdən istifadə tədris prosesini daha məzmunlu və başa düşülən edir. Xüsusilə, əyani vasitələrlə öyrənməyə üstünlük verən tələbələr üçün daha da səmərəli olur. Təqdim edilmiş yeni qrammatik strukturların mənası başa düşüldükdən sonra, onlara dərhal həmin strukturları şifahi nitq, yazı, oxu və dinləyib anlama fəaliyyət növlərində istifadə etmək imkanları verilməlidir.

Mənimsənilməli olan *should have, shouldn't have* qrammatik strukturuna nəzər salaq:

Tələbələr lövhədə yazılmış replikalardan istifadə edərək dialoq qurmalıdırlar.

Very cold– Worn your jacket.

Feel sleepy– Gone to bed earlier.

Can't see the blackbord – Brought glasses.

Tələbələr replikalardan istifadə edərkən aşağıdakı şəkildə dialoq qurur:

I'm very cold – you should have worn your jacket.
I feel sleepy – you should have gone to bed earlier.
I can't see the blackboard – you should have brought glasses [5, s.44].

Dərsin növbəti mərhələsi dialoqların qurulması ilə bağlıdır. Burada yaradıcı olmaq vacib şərtlərdən sayılır. Başlanğıcda tələbələrin fəaliyyəti müəllim tərəfindən idarə edildiyi halda, yaradıcı pillədə müəllim tələbələrin fəaliyyətini istiqamətləndirməklə kifayətlənir.

Beləliklə, tələbələrdə mənimsənilmiş strukturların yaradıcı nitq fəaliyyətində istifadə etmək bacarığı formalaşdırılır.

Qrammatikanın tədrisində mövcud olan əsas çətinlik – müxtəlif vasitələrdən istifadə etməklə sözlərin formalarını dəyişmək və cümlədə müvafiq yerlərdə işlətmək və s. kimi bacarıq və vərdişlərə yiyələnməkdir.

Yeni qrammatik strukturları yazılı nitq prosesində istifadə etmək məqsədilə tələbələrə olduqca səmərəli olan yazılı çalışmalar təqdim edilə bilər. Belə ki, tələbələrə mətn təqdim edilir və həmin mətndə bütün fellərin indiki zamandan keçmiş zamana dəyişdirmək tapşırığı verilə bilər. Onu da qeyd etmək lazımdır ki, yaradıcı xarakterli tapşırıqlar yeni dil vahidini sərbəst şəkildə istifadə etmək imkanını tələbələrə verir. Tələbələrə müxtəlif köməkçi fellər vasitəsilə ümumi sual ("yes"or "no" questions) vermək bacarığını formalaşdırmaq məqsədilə aşağıdakı çalışmaları vermək mümkündür.

They opened their books.
Did they open their books?
Yes, they did. / No, they didn't [1, s.167].

Sözü gedən fəaliyyət növü qrup şəklində təkrar edilə bilər. Bu zaman sual-cavab vasitəsilə ünsiyyətə girən tələbələrin sayı xeyli çoxalır. İngilis dili qrammatikası üçün olduqca əhəmiyyətli olan qaydasız fellər mövzusunu tələbələrə kommunikativ yönümlü surətdə aşılayarkən, onlara müəyyən yaş dövrlərində (uşaqlıqda, yeniyetmə dövründə) yaşadıqları hadisələri yazılı şəkildə təsvir etmək haqqında tapşırıq verilir. Tələbələr həyatı ilə bilavasitə bağlı olan yaradıcı fəaliyyət növlərini yerinə yetirməklə dərslikdə olan mətn və ya hər hansı müzakirə edilən mövzuya dair özlərinin fikir, ideya və mövqelərini ifadə etmək imkanını əldə edirlər. Tələbələri bu cür yaradıcı xarakterli fəaliyyət növlərinə fəal iştirakçı qismində cəlb etməklə xarici dilin təlimi prosesini, o cümlədən də qrammatikanın öyrədilməsi prosesini tələbələr üçün daha maraqlı etmək və daha uğurlu nəticələri əldə etmək üçün imkanlar yaradır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Türksevər O. (Musayev). İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, 576 s.
2. Veysova Z. Fəal/interaktiv təlim. UNICEF, Bakı, 2007, 148 s.

3. 1,Hajiyev E.I., Hüseynov A.R., Turksever (Musayev) O.I. A practical grammar of contemporary English. "KM" mətbəəsi, Bakı, 2014, 552 səh.
4. Harmer J. The Practice of English Language Teaching. 4th ed., Pearson Education Limited, 2007, 448 p
5. Thornbury S. Jeremy H. How to teach grammar. Edinburgh: Pearson Education Limited 1999.
6. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. М.: Аркти-Глосса, 2006, 165 с.
7. Искрин С.А. Моделирование ситуаций общения в процессе обучения иностранному языку. ИЯШ, 2004/2, с. 40-45
8. Тимофеева Т.И. Система упражнений для формирования грамматической компетенции студентов: ситуативной контекст: уч.пособие Ульяновск: Ул.ГТУ, 2012, с. 1-69.
9. https://www.bookfrom.net/d-h-lawrence/page,620,36818complete_works of_dh_lawrence.html

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologoya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Cəfərova tərəfindən çapa tövsiyə olunmuşdur

SƏLİMLİ TƏMKİNƏ FƏRAHİM QIZI
ADU, Təhsil-2 fakültəsi nəzdində xarici dillər kafedrası
temkineselimli@gmail.com

FRANSIZ DİLİNDƏ SUAL CÜMLƏLƏRİ VƏ ONLARIN QURULUŞCA NÖVLƏRİ

Xülasə

Fransız dilində sual cümləsini mənimsəmək sual vermək və özünü dəqiqliklə ifadə etmək üçün vacibdir. Fərqli strukturları və onları idarə edən qrammatik qaydaları başa düşməklə biz şifahi və ya yazılı formada düzgün və aydın şəkildə suallar verə bilirik.

Fransız dilinin qrammatikasının bu vacib sahəsində sual cümlələrinin müxtəlif formalarından istifadə edərək suallar verməkdən çəkinməməliyik.

Məqalədə fransız dilində sual cümləsinin müxtəlif strukturlarını, eləcə də onları idarə edən qrammatik qaydaları araşdırılmışdır. Sual cümlələrini tərtib etmək üçün müxtəlif yanaşmalar mövcuddur. Məqalədə fransız qrammatikasının tərəflərindən biri olan mübtəda və xəbərin inversiyasından istifadə edərək sual cümlələrinin yaradılmasına toxunulur, sadə və mürəkkəb inversiyanın düzəlməsi yolları qeyd edilmişdir. Eyni zamanda sual cümlələrinin sual əvəzlikləri ilə düzəldilməsi də vurğulanır. Sual əvəzlikləri konkret suallar vermək üçün istifadə olunan sözlərdir. Onlar müxtəlif sual cümlə strukturları ilə birlikdə istifadə olunur.

Məqalədə ədəbi dildə və danışıq dilində işlənən sual cümlələri arasında olan fərqliliklər də göstərilib.

Fikirlərimizi daha rahat, daha dolğun ifadə etmək üçün bütün bu qaydaları bilməyimiz çox vacib və önəmlidir.

Açar sözlər: *xarici dil, əvəzliklər, ifadə etmək, inversiya, baş üzvlər, sual cümləsi*

Bütün dillər insan hisslərini, fikirlərini, düşüncələrini ifadə etmək üçün yaranıb və təkmilləşib. Biz hansısa bir xarici dili öyrəndikdə və araşdırdıqda dillər arasındakı oxşar və fərqli cəhətlərin çox olduğunu görürük. Sual cümləsi fransız dilində ünsiyyətin vacib elementidir. Hər hansı bir məlumat əldə etmək və ya kiminsə fikrini öyrənmək üçün sual cümləsi vasitəsilə suallar veririk.

Fransız dilində sual cümlələri qapalı və açıq olmaqla iki yerə bölünür. Qapalı sual cümlələri cavab olaraq "bəli" və ya "xeyr" cavabı verilən sual formasıdır. Bu sual cümlələrin də üç əsas forması vardır: intonasiya, "est-ce-que" ifadəsinin köməyi ilə və inversiya (2, s. 245). Fransız dilində sual verməyin ən asan yolu təsdiq cümləsinin intonasiyasını dəyişdirməkdir. İntonasiya sadəcə olaraq sual halına gətirmək üçün təsdiq cümləsinin sonunda səsimizin yüksələn tonla deyilməsi ilə düzəlir, cümlənin sonuna sual işarəsi qoyulur. Bu, fransız dilində sual vermənin ən çox yayılmış və qeyri-rəsmi formasıdır.

Fransız dilində intonasiya vasitəsilə düzələn sual cümlələrindən sonra ikinci yeri tutan "est-ce que" ifadəsinin vasitəsilə düzələn sual cümlələridir. "Est-ce que" təsdiq cümləni suala çevirmək üçün onun əvvəlinə qoyulan konstruksiyadır. Bu, intonasiyadan daha formaldır, lakin danışıq zamanı olduqca ümumi olaraq qalır. Məsələn: *Les élèves écoutent la radio* (Şagirdlər radionu dinləyirlər.) - *Est-ce que les élèves écoutent la radio ?* (Şagirdlər radio dinləyirlər?)

İnversiya sual yaratmaq üçün təsdiq cümləsində mübtəda və xəbərin sırasını dəyişdirməyi nəzərdə tutur. Bu forma daha rəsmidir və əsasən yazılı və ya davamlı dildə işlənir. Fransız dilində sual cümlələri iki cür inversiya vasitəsi ilə düzələ bilər : sadə inversiya (l'inversion simple) və mürəkkəb inversiya (l'inversion complèxe).

Cümlənin mübtədası şəxs əvəzliyi ilə ifadə olunubsa, bu cümlədə sadə inversiya etmək lazımdır. Sadə inversiya zamanı şəxs əvəzliyi ilə, yəni mübtəda ilə xəbər yerini dəyişir: *Vous écrivez une dictée. - Ecrivez-vous une dictée ?*

Cümlənin mübtədası ad və isimlə ifadə olunubsa bu zaman mürəkkəb inversiyadan istifadə edərək cümləni ümumi suala salınır. Yəni mübtəda və xəbər olduğu kimi yerində qalır, xəbərdən sonra defis işarəsi qoyulur və mübtədanın cinsinə və kəmiyyətinə uyğun III şəxs əvəzliyi qoyulur: il, ils, elle, elles. (1, s. 122)

Xüsusi qeyd etmək lazımdır ki, cümlədə iki və daha artıq feil ola bilər. Bu zaman işləmlər təsrif olunan feil ilə aparılır. İstər sadə inversiya, istərsə də mürəkkəb inversiya zamanı feilin sonu saitlə bitirsə, o zaman feillə şəxs əvəzliyinin arasında "t" hərfi yazılır. Bu da səslənmənin daha rahat olması üçün nəzərdə tutulmuşdur: *Hélène traverse la rue. - Hélène traverse-t-elle la rue ?*

Cümlənin mübtədası birinci şəxsin təki ilə ifadə olunubsa, bu zaman cümlə əsasən «est-ce que» sual ifadəsi vasitəsilə sual cümləsinə keçirilir. Məsələn: *Je fais mes exercices. - Est-ce que je fais mes exercices ?* Ancaq bəzi feillər vardır ki, onlar birinci şəxsin təkində də inversiyanın köməyilə sual cümləsi düzəlir : «pouvoir» (bacarmaq), «devoir» (malı, məli), «avoir» (malik olmaq), «être» (mövcud olmaq), «savoir» (bilmək), «dire» (demək), «faire» (etmək), «servir» (xidmət etmək, qulluq etmək), «vouloir» (istəmək), «aller» (getmək), «voir» (görmək). Məsələn: Dois-je faire du sport? Ai-je un stylo ?

Əlavə edək ki, «pouvoir» feli birinci şəxsin təkində sadə inversiya olunduqda «peux» - «puis» ilə əvəz olunur. Məsələn : *Puis-je entrer ?*

«C'est» ifadəsi ilə verilmiş cümlələrin sual forması da sadə inversiya vasitəsilə düzəlir. Məsələn: C'est une rue. - Est-ce une rue ?

Lakin « c'est » ifadəsinin cəmdə olan forması «ce sont» «est-ce que» vasitəsilə sual formasına salınır : Ce sont mes élèves. - Est-ce que ce sont mes élèves ?

Fransız dilində cümləyə ümumi sualı verə bildikdən sonra, xüsusi suallar vermək daha asan olur. Yəni xüsusi sullar cümlə üvzlərinə verilən suallardır. Sual veriləcək cümlə üzvünə görə sual əvəzliyi seçilir və sual sözü (sual əvəzliyi) cümlənin əvvəlində qoyulur Onu da qeyd etmək lazımdır ki, müasir fransız dilində, əsasən də danışıq dilində sual əvəzliyi cümlənin sonunda da gələ bilir.

Açıq sual sadəcə "bəli" və ya "xeyr" ilə cavablandırıla bilməyən sual formasıdır ki, burada hər hansı bir cümlə üzvünə onu təyin etmək üçün sual verilir. Açıq tipli suallar vermək üçün sual sözlərindən istifadə edilir: ***qui, quoi, que, quel, comment, où, pourquoi, quand*** və ***combien.*** (5, s. 73) Amma bu sual sözləri işlənən sual cümlələrində də əvvəldə qeyd edilər qaydalara əməl olunur. Yəni cümlə üzvlərinə verilən sual sözləri ilə işlənən cümlələrdə həm intonasiya, həm "est-ce que", həm də inversiyadan istifadə oluna bilər.

Sual əvəzlikləri vasitəsilə düzələn sual cümlələrində də əsasən inversiyadan istifadə olunur. Lakin, cümlənin mübtədasına sual verildikdə heç bir inversiyadan istifadə olunmur. Cümlənin canlı mübtədasına «qui», «qui est-ce qui» sual əvəzlikləri ilə sual verilir və xəbər Azərbaycan dilində olduğu kimi üçüncü şəxsin təkində olur. Məsələn: *Les élèves jouent dans la cour. - Qui joue dans la cour ?*

Diqqət etdiyimiz kimi, canlı mübtədaya hər iki sual əvəzliyi ilə sual versək də inversiya tətbiq olunmur.

Cümlədə haqqında hər-hansı bir xəbər verilən baş üzvə mübtəda deyilir və Azərbaycan dilindən fərqli olaraq fransız dilində «qui ?», «qui est-ce qui ?» sual əvəzlikləri yalnız insanlara deyil, bütün canlılara aiddir. Məsələn: Le chien aboie. - Qui est-ce qui aboie ?

Azərbaycan dilində isə insana «kim ?» sualı veririk: Səhər-səhər quşlar oxuyur. - Səhər-səhər nə oxuyur ?

Fransız dilində cansız mübtədaya isə «qu'est-ce qui ?» sual əvəzliyi ilə sual verilir və yenə inversiyadan istifadə olunmur və xəbər 3-cü şəxsin təkində olur.

La table est près de la fanêtre. - Qu'est-ce est près de la fenêtre ?

Fransız dilində mübtəda isimlə və isim kimi işlədilən hər hansı bir nitq hissəsi ilə ifadə oluna bilər:

Les enfants jouent à la balle (Uşaqlar top-top oynayırlar).

Les enfants – Uşaqlar (isim)

Ils nous disent la vérité. (Onlar bizə həqiqəti deyirlər.)

Ils – Onlar (əvəzlik)

Deux et deux font quatre. (İki ilə iki dörd edir.)

Deux et deux – İki ilə iki (say)

Lire est utile. (Oxumaq faydalıdır.)

Lire – Oxumaq (məsdər)

Les vieux rentrent du village. (Qocalar kənddən qayıdırlar.)

Les vieux – Qocalar (isimləşmiş sifət)

Nəqli cümlədə mübtəda adətən xəbərdən əvvəl gəlir. Məsələn: Une belle fontaine se trouve sur cette place. (Gözəl bir fəvvarə bu meydanda yerləşir.) - Qu'est-ce qui se trouve sur cette place ? (Meydandə nə yerləşir (var) ?) (4, s. 302)

Cümlədə mübtədaya aid iş, hal və hərəkəti ifadə edən cümlənin baş üzvünə xəbər (le prédicat) deyilir və fransız dilində xəbərin ki növü vardır: feli xəbər, ismi xəbər.

1. Feli xəbər feilin şəxslənən forması ilə ifadə olunur: La petite fille est tombée. - Que la petite fille a-t-elle fait ?

Feli xəbərə « que faire ?» sualı verilir və xəbər hansı zamandadırsa « faire » feli də həmin zamana uyğun və aid olduğu şəxsə görə təsrif edilir.

Nous irons chez nos amis. - Biz dostlarımızgilə gedəcəyik.

Que ferons-nous ? - Biz nə edəcəyik ?

Vos parents partent à Paris. - Sizin valideynləriniz Parisə gedir.

Que vos parents font-ils ? - Sizin valideynləriniz nə edirlər ?

2. İsmi xəbər iki hissədən ibarət olur : 1) əlaqə feli (verbe copule) ; 2) xəbərin ad hissəsi (atribut).

Əlaqə feili funksiyasında «être » (olmaq), « devenir » (çevrilmək), « paraître » (görünmək), « sembler » (oxşamaq), « rester » (qalmaq) və s. fellər işlənə bilər.

İsmi xəbərin ad hissəsi isə isimlə, sifətlə, sayla, əvəzliklə, məsdərlə və feli sifətlə ifadə oluna bilər. Məsələn : *Son père était architecte*. (Onun atası memar idi.) - *Qui était son père ?* (Onun atası kim idi ?)

Nous sommes neuf. (Biz doqquz nəfərik.) - *Combien sommes nous ? (*Biz neçə nəfərik ?)

Elle est belle. (O gözəldir.) - *Comment est-elle ?* (O necədir ?)

Gördüyümüz kimi ismi xəbərin ad hissəsi fərqli cümlə üzvləri olduğu kimi fərqli sual sözləri seçilir. Bir şeyi də qeyd etmək lazımdır ki, sifətlə və isimlə ifadə olunmuş ismi xəbərin ad hissəsi öz mübtədası ilə cinsə və kəmiyyətə görə uzlaşır. Məsələn *: İl est ouvrier. - Elle est ouvrière. Ce chapeau est beau. - Cette robe est belle. Sa fille est mariée. Ses filles sont mariées.*

Əgər ismi xəbərin ad hissəsi canlı isimlə ifadə olunubsa bu vaxt ona «qui ?» (kim ?) sualı verilir : *Elle est secrétaire. - Qui est-elle ?*

İsmi xəbərin ad hissəsi rənglə ifadə olunubsa, bu vaxt ona «de quelle couleur ? » (hansı rəng?) sualı verilir: Cette porte est beige. - De quelle couleur est cette porte ?

İsmi xəbərin ad hissəsi keyfiyyət bildirən sifətlə ifadə olunubsa, bu zaman ona «comment ? » (necə?) sual əvəzliyi ilə sual verilir və çox vaxt sadə inversiyadan istifadə olunur. Məsələn: Ce film est très intéressant. - Comment est ce film ?

Xəbərin mənasını tamamlayan cümlə üzvünə tamamlıq deyilir. Cümlədə “qui est-ce que?” (qui) – “kimi?”, yaxud “qu’est-ce que?” (que) – “nəyi?” suallarına cavab verən tamamlığa vasitəsiz tamamlıq (complément d’objet direct) deyilir. “Qui est-ce que” və “qu’est-ce que” sual əvəzliyi ilə sual verdikdə cümlədə inversiyadan istifadə olunmur. Lakin canlılara “qui”, cansızlara “que” sual əvəzliyi ilə sual verildikdə inversiya edilir. Bu da sual əvəzliyinin tərkibində “est-ce que” sual ifadəsinin olması ilə əlaqədardır. “Est-ce que” sual ifadəsinin tərkibində bir dəfə inversiya olduğu üçün ikinci inversiya etməyə gərək qalmır: *Tu trouves tes lunettes. - Que trouves-tu ? - Qu’est-ce que tu trouves ?*

« A qui ?», « à quoi ? », « de qui ? », « de quoi ? », « pour qui ?» , « avec

qui ? », « par qui ? », « par quoi ? », « sans qui ? », « sans quoi ? » və s. suallara cavab verən tamamlığa vasitəli tamamlıq (complément d'objet indirect) deyilir. Vasitəli tamamlıq canlılarda: « à qui ? » - « kimə ? », « de qui ? » - « kimdən ? », « kim haqqında ? », « pour qui ? » - « kim üçün ? », « sans qui ? » – « kimsiz ? », « chez qui ? » - « kimgilə ? », «kim gildə ? », « par qui ? » – « kim tərəfindən? » sual sözlərindən, cansızlarda isə: à quoi? – nəyə?, de quoi? – nədən?, avec quoi? – nə ilə?, sans quoi? – nəsiz? və s. suallara cavab verir. Bütün bu sual əvəzliklərindən sonra inversiya etmək vacibdir (3, s. 64). Məsələn: *Mon mari parle de notre fille.* (Ərim qızımızdan danışır.) - *De qui mon mari parle-t-il ?* (Ərim kimdən danışır ?) *Elle pense toujours à sa mère.* (O, həmişə anasını düşünür.)

Zərflik (complément circonstanciel), yaxud (adverbe) cümlədə hərəkətin nə zaman, harada, nə üçün, nə cür, hansı səbəblə icra olunduğunu bildirən ikinci dərəcəli üzvə zərflik deyilir. Fransız dilində nitqdəki mənalarına görə zərflik bir neçə növə bölünür və onların sualları da müxtəlif olur: Yer zərfliyi "où" (haraya? harada?) suallarından birinə cavab verir. «à», «dans», «chez», «sur», «sous», «en» sözönüləri ilə verilmiş yer zərflərinə "où?" sual əvəzliyi ilə sual veririk, lakin "de" sözönüsü ilə verilmiş yer zərfliyinə "d'où ?" (haradan?) sual əvəzliyi ilə sual veririk.

Zaman zərfliyi «quand ?» (nə vaxt?, nə zaman?), «depuis quand?» (nə zamandan bəri) sualına cavab verir və cümlənin həm əvvəlində, həm də sonunda gələ bilir.

Tərzi hərəkət zərfliyi hərəkətin tərzini bildirir və "comment?" (necə?) sualına cavab verir. Adətən tərzi-hərəkət zərfliyi xəbərdən sonra yerləşir. Lakin, xəbər felin mürəkkəb zamanı ilə ifadə olunubsa, tərzi-hərəkət zərfliyi köməkçi «participe passé» formasının arasında yerləşə bilir: Elle parle mal russe. - Elle a mal parlé russe.

Səbəb zərfliyi hərəkətin səbəbini bildirir və ona «pourquoi ?» (nə üçün ?) sual əvəzliyi ilə sual verilir. Səbəb zərfliyi cümlənin həm başında, həm sonunda gələ bilir.

Məqsəd zərfliyi "pour quel but?" (nə məqsədlə?), yaxud "pourquoi?" suallarından birinə cavab verir və hərəkətin məqsədini bildirir. Məqsəd zərfliyi cümlənin əvvəlində və ya xəbərdən sonra da gələ bilir.

Fikir verdikdə görünür ki, zərfliyin bütün sualları verildikdə inversiyadan istifadə olunur. Yəni I şəxsin təkindən başqa mübtədası şəxs əvəzliyi ilə verilən cümlələrdə sadə inversiyadan mübtədası isimlə ifadə olunmuş cümlələrdə isə mürəkkəb inversiyadan istifadə olunur.

Cümlədə əşyanın keyfiyyətini, əlamətini, kəmiyyət və sırasını bildirən ikinci dərəcəli üzvə təyin deyilir. Fransız dilində təyin "quel?, quels?, quelle?, quelles?" – "necə?, nə cür?, hansı?" suallarına cavab verir. Təyinə sual verdikdə əgər təyin mübtədaya aiddirsə, bu zaman inversiyadan istifadə olunur və söz sırası dəyişmir. Məsələn : Une belle femme entre dans la salle. - Quelle femme entre dans la salle ?

Əgər təyin tamamlığa aiddirsə bu zaman təyinə sual verdikdə cümlədə istifadə edilməsi lazım olan inversiyadan istifadə olunur. Məsələn: İl ramasse des <u>bons</u> fruits pour son frère. - Quels fruits ramasse-t-il pour son frère ?

Fransız dilində işlədilən sual əvəzliklərini və sual cümlələrini araşdırdıqda bu cümlələrin quruluşlarının, yaxud suala salınmasının Azərbaycan dilində də oxşar və fərqli cəhətlərinin olduğunu görürük.

ƏDƏBİYYAT:

1. Həsənova X., Məmmədova G., İsmiyeva X., Ağayeva F. Le Français. Bakı, 2017, 268 s.
2. Quliyeva M. Fransız dilinin qrammatikasına dair qısa məlumat. Bakı, 2007, 261 s.
3. Rəhimov M.J. Le Français. Bakı, 2001, 128 s.
4. Bady G. Grammaire. Paris, 1990, 488 p.
5. Belatour Y., Jenneppin D., Léon-Dufour M., Mattlé A. Teyssier B. Grammaire du Français. Paris, 1992, 160 p.

Tamkina Salimli

İnterrogative sentences in french language and their types of structure

Summary

Mastering the French interrogative sentence is vital in asking questions and expressing yourself accurately. By acknowledging the various structures and the grammatical rules that conduct them, we can ask questions correctly and clearly in both spoken and written communication.

In this essential field of French grammar, we should not avoid asking questions utilizing different forms of interrogative sentences.

In the article, we have explored the different structures of interrogative sentences in French, as well as the grammatical rules that conduct them. There are numerous approaches in forming interrogatives sentences. The article deals with the formation of interrogative sentences using the inversion of the subject and the predicate which is one of the aspects of the French grammar; additionally, the ways of correcting simple and complex inversion forms are discussed. At the same time, the formation of interrogative sentences with interrogative pronouns is also emphasised. Interrogative pronouns are words used to ask special questions. They are used in conjuction with different interrogative sentence structures.The article is also concerned with the differences between the interrogative sentences used in both literary and colloquial languages. It is too vital and effective that we know all these rules in order to deliver our thoughts more smoothly and more fully.

Key words: *foreign language, pronouns, express, inversion, basic parts of a sentences, interrogative sentence*

Салимли Тамкина

Вопросительные предложения во французском языке и их структурные виды

Резюме

Во французском языке овладение вопросительным предложением важно для умения задавать вопросы и для точности изложения мыслей. Понимая различные структуры и правила, которые ими управляют, мы можем в устной или в письменной речи в правильной и понятной форме задавать вопросы.

Используя различные формы вопросительных предложений в этой важной области французской грамматики, мы не будем затрудняться при составлении грамотных вопросов.

В этой статье нами проанализированы различные структуры вопросительных предложений, а также управляющие ими грамматические правила. Существуют разные подходы к составлению вопросительных предложений. В статье затрагивается вопрос о создании вопросительных предложений с использованием инверсии подлежащего и сказуемого, излагаются способы образования вопросительных предложений путём простой и сложной инверсии. В то же время рассматривается образование вопросительных предложений с помощью вопросительных местоимений. Вопросительные местоимения – это слова, которые используются для составления конкретных вопросов. Они применяются в различных структурах вопросительных предложений.

В статье также рассматриваются различия между вопросительными предложениями, используемыми в литературном и разговорном языках.

Знание всех этих правил важно и необходимо для более удобного, более полного выражения наших мыслей.

Ключевые слова: *иностранный язык, местоимения, выражать, инверсия, главные члены, вопросительное предложение*

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Ağakişiyeva Arzu Meybulla qızı tərəfindən çapa tövsiyə olunmuşdur

İBRAHİMOVA İRADƏ RZA QIZI
Azərbaycan Tibb Universiteti
“Xarici dillər”kafedrası,b\m
S.Vurğun 158
iradaibragimova@com.ru

АНГЛИЙСКИЕ СЛОВАРИ

Ключевые слова: словарь, лексика, лексикография, слово, термин.
Açar sözlər: lüğət, leksika, leksikoqrafiya, söz, termin.
Key words: dictionary, lexicon, lexicography, word, term.

РЕЗЮМЕ

Слово лексикография происходит от греческих слов: lexikos относящийся к слову, словарный, и grapho - пишу Лексикографией называется, как практика составления словарей, т.е. словарное дело, так и раздел языкознания, который опираясь на лексикологию, разрабатывает теорию составления словарей, научно обосновывает их типы и принципы их построения. Словарями (термин “лексикон” устарел) называются собрания слов, систематизированные Е алфавитном тематическом или каком-нибудь другом порядке, и заключающие в себе весь (по возможности) словарный состав языка или диалекта, или определенную часть его с пояснениями на том же или каком-нибудь другом языке. Русскому слову словарь в английском языке соответствуют 3 термина: dictionary, vocabulary, glossary.

Dictionary является более полным собранием слов целого диалекта, языка или специальности. Синонимом этого слова является устаревшее lexicon. Vocabulary содержит меньше слов или дает их без объяснений, или охватывает часть слов, относящихся к данному предмету. Так называются словари, которые помещаются, как приложение к учебнику и поясняют те слова, которые встречаются в данном учебнике. Так же называются словарные тетради учащихся. Слово vocabulary может также употребляться, когда говорят о словарном составе целого языка или о словаре какого-нибудь писателя. В методике преподавания иностранных языков так называют словарный запас учащихся.

Glossary называется список пояснений к специальным словам выражениям, встречающимся в той или иной книге. Так, например, в конце или начале учебников по технике помещаются глоссарии с определениями или пояснениями технических и научных терминов, которыми пользуется автор. Глоссарии с пояснениями архаизмов и некоторых реалий прилагаются к сочинениям Шекспира и др. авторов прошлых веков.

Словари бывают не только лингвистическими, но и энциклопедическими и биографическими. Английские биографические словари очень многочисленны и называются “Who is who”. Нас прежде всего интересуют лингвистические словари. Эти последние, в зависимости от своего назначения, делятся на ряд типов. Помимо двуязычных, в которых дается перевод слов иностранного языка на родной или, наоборот, слов родного языка на иностранный, существуют словари: толковые, этимологические, исторические, идеографические, Фразеологические, произносительные, словари синонимов и антонимов, пословиц и цитат, диалектов, сленга, терминологические и т.д. Словарное дело возникло у многих народов ещё на ранних этапах развития письменности как следствие потребности в толковании, т.е. объяснении трудных слов, в особенности заимствованных. Позднее лексикография становится средством, используемым для нормализации словарного состава, повышения культуры речи и выявле ния богатства языка, достигнув значительного развития лексикография делается также вспомогательной отраслью языкознания, доставляющей лингвистам материал для изучения словарного состава языка - важной материальной базой для выяснения закономерностей развития лексики, С этой целью словари фиксируют всеобще имеющиеся в данном языке слова. В науке о русском языке теоретические работы по лексикографии велись, начиная с М.В.Ломоносова, такими учеными как: А.Х.Востоков, ЛЛ. Грот, А.А.Шахматов, И.А.Бодуэн де Куртенэ, Л.Б.Герба, а в настоящее время ведутся акад. В.З.Виноградовым и др. Наряду с разработкой теории эти ученые вели и большую практическую словарную работу. Словарь синонимов. Синонимы издавна привлекали к себе внимание ученых, ими уже много столетий тому назад интересовались исследователи, Китая, Индии и древней Греции. Что касается синонимики английского языка, то она очень детально разработана лексикографически. Начиная со второй половины XVIII века было издано свыше 80 различных словарей английских синонимов (имеются в виду только специально синонимические словари), но надо учесть, что в известной степени синонимика представлена и в толковых словарях, о которых речь уже шла выше. Словари эти очень разнообразны по принципам построения и дают богатый фактический материал, хотя теоретические принципы, положенные в основу их составления, и приведенные в них определения синонимов, которыми руководствовались их составители, часто неприемлемы с точки зрения современного состояния науки.

Одним из наиболее распространенных и неоднократно переиздававшихся словарей-синонимов является словарь Соуля K.Soule, Adictiona of English Synonyms and Synonymous Expressions, Boston, 1998) известны также словари Аллена и Оксфордский, некоторые из них соде сжат также антонимы. Одни из них тщательно поясняют разницу в значениях между синонимами, другие дают просто возможно более полное перечисление близких по значению слов. В

большей части английских синонимических словарей в основу составления синонимических групп положены разновидности одного и того же определения, которое заключается в том, что синонимами называются слова, имеющие общее основное значение и различающиеся смысловыми оттенками. Но неполнота этого определения и не разработанность во время составления этих словарей лингвистических понятий “основного значения” и “оттенка значения” создавали возможность очень произвольного их толкования. Это приводило к тому, что в некоторых словарях в синонимические группы включались понятия, объединенные общим видовым понятием, но между собой несинонимичные, например: foot, hand, toe, fail слова, обозначавшие видовое и родовое понятия: dart, weapon или широкие смысловые комплексы: field, garden, park (поле, сад, парк). Составители словарей смешивали значение слова с его употреблением. В результате в синонимическую группу включались слова, синонимичные опорному слову ряда только в каком-нибудь переносном потреблении; например: beginning, morning (big).

Таким образом, понятие синонимики оказывалось неправомерно расширенным. Способ построения словарной статьи в синонимическом словаре находится в тесной зависимости от его назначения. В словарях, предназначенных для быстрой справки об уже известной лексике, когда словарь должен только напомнить человеку, нежелающему многократно повторять одно и то же слове, какие ещё слова в языке имеются в его распоряжении, причем пользующийся словарем хорошо владеет языком, даются только списки синонимов. Такие словари преследует чисто практические цели. Элементы таких групп могут быть и несинонимичны между собой и синонимичны опорному слову только в определенньж конкретных условиях. Другие словари дают группы синонимов для каждого отдельного значения слоев, т.е. в той или иной мере закрывают его смысловую структуру. Тогда элементы каждой группы оказываются между собой синонимичными.

Наконец, есть словари, дающие более или менее подробные синонимические характеристики, раскрывающие прямые и переносные значения слов, общее в значениях синонимов и смысловые различия между ними. Такие словари обычно имеют целью повышение культуры речи, возможно более точное словоупотребление. Рассматривая идеологическую-направленность синонимических словарей английского языка, мы убеждаемся, что они отражают буржуазное мировоззрение и используются как средство идеологического воздействия на читателя. Выгодное господствующим классам отношение к определенным предметам, явлениям и понятиям пропагандируется через тенденциозный подбор синонимов к ним. 5 ряде словарей, например, unemployed (безработный) помещается в один синонимический ряд со словом loafing (шатающийся без дела, праздный; таким

образом создаются искусственные ассоциации между обоими словами и вынужденное бездействие безработного приравнивается праздности и безделью, т.е. затушевываются корни безработицы. И наоборот, слова religions (религиозный) И devotional (набожный) приравниваются к словам “хороший” и “морально чистый” (good, pure).

Таким образом, существующие синонимические словари английского языка, хотя и содержат богатый фактических материал, имеют существенные недостатки, которые вызваны отсутствием правильной методологической базы у их составителей, неразработанностью ряда проблем лексикологии, а иногда сознательным стремлением их составителей исказить языковые факты в угоду буржуазному мировоззрению. Прочие типы в словаре. Помимо перечисленных выше типов существуют фразеологические словари, словари пословиц, цитат, крылатых слов, словари сокращений, словари сленга и профессиональной лексики, терминологические словари, в том числе и словари лингвистических тер минов, произносительные словари и другие словари специального обозначения. Среди последних заслуживает внимания весьма своеобразный по построению словарь Фаулера (H.W.Fowler, A Dictionary of modem English Usage, Oxford 194 с.) Что собственно даже не словарь, а своеобразный лингвистический справочник, в котором к алфавиту помещены самые разнообразные сведения по английскому языку из области его грамматики, лексикологии и стилистики. 3 словник его включены далеко не все слова английского язык; а лишь те, которые имеют варианты произношения, написания, значения или грамматического употребления. Словарь Фаулера, имеет ярко выраженный нормативный характер, и среди приведенных вариантов всегда указывается тот, который автор считает единственно правильным, и обычно обосновывается нежелательность остальных. Таким образом, обращаясь к тому словарь, читатель находит в нем собственно не справку, а совет.

Чисто учебные цели преследует составленный известным методистом М.Уэстом словарь английского языка, представляющий нечто среднее между толковым и двуязычным словарем. Все пояснения даны в нем на английском язык, но при отборе словника составители руководствовались нуждами читателя, для которого английский язык является иностранным, и вводили поэтому тот материал, который является и наиболее употребительным, и наиболее специфичным для английского языка. Особые трудности представляет составление двуязычных словарей, так как, благодаря своеобразию исторического развития каждого языка и условий этого развития, система значений слова в одном языке не совпадает с системои значений аналогичного слова в другом языке. В своем известном предисловии ко 2-му изданию Русско-французского словаря Л.Щерба показывал это на примерах употребления и значения русских слов: хороший, хорошенький, красивый,

прекрасный и превосходный, и французских слов: bon, nean, exellent. Слова эти находятся между собой в весьма сложных и многообразных отношениях. Анологичную картину можно получить, сравнивая эти же русские слова с английскими: fine, weather, goodlooking, pretty, handsome. Так, например, “красивая женщина”, “красивый мужчина”, “красивые слова” следует перевести на английский язык: a beautiful woman, A handsomeman, fine words “прекрасная погода, прекрасные глаза”, “прекрасный человек”: fine weather, beautiful eyes, an excellent man Переводя английское предложение: weather split a gealtfine together, мы не можем даже перевести прилагательным, а вынуждены перестроить все предложение и перевести: “мы прекрасно провели время вместе”.

Русские и английские значения переплетаются очень сложно. Нередки случаи значительного расхождения грамматических характеристик слова. Например: ell переводится как “больной”, но в отличие от русского прилагательного употребляется в этом значении только предикативно, хотя в значении “дурной” и “злой” может иметь и интрубитивную функцию (ill health, ill fame, ill will).

Это должен пояснить двуязычный словарь, так как иначе русский читатель перенесет на слово ill все свойства русского прилагательного “больной”. Англо-русские словари должны быть различными в зависимости от того, предназначаются ли они для русских или для англичан, то есть в зависимости от того, используются ли они для перевода с иностранного языка на родной или с родного на иностранный; в первом случае возможен, например, перевод-объяснение, большое количество синонимов, из которых при хорошем значении языка не трудно выбрать нужное значение; во втором случае надо непосредственно дать перевод, который годился бы прямо во фразу, и указать условия, и ей которых этим переводом можно воспользоваться. Большая синонимика доступна только людям, хорошо знающим язык, иначе она только запутывает. Строго говоря, словарем для перевода с родного языка на иностранный следует пользоваться только для того, чтобы припомнить забытое слово или слова. Рискуя брать по такому словарю совершенно новые для себя слова, учащихся, как правило, делает ошибку при употреблении, так как не знает их стилистических и грамматических особенностей сочетаемости с другими словами. Первое затруднение довольно легко снимается введением стилистических помет; исчерпывают, предусмотреть все, что касается второго и третьего, значительно труднее.

Преподаватель иностранного языка должен иметь в виду, что даже самый лучший англо-русский словарь принесет очень мало пользы, если учащиеся не умеют с ним работать, и, наоборот, систематическая грамотная работа со словарем для перевода с иностранного на родной дает очень большой эффект, резко увеличивает словарный запас. Поэтому задача учителя не только научить

пользоваться словарем, но и помучить к нему. Очень важно приучить учащихся к пользованию большими словарями, а не карманными, и тем более, не постатейными, т.к. работа со словарем является важной для усвоения языка. Что же касается самих учителей иностранных языков, то широкое пользование словарями, в особенности разными двуязычными словарями, для них совершенно обязательно. Наиболее распространенными современными англо-русскими словарями являются Англо-русский словарь В.К.Нюллер, Англо-русский словарь В.Д.Аракина, З.С.Выготской и Н.Н.Ильиной и англо-русский словарь под редакцией О.С.Ахмановой, Основным русско-английским словарем является русско-английский словарь, составленный под. руководством проф. А.И.Смирницкого. Продолжая развивать принципы Л.В. Щербы, А.И.Смирницкий разрабатывал теорию и практику построения словаря, основанного на научном сопоставлении двух лексических систем.

Непосредственное участие таких крупных ученых как Л.Щерба и А.И.Смирйицкий в лексикографических трудах является примером плодотворной связи лингвистической теории и практики.

Литература

1. Ахманова О.С. Словарь лингвистических терминов. М., 1969
2. Берков В.П. Вопросы двуязычной лексикологии. М., 1973
3. Денисов П.С. Принципы отбора лексики для учебных словарей. М., 1969
4. Ожегов С.И. О трех типах словарей русского языка. М., 1952
5. Актуальные проблемы учебной лексикографии. М., 1977
6. Проблематика определенных терминов в словарях разных типов Л., 1979
7. Уваров В.Д. Переводная и учебная лексикография. М., 1979
8. Оруджев А.А. Русско-азербайджанский словарь. Баку, 1978
9. Oxford Elementary Leaner's Dictionary. M., 1997
10. Смирницкий А.И. Русско-английский словарь. М., 1959

İ.İbrahimova

İNGİLİS DİLİ LÜĞƏTLƏRİ

XÜLASƏ

Məqalədə İngilis dilinin lüğətləri və onların tiplərindən bəhs olunur. Lüğətlərin tipləri, onların təşkil etdiyi sözlərin tarixi istifadəsinə görə bölgüləri çox aydın şəkildə məqalədə öz əksini tapır. Bundan başqa qədim lüğətlərin müəllifləri ilə daha müasir müəlliflər tərəfindən yazılan lüğətlər məqalədə müqayisə olunaraq, nümunələr ilə izah olunur. Bununla yanaşı Rus dilindən İngilis dilinətərcümə edilən sözlərin çoxmənalı olmağı ilə yanaşı həmin sözlərin izahlarını məqalədə yaxından

görürük. Məqalədə sinonim lüğətlərinin müxtəlif müəlliflər tərəfindən müqayisəsi öz əksini tapır. Müasir İngilis dili lüğətlərinin ən çox yayılmış ingiliscə-rusca lüğətlər V.K.Nyullerin İngilis-Rus lüğəti, V.D.Arakinin, Z.S.Viqotskaya və N.N.İlyinanın İngilis-Rus lüğəti və O.S.Axmanova tərəfindən redaktə edilən İngilis-Rus lüğətidir. Bu lüğətlər iki leksik sistemin elmi müqayisəsi əsasında lüğətin qurulması nəzəriyyəsini və praktikasını inkişaf etdirir. Beləliklə, biz məqalədə linqivistikada mühüm əmək̇ləri olan dünya şöhrətli alimlərdən olan L. Şerba və A. I. Smiryitskinin bu sahədə olan əmək̇ləri ilə tanış oluruq. Onların linqivistikanın nəzəriyyə və praktikası ilə gördüyü işlər danılmazdır. Yekun olaraq, məqalədə İngilis dili lüğətləri mövzusu geniş şəkildə əhatə edilir və müqayisələr aparılır.

I.Ibragimova

ENGLISH DICTIONARIES

SUMMARY

The article talks about the dictionaries of the English language and their types. The types of dictionaries, their division according to the historical use of the words they comprise are very clearly reflected in the article. In addition, the authors of ancient dictionaries and dictionaries written by more modern authors are compared in the article and explained with examples. At the same time, the words translated from Russian to English have multiple meanings, and we see the explanations of those words closely in the article. The article reflects the comparison of synonym dictionaries by different authors. The most common modern English-Russian dictionaries are the English-Russian dictionary of V.K. Newler, the English-Russian dictionary of V.D. Araki, Z.S. Vigotskaya and N.N. Ilyina, and the English-Russian dictionary edited by O.S. Akhmanova. These dictionaries develop the theory and practice of vocabulary building based on the scientific comparison of two lexical systems. Thus, in the article, we get acquainted with the works of L. Sherba and A. I. Smiryitsky, who are world-renowned scientists with important works in linguistics. Their work with the theory and practice of linguistics is undeniable. In conclusion, the article comprehensively covers the topic of English dictionaries and makes comparisons.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: dos: Gərayzadə M.
tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ HÜSEYNOVA,
DOSENT
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ,
farida_hus@hotmail.com

TƏBİİ DİLİN EMALI -TDE

XÜLASƏ

Təbii dilin emalı -TDE süni intellektin və riyazi dilçiliyin ümumi sahəsidir. Kompüter analizi və təbii dil sintezi problemlərini öyrənir.

Süni intellektə münasibətdə təhlil dili anlamaq, sintez isə savadlı mətn yaratmaq deməkdir. Bu problemlərin həlli kompüter-insan qarşılıqlı əlaqəsinin daha rahat formasının yaradılması deməkdir. Təbii dilin işlənməsinin əsas sahələrinə faktların çıxarılması, mətn hisslərinin təhlili, sualların cavablandırılması, məlumat axtarışı, mətnin yaradılması, tərcümə və s.

İnternetin yaranması və əlçatan mətn məlumatlarının sürətlə artması uzun onilliklər ərzində mövcud olan və avtomatik mətn emalı (Təbii dilin emalı) və hesablama linqvistikası (Hesablama Dilçilik) kimi tanınan elmi sahənin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirdi. Bu sahədə bir çox proqram sistemlərində, o cümlədən kommersiya sistemlərində tətbiq olunan təbii dildə (TD) mətnlərin avtomatik işlənməsi üçün bir çox perspektivli ideyalar təklif edilmişdir. Hesablama dilçiliyinin tətbiq dairəsi durmadan genişlənir, uğurla həll olunan yeni problemlər ortaya çıxır, o cümlədən əlaqəli elmi sahələrin nəticələrindən istifadə etməklə bu proses baş verir.

Şübhəsiz ki, təbii dilin emalı -TDE, maşın dilini insan dilinə çevirərək və insanlar üçün əvvəllər imkansız olan tapşırıqları yerinə yetirmək üçün imkanlar yaradaraq insanlarla kompüterlər arasındakı bir çox ünsiyyət maneələrini aradan qaldırmışdır. Bununla belə, TDE-nin tam mənimsənilməsinə mane olan bəzi çətinliklər var, çünki kompüterin ana dili maşınla kod və ya maşın dili kimi tanınır, burada ünsiyyət sözlərlə deyil, milyonlarla sıfır vasitəsilə baş verir və məntiqi hərəkətlər yaradılır.

Açar sözlər: təbii dil emalı, qeyri-səlis məntiq, mətn, linqvistik, məlumat, sözlərlə hesablama

Əsrlər boyu insanın təfəkkür tərzində üstünlük təşkil edən Aristotelin ənənəvi bivalent məntiqi və L.Zadənin nisbətən yeni qeyri-səlis məntiqi insan fəaliyyətinin hər bir sahəsində olduğu kimi, Təbii dilin emalı və sözlərlə hesablama sahələrinə də tətbiq olunaraq mühüm təsdiqini tapmışdır.

Aristotelin məşhur "Təfəkkür qanunları"na əsaslanan məntiqdə bivalentlik qanununun: 1. Eynilik prinsipinə əsasən: Hər şey öz oldugu kimidir; yəni x, x=x.

2. İki dəyərli məntiq nəzəriyyəsi ifadə edən hər bir cümlə doğru və ya yalan olan tam olaraq bir həqiqət dəyərinə malikdir. Bu prinsipi təmin edən məntiq iki qiymətli məntiq və ya ikivalent məntiq adlanır. Bu formal məntiqdə bivalentlik prinsipinə görə məna ola da bilər, olmaya da bilər üçüncünün istisnası qanunu ilə əsas məna bivalent olmadan bu qanunu təmin edə bilər. [6]

3. Ziddiyyət qanunu: Bütün p müddəaları üçün həm p, həm də p-nin doğru olması qeyri-mümkündür. Ziddiyyətlər də eyni zamanda eyni şeyə aid ola bilməz" (IV kitab, CH 6, s. 531). Sonra o təklif edir ki, "ziddiyyətlər arasında aralıq ola bilməz, bir mövzu ya təsdiq edilməli, ya da inkar".

Belə nəticəyə gəlinir ki, elm və texnologiyanın nəhəng tərəqqisi Aristotelin (ikivalentli) məntiqinə çox şey borclu olsa da, onu tamamlayan və genişləndirən qeyri-səlis məntiq bizim gündəlik həyat vəziyyətlərimizə və elmi düşüncə tərzimizə daha çox uyğun gəlir.

Eynilik prinsipi fəlsəfi məntiqdə təbii dilin emalı zamanı ifadələrin dəqiq müəyyən edilmiş həqiqət dəyərinə malik olması sualını həll etmək üçün öyrənilir, bivalentlik prinsipinin bütün təbii dil ifadələrinə şamil edildiyini düşünən alimlər üçün müəyyən çətinliklər yaranır. Hətta belə anlayışlar, bir nəticə olaraq əslində qeyri-müəyyənlik, müvəqqəti və ya kvant qeyri-müəyyənliyi və ya istinad uğursuzluğu səbəbindən klassik bivalent hesab edilə bilməyən digər qaydaların qəbul edilməsini tələb edir. Bu uğursuzluqlar azad məntiqlə də həll edilə bilər. [1,4]

Hətta eramızdan əvvəl 500-cü illərdə Hindistanda yaşamış Budda Siddhartha Qautama dövründən etibarən Heraklit (e.ə. 535-475) və Platonun (e.ə. 427-377) "doğru" ilə üçüncü sahənin mövcudluğunu müzakirə edən fikirləri də olub. Həmin dövrdə iki əksin birlikdə mövcud ola biləcəyi "yalan" adıandırılırdı. Hegel, Marks, Engels, Russel və başqaları kimi daha yeni filosoflar bu fikirləri dəstəkləmiş və müəyyən qədər inkişaf etdirmişlər ki, bununla da çoxqiymətli məntiqin ilk inteqrasiya olunmuş müddəaları ortaya çıxmışdır.

Klassik məntiqlə nəzərdə tutulan semantika bivalentdir, lakin bu, klassik məntiq hər semantikaya aid edilə bilməz. Boolean nəzəriyyəsinə görə semantikada klassik məntiqə əsasən həqiqət dəyərləri ixtiyari Boolean cəbrinin elementlərindən ibarətdir, "doğru" cəbrin maksimal elementinə, "yanlış" isə minimal elementə uyğundur. Cəbrin ara elementləri "doğru" və "yalan"dan başqa da həqiqi dəyərlər mövcud ola bilər.

Klassik təbii dil emalında Boolean modelindən istifadə olunur. Bivalentlik prinsipinə əsasən yalnız Boolean cəbri aralıq elementləri olmayan iki elementli cəbr kimi qəbul edildikdə etibarlı sayılır. Roman Suszko [5] (1977) doğru və yalanın yeganə məntiqi dəyərlər olduğuna dair iddiasını əsaslandırmaq üçün qeyd edir ki, hər bir struktur Tarskinin [6] qiymətli təklifinə əsasən ikivalent semantika ilə təmin edilə bilər. Formal məntiqə aid olan deduktiv nəticələrin etibarlılığı onların predmetinin hər hansı xüsusiyyətlərindən deyil, forma və ya strukturundan asılı olan nəticələrdir.

XX əsrin 60-cı illərin əvvəllərində qeyri-səlis məntiqin bünövrəsi bu kimi bəzi digər çoxqiymətli məntiqlərin qeyri-müəyyən anlayışları əsasında yaranmağa başlayırdı və alternativlər təkliflər irəli sürülürdü. Məsələn, qeyri-səlis məntiqdə həqiqət (və yalan) müxtəlif dərəcələrdə ölçülürdü. Nəhayət, 1965-ci ildə Azərbaycan – amerikan alimi L. Zadə kəsilməz (qırılmaz) qiymətli məntiq nəzəriyyəsini işləyib irəli sürdü. L. Zadə "doğru" ilə "yalan" qütbləri arasında sonsuz sayda çalarlar (variantlar) olduğu ideyasını irəli sürür. Bu çalarlar (variantlar) qismən doğru, qismən yalan və onların sonsuz modifikasiyaları idi.

Nəticədə, onlar qeyri-dəqiqlikdən deyil, təsadüfiliklə bağlı real dünyada mövcud olan qeyri-müəyyənlik halları ilə effektiv şəkildə istifadə olunmağa başlanılırdı.

Bu kimi məsələlər müxtəlif zaman məntiqlərində də öz əksini tapıb. Məsələn, formal məntiq dilin sintaktik ifadəsini də nəzərə almağa başlamışdı. Bivalentlik prinsipinə-üçüncünün istisnası qanunu arasındakı fərqə əsasən qanunu təsdiq edən, lakin prinsipi təsdiq etməyən məntiqlər var. Məsələn, üç dəyərli Paradoks-Məntiqi (PM) üçüncünün istisnası qanunu təsdiq edir, lakin ziddiyyətsizlik qanununu yox və onun nəzərdə tutulan semantikası bivalent deyil. İntuisiya məntiqindən, yəni iki dəyərli məntiqdən, lakin üçüncünün istisnası olmamaq şərtilə yeni qaydalar yaradılırdı. Klassik ikiqiymətli məntiqə əsasən həm xaric edilmiş orta qanunu, həm də ziddiyyətsizlik qanunu qüvvədə qalmaqla qeyri səlis məntiq anlayışı irəliləyirdi.

Klassik məntiqin tətbiqi və onların tətbiqində qeyri-müəyyən ola bilən anlayışlara ikivalentlik prinsipinin ziddiyyət yaratması qeyri-səlis məntiqi və bəzi digər qeyri-müəyyən anlayışları daha yaxşı idarə edən alternativlər kimi meydana çıxarmışdır. Məsələn, qeyri-səlis məntiqdə həqiqət (və yalan) müxtəlif dərəcələrdə olur.Burada, qeyri-səlis məntiqi ziddiyyətsizlik qanununu inkar edir və əlavə olaraq ikivalentlik qanunundan imtina edir. Lakin bu qanunları qismən rədd edir, çünki onlar qismən doğrudur, üçüncünün istisnası qanunu isə təsdiq edir. L.Zadə əsas münasibətləri və onlarla əlaqəli əməliyyatları (bərabərlik, yuvalama, əlavə, birləşmə, kəsişmə) müəyyən edən "mənsubiyyət dərəcələrinin davamı (kontiniumu)", eləcə də qeyri-səlis çoxluqların qabarıq kombinasiyası; inikas nəticəsində yaranan qeyri-səlis çoxluqlar; qabarıq qeyri-səlis çoxluqların separabelliyi kimi qeyri-səlis çoxluqlar haqqında ümumi anlayış daxil edir.

Gizli məlumatların içərisindəki kontekstin TDE tərəfindən təhlil edilərək insan dilinə çevrildiyi mətn əksər insanlar üçün anlaşılmazlıq yaradır. Baxmayaraq ki, bu gün kompüterlər həm təbii dili emal etməkdə bir çox faydalı işlər görürlər, həm də məlumatları insanlara nisbətən daha sürətli işləyə bilirlər, lakin təbii dil haqqında hələ insanlarla eyni məntiqi anlayışlara sahib deyillər. Əksər insanlar hələ də maşının insan kimi şüurlu ola biləyəcəyinə, ehtiras, qısqanclıq, yumor və ya başqa bir zehni həyat təcrübələrini hiss edə biləcəyinə inanırlar. Lakin çox təəssüf ki, hələ də insanların etdikləri hər şeyi edən maşınlar yarada bilmirik.

Bir çox dilçi alimlərin düşüncələrinə görə hər hansı bir fikrin mənasının daha yaxşı anlamaq daha dəqiq söz ehtiyatı yaratmaq və daxili seçimlər üçün ciddi filrtrasiya etmək tələb olunur. Bundan əlavə, sözlərin düzgün məna kəsb etməsi üçün düzgün cümlə quruluşu düzgün qrammatika əsasında bir araya gətirilməlidir.

Marvin Minskiyə görə "bizə məlum olan idrak hadisələrini izah etmək üçün daha mürəkkəb yol və üsullar tapmalıyıq"; yəni biz düşüncə proseslərimizi mümkün olan daha dəqiq addımlara ayırmalıyıq. Əslində, insan zehnini həqiqətən başa düşmək üçün, Minsky təklif edir ki, bu funksiyaları yerinə yetirə bilən yeni, insan beyninə oxşar elə bir maşın düzəldilməlidir ki, insan zəkası daha yaxşı araşdırıla bilsin. Beləliklə, o, "Mən" kimi vahid şüura ümumi bir "mərkəzdən idarə olunmayan bulud" dan 20-dən çox fərqli zehni prosesin təsiri ideyasına rədd edir. Bir problemi həll etmək üçün çalışdığımız zaman düşünmək üçün müxtəlif yolları sınamalayıq. Bunlardan bəzilərinin planlaşdırma və məntiqi mülahizə kimi məşhur adları var, əksəriyyətinin ümumiyyətlə heç bir adı yoxdur. Bu metodlardan bəziləri rəsmi və tutarlı, bəziləri isə daha 'intuitiv görünür.

TDE-də söz ehtiyatlarından ibarət olan lüğətin məna deposu olduğunu desək də, onların insan kimi və ya onu əvəz edəcək tərzdə sözləri və cümlələri şərh etmək və içindəkiləri əks etmək üçün heç bir şansı yoxdur. Burada biz çox zaman fikrin kristal kimi aydın olmağını, bəzən isə onun səthi olması ilə rastlaşa bilirik. Yəni, mənaya təsir etmək üçün sözlərin mənası ilə manipulyasiyalar edilir. Hər hansı bir fikrin müəyyən bir perspektivdən təqdim edilməsinə isə böyük ehtiyac vardır.

L.Zadə linqvistik məlumatların istifadəsi ilə Sözlərlə Hesablama proseslərində müxtəlif sxemlər təklif etmiş və linqvistik hesablamaları yerinə yetirmək üçün bir sıra simvolik linqvistik hesablama modelləri təqdim etmişdir. Sözlərlə Hesablama linqvistik qərarların qəbulunda əsas metodologiya olmuşdur. Zadə, onu icad etdiyi vaxtdan başlayaraq, 80-ci illərin əvvəllərində Tong və Bonissone, Schmucker, Yager, Kacprzyk (Mart´ınez və Herera (2010), Mendel (2010) Pedrycz and Mingli (2011), kimi müxtəlif tədqiqatçılar da bu sahədə-linqvistik məlumatlarla hesablama sahəsində fəaliyyət göstərməyə başladılar. Onların yaratdıqları sxemlər olduqca oxşar olsa da daxil olan linqvistik məlumatların qeyri-səlis çoxluq modellərinə uyğunlaşdırılmalı və nəticələrin insanlar tərəfindən asan başa düşülən linqvistik məlumatda ifadə edilməli olduğu strukturu saxlayır.

Yarım əsrdən çox, xüsusi tədqiqatlar TDE və onun digər sahələrinin işlənməi və tətbiqinə yönəldilsə də, insan dilinin avtomatik işlənməsi əsaslarına dair bir sıra metodologiyalar işlənsə də bu sahədə hələ də çox boşluqlar var. Hər bir dilin özünə uyğun fərqli dil xüsusiyyətləri bir çox çətin məsələlərin həll edilməsinin qarşısını alır. Lakin, hələ də, bəzən bizim nəzarətimizdən kənar amillərin təbii dil emalına mümkün təsirini hiss etmirik, çox zaman fikirləri təmsil etməyə çalışarkən səhv məna verən söz seçimi edirik.

Bu sahəyə xidmət edən bir mövcud proqramlarda sistematik səhvlərə yol verilir, maneələrsiz ötüşmək olmur. Bu da ondan irəli gəlir ki, statistik qərəzlilik bir

populyasiyanın ədalətsiz seçilməsindən və ya orta hesabla dəqiq nəticə verməyən qiymətləndirmə prosesindən qaynaqlanırlar.

İnsanlar təcrübələrinə, impulslara, intuisiyalarına əsaslanaraq daha əlverişli qayda qanunlara güvənərək ünsiyyət zamanı bir çox işlər görməyə meyllidirlər, lakin TDE-də bu boşluqlar hələ də doldurulmadığından-dilin düşüncə və duyğuların və digər yuxarıda sadalan amillər üzərində qurulmadığndan təhrif edilmələrə hələ də yol verilirməkdədir. Hal hazırda bir çox perspektivlər və onların doğru cavabları çox nikbin şəkildə ehtimallar üzərində qiymətləndirilməklə davranılır.

Devid Mumford kimi bir çox görkəmli elm adamları Ehtimal və Statistik nəzərəyyələrinin əlaqəli mövzular olaraq modellər qurmaq üçün daha yaxşı bir yol kimi ortaya çıxdığına inanmışlar, Ehtimal gələcək hadisələrin ehtimalının qiymətləndirilməsi ilə məşğul olan bir sahənin, Statistika isə keçmiş hadisələrin tezliklərini təhlil edərək məna verməyə çalışan tətbiqi bir sahə olduğunu vurğulamışlar. Buna baxmayaraq, onların hər ikisi, həm Ehtimal, həm də Statistika bivalent məntiq prinsipləri əsasında onlar qeyri-dəqiqliyə görə deyil, yalnız real dünyada mövcud olan qeyri-müəyyənlik halları ilə effektiv şəkildə həll etməyi təklif edirdilər. Bir sıra azərbaycanlı alimlər: Əliyev R.R., Gardashova, L.A., Əliyeva K.R., Huseynov, O.H., Adilova, N.E. və s. L.Zadə irsinin davamçısı Rafiq Əliyevin rəhbərliyi altında bu sahədə tədqiqatlar apararaq öz töhvələrini vermişlər.

TDE böyük bir mövzu olduğundan, ümumiyyətlə onun toxunulmayan bir çox sahələri var. Məqsədimiz təbii dil emalının əsas texnikalarını araşdırmaq və bu texnikaların potensialını və əsas məhdudiyyətlərini izah etməkdir. Təbii dil əsasən qavrayışları ifadə etmək və aydınlaşdırmaq üçün olan bir sistemdir və əsasən qavrayışlar ətraf mühitə məna vermək üçün hiss edilən təəssüratlardır. Buna görə də onlar təfərrüatı həll etmək və məlumatı saxlamaq üçün qeyri-dəqiqdirlər, çünki onlar obyektiv reallıqdan əhəmiyyətli dərəcədə fərqlənə bilər. Nəhayət, qavrayışlar insanın hiss orqanlarının məhdud imkanlarını əks etdirir və qavrayışların qeyri-dəqiqliyi təbii dillərəin emalı zamanı özünü biruzə verir. Baxmayaraq ki, dövrümüzün indiki günündə "Sözlər və Təbii Dil Emalı" ilə hesablamalar fərqli gündəmlərə və fərqli tətbiq sahələrinə malikdir. Bir sıra alimlər öz tənqidi şərhlərində "Sözlərlə Hesablama"nın Təbii Dil Emalının sadəcə başqa bir adı olduğunu göstərirlər.

Ənənəvi hesablama sistemləri təbii dildə təsvir edilən bütün məlumatları hesablamaq və əsaslandırmaq qabiliyyətinə malik olmadığndan "Sözlərlə Hesablama"- təbii dildə təsvir edilən məlumatla mənanı dəqiqləşdirməkdən ötrü düşünmə qabiliyyətini yaradılan yeni hesablama sistemidir ki, bu da dilin emalında mühüm imkanlar yaradır.

ƏDƏBİYYAT

1. Henry Sweet – Wikipedia https: //en.wikipedia.org › wiki
2. John B. Carroll, Stephen C. Levinson, Penny Lee. introduction by John B. Carroll foreword by Stephen C. Levinson. Copyright Date: 2012. Published by: The MIT Press. Pages: 448
3. Whorf, B. L. (1956). Science and linguistics. In J. B. Carroll (Ed.), Language, thought and reality (pp. 207–219). Cambridge, MA: MIT Press.
4. https://az.wikipedia.org/wiki/Blez_Paskal
5. Evangelos, T., 2000. Multi-criteria decision-making methods: a comparative study. Kluwer Academic, Dordrecht.
6. Martinez, L., 2007. Sensory evaluation based on linguistic decision analysis. International Journal of Approximate Reasoning, 44 (2), 148–164.
7. Zadeh, L., 1975a. The concept of a linguistic variable and its application to approximate reasoning. Part I. Information Sciences, 8 (3), 199–249.
8. Turing A. Building a Brain: Intelligent Machines, Practice and Theory HTTPs:

ФАРИДА ГУСЕЙНОВА

ОБРАБОТКА ЕСТЕСТВЕННОГО ЯЗЫКА – ОЕЯ

РЕЗЮМЕ

Обработка естественного языка (ОЕЯ) — общее направление искусственного интеллекта и математической лингвистики. Оно изучает проблемы компьютерного анализа и синтеза естественных языков.

Применительно к искусственному интеллекту, анализ означает понимание языка, а синтез – генерацию грамотного текста. Решение этих проблем будет означать создание более удобной формы взаимодействия компьютера и человека. К основным направлениям обработки естественного языка относят такие, как извлечение фактов, анализ тональности текста, ответы на вопросы, информационный поиск, генерация текста, перевод и т.д. Подробнее о некоторых из них.

Появление сети Интернет и бурный рост доступной текстовой информации значительно ускорило развитие научной области, существующей уже много десятков лет и известной как автоматическая обработка текстов (ОЕЯ) и компьютерная лингвистика (Компьютерная лингвистика). В рамках этой области предложено много перспективных идей по автоматической обработке текстов на естественном языке (ЕЯ), которые были воплощены во многих прикладных системах, в том числе коммерческих. Сфера приложений компьютерной лингвистики постоянно расширяется, появляются все новые задачи, которые успешно решаются, в том числе с привлечением результатов смежных научных областей.

Несомненно, обработка естественного языка (ОЕЯ) преодолела многие коммуникативные барьеры между людьми и компьютерами, превратив

машинный язык в человеческий и позволив людям выполнять задачи, которые раньше были невозможны. Однако существуют некоторые трудности, препятствующие полному внедрению ОЕЯ, поскольку родной язык компьютера известен как машинный код или машинный язык, где общение осуществляется не посредством слов, а посредством миллионов нулей и создаются логические действия.

Ключевые слова: обработка естественного языка, нечеткая логика, текст, лингвистика, данные, вычисления слов.

FARIDA HUSEYNOVA

NATURAL LANGUAGE PROCESSING – NLP

SUMMARY

Natural Language Processing (NLP) is a general area of artificial intelligence and mathematical linguistics. It studies problems of computer analysis and natural language synthesis. In relation to artificial intelligence, analysis means understanding language, and synthesis means generating literate text. Solving these problems will mean creating a more convenient form of computer-human interaction. The main areas of natural language processing include fact extraction, text sentiment analysis, question answering, information retrieval, text generation, translation, etc.

The advent of the Internet and the rapid growth of accessible textual information have significantly accelerated the development of a scientific field that has existed for many decades and is known as automatic text processing (Natural Language Processing) and computational linguistics (Computational Linguistics). Within this area, many promising ideas have been proposed for automatic processing of texts in natural language (NL), which have been implemented in many application systems, including commercial ones. The scope of applications of computational linguistics is constantly expanding, new problems are emerging that are being successfully solved, including with the use of results from related scientific fields.

Undoubtedly, natural language processing (NLP) has overcome many communication barriers between humans and computers by transforming machine language into human language and enabling humans to perform tasks that were previously impossible. However, there are some difficulties that prevent the full adoption of NLP, because the native language of the computer is known as machine code or machine language, where communication is not through words, but through millions of zeros and logical actions are created.

Keywords: natural language processing, fuzzy logic, text, linguistics, data, word computing

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülnarə Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

AQŞİN DADAŞ-ZADƏ
filologiya üzrə fəlsəfə doktoru
AMEA Ədəbiyyat İnstitutu
Hüseyn Cavid prospekti, 115
agshin1960@rambler.ru

DRAMATURGİYANIN NƏZƏRİ PROBLEMLƏRİNƏ FƏLSƏFİ-ESTETİK BAXIŞ

Xülasə

Belə bir geniş yayılmış fikir mövcuddur ki, dramaturgiya—ədəbiyyatın insanlarda xüsusi ovqat, təkrarsız emosiyalar oyatmaq iqtidarında olan ən "mütəhərrik" növüdür. Lakin, bununla yanaşı, onun arsenalında olan bədii ifadə vasitələrinin rəngarəng palitrası səthi, ikinci dərəcəli məsələlərin deyil, insanlar üçün həqiqətən məna dəyəri daşıyan problemlərin üzə çıxarılmasına və təsvirinə yönəlməlidir. Odur ki, istənilən bir xalqı təmsil edən qüdrətli qələm sahibləri kütlələrə çatdırmaq istədikləri mövzular üzərində işləyərkən, həmin mövzuları təşkil edən əsas fikrin bəzən çoxşaxəli qatlarını açmağa çalışarkən bu heç də asan olmayan işin icrasının estetik tərəfi ilə yanaşı, onun məfkurəvi missiyası haqqında da ciddi düşünmüşlər. İnsan xarakterinin mürəkkəbliyini, onun düşüncə və arzularının bir çox hallarda ziddiyyətli səciyyəsini və bu ziddiyyət səbəbindən atılan addımların spesifik xüsusiyyətlərini əhatə edən bədii material bacarıqlı dramaturqların əlində süjet baxımından cəlbedici, ideya-estetik cəhətdən dəyərli ədəbi nümunələrin yaranması ilə nəticələnmişdir. Bu səbəbdən hazırkı məqalənin müəllifi dramaturgiyanın mühüm nəzəri problemlərinin bir qismini əsərlərin ideya-məzmun vəzni ilə sıx əlaqəli şəkildə təhlilə cəlb edir. Məqalədə həmçinin qeyd olunur ki, ciddi nəzəri hazırlığa malik olan, pyeslərdə ictimai-siyasi, hətta məişət səviyyəsində cərəyan edən proseslərə fikrin dominantası müstəvisindən yanaşan ədəbiyyatşünas və tənqidçilər öz tədqiqat və məqalələrində dramaturgiyanın mühüm ideya-estetik xüsusiyyətlərini düzgün şərh edə bilmiş, onun əsas vəzifələrini peşəkar elmi nöqteyi-nəzərdən açmış və beləliklə, haqqında bəhs etdiyimiz ədəbi növdə qələm işlədən şəxslərə daha mükəmməl yaradıcılıq yolunu göstərmişlər.

Açar sözlər: fəlsəfə, ideya, estetika, məna, dramaturgiya

Məlumdur ki, hər bir sənət əsərinin nüvəsini, məna qatını müəllif təxəyyülünün fərdi xüsusiyyətləri təşkil edir. Belə ki, intellektual yaradıcılığa aid olan hər hansı bir nümunə onu ərsəyə gətirən şəxsin dünyagörüşü, ilk növbədə də onun gözəllik və ülvilik haqqında təsəvvürləri ilə uzlaşır. Sənətkar gündəlik (canlı) həyatla əlaqəsi olan, yaxud tarixdən alınmış "lövhə"ləri öz zövqü, istedadı və bacarığı çərçivəsində bədii formaya salarkən mütləq müəyyən ölçü hissinə istinad edir (yaxud etməlidir—A.D) və bu zaman, adətən, dəruni hisslərindən doğan boyaların, çalarların mütənasibliyi məsələsinə önəm verməyin vacibliyini göz önünə gətirir. Hər halda, normal, sağlam yaradıcılıq prosesində bu şərt gözardı edilə bilməz. Əgər yaradıcı şəxs qarşısında duran vəzifənin ictimai ciddiliyini anlayır və iş prosesində daxili potensialının imkanlarından səmərəli şəkildə bəhrələnməyin mühüm əhəmiyyətini dərk edirsə, onda ərsəyə gətirdiyi bədii əsərin insanlarda həyata estetik münasibətin formalaşmasına (bu isə ümumiyyətlə incəsənətin ümdə vəzifələrindən biridir—A.D.) və inkişafına xidmət etmək imkanı yüksəlir. Əgər nəzərə alsaq ki, tarixən dramaturgiya ədəbiyyatın xüsusilə canlı, mütəhərrik bir növü kimi dəyərləndirilmişsə və bu növ çərçivəsində yazılan əsərlərdə cərəyan edən hadisələrin gedişi hər zaman ayrı-ayrı insan xarakterləri, habelə onların daşıyıcısı olan şəxslərin mövcud olduqları mühitin bilavasitə təsiri altında müəyyən bir dəyişikliyə uğramışsa (bu isə təbii prosesdir—A.D.), onda söyləmək olar ki, əsasən səhnə üçün yazılan əsərlərin (nəzərə almaq gərəkdir ki, yalnız mütaliə üçün nəzərdə tutulan pyeslər də vardır—A.D.) süjet-kompozisiya quruluşu həm də spesifik tərtibat tələb edir. Bu məqamda incəsənətin—konkret halda isə dramaturgiyanın—qarşısında duran ideya-estetik məzmunlu vəzifəyə münasibət məsələsinə daha dərindən nəzər salınması zəruriyyəti hiss edilir. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, ənənəyə görə, sənətkardan meydana gətirdiyi bədii nümunənin ümumi realist mündəricəsini təmin etməklə yanaşı, onun ideya özülünə (daşıdığı fikrə) açıq, yaxud, heç olmazsa, örtülü şəkildə müəllif münasibəti bildirməsi şərti də tələb olunurdu. Hegel doğru olaraq göstərirdi ki, "kainatda mövcud olan hər nə varsa, yalnız o zaman həqiqidir ki, müəyyən ideyanın daşıyıcısı mahiyyətini ehtiva edir. Çünki yalnız ideya həqiqi mənada gerçəklik deməkdir" (5, 114). İdeyaya bağlılıq, həyat, əxlaq və davranış prinsiplərinin məhz ona uyğun olaraq qurulması, nəhayət, həmin ideyanın bədii vasitələrlə başqa insanlara təlqin edilməsi isə bilavasitə insan xarakterinin səciyyəvi xüsusiyyətləri (daha doğrusu, onların müəllif tərəfindən necə təqdim edilməsi—A.D.) ilə bağlı bir məsələdir ki, bunu bəzi tipoloji məqamlar səbəbindən məhz dram əsərlərinin nümunəsində izləmək daha böyük maraq doğurur. Dramaturgiyanın bir estetik kateqoriya kimi dəyəri və "yararlığı" da bilavasitə həmin şərtlə tənzimlənir. Heç bir şübhə ola bilməz ki, bəzən həyatda, insanlar arasında mövcud olan münasibətlərdə hər bir şəxs öz xarakterini ya nümayiş etdirə bilmir, ya da bunu müəyyən sərhədlər daxilində icra edir. Bununla əlaqədar, xarakter dedikdə, ictimai davranışın müəyyən normalarını daşıyan və bu normalara uyğunluğu təmin edən personajların yazıçı tərəfindən necə təsvir edilməsi məsələsi göz önündə

canlanır. Ona görə ki, hər hansı bir əsərin vüsəti, onun bədii-estetik mahiyyəti, həm də siqləti və nəticə etibarilə ehtiva etdiyi fəlsəfi-ideoloji məzmun digər şərtlərlə yanaşı, xarakterin ümumi məfkurəvi portretinin, əgər belə demək mümkünsə, necəliyindən asılıdır. Həmin səbəbə görə dram sənətinin nəzəri problemləri araşdırılarkən, bu məsələyə xüsusi önəm verilmiş, mövzunun ayrı-ayrı aspektləri təhlilə cəlb edilmişdir. Azərbaycan elmi-nəzəri fikrində də dram əsərlərinin fəlsəfi-məfkurəvi, bir çox hallarda tərbiyəedici missiyası ayrıca söhbət mövzusu olmuş və bu xüsusda diqqətəlayiq müşahidə və ümumiləşdirmələr aparılmışdır. Məsələn, akademik Məmməd Arif hələ 1946-cı ildə yazdığı və əhatə dairəsinə görə proqram xarakteri daşıyan "Dramaturgiyamıza bir nəzər" məqaləsində ədəbiyyatın bu növü qarşısında (milli dramaturgiyada—A.D.) mövcud olan mühüm yaradıcılıq problemlərini, ideya-estetik tələbləri ümumiləşdirmiş, klassiklərin yaradıcılığına istinadən belə bir fikir irəli sürmüşdür: "Azərbaycan dramaturgiyasının şah əsərləri olan "Hacı Qara", "Ölülər", "Bəxtsiz cavan", "Müsibəti-Fəxrəddin" yalnız bir teatr sənəti sahəsində deyil, ictimai fikirimizin inkişafı sahəsində də böyük rol oynamış, cəmiyyətin tərbiyəsində fəal iştirak etmişlər... Bu əsərlərdə əsas və qüvvətli qəhrəman isgəndərlər, fəxrəddinlər deyil, böyük humanist və demokrat olan ədiblərin özləridir... Ədiblərimiz (bu pyeslərin müəllifləri—A.D.) ictimai həyatı cərrah bıçağı ilə təşrih edir, onun xəstəliklərini meydana çıxarır və amansızcasına kəsib atırlar. Onlar cəmiyyətdəki hadisələrə sadəcə bir təsvirçi, müşahidəçi və rəssam kimi yox, fəal ictimai bir xadim kimi yanaşır, ürəkləri yana-yana hadisələrin səbəbini öyrənir, düzgün qiymətləndirirlər" (2, 179-180). Göründüyü kimi, alim yuxarıda ifadə olunan fikirləri vasitəsilə ümumi şəkildə olsa da, dramnəvislərimiz qarşısında duran mühüm ideya-nəzəri vəzifələrin bir qismini göstərmiş, ədəbiyyatın bu mürəkkəb və spesifik sahəsində qələm işlədən şəxslərdən (yəni öz müasirlərindən—A.D.) hər mənada ciddi, məna və poetika baxımından cəmiyyətin əqli-mədəni inkişafını təmin edə biləcək yaradıcılıq məsuliyyəti tələb etmişdir. Bu da onunla izah olunmalıdır ki, ötən əsrin 40-cı illərində milli dramaturgiyamızın görkəmli simalarının artıq həyatı tərk etməsi səbəbindən (əslində onlar həyatdan 1920-30-cu illərdə köçmüşdülər—A.D.) yaradıcılığın bu sahəsində müəyyən bir boşluq yaranmış, səhnə üçün yazılan əsərlərin böyük bir qismində ideya-məzmun tarazlığının pozulması halları üstünlük təşkil etmiş, pyeslərin sözün əsl mənasında fəlsəfi vüsətinə o qədər də diqqət verilməmiş, onların bədii həllində tələskənlik və səthilik ünsürləri ön plana çıxmışdı. Nəticədə ümumi bədii "məhsul"un vəzni nəzərə çarpacaq dərəcədə "ərimişdi". Həmin səbəbdən qeydə alınan tendensiyanın qarşısına sipər çəkmək, yazıçılara (ilk növbədə dramaturqlara) sənətin əsas meyarlarını xatırlatmaq, dram yaradıcılığının estetik prinsiplərini bərpa etmək üçün ədəbiyyatşünaslıq və tənqid tərəfindən münasib yol göstərilməsi təşəbbüslərinə ehtiyac var idi. Bu məqamda yuxarıda toxunduğumuz problemə daha geniş rakursdan nəzər salınması üçün belə bir mülahizənin yada salınmasına da ehtiyac duyulur: "Əgər incəsənət artıq varlıqla bağlı nizamın hər şeyi əhatə edən bütövü (tamı) kimi qəbul edilmirsə, onda o,

gerçəkliyə, onun kobud reallığına qarşı yönəlir. Bu zaman incəsənət aydınlaşdırıcı, idealizə edici bir poetik qüvvətək çıxış edir. Məhz ona məxsus estetik aləmdə ideya və gerçəklik arasında tarazlıq yaratmaq mümkündür”(6, 245-246). Belə bir tənasübün əldə edilməsi isə heç də həlli yüngül olan bir vəzifə deyildi. Ona görə də dram sənətinin kifayət qədər güclü və çoxşaxəli məcrada inkişaf etdiyi, məsələn, XX əsrdə məhz dramatizm kimi komponentin mənəvi dolğunluğuna, müəlliflər tərəfindən qurulan konfliktlərin fəlsəfi və sosial mahiyyətinə xüsusi diqqət ayrılırdı. Daha dəqiq desək, bu dövrdə bəzi yazıçılar tədricən zahiri təzadlar üzərində qərarlaşan ənənəvi konflikt növlərindən uzaq durmağa çalışır, bir-birinə zidd olan meyllərin açıq surətdə təsviri üsulunu təshih etməyə səy göstərirdilər. Çünki artıq müəyyən bir doqmaya çevrilmiş belə təsvir sxemləri tədricən vaxtı ötməkdə olan stereotiplərin bir növ “daşlaşması”na, qəlibləşməsinə, yeni yaradıcılıq təşəb-büslərinin qarşısının alınmasına şərait yaradırdı. Beləliklə, yeni səpgidə yazılan pyeslərdə insanın mənəvi aləminin araşdırılmasına, onun psixoloji portretinin daha dərin qatlarının açılmasına getdikcə daha çox diqqət ayrılırdı. Buna baxmayaraq, dramaturgiyanın əzəli prinsipləri də öz əhəmiyyətini əsla itirmir, yəni dəyişən ictimai, ədəbi-bədii mühitdə yeni tələblərə uyğunlaşma prosesi gedir və bu zaman sənətin sağlam ideya axtarışları “qanun”u ümumən gözlənilirdi. Əlbəttə, burada tanınmış teatr rejissoru və aktyoru Mehdi Məmmədovun belə bir fikrinə haqq qazandırmaq lazımdır: “Dramaturqun fəaliiyəti, onun mübarizəsi... hər şeydən əvvəl ideya fəalyyəti, ideya mübarizəsi deməkdir. Lakin dramaturqun və dram janrının öz silahı, öz mübarizə vasitələri vardır. İdeya dram əsərində mütləq bədii və estetik ifadə tapmalıdır” (3, 100).

Beləliklə, ümumi fikir ondan ibarətdir ki, istənilən bədii əsər mütləq hər hansı bir ideya ətrafında cəmləşməlidir. Müəllif məramının kütlələrə effektiv şəkildə çatdırılmasından ötrü isə sənətkarın istedadı, bədii ifadə formalarının düzgün seçimi, pyesin konstruksiyasının “quraşdırılması”nda dəqiq müəyyən edilmiş priyom və üsullardan çox şey asılıdır. Məsələn, bəzi qələm sahibləri dram əsəri üzərində işləyərkən, yəqin ki, qeyri-ixtiyari olaraq ortaya iki intriqanı çıxarmış olurlar. Deməli, onların işi də müəyyən qədər ağırlaşır, çünki dram sənətinin qanunlarına əsasən bu halda artıq intriqaların hər ikisinin həll edilməsi problemi yaranır. Özü də bir çox hallarda onlar eyni vaxtda öz həllini tapmalıdır. Elə isə, əgər əsas intriqa daha əvvəl həll olunursa, onda ikinci (ikinci dərəcəli—A.D.) intriqa, sanki öz əhəmiyyətini itirir. Bu mənzərənin əks tərəfi də vardır, yəni ikinci intriqa gözlənilməz tərzdə pyesin inkişaf xəttindən kənarda qalırsa, onda bədii şərtilik prinsiplərinə riayət edildikdə belə, personajların taleyinin (onların pyesdə iştirakı—A.D.) təsviri ilə bağlı gözəçarpan bir problem ortaya çıxır. Bu da onunla əlaqədardır ki, yaranmış dramatik inkişaf müstəvisində həmin personajlar ya tamamilə səhnədən uzaqlaşa, ya da hadisələrin axarına uyğun olaraq, yəni müəllifin iradəsi ilə yenidən oraya qayıda bilərlər. Nəticədə isə pyesin həm ümumi quruluşunda, həm də onun bədii-estetik biçimində ciddi qüsurlar üzə çıxar. Belə olduqda, dram əsəri ümumi

vüsətini, müəllif ideyası isə öz aydınlığını, məna yükünü və təsir gücünü itirmək təhlükəsi ilə üzbəüz qalır. Burada dramaturq qarşısında başqa bir mühüm tələb də üzə çıxır. Məsələ ondan ibarətdir ki, müəllif öz pyeslərini qələmə alarkən onların süjet xəttini təbii, yəni reallığa daha yaxın bir konflikt üzərində qursa, daha yaxşı olar. Eyni zamanda həmin süjet, onun inkişaf trayektoriyası insanların diqqətini özünə çəkməli, yığcam olmalı və tamaşaçıları (oxucuları) yormamalıdır. Bir sözlə, konkret şəkildə müəyyən bir konflikt üzərində qurulan süjet məkan və zaman anlayışları ilə uzlaşaraq, onların spesifikasına cavab verməli, konfliktin həlli isə əsərin əsasən kulminasiya nöqtəsində baş tutmalıdır. Bu zaman əsas konflikt personajların gündəlik həyatında baş verən digər, belə demək mümkünsə, ikinci dərəcəli konfliktlərdən fərqlənməli, onlardan daha yüksək "mərtəbə"də cərəyan etməli və öz "müstəqilliyi"ni qoruyub saxlamalıdır. Əgər dramaturq bu şərtə riayət edərsə, onda ərsəyə gətirdiyi pyesin süjet xətti onun konfliktinin mahiyyətinin açılmasına müsbət mənada güclü təsir göstərə bilər. Belə olduqda, konfliktin ideya-mənəvi, psixoloji pafosu da özünü qüvvətli şəkildə büruzə verər. Nəticə etibarilə isə məfkurəvi baxımdan aydın, ifadə vasitələri isə lakonik, eyni zamanda da kəsərli təsir xarakteri daşıyan bir dram nümunəsi yaranar.

Lakin real həyat hadisələrinə yaxın motivlər üzərində qərarlaşan, insanların gündəlik, özü də tipik problemlərini əhatə edən, mənəvi və məfkurəvi cəhətdən onların gözləntilərinə cavab verən mövzu, süjet, konfliktin mövcudluğu ilə yanaşı, müvafiq ifadə vasitələrinin tətbiqi şərti ilə təqdim edilən personajlar (obrazlar) belə yalnız o zaman yaradıcılıq uğurunu, fəlsəfi mahiyyəti təmin edə bilər ki, dramaturq üzərində işlədiyi əsərin ideya ciddiliyinə xüsusi diqqət versin. Ciddilik dedikdə, ilk növbədə pyesin məzmun siqləti və fikir aydınlığı nəzərdə tutulur ki, bu da bədii sənətkarlıq səriştəsi ilə uzlaşdırılmadıqda uğursuz təcrübələrin meydana gəlməsinə səbəb olur. İfadə olunan fikrin məna dərinliyi, bu fikrin kütlələrin şüuruna təsir edib, onları hansısa bir ideya ətrafında "səfərbər etmək" imkanları, kolliziyaların fərdlər arasında mövcud olan təbii ziddiyyətləri, uyğunsuzluqları, sanki vahid bir nüvəyə toplayaraq, onların lokal, yaxud, yeri gəldikcə, geniş panoramını ortaya qoyması, nəhayət, qələmə alınan surətlərin tamaşaçının (oxucunun) diqqətini özünə cəlb etmək iqtidarında olan tipik, yaxşı yadda qalan cizgilərinin bacarıqla işlənməsi dram əsərinin fəlsəfi və estetik təsir imkanlarını genişləndirən əsas amillərdəndir. Əlbəttə, bu məsələlərin hamısı müəllifin dramaturji materialı duymaq və onu münasib tərzdə ifadə etmək imkanları ilə bilavasitə bağlıdır. Göstərilən yaradıcılıq vəzifəsinin həlli isə bir xeyli dərəcədə düzgün biçimlənmiş obrazların yaradılmasını nəzərdə tutur. Məhz bu şərtlər gözlənildikdə, hər hansı bir əsərin məna və məzmun vəzni öz kəsərli ifadə formasını tapır. Məsələn, ədəbiyyatşünas Tahirə Məmmədin fikrincə, Azərbaycan dramaturgiyası XX əsrdə müxtəlif tipli obrazların zənginliyi ilə ən yüksək zirvəyə çatmışdır: "Burada həyati, tez görünən obrazlarla bərabər, həyati və müəllifin fəlsəfi baxışlarını özündə birləşdirmiş simvolik obrazlara, fəlsəfi-psixoloji məna ifadə edən şərti obrazlara, metamorfozaya uğramış (şikəstliyə, xəstəliyə doğru)

cəmiyyətə uyğun metamorfozada olan obrazlara geniş yer verilir" (4, 97). Bu mülahizənin həqiqətə uyğunluğu ilə razılaşmaq olar. Məsələyə sırf sənətkarlıq baxımından yanaşıldıqda hər bir xalqın ədəbiyyatının təbii təkamülü prosesində labüd olan müəyyən çatışmazlıqların mövcudluğunu qəbul etmək şərti ilə söyləmək mümkündür ki, milli dramaturgiyamızın XIX əsrin sonu, XX əsrin birinci yarısında qələm işlədən N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, Süleyman Sani Axundov, C.Məmmədquluzadə, C.Cabbarlı, H.Cavid, S.Vurğun kimi qüdrətli nümayəndələrinin dram əsərlərində bədii söz sənətinin yuxarıda göstərilən aparıcı komponenti də özünün real təcəssümünü tapmışdır. Bundan əlavə, həmin müəlliflərin yaradıcılıq nümunələrində digər mühüm poetik-üslubi şərtlərin ümumən gözlənilməsi gerçəkliyi də müşahidə edilir. Həm də sözün geniş mənasında mayası milli koloritdən qidalanan dramatik vüsəti təmin edə biləcək mənəvi-psixoloji "atmosfer"in yaradılması vəzifəsi də adı sadalanan dramaturqların bir çox pyeslərində peşəkarcasına yerinə yetirilmişdir. Bu müəlliflər həyatın "təklif etdiyi" real və çox vaxt özündə acı həqiqətləri daşıyan lövhələrini diqqət və canıyanarlıqla fikir və qəlb süzgəcindən keçirmiş, gerçəkliyi, onun ayrı-ayrı müəmmalı tərəflərini bədii təhlilə cəlb etməyə çalışmışlar. Odur ki, həmin dövrdə yazılan dram əsərlərinin böyük bir qismində qələm sahiblərinin vətəndaş məsuliyyətindən doğan prinsipiallıqla yanaşı, təxəyyül zənginliyi, hadisə və xarakterlərin fəlsəfi-ictimai rakursdan təsvir edilməsi cəhdləri özünü güclü surətdə büruzə verir.

Belə bir fikir də mövcuddur ki, dramaturgiyada məhz faciə janrı öz mövzu dairəsi və onun işlənməsi, konfliktin həll edilməsi baxımından fəlsəfi dünyagörüşünün ifadə edilməsi üçün xüsusilə münbit bir "zəmin" funksiyasını yerinə yetirir. Əlbəttə, bu mülahizədə kifayət qədər rasional bir toxum arayıb tapmaq o qədər də çətin deyil. Halbuki əgər söhbət məfkurəvi cəhətdən həqiqi mənada dəyərli bir bədii əsərdən gedirsə, digər janrlarda yazılan bir sıra nümunədə də insanın fikir və qəlbini riqqətə gətirmək iqtidarında olan diqqətəlayiq məqamların mövcudluğunu qəbul etmək lazım gələcəkdir. Lakin istənilən halda belə bir həqiqəti gözardı etmək olmaz ki, tragik situasiya əslində daha gərgin və eyni zamanda da mürəkkəb, çoxşaxəli mahiyyətə malikdir. Dram əsərində belə bir vəziyyət bir çox hallarda qəhrəmanın ona bilavasitə təhlükə törədə biləcək xarici qüvvələrlə toqquşması nəticəsində yaranır. Buna baxmayaraq, həmin proses paralel olaraq fərdin daxili istəkləri ilə ziddiyyəti və onun həyatda üstünlük verdiyi dəyərlərin reallaşması üçün təşəbbüsləri fonunda cərəyan edir. Bu nöqteyi-nəzərdən, yəni böyük, bəzi hallarda isə ümumbəşəri problemlərin işıqlandırılması və onlara münasibət bildirilməsi müstəvisində məhz faciə janrında qələmə alınan əsər müəlliflərinin üzərinə xüsusi məsuliyyət yükü düşür. Azərbaycan dram sənətində bəşəri mövzuların geniş rakursda səhnəyə gətirilməsi məsələsində, məsələn, H.Cavid yaradıcılığının özünəməxsus payı vardır. Yəqin tamamilə doğru fikirdir ki, "Cavidin teatrı romantik bir teatr olsa da, həyatilikdən, real mübarizə ideyasından məhrum deyildir; Cavid poetik teatrında xarakter və konfliktlərin mayasında canlı bir fikir, həyatdan gələn bir fəlsəfi ideya

vardır... Cavid poetik teatrı psixoloji əsasdan, ehtiraslar həqiqətindən məhrum deyildir və buna görə də təzahürçülükdən, deklamasiyadan, saxta pafosdan, ritorik "fəlsəfəçilikdən" uzaqdır. Romantik-poetik bir teatr kimi Cavid teatrında bədii şərtilikdən, məcazi ümumiləşdirmələrdən, rəmzi keyfiyyətlərdən geniş istifadə edilir" (1, 235). Həqiqətən, bu sətirlərdə görkəmli qələm sahibinin dühasına obyektiv qiymət verilməklə yanaşı, milli dram sənətimizin uzaq keçmişinin real mənzərəsinə, onun məfkurəvi, bədii-estetik dəyərlərinə, onların ifadə tərzinə xüsusi diqqət və ehtiram hiss edilir. Eyni zamanda dramaturgiya və teatr estetikasının əsl mahiyyətinin açılmasında onların müəllif ideyasının münasib həlli ilə üzvi əlaqəsi məsələsi diqqətə çatdırılır. Xoşbəxtlikdən, Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidinin xüsusən klassik dövründə çalışan mütəxəssisləri dram sənətinin bu mühüm şərtləri və vəzifələrinə hər zaman böyük önəm vermiş, sənətin nəzəri problemlərinin təhlilini əsərlərin bədii və fəlsəfi məzmununun təmin olunması nöqteyi-nəzərindən aparmışlar. Bu fakt dramaturgiyanın insanların estetik dünyagörüşünün, mədəni səviyyəsinin formalaşması prosesində oynadığı rolun əhəmiyyətini bir daha vurğulayır.

Ədəbiyyat

1.Cəfər Cəfərov. Əsərləri (iki cilddə). 1-ci cild.B., Azərbaycan Dövlət Nəşriyyatı, 1968

2.Məmməd Arif. Seçilmiş əsərləri (üç cilddə). 1-ci cild. B., Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967

3.Mehdi Məmmədov. Həyat və sənət yollarında. B., Azərbaycan Dövlət Nəşriyyatı, 1965

4.Tahirə Məmməd. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. B., Elm, 1999

5.Гегель Г.В.-Ф. Сочинения. Том XII. М., Государственное Социально-Экономическое Издательство, 1938

6.Хайдеггер М. Исток художественного творения (Введение к «Истоку художественного творения». Автор: Г.Г. Гадамер). М., Академический Проект, 2008

АГШИН ДАДАШ-ЗАДЕ

ФИЛОСОФСКО-ЭСТЕТИЧЕСКИЕ АСПЕКТЫ ТЕОРЕТИЧЕСКИХ ПРОБЛЕМ ДРАМАТУРГИИ

РЕЗЮМЕ

Известно, что идейно-философскую основу любого художественного произведения составляет общее мировоззрение автора и его умение облекать жизненный материал в соответствующую эстетическую оболочку. Драматургия, являясь наиболее живым и «мобильным» видом литературы, предоставляет мастерам пера широкое поле деятельности для донесения до читателя (зрителя) посредством специальных изобразительных «технологий»

всего спектра проблем и задач, связанных с жизнедеятельностью людей. При этом следует учитывать, что лишь сочинения, затрагивающие действительно насущные вопросы, стоящие перед человечеством, значимость рассматриваемых тем могут быть истинным мерилом писательского труда. Даже драматурги, обладающие специфическим талантом в изображении тех или иных реалий и создании запоминающихся образов, добивались действительно значительных результатов лишь в тех случаях, когда серьезное отношение к теме подкреплялось умелым применением соответствующих художественно-эстетических средств. В некоторых случаях их труд приводил к рождению редких творений, наполненных философским содержанием. Автор статьи рассматривает ряд теоретических проблем, связанных с драматическим искусством, в их тесной связи с идейно-смысловым стержнем произведений.

Ключевые слова: философия, идея, эстетика, смысл, драматургия

AGSHIN DADASH-ZADA

PHILOSOPHICAL AND AESTHETIC ASPECTS OF THEORETICAL PROBLEMS OF DRAMATURGY

SUMMARY

It is known that the ideological and philosophical basis of any work of art is the author's general worldview and his ability to clothe life material in an appropriate aesthetic shell. Dramaturgy, being the most lively and "mobile" type of literature, provides masters of the pen with a wide field of activity for conveying to the reader (viewer) through special visual "technologies" the entire range of problems and tasks related to people's life.It should be borne in mind that only essays that touch upon truly pressing issues facing humanity and the significance of the topics under consideration can be the true measure of literary work. Even playwrights with a specific talent for depicting certain realities and creating memorable images achieved truly significant results only in cases where a serious attitude to the topic was supported by the skillful use of appropriate artistic and aesthetic means. In some cases, their work led to the birth of rare creations filled with philosophical content. The author of the article examines a number of theoretical problems related to dramatic art in their close connection with the ideological and semantic core of the works.

Key words: philosophy, idea, aesthetics, meaning, dramatic works

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru Pərvanə İsayeva tərəfindən çapa tövsiyə olunmuşdur

SALATIN ALI QIZI ƏHMƏDOVA
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan, Bakı

GÜLXANI PƏNAHIN YARADICILIĞINDA LİRİK-ROMANTİK, LİRİK PSİXOLOJİ ÜSLUB

Xülasə

Gülxani Pənah yaşadığı cəmiyyətin ictimai-siyasi, mənəvi-əxlaqi keyfiyyətlərini bütün ziddiyyətləri və təzadları ilə yanaşı, şeirində, nəsrində, publisistliyində əks etdirir. Onun bütün yaradıcılığı zamanla rezonans doğurur. Onun yaradıcılığında əsas diqqət insan taleyi, insan həyatı, insan gərginliyinin bu və ya digər formada insan taleyinə təsirinin yaratdığı bəsirətdir. Həyatın bütün çətinlikləri ilə yanaşı, gözəlliyin insan taleyində oynadığı rol müxtəlif bədii üsullarla vermək imkanlarının zənginliyi yaradıcılığında özünü göstərən əsas xüsusiyyətlərdəndir.

Açar sözlər: *Gülxani Pənah, milli-demokratik hərəkat, istiqlal dövrü, lirik-romantik, lirik psixoloji üslub*

Salatin Ali Ahmedova

Lyrical-romantic, lyrical psychological style in Gulkhani Panah's work

Summary

Gulkhani Panah reflects the socio-political, spiritual and moral qualities of the society in which he lives, along with all their contradictions and contrasts, in his poetry, prose, and publicity. All his creations resonate with time. The main focus of his work is human fate, human life, the insight created by the impact of human tensions on human destiny in one form or another. Along with all the difficulties of life, the role played by the beauty in the human destiny is one of the main characteristics that manifests itself in the creativity of the richness of opportunities to give in various artistic ways.

Key words: *Gulkhani Panah, national-democratic movement, independence period, lyrical-romantic, lyrical psychological style*

Салатин Али Ахмедова

Лирико-романтический, лирико-психологический стиль в творчестве Гульхани Панах

Резюме

Гульхани Панах в своей поэзии, прозе, публицистике отражает общественно-политические, духовно-нравственные качества общества, в котором он живет, вместе со всеми своими противоречиями и контрастами.

Все его творения резонируют со временем. Основное внимание в его работах уделяется возникновению судьбе, легкой жизни, пониманию того, как напряжение напряжения влияет на человеческую судьбу в той или иной форме. Способность со всеми трудностями жизни роль красоты в судьбе человека является одной из основных характеристик, которая раскрывает возможности богатства творчества в различных художественных методах.

Ключевые слова: *Гюльхани Панах, национально-демократическое движение, период независимости, лирико-романтик, лирико-психологический стиль.*

Böyük həyat məktəbi keçən sənətkarın qurub yaradan, dəyişdirən, yeniləşdirən, yeni ideyalarla köklənən, azad, müstəqil bir dövləti olan müdrik xalqının şərəfli tarixi həyat yolunu əsərinin bədii mövzusuna çevirməsinə şərait yaradan istedadı var. Ə.Cavad, H.Cavid, S.Rüstəm, S.Vurğun, S.Rəhimov, R.Rza, Əli Kərim, İ.İsmayılzadə, Anar, Elçin, M.Araz, N.Həsənzadə, H.Arif, Ə.Cəmil, M.Rahim... kimi böyük sənətkarlarımızla birgə ədəbiyyatımızı inkişaf etdirən qadın yazarlarımızdan Mədinə Gülgün, M.Dilbazi, N.Rəfibəyli, X.Hasilova, Ə.Cəfərzadə, Ə.Babayeva, X.Əlibəyli, F.Məmmədli... kimi istedadlı qadın yazarlarımız arasında layiqli yeri olan Gülxani Pənahın çağdaş ədəbi prosesdə rolu danılmazdır. Onun yaradıcılığında insan əməyinin, insan həyatının, duyğularının, sağlam ruhunun, yüksək ictimai-siyasi, mədəni görüşlərinin, insan dərrakəsinin, kamalının təsvir və tərənnümü yüksəkdir.

Qayğıkeşlik, mehribanlıq, dözümlük, həyatın bütün acı və soyuğundan mətanətlə, əzmlə, dəyanətlə çıxmağa imkan verən daxili insani zənginlik yaradıcılığında əsasdır.

Onun bədii yaradıcılığı ümumiləşmiş bədii surətlər qalareyasıdır. Bir-birindən təsirli, yadda qalan, uzun müddət hafizələrdən silinməyən bu surətlərin həyat tarixçəsi, insanlığın çəkdiyi əzab-əziyyətlərə dözümün, mətanətliyin yığcam, obrazlı ifadəsi, onların mənalandırılma tempi diqqəti çəkir.

Onun uğurlarından biri odur ki, o yaşadığı cəmiyyətdə, müasir həyatda yeni düşüncəli, yeni tipli insanları qabaqcadan görmüş, mükəmməl bədii surətlərini yarada bilmişdir. Məsələn, torpaq, vətən, xalq, azadlıq, müstəqillik ruhunda sovet cəmiyyətində olduğu kimi deyil, milli ruhda köklənir. 70 il sovet xalqları ideyası milli ideyanı kölgələməyə çalışıb, az qalıb millilik ortalıqdan çıxsın. Gülxani Pənah belə bir dövrdə böyümüş, təhsil almış, bu ideyalarla köklənmiş, oktyabryat, pioner, komsomol, partiya üzvü olmuş, sosializm ideyaları ilə silahlanmış gəncliyin bir üzvü olmuşdu. Amma bütün yaradıcılığında qırmızı xətt təşkil edən müstəqillik, azadlıq ideyaları, şüurunda, mənəviyyatında azərbaycançılıq ideyaları ilə köklənib.(7,s.104) Sovet adamının ictimai-siyasi görüşləri onun yaradıcılığında alt qatdadır. Onun əsərlərində əsas mövzu Azərbaycanın hər qarış torpağı uğrunda döyüşən, canından, qanından qorxmayan, yeni milli ideyalarla köklənən vətənpərvər azərbaycanlıların bu

yolda parlaq mübarizəsi, qazandığı böyük uğurlar, itirdiklərindən doğan gərginliklər, iztirablar, əsir, girov, qaçqın, köçkün həmvətənlərimizin taleyi, gələcəyə nikbin baxış, müstəqil, bütöv Azərbaycan uğrunda ölkədə dövlət səviyyəsində aparılan işlər, islahatlar, daxili və xarici siyasət sahəsində qazandığı uğurlar, Azərbaycanın qüdrətli ordusunun yaranması, böyük siyasi nailiyyətlərə malik olması, tezliklə torpaqlarımızın erməni işğalçılarından qurtaracağımıza böyük inam və əminlik... dünya xalqlarının, xüsusilə Yaxın Şərq xalqlarının böyük dövlətlərin imperiya siyasəti nəticəsində çəkdikləri müsibətlərin yazıçıda doğurduğu gərginlik... bu siyahını artırmaq olar. Gülxani Pənah dediyimiz kimi, əsərlərində yeni tipli insanların, yeni şəraitin ictimai şüurumuzda baş verən dəyişikliklərin bədii inikasını verir.

Onun yaradıcılığındakı həyat materiallarının bolluğu gözdən qaçmır. Onun həyat axtarışları, həyatı dərindən öyrənmək üçün əzmlə çalışması nəticəsində ortaya qoyduğu dəyərli əsərlər tənqidçilərin diqqətindən qaçmır.

Gülxani Pənahın nəsr yaradıcılığında hekayələri çoxluq təşkil edir. Müasir hekayənin əsas yaradıcılarından biridir. Bu mənada C.Məmmədquluzadə, Mir Cəlal ədəbi ənənələrinin davamçısı kimi qiymətləndirilir. Hekayələrinin məzmun yeniliyi, mövzuların aktuallığı, ideya-məzmun xüsusiyyətləri Gülxani Pənahı Azərbaycan hekayələrinin mükəmməl yaradıcısı kimi yüksək qiymətləndirməyə əsas verir. Ə.Əlioğlu yazır: “Bədii əsərdə tam-sosial-ictimai motiv və psixoloji aləmi bir bütöv halında gerçəkləşdirmək ağır işdir. Bunların hansı birini nisbət, kəmiyyət baxımından bədii əsərdə özünü doğrultmağının az və ya çoxluğu da məsələnin tam həll olunduğu demək deyil. Əsas məsələ ondadır ki, bədii surətin fərdi aləmi ictimai dövrü və mühiti nə dərəcədə özündə inikas etdirir. Bütün ictimai-sosial hadisələr cəmiyyət üzvlərinin mənəvi aləmində tərpəniş, oyanış və təbəddülatlar yaradır və yazıçı da bu yolla ictimai həyata obrazların fərdi mənəvi aləmi vasitəsilə güzgü tutur, bədii sənət canlı nümunə rolunu oynayır. Gülxani Pənahın bədii nəsrində ictimai həyat öz məzmun arenasına görə bədii surətlərin fərdi-psixoloji aləmindən sintez olunur. Bu, onun nəsrinin başlıca məziyyətidir, hətta əsərin hekayə yaxud povest olmasından asılı olmayaraq belədir”.(1,s.78)

Hekayələrindəki sadəlik, təbiilik, obrazların real həyatdan götürülməsi, sadə mətləbləri yüksək bədii şəkildə təsvir etmək bacarığı, bu hekayələrin oxucuda buraxdığı dərin təəssürat hissi tənqidçilərin təhlil və tədqiqatlarında mühüm yer tutur. Onun hekayəçilik ustalığı, hadisələrdə, təhkiyəsində xalq rəvayətlərinə yaxın motivlər əsərlərinə marağı artıran cəhətlər kimi qiymətləndirilir.(5,s.34) Çətin və mürəkkəb ictimai-siyasi, ideoloji prosesləri hekayələrində əks etdirmə imkanları, real həyat hadisələrinə yazıçı kimi müdaxiləsində belə zəngin bədii ideoloji təxəyyül imkanları tənqidçilərin gözündən yayınmır.

Onun yaradıcılığındakı mövzu zənginliyi, üslub xüsusiyyətləri, ictimai-siyasi, mədəni həyata yaxından marağı, xalqımızın yeni dövlət, yeni cəmiyyət qurmaq uğrunda mübarizə strategiyasını bir yazıçı kimi qələmə almaq üçün düzgün bədii

təfəkkür yolu tutması təqdirəlayiq yazıçı kimi qiymətləndirilməsinə imkan vermiş olur.

Həyat hadisələrindən götürdüyü mövzulardakı əxlaqi-tərbiyə məsələlərini, ailə daxili gərginliklərdə belə mənəvi milli dəyərləri önə çəkməsi, həssas və canlı müşahidə qabiliyyətinə malik olan Gülxani Pənahın müstəqilliyin, yeni mədəni inqilabın xalqımızın ruhunda, şüurunda əks-sədasının bədii ədəbiyyatda inikası məsələsinə xüsusi diqqət yetirməsi, yaradıcılığında zamanla səsləşən məsələləri ədəbi əsərlərin mövzusuna çevirməsi qabiliyyəti dəyərləndirilir.

Gülxani Pənah nəsrində təsvir etdiyi hadisələri verərəkən uzunçuluğa yol vermir, bir neçə bədii təfəkkür cəhətdən sanballı seçdiyi cümlə ilə real hadisələri, yaratdığı surətin xarakterini açmaq üçün kifayət edir. Və bununla da dilinin bədii ifadəliliyini, emosionallığını artırmış olur. Məsələn, "Ana" şeirində "ay tövbə" ifadəsi ona imkan verir ki, anasının sevgisini, vəfasını, həyatda ailədə qazandığı nüfuzunu daha təsirli, daha güclü şəkildə versin.

Gülxani Pənahın poeziyasında insan obrazı hansısa konkret bii insana deyil, ümumən insana aiddir. Burada insan taleyinə, həyatına müdaxilə ilə yanaşı əsas diqqəti insan üzərinə çəkməsi maraq doğurur. O "mən insanam" deyəndə də, "Ey insan" müraciətində də, müxtəlif xarakterli insanların obrazlarını yaradanda da onu müxtəlif xarakterlərinə, xüsusiyyətlərinə əsasən canlandırır. İnsanın ən səciyyəvi keyfiyyətləri, fərdi xüsusiyyətləri üzrində dayanır.

Dünya mövzusu Gülxani Pənahın yaradıcılığında yüksək bədii səviyyədə təqdim edilir. Onun dünya haqqında zəngin bədii-fəlsəfi düşüncələri poetik dillə ifadə edilir. Burada kamillik, təsirli və dəyərli mühakimələr ona ədəbiyyat adamı olmaq haqqı qazandırır.

Gülxani Pənahın yaradıcılığında lirik-romantik, lirik psixoloji üslub da özünü göstərir. O, bütün duyğu və düşüncələrini, daxili əhval ruhiyyəsindən doğan hisslərini verərkən çox səmimidir, sadədir. Onun şəxsi iztirablarından cox ictimai iztirabları yaradıcılığında əsasdır. Xalqın, vətənin taleyüklü məsələlərinin həlli naminə qarşıya çıxan ziddiyyətlərin yaratdığı ağrı-acıları şəxsi ağrı acıları kimi çox təbii və səmimi bir dillə ifadə edir. Burada quru sözçülük, boğazdan yuxarı deyim yoxdur, bütün duyğuları ilə bağlı qəlb var. O, nəsrində də belədir. Özünün yaşadığı həyatı, başı çəkən müsibətləri təsirli ifadələrlə verir.

Gülxani Pənah yaşadığı cəmiyyətin ictimiai-siyasi, mənəvi-əxlaqi keyfiyyətlərini bütün ziddiyyətləri, təzadlarıyla birlikdə poeziyasında da, nəsrində də, publisitikasında da əks etdirir. Onun bütün yaradıcılığı zamanla səsləşir. Onun ümumən yaradıcılığının əsas qayəsini insan taleyi, insan həyatı, bəşəri gərginliklərin insan taleyinə bu və ya digər formada nüfuzunun yaratdığı inikas təşkil edir. Həyatın bütün çətinlikləri ilə birlikdə gözəlliklərinin də insan taleyində oynadığı rolu müxtəlif bədii üsullarla vermək imkanlarının zənginliyi yaradıclığında özünü göstərən əsas xüsusiyyətlərdəndir. Qələmə aldığı mövzudakı əsas mətləb öz ətrafına daha bir sıra məzmun keyfiyyətlərini şairin fərdi poetik, bədii düşüncəsi hesabına

ətrafına toplayır, bu məzmunun sərhədlərinin genişlənməsinə imkan yaradan müsbət və ya mənfi xüsusiyyətlərin təsvir və tənqidində poetik fikrin kəskinliyi və ya mülayimliyi ilə diqqəti çəkir. Cəmiyyətin mənəvi əxlaqi prinsiplərinə yad olan qüsurlara Gülxani Pənah göz yuman deyil. Onun xalqının kəsdiyi duz-çörəyə hörməti, dostluqda sədaqəti, düzlüyü, dürüstlüyü, sadəliyi, özündən böyüklərə, kiçiklərə olduğu kimi, vəzifəcə də özündən böyük-kiçiklik deyil, insanlığı daha uca tutması kimi keyfiyyətlər təbliq olunur.

Onun yaradıcılığında bir mühüm istiqamət də onun ədəbi-tənqidi görüşlərini özündə əks etdirən yüzlərlə məqalələri, bir çox çap olunan kitablara yazdığı ön sözlər və resenziyalardır ki, bu da müasir ədəbi-tənqidçilər sırasında mühüm yerini müəyyənləşdirməyə xidmət edir.

Gülxani Pənahın şeirlərindəki sadəlik, yığcamlıq, təbiilik, uydur-maçılıqdan uzaqlıq, nə yazırsa real həyat və tənbiət hadisələrindən götürülmə, qələmə aldığı mövzulardakı səmimiyyət onun müasir ədəbi prosesə gətirdiyi təzə nəfəs, təravətlə həmahəngdir.

Müstəqillik dövrünə qədəm qoyduğumuz illərdən Gülxani Pənahın yaradıcılığında yeni bir mərhələ başlayır. O yaradıcılığını bir neçə istiqamətdə davam etdirir. Poeziyası ilə yanaşı yaradıcılığında nəsrin ən yaxşı nümunələri yaranır. Dram əsərləri qələmə alır. Ədəbiyyatşünaslıq, folklorşünaslıq və publisistika istiqamətində dəyərli tədqiqat əsərləri ilə tanınır. Həm müasir, həm də klassik sənətkarlarımızın irsinə dair onlarla elmi monoqrafiyanın müəllifidir. “Mir Cəlalın elmi-nəzəri görüşləri”, “Fikrət Qocanın yaradıcılıq yolu”, “Fikrət Sadığın poetikası”, “Azərbaycan ədəbiyyatında dedektiv janr”, “Könül rübabının səsi”, “Azərbaycan ədəbiyyatı məsələləri” (şərikli), “Poeziya və sənətkar”, “Ədəbi mühit və müasirlərimiz”, “Sənət, sənətkar və poeziya”, “Ədəbiyyatdan əbədiyyətə”, **“**Fundamental elmi baxış və konseptual yanaşma”, “Yazıçı fərdiyyəti”, “Mücrim Kərim Vardaninin həyat və yaradıcılığı” “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”, “Söhrab Tahir-AzərAzərin lirikası”, “S.Əhmədlinin yaradıcılığına ümumi baxış”... (4,s.78)

Gülxani Pənahın ədəbiyyatşünaslıq sahəsində geniş elmi fəaliyyəti xüsusi tədqiqata layiq olub, ayrıca elmi təhlil və tədqiqatların mövzusudur...

Otuza yaxın elmi monoqrafiyanın müəllifi Gülxani Pənahın folklorşünaslıq nöqteyi-nəzərindən çox dəyərli olan bir neçə mo noq-rafiyası üzərində xüususuilə dayanmaq istərdik. Çünki bu əsərlər elmi-nəzəri çəhətdən yüksək qiymətləndirilməlidir və bu sahədə dəyərli məqalə və resenziyalar çap olunmuşdur.

«Yazıçı və folklor», "Sənətkar və poeziya", «Fikrət Sadığın poetikası», “Saz-söz ustadları-Dədə Şəmşir” və “Yaradılış-Həyat-İdrak fəlsəfəsi-Yenigün-Novruz”, “Folklorşünas, tədqiqatçı alim-R. Rüstəm-zadə”, “Elməddin Əlibəyzadə-80”, “Xalq irsinin tədqiqinə dair”, “El ədəbiyyatımız...”, “Tapmacaların xarakterik xüsusiyyətləri” və s. kitabları folklorşünaslıq, mifologiya sahəsində uğurlu tədiqatları

özündə cəmləşdirən fundamental tədqiqiqat əsərləri olub, Azərbaycan folkorşünaslığına qiymətli töhfələrdir.(6,s.17)

Gülxani Pənahın elmi fəaliyyətini böyük bir hissəsini folklorşünaslıq sahəsində tədqiqatları təşkil edir. "İlyas Əfəndiyev yaradıcılığında folklor" mövzusunda namizədlik işi müdafiə edib. Azərbaycan ədəbiyyatında "Yazıçı və folklor" mövzusunda apardığı araşdırmaları foloklorşünaslıq elminə dəyərli töhfələrdir.

Beləliklə, Gülxani Pənahın əsərlərinin dilinə diqqət yetirdikdə görürürk ki, o canlı xalq danışıq dilini, xalq dilinə məxsus söz və ifadələri yerli-yerində, sərrast şəkildə işlədir. Gülxani Pənahın ədəbiyyatşünaslıq tariximizdə mühüm yerini müəyyənləşdirən onun klassik və müasir sənətkarlarımızın yatradıcılığından bəhs edən elmi-nəzəri fikirlərlə zəngin tədiqiqat əsərləridir ki, bunların da hər biri onun elmi dünyagörüşünün zənginliyindən xəbər verir.

Ədəbiyyat

1. Əkbər Əlioğlu. Gülxani Pənahın bədii nəsri. Bakı. Uniprint. 2016.
2. Gülxani Pənah-50. (məqalələr toplusu). Bakı. Uniprint, 2008, 360 səh.
3. Gülxani Pənah. Seçilmiş əsərləri. I cild. Bakı, SkyG, 2019. 501 səh..
4. Gülxani Pənah. Seçilmiş əsərlər.II cild. Bakı, SkyG, 2017.
5. Gülxani Pənah. Seçilmiş əsərlər. III cild. Bakı, SkyG, 2017.499 səh.
6. Gülxani Pənah. Ədəbiyyatdan əbədiyyətə. Bakı. SkyE.2019.436.s.
7. Qadın-Ana-Sənət dünyası. (*Layihənin rəhbəri, tərtibçi*, *ön sözün müəllifi:* Gülxani Pənah Antologiya. I kitab. Bakı, 2018, SkyE, səh. 700 səh.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

SAKİBƏ İSMAYIL QIZI ƏLƏSGƏROVA,
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU, Ədəbiyyat kafedrası
E-mail: sakibaalesgerova@mail.ru
https://orcid.org/ **0009-0001-6348-2460**

CƏNUBİ AZƏRBAYCANDA MİLLİ HƏRƏKAT DÖVRÜ (1941-1946) BƏDİİ NƏSR

Xülasə:

Milli-mədəni təfəkkürdəki azərbaycançılıq kompleksi Şimalda rus şovinizmi, Cənubda fars müstəbidliyi timsalında baş verənləri dərkə və bir problem olaraq onun çözümünə yüklənir. Vəziyyətin belə mürəkkəb situasiyalarla görünüşü fərqi emosiyalardan reallığı fərqli dərkə qədər müxtəlifliklərlə təzahür edir. Əslində baza prinsipi özül olaraq etnik şüurun alt qatında olanlara, vətənqurma və yurdsalma mücadiləsinə, toplumu bütün parametrlərdə arxaik zamanın örnəklərindən gələn dəyərlərə bağlamaqla özünü göstərir.

1941-1946-cı illərdə, istər irtica dövründə (1947-1978), istərsə də İslam inqilabından sonra yaranan nəsr əsərləri yaratdığı möhtəşəm təsəvvürlə diqqət önünə gəlir. H.F.Xoşginabi, B.Hayili, Q.Qəhrəmanzadə, Aydın, Həbibə, Ərməğani və sair kimi yazıçıların 1941-1946-cı illəri əhatə edən əsərləri etnosun bədii təfəkkürünün enerjisi olaraq səciyyələnir. Cənub nəsrinin irtica dövrü (1947-1978) fundamental bədii örnəklərin yaranması ilə faktlaşır. Həbib Sahirin, Rəhim Cadnikunun, Gəncəli Səbahinin, Səməd Behrənginin, İsmayıl Hadinin, Nasir Mənzurinin və s. sənətkarların qələmin məhsulu olan nəsr örnəkləri tarixi-mədəni prosesin mənzərəsini aydınlaşdırmaq üçün lazımı qədər material verir.

Açar sözlər: Cənubi Azərbaycan, milli hərəkat, Milli hökumət dövrü (1941-1946), fars şovinizmi, işğal,inqilabi hərəkat, bədii nəsr.

SAKIBA ISMAIL GIZI ALASGAROVA

PERIOD OF NATIONAL MOVEMENT IN SOUTH AZERBAIJAN (1941-1946) LITERARY PROSE

Summary:

The complex of Azerbaijaniism in the national-cultural thinking is loaded with understanding what is happening in the example of Russian chauvinism in the North and Persian sovereignty in the South and solving it as a problem. The difference in the appearance of the situation with such complex situations manifests itself in a variety of ways, from emotions to a different perception of reality. In fact, the basic principle manifests itself by connecting the society to the values of the

archaic time in all parameters, to the bottom layer of the ethnic consciousness, to the struggle for nation-building and nationalization.

Prose works created in 1941-1946, either during the reactionary period (1947-1978) or after the Islamic revolution, stand out for their magnificent imagination. The works of writers such as H.F. Khoshginabi, B. Hayili, G. Qahramanzade, Aydın, Habiba, Ermagani and others, covering the years 1941-1946, are characterized as the energy of the ethnic's artistic thinking. The period of reaction of the Southern prose (1947-1978) became a reality with the emergence of fundamental artistic examples. Habib Sahir, Rahim Cadniku, Ganjali Sabahi, Samad Behrangi, Ismayil Hadi, Nasir Manzuri, etc. Prose examples, which are the products of artists' pens, provide enough material to clarify the picture of the historical-cultural process.

Key words: South Azerbaijan, national movement, period of national government (1941-1946), Persian chauvinism, occupation, revolutionary movement, artistic prose.

Сакиба Исмаил кызы Алескерова,
Кандидат наук. кандидат филологических наук, доцент
АДПУ, кафедра литературы

ПЕРИОД НАЦИОНАЛЬНОГО ДВИЖЕНИЯ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ (1941-1946) ЛИТЕРАТУРНАЯ ПРОЗА

Резюме:

Комплекс азербайджанизма в национально-культурном мышлении насыщен осмыслением происходящего на примере русского шовинизма на Севере и персидского суверенитета на Юге и решением этого как проблемы. Разница во внешнем виде ситуации с такими сложными ситуациями проявляется по-разному: от эмоций до разного восприятия действительности. Фактически основной принцип проявляется в подключении общества к ценностям архаического времени по всем параметрам, к нижнему слою этнического сознания, к борьбе за нациестроительство и национализацию.

Богатым воображением выделяются прозаические произведения, созданные в 1941-1946 годах, то ли в период реакции (1947-1978), то ли после исламской революции. Произведения таких писателей, как Х. Ф. Хошгинаби, Б. Хайили, Г. Гахраманзаде, Айдын, Хабиба, Эрмагани и других, охватывающие 1941-1946 годы, характеризуются как энергия художественного мышления этноса. Период реакции южной прозы (1947-1978) стал реальностью с появлением фундаментальных художественных образцов. Хабиб Сахир, Рахим Джаднику, Гянджали Сабахи, Самад Беранги, Исмаил Хади, Насир Манзури и др. Прозаические примеры, являющиеся произведениями пера художников, дают достаточный материал для уточнения картины историко-культурного процесса.

Ключевые слова: Южный Азербайджан, национальное движение, период национального правления (1941-1946), персидский шовинизм, оккупация, революционное движение, художественная проза.

Cənubi Azərbaycan timsalında bədii nəsrin zənginliyi və inkişaf dinamikası bir ədəbi-mədəni təfəkkür hadisəsi olaraq mühitin ictimai-siyasi, sosial-mənəvi mənzərəsini ifadəyə yüklənir. M.Ə.Talıbovun "Əhmədin kitabı", Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi", M.H.Rüşdiyyənin dərs kitabındakı nümunələr, Gəncəli Səbahinin "Ovçu", "Həyat faciələrindən", "Quraxlıq ili", "İlk görüş", "Solmuş çiçək", "İntiqam", Qəhrəman Qəhrəmanzadənin "Tehran radiosu", "Ajan Qulam", Rəhim Cadnikunun "Qəlbin səsi", "Unudulmaz tarixi günlər", Səməd Behrənginin "Qar dənəsinin sərgüzəşti", "Çuğundursatan oğlan", "24 saat yuxuda və ayıqlıqda", Mərziyə Üsüklünün "İlk ölüm təcrübəsi", Bağır İftixarinin "Bir gecənin qəmli tarixcəsi", Abbas Pənahinin "İntiqam dəstəsi", "Qırmızı aşıqlar", Fəthi Xoşginabinin "Tanış olun", "Samavar" və s. əsərləri mükəmməl nəsr örnəkləri kimi Cənubi Azərbaycanda bədii nəsrin inkişaf axarını, onun mövzu problematikasını aydınlaşdırmaq baxımından gərəkli material verir.

Bədii nəsrin Cənub və Şimal qolu zamanından, məkanından asılı olmayaraq biri digərinə qovuşuq, iç-içə girməklə zənginləşmədə, bir-birinə təsirdə görünməklə inkişaf keçirmişdir. İkiyə parçalanma onun coğrafi formatında reallaşdı, ancaq mənəvi yaxınlığı zədələməkdə çətinlik çəkdi. Əksinə, toplum ərazi səviyyəsində tikanlı məftillərlə itirdiyini, mənəvi mühitində tamamladı və daha da dolğunlaşdırmaq yolunu tutdu. Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələrinin dediyi kimi, *"Azərbaycan ədəbiyyatı istər dünən, istərsə də bu gün ayrılmazdır, o bütöv dərk edilir və 50 milyonluq millətimizin sərvətidir"* [11, 199].

Ədəbi-mədəni proses bütün zamanlarda milli ruhun, ictimai-siyasi prosesin, bədii-estetik məfkurənin bütün paradoksal mənzərəsini əhatə etməklə yoluna davam edir. Cənubda nəsrin ləngərli və bir qədər də ağır gedişi kəmiyyət və keyfiyyət səviyyəsində axtarışlara, intertekstuallıq baxımından aydınlaşmalara şərait yaradır.

G.Səbahi "Həyat faciələri"ndə 1948-ci il hadisələrini geniş kontekstdə təhlilə gətirir: *"1327-ci ilin (1948-ci il) bəhmən ayının üçü idi. Məhkəmə salonu tamaşaçılarla dolu idi. Qəliz siqar tüstüsü seyrək bir duman kimi salona yayılmışdı. İzdiham sonsuz bir həyəcan içərisində məhkəmənin qərarını gözləyirdi. Keşikçilər müttəhimin sağ və solunu almışdılar. Vəkil narahat halda qədəm vururdu. Müttəhim səndəlinin yaxınlığında, bir xanım quru döşəmənin üzərində oturub, köhnə çadrasını əmizdirməkdə olduğu bir yamşar körpəsinin başı üzərinə onu kiritməyə çalışırdı. Altı yaşında bir oğlan uşağı boynunu burub gah müqəssirə, gah da anasına baxırdı. Xanım tez-tez müqəssirə baxır, dolğun gözlərini sıxdıqca, yaş mirvarid danələri yanağından dığırlanıb körpənin üzünə tökülürdü. Bu müqəssirin arvadı idi"* [4, 378]. Mətn//mühit münasibətlərində əksini tapan mənzərə məhkum, onun həyat

yoldaşı, bir südəmər, bir də altı yaşında uşağın halını aydınlaşdırmaq baxımından psixoloji situasiyanın mükəmməlliyi ilə nəzər-diqqəti cəlb edir.

Cənubdakı bədii nəsrin yaradıcılıq axtarışları siyasi mühitin gərginliklərində poeziya ilə bir addımlamaqla, həm də baş verənləri ifadəni bir məram olaraq qarşıya qoyur. *"Qadını ürəkyandırıcı bir nəva ilə ağlamağa başladı. Oğlu da onun səsinə səs verdi. Məhkəmə heyəti pərvəndəni götürüb o biri otağa keçirmək istədikdə birdən: - Dayanın, - deyə gurultulu bir səs salınu doldurdu.*

-Ədalətli hakimlər! Edam hökmü verdiyiniz bu bədbəxtin heç bir şeydən xəbəri yoxdur. Çingiz xanı mən öldürmüşəm!" [4, 378-379]. Qüdrət, hakim, vəkil, məhkum, məhkumun həyat yoldaşı, övladı timsalında yaşananlar bir tərəfdən İran miqyasında baş verənləri əhatələyirsə, digər tərəfdən yazıçı mövqeyini, milli hökumət dönəmindən sonrakı irticanın mənzərəsini ortaya qoyur.

XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda çıxan mətbu orqanları öz səhifələrində nəsr örnəklərindən nümunələrə xüsusi həssaslıq göstərirdi. "Şairlər məclisi"nin xüsusi orqanı kimi fəaliyyət göstərən "Vətən yolunda" qəzeti bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Dövrün ictimai-siyasi prosesləri, dünya düzənində baş verənlər, sərt həyat həqiqətinə fəal yazıçı münasibəti qəzetlərdə hekayə, oçerk, felyoton səviyyəsində özünün ifadəsini tapırdı.

Ədəbiyyatda demokratik ideyaların təbliği, yüksək əxlaqi-mənəvi dəyərlərin təlqini, vətənqurma təsəvvürləri bütün parametrlərdə bir məqsəd olaraq görünür. Məsələn, A.Makulunun "Təbriz gecələri", "Sirli çoban" hekayələrində, "Gizli zindan" povestində, "İntiqam dəstəsi", "Qırmızı aşıqlar", "Səttərxan" əsərlərində İran müstəbidlərinin azadlıq hərəkatına tutduğu divan real təsvirlərlə əks olunmuşdur. O, xalqın azadlıq mücadiləsini və aparılan mübarizənin hansı amala köklendiyini təbii, obrazlı şəkildə mükəmməl ümumiləşdirmələrlə əks etdirməyə üstünlük vermişdir.

"Təbriz gecələri" hekayəsi milli hərəkat dönəminin hadisələrini, insan xarakterinin mürəkkəbliklərini əks etdirmək baxımından diqqətçəkici təsir bağışlayır. Xalvuran Heydər və Çapıq Qənbər arasında olan söhbət bunun tipik örnəyidir. Çapıq Qənbər deyir: *"....bu bir ildə çəkdiyim əzabı it də çəkməsin. Adamın bu bir ildə keçirdiyi günlər yadına düşəndə hirs vurur başına, deyir elə çıx küçəyə, qabağına gələni öldür. Gədə, Qənbər hara, fəhləlik hara? Gör mən nə günə qalmışdım ki, bağlarda bel təpmək ilə yarım qarın dolanırdım. İşləməkdən əllərim qabar olubdur"* [10, 124]. Ədibin "Sirli çoban" hekayəsi də öz mövzu və mündəricəsi ilə eyni ruhun ifadəsinə köklənmişdir. Hekayə payızın axır günlərinin birində qəbristanda baş verən qəmli hadisə ilə başlayır. İnqilabi hərəkatın boğulması, xalqın yenidən azadlıqlarının əlindən alınmasının təsviri təbiət təsviri ilə harmonya təşkil edir. Al-yaşıllarla bəzənən çöllər və meşələrdə çəmənlərdən nişanə olaraq quru çöplər qalıb. Əvvəllər bülbüllərin ötdüyü yerlərdə qarğalar qarıldaşır. Bu hüzn insanlarda, heyvanlarda, hətta göylərdə belə hiss olunur.

Zəkirli kəndinə gedən 2 nəfər qonağın yolüstü qəbristanlıqdan keçməsi orada qoyunları otararkən qəmli ney çalan, neyindən gələn cazibəli, yanıqlı səslə ötüb

keçənləri dayanmağa məcbur edən çobanın hekayəsini dinləməsi əsərin süjet xəttini təşkil edir. Çobanın neyindən çıxan nalələr baş vermişlərin ortaya qoyduğu mənzərədir. S.C.Pişəvəri yazırdı ki, bu insanların tələb və istəkləri ən cüzi insani və milli hüquqlardan ibarət idi. Onlar İranı azad və xöşbəxt görmək istəyirdilər. Makulu və Cənubi Azərbaycan nəsrinin görkəmli nümayəndələri bütün yradıcılığı boyu əsərlərində inqilabı, azadlıq uğrunda mübarizəni dəstəklədi və özləri də istibdad və diktaturaya qarşı mübarizənin öncülləri oldular.

Milli hərəkat dönəmi və ondan sonrakı dövr bədii nəsr. Milli hərəkat dönəmi və ondan sonrakı dövr bədii nəsrin istedadlı nümayəndələrindən biri də Səməd Behrəngidir. Müəllim, tərcüməçi, nasir, publisist kimi ədəbiyyat tarixinə adını yazan ədib bütün varlığı ilə xalqın azadlığı yolunda fədakarlıq nümunəsi göstərmişdir. Amal və əqidə mücadiləsi səbəbindən Arazın sularında boğulub öldürülən sənətkar Cənub bədii nəsrinin ən maraqlı örnəklərini yaratmışdır. "Balaca Qara balıq" əsərində müəllif xüsusi olaraq vurğulayır ki, *"ölüm indi çox asanlıqla mənim dalımca gələ bilər. Lakin nə qədər ki, yaşamaq qüdrətinə malikəm, gərək ölümün pişvazına getməyəm".* Körpəliyi və uşaqlıq illəri Vətənin qanlı-qadalı günlərinə düşən yazıçı bilirdi ki, sənə lazım olan azadlığı mübarizə aparmadan əldə edə bilməzsən. Elə Balaca Qara Balıq da belə düşünür: *"uzun müddətdir ki, kiçik arxda yaşayırlar, deyilənə baş üstə əməl edirlər. Bilmir ki, arx harada qurtarır. Ah-nalə edə-edə, hər şeydən şikayətlənməklə ömrü bitirmək olmaz"* [3, 23]. Yazıçı İnqilabi Demokratik Hərəkatın məğlubiyyətindən sonra da insanların eyni ideyalarla yaşamasını, azadlıq mübarizəsinin onlar üçün vacibliyini, bunun üçün məkan, zaman və inqilabi nəzəriyyənin yetişməsini nağıl qəhrəmanlarının dili ilə qələmə almış, bir alleqorik əsərin təsir gücünün digər növlərdən geridə qalmadığını sübuta yetirmişdir.

"Balaca Qara Balıq" əsərinin əvvəlində verilmiş balaca qəhrəmanın düşüncəli vəziyyəti inqilabdan əvvəlki Təbrizin, Zəncanın, Ərdəbilin keçirdiyi əziyyəti ilə eynidir. "Adət", "Binam", "Çuğundursatan oğlan", "Ulduz və qarğalar" [3; 46] ədibin yaradıcı təfəkkürünün zənginliyini və etnik ruhun ümumi ahənginə köklənməklə onu ifadəyə çalışmasını aydınlaşdırır.

M.İbrahimov Cənub mövzusu ilə bağlı beş hekayə yazmışdır. Azadlıq uğrunda gedən mübarizələrin ayrı-ayrı məqamlarını özündə əks etdirən bu hekayələrdə eşitdiklərini və gördüklərini, duyğu və düşüncələri bütün aspektləri ilə təqdim etməyə çalışmışdır. Məsələn, «Azad» hekayəsi Cənubi Azərbaycan xalqının mübarizə tarixindən bəhs edən orijinal bir əsərdir. Azadla Fərdanın həyatını, səciyyəvi xüsusiyyətlərini, dostluqlarını, giley-güzarlarını, arzularını və s. yüksək təhkiyə texnologiyaları ilə təqdim edən sənətkar mətn informasiyasında bvütöv bir mənzərəni çatdıra bilmişdir.

Azad vətəni, xalqı və dostu üçün əlindən gələni əsirgəmir və həyatının mənasını dostu Fərda kimi mübarizədə, yaşamaq üçün ölməkdə görür. Azad İnqilabi Hərəkatı boğmaq istəyən qara qüvvələrə qarşı mübarizə aparanların başçısı olur. Məqsədi qələbə çalıb azadlıq bayrağını qaldırmaqdır. Xarakterinə görə Sükuti

çağırılan Azadın ölümqabağı dediyi sözlər Azərbaycanın azadlığı uğrunda mübarizə aparan oğullarımızın yazıçı tərəfindən ümumiləşdirilmiş simvolik arzularıdır: *"Bizim hamımızın səadəti… ana torpağın istiqlaliyyətindədir… ölürəm, Fərda, amma mən yaşamaq üçün ölürəm… ölmək üçün yaşayanların dövrü qurtardı, bundan sonra zaman bizimdir, yaşamaq üçün ölməyə hazır olanlarındır!…"* [6, 4]. Cənublu, Şimallı vətən timsalında Azadın "öpünüz, səcdəyə qapılıb hamınız bu torpağı öpünüz! Bizim əzəli və əbədi beşiyimiz budur" fikirləri bütünlükdə toplumun mücadilə fəlsəfəsinin mahiyyətini aydınlaşdırır. "İztirabın sonu" hekayəsində Təbrizin üstünü alan fəlakətin miqyası və toplumun baş verənlərə aydın mövqeyi özünün ifadəsini tapır. Bir gün əvvəl qaynar və çal-çağırla dolu Təbriz küçələri cənazə məkanına çevrilmişdir. Şəhərin üzərinə sanki ümidsizlik pərdəsi çəkilmiş, hər tərəf qan içindədir. Bunları öz gözləri ilə görən yazıçı M.İbrahimov namərd düşmənə nifrətlə müraciət edir ki, cavan fədailərə qıydınız, bəs ağ saçlı qocaların günahı nədir?

"Tonqal başında" hekayəsi də eyni silisiləyə daxil olub bir başqa tipik mənzərəni diqqət önünə gətirir. Dekabrın şaxtalı bir gecəsində Marağa fədailərinin tonqal başında toplanıb zülmət qaranlıqda qızaran közlərə baxa-baxa hekayət dinləmələrini qələmə almışdır. Sonsuz ağrı-acılar görmüş, həyatın sınaqlarından çıxmış Kərim dayı tərəfindən bu əhvalatların söylənilməsi yazıçı peşəkarlığından irəli gəlir.

"On iki dekabr" adlı hekayəsində (1946) müəllif bədiiyyatın gücü ilə bütöv bir təfsilatı canlandırır. 1945-ci ilin çərşənbə gününü heç bir zaman unutmayan, onu bir xalqın, bir torpağın azadlıq müjdəsi adlandıran yazıçı hekayədə demokratik partiyanın başçısı Pişəvərinin rəhbərliyi ilə milli hökumətin yaradılması məsələsini geniş şəkildə təsvir etmişdir. "Həyatdan hekayələr" silsiləsindən olan "Çobanın məsləhəti", "Şairin yadigarı", "Pələng və insan", "Murovdağın ətəyində", "Mədinənin ürəyi", "Duz-çörək" öz janr korpusu və yüksək məzmun mükəmməlliyi ilə nəzər-diqqəti cəlb edir. Ümumiyyətlə, Cənub mövzusu M.İbrahimovun yaradıcılığının ana xəttini müəyyənləşdirir. "Xosrov Ruzbeh", "Güləbətin" povestləri, tamamlanmamış "Nakam məhəbbət" və "İran qızı" əsərləri, "Cənub hekayələri" və s. [7] kimi əsərlərində xalqın dünəni, bu günü, azadlıq uğrunda mübarizənin bədii əksi geniş poetik lövhələrlə verilmişdir.

"Gələcək gün" romanı [8] onun yaradıcılığının zirvəsi olan əsərlərindəndir. M.Arif yazır: *"O, İran, xüsusən Cənubi İran kəndlilərinin həyatını bütün çılpaqlığı və dəhşəti ilə təsvir edərək şahlıq istibdadının da bütün mürəkkəb siyasi, əxlaqi laylarını göstərdi. Roman Firudun və Kürd Əhməd kimi xalq qəhrəmanlarının yetişməsindəki qanunauyğunluğun bədii mənzərəsini nümayiş etdirdi."* [2, 15]. Əsərdəki qəhrəmanlar gələcəyə böyük ümidlə baxırlar. Xoşbəxt gələcək günün romantikasını xəyal etmək belə onları ümidləndirir. İşıqlı gələcək uğrunda döyüşməkdən çəkinməyən obrazları həvəslə yaradan yazıçı "Həyat" pyesinin qəhrəmanı Abbasın dili ilə deyir: *"Nə gözəl, nə yaxşı gələcəkdir! Qollarını açıb bu*

gələcəyi tutmaq, qucaqlamaq istəyirəm". "Gələcək gün"ün qəhrəmanları bu gözəl gələcəyi öz qanları bahasına, mübarizə aparmaqla, fəallıq göstərməklə qazanmaq istəyir. "*M.İbrahimov İranda inqilab tarixinin "gələcək gününü" də hələ onda - 1949-cu ildə görür və 2500 illik şahlıq səltənətinin süqutunu bu səltənətin çox qüvvətli olduğu bir dövrdə xəbər verir"* [9, 145]. Bütün bunlar Cənub mövzusunun bədii nəsrdə mahiyyətini aydınlaşdıran məsələ olaraq diqqət önünə gəlməklə problemin polifonik məzmununu faktlaşdırır. Ayrı-ayrı sənətkarlar timsalında bədii ədəbiyyat faktı olaraq meydana çıxan bu örnəklər tarix olmadan əvvəl tarixiliyə və oradan real həyat həqiqətlərinə çevrilmənin nümunəsi kimi tipiklik qazanır.

"Gələcək gün" romanı bütünlükdə Cənubi Azərbaycan timsalında baş verən proseslərin nəticəsi olaraq gözlənilən gələcək günü, ümid işığını işarələyir və xalqın mücadiləsinin, məram və məqsədinin həmin gələcəyə köklendiyini diqqət önünə gətirməklə, həm də onun reallaşmasının qaçılmaz olduğunun da hökmünü verir. Əsərin sonluğundakı epizod bunun paradiqmatik mənzərəsini cızmaq baxımından uğurlu təsir bağışlayır: *"O, (Fridun-S.Ə.) ömrünün kələ-kötür və tikanlı keçmişini deyil, min bir xəyal və ümidlə dolu gələcəyini düşünürdü. Maşın yel kimi uçaraq onları Azərbaycan, Təbriz, Şimal tərəfə çəkib aparırdı. Onlar azadlıq, səadət və gələcəyi qurmaq üçün gedirdilər"!* [8, 517-518]. Əsərin sonluğunda yazıçının Firudin timsalında söylədikləri bütünlükdə xalqın mübarizə tarixini, dünəndən sabaha gedən yolunu bütün təfsilatları ilə diqqət önünə gətirir.

Cənubi Azərbaycanda gedən oyanışın mahiyyətinə köklənən bədii nəsr tipik şəraitdə tipik xarakter yaratmaq məramından çıxış edərək analitik təhlil müstəvisində toplumun mücadilə fəlsəfəsindəkiləri mövzuya çevirməyi bir məqsəd olaraq qarşıya qoyurdu. Nəsr örnəklərinin adlarından tutmuş qayəsinə və hadisələri təsvir üsullarına, məzmun xətlərinə qədər hamısı bu müstəvidə özünü aydınlıqla göstərir. Məsələn, A.Pənahinin "İntiqam dəstəsi", M.İbrahimovun "Gələcək gün", "İran qızı", "Nakam məhəbbət", F.Xoşginabinin "Tanış olun", H.Məmmədzadənin "Xədicə paşa", G.Səbahinin "Xain", Q.Qəhrəmanzadənin "Tehran radiosu" və s. əsərlər mövzu və məzmun əlvanlığı ilə Cənub mühitinin bədii nəsr səviyyəsində yaradıcılıq məfkurəsini bir bütöv olaraq ortaya qoymaq gücündə görünür. *"Toğay bacı deyə çağırılan yolçu kişi libası geymiş bir qadın idi. Hərəkət etdiyi zaman onun döşündə bir şey parlayırdı, lakin bu heç də qadınlara məxsus daş-qaş, və qızıldan qayırılmış başqa zinət şeylərindən deyildi. Bu, İyirmi bir Azər inqilabında fəal surətdə iştirak etdiyi üçün Azərbaycan milli hökuməti tərəfindən bu qadına verilmiş "İyirmi bir Azər" medalı" idi"* [12, 422]. Göründüyü kimi, epik təhkiyə həm informativ məzmunu və həm də etnoqrafik yaddaşı və coğrafi mühiti əhatələməklə təfərrüatlı bir mənzərəni diqqət önünə gətirir.

Cənubi Azərbaycan demokratik ədəbiyyatının bütün nümayəndələri mənəvi-ideoloji, kulturoloji düşüncə modellərindən çıxış etməklə baş verənlər timsalında reallığın mənzərəsini cızırdılar. Fəthi Həmzə Xoşginabinin "Tanış olun" əsəri fars müstəbid rejimi səviyyəsində olanları əks etdirmək gücü ilə səciyyələnir. İsmət

xanım, qızı Mələktac, Ərdəşir, Heydər timsalında olan epizod cəmiyyət səviyyəsində mürəkkəb situasiyanı, paradoksal mənzərənin ucu-bucağı görünməyən bir məqamını diqqət önünə gətirir:

"Demək insanlar "ağalara" və "nökərlərə" ayrıldıqda, onlara olan münasibətlər də tez dəyişilərmiş! İndi artıq heç kəs Heydərə gülümsəmirdi. Mülukun qara sürməli gözləri bir dəfə də olsun Heydəri süzmürdü. Hər şey hətta "məhəbbət rəmzi" də unudulmuşdu.

"Tanış olun"! Xeyr, o, tanış olmur. O istəyir ki, onu tanımasınlar. Ona da insan kimi yanaşsınlar. "Bizim nökərimizdir"! Heydər istəyirdi ki, heç bir kəsə nökər olmasın. Ancaq indi yox, o vaxt ki, başqa yerdə çörək tapa bilər... İndi nökər olsa da dözəcək və dərs oxuyacaqdı. Sonra bəlkə də nökərlikdən qurtaracaqdı.

O, düşünürdü... Axı bu ölkənin hər yerində insanlar iki hissəyə ayrılırlar: "nökər" və "ağa" vəssalam!

Hələ həyat meydanına qorxaq addımlarla atılan bu gənc, bu nökər, bu kəndli indidən belə təhqir olunurdu" [5, 446]. Mətn informasiyası, sozün məna yaddaşı və janr hüdudları səviyyəsində özünü göstərən təfsilat bütünlükdə siyasi sistemin mahiyyətini, insana ayrı-ayrı təbəqələşmə (və toplum) müstəvisində baxış tiplərini ortaya qoyur.

Cənub bədii nəsrinin istedadlı nümayəndələrindən olan Abbas Pənahinin "Qırmızı aşıqlar" hekayəsində də rejimin mahiyyətini ortaya qoyacaq kifayət qədər tipik epizodlar özünə yer alır. Yaralı qocanın söylədikləri baş verənlərin tipik məzərəsidir. *"Evimin səadəti balaca Qəhrəman! O, güləndə ev, eşik, dam, daş, oğul, gəlin hamısı gülürdü. O, qəmgin olsa tamam ailə yasa batardı. Gəlinin qucağından dartıb aldılar. Gözümün qabağında uşağı vurub yerə sərdilər. Balaca uşağı müdafiə etmək istədiyim üçün üç nəfər birdən üstümə tökülüb, başımdan tüfəng qundağı ilə vurdular və həmin dəqiqə qollarımı bağladılar. Evimizə dolan jandarmların dörd nəfəri də şərəfsiz və alçaq adamlar idi. Mərdlərə layiq olan sifətlərin heç biri bunlarda yox idi. Yatdığı yerdə atası ilə arvadının döyülüb təhqir olduğunu görən oğlum xəstə və zəifliyinə baxmayaraq, ağaca dayana-dayana otaqdan həyətə düşərkən həyətin o tərəfində duran arıq və tiryəki bir jandarm onu nişan aldı"* Göründüyü kimi, rejimin mahiyyəti, xalqa qarşı amansız münasibəti, demokratik dəyərləri, insani davranışları birmənalı olaraq aşağılaması bədii nəsrin müxtəlif səpkili örnəklərində aydınlıqla mövzuya çevrilərək əks etdimə məqsədi daşıyır. Yüksək tipikləşdirmə ilə mətnə gətirilən bu epizod fərdiləşdirmə və ümumiləşdirmə miqyasında ideya bədii dərinliyin nələrə yükləndiyini aydınlıqla ortaya qoyur.

Bütün bunlar Cənub miqyasında bədii nəsrin etnik tipologiyasını müəyyənləşdirməklə Azərbaycan ədəbiyyatının vahid, bütöv hadisə olmaq normativlərini faktlaşdırır. Burada etnosun bütün səviyyələrdə ayaqlaşmasını zərurətə çevirən səbəblər, iqtisadi böhranın daha da dərinləşməsi, bütövlükdə böyük mədəniyyət yaratmış bir xalqa qarşı yeridilmiş məkrli siyasət və toplumun ona qarşı mövqe nümayişi, özünütəşkil və özünüdərk səviyyəsində birliyi ifadəsini tapır.

Ümumiyyətlə, ədəbiyyatın Şimal və Cənub qolunda gedən proses mövzu zənginliyində etnokulturoloji yaddaşda olanları mücadilə formulu olaraq təlqinə yüklənməyi bir xətdə qarşısına məqsəd olaraq qoyur.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayeva, G. Təbriz ədəbi mühiti (1941-1946-cı illər) / G.Ağayeva. – Bakı: Nurlan, -2004. - 168 s.
2. Arif, M. İstedad və əmək // "Azərbaycan" jur., 1971, № 10, s. 11-20.
3. Behrəngi, S.İ. Seçilmiş əsərləri. Məhəbbət nağılı / S.İ. Behrəngi. - Bakı: Yazıçı, - 1987. - 510 s.
4. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / 4 cilddə, III c., - Bakı: Elm, -1988. - 552 s.
5. Xoşginabi, F.H. Tanış olun. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III c., F.H. Xoşginabi. - Bakı: Elm, -1988. - s. 439-450.
6. İbrahimov, M.Ə. Azad / M.Ə. İbrahimov. - Bakı: Uşaqgəncnəşr, -1949. - 20 s.
7. İbrahimov, M.Ə. Seçilmiş əsərləri. İki cilddə, I c., / M.Ə. İbrahimov. - Bakı: Şərq-Qərb, - 2005. -432 s.
8. İbrahimov, M.Ə. Seçilmiş əsərləri. İki cilddə, II c., / M.Ə. İbrahimov. - Bakı: Şərq-Qərb, - 2005. 520 s.
9. Qarayev, Y.V. Torpağın övladı // "Azərbaycan" jur., -1983. - № 2, - s. 145 -151.10. Makulu, A. (Pənahi). Təbriz gecələri / A. (Pənahi) Makulu. - Bakı: Azərnəşr, - 1950. - 211 s.
11. Müasir Azərbaycan ədəbiyyatı. İki cilddə, II c., / Bakı: Bakı Universiteti, -2007. - 564 s
12. Pənahi, M.A. İntiqam dəstəsi. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III c., / M.A. Pənahi. - Bakı: Elm, - 1988. - s. 421-423.
13. Pənahi, M.A. Qırmızı aşıqlar. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III c., / M.A. Pənahi. - Bakı: Elm, - 1988. - s. 428-438.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: professor Mahmud Allahmanlı
tərəfindən çapa tövsiyə olunmuşdur

ELMƏDDİN QULİYEV
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
el-84@list.ru
İstiqlaliyyət, 26

BÖYÜK İSTİQLAL CARÇISI ƏHMƏD CAVAD

Xülasə

Böyük istiqlal şairimiz Ə.Cavad 1892-ci il mayın 5-də Gəncə qəzasının Şəmkir dairəsi, Seyfəli kəndinin Mehrəli qəzasında ruhani ailəsində dünyaya gəlmişdir. Atası Məmmədəli dövrünün tanınmış axundlarından olub. Azərbaycanın görkəmli tarixi simalarından biri kimi tanınan Cavadxan axund Məmmədəlinin atası ilə yaxın idi və ailədə həmişə onun haqqında xoş söhbətlər gedərdi; mərdliyi, igidliyi, xalq yolunda qəhrəmanlıqla həlak olması dönə-dönə xatırlanırdı. Elə bu hörmət və ehtiramın təzahürü kimi axund Məmmədəli gələcəyin şairi doğulanda adını Cavad qoymuşdu. Cavad beş yaşına çatmamış atası dünyasını dəyişdi. O, anası Yaxşı xanımın himayəsində böyüyüb başa çatıb. İbtidai təhsilini molla məktəbində almış, üç il orada oxumuşdur. Sonrakı təhsilini Gəncədə Müsəlman Ruhani Seminariyasında almış (1906-1912-ci illər) və oranı müvəffəqiyyətlə bitirmişdir. 1913-cü ildə Zaqafqaziya şeyxülislamı Pişnamazzadənin imzası ilə ona müəllimlik şəhadətnaməsi verilib. Həmin ildə Şəmkir, Gədəbəy, Zaqatala və Gəncədə fasilələrlə dərs demişdir. Birinci Dünya müharibəsi başlayanda müharibəyə getmiş, dörd il cəbhədə müxbir, xeyriyyə cəmiyyətinin üzvü, katibi, müəyyən müddət də sədr müavini kimi fəaliyyət göstərmişdir. O, Şimali Qafqazda, Dağıstanda, Batumda, Qarsda, Ərdəhanda, Gürcüstan və Türkiyədə olmuşdur. Ən çox türk xalqları yaşayan bölgələrə gedərək onlara maddi və mənəvi yardım göstərmişdir.

Müharibədən sonrakı illərdə müəllim işləməklə bərabər, həm yaradıcılıqla məşğul olmuş, həm Azərbaycan Demokratik Cumhuriyyətinin qurulmasında yaxından iştirak etmiş, eyni zamanda onun fəal üzvlərindən olmuşdur. Əhməd Cavad 1920-ci ildə Quba qəzasının Xuluq kəndinə məktəbə müəllim təyin olunur. 1922-ci ilin yayına kimi burada türk və rus dillərini tədris etmişdir.

O, 1922-ci ildə ali məktəbə daxil olmaq məqsədi ilə Bakıya gəlir. Elə həmin ildə də Azərbaycan Ali Pedaqoji İnstitutuna daxil olub, 1926-cı ildə oranı müvəffəqiyyətlə bitirir. Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışır.

Açar sözlər: Əhməd Cavad, istiqlaliyyət, şeir, müəllim, azadlıq.

Məlum olduğu kimi, ədib həyatının 29 ilini müəllimlik kimi müqəddəs peşəyə bağlamışdır. İbtidai sinif müəllimliyindən ali məktəbin kafedra müdirliyinə qədər çətin bir peşə yolu keçmişdir. Azərbaycan Demokratik Respublikası dövründə "Azərbaycan dilinin sərfi və nəhvi" adlı ilk dərsliyin müəllifi olmuşdur. O, rus dili üzrə professor rütbəsi alan ilk azərbaycanlı alim idi, səkkiz-on dildə sərbəst oxumağı, danışmağı və yazmağı bacarırdı. Gəncə mədrəsəsində H.Cavid kimi filosof-şairdən, Abdulla Sur kimi tənqidçi-ədəbiyyatşünasdan dərs alan Əhməd Cavad öz təxəllüsünü türkiyəli şair Əhməd Cavadın adından götürmüşdür. Beləliklə, eyni tarixi dövrdə türk dünyasında iki Əhməd Cavad yazıb-yaradırdı.

Əhməd Cavad Azərbaycan Xeyriyyə Cəmiyyətinin məsul katibi və ən fəal üzvlərindən biri idi. Hacı Zeynalabdin Tağıyevin köməyi ilə Seyfəlidə məktəb və uşaq bağçaları açılması, Könüllü kəndində məktəblərin tikilməsi Ə.Cavadın adı ilə bağlıdır. Təsadüfi deyil ki, M.Müşfiq Könüllü kəndinə şeir qoşmuş, oranı "Cavadkənd" kimi təsvir etmişdir.

Ə.Cavad "Yaşıl qələmlər" adlı cəmiyyətin yaradıcısı və katibi, Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin üzvü idi. ADR-ın milli marşlarının əksəriyyətini ədib yazmışdı. Bu gün Dünyada səslənən himnimizin mətnini də o qələmə almışdır. Lakin Əhməd Cavadı şagirdlərə təkcə şair kimi tanıtmaq düzgün olmazdı. O, konkret faktlara istinad edilməklə istedadlı şair, publisist, tərcüməçi idi. Əhməd Cavad seminariyada ərəb, fars, rus dillərini olduqca mükəmməl öyrənir. 1912-ci ildə təhsilini bitirərək müəllimlik şəhadətnaməsi alan ədib əmək fəaliyyətinə başlayır. Yaradıcılığa lirik şeirlərlə qədəm qoyan gənc qələm sahibinin əsərləri 1913-cü ildən çap olunmağa başlayır. "Qoşma" adlı ilk şeirlər kitabı isə üç il sonra, 1916-cı ildə oxucularının ixtiyarına verilir.

Bunlar işığa can atan, fəqət taleyi qaranlıqdan keçən Əhməd Cavadın həyatının başlanğıcıdır. O, yüksək istedada malik, vətənini, xalqını bütün qəlbi ilə sevən əsil türk oğlu idi. Belə ki, əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət onu ciddi narahat edir. Şair və pedaqoq Abdulla Şaiqlə birlikdə könüllü əsgər kimi İstanbulda qurulan "Qafqaz könüllü hissəsi" sıralarına qatılır. 1914-cü ildə başlanan Birinci Cahan savaşının gedişində Türkiyənin şərq cəbhəsindəki döyüşləri Sarıqamış uğursuzluğu ilə nəticələnir. Ölkənin amansız rus ordusunun işğalı altında olan Qars və Ərzurum əhalisi rus və erməni dəstələri tərəfindən qırğına məruz qalır. Bakıda yerləşən "Azərbaycan xeyriyyə cəmiyyəti" Türkiyənin şərq vilayətlərindəki əhaliyə yardım edir. Bu işdə Əhməd Cavad da çox yaxından iştirak edir, Bakı ilə Qars arasında rusların törətdikləri maneələrə baxmayaraq gedib-gəlir, yardım işlərində usanmadan çalışır. Qardaş xalqın ağır günündə Qarsda qarşılaşdığı ürək parçalayan mənzərəni bədii şəkildə "Nə gördümsə" əsərində dilə gətirir:

Ərməğanım yaslı nəğmə,
Bir quş oldum, çıxdım yola.
Getdim, gördüm dost elində
Nə bir səs var, nə bir layla.

Əhməd Cavad bu tarixi şeiri 1915-ci il martın 22-də qələmə almışdır. Çünki 1914-cü ildə Osmanlı dövlətinin müharibədə iştirak etməsindən həyəcanlanan Əhməd Cavad "Qara dəniz" şeirini yazıb və böyük arzularını dilə gətirir. "Qara dəniz" şeirinin son bəndi bu misralarla bitir:

Dost elindən əsən yellər
Mənə şeir... salam söylər.
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına.

Əhməd Cavadın "Çırpınırdın, Qara dəniz" şeirinin sözlərinə yazılmış mahnı (musiqisi Üzeyir Hacıbəylinindir) bütün türk dünyasının azadlıq və mübarizə himninin inikasıdır Birinci Dünya müharibəsinin axırlarında Qafqaz cəbhəsində türk ordusu müvəffəqiyyət qazanır. 1918-ci ildə türk ordusu qardaş Azərbaycanın azadlığının köməyinə gəlir. Azərbaycan və türk birlikləri Bakını erməni-rus işğalından azad edir. Əhməd Cavad azərbaycanlı və türk əsgər yoldaşları ilə Bakının Yasamal dağındakı səngərlərdə düşmənlə vuruşur. Bu döyüş meydanında Əhməd Cavadın yazdığı "Bismillah" şeiri milli həyəcana malik olan dərin ruhlu əsərlərindən biridir:

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, Bismillah.
O Xan sarayında çiçəkli bir qız,
Bəkliyor bizləri zəfər, Bismillah.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını milli tariximizin ən parlaq səhifəsi kimi sevinclə qarşılayan Əhməd Cavad 1919-cu ildə müstəqil dövlətimizin himnini - "Azərbaycan marşı"nı yazır. Şairin Azərbaycan bayrağına ithaf etdiyi şeir də onun üçrəngli, ay-ulduzlu bayrağımıza böyük sevgisinin bədii ifadəsidir:

Türküstan elləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın sana, bayrağım!..

Azərbaycan milli-azadlıq mücadiləsinin öndəri və Şərqdə qurulan ilk demokratik cümhuriyyətin banilərindən biri Məhəmməd Əmin Rəsulzadə yazırdı: "O, şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı istiqlal mübarizəsinə bir ordudan daha çox xidmət göstərdi. Onun qələmi minlərlə süngüyə bərabər idi".

1919-cu ildə Əhməd Cavadın "Dalğa" adlı şeir kitabı nəşr olunur. (7.42).

Ə.Cavadın sovet rejimi dövründə yazdığı lirik şeirlərindən biri olan “Göy göl” ən çox müzakirələrə və tənqidi fikirlərə səbəb olan əsərlərindən biri olmuşdur. Səkkiz bənddən ibarət olan şeir 1925-ci ildə nəşr olunmuşdur. Məşhur “Göy göl” şeirinə bir qrup həmkarı tərəfindən əksinqilabı əsər möhürü qoyulur və buna görə də şair həbsxanaya salınır. Əhməd Cavad “Göy göl” əsərinə görə ömrünün 5-6 ayını həbsxanada keçirir. Buna səbəb isə aşağıdakı misralar hesab edilir:

Sənin gözəlliyin gəlməz ki, saya,
Qoynunda yer vardır yıldıza, aya.
Oldun sən onlara mehriban daya,
Fələk busatını qıralı Göy göl (1, 329).

Şairi bu şeirdə ulduzdan, aydan danışıb müsavatçılara ismarış göndərməkdə ittiham edib tərcümə variantını Moskvaya göndərirlər. “Göy göl” şeirilə tanış olan Moskvadakı mütəxəssislər onun yüksək səviyyədə yazılmış bir əsər olduğunu bildirirlər. Beləliklə, şeirdə heç bir siyasi səhv tutulmadığından şairi həbsdən azad etmək məcburiyyətində qalırlar.

Bu əsərdə Azərbaycan əsrarəngiz gözəlliyi Göy gölün timsalında öz əksini tapmışdır. Bunula yanaşı, şairin təbiətlə bağlı lirik əsərlərinin bünövrəsində xalqın tarixi və taleyi durur. Bu tip əsərlərində təbiətin tərənnümü ikinci plana keçir və əsas yerdə Azərbaycanda baş verən ictimai-siyasi proseslər dayanır. “Göy göl” şeirinə görə həbs olunan ədib həbsxanandan çıxdıqdan sonra “Ey Göy gölüm” adlı bir əsər də yazır. Həmin bu əsərdə də şair həbs olunduğundan peşmançılıq hissi keçirçədiyini dilə gətirir.

1920-ci ildə cümhuriyyətin süqutundan sonra şair Qusarın Xuluq kəndinə köçərək müəllimlik edir. Əhməd Cavad 1922-ci ildə Bakıda Pedaqoji Ali Məktəbə daxil olur. "Maarif və mədəniyyət" jurnalında işləyə-işləyə Ali Pedaqoji İnstitutu bitirən Əhməd Cavadın sonrakı pedaqoji fəaliyyəti ali məktəblərlə bağlı olub. Bir müddət Azərbaycan Politexnik İnstitutunda, Kənd Təsərrüfatı İnstitutunda (Gəncə) dərs deyib, rus dili üzrə Azərbaycanın ilk professorlarından biri olub. Əhməd Cavadın məşhur "İstiqlal uğrunda şeirlər" kitabı 1928-ci ildə İstanbulda işıq üzü görür və bununla da həmin dövrdə mətbuatda Əhməd Cavadın əleyhinə hücumlar başlayır. 1935-ci ildə Gəncədən Bakıya qayıdan Əhməd Cavad "Azərnəşr"də fəaliyyətini davam etdirir. Ona qarşı hücumlar burada da səngimək bilmir. Xüsusilə də Yazıçılar İttifaqının plenumlarında şairi kəskin tənqid edirlər. Əhməd Cavad bütün bu zərbələrə mərdliklə dözür, əleyhdarlarının adi ədəbi faktlara kəskin siyasi don geydirmələrinə təmkin göstərirdi. Hücumlar isə öz nəticəsini verir.

1937-ci il. Azərbaycanda çətin günlər başlayır. Mətbuat səhifələrində Əhməd Cavada qarşı mənhus iftira kampaniyası gedərək genişlənir. 1937-ci ilin 3 iyununda Əhməd Cavadı Yazıçılar İttifaqının üzvlüyündən çıxarırlar. Beş gün sonra isə həbs edirlər. Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan çox qüdrətli bir insana "xalq düşməni" damğası vurulur. Şairin evində aparılan axtarış zamanı mənzilindən əmlakını, hətta həyat yoldaşı Şükriyyə xanımın daş-qaşını, bəzək əşyalarını da müsadirə edirlər.

Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən Əhməd Cavad 1937-ci il oktyabrın 13-də güllələnir. Şairin sağ qalan ailə üzvlərinin taleyi isə daha ağır və faciəli olur. Şükriyyə xanım həyat yoldaşının ölümündən sonra "vətən xaininin arvadı" kimi uşaqları ilə birlikdə həbs edilir. Yeddi ildən sonra sürgündən

azad edilsə də, ona Bakıda yaşamaq qadağan olunur. Yalnız 1955-ci ilin dekabrında ailə bəraət alır.

Tarix insan səhvlərini düzəldir. 1958-ci ildə Əhməd Cavadın "Şeirlər", 1961-ci ildə "Sən ağlama, mən ağlaram" kitabları çap olunur. Şairliklə yanaşı, həm də istedadlı tərcüməçi olan Əhməd Cavadın dilimizə çevirdiyi əsərlər - 1961-ci ildə Fransua Rablenin "Qarqantua və Pantaqruel", 1962-ci ildə Vilyam Şekspirin "Otello", "Romeo və Cülyetta", 1978-ci ildə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərləri işıq üzü görür. Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan, bu yolda "xalq düşməni" damğası ilə güllələnən Əhməd Cavad, zaman gəldi ki, xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutdu. Azərbaycan var olduqca bu yer onun olacaq! Jurnalist, xeyriyyəçi, cəbhəçi-döyüşçü, politoloq, Azərbaycan Demokratik Cumhuriyyətinin baş ideoloqlarından biri kimi tanıdılmalıdır.1920-ci ilin aprel hadisələrindən sonra Ə.Cavadın hüquqları daim pozulmuş, orijinal yaradıcılığının inkişafına imkan verilməmişdir. 1923-cü ildə Musavat Partiyasının liderlərindən Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçırılmasında Cavadı günahlandırıb həbs edirlər. Xuluq kəndində işlərkən dostluq etdiyi müəllim yoldaşı H.Musayev M.C.Bağırovun yanına gəlir və şairin azad olunmasını xahiş edir. Bağırov onu eşidir. Ə.Cavad ikinci dəfə haqqında danışacağımız "Göygöl" şeirinə görə həbs edilir. Bu şeiri oxuyan o zamankı rəhbərlərdən S.Ağamalıoğlu demişdi: "Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir. "Göygöl" doğrudan doğruya Azərbaycan ədəbiyyatının incisidir". Lakin şairin bədxahlarından üç nəfər bildirir ki, şeir antisovet ruhludur. Dərhal Ə.Cavadın həbs olunması əmri verilir. Beş-altı ay çəkən sorğu-sualdan sonra "Göygöl"ə heç bir siyasi rəng verə bilmirlər və şairi həbsdən buraxırlar. Ə.Cavad 1920-1937-ci illərdə dəfələrlə həbs edilmiş, təqiblərə məruz qalmışdır. (5. 29).

Nəhayət, 1937-ci il martın 21-də şairi Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən azad edirlər. Həmin il iyun ayının 4-də onu H.Cavid, M.Müşfiq və V.Xuluflu ilə eyni vaxtda həbsə alırlar. Oktyabrın 12-dən 13-ə keçən gecə 15 dəqiqəlik məhkəmənin qərarı ilə ona güllələnmə kəsilir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild. Bakı: Lider nəşriyyatı, 2004, s.329.
2. Cavad Ə. Sən olasan Gülüstan. Seçilmiş əsərləri. Bakı: Təhsil, 2012. 192 s.
3. Haqq bağıran səs. Tərtib və ön söz A.Əliyeva. Bakı: Nicat, 1991, 31 s.
4. Məmmədli A. Əhməd Cavad və Türkiyə. Bakı – 2010 – Elm və Təhsil, 160 s.
5. Nəbiyev B. Əhməd Cavad. Bakı: Ozan nəşriyyatı, 2004, səh. 29.
6. Rzayeva M. Əhməd Cavadın haqqını tanıyan Türkiyə oldu. Bakı - Şərq – 2006,28 fevral – s.6.

7. Salmanlı R. Əhməd Cavadın yaradıclıq yolu// Bakı –Ozan, 2011, 216 s.

Elmeddin Quliyev

THE GREAT PROPHET OF INDEPENDENCE AHMED CAVAD

Summary

Our great independence poet A. Javad was born on May 5, 1892 in a religious family in Seifali village, Shamkir District, Ganja District, in a religious family. there were always pleasant conversations about him in the family; his bravery, bravery, and his heroic death in the path of the people were remembered again and again. As a manifestation of this respect and esteem, Akhund Mammadali named the future poet Javad when he was born. His father died before Javad was five years old. He grew up under the protection of his wife. He received his primary education at the mullah school and studied there for three years. He received his further education at the Muslim Spiritual Seminary in Ganja (1906-1912) and successfully graduated from it. In that year, he taught intermittently in Shamkir, Gadabey, Zagatala and Ganja. When the First World War began, he went to the war, and for four years he worked as a correspondent at the front, a member of a charity society, as a secretary, and for a certain period of time as a deputy chairman. He worked in the North Caucasus, Dagestan, Batum, He was in Kars, Ardahan, Georgia and Turkey. He went to the regions where the majority of Turkic people lived and provided them with material and moral assistance. In the years after the war, he was also engaged in creativity while working as a teacher and closely participated in the establishment of the Azerbaijan Democratic Republic, at the same time he was one of its active members. In 1920, Ahmad Javad was appointed a school teacher in the village of Khulug, Guba district. He taught Turkish and Russian languages there until the summer of 1922. He came to Baku in 1922 with the aim of entering higher education. He entered the Higher Pedagogical Institute and successfully graduated from it in 1926. He works as a teacher, docent, professor and head of the department at the Narimanov Technical College, Cotton Planting Institute (now Azerbaijan State Agrarian University).

Key words: Ahmad Javad, independence, poetry, teacher, freedom.

ЭЛЬМУДДИН КУЛИЕВ

АХМЕД ДЖАВАД – ВЕЛИКИЙ ВЕСТНИК НЕЗАВИСИМОСТИ

Наш великий поэт - независимец А.Джавад родился 5 мая 1892 года в Мехралийском районе села Сейфали Шамкирского района Гянджинского района. Его отец был одним из известных ахундов периода Мамедали. Джавадхан, известный как один из выдающихся исторических деятелей

Азербайджана, был близок к отцу Ахунда Мамедали, и в семье о нем всегда велись приятные разговоры; его отвага, отвага, героически погибший на пути народа, вспоминались неоднократно. В знак этого уважения и почтения Ахунд Мамедали при рождении назвал будущего поэта Джавадом. Его отец умер, прежде чем Джаваду исполнилось пять лет. Он вырос под опекой своей матери Доброй Леди. Начальное образование он получил в школе муллы и проучился там три года. Дальнейшее образование он получил в Мусульманской духовной семинарии в Гяндже (1906-1912) и успешно окончил ее. В 1913 году ему было вручено педагогическое удостоверение за подписью Пишнамаззаде, шейхулислама Закавказья. В том же году он с перерывами преподавал в Шамкире, Гедабеке, Загатале и Гяндже. Когда началась Первая мировая война, он ушел на войну, четыре года работал на фронте корреспондентом, членом благотворительного общества, секретарем, некоторое время работал заместителем председателя. Он посетил Северный Кавказ, Дагестан, Батум, Карс, Ардахан, Грузию и Турцию. Он выезжал в регионы, населенные тюркскими народами, и оказывал им материальную и моральную помощь. В послевоенные годы, наряду с работой учителем, он занимался и творчеством, принимал активное участие в создании Азербайджанской Демократической Республики и одновременно был одним из ее активных членов. В 1920 году Ахмет Джавад был назначен школьным учителем села Хулуг Губинского района. Он преподавал здесь турецкий и русский языки до лета 1922 года. Он приехал в Баку в 1922 году с целью поступить в высшую школу. В том же году он поступил в Азербайджанский Высший педагогический институт, который успешно окончил в 1926 году. Работает преподавателем, доцентом, профессором и заведующим кафедрой Наримановского технического колледжа Института хлопководства (ныне Азербайджанский государственный аграрный университет).

Ключевые слова: Ахмад Джавад, независимость, поэзия, учитель, свобода.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru
Samirə Ağababa qızı Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

TAĞIYEVA AYDAN FAZİL QIZI
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
Quba şəhəri, Fətəlixan küç. №5
tagiyeva10022005@gmail.com

SƏMƏD VURĞUN YARADICILĞINDA METAFOR

Elə sənətkarlar olur ki, bir zaman almaz kimi parlamış əsərləri zaman keçdikcə əvvəlki parlaqlığını itirir, zaman onların üstünü öz tozu ilə örtür. Lakin bəzi şairlər də vardır ki, əsrlər keçsə belə, həmişəyaşar olaraq xalqın qəlbinə qızıl hərflərlə həkk olunur. Belə dahi şairlərdən biri də Səməd Vurğundur. Özünün də dediyi kimi:

Məni yelkən kimi qərq etsə də dəryada zaman,
Vurğun öldü deməyin, bir əbədi sənəti var...(4; s.233)

Dahilər haqqında ürək sözü söyləmək həm çətin, həm də məsuliyyətlidir. Xüsusən biləndə ki, deyəcəyin söz bir böyük insan, istedadlı bir şair haqqındadır, həyəcanın daha da artır. Belə sənət, söz-saz ustadlarından biri də, həqiqətən, xalqın şairi Səməd Vurğundur.

Azərbaycan xalqının milli-ictimai düşüncə, əxlaq və mənəviyyat, bədii təfəkkür ənənəsi, XX yüzilliyin ortalarında öz təkrarsız əksini Səməd Vurğun poeziyasında tapır. Çünki Vurğun ilhamının poetik məcrası, onun sənətkar marağının bədii əhatə dairəsi ən geniş fəlsəfi miqyasları, coğrafi üfüqləri birləşdirir.

Onun ürəkdən gələn lirik şeirləri, yüksək pafoslu qəhrəmanlıq poemaları, dram əsərləri sovet ədəbiyyatı xəzinəsinə möhkəm daxil olmuş və Azərbaycan hüdudlarından çox-çox uzaqlarda böyük şöhrət qazanmışdır. O, yorulmaz mübariz, gələcəyə nəzər salan arzular şairi idi. Dünyada az sənətkar tapılar ki, yaşadığı zamanda klassikləşsin, əsərləri ümumxalq kütlələrinin mənəvi sərvətinə çevrilsin. Azərbaycan xalq şairi S.Vurğuna belə xoşbəxtlik nəsib olmuşdur.

Həmişəyaşar şair S.Vurğun xalqın oxuyan qəlbi idi. O, Azərbaycanı, onun keçmişini, bu gününü, sabahını tərənnüm edirdi. O, yeni dünyanın müğənnisi idi. Onu da qeyd edək ki, xalq şairi adını daşımaq ilk dəfə Səməd Vurğuna həvalə olunmuşdur.

Səməd Yusif oğlu Vəkilov 21 mart 1906-cı ildə Qazax rayonu Yuxarı Salahlı kəndində bəy nəslinə mənsub ailədə anadan olmuşdur.

1956-cı ilin martında Səməd Vurğunun 50 yaşı tamam olur. Şairin yubileyinin keçirilməsinə hazırlıqlar çərçivəsində Azərbaycan SSR rəhbərliyi tərəfindən

"Azərbaycanın xalq şairi" adı təsis edilir və ilk dəfə bu ada Səməd Vurğun layiq görülür.

Ümumilli lider Heydər Əliyev dahi şair haqqında demişdir: “Səməd Vurğun öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri olubdur. Biz bu günümüzə görə - xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik...Biz Səməd Vurğunla fəxr edirik.”

Poeziya get-gedə şairin bütün varlığına hakim kəsilir. Gənc şair öz xalqını, vətənini, doğma torpağının əsrarəngiz təbiətini sevdiyi üçün özünə “Vurğun” təxəllüsünü götürür. Digər bir versiyaya görə isə sevdiyi qıza ünvanladığı şeirləri “Vurğun” təxəllüsü ilə imzalamış və beləcə də davam etmiş, tanınmışdır.

Səməd Vurğun öz əsərlərində istər dövrünün həyat həqiqətlərini, istərsə də, gələcəklə bağlı düşüncələrini obrazlı şəkildə, daha təsirli formada xalqa çatdırmışdır. Yaradıcılığına nəzər salsaq, istər poemalarında, istərsə də, şeirlərində bədii təsvir və ifadə vasitələrindən, pafoslu sözlərdən geniş şəkildə istifadə olunduğunun şahidi olarıq.

Bədii təsvir vasitəsi olan metafor bir əşya, varlıq və hadisəyə məxsus əlamətin hadisə üzərinə köçürülməsi yolu ilə düzəlir.

Metaforu təşbehlə (bənzətmə ilə) qarışdırmaq olmaz. Hər ikisi müqayisə, bənzətmə əsasında düzəldiyi üçün bəzən onları fərqləndirmək çətindir. Yadda saxlamaq lazımdır ki, təşbehdən fərqli olaraq metaforada qarışdırılan tərəflərdən biri iştirak etmir. Cümlədəki şəxs sadəcə bir fikirlə ifadə olunur.

“Metafora ədəbiyyat nəzəriyyəsində istiarə də deyilir. Bədii yaradıcılıqda yüksək sənətkarlıq nümunəsi sayılan məşhur və qüvvətli məcazlardan biri də metafordur. Metaforda da bənzətmədə olduğu kimi, məfhumlar müqayisə olunur. Lakin burada müqayisə olunan məfhumların bənzər cəhətləri daha güclü və qabarıq verilir, məfhumun özündən çox ona xas olan xüsusiyyətlər ön plana çəkilir.” (1; s.217)

Güldü hər gül, hər çiçək,
Sular daşıb səsləndi,
Dağların da kəməndi
Qollarını gərərək,
Xoş sifət göstərərək,
İnsana "gəl" deyirdi...(“Macəra”)

“Macəra” poemasındakı bu hissədə şair çiçəklərin gülərək, suların səslənərək və dağların qollarını gərərək insanlara “gəl” deməsini metafordan istifadə edərək obrazlı şəkildə oxucuya çatdırmışdır.

Səməd Vurğun yaradıcılığında metafor bir bədii təsvir vasitəsi kimi geniş istifadə olunmuşdur. Poemalarında istifadə etdiyi metaforlara nəzər salsaq, onun Abbas Hacıyevin dediyi kimi metafor ustadı olduğunun şahidi olarıq:

Bulud oynadı, gecə qaraldı...

Qışın səhərində bu qarlar düzü
Günəşdən qızınıb xumarlanırdı. (“Komsomol”)

“Komsomol” poemasında olan bu nümunədə buludların oynaması və qarlar düzünün xumarlanması metafora nümunəsidir.

Həmçinin Səmıd Vurğun ədəbiyyatımıza bir sıra yenilikləri də gətirmişdir. “Komsomol” poemasından olan başqa bir nümunəyə baxaq:

Bəzən də göyləri gəzən solğu ay
Yarıb buludları hücuma çıxar... (“Komsomol”)

İstər şifahi xalq ədəbiyyatı nümunələrimizdə, istərsə də yazılı ədəbiyyat nümunələrimizdə hər zaman ay və günəş qarşı-qarşıya qoyulmuşdur, lakin ilk dəfə Səməd Vurğun ay və buludu qarşılaşdırmışdır.

Qurban bayramıydı, gülürdü dağlar,
Xəyalım dolandı bütün dünyanı...
Bəzən xəyalımda gəzir buludlar (“Acı xatirələr”)

“Acı xatirələr” poemasında verilən bu nümunədə dağların gülməsi, xəyalın dünyanı dolanması, buludların gəzməsi metafor nümunələridir.

“...Metafor qüvvətli təsvir, fikri obrazlı açmaq, məntiqi gücləndirmək vasitəsidir, nitqin incəliyi, zərifliyi və yığcamlığıdır. Müqayisə, oxşarlıq, bənzəyişin daxili əlamət və keyfiyyət assosiasiyası onun yaranmasında əsas şərtdir. İfadələri bir-birinə nə isə xüsusi bir tərzdə qataraq istifadə etmək lazımdır ki, metafor nitqin təravət və ucalığını aşağı endirib yıpranmış hala salmasın, ümumən sözlər isə nitqə aydınlıq gətisin.” (5; s.67)

Səhər günəş, nazlı günəş saçlarını yayanda...

Ruha gülür bu qayanın mənzərəsi uzaqdan,
O dinləyir şərqisini min günahsız dodaqdan. (“Aslan qayası”)

Digər poemalarında olduğu kimi “Aslan qayası” poemasında da şair bir sıra metaforlardan istifadə etmişdir. Burada günəşin saçlarını yayması, mənzərənin gülməsi və s. maraqlı metafor nümunələridir.

“Metafor obrazlı təfəkürün məhsuludur. Onun əmələ gəlməsi dialektik xarakter daşıyır və varlığın obrazlı dərk edilməsi zamanı hissi duyğular meydana çıxır. Obrazlı təfəkkürün sahibi olan yazıçı bəzə elə obyektlər arasında əlaqələrin olduğunu duyur və dərk edir ki, bu adi təfəkkür üçün mümkün deyil. Həmin obyektlər əksərən mücərrəd və konkret anlayış bildirən əşya və hadisələrin adıdır. Yazıçı mürəkkəb fəlsəfi ümumiləşdirmələrəsasında həmin əşyaları bir-biri ilə bağlayır və əlaqələndirir. Bunun nəticəsində obrazlı və təsirli lövhələr yarada bilir.” (3; s.39)

Görkəmli türk şairi Nazim Hikmət Səməd Vurğun haqda belə bir fikir səsləndirmişdir: “Səməd Vurğun poeziyamızın planetidir. Bu planetin günəşi, ulduzları sönməzdir. Səməd Vurğun - qardaş dillərimizin böyük xalq şairi, dillərimiz yaşadıqca əbədi yaşayacaqdır.”

Təbiətin bütün ömür boyu şeir demək istedadı qismət etdiyi Səməd Vurğunun poetik nəfəsi o dərəcədə nəhayətsizdir ki, hər əsəri qurtaranda onun bitdiyinə inanmaq olmur. Çünki bu əsərlərdən hər birinin qurtardığı yerdə poetik nəfəs daha çox açılır, təb və genişlik hüdud bilmir, sərhəd tanımır. Sözün həqiqətini almaq üçün min cürdən birini yazdığındandır ki, Vurğunun bitib-tükənməz ilhamdan yaranan sözləri bu qədər işıqlıdır.

Şairin təkcə poemalarında deyil, bir neçə bəndlik şeirlərində də bədii zənginlik vardır. "Azərbaycan", "Xəyal", "Ala gözlər", "Yada sal məni", "Şair, nə tez qocaldın sən?", "Şairin səsi" və s. şeirlərində metafor kimi bir sıra bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir

...Nə xoşdur ellərin şirin avazı
Güldü ölkəmizin çiçəkli yazı... ("Aşıq qardaşıma")

Verilən nümunələrdən və digər əsərlərindəndən də Səməd Vurğunun sözün həqiqi mənasında saz-söz ustadı olduğunun şahidi oluruq.

Xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın bizə yaxın ən böyük körpüsü sayılan ölməz sənətkar, əsasən, heca vəznində yazdığı şeirləri və dram əsərləri ilə dilimizin bütün zənginliyindən və şirinliyindən bəhrələnərək dillər əzbəri olan poeziya örnəkləri yaratmışdır.

Şair əsərlərində həm məzmun, həm də forma baxımdan özündən əvvəlki qəlibdən çıxmağı bacarmışdır, elə bu səbəbdəndir ki, müasir oxucu Səməd Vurğunun əsərlərini sevə-sevə oxuyur.Söz-saz vurğunu, xalq şairi Səməd Vurğun elə istedadlı yazıçılardan idi ki, obrazlı təfəkkürü, geniş dünyagörüşü sayəsində yaratdığı metaforlar özündən sonrakı sənətkarlar üçün bir məktəb olmuşdur.

Ədəbiyyat siyahısı:

1)Abbas Hacıyev "Ədəbiyyatşünaslığın əsasları", Bakı-2010
2)Bədirxan Əhmədov "Azərbaycan ədəbiyyatı tarix", Bakı-2010
3)Rahim Əliyev "Ədəbiyyat nəzəriyyəsi", Bakı-2008
4)Səməd Vurğun Seçilmiş əsərləri beş cilddə, Bakı-2005
5)Vüqar Əhməd "Ədəbiyyatşünaslıq", Bakı-2007

Aydan Tağıyeva

Səməd Vurğun yaradıcılığında metafor

Xülasə

Dədə Qorquddan gəlib Füzulidən, Nizamidən, Nəsimidən keçən yolun boyük bir zirvəsi xalq şairi Səməd Vurğundur. O, elə xoşbəxt sənətkardır ki, ömrü yaratdığı şeir, həyatı danışdığı dil qədər ölməzdir. Səməd Vurğun Vətənin, poeziyanın yaddaşında təkrarsız poetik şəxsiyyət, milli və beynəlmiləl ictimai xadim, elm və

sənət təşkilatçısı, qeyri-adi şair, dramaturq, mütərcim və mütəfəkkir kimi yaşayır. Şairin yaradıcılığında bədii təsvir və ifadə vasitələrindən bənzərsiz formada istifadə olunmuşdur.

Əsərlərini bəzəyən təşbehlər, metaforlar, epitetlər, təkrirlər həm müasirlərinin, həm də ondan sonrakı sənətkarların yaradıcılığında geniş şəkildə işlədilmişdir. Onun yaradıcılığına nəzər salsaq, istər bir neçə bəndlik şeirlərində, istərsə də, onlarla səhifəlik poemalarında metafordan əsl söz ustadı kimi istifadə etdiyinin şahidi olarıq.

Açar sözlər: Səməd Vurğun, metafor, poema

Aydan Taghiyeva

Metaphor in the work of Samad Vurgun

Summary

People's poet Samad Vurgun is a great peak of the road that came from Dada Gorgud and passed through Fuzuli, Nizami, and Nasimi. He is one of those lucky artists whose life is as immortal as the poetry he creates and the language he speaks. Samad Vurgun lives in the memory of the Motherland and poetry as a unique poetic personality, national and international public figure, organizer of science and art, extraordinary poet, dramatist, translator and thinker.

In the work of the poet, the means of artistic description and expression were used in a unique way. The allusions, metaphors, epithets, repetitions that decorate his works were widely used in the creativity of both his contemporaries and later artists. If we take a look at his work, we will witness that he uses metaphor as a real master of words, either in his poems of a few paragraphs or in his poems of dozens of pages.

Keywords: Samad Vurgun, metaphor, poem

Айдаи Тагиева

Метафора в творчестве Самед Вургун

Резюме:

Народный поэт Самед Вургун – великая вершина пути, который шел из Дада-Горгуда и проходил через Физули, Низами и Насими. Он настолько счастливый художник, что его жизнь бессмертна, как поэзия, а его жизнь — как язык, на котором он говорит. Самед Вургун живет в памяти Родины и поэзии как уникальная поэтическая личность, национальный и международный общественный деятель, организатор науки и искусства, выдающийся поэт, драматург, переводчик и мыслитель.

В творчестве поэта своеобразно использованы средства художественного описания и выразительности. Аллюзии, метафоры, эпитеты, повторы, украшающие его произведения, широко использовались в творчестве как его

современников, так и более поздних художников. Если мы посмотрим на его творчество, то увидим, что он использует метафору как настоящий мастер слова, как в своих стихотворениях в несколько строк, так и в своих стихотворениях на десятки страниц.

Ключевые слова: Самед Вургун, метафора, стихотворение.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Bayramova Kəmalə Oqtay qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

UOT 297
GÜNEL QULIYEVA
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun dissertantı,
gunelramizqizi90@gmail.com

ŞAMAXI ƏDƏBİ MÜHİTİNİN YETİŞDİRDİYİ DAHİ ŞƏXSİYYƏTLƏR

XÜLASƏ

Şamaxın torpağı zəngin ədəbiyyata və mədəniyyətə malik olan bir regiondur. Tarixlər boyu nəzər salsaq görərik ki, Şirvan torpağı özünün mədəniyyəti, saz və söz sənəti ilə seçilib. Ərazi baxımından Şirvan şəhəri o qədər böyük olmasa da, ədəbiyyatımıza bəxş etdiyi dühalarla görə daima ön sıralarda olmuşdur. Şamaxı ədəbi mühiti Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafında xüsusi rol oynamışdır. Bu isə Şamaxının bir şəhər kimi formalaşması, min ildən yuxarı qədim Şirvanşahlar dövlətinin paytaxt şəhər olması, bir sıra xarici ölkələrlə ticarət və mədəniyyət əlaqəsi qurması ilə əlaqədardır. Şamaxı ədəbi mühitinin inkişafı ədəbiyyyatımız üçün böyük töhfələr bəxş etmişdir. Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev Şamaxıya, onun tarixinə, ədəbiyyatına daima xüsusi diqqət ayırmış, çıxışlarında vurğulamışdır ki: "Şamaxı Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzlərindəndir." Şamaxı Azərbaycanın bir çox şair və yazıçılarının doğma yurdu olmuşdur. Aparılan tədqiqatlar göstərir ki, "Şirvani" təxəllüsü ilə bir çox alim, şair, səyyah və müxtəlif peşə sahibləri Azərbaycan elmini, ədəbiyyatını və mədəniyyətini zənginləşdirməklə məşğul olmuşdur.

AÇAR SÖZLƏR: Şamaxı, ədəbi mühit, Seyid Əzim Şirvani, ədəbiyyat, lirika

Şamaxı ədəbi mühiti zəngin söz sənətinə, mədəniyyətə malik bir regiondur. Şamaxı torpağı hər zaman öz dühaları ilə ədəbiyyatımıza, mədəniyyətimizə böyük töhfələr vermişlər. Bu gün ədəbiyyatımızın yüksəliş mərhələsində məhz bu şəxsiyyətlərin yeri danılmazdır.

Şamaxı ədəbi mühitinin inkişafında dahi ədibimiz Xaqani Şirvaninin müstəsna xidmətləri olmuşdur. Dünya şöhrətli Azərbaycan mütəfəkkiri Xaqani Şirvani 1126-cı ildə Azərbaycanın dilbər güşələrindən biri olan Şamaxı şəhərində dünyaya göz açmışdır. Şairin əsl adı İbrahimdir. Xaqani onun təxəllüsü, Şirvani isə onun mənsub olduğu yerin adıdır.

Xaqani Şirvaninin ədəbi irsi çox geniş və zəngindir. Şairin bədii irsi 17000 beytlik "Divan"dan, "Mədain xərabələri" qəsidəsi kimi lirik əsərdən, "Töhfətül-İraqeyn" poemasından və bədii nəsr nümunələri kimi epik əsərlərdən ibarətdir.

Xəqani Şirvaninin qələmə aldığı "Töhfətül-İraqeyn" poeması ədəbiyyatımızda ilk məsnəvi hesab edilir.

Xaqani Şirvanivətənpərvər şair idi. O, şeirlərində Şirvanı bərəkət ölkəsi, şairlər ocağı kimi tərənnüm etmişdir. Xaqani Şirvani eyni zamanda mahir bir nasir olmuşdur:

Şamaxı! Ey mənim sevimli yurdum!
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana!...
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz. [9]

Xəqani Şirvani əsərlərini fars və ərəb dillərində yazsa da, Azərbaycan məktəbinin inkişafında xüsusi rol oynamış sənətkarlardandır. Xaqaninin əsərlərinə Şərqin bir çox görkəmli şairləri nəzirələr yazmışlar. Xaqaninin poetik əsərlərinin müəyyən bir qisminin Azərbaycan dilinə tərcüməsi M. Rahim, Ə.Vahid, M.Mübariz və digərlərinə məxsusdur.[10]

Azərbaycan ədəbiyyatında ilk epistolyar məsnəvi hesab edilən "Töhfətül-İraqeyn"də Xaqani Şirvani bir sıra simvol və eyhamların köməyilə özü ilə mühiti arasında olan ziddiyyətləri xalqın diqqətinə çatdırmağa nail olmuşdur. Xaqani Şirvani Şamaxıdakı saray mühitinin əzablarına dözməyərək, Məkkəyə ziyarətə getdikdən sonra bir daha saraya qayıtmayıb və Təbrizdə məskən salmışdır. Xaqani eyni zamanda öz yurdunu sevən vətənpərvər, humanist bir şair olmuşdur. Şairin əsərlərində cazibədar vətən torpağının mənzərələri parlaq şəkildə tərənnüm edilir. Xaqani zəmanəsindən narazılığını bir şeirində ürək ağrısı ilə belə dilə gətirmişdir:

Çox zəhmət çəkdim mən arzu yolunda
Taleyim üzümə gülmədi bir an
Dünyaya sığmayan hikmətim vardı
Ona dar gəlirdi hər iki cahan
Mənə verilənlər olmadı layiq
Layiq olanı da vermədi dövran [9]

Xaqani Şirvaninin qələmə aldığı "Mədain xərabələri" qəsidəsi fəlsəfi-ictimai məzmuna malikdir. Qəsidədə Sasanilərin etdiyi zülmkarlıqlar xalqın diqqətinə çatdırılmışdır:

Biz ədl sarayıykən zülm ilə xərab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran! [10]

Şamaxı torpağının yetişdirdiyi görkəmli nümayəndələrindən biri Seyid Əzim Şirvanidir. Füzuli ədəbi məktəbinin qüdrətli davamçısı hesab edilın Seyid Əzim Şirvaninin lirikasında başlıca yeri məhəbbət mövzusunda yazdığı qəzəllər təşkil edir. Bu tip şeirlərdə şair saf, ülvi məhəbbəti tərənnüm edilir.

Şair daima savadsızlığı insan üçün faciə hesab edir, dil öyrənməyi, xüsusən yaşadığı dövrün tələbinə uyğun olaraq rus dilini öyrənməyi zəruri sayırdı:

Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol, rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.
Nə çıxırsan donuz kim koldan [6]

Seyid Əzim Şirvan şeirlərində gözəllik ön planda verilmişdir.. Şair daima şeirlərində qadın gözəlliyini vəsf etməyə çalışımışdır:

Sən hurimisən, yoxsan pərt, ya ki mələksən,
Yox, səhv elədim kim, bular olmaz bəşər [5]

Seyid Əzim Şirvani şeirlərinin sevilməsinin əsas səbəblərindən biri də bədii təzadlardan yerli-yerində istifadə etməsidir:

Xalın qaradı, zülf qara, gözlərin qəra,
Bir ağ gün görərmi olan mübtəla sana? [5]

Seyid Əzim Şirvaninin əsərlərində Vətənə olan məhəbbət, soykökünə bağlılıq hissləri mühüm yer tutur. Şair doğulduğu torpaqdan- Şamaxıdan ürəkdolusu söz açır, onun misilsiz gözəlliyini digər şəhərlərələ müqayisə edir, qədim mədəniyyət mərkəzi olduğunu, görkəmli nümayəndələr yetişdirdiyini fəxarət hissi ilə qeyd edirdi:

Hansı Şirvan, O gülüstani-qədəm,
Konda Şirvanşahlar oldu müqim.
Nə Şəmaxi ki, onda İzzəddin
Nəzmdən zahir etdi sehri-mübin,
Məsqətür-rəsi-paki-Xaqani,
Hünərin Zülfüqari-bürrani [6]

Seyid Əzim Şirvani yaradıcılığında uşaqlara da xüsusi yer ayırmışdır. Şairin uşaq əsərləri içərisində oğlu Cəfərə xitabən yazılmış öyüd nəsihətlərini xüsusilə qeyd etmək lazımdır. Bir növ nəsihətlər, öyüdlər övladının gələcəyini düşünən , ona düzgün yola göstərən atanın dilindən verilir. Verdiyi nəsihətlərdə Seyid Əzim Şirvani oxucularını sənətə, peşəyə yiyələnməy səsləyir:

Ey oğul, bil ki, adəmi-bikar,
Xüşk olan bir odundu layiqi nar.
Bunu bizdən deyibdilər əqdəm,
Sənəti olmayan deyil adəm [3, 477]

Mərdlik, dostluqda mətanət, çalışqanlıq kimi nəcib xüsusisiyyətlər də Seyid Əzim Şirvani yaradıcılığının ana xəttini təşkil edir:

Filhəqiqət dirəxti-nakamal,
Tərbiyət feyzinə olur şamil.
Növi- insan deyil ağacdan kəm,
Qalibi-tərbiyətdi hər adəm [3, 476]

S.Ə.Şirvani görkəmli bir satirik kimi də məşhurlaşmışdır.Şairin tənqid hədəfləri xan, bəy, rəis, qazi, məhkəmə üzvləri, vəkil, polis, əhalini qurd kimi soyanlardan ibarət idi. Şair bu "sahibi-ixtiyarları", "Əkinçinin hadisələri", "Padişah və əkinçi", "Şamaxının yeni bəyləri haqqında həcv", "Şamaxının yeni vəziyyətindən şikayəti", "Şamaxı Şirvan bəylərdən Əli Əsgər bəyə şikayət", "Şirvanın təzə bəyləti" adlı satirik əsərlərində tənqid etmişdir.

"Şirvanın təzə bəyləri" satirik şeirində çar məmurlarının rüşvətxorluğu, zülmkarlığı, əhalinin aldadan məhkəmə işçiləri acı kinayə ilə təsvir edilir.

"Tələbənin hadisəsi", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Fəqih ilə oğlu", "Köhnə elmdən şikayət" və "Avam ata ilə alim oğlu", "Köpəyə ehsan", "Allaha rüşvət", "Yerdəkilərin göyə şikayəti", "Riyakar abid", "Münəccimlər yalançıdılar" və "Dəli Şeytan" adlı şeirlərində tənqid olunur.

Seyid Əzim Şirvaninin yaradıcılığında təmsillər xüsusi bir yer tutur. "Eşşək və arılar" təmsilində elmin qədrini bilməyən cahil insanlar tənqid atəşinə tutulur. "Siçan və pişik" təmsilində düşüncəsiz insanlardan bəhs edilir. "Qaz və durna" təmsilində isə bir neçə müxtəlif peşə sahələrində kamil olmaq fikri irəli sürülür:

Qaz uğandı o göldə Durnadan,
Vaqif ol, ey oğul, bu mənadan:
Yəni bir elmə daim ol talib,
Zifən ol, zifunundur qalib.
Kişi bir sənəti bilər xalis,
Çoxuna meyl edən qalar naqis[3, 478]

Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları şairin ümumi yaradıcılığında xüsusi mövqe tutur. Məhz şairi öz zəmanəsinin dahi realist şairi kimi tanıdan bu tip satiralardır. Axund, şeyx, molla, mərsiyəxan, dərvis, mülkədar, hökmdar, məmur, hakim kimi istismarçılar satiranın əsas tənqid hədəfləridir. "Allah rüşvət", "Yerdəkilərin göyə şikayəti", "Ruhanilik təhsili", "Müctəhidin təhsildən qayıtması" əsərləri şairin ruhani təhsil sisteminə dair yazdığı qüvvətli satiraları sırasındadır.

Ümumiyyətlə, Seyid Əzim Şirvaninin satirik şeirlərinin dili səlis, poetik və ahəngdardır. Onun şeirlərində bir sıra xalq danışıq dilinə məxsus olan ifadələr işlənmişdir: "Dedilər kim, at ölüb, itlərə oldu bayram", "Eylə kəs var ki, çox yaxşıdır ondan eşşək", "Yekə bəylər pul alıb bir neçə alçaq bəydən", "Pul ki, gəldi araya, bardağa səhəng dedilər", "Gühən atlar necə ki, arpa qapar eşşəkdən", "Tikdi hakim bizə hər həftədə bir sarsağı", "Yaxşı eşşəkdir, vəli yoxdu onun palanı", "Nənəsi saxlar idi bir sürü Təbriz toyuğu", "Gözü göy, burnu yekə, boyu uzun, saqqalı ağ" və s.

Şamaxı ədəbi mühitinin digər yetirməsi olan söz ustadı Mirzə Ələkbər Sabir milli ədəbiyyatımızda tənqidi realizmin yaradıcılarından biri, mollanəsrəddinçi satirik şeir məktəbinin isə qurucusu hesab olunur. Mirzə Ələkbər Sabir əsərlərini lirik, epik və

satirik üslubda qələmə almışdır. Şair ədəbiyyatımızda süjetli satirik şeirin ilk yaradıcısı hesab edilir.

Uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Abbas Səhhət Mirzə Ələkbər Sabir haqqında demişdir: "Mirzə Ələkbər Sabir köhnə şeirlə yeni şeirlər arasında bir əsrlik uçurum açdı ki, bir daha dönüb o uçurumu geriyə atılmağa kimsədə cürət qalmadı".
XX əsrin əvvəlllərində Sabir fəxriyyə janrını yeni motivlərlə zənginləşdirmiş və yenidən dirçəltməyə nail olmuşdur. 1907- ci ildə "Molla Nəsrəddin" jurnalında dərc etmiş olduğu "Fəxriyyə" adlı şeiri xalqın taleyinə həsr olunmuşdur. 1910-cu ildə qələmə aldığı "Ruhum" adlı şeiri isə şairin azadlıq idealarını oxucuların diqqətinə çatdırmışdır. Bu şeir sanki ədəbiyyatımızda Sabirin vəsiyyətnaməsi kimi səslənir.:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın Şəhriyari-Hürriyyət!
Yaşasın Şəhriyari-Hürriyyət!
Mən gedərsəm, var olsun amalım! [4]

Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabir 1862-ci ildə Şamaxıda anadan olmuşdu.
Mirzə Ələkbər Sabir bədii yaradıcılığa çox tez, Şamaxıda ibtidai məktəbdə təhsil alarkən müəllimi Seyid Əzim Şirvaninin təsiri ilə başlamışdır. İlk şeirləri klassik lirika
lüslubundadır.
M.Ə.Sabirin dövrümüzə qədər gəlib çatmış qəzəllərində klassik poeziyamızın və müəllimi S.Ə.Şirvaninin təsiri duyulur. Lirikasında yer alan bədii təsvir və ifadə vasitələri, Leyli və Məcnun kimi klassik ədəbiyyat qəhrəmanlarının yad edilməsi bu qəzəllərin əksəriyyəti üçün spesifikdir:

Şərü hər muyidə min aşiqi-nalanın var,
Məgər, ey şux ki, bir cismdə min canın var?
Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə fərmanın var.
Sabira, qərq edər axır səni bu seyli-bəla,
Olma qafil belə kim, dideyi-giryanın var [8]

Mirzə Ələkbər Sabir Azərbaycan satirik şeirinin ən qüdrətli şəxslərindən hesab edilir. Şairin satiralarının əsas mövzusu qadın azadlığı, sosial-siyasi çətinliklərlə bağlıdır. Şairin əsas amaı çətin vəzyyətin əsas səbəbkarı olan üsuli-idarəni, xalqı qəflət yuxusundan oyadaraq öz hüquqlarını izah etmək idi. Bu səpkidə olan şeirlərində Mirzə Ələkbər Sabir həyatda yaşamağın mümkünsüzlüyünü ürək yanğısı ilə dilə gətirirdi:

Açsan gözünü rəncü məşəqqət görəcəksən,
Millətdə qəm, ümmətdə küurət görəcəksən,
Qıldıqca nəzər millətə heyrət görəcəksən,
Çək başına yorğanını, nikbətdən ayılma!

Laylay, bala, laylay!
Yat qal dala, laylay! [4, 53]

Mirzə Ələkbər Sabirə ən çox şöhrət gətirən şeirlərindən biri "Səttarxana" şeiridir. Şeirdə Tehranda Məclisin buraxılmağa məcbur edilməsindən sonra Cənubi Azərbaycan vilayətlərində, xüsusilə Təbriz şəhərindəki yüksək nikbin ovqatın tərənnümü ön planda verilmişdir:

Ta ki Millət Məcməin Tehranda viran etdilər,
Türklər Səttarxan ilə əhdü peyman etdilər,
Zülmü-istidadə qarşı nifrət elan etdilər,
Millətə, milliyyətə can nəqdi qurban etdilər,
A yeyi "zibhi-əzimi" itlaqı ol qurbanədir,
Afərinim himməti-valayı-Səttarxanədir [8]

Bu gün Şirvan ədəbi mühitinin səsi bütün dünya ədəbiyyatının diqqət mərkəzindədir.Məhz bu inkişafı Şirvan ədəbi mühitinin yetirmələrinə borcluyuq.

Ədəbiyyat siyahısı

1. Köçərli Firudin bəy. Azərbyacan ədəbiyyatı, iki cilddə, I cild, Bakı, "Avrasiya press", 2005, 560 səh
2. Qaraoğlu Fazil Bakı xəbər.- 2017.- 11 oktyabr.- s. 15
3. Qasımzadə Feyzulla XIX əsr Azərbaycan ədəbiyyatı Elm və Təhsil, Baki-2017, səh. 552
4. MirzəƏləkbər Sabir. Hophopnamə, iki cilddə, I cild, "Şərq-Qərb", Bakı-2004, 480 səh
5. Seyid Əzim Şirvani. Qəzəllər. Azərnəşr, Bakı, 1960.səh 443
6. Seyid Əzim Şirvani. Şeirlər.Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1963, səh. 127
7. Seyid Əzim Şirvani. Şeirlər. Azərnəşr, Bakı, 1963
8. https://toplum.tv/sosial/mirze-elekber-sabir-heyati-ve-yaradiciligi
9. http://www.anl.az/down/meqale/baki_xeber/2017/oktyabr/558299.htm
10. http://shamaxi-ih.gov.az/az/page/16.html

ГЮНЕЛЬ ГУЛИЕВА

ВЫДАЮЩИЕСЯ ЛИЧНОСТИ ШАМАХИНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЫ

РЕЗЮМЕ

Земля Шамахы – регион с богатой литературой и культурой. Если мы заглянем в историю, то увидим, что Ширванская земля отличалась своей культурой, музыкой и искусством слова. Хотя город Ширван не столь велик по территории, он всегда был в первых рядах благодаря гениям, которые он дал нашей литературе. Литературная среда Шамахи сыграла особую роль в развитии азербайджанской культуры и литературы. Это связано с

формированием Шемахы как города, более тысячи лет являвшегося столицей древнего государства Ширваншахов, установившего торговые и культурные связи с рядом зарубежных стран. Развитие литературной среды Шемахи внесло большой вклад в нашу литературу. Наш общенациональный лидер Гейдар Алирза оглы Алиев всегда уделял особое внимание Шемахе, ее истории и литературе, подчеркивая в своих выступлениях, что: «Шамаха является одним из старейших центров науки и культуры в Азербайджане». Шемаха была родиной многих поэтов и писателей Азербайджана. Проведенные исследования показывают, что многие ученые, поэты, путешественники и различные специалисты под псевдонимом «Ширвани» занимались обогащением науки, литературы и культуры Азербайджана.
КЛЮЧЕВЫЕ СЛОВА: Шемаха, литературная среда, Сейед Азим Ширвани, литература, лирика.

GUNEL GULIYEVA

OUTSTANDING PERSONALITIES OF THE SHAMAKHI LITERARY ENVIRONMENT

Summary

The land of Shamakhi is a region with rich literature and culture. If we look through the history, we will see that the land of Shirvan was distinguished by its culture, music and art of words. Although the city of Shirvan is not so big in terms of territory, it has always been in the forefront due to the geniuses it has given to our literature. Shamakhi literary environment played a special role in the development of Azerbaijani culture and literature. This is related to the formation of Shamakhi as a city, being the capital city of the ancient Shirvanshahs state for more than a thousand years, establishing trade and cultural relations with a number of foreign countries. The development of the literary environment of Shamakhi has given great contributions to our literature. Our national leader Heydar Alirza oglu Aliyev has always paid special attention to Shamakhi, its history and literature, and emphasized in his speeches that: "Shamakhi is one of the oldest centers of science and culture in Azerbaijan." Shamakhi was the birthplace of many poets and writers of Azerbaijan. The conducted studies show that many scientists, poets, travelers and various professionals with the pseudonym "Shirvani" were engaged in enriching the science, literature and culture of Azerbaijan.
KEY WORDS: Shamakhi, literary environment, Seyyed Azim Shirvani, literature, lyrics

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Samirə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

SEYİD CƏMİLƏ AZƏR QIZI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
Mədəniyyət tarixi, magistrant
e-mail: jamazer46@gmail.com
ORCID: 0009-0002-8098-6529

ƏLI BƏY HÜSEYNZADƏNİN ƏDƏBİ-ESTETİK GÖRÜŞLƏRİ

Xülasə

Əli bəy Hüseynzadənin 1905-1906-cı illərdə "Həyat" qəzeti və "Füyuzat" jurnalında dərc olunmuş məqalələrində ədəbiyyatşünaslığın və sənətşünaslığın müxtəlif istiqmətləri barədə söylənən fikirlər Azərbaycanda xüsusən Avropa ədəbiyyatı, incəsənəti və onun estetik problemləri barədə irəli sürülmüş ilk mülahizələr hesab oluna bilər. Bu yazılarda qeyd olunan, xatırlanan örnəklər o dövrdə Azərbacan auditoraiyası üçün yeni anlam kəsb edirdi. Təxminən Azərbaycan mətbuatının 30 illik mövcudluğu dövründə nə Bethoven, Motsart, Rossini, List, Vaqner, Şarl Quno, Şopen, Sen Sans, Cüzeppe Verdi kimi "böyük Avropa bəstəkarlarının musiqisi", nə Rafael, Korrecio, Mikelancelo, Leonardo da Vinçi, Tissian, Botiçelli, Vereşagin, Ayvazovski kimi rəssamlar. Nə Şekspir, nə Şiller Azərbaycan cəmiyyəti üçün tanınan adlar deyildi. Əli bəy Hüseynzadənin yazılarında səciyyəvi olan cəhətlərdən biri də bu adları, dünya musiqi, rəssamlıq, teatr sənətində bəlli olan sənət hadisələrini o dövrkü Azərbaycan cəmiyyətinin şüuruna istiqamətləndirməsiydi.

Açar sözlər: Şekspir, Şiller, bəstəkar, Hüseynzadə, dramaturq

Əli bəy Hüseynzadənin 1905-1906-cı illərdə "Həyat" qəzeti və "Füyuzat" jurnalında dərc olunmuş məqalələrində ədəbiyyatşünaslığın və sənətşünaslığın müxtəlif istiqmətləri barədə söylənən fikirlər Azərbaycanda bu sahədə irəli sürülmüş ilk mülahizələr hesab oluna bilər. Bu yazılarda qeyd olunan, xatırlanan örnəklər o dövrdə Azərbacan auditoriyası üçün yeni anlam kəsb edirdi. Təxminən Azərbaycan mətbuatının 30 illik mövcudluğu dövründə nə Bethoven, Motsart, Rossini, List, Vaqner, Şarl Quno, Şopen, Sen Sans, Cüzeppe Verdi kimi "böyük Avropa bəstəkarlarının musiqisi", nə Rafael, Korrecio, Mikelancelo, Leonardo da Vinçi, Tissian, Botiçelli, Vereşagin, Ayvazovski kimi rəssamlar. Nə Şekspir, nə Şiller Azərbaycan cəmiyyəti üçün tanınan adlar deyildi. Əli bəy Hüseynzadənin yazılarında səciyyəvi olan cəhətlərdən biri də bu adları, dünya musiqi, rəssamlıq, teatr sənətində bəlli olan sənət hadisələrini o dövrkü Azərbaycan cəmiyyətinin şüuruna istiqamətləndirməsiydi. Qərb musiqisi klassiklərinin əsərlərindən bəhs edən Hüseynzadə obrazlı şəkildə bildirirdi ki, bu bəstəkarların musiqisi ictimai şüura ilahi ərşin, səmaların ətrini saçır, ən incə, ən həyəcanverici şeir qədər insanın ən ali

duyğularını təsvir edir, fikir və xəyalı yüksəklərə, ucalıqlara, mənəviyyat aləminə sövq edir.

Tutaq ki, onun "Siyasəti-fürusət" əsərində fransızların "Janna D Ark" operasından da söhbət gedir. Bununla da XX yüzilin ilk illərində Azərbaycan oxucusuna fransız bəstəkarı Cüzeppe Verdi, eləcə də onun ən Avropada kifayət qədər məşhur olan "Janna D Ark" operası barədə Azərbaycan sənət dünyasına tutarlı məlumatlar təqdim olunurdu.

Hüseynzadə hətta siyasi-ictimai mövzulu yaılarında Şərq aləminin getdikcə süqut etməsini, Avropanın yüksəlişini də qəribədir ki, musiqi müstəvisində şərh edir: Vaqnerin bəstələrini dinlədikcə onun zehniyyətində və xəyal aləmində iki təzadlı aləm təzahür edirdi – Almaniyanın tərəqqisi və İranın çöküşü.

Təbii ki, "Siyasəti-fürusət" əsəri Vətən haqqında yazılmış siyasi bir əsərdir. Biz isə mövzu baxımından onun siyasi aspektlərinə deyil, mətnin içində keçən mədəni və estetik konseptlər barədə fikir bildirmək istəyirik. Əli bəy Hüseynzadənin mədəni diskursunda yeni mədəni təfəkkür, modernist düşüncə və moedern estetikalar iştirak edir. Hüseynzadə ideoloji problemlərin izahını ədəbi-estetik üslubda şərh edirdi. Məsələ bundadır ki, əsərdə mifoloji təsvir vətənin halı ilə çuğlaşdırılır, Vətənin ürəyinə saplanmış sivri uclu ox, onu köksündən yaralayır, oxlanmış yerdən qan əvəzinə gül saçılır və yaralanmış ürək pərvazlanıb uçmağa başlayır. Bu qeyri-adi quşun səsi uçduqca klarnet səsinə çevrilir və Əli bəy Hüseynzadə bu klarnetdən yayılan səslərin mənasını şərh etmək üçün, intermedial qurğu qurub bədii bir mənzərənin təsvirini yaradır. Havada uçan ürək fəzada süzdükcə müəllif ona gözəl rəngli iki qanad əlavə edir və personajlardan biri bunu Hüma quşuna, ənqaya, simurqa bənzədir. Uçan yaralı quşun nəğməsi isə Hümay quşunun nəğməsinə bənzəyir. İlk insan – Kəyumərs "ey bədbəxtlər, siz qoruyucu quşun dimdiyini kəsdiniz, bu, qərblilərin feniks adlandırdığı quşdur. Gəlin onun kəsilmiş dimdiyindən çıxan nəğməsini dinləyək" deyə onu ovlayanlara tənə edir. Mətni parafraz etsək belə bir məna anlaşılacaq: "Feniksin dimdiyindəki yeddi lir təşkil edən oyuqdan, tavusun başındakı iyirmi səkkiz teldən elə ruhoxşayan və həyacanverici bir ahəng hasil olurdu ki, buna ülviyyət və möhtəşəmlikdə, riqqət və lətafətdə nə Əbdülqadir Marağinin muğamatı, nə də Bethovenin simfoniya və sonatları qiyas oluna bilərdi. Bu ilahi səs insanlara məlum olan qamma və muğamların notlarına əsla uyğun deyildi. Bilmirəm Rəuf Yekta bunlara nə ad verə bilərdi..."(1, s. 235)

Əsərdə Simurq quşu əfsanəsinə işarət edilən bu parçada həm Simurqun yunan mifolojisində Feniks adlanması diqqətə çatdırılır, həm Bethovenin simfoniya və sonataları xatırladılır, həm ehtimal ki, bəzi muğamların Əbdülqadir Maraği tərəfindən yaradıldığına işarətlər edilir, həm də dövrün görkəmli türk bəstəkarı və musiqişünası Rauf Yekta xatırladılır.

Amerikalı balerina Aysedora Dunkan və onun 1904-cü ildə Qrunevaldda (Berlin yaxınlığında) qızlar üçün yaratdığı "Klassik rəqs" məktəbi barədə də məlumat verilir. Hüseynzadə hüriyyətin ətrafında kəpənəklərin uçuşunu, pərvanələrin pərvaz

etməsini təqlid edirmişcəsinə hərəkət edən qızların rəqsini təravətli şükufələrə, rəngarəng, nurlu bir sənət əsərinə - tabloya bənzədir. Bildirir ki, bu qızların rəqsinin Aysedora Dunkanın rəqsi ilə əlaqəsi yoxdur, onların rəqsinin səbəbi Təbriz məşrutəçilərinin, hürriyyətin bəxş etdiyi sevincdəndir.

Yaxud, əsərdə Sen Sansın "Dans Makaber" baletinə göndərmə edilir. "Dans Makaber"dəki ritm, mağaradakı, yaxud yeraltı dünyadakı mavimtraq fosfor alovu, gəmiklərin bir-birinə çırpılmasına bənzəyən səslər. skeletlərin, yaxud ölülərin rəqsi simvolist estetika ilə şərh olunur. "Dans Makaber"də axirət aləminin ecazına qarışmış kədərli bir ritm "Siyasəti-fürusət"in kontekstində siyasiləşir, əslində bir maarifçilik istehzasına çevrilir.

"Siyasəti-fürusət"in hər cümləsində, hər passajında belə frazalar yer alır və bunlar təbii ki, XX yüzilin əvvəllərindəki Azərbaycan auditoriyası üçün yeni anlayışlar idi.

Hüseynzadə Şopenin rəqs havasına oynayan 158 Təbrizli qızdan bəhs edir. Bunlar Fətəli şahın əsarətindən xilas olmuş qadınlardır. Elə "Siyasəti-fürusət"in bu yerində Əli bəy Hüseynzadə rəqs barədə mülahizələrini irəli sürür: Osmanlının hüriyyət şairlərindən doktor Rza Tofiq bəy türk rəqslərinə dair filosofanə bir məqalə yazmış, müxtəlif millətlərin rəqslərini müqayisə edərək bunlardan türk qövmünün zövqünü və təbiətini, tarixi meyillərini, hissiyyatını tədqiq etməyə çalışmışdı... Hüseynzadənin bir qənaəti də beləydi ki, rəqs özü mədəniyyət nişanəsi, bəlkə də bir mədəniyyət vasitəsidir...

O, fransızların "Marselyoza"sı ilə həmahəng bəstələnmiş mövləvi dərvişlərinin səma ayinini – mövləvi dərvişlərinin musiqi sədasının altında ibadət etdiklərini xatırlatmaqla əslində, bir tərəfdən iki mədəniyyəti yaxınlaşdırmaq, bir-biri üçün anlaşılan etmək qayəsini güdürdüsə, digər tərəfdən Avropa demokratik ənənələrini yaşadığı ictimai quruluşa adaptasiya etmək məqsədini izləyirdi ki, bu, artıq bizim araşdırmamızın kənarında qalan məsələlərdir...

Göründüyü kimi, simfonizm Hüseynzadə üçün yeni mədəniyyət sisteminin vacib atributlarından idi. Hüseynzadə "Siyasəti-fürusət" əsərində Azərbaycan tarixinin bütün mərhələrinə uyğun melodik fon yaradır. Və Hüseynzadənin müxtəlif yazılarında musiqi ilə bağlı irəli sürdüyü fikirlərində, sənətə yanaşmasında, estetik düşüncədə onun simvolizm cərəyanına daha yaxın olduğu anlaşılır. 1906-cı ildə yazdığı "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində Hüseynzadə rəssamlığın nəzəri şərhini belə verirdi: "Rəssam heç bir vaxt fikrini açıq deməyəcək, ancaq zehin və qəlbində sirli, gizli olan bir fikri təlqinə çalışacaq: ... nə rəngdə, nə də bir xətdə o fikir görünməyəcək, zikr olunmayacaq... rəssamın xəyal və vicdanında peyda olan bir hiss, bir fikir ancaq bir mənəvi təsirlə gizli, üstüörtülü bir surətdə seyrçinin qəlb və vicdanına keçib orada yenidən bunun qarşılığı olan hissiyyat və fikirləri oyandıracaq..."

Məlum olduğu kimi, Əli bəy Hüseynzadə həm də rəssam idi. Türkiyəli sənətşünas Özay Erkılıc "sağlam cizgi və prespektiv anlayışının rənglərdə tez-tez ustaca bir-birini əvəz etməsi"ni nəzərdə tutub, rəssam Əli bəy Hüseynzadənin sənətkarlığı barədə bunları yazır: "Sehirləyici bir üslubu var" (2, səh. 20). "Əli bəy Hüseynzadə" kitabında Azər Turan Hüseynzadənin iyirmidən çox rəsm əsərinin olduğunu bildirir və bu əsərlər barədə geniş məlumat verir. Əsərlərin təxmini siyahısı belədir: "Şeyxülislamın portreti", "Pilevnə qəhrəmanı Qazi Osman paşanın rəsmi", "Tesaliya hərbində türk əsgərləri", "Xacə Hicri əfəndinin portreti", "Azərbaycanlı ailəsi", "Bibiheybət məscidi", "Çeşmə başında", "Mənzərə", "Şeyx Şamilin portreti", "Atatürkün portreti", "Natürmortla mənzərə", "Saidanın portreti", "Səlimin portreti", "Bəkirağa bölüyündə", "Topqapı sarayı", "İstanbulda azərbaycanlı xalça taciri Hacıbaba Məmmədzadəninin portreti", "Qızılgül və bülbül rəsmi", "Məhməd Məhmədzadənin portreti", "Təsviri-padişah, gufrani-pənah, Şah Abbas Səfəvi", "Topqapı sarayı ətrafında mənzərə".(3, səh. 314)

"Əbülnəqqaş" imzası ilə "Həyat" qəzetində yazdığı bir məqalədə xatırladırdı ki, "Bir vaxtlar rəssamlığa çox həvəsim var idi, hətta az qaldı Peterburqun Sənayei-nəfisə (Gözəl Sənətlər) Akademiyasına giriyordum. Ancaq elmə meylim qalib gəlib məni ayrı yollara sövq etdi... Bununla bərabər rəssamlığa meylim heç azalmadı! Hətta getdikcə çoxaldı belə!.. Çoxaldığı üçün kitabxanamın bir qismini hər vaxt rəssamlığa dair kitablar təşkil edirdi: "Tarixi-sənayei-nəfisə" (Rəssamlıq tarixi", Tenin "Fəlsəfəyi-sənayei-nəfisə"si ("Rəssamlığın fəlsəfəsi), Karl Robertin portret, mənzərə və sair barədə nəzəriyyələri, "Fənni-mənazir" ("Perspektiv"), "Nəzəriyyəyi-əlvan" ("Rənglər nəzəriyyəsi") və ilx. həp bu cümlədən idi. Fikrimin, zehnimin yorğun zamanlarında hər növ iş-gücümü tərk edib rəssamlığımda, nəqqaşlığımda özüm böyük istirahət tapardım..." (4, səh. 169)

Əli bəy Hüseynzadə 1888-ci ildə Peterburqda təhsil alarkən yağlı boya ilə çəkdiyi və indi Azərbaycan İncəsənət Muzeyində qorunan "Şeyxülislamın portreti" ilə Azərbaycan dəzgah boyakarlığının əsasını qoymuşdu. Sənətşünas Ziyadxan Əliyev də bu fikirdədir: "Bu işi ilə Əli bəy Hüseynzadə XX əsr Azərbaycan boyakarlığının əsasını qoymuşdur... Kitab rəfinin qabağında dayanmış Şeyxin geyim elementləri, üzünün cizgiləri, nurani baxışları rəssam tərəfindən ustalıqla işlənilmişdir. Portretin tünd koloriti obrazın işqlı simasını qabarıq göstərmək istəyindən irəli gəlmişdir" (5, səh. 5) Sənətşünas Çingiz Fərzəliyev isə əsər barədə yazırdı: "Şeyxülislamın obrazında ağ çalma ilə birlikdə insan simasının mənalı baxışları və bunlarda istifadə edilən rəng çalarları vəhdət təşkil edir. Şeyxülislamın əynində olan əbanın rəng çalarlarında tünd maviylə yaşıl rəngin qarışığından istifadə edilmişdir. Obraz dini binaların fonunda deyil, kitablarla dolu rəflərə yönəlmiş vəziyyətdə təsvir edilmişdir. Boyakarlıq sənəti baxımından, daha doğrusu, bədii ifadə vasitələrinin tətbiqi məsələsində rəssam lövhənin ümumi obrazlı quruluşunu məharətlə həll etmişdir". (6, səh. 65)

Yuxarıda xatırlatdığımız sənətşünas fikirlərindən də göründüyü kimi, onun çəkdiyi rəsm əsərləri Azərbaycan rəssamlıq tarixinin dəyərli örnəklərindən hesab olunur. O, XX yüzilin ilk illərində sənətşünaslıq sahəsində də elmi fikirlər söyləmişdir. Bu baxımdan Əli bəyin özünün rəssamlıqla bağlı bir düşüncəsini xatırlatmaq yerinə düşür. Yazırdı ki, "... rəssam heç bir vaxt fikrini açıq deməyəcək, ancaq zehin və qəlbində gizli olan bir fikri təlqinə çalışacaq: ... nə rəngdə, nə də bir xətdə o fikir görünməyəcək, zikr olunmayacaq... rəssamın xəyal və vicdanında peyda olan bir hiss, bir fikir ancaq mənəvi təsirlə gizli, üstüörtülü bir surətdə... seyrçinin qəlb və vicdanına keçib orada yenidən qarşılığı olan hissiyyat və fikirləri oyandıracaq..." (7, səh. 183)

Əbülnəqqaş imzası ilə yazdığı bu məqaləsində Əli bəy Hüseynzadə rəssamlıqla bağlı istinad etdiyi nəzəri kitabların arasında Karl Robertin, İppolit Tenin əsərlərini xatırlatmışdı. Məlumdur ki, Karl Robertin xüsusən, 1879-cu ildə nəşr olunmuş «L'aquarelle» (Akvarel); 1885-ci ildə yazdığı «Traite d'aquarelle par Cassagne» (Akvarel traktatı) əsərləri akvarel janrının texnikasından bəhs edən əsas kitablar idi. İppolit Tenin "Fəlsəfəyi-sənayei-nəfisə" əsəri isə fransız pozitivist filosofu İppolit Tenin 1865-ci ildə qələmə aldığı "Sənət fəlsəfəsi" əsəridir.

Əli bəy Hüseynzadə həm də Azərbaycanın ilk teatr rəssamı olmuşdur. "...Məcnun rolunun ilk ifaçısı Hüseynqulu Sarabski Ü. Hacıbəyovun tədqiqatçısı Mirabbas Aslanova demişdir ki, ilk tamaşanın rəssamı türk dünyasının tanınmış simalarından biri Əli bəy Hüseynzadə olmuşdur: "Bir gün Əli bəy teatra gəldi. Tamaşanın məşqləri gedirdi. Məcnunun səhra həyatını məşq edirdik. Əli bəy baxan kimi dedi ki, səhrada kol-kosun arasında yaşayan Məcnun belə səliqəli geyimdə ola bilərmi? Mənə qayçı verin. Əli bəy qayçını götürüb, Məcnunun paltarının aşağısını bir neçə yerdən kəsdi və dedi ki, indi oldu səhrada yaşayan Məcnun". Beləliklə, tamaşanın uğurlu alınmasında tərtibatçı rəssam kimi Əli bəy Hüseynzadənin də xüsusi xidməti qeyd olunmalıdır". (8, səh. 4)

Nəticə

Bunlar Əli bəy Hüseynzadənin incəsənət, musiqi və rəssamlıq barədə fikirlərinin, rəsm əsərləri, onun Azərbaycan üçün yaratdığı və irəli sürdüyü yeni mədəniyyət konsepsiyasının yalnız bir qismidir. Hüseynzadənin heykəltaraşlıq, arxitektura və s. bağlı fikirləri də yetərincədir və onlar diqqətlə araşdırılsa təbii ki, ötən əsrin əvvəllərində bu böyük mütəfəkkirin mədəniyyətlə bağlı konseptual və sistemli görüşlərinin daha dərindən öyrənilməsi zərurəti yaranır.

Джамиля Сейид Азер гызы

Художественно-эстетические взгляды Али бека Гусейн-заде.

РЕЗЮМЕ

Эта статья о художественно-эстетических взглядах Али бека Гусейн-заде. Мысли Гусейн-заде о различных направлениях литературоведения и искусствоведения в статьях, опубликованных в газете “Həyat” и в журнале “Füyuzat”, можно считать первыми предположениями о Европейской литературе и искусстве, а также об их эстетических проблемах. Отмеченные в этих статьях факты были новшеством для тогдашней Азербайджанской аудитории. За тридцатилетний период существования азербайджанской прессы музыка великих Европейских композиторов Бетховена, Моцарта, Листа, Вагнера, Шарля Гуно, Шопена, Сена Санса, Джузеппе Верди, имена великих мастеров кисти Рафаэля, Корреджо, Микаленджело, Леонардо до Винчи, Тициана, Ботичелли, Верещагина, Айвазовского, а также имена драматурга Шекспира и поэта Шиллера не были известны в Азербайджане. Одной из характерных особенностей статей Гусейн-заде является и то, что эти имена, а также замечательные события в области музыки, живописи и театра доводил он – Али бек Гусейн-заде до сознания тогдашней Азербайджанской общественности.

Ключевые слова: Шекспир, Шиллер, композитор, Гусейн-заде, драматург

Sayyid Jamila Azer

Artistic and aesthetic views of Ali bek Huseynzade

SUMMARY

This article is about the artistic and aesthetic views of Ali bek Huseynzade. His thouths on different areas of literary and art criticism in articles published in the newspaper “Hayat” and in the magazine “Fuyuzat” can be considered the first assumptions in Azerbaijan about European literary and art, as well as their aesthetic problems. The facts noted in these articles were something new for the then Azerbaijani audience. Over the thirty-year period of existence of the Azerbaijani press, the music of the great European composers Beethoven, Mozart, Listz, Wagner, Charles Gounard, Shopin, Saint Saens, Giuseppe Verdi, the names of the great masters of the brush Raphael, Correggio, Mikelangelo, Leonardo do Vinci, Titian, Boticelli, Vereshchagin, Ayvasovsky, as well as the playwright Shakespeare and the poet Schiller were not known in Azerbaijan. One of the characterstic features of Huseynzade’s articles is that he brought these names as well as famous events in the field of music, painting and theater to the consciousness of the then Azerbaijani public.

Key words: Shakespeare, Schiller, composer, Huseyn-zade, playwright

Ədəbiyyat:

1 Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. I cild. Bakı, 2008
2 Azər Turan "Əli bəy Hüseynzadə" Bakı 2014.
3. Erhan Karaesmen… "Selim Turan"
4. Əli bəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir" Bakı, 1997
5 Ziyadxan Əliyev. Əzizim Vətən yaxşı. Bakı, 1989
6 Çingiz Fərzəliyev. İnqilabdan əvvəlki Azərbaycan rəssamlığında tarixi mövzu. "Qobustan" incəsənət toplusu №1, 1975. s.65.
7 Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı, 2007
8 «Həmişəyaşar Leyli və Məcnun» «Xalq qəzeti» 25 yanvar 1998
9 Nedret Kuran Burcoğlu. Goethenin türk aydınlanma hareketine katkısı.
10 A. Quseynzade «Çto takoe mladotureçestvo «Kaspi», 27 mart, 1905.
11 Əbdülhəq Hamidin Əli bəy Hüseynzadəyə yazdığı 10 aprel 1932-ci il tarixli məktub.
12 Mehdi Məmmədov. Acı fəryadlar, şirin arzular. Bakı, 1983.
13 Ali beg Hüseynzade Türkiyede yayınldadığı eserleri.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: ***Fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı***
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRANƏ CABBARLI
ADU,
cabbarliterane@gmail.com

KOARTIKULYASIYA PROSESINƏ MÜASIR YANAŞMALARA DAIR

XÜLASƏ

Rabitəli nitqin fonetik aspektlərindən biri də koartikulyasiyadır. Bu fonetik hadisə digər fonetik hadisələrdən həm oxşar, həm də fərqli xüsusiyyətlərinə görə seçilir. Bəzi dilçilər bu hadisəni assimilyasiya ilə eyniləşdirirlər. Digərləri onun adoptasiya, yaxud akkomadasiya ilə eyniləşdirirlər. Lakin koartikulyasiya prosesi müxtəlif seqmentlərin birləşərkən, yaxud ayrılarkən artikulyasiya vəziyyətinin dəyişməsi hadisəsidir. Koartikulyasiya effekti seqment sinifləri (segmental classes) termini ilə də təsnif oluna bilər. Burada sait və samitlərin hər ikisinin bir-birinə təsiri - yəni V-to-C saitdən samitə doğru koartikulyasiya nəzərdə tutulur. İkinci tip isə samitin saitə təsiridir, yəni C-to-V. Səslərin yaranma yerinə görə dörd müxtəlif koartikulyasiya tipi fərqləndirilir. Farnetani E. və Recasens D. dil, dodaq, xirtlək və yumşaq damaq olmaqla dörd növ koartikulyasiya tipi müəyyən ediblər. Bu məqalədə koartikulyasiya prosesinin incəlikləri, fonotaktik qaydaları təhlil olunmuş, bu prosesə dilçilərin müasir yanaşmaları müqayisəli şəkildə araşdırılmışdır.

Açar sözlər: koartikulyasiya, tələffüz, assimilyasiya,variativlik, akkomadasiya

Tarana Jabbarly

On modern approaches of the process of coarticulation

Summary

One of the phonetic aspects of connected speech is coarticulation. This phonetic phenomenon is distinguished from other phonetic phenomena by both similar and different features. Some linguists consider this phenomenon as assimilation. Others equate it with adaptation or accommodation. However, the coarticulation process is a changing of articulation when different segments are joined or separated. Coarticulation effect may be classified to the term of segmental classes. Influence of consonants and vowels to each other - thus V-to-C and C-to-V is meant in this case. The second type of coarticulation is the influence of consonants to vowels - thus C-to-V. Four types of coarticulation are distinguished according to the place of articulation of sounds of speech. Farnetani E. and Recasens D. defined these types of coarticulation as follows-lingual, labial, glottal and velar. In this article the differentiating features of the coarticulation process, its phonotactic rules are analyzed, and the modern approaches of linguists to this process are compared.

Key words: coarticulation, pronunciation, assimilation, variability, accommodation

Тарана Джаббарлы

О современных подходах к процессу коартикуляции

Резюме

Одним из фонетических аспектов коммуникативной речи является коартикуляция. Это фонетическое явление отличается от других фонетических явлений как сходными, так и различными признаками. Некоторые лингвисты приравнивают это явление к ассимиляции. Другие приравнивают это к аккомодации. Однако процесс коартикуляции представляет собой изменение артикуляции при соединении или разделении разных сегментов. Эффект коартикуляции также можно классифицировать термином «сегментарные классы». Это относится к взаимодействию как гласных, так и согласных, то есть коартикуляции гласных и согласных V-C и C-V. Второй тип – это влияние согласного на гласный, то есть C-на-V. В зависимости от места артикуляции звуков различают четыре различных типа коартикуляции. Фарнетани Э. и Реказенс Д. выделили четыре типа коартикуляции: язычные, лабилизованные, гортанные и велярные. В данной статье анализируются тонкости процесса коартикуляции, фонотактические правила, сравниваются современные подходы лингвистов к этому процессу.

Ключевые слова: коартикуляция, произношение, ассимиляция, вариативность, аккомодация.

Annotasiya. İnsanların müasir həyat tempinin sürət aldığı bir məqamda, nitq fəaliyyətinin də dəyişməsi, daha çox spontan, sürətli hal daşıması heç də gözlənilməz məqam deyil. Bu hal nitq səslərinin müxtəlif variantlarda əvəz olunmasında, yaxud tamamilə düşməsində özünü açıq şəkildə göstərir. Bu zaman sözün fonetik lüğətlərdə verilən tələffüz forması ilə sırf nitqdə reallaşan tələffüz forması bir-birindən fərqlənməyə başlayır. Hətta demək olar ki, fərqli bir tələffüz forması meydana çıxır. Bu baxımdan tələffüzün fonetik çalarlarını və səslərin dəyişməsini öyrənmək vacibdir. Səslərin dəyişməsi,yaxud bir-birnə təsiri müxtəlif fonetik hadisələrin yaranmasına səbəb olur. Bu hadisələrdən biri də koartikulyasiyadır.

Aktuallıq. Bu məqalə rabitəli nitqdə mövcud olan fonetik hadisələrdən birinə-koartikulyasiya prosesinə həsr olunmuşdur. Bu prosesin digər fonetik hadisələrlə, o cümlədən assimilyasiya, akkomadasiya hadisələri ilə qarışdırılması nitqdə müəyyən anlaşılmazlığa səbəb olur. Bu baxımdan koartikulyasiya hadisəsinin araşdırılması, onun oxşar və fərqli xüsusiyyətlərinin təhlil olunması aktual məsələlərdən biridir.

Tədqiqat metodları. Mövzunun məzmununa uyğun olaraq müqayisəli, linqvistik,tarixi və təsviri metodlardan istifadə edilmişdir.

Giriş. Ayrılıqda tələffüz olunan sözlər, cümlədə tələffüz olunan həmin sözlərdən nitqin sürətinə, vurğulu, yaxud vurğusuz məqamda işlənməsinə, reduksiyaya uğramasına və hətta, nitqin kim tərəfindən söylənməsinə görə də fərqlənir. Demək olar ki, sözlər fonetik kontekstdən kənarda tələffüz olunursa, onlar fonetik

transkripsiyaya uyğun olaraq, ideal qaydada eşidilir, lakin canlı nitq prosesində isə biz dəyişilmiş, qısaldılmış tələffüz variantlarını eşidə bilirik. Bu baxımdan ingilis dildaşıyıcıların nitqini eşidib-anlamaq və bu dildə təbii və sürətli danışmaq dildaşıyıcı olmayanlar üçün çox çətindir. İngilis dilini düzgün anlayıb danışmaq üçün dilin fonemlərini, səs birləşmələrini, ayriliqda sözlərini öyrənməkl yanaşı, onun fonetik hadisələrini də öyrənmək vacibdir. Rabitəli nitqdə dilin fonetik aspektlərinin əsasını eliziya, assimilyasiya, koartikulyasiya, akkomodasiya və ritm təşkil edir. Gündəlik istifadə olunan dil rabitəli nitqdə sözlərdə, ifadələrdə və cümlələrdə icra olunur. Burada nəzərə çarpan fərqlər sözlərin ayrılıqda tələffüzü ilə cümlə daxilindəki tələffüzü arasındadır. Bir sıra səsdəyişmələri bir söz daxilində və söz sərhəddində də özünü göstərir. Səslər nitq prosesində bir-birinə təsir edir. Bu məqamda sait səslərin samitə, yaxud samit səslərin saitə, samitlərin bir-birinə təsiri və s. halları nitqdə bir sıra fonetik proseslərin yaranmasına səbəb olmuşdur. Bu proseslərdən biri də koartikulyasiya prosesidir. Koartikulyasiya prosesinə müxtəlif seqmentlərin birləşərkən, yaxud ayrılarkən artikulyasiya vəziyyətinin dəyişməsi kimi baxmaq olar. Bu fonetik hadisəyə müxtəlif yanaşmalar mövcuddur. Hammarberg R. koartikulyasiyaya belə bir tərif verir: bu elə bir proses hesab olunur ki, orada seqmentlik xüsusiyyətləri qonşu seqmentlərin təsiri nəticəsində dəyişir, yaxud digər xüsusiyyətlərlə əvəz olunur [5, s. 576].

Laver J. qeyd edir ki, koartikulyasiya zamanı qonşu seqmentlərin artikulyasiya xüsusiyyətləri arasında görünülə bilən dərəcədə uyğunlaşma (akkomadasiya) baş verir. Müəyyən kontekstin mövcud olması ilə əlaqədar qonşu seqmentlər artikulyator xüsusiyyətlərini bir-biri ilə paylaşa bilər. O bunu "feature-sharing" prosesi adlandırır və bu anda artikulyasiya xüsusiyyətlərinin akkomadasiya olunaraq, yayılması hadisəsini o, koartikulyasiya adlandırır. Koartikulyasiya zamanı demək olar ki, bir seqmentin xüsusiyyətləri qonşu seqmentin böyük fonetik oxşarlığı ilə uzlaşaraq, dəyişikliyə məruz qalır [14, s. 59].

Bəzi dilçilər koartikulyasiya terminini dar çərçivədə işlədir və ona iki müxtəlif artikulyatorun eyni müddətdə hərəkəti kimi baxırlar. Bu təsnifata belə nümunə göstərmək olar: dodaqlanan saitin təsirindən samitin tələffüz olunması. Bu prosesi onlar koartikulyasiya hesab edirlər, lakin yumşaq damaq (velyar) samitin qonşuluqdakı saitin təsirindən yerini dəyişməsi koartikulyasiya hesab etmirlər. Bu fonetik hadisəni Clark J. akkomadasiya, yaxud adoptasiya adlandırır [5, s. 86]. Ancaq bu hadisələrin hər ikisini koartikulyasiya kimi qəbul edən dilçilər də az deyil. Bu baxımdan koartikulyasiya effekti seqmentlərin istiqamətinə, əhatə dairəsinə və cəlb olunma prosesinə görə tısnifləndirilə bilər. Istiqamətdən söhbət gedərkən, iki növ istiqamət fərqləndirilə bilər: "anticipatary"- geriyə, "perseverative"-irəli. Geriyə təsir dedikdə, əvvəlki seqmentin sonrakı səsin təsirindən dəyişməsi nəzərdə tutulur. Bu hadisə bəzən "regressive" termini ilə də tanınır. Məsələn, "ski"-sürüşmək ifadəsində sait [i] foneminin təsirindən dil kütləsi önə doğru vəziyyət alır və[k] səsini dilönündə tələffüz etməyə məcbur edir. Digər bir nümunə: velyar səslər arxa sıra

saitləri ilə yanaşı gəldikdə, geriçəkilmiş (retracted) vəziyyət alır. Saitlər də öz növbəsində geriyə təsir göstərə bilər. Burun samitləri ilə yanaşı gəldikləri anda burunda tələffüz olunmağa meylli olur(nazalizasiya).

Qeyd etmək vacibdir ki, bir səs eyni zamanda müxtəlif koartikulyasiya təsirlərinə məruz qala bilər. Bu təsiredən səsin artikulyasiya xüsusiyyətindən asılı olur. Məsələn, "cool" sözündə iki müxtəlif koartikulyasiya effekti var: geriçəkilmə və dodaqlanma. Geri çəkilmə (retracted) [u:] foneminin arxa sıra saiti olmağından yaranan təsirdir, dodaqlanma isə onun dodaqlanan sait olması baxımından yaranan effektdir. İrəli (perseverative) təsir istiqaməti səslərin danışıq prosesində özündən sonra gələn qonşu səslərə göstərdiyi təsirdir. Bunu bəzən "progressive, left-to-right, carry-over, retention və s. adlandırırlar. Bunlara nümunə kimi sonorların qonşu kar plozivlərin təsirindən karlaşması halını göstərə bilərik. Məsələn, "please" [p l i: z] buyurun sözündə kar ploziv [p] samitinin təsirindən [l] sonorunun qismən karlaşması buna misal göstərmək olar. Burada təsir irəliyədir.

Koartikulyasiya effekti seqment sinifləri (segmental classes) termini ilə də təsnif oluna bilər. Burada sait və samitlərin hər ikisinin bir-birinə təsiri - yəni V-to-C saitdən samitə doğru koartikulyasiya nəzərdə tutulur. Məsələn, "cool" sözündə [u:] fonemi [k] seqmentinə təsir göstərərək onu dodaqlaşdırır. Burada saitin samitə təsiridir: V-C. Ikinci tip isə samitin saitə təsiridir, yəni C-to-V. Buna nümunə olaraq isə, burunda tələffüz olunmanı göstərdik(nazalizasiya).

Daha bir maraqlı məqam saitin saitə V-to-V təsiridir. VCV ardıcıllığında samit kipləşən-partlayışlı səs olarsa, sonuncu saitin təsiri də güclü olur. Qısa saitlərin diftonqa bənzər uzunluqda tələffüzü meydana çıxır. Təəccüblü deyildir ki, saitlərin harmoniyası "transconsonantal coarticulation" - saitin saitə- V-to-V kimi qiymətləndirilir. Digər hal isə C-to-C samitin samitə təsir effektidir. Buna misal kimi "little [l ɪ t l] balaca" sözündə [l]samitinin [t] səsinə təsirini göstərə bilərik. Bu mövqedə [l] samitinin təsirindən kipləşən-partlayışlı [t] samiti öz məxrəcində deyil, dilin yanlarından partlayışla xaric olunur [7, s. 253]

Səslərin yaranma yerinə görə dörd müxtəlif koartikulyasiya tipi fərqləndirilir. Farnetani E. və Recasens D. dil, dodaq, xurtlək və yumşaq damaq olmaqla dörd növ koartikulyasiya tipi müəyyən ediblər. Dodaqların vəziyyətinə görə dəyişmə dodaqların dairəviləşməsində (lip-rounding) və yanlara çəkilməsində (lip-spreading) özünü göstərir. Dilin vəziyyətinə görə dəyişmə "high-low" açıq-qapalı; "front-back"ön-arxa olmaqla, növlərə ayrılır. Yumşaq damağın vəziyyətinə görə nazal (burunda tələffüz) effektin yaranması kimi səslərin burunda tələffüz olunmasında göstərilir. Bu mövqedə burun sonorlarının təsirindən saitlərin, yaxud samitlərin burunda tələffüz olunması nəzərdə tutulur. Bu məqamda irəli və geri təsirlər də mövcuddur.

Səs tellərinin vəziyyətinə təsir edən koartikulyasiya isə xirtlək (laryngal) adı ilə, yaxud sadəcə cingiltiləşmə (voicing) koartikulyasiyası adı ilə mövcuddur. "please" misalında olduğu kimi [14, s. 57]. Digər koartikulyasiya növü yumşaq damağın

vəziyyətinə təsir edən fonetik prosesdir. Bu hadisə nazalizasiya, yaxud burunda tələffüz olunma hadisəsi adlanır. Burun sonorları [m, n] qonşu saitlərə təsir göstərərək, onları da burunda tələffüz olunmağa sövq edir. Hammerberq R. və Daniloff R. qeyd edirlər ki, CCV ardıcıllığında tələffüz olunan ifadə zamanı dil kütləsi hətta samitin tələffüzü zamanı da saitin artikulyasiyasına doğru hərəkətə başlayır. Laver J. isə əlavə edir ki, seqmentlərin bir-birinə təsirinin artikulyasiya intervalı koartikulyasiya növlərilə ierarxik əlaqəlidir [14, s. 381]. Məsələn, dil (lingual) artikulyasiyası həmişə heca əhatəsində olur. Velyar koartikulyasiya həm heca, həm də söz sərhəddində baş verə bilir. Velyar koartikulyasiya bir neçə burun sonorundan əvvəl onlara təsir göstərən dseqmentlər işlənərsə, sonorların hamısı təsir altında qalir. Dodaq (labial) koartikulyasiyası daha çox uzunluq potensialı sərhəddi var. Ashby P. qeyd edir ki, koartikulyasiya effektinin səbəbləri müxtəlifdir və tam anlaşılmamışdır. Koartikulyasiya funksiyası fasiləsiz nitq axını yaratmaqdan ibarətdir. Koartikulyasiya effektinin çox təkrarlanan səbəblərindən biri də xüsusilə geriyə təsir mexanizmində danısıq orqanlarının fəaliyyətsizliyidir [1, s. 150]. Geri koartikulyasiya zamanı danışıq orqanları sanki zamanı uzadaraq, növbəti gələn artikulyasiyanı gözləyir. Bu məqamda artikulyatorların hərəkət sürəti çox zəif olur. Bu ideyanın düz, yaxud səhv olması barədə də mübahisəli fikirlər mövcuddur. Koartikulyasiya haqqında ən əsas konsepsiya hələ də Henri Svitin "A handbook of phonetics" kitabında öz əksini tapmışdır. O, belə bir faktı təsdiq edir ki, səslərin təklikdə işlənməsini öyrənmək əhəmiyyətli olsa da (o bunu analiz hesab edir), real nitqdə səslər təklikdə mövcud olmur, buna görə də səsləri fasiləsiz danışma axınında öyrənmək lazımdır(bu isə sintez prosesidir).

"Although its useful to study sounds in isolation(analysis) in real speech sounds don`t occur in isolation, hence the need to study speech as a stream of incessant change (synthesis)" deyən H.Svitin fikirlərini Farnetani öz məqaləsində ətraflı işıqlandırmışdır[7, s. 12]. . Analitik baxımdan hər bir səs təmiz, ayrıca, sabit bir elementdir. Lakin danışıq zamanı səslər birləşərək, cümlə yaratmağa məcburdurlar və bir çox səslər isə yalnız müəyyən sabit situasiyalarda mövcud ola bilirlər. Beləliklə, sintez də analiz qədər vacibdir. Sintez hər bir səsin əvvəlində və sonunda görünür, lakin analiz isə özünü tam inkişaf etmiş səsin ortasına şamil edir. Dodaq-labial koartikulyasiya artikulyasiya olunan hecanın ölçüsü kimi göstərilir. Bütün artikulyasiya hərəkətləri güman edilən artikulyasiya hecası ilə sıx əlaqəlidir.

ƏDƏBİYYAT

1. Ashby P. Understanding Phonetics. London: Hodder Education, 2011.
2. Bladon R.A and Al-Bamerni A. Coarticulation resistance in English. Journal of Phonetics, 4, pp. 137. 1976.

3. Browman C. P, Goldstein L. M. Articulatory Phonology. An overview. Phonetica, 49. 1992.
4. Chomsky N. and Halle M. The Sound Patterns of English. New York: 1968.
5. Clark J, Yallop C and Fletcher J. An Introduction to Phonetics and Phonology. 3rd ed. Oxford: Blackwell Publishing, 2006.
6. Daniloff R. And Hammarberg R. On defining coarticulation. Journal of Phonetics, 1, pp. 239, 48. 1973.
7. Farnetani E. and Recasens D. Coarticulation and Connected Speech Processes. In Hardcastle. The Handbook of Phonetic Sciencies. Oxford: Wiley-Blackwell, 2013.
8. Fowler C.A. Coarticulation and theories of extrinsic timing. Journal of Phonetics, 8, pp. 113-133. 1980.
9. Hardcastle W. Assimilation of Alveolar Stops and Nasals in Connected Speech. Studies in General and English Phonetics. London, Routledge, 1995, pp 49-67.
10. Keating P.A. The Window Model of Coarticulation: articulatory evidence. Papers in Laboratory Phonology1. Cambridge University Press, 1990, pp. 451.
11. Kent R. and Minifie F. Coarticulation in recent speech production models. Journal of Phonetics, 5. pp. 115, 33. 1977.
12. Ladefoged P. and Johnson K. A. Course of Phonetics. 6th ed. Wadsworth; Cengage Learning, 2010.
13. Laver J. Linguistic Phonetics. In Aronoff M, Rees- Miller J. The Handbook of Linguistics. Oxford: Blackwell publishing, 2013, pp.150-179.
14. Laver J. Principles of Phonetics. Cambridge: Cambridge University Press, 1994.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Fil.f.d., Cavahir Hacı qızı Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur

FAMİL FƏRHAD OĞLU MƏDƏTOV
Azərbaycan Milli Elmlər Akademiyası folklor institutu
familmadatov11@gmail.com

FUAD KÖPRÜLÜNÜN ARAŞDIRMALARINDA QARACAOĞLAN YARADICILIĞINA ELMİ-NƏZƏRİ MÜNASİBƏT

Açar sözlər: F.Köprülü, folklor, aşıq yaradıcılığı, Qaracaoğlan, antologiya, ozan, şeir
Key words: F.Koprulu, folklore, ashiq creativity, Garacaoglan, anthology, ozan, poetry
Ключевые слова: Ф. Копрулу, фольклор, ашикское творчество, Гараджаоглан, антология, озан, поэзия

Türk toplumu tarix boyunca – lap ilkin çağlardan başlayaraq, müəyyən fasilələrlə günümüzədək gəlib çatan bədii-estetik cəhətdən mükəmməl, məzmunca dolğun ədəbiyyatın qurucusudur. Düzdür, tarixi prosesin qanunauyğunluqlarına müvafiq olaraq və siyasi gedişatların tələblərinə görə də türk ədəbiyyatı digər xalqlardan müəyyən dəyərləri əxz etmişdir. Qarşılıqlı ədəbi təsir bədii düşüncəni inkişaf etdirən mühüm amillərdəndir. Lakin hər bir ədəbiyyatın milli zəmində təşəkkülündə yad etnik ünsürlər müəyyən mənada əks təsir göstərir. F.Köprülünün araşdırmalarından da göründüyü kimi, islam mədəniyyəti bir sıra sahələrdə türklərə güclü təsir göstərsə də, bu dinin qəbulundan sonra da ortaq milli-mənəvi dəyərlərimiz, folklorumuz ən etibarlı saxlanc kimi öz mahiyyətini qorumuşdur.

F.Köprülünün folklorşünaslıq fəaliyyəti geniş və əhatəli bir arealın əsrlər boyu yaratdığı zəngin ədəbi-mədəni irsin spektrini əhatə edir. Burada ədəbiyyatın genezisi, şifahi şəkildə yaranan nümunələrin səciyyəvi xüsusiyyətləri, aşıq yaradıcılığı, onun təşəkkül mərhələləri, regional və mühit səciyyəsi, klassik yazılı ədəbiyyatın aşıq sənətinə təsiri, saz şairlərinin yaradıcılıq xüsusiyyətləri kimi məsələlərə yeni meyar və prinsiplər baxımından münasibət bildirilmişdir.

F.Köprülünün qənaətincə, etnik-mədəni əlaqələr şəraitində, digər xalq və birliklərin güclü təsirinə baxmayaraq, türk folklorunun əsasən sabit qalmasının, şəkil və məzmunca öz orijinallığını saxlaya bilməsinin əsas səbəbi onun mənşəyinin milli kökə bağlılığında, dərin qatlarda türk kimliyinə söykənməsindədir.

Türk xalq ədəbiyyatlarını araşdırarkən F.Köprülü ümumtürk kontekstini həmişə əsas prinsip kimi götürmüşdür. O, ictimai-tarixi proseslərin təsiri nəticəsində zaman və məkan daxilində bir-birindən ayrılaraq yeni keyfiyyətlər qazanmış türk xalq ədəbiyyatı nümunələrinin elmi əsaslarla eyni kökdən və eyni mənbədən qaynaqlanmasının sübuta yetirilməsini prinsipial müddəa kimi ön plana çəkir.

Türk xalqlarının mədəniyyət tarixinə nəzər saldıqda onun təşəkkül mərhələsindən başlayaraq çağdaş dövrə qədər olan geniş bir zamanda ortaq mənəvi dəyərlərə, folklor ənənələrinə bağlı olduğunu görmək mümkündür. Bu özünü dildə,

ifadə tərzində, mövzu və ideya yaxınlığında da əyani şəkildə göstərir. Şərqdə Monqolustan və Çin ərazilərindən tutmuş qərbdə Avropanın bir çox hissələrinə qədər geniş coğrafiyada məskunlaşmalarına baxmayaraq, türklər arasında mədəni-mənəvi bağlar qorunub saxlanmışdır ki, burada da ortaq folklor örnəklərinin misilsiz rolunu unutmaq olmaz. Eyni zamanda, siyasi, iqtisadi və mədəni həyat şərtlərinin də çox vaxt üst-üstə düşməsi bu birliyi bölünməz edirdi. Siyasi birlik daha böyük əhəmiyyət kəsb etməklə digər sosial-mənəvi sahələrin də əlaqələndirilməsinə, inteqrasiya olunmasına zəmin yaradırdı. Şifahi ədəbiyyatla bərabər, yazıya alınmış ortaq abidələr də kökü, yaranışı bir olan türklərin eyni düşüncə və poetik dünyagörüşünün uzun əsrlər qorunub saxlanılmasına səbəb olmuşdur. Belə bir xüsusiyyəti və tarixi ənənəni aidiyyatı ədəbi-bədii mənbələr də kifayət qədər təsdiqləyir: *"V-XIV əsrlərdə ortaya qoyulan ədəbi abidələr yeganə və ortaq qaynaqlardır və bütün türk xalqlarının estetik düşüncə tarixi bu möhtəşəm təmələ bağlıdır. V-VIII yüzillərdə yazılan "Orxon-Yenisey" kitabələri, XI yüzillik yazarlarından Balasaqunlu Yusifin "Kutatqu-Bilik", Mahmud Kaşğarinin "Divan-i lüğət-it-türk" kitabı əski türk ədəbiyyat və tarixinin ilk örnəkləridir"* [1, s.13].

F.Köprülü lap əski çağlarda yaşayıb-yaratmış türk şeirinin yaradıcıları olan sənətkarların adlarının günümüzə qədər gəlib çıxmamasına da münasibət bildirmişdir. O, türklərin ilk şeir nümunələrinin digər xalqlarda olduğu kimi, bir fərdə deyil, bütöv ictimai kütləyə aid olduğunu göstərir. Tədqiqatçı türklərdə ədəbi təkamülün ilk səhifələrinin digər toplumlardan fərqlənmədiyini diqqətə çatdıraraq belə yazır: *"Bu dövrdə yetişən şairlərin demək olar ki, heç birinin adını bilmirik; çünki bu dövrdə yetişən şairlər, heç bir vəchlə bir-birindən fərqli ayrı şəxsiyyət ola bilməzdilər; hamısı eyni ictimai şərtlər altında yaşayır, eyni mühitlərə mənsub idilər. Eyni zamanda, hər biri eyni qövmün müştərək hiss və duyğularına tərcüman olurdular. Beləliklə, ictimai iş bölgüsü olmadığı üçün dövrün ədəbi şəxsiyyətlərini bəsit bir küll halında görməklə yanaşı, həm də müxtəlif zövq səviyyəsi və müxtəlifliklərin nəticəsi olaraq özünəməxsus fərdi şəxsiyyətlərə rast gələ bilmirik"* [2, s.106].

F.Köprülünün türk aşıq ədəbiyyatına aid tədqiqatları sistemliliyinə görə ilkin araşdırmalardan olmaqla bərabər, elmi tutumuna, zəngin faktoloji bazasına görə də seçilir. Sonrakı dövrlərdə aşıq ədəbiyyatına dair tədqiqatlar aparan alimlər bu və ya digər dərəcədə bu mənbədən faydalanmışlar.

Alim aşıq ədəbiyyatının milli əsaslara malik bir sənət sahəsi olduğunu "Türk ədəbiyyatında ilk mütəsəvviflər" adlı fundamental araşdırmasında da müxtəlif yönlərdən tədqiq etmişdir. Tədqiqatçı aşıq ədəbiyyatına yüksək qiymət verərək onun milli mədəniyyət tarixinin öyrənilməsində olan mühüm mənəvi dəyərini də vurğulayırdı. F.Köprülüyə görə, aşıq ədəbiyyatı hər nə qədər yad təsirlərə uğrasa da, o, öz ilkinliyini, milliliyini qoruya bilmişdir. O, bunun ictimai, mənəvi səbəblərini düzgün qiymətləndirərək belə izah edirdi: *"Lakin birbaşa xalq kütləsinə və xalq zövqünə xitab edən bir ədəbiyyat olduğu üçün Əcəm nəzm qaydaları ona türk*

ənənəsini unutdura bilmədi: milli vəzn ilə milli şəkillər aşıq ədəbiyyatının əsas mahiyyətində qaldı" [3, s.354].

F.Köprülü yalnız aşıq ədəbiyyatında mövcud olan, nə klassik, nə də fars ədəbiyyatında bənzərinə rast gəlinməyən əruz vəznində saz şairləri tərəfindən yaradılmış şeir şəkillərini də müəyyən etmişdir. Divani, səmai, səlis, qələndəri və şatranc adlanan bu şeir şəkillərini birləşdirən ümumi cəhət onların heca vəzninə, milli şeir ənənələrinə uyğunluğundadır [4, s.353].

Aşıq ədəbiyyatı haqqında ilk ciddi əsər F.Köprülünün "Türk saz şairləri" adlı antologiyasıdır. Beş ana bölmədən ibarət olan bu antologiyada XVI-XIX əsrlərdə Osmanlı İmperiyası sərhədləri içində yetişən başlıca saz şairləri haqqında bioqrafik bilgilər, şeirlərindən örnəklər vardır. Aşıq ədəbiyyatı haqqında günümüzə qədər aparılan çalışmalarda əsas olaraq bu əsərində irəli sürdüyü görüşlər əsas alınmışdır.

F.Köprülünün digər araşdırmaları kimi, "Saz şairləri" əsəri də işıq üzü gördükdən sonra o qədər böyük rezonans yaratdı ki, türk ədəbiyyatında bir sıra tədqiqatçılar folklorşünas alimin açdığı bu yolu davam və inkişaf etdirdilər. Aşıq ədəbiyyatını düzgün elmi metodlarla qavramaq və bu sənət sahəsinin bədii-estetik və ictimai mahiyyətini anlamaq üçün F.Köprülünün tərtib etdiyi antologiyanın dəyəri olduqca böyükdür.

Antologiyaya XVI əsrdən bu yana, yəni XIX əsrə qədər yaşamış saz şairləri daxil edilmişdir. Məlumdur ki, XV-XVI əsrlərə qədər "ozan" adlanan sənətkarlar geniş fəaliyyət göstərmiş və tədricən dövrün mədəni-siyasi təsirləri nəticəsində "aşıq" sözü onu əvəz etməyə başladı. F.Köprülü antologiyasında Ozan adlı şairin də şeirini verir və göstərir ki, XVI əsrdən sonra Osmanlının heç bir yerində Ozan adlı saz şairinə təsadüf olunmur: *"Çünki bu söz daha o zamanlardan başlayaraq "hərzə və həzəyan söyləyən, gəvəzə" mənasını almış və saz şairlərini ifadə üçün artıq aşıq kəlməsi işlənməyə başlamışdır"* [5, s.57].

Bir tədqiqatçı kimi, F.Köprülünün diqqətini daha çox cəlb edən dövrün ictimai, siyasi və mədəni hadisələri ilə səsləşən aşıqlar və onların şeirləri idi. Yəni o, zamanın ictimai hadisələri ilə bağlı olan, sosial-mədəni gerçəklikləri bədii biçimdə əks etdirən şairlərə haqlı olaraq xüsusi yer ayırırdı. Bu baxımdan, aşıq şeirinin inkişaf istiqamətlərini müəyyənləşdirən, dövrün ictimai təmayülləri ilə sıx bağlı olan Gövhəri, Qaracaoğlan, Ərzurumlu Əmrah, Aşıq Dərdli kimi sənətkarlara həsr olunan ayrıca oçerklər xüsusi elmi əhəmiyyət daşıyır.

F.Köprülü *"Saz şairləri"* adlı antologiyada Qaracaoğlanın yaradıcılığına geniş yer ayırmış, onun aşıq ədəbiyyyatındakı mövqeyini layiqincə qiymətləndirmişdir. Tədqiqatçı göstərirdi ki, Qaracaoğlanın öz sahəsindəki ədəbi mövqeyi o dərəcədə güclü idi ki, bu Aşıq Ömər və Gövhəri kimi görkəmli saz şairlərinin yetişməsinə müstəsna təsir göstərmişdir. Aşıq Ömər isə "ustadına kəm baxmış", Qaracaoğlanın əsərlərinin dövrə uyğun gəlmədiyini, zamanın mədəni inkişaf axarından geri qaldığını göstərmiş, onu şair yox, aşağılanmış şəkildə ozan adlandırmışdır. Bununla o, görkəmli sənətkarın onun üzərində olan təsirinin dolayı

yolla inkarına çalışmışdır. Lakin F.Köprülü daha düzgün və obyektiv dəlillərə söykənmiş, həmin dövrün ədəbi mənzərəsindən çıxış edərək belə yazmışdır: *"Klassik şairləri mümkün olduğu qədər qüvvətlə təqlid edən Aşıq Ömərin xalq zövqünü və saz şairinin klassik ənənəsini özündən də saf bir şəkildə qoruyan və təmsil edən bu böyük saz şairinə aşağılayıcı nəzərlə baxmaq istəməsi qədər təbii bir şey ola bilməz"* [5, s.290].

Aşıq yaradıcılığına aid şeirlərin digər folklor örnəkləri kimi böyük bir hissəsi zamanında yazıya alınmadığına görə öz ilkin şəklindən fərqlənmiş, yeni poetik çalarlarla zənginləşmişdir. Bir ədəbi-tarixi şəxsiyyət kimi haqqında kifayət qədər dəqiq bilgi və məlumatları müəyyənləşdirməkdə çətinlik çəkdiyimiz Qaracaoğlanın şeirləri də el içində məşhur olmuş, nəsillərdən-nəsillərə şifahi yolla keçmiş, az bir qismi isə XVII-XVIII əsrə aid cünglərdən toplanılmışdır. F.Köprülünün qənaətincə, Qaracaoğlanın ədəbi şəxsiyyətinin geniş xalq içində çox məşhur olması ilə əlaqədar haqqında çoxsaylı rəvayətlərin yaranması onun real tarixi simasını müəyyən etməkdə bir sıra çətinliklər yaradır. Bundan başqa, XVI əsrdə Qaracaoğlan adlı bəstəkarın yaşaması, XVIII və XIX əsrlərdə iki ayrı-ayrı Qaracaoğlan adlı şairin də olması müəyyən dolaşıqlıq yaratmışdır. F.Köprülü həyatı və yaradıcılığı əfsanəviləşən, əsərləri folklorlaşan Qaracaoğlanın ədəbi mövqeyini daha dürüst müəyyənləşdirmək üçün ilk növbədə onun tarixi şəxsiyyəti ilə rəvayətləşən həyatını bir-birindən fərqləndirməyi əsas şərt sayırdı. Tədqiqatçı əldə ədəbi materialların olmamasına görə Qaracaoğlanın mənzumələrini müəyyənləşdirməyin çətinliyini də vurğulayır. Lakin Qaracaoğlan təxəllüsündə başqalarının da yazması bu şairin poetik irsini dəqiqləşdirməyə mane olur. Buna baxmayaraq, F.Köprülü bu çətinliklərin də öhtəsindən məharətlə gəlmişdir. O, bu barədə fikirlərini belə şərh edir: *"Fəqət bunu icra etmək mümkün olmasa belə, Qaracaoğlanın ədəbi şəxsiyyəti və sənətinin xüsusiyyətlərini anlamaq xüsusunda bunun böyük bir zərəri olmaz. Çünki başqaları tərəfindən yazılmış olsa belə, o parçalarda da hakim olan ruh, doğrudan-doğruya Qaracaoğlanın ruhu, onun şəxsiyyətidir"* [5, s.294-95].

Tədqiqatçıya görə, Qaracaoğlan təxəllüsündə şeirlər yazan digər şairlər bu böyük ustadın ədəbi təsir dairəsindən, dil-üslub xüsusiyyətlərindən çıxa bilmədiklərinə görə onların şeirləri də Qaracaoğlanın şeirlərinə qarışmışdır.

Ədəbiyyat:

1.Türkiye dışında türk edebiyatı Antolojisi (Azerbaycan türk edebiyatı): [32 cilddə]. – Ankara: – Kültür bakanlığı, – c.2. – 1993. – 427 s.

2.Köprülü, F. Türk edebiyatı tarihi / F.Köprülü. – İstanbul, – Akçağ yayınları, – 2011. – 446 s.

3.Köprülü, F. Türk edebiyatında ilk mutasavvıflar / F.Köprülü. – İstanbul: Alfa, – 2013. – 556 s.

4.Köprülü, F. Edebiyat araştırmaları: [2 cilddə] / F.Köprülü. – İstanbul: Ötüken, – c. 1. –1989. –470 s.
5.Köprülü, F. Saz şairleri / F.Köprülü. – Ankara: Akçağ Yayınları, – 2004. – 726 s.

FUAD KÖPRÜLÜNÜN ARAŞDIRMALARINDA QARACAOĞLAN YARADICILIĞINA ELMİ-NƏZƏRİ MÜNASİBƏT

Xülasə

Böyük türk alimi Məhəmməd Fuad Köprülünün folklorla bağlı tədqiqatları dolğunluğu və geniş miqyasa malik olması ilə diqqəti cəlb edir. Onun ədəbiyyatın və ədəbi-bədii düşüncənin müxtəlif səpkili yaradıcılıq məsələlərinə həsr olunan tədqiqatlarının əsasında bir başlanğıc, təməl prinsip kimi şifahi xalq yaradıcılığının dayanması heç də təsadüfi deyildir.

Alimin aşıq ədəbiyyatına aid tədqiqatları, bu sahə üzrə tərtib etdiyi antologiyalar ən etibarlı mənbə olduğundan zaman-zaman müxtəlif nəşriyyatlar tərəfindən müntəzəm olaraq nəşr olunmuşdur. Məsələn, "Akçağ" nəşriyyat evi tərəfindən tədqiqatçının bütün digər əsərləri kimi, saz şairlərinə dair antologiyası da nəşr olunmuşdur. Üç hissədən ibarət olan antologiya yenidən işıq üzü görərkən bir cildə toplanmış, ona geniş müqəddimə və şərhlər yazılmışdır. 2004-cü ildə Ankarada işıq üzü görən "Saz şairləri" antologiyası F.Köprülünün aşıq ədəbiyyatının yalnız tədqiqatı ilə məşğul olmadığını, eyni zamanda bu zəngin irsi toplamaq və tərtib etmək sahəsində ciddi şəkildə fəaliyyət göstərdiyini əyani surətdə təsdiqləyir. Tədqiqatçı yaxşı dərk edir ki, aşıq yaradıcılığını sistemli şəkildə tədqiq edib oxucuların, mütəxəssislərin və geniş elmi ictimaiyyətin ixtiyarına verməklə onu itib-batmaq təhlükəsindən xilas etmiş olar.

F.Köprülü *"Saz şairləri"* adlı antologiyada Qaracaoğlanın yaradıcılığına geniş yer ayırmış, onun aşıq ədəbiyyyatındakı mövqeyini layiqincə qiymətləndirmişdir.

SCIENTIFIC-THEORETICAL ATTITUDE TO GARACAOGLAN'S CREATION IN RESEARCH OF FUAD KOPRULU

Summary

The great Turkish scientist Muhammad Fuad Koprulu's foklore studies attract attention due to their completeness and wide scope. It is no coincidence that folk art as a starting point and basic principle is the basis of his studies devoted to various creative issues of literature and literary-artistic thought.

The scolar's researches on Ashiq literature, the anthologies compiled in this field are the most reliable sources and have been regularly published by various publishing houses from time to time. For example, "Akchag" publishing house published an anthology of saz poets, like all other works of the researcher. The anthology, consisting of three parts, was collected in one volume when it was re-released, with an extensive introduction and comments. The anthology "Saz poets",

published in Ankara in 2004, clearly confirms that F.Koprulu is not only engaged in the research of Ashiq literature, but at the same time, he is seriously active in the field of collecting and compiling this rich heritage. The researcher is well aware that by systematically studying Ashiq creativity and making it available to readers, experts and general scientific community, he can save it from the danger of being lost.

F.Koprulu devoted a lot of space to the work of Garacaoglan in the antology "Saz poets" and duly evaluated his position in the Ashiq litearture.

НАУЧНО-ТЕОРИЧЕСКИЙ ОТНОШЕНИЕ К СОЗДАНИЮ ГАРАДЖАОГЛАНА В ИССЛЕДОВАНИЯХ Ф.КЕПРЮЛЮ

Резюме

Фольклористические исследования великого турецкого ученого Мухаммеда Фуада Кепрюлю привлекает внимание своей полнотой и широким объемом. Неслучайно устное народное творчество как отправная точка и основной принцип лежит в основе его исследований, посвященных различным тиорческим вопросам литературы и литературно-художественной мысли.

Исследования ученого по ашикской литературе, составленные в этой области антологии являются наиболее достоверными источниками и время от времени регулярно публикуются различными издательствами. Например, в издательстве «Акчаг» вышла антология поетов-сазов, как и все другие произведения исслодевателя. Антология, состоящая из трех частей, при переиздании была собрана в один том с обширным введением и комментариями.

Изданная в Анкаре в 2004 году антология «Поэты саза» наглядно подтверждает, что Ф. Кёпрюлу не только занимается исследованием ашикской литературы, но в то же время серьезно активен в области сбора и обобщения этого богатого наследия. . Исследователь прекрасно осознает, что систематически изучая труд Ашика и делая его доступным для читателей, экспертов и широкой научной общественности, он может уберечь его от опасности быть утерянным.

Ф. Кёпрюлю уделил много места творчеству Караджаоглы в антологии «Поэты Саза» и достойно оценил его положение в литературе Ашика.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.ü.e.d. Cəlal Mirzağa oğlu Məmmədov
tərəfindən çapa tövsiyə olunmuşdur

UOT-82-09.

İSKƏNDƏROV BALAKİŞİ ATAKİŞİ oğlu
Sumqayıt Dövlət Universiteti

MƏMMƏD ASLAN YARADICILIĞINDA POETİK FİQURLAR VƏ XALQ DİLİ KOLORİTİNİN TƏZAHÜRÜ

Xülasə

Azərbaycan bədii dili xalqımızın zəngin folklorundan, dastanlarımızdan, aşıq yaradıcılığından, klassik sənətkarlarımızın dilindən süzülə-süzülə, durula-durula bu günümüzə gəlib çıxmışdır. Məlum həqiqətdir ki, həm də xalq danışıq dilindən qaynaqlanan poetik dilin ifadə imkanlarının səviyyəsi, yüksəkliyi bədii təsvir və ifadə vasitələrinin hesabına gerçəkləşir, onların hesabına fkir aləmi dəqiqləşir, dolğunlaşır. Ümumxalq dilinin canlı ifadə vasitələrindən yaradıcı şəkildə bəhrələnən Məmməd Aslan şeirləri incə xalq ruhunun poetik tərcümanına çevrilmişdir. Məqalədə şairin yaradıcılığı boyu xalq danışıq dilində geniş işlənən bədii təkrir, alliterasiya, assonans, frazeologizmlər, atalar sözləri, zərbi-məsəllərdən yetərincə faydalanmaqla və çoxçeşidli yeni məcazlardan istifadə etməklə poetik emosional-ekspressiv mətnlər yaratması elmi-nəzəri təhlilini tapmışdır. Məmməd Aslan şeirində intonasiyanın mühüm komponenti kimi özünü göstərən bədii söz təkrarları - anaforlar, epiforlar, alliterasiya və assonans hadisələri birlikdə şeiriyyətin güclənməsinə təkan verən, fikri kəskin poetikləşdirən əsas amil kimi çıxış edir. Azərbaycan uşaq şeirndə sözlərin qoşa şəkildə təkrarlanmasının ənənəsi (Burda küçə çinar-çinar, bəzək-bəzək, dilim-dilim; Qanad açar lələk-lələk və s.) şairin uşaq şeirlərinə ritm-ahəng, musiqililik yaratmış, məzmuna obrazlılıq gətirmişdir. Poetik fikrin estetik təsir gücünün artırmağa xidmət edən poetik məcazlar Məmməd Aslan şeirində həm də ideyanın qavranılmasına zəmin yaradan keyfiyyət göstəricisidir. Atalar sözləri və zərb məsəllər isə şairin fərdi yaradıcılıq üslubunda konkret olaraq ədəbi mətnin poetexniki tələblərinə uyğunlaşdırılaraq istifadə edilmişdir. Bir-birindən maraqlı bədii fikir təzadları isə təbiətin özündən gəlmədir.

Açar sözlər: Məmməd Aslan, poetik fiqurlar, xalq dili koloriti, alliterasiya, assonans, bədii təkrir, bədii təzad, frazeologizmlər

Azərbaycan poeziyasının dili özünün poetik fiqur imkanlarının çoxçalarlılığı, zənginliyi baxımından seçilir. Poetik fikrin, məzmunun ifadəsində, əsasən, alliterasiya və assonans kimi fonetik ifadə vasitələrinin, bədii xitab, bədii sual, mübaliğə, litota, perifraz və s. kimi sintaktik fiqurların, eləcə də epitet, təşbeh, metafor kimi məcazların üzərinə böyük yük düşür, yəni obrazlaşdırma prosesi poetik mətndə məhz onların hesabına baş tutur. Ədəbiyyatşünas alim R.Yusifoğlu yazır ki, *"Bədii təsvir və ifadə vasitələri həm fikri, ideyanı ifadə etmək alətidir, həm də sözə*

poetik don biçmək funksiyasını yerinə yetirir, onun təravətini, ifadəliliyini, obrazlılığını artırır, adi kəlmələri canlandırır, qanadlandırır" [1, s.114].

Məmməd Aslan poeziyasının "sözə don biçmək" vəzifəsini həyata keçirən fəal fonoloji vasitələr içərisində alliterasiya və assonans hadisəsi önəmli yer tutur. Ritm və ahəng yaradan bu fonetik hadisə lirik qəhrəmanın daxili hiss və psixoloji ovqatını uğurla açmağa xidmət edir. Şairin "Bu elə bir dərddi ki" şeirində "m", "k", "y", "d" səsləri bu baxımdan vacib poetik detala çevrilmişdir:

Gördüyüntək mən deyiləm:
Yarı mənəm, yarı dərdim.
Kiritməyi bacarsaydım –
Bu dərdimi kiridərdim.

Dərdinə bax, tanı fərdi,
Dərdsizlik dərddən betərdi.
Dağa verə bilsəm dərdi,
Daş-qayanı əridərdim. [2, s. 19]

Şeirin səs quruluşunun onun yadda saxlanmasına zəmin yaratdığını düşünən prof. M.Hüseynov "Səsin poeziyası" monoqrafiyasında diqqəti bu məsələyə yönəldərək yazır: *"Ana dilinin zəngin poetik imkanlarında, ilk növbədə də şairin səs rənglərini duyma istedadına söykənən şeir sərrast assosiativlik keyfiyyəti üzərində köklənir. Sözün səslənmə cəhəti, onun leksik-semantik tərəfinə nisbətən ona görə aparıcıdır ki, şeirdə məzmun uğurlu forma qəliblərində daha sürətli qavrama vasitəsidir"* [3, s. 15].

Şairin "Kəndin kənd qayğısı qorxutdu məni", "Mənim bu müqəddəs kədərimə də/Kim bilir, nə qədər rəng çəkəcəklər" ("Dağlar həsrətimi duyacaqdımı"), "Dodaq saxta, dil saxta, /Sözü donub saplaqda. /Şirmi gəzir sırtıqda - /Üzü sürtükdən özgə?!" ("Bir ondan özgə"), "Burulğana dönüb sinəmdə ağrı, /Çəkdiyim bəsimdi, sən dinmə barı" ("Umacağım"), "Bal sözü düşəndə bal olan qatdan, /Bir "xalis" sözü də qoşduq əlaltdan" ("Sözlər öz rəngini itirə bilər") və başqa bu kimi şeirlərində səs təkrarları, eynicinsli səslərin bir-birini məqsədli izlməsi poetik axıcılığı təmin etməklə yanaşı, mətn daxilində yeni-yeni bədii lövhələr yaratmışdır. Tədqiqatçılar şairin "Görə-görə görməmək" şeirində *("Bu görmədim deyən kəsi çox görmüşəm, / Nəsimi hər soyulanda / Görən gözlər görməz olub. Haqlı / haqsız sayılanda /Görməməzlik / görə-görə görməyinin / gözlərində həqarətdi, / Görə-görə / gözgörəti göz görməyə, /gördümü bəs?/ Göz gəzdirən bu zavallı astardımı,/üzdümü bəs?)* eyni səslərin bir musiqililik yaradaraq bədii fikri və mətləbi daha aydın çatdırmasını, bədii keyfiyyəti təmin etməsini göstərmişlər.

Məmməd Aslanın uşaq şeirlərində daha çox assonansdan istifadəyə üstünlük vermişdir: "Gülər dodaq, gülər göz, / Gülərüzdü, gülərüz. / Əli-üzü tərtəmiz, / Üstü-

başı təptəzə” [4, s. 6]. Hər bir misrada ü sait səsi ilə bağlı olan sözlərin məntiqi ardıcıllıqla bir birini izləməsi şeirin ritmini ahəngdar etmiş, ona musiqili, çevik intonasiya gətirmişdir. “Xatirənin bəhanəsi” şeirində belədir, “Qızım, qızım, qız ana! / Qızım girdi qazana. / Qazanı təkərlədim, / Qanad taxdım, pərlədim” şəklində şeirin giriş hissəsində q səsi mükəmməl assonans yaratmışdır. Şairin “Kəndin kənd qayğısı qorxutdu məni”, “Mənim bu müqəddəs kədərimə də /Kim bilir, nə qədər rəng çəkəcəklər” (“Dağlar həsrətimi duyacaqdımı”), “Dodaq saxta, dil saxta, /Sözü donub saplaqda. / Şirmi gəzir sırtıqda - / Üzü sürtükdən özgə?!” (“Bir ondan özgə”), “Burulğana dönüb sinəmdə ağrı,/Çəkdiyim bəsimdi, sən dinmə barı” (“Umacağım”), “Bal sözü düşəndə bal olan qatdan, /Bir “xalis” sözü də qoşduq əlaltdan” (“Sözlər öz rəngini itirə bilər”) və başqa bu kimi şeirlərində səs təkrarları, eynicinsli səslərin bir-birini məqsədli izlməsi poetik axıcılığı təmin etməklə yanaşı, mətn daxilində yeni-yeni bədii lövhələr yaratmışdır. “İpək paltar” şeirində baba ilə nəvə arasında gedən dialoqda şair “b” ilə başlayan sözləri bilərəkdən mətnə gətirir və bu düzümdə “baba” sözü məzmunca dominantlıq təşkil edir, “bel”, “bağda”, “bəlkə”, “budaqlasın” və s. kimi sözlər onun ətrafında assonans çələngi yaradır:

- *Bel sapı kəs, ay baba,*
- *Bel nəyinə gərəkdi?*
- *Bağda quyu qazıram,*

Bəlkə, bir çəkil əkdim.

- *Neyləyirsən çəkili?*

Qoy çəkil budaqlasın! [5, s. 14]

Göründüyü kimi, replikaların əvvəli “b” səsli sözlərin iştirakı ilə qurulmuşdur ki, bu da mətnin kiçik yaşlı uşaqlar üçün diləyatımlılığını şərtləndirir.

Elə şeirlər var ki, Məmməd Aslan obrazların ad seçimində də bu prinsipi nəzərdən qaçırmır, ona sadiq qalmağa çalışır. “Bəsimdi...” şeirində bu məqsədlə “sac asdı”, “yastı-yastı” ifadələrindən sonra Səməndər, daha sonra isə ikinci obrazın – Süsənin adı çəkilir. Hətta “s” assonansı şeirin adından “bəsimdi” şəklində başlayır və sonacan hər misrada (sənin, ikincisi, bəs, parasını, bəsimdi...) davamını tapır, bir növ də ilk misradan (Nərgiz bala sac asdı, / Kökələr yastı-yastı. /-Ay Səməndər, bu sənin, / İkincisi – Süsənin) yanıltmacaya yaxınlaşır. Fikrimizcə, “s-z” kar və cingiltili cütlük olmasını nəzərə almaqla, üçüncü və dördüncü obrazların adında – Dönməz və Əzimədə assonans bir qədər uzaq olsa da, “z” şəklində (Dönməzindir üçüncü, / Naxışlıdır hər küncü. / Bu da sənin Əzimə... / Bıy, çatmadı özümə...) davam edir. Mətnə diqqət etsək, bu proses qafiyələrin yaradılmasına yönəlmişdir: sac asdı – yastı-yastı, sənin – Süsənin, Əzimə - özümə, bəs indi – bəsimdi...

Məmməd Aslan şeirinin dilində bədii söz təkrarları intonasiyanın mühüm komponenti kimi özünü göstərir. Anaforlar, epiforlar özündə alliterasiya və assonans hadisəsini də daşımaqla birlikdə şeiriyyətin güclənməsinə təkan verir, fikri poetikləşdirirlər. Şairin “Utana-utana” şeiri başdan-başa bu təkrarın üzərində qurulmuşdur:

Utana-utana ilk addım atdı,
Dedilər: "Böyüyər, çağadır indi..."
Utana-utana ərzi laxlatdı,
Dişi qanıqlaşan çağıdır indi.
Utana-utana durdu, devikdi,
Utana-utana boynunu bükdü,
Utana-utana leş üstə çökdü,
Çanağıyla didib dağıdır indi. [2, s.289]

Sonralar da satirik qəhrəman "utana-utana" sağlıqlar da deyir, "dünyalar"ı da, "yekə dağlar"ı da udmağı bacarır. Təkrarlanan bu anafor, demək olar ki, hər misradan misraya, bənddən bəndə utanmazlığı daha da şiddətləndirir, mənfi tip "utana-utana utanmaz olur", həyasızlaşır və qəddarlaşır. Maraqlıdır ki, şeirdə "utana-utana" anaforu, eyni zamanda, qüvvətli bədii təzad da yarada bilmişdir. "Qızara-qızara" şeirində də bu üslub eynilə davam edir, burada utanmaq – qızarmaqla əvəzlənir: "qızara-qızara imtahan verib, qızara-qızara post alan"lar, "qızara-qızara kürsüyə cuman"lar, ucuz tərifin leysan yağışında "qızara-qızara məst olan"lar, "qızara-qızara büst alanlar və s. "Utana-utana" şeirində olduğu kimi bu mətndə də "qızarmaq" mənfi keyfiyyət kəsb edir, satirik tipin həyat "sıçrayışlarını" bu yolla əldə etməyi bacarmasına müəllif dərindən təəssüflənir.

Məmməd Aslanın "Sümüklü dərə" şeirində bədii təkrir təzad yaratmaqla mətndə nəzərdə tutulan ideyanın formalaşdırılmdılmasını təmin edir. Gül-çiçək qoxulu dərələr indi insan sümükləri ilə aşıb-daşır, burada hər il qar əriyəndən sonra gül-çiçək əvəzinə sümüklər "bitir", torpaq göyərmir, "qatillərin məşhər günahı"na, "şəhidlərin gorsuz gorgahı"na çevrilmişdir:

Mən dərə görmüşəm: moruq qoxulu,
Mən dərə görmüşəm: nərgiz yuxulu...
Bu dərə nə qədər müdhiş, qorxulu –
Sümüklü dərə. [2, s. 41]

1969-cu ildə yazılmış bu şeirdə hadisələrin baş verdiyi məkan - bu sümüklü dərə Azərbaycan xalqına qarşı erməni daşnaklarının qanlı cinayətlərinin şahidi olan Kəlbəcərin Göyçə gədiyinin dağ aşırımındakı bir dərədir. Şeirdə tarixi yaddaşımızın qan dolu səhifələri vərəqlənir.

"Şairin "Müqəddəs yuva" şeirində isə "Vətən" sözü rədif olmaqla yanaşı, həm də misraların müxtəlif yerlərində bədii təkrir kimi şeirin poetik məna yükünü öz üzərinə alır. Dəfələrlə təkrarlanan bu söz oxucunun təfəkküründə müqəddəs yuva, ocaq, tövhid, təkbir, cənnət, məscid, azan, göz çırağı, millət qazncı, üz ağı və s. kimi anlayışların sinonimi kimi görünür, onların hamısını ümumiləşdirən vahidə çevrilir:

Quş yuvaya möhtac, insan da evə;
Millətin yuvası, ocağı Vətən.
Evlər birər təpə, Vətən də zirvə!
Millətin qazancı, üz ağı Vətən. [11, s. 38]

Şairin uşaqlar üçün yazdığı şeirlərdə bədii təkrir diləyatımlı bir ahəng yaratmaqla mətni nəğməyə yaxınlaşdırır. “Biri batdı çökəyə, / Biri milləndi göyə. /Birisi mənə sarı - / Süzdü altdan yuxarı” (“Oxlu kirpi”), “Xoş görmüşük, nərgizlərim, / Nə zamandı yol gözlərəm. / Xoş görmüşük, çiçəklərim...” (“Qorxulu səfər” poeması), “Gah görürsən, qabardı; / Gah görürsən, yapıxdı” (“Şanapipik və Yetər”), “Ağzı var - / Çörək yemir, / Dili var - /Heç nə demir” (“Ağlağan Gülnar”) və s. Əsas mətni, demək olar ki, bədii təkrir üzərində qurulmuş “Quzunu harda sularsan?” şeiri bu baxımdan diqqəti cəlb edir, maraqlıdır ki, mövzu və ideya bu bədii ifadə forması ilə yaradılır:

- Quzun olsa, ay Aslan,
Söylə, harda sularsan?
- Harda?
Buzlu-buzlu sularda.
- Ay suladın ha!
Onda bilirsən nə var:
Buz ağzını dondurar... [4, s. 43].

Şeirin mətni “Quzun olsa, ay Aslan, Söylə, harda sularsan? - Harda?” təkriri ilə bir neçə dəfə davam edir və müxtəlif cavablar verilir; buzlu-buzlu sualr kimi qaynar-qaynar sular da işə yaramır, sonda anasının südü ilə “sulamaq” yaxşı cavab sayılır.

Azərbaycan uşaq şeirndə sözlərin qoşa şəkildə təkrarlanmasının ənənəsi olmuşdur: “Cücələrim limək-limək, Qanadları gödək-gödək” (A.Səhhət), “Quşlar qoşar daşdan-daşa, Bizim yerdə səhər-səhər” (Ə.Cəmil), “Hardan gəlir bu səs deyin, Qaça-qaça, uça-uça, Tələsərək, yeyin-yeyin?” (T.Elçin), “Zeytunlar salxım-salxım, Sırğa-sırğa sallanıb” (T.Bayram) və s. Tədqiqatçı alimlər - M.Adilov, V.Mərdanov belə qənaətə gəlmişlər ki, “... sözün təkrarı şeirin ritminin təmin oliunma-sında mühüm rol oynayır. Lakin təkrarın funksiyası yalnız ritm yaratmaqdan ibarət deyildir. Dil vahidlərinin təkrarı ilə uşaq şeirlərində həm ritm, həm ahəng, həm musiqililik yaradılır, mənaca təkidlilik, şiddətləndiricilik, şişirtmə, obrazlılıq ifadə edilir. Deməli, uşaq şeirində təkrarın forma və məzmunca ən müxtəlif növlərindən çox geniş miqyasda istifadə olunur [6, s.70]. Məmməd Aslanın uşaq şeirlərində də bu ənənənin davamını görmək mümkündür. “Çinarlı küçə” şeiri bu baxımdan xüsusi maraq doğurur:

Burda küçə
Çinar-çinar,
...Hər yarpağı
Gəbə, kilim:
Bəzək-bəzək,
Dilim-dilim.
Qanad açar
Lələk-lələk. [4, s. 22]

Xalq həyatından, adət-ənənəsindən alınmış sabitləşmiş ifadələr, müxtəlif frazeoloji konstruksiyalar da Məmməd Aslan poeziyasının dilində üstünlük təşkil edir və poetik mətnlərin formalaşmasında vacib elementlərdən biri kimi çıxış edir. *"Frazeoloji birləşmələr xalq müdrikliyinin parlaq ifadəsi kimi şairin fikir və duyğularına poetik hərarət verir, misralara şifahi xalq ədəbiyyatin təkrarsiz ətrini gətirir. Mətn mühitində frazeoloji birləşmələrin yeni-yeni obraz yaratma potensialı, obrazlı mahiyyəti aşkarlanır"* [7, s. 4].

Frazeoloji dil materiallları dilin təbiiliyini və saflığını artırır, sırf milli səciyyəni əks etdirir, digər bir tərəfdən oxucu ilə sənətkar arasında səmimi münasibət yaradır. Məmməd Aslanın "Külək hardan əsdi, kişi?/Nə əsdisə, nəsdi kişi!" ("Çıx oyundan, Əjdər əmi!"), "Sən mənim dünyama sıza bilməzsən, /Ucuz mətləblərə lisan deyiləm" ("Mən buyam"), "Bağrına daş bağla, dərdinlə yaşa!" / "Əmri-ilahidir: təslim ol, könül, /Gözünü buludtək sıxmaqdan keçib" ("Keçib"), "Ömrün günbatanı kəsib yolumu" ("Bu mətləb qədimdi"), "Sözlərə bunca ki divan tuturuq, /Sözlər öz rəngini itirə bilər", "Bir bağban dil vurar sözlərə calaq! /Dil bağban olmasa, söz qalar çolaq" ("Sözlər öz rəngini itirə bilər"), "Dünya çabaladı oxundan ayrı", "Ədalət üfüqdən baxdı axır ki", "Bulağın dodağı ballandı yenə" ("Ömrümüzün Novruz dastanı") və onlarla başqa şeirlərində fikir vüsətinin genişləndirən, bədii qayəni tam açmağa xidmət edən, xalq dilinin zəngin imkanlarını üzə çıxaran, eləcə də lirik qəhrəmanın duyğularını çalarlaşdıran potik frazeoloji vahidlərə rast gəlmək mümkündür. Şairin "Məndən sonra" şeirində işlənən "yolların sonunda dan yeri görmək", "arzuları yanı quzulu qalmaq" poetik frazeologizmlər yeni obraz yaratmaq gücünü özündə əks etdirməsi baxımından orijinal təsir bağışlayır:

Gah gördüm sısqayam, gah dedim Kürəm!
Gahdan heçəm, gahdan dünyayla birəm!
Yolların sonunda dan yeri görəm,
Arzularım yanıquzulu qalar! [2, s. 13]

Azərbaycan şeir dilini frazeologizmlərsiz təsəvvür etmək mümkün deyildir. Frazeoloji vahidlər birbaşa folklora söykəndiyi üçün şeirə mübhəm bir doğmalıq gətirir, lirik təəssüratı, obrazlılığı artırmaqla yanaşı mətndə milli poetik düşüncənin ağlagəlməz yeni məna çalarlarını yaradır. Digər bir tərəfdən poetik sabit birləşmələr çox güclü lakoniklik imkanları baxmından da fərqlənir. Bu mənada Məmməd Aslanın "Dünya" şeirində frazeoloji vahidlər *("Beş gün bir nizamda qalmaz hesabı, /Dünyada neçə yol dəyişdi dünya. /Dərdini çəkənə zindan əzabı, /Nəbzini tutana behiştdi dünya"*) mətndə güclü yığcamlılıq və ümumiləşdirmə yaradır.

Poetik fikrin estetik təsir gücünün artırılmasına, obrazlılığın yaradılmasına, ideyanın qavranılmasına zəmin yaradan məcazları həm də şeirin keyfiyyət göstəricisi kimi qəbul etmək olar. Ədəbiyyatşünas alim A.Hacıyev yazır: *"Bədii mətndə məcaz səlislik və obrazlılıqdır, fikrin təsirli və rəngbərəng çalarlarla ifadəsidir. Məcaz sözün nominativ mənasını və funksiyasını dəyişir, obrazı dolğun səciyyələndirməyə kömək edir"* [8, s. 183]. Məmməd Aslan yaradıcılığı ilə Azərbaycan şeir dili yeni

epitet, təşbeh və metaforlarla zənginləşmiş, poetik məna sistemi əlvanlıq qazanmışdır. Şairin məcazlaşdırmaq məqsədilə etdiyi müqayisələrdə, qarşılaşdırmalarda təbiət obyektləri üstünlük təşkil edir:

Tənha zirvələrin yar-yoldaşıyam,
Quşqonmaz dağların ağır qışıyam,
Mən qaya parçası, çaxmaq daşıyam,
Mən çətin adamam, asan deyiləm.
... Hirsini içində boğan vulkanam,
Hələ ki, Məmmədəm, Aslan deyiləm [2, s. 9]

"Tənha zirvə", "quşqonmaz dağ", "ağır qış", "hirsini içində boğan vulkan" epitetləri, yaxud özünü qaya parçası, çaxmaq daşı, vulkan ilə müqayisələrdə yaratdığı təşbehlər şairin öz təbiəti, xarakteti ilə bağlıdır. Hətta ad və təxəllüsün də bu yolla "müəyyənləşdirilməsi" maraq doğurur: hirsini içində boğan vulkan – Məmməddir, lakin püskürəndən sonra Aslan olacaq.

Məmməd Aslanın poeziya dilində "Məni aşılası təpə bilən kəs", "Deyərdim bu güllük bir Kəlbəcərdi", "Burada eşidilməz təksimli səsəm", "Orda çaxmaq çəksən, alışmaz qovam", "O yurdda mən nəyəm? – Məsrəfsiz bir daş", Mən bir köhnə yurd yeriyəm", "Bir gün acıyanda bu doğma torpaq, /Ağzının ən şirin loxmasıyam mən", "Bir sirli buludun yağmasıyam mən", "Mənim dilim Füzulinin qəzəli, / Hər misrası tonqal-tonqal püskürtü", "Dərbəndim, / Qolbağım, sinəbəndim", "Məşhur bir romanın dəhşət varağı – Sümüklü dərə" (təşbeh); "Çənələrdə keçir burda vaxt-vədə", "Marığa dayanıb ağzıgöyçəklər", "Özgə süfrəsindən bir loxma qapan", "Ulu göylər qaş-qabağın tökməsin", "Sözüm göy çəməni əyninə geysə, / Şah misram dəm tutar – çeşmələr neysə", "Başına döysə də su qırbacları, / Çiçəklər əl açar yağışa doğru", "Hələ tezdir üz bozardır qış yaza" (metafor); "Yoxsa quşlar bal yuxunu dağıtdı", "(epitet) poetik məcazlar həm də şairin özünəməxsus dəsti-xəttinin, fərdi poetik üslbunu da müəyyənləşdirən faktora çevrilmişdir.

Torpağı göyərməz, necə qorxubsa,
Çarşablı qayalar bürünüb yasa,
Göz yumub çəmənə, göz yumub yaza –
Sümüklü dərə.
Bura şəhidlərin gorsuz gorgahı,
Bura qatillərin məşhər günahı!
Uçqun dodağında saxlar min ahı –
Sümüklü dərə. [2, s. 41-42]

Şeirdə "çarşablı qayalar", "uçqun dodaq" kimi sənətkarcasına işlədilmiş epitetlər yeni təsir bağışlayır. Eyni zamanda dağ aşırımının – Sümüklü dərənin uçqun hissəsinin insan dodağına bənzədilməsi ilə gözəl bir təşbeh, torpağın qorxması, dərənin o hadisədən sonra çəmənə, yaza "göz yumması", dərənin özündə min ah-nalə saxlaması ilə silsilə metaforlar yaradılmışdır. Sətiraltı mənalar da yer aldığı bu məcazlar, yaxud "Qəzəbi tuşlanıb hansı nöqtəyə?!", "Çürütmür sümüyü görk olsun

deyə” və b. misralar bu əməlləri törədən bir ünvanı - qatil, nankor və bədxah ermənilər nişan verir.

Yazıçı-publisist İ.Məmmədli şairin yaratdığı poetik məcazların hətta ümumiləşərək bir aforizm səviyyəsinə qədər gəlib-çatması qənaətinə gəlmişdir: *“Çox vaxt onun ən yığcam misraları, qısa şeirləri belə min illik yaşı olan bir xalq deyimi, təkrarsız bir aforizm təsiri bağışlayır. Bu qəbildən olan şeirlərindən onun hələ gənc yaşlarında – 1968-ci ildə qələmə aldığı bir beyti misal göstərə bilərik ki, bu şeiri illərdən bəridir müxtəlif qələm adamlarının yaradıcılığında bir aforizm kimi işlədilməkdədir: ...Vətən gözdü, biz kiprik, Gözümüzün keşiyini çəkirik”[9]*

Məlumdur ki, bir-birinə zidd həyat lövhələri, mənzərələr, yaxud hadisə və prosesləri qarşılaşdırılmaqla yaradılan bədii təzadlar poetik fikrin daha təsirli və emosianal çatdırılmasını təmin edən üslubi fiqurdur. Obrazlılığı gücləndirən bu üslubi fiqur Məmməd Aslan poeziyasının dili üçün də səciyyəvidir. Şairin “Ömrümün hanası toxunmaz daha” (*“Bir yanım alqışdı, bir yanım qarğış, / Qədər dartdı məni qarğışa doğru. / Gözümdə günəş var, saçımda qar var, /Gün yaza çağırar, qar qışa doğru”*), “Dərbəndim” *(“Dərbəndim, / Hər üsulum, hər fəndim. /Sənə dərman tapmadım, /Mən hər dərdə dərmandım”*), “Bacarmadıq” *(“Səssizlikdə bir cəng gəzdik, / Rəngsizlikdə min rəng gəzdik, / Tarazlıqda pərsəng gəzdik - / Biz dostluğu bacarmadıq”*) “Hələ o demək deyil” (“Tək çiçək muştuluqdu, / Hələ yaz olmaq deyil./Vida ümid deməkdi, / Hələ üzülmək deyil”), “Qulaqlara uzanan ağızlar” (“Fili bağla qarışqanın qıçına, / Kim dartına, kim uçuna-uçuna”) və başqa onlarla şeirlərinin poetik mətni, demək olar ki, başdan-başa bir-birindən maraqlı fikir təzadları üzərində qurulmuşdur. Bu təzadlar təbiətin özündən gəlmədir, şair qoz ağacından yazsa da, insanı nəzərdə tutur:

Qoz ağacı barsız qaldı,
Danladılar –
Utandı.
Qoz ağacı bar gətirdi:
Budaqları budandı. [10, s. 249]

“Mən Günəşdən qoçağam” şeirində balaca uşaq Günəşin bir gün ərzində bu dağdan çıxıb o dağda batmasını vaxt baxımından tənbəllik sayır, özünü onunla müqayisə edir, belə bir hökm verir ki, dağlar arasında gözlə görünən bu məsafəni mən birnəfəsə qaçaram, ona görə də mən Günəşdən zirək və qoçağam. Beləliklə, uşaq və Günəş, tənbəllik və qoçaqlıq arasında olan bu müqayisədən incə bir bədii təzad yaranır:

Günəş o dağdan çıxır,
Gəlib bu dağda batır.
Bir saatlıq mənzilə
Bir günə zorla çatır.
Nə yoldur ki?
Mən onu

Birnəfəsə qaçaram. [4, s. 26]

"Günəbaxan kimə baxar?" şeirində günəbaxan bitkisinin "xarakteri" təzad yaradır; gün olanda göyə - Günəşə doğru boylanır, gün batandan sonra isə (Gündüz gözü / Göylərdədir, / Gün batanda / Mənə baxır...) başını aşağı salır və bu ziddiyyət, balaca lirik qəhrəmanı düşündürür ki, mətnin adı da bu düşüncədən yaranan sualla başlayır.

Şairin "Dünya" şeiri başdan-başa təzad üzərində qurulmuşdur; lirik qəhrəmanın gördüyü həyat həqiqətləri və özünün çəkdikləri ağrılı-acılı günlər yaşadığı dünyanın ağlasığmaz ziddiyyətli məqamlarını açır. Bu dünya insanın göz yaşlarını içməyə həris olacaq qədər qəddardır:

Dodağı göz yaşı içməyə həris,
İnildər mələyi, kef çəkər iblis.
Bilmirsən qadirdi, bilmirsən aciz,
Özü öz ağlıyla didişdi dünya. [11, s. 7]

Lirik qəhrəman düşünür ki, niyə yaxşı, saf insanlar əzab çəkir, pislər – iblislər xoş gün görür, bu mənada dünyanın qadir, yoxsa aciz olması da sual altında qalır. Dünya o qədər tez dəyişir ki, "Beş gün bir nizamda qalmaz hesabı", ona görə də onun dərdini çəkənə zindan əzabı olsa da, "Nəbzini tutana behiştdi dünya". Ancaq şeirin sonunda şair nikbin görünür, ömrün çoxu qayğılarla keçsə də, "Qoruya biləsən gərək çuxanı, Səni qorxutmasın qarı-çovğunu".

Məmməd Aslanın şeirləri üzərində apardığımız araşdırmalar təsdiq edir ki, şair atalar sözü və zərb-məsəllərdən iki yolla istifadə etmişdir:

1. Atalar sözləri və zərb-məsəllərin şeirə canlı xalq danışıq dilində olduğu kimi daxil edilmişdir.

2. Atalar sözləri və zərb-məsəllər şeirin vəzn-qafiyə sisteminin, ideya-məzmunun tələbinə uyğun əlavələr edilməklə daxil edilmişdir.

Bir sıra tədqiqatçıların gəldiyi qənaətə görə, atalar sözü və zərb məsəllərin şeirdə "xam material" kimi istifadə edilməsinin özünəməxsus çətinlikləri vardır. Belə ki, sənətkar istifadə edəcəyi atalar sözü və zərb-məsəlləri şeirin poetexniki tələblərinə uyğunlaşdırmağı bacarmalıdır. Əksi halda, onun istifadə edəcəyi "xammal" şeirin poetik vüsətinə xələl gətirər. Deməli, bu prosesin uğurla başa çatmasını təmin edə biləcək yeganə vasitə şairin istedadıdır:

Göz görməsə, könül sevməz,
Doğru sözə nə deyəsən?!
Dünya belə qurulubdu,
Yola- izə nə deyəsən?!. [2, s. 62]

Sənətkar əsərlərində istifadə etdiyi hər bir atalar sözünü nəzərdə tutduğu poetik fikrə uyğun işlətməyi bacarmışdır. Belə ki, poetik nümunədə öz əksini tapmış frazeoloji vahid şəklində olan "Göz görməsə könül sevməz" atalar sözü şeirin ümumi ahəngini qüvvətləndirmiş, yüksək emosionallıq yaratmışdır. Dilimizin özünəməxsus incəliklərinə dərindən bələd olan Məmməd Aslanın şeirlərində sıx-sıx işlənən

frazeologizmlər onun əsərlərinin bədii dəyərinin və milli koloritinin artırılmasına xidmət göstərmişdir. Poetik nümunələr üzərində apardığımız araşdırmalar sübut edir ki, xalq dilinin əzəli ilkinliyi və onun poeziyada mükəmməl ifadəsi poetik frazemlərsiz mümkünsüzdür:

İyirminci əsrin nəfəsi xəstə,
Nə ona dərd söylə, nə dırman istə.
Qəssab piy axtarır, keçi can üstə,
Nə hayda gör mənəm, nə hayda dünya. [2, s. 59]

Şair "Keçi can hayında, qəssab piy axtarır" atalar sözünü şeirin ahənginə və qafiyəsinə uyğun işlətmişdir ki, formal görünmür, yaranmış situasiyanın tələbinə uyğun zəruri hal kimi meydana çıxır. Söz sənətkarı xalq yaradıcılığı "çeşməsindən su içdikcə" əsərləri orijinallaşmış, həm də xəlqiləşmişdir:

Yıxılan adama adam gülməz ki,
Eh, kimin başına qəza gəlməz ki,
Yollar haçan bitir bilə bilməz ki,
Əcəl köhləninə minən bu kişi. [2, s. 65]

Xalq arasında tez-tez işlənən "Yıxılan adama gülməzlər" atalar sözü yuxarıda nümunə verdiyimiz bu şeir parçasında fərqli ifadə olunmuşdur. Göründüyü kimi, şeirdəki hecaların sayını və qafiyə quruluşunu nəzərə alan şair bilərəkdən söz sırasını pozmuş, "Yıxılan adama adam gülməz ki" formasında onu şeirin mövcud qəlibinə daxil etmişdir. Bu isə şairin yüksək sənətkalıq səriştəsini və onun dillə işləmək ustalığını nümayiş etdirir. Məmməd Aslanın şeirlərinin dilində işlənən atalar sözləri və məsəllərin emosional gücü və yükü olduqca yüksək və diqqətçəkicidir. Digər bir tərəfdən poetik sabit birləşmələr çox güclü lakoniklik imkanları baxmından da fərqlənir. Bu mənada Məmməd Aslanın "Dünya" şeirində işlənmiş "Beş gün bir nizamda qalmaz hesabı", "Dünyada neçə yol dəyişdi dünya", "Dərdini çəkənə zindan əzabı, Nəbzini tutana behiştdi dünya" kimi frazeoloji vahidlər mətndə güclü yığcamlılıq və ümumiləşdirmə imkanları yaradır.

Ədəbiyyat:

1. Yusifoğlu, R.Ə. Ədəbiyyatşünaslığın əsasları. Dərslik / R.Y.Əliyev. - Bakı: Şirvannəşir, 2005, 276 s.
2. Aslan, M.M. Seçilmiş əsərləri / M.M.Aslan. - Bakı: Avrasiya-press, - 2006. - 320 s.
3. Hüseynov, M.A. Səsin poeziyası / M.A.Hüseynov. – Bakı: Elm və təhsil, - 2010. – 318 s.

4. Aslan, M.M. Səhəri kim açır. Şeirlər və poemalar / M.M.Aslan. - Bakı: Gənclik, - 1975. - 141 s.
5. Aslan, M.M. Böyürtkan – böyrü tikan / M.M.Aslan. - Bakı: Gənclik, -1972. - 31 s.
6. Adilov, M.İ. Uşaq və şeir / M.Adilov, V.Mərdanov. - Bakı: Elm, - 2019. - 240 s.
7. Hüseynov, M.A. Poetik frazeologiya / M.A.Hüseynov. – Bakı: Elm və təhsil, - 2013. - 166 s.
8. Hacıyev, A.M. Ədəbiyyatşünaslığın əsasları. Ali məktəblərin filologiya fakültələri üçün dərslik / A.M.Hacıyev. - Bakı: ADPU, - 2005. - 367 s.
9. Məmmədli, İ.M. Ömrü söz yolunda girov qoyan şair: [Elektron resurs] - / Bakı: 2019, URL: https://dalidag.az/karusel/557-omru-soz-yolunda-girov-qoyan-sair-memmed-aslan.html
10. Aslan, M.M. Ömrün yarı yaşında (Şeirlər və lirik poema) / M.M.Aslan. - Bakı: Yazıçı, - 1986. - 275 s.
11. Aslan, M.M. Bilməcədi bildiyimiz bu dünya. Şeirlər / M.M.Aslan. - Bakı: Yazıçı, - 1990. - 310 s.

ИСКАНДЕРОВ Б.А.

ПОЭТИЧЕСКИЕ ФИГУРЫ И ПРОЯВЛЕНИЕ НАРОДНОГО КОЛОРИТА В ТВОРЧЕСТВЕ МАМЕДА АСЛАНА

РЕЗЮМЕ

Художественный язык Азербайджана дошел до наших дней, профильтровавшись и отмыв от богатого фольклора нашего народа, наших эпосов, творчества влюбленных, языка наших художников-классиков. Общеизвестно, что уровень и высота выразительных возможностей поэтического языка, берущего свое начало из разговорной речи народа, реализуются благодаря средствам художественного описания и выражения, а мир мысли становится более точные и полные благодаря им. Стихи Мамеда Аслана, творчески использующие живые средства выразительности национального языка, стали поэтическим переводчиком тонкого народного духа. В статье рассматривается создание поэтических эмоционально-выразительных текстов путем достаточного использования художественных повторов, аллитераций, ассонансов, фразеологизмов, пословиц, пословиц, широко употребляемых в разговорном языке поэта на протяжении всего его творчества, а также путем использования разнообразных новых метафор, был найден научно-теоретический анализ. Художественные повторы слов - анафоры, эпифоры, аллитерации и ассонансы, являющиеся важным

компонентом интонации в стихотворении Мамеда Аслана, в совокупности выступают основным фактором, способствующим усилению поэзии и придающим остро поэтичности мысли. Традиция двойного повторения слов в азербайджанской детской поэзии (Burda küçə çinar-çinar, bəzək-bəzək, dilim-dilim; Qanad açar ələk-ələk və s.) создавала ритмику и гармонию, музыкальность, вносила в содержание образность. детских стихов поэта. Поэтические метафоры, служащие повышению эстетического воздействия поэтической мысли, также являются в стихотворении Мамеда Аслана показателем качества, создающим основу для понимания идеи. Пословицы и поговорки использовались в индивидуальном творческом стиле поэта, специально адаптированном к поэтическим требованиям литературного текста. Интересные контрасты художественных идей исходят от самой природы.

Ключевые слова: Мамед Аслан, поэтические образы, колорит народного языка, аллитерация, ассонанс, художественный повтор, художественный контраст, фразеологизмы.

ISKANDEROV, B.A.

POETIC FIGURES AND MANIFESTATION OF FOLK COLOR IN THE WORKS OF MAMED ASLAN

SUMMARY

The artistic language of Azerbaijan has come down to the present day after being filtered and rinsed from the rich folklore of our people, our epics, the creativity of lovers, and the language of our classical artists. It is a well-known fact that the level and height of the expressive possibilities of the poetic language originating from the colloquial language is realized due to the means of artistic description and expression, and due to them, the world of thought becomes more precise and complete. Mammad Aslan's poems, which creatively benefit from the lively means of expression of the national language, have become a poetic translator of the delicate folk spirit. In the article, a scientific-theoretical analysis of the creation of poetic emotional-expressive texts by making sufficient use of artistic repetition, alliteration, assonance, phraseology, proverbs, proverbs and using a variety of new metaphors, which are widely used in the colloquial language of the poet, has been found in the article. Artistic word repetitions - anaphoras, epiphoras, alliteration and assonance events, which are an important component of intonation in Mammad Aslan's poetry, together act as the main factor that encourages the strengthening of poetry and makes the idea sharply poetic. The tradition of double repetition of words in Azerbaijani children's poetry (Burda küçə çinar-çinar, bəzək-bəzək, dilim-dilim; Qanad açar ələk-ələk və s.) created rhythm and harmony, musicality, and brought imagery to

the content of the poet's children's poems. Poetic metaphors, which serve to increase the aesthetic impact of poetic thought, are also a quality indicator in Mammad Aslan's poem, which creates a basis for understanding the idea. Proverbs and proverbs were used in the individual creative style of the poet, specifically adapted to the poetic requirements of the literary text. Interesting contrasts of artistic ideas come from nature itself.

Keywords: Mammad Aslan, poetic figures, folk language color, alliteration, assonance, artistic repetition, artistic contrast, phraseologisms

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: Filologiya elmləri doktoru, professor Aslan Bayramov tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ İSLAMZADƏ
Bakı Dövlət Universiteti, dosent
Azərbaycan Respublikası
kemale_67@mail.ru

"KİTABİ-DƏDƏ QORQUD"UN XII BOYUNDA KONFLİKTİN SƏBƏBLƏRİ VƏ MƏNƏVİ ASPEKTLƏRİ

XÜLASƏ

Bədii yaradıcılığın həm yazılı, həm də şıfahi qolunda mənəvi məsələlər həmişə ön planda olmuşdur. Əsərin kompozisiyasının hər bir mərhələsi oxucu və ya dinləyiciyə mənəvi ismarışların ötürülməsinə müəyyən dərəcədə öz töhfəsini verir. Kompozisiyanın düyün nöqtəsində formalaşan konflikt də bu nöqteyi-nəzərdən kifayət qədər fəaldır.

Məqalədə "konflikt" və "kolliziya" istilahlarının nəzəri cəhətdən səciyyəsi verilmişdir. Həmçinin epik folklor nümunələrində müşahidə edilən konfliktləri doğuran səbəblər ümumiləşdirilərək təqdim olunmuşdur. Eləcə də konfliktin tərəfləri, onların sayı, ziddiyyətlərin kəskinlik dərəcəsi, şəxsi-məişət yaxud dövlət xarakterli olması kimi məqamlara diqqət yetirilmişdir. Konfliktin mənfi və müsbət qütblərdə dayanan tərəflərinin antaqonizmindən çıxarılan nəticələr mənəvi-əxlaqi dəyərlərin təbliği baxımından böyük əhəmiyyət daşıyır.

Məqalədə "Kitabi-Dədə Qorqud" dastanının XII boyunda izlənilən konflikt həm tarixi, həm də folklor müstəvisində araşdırılmışdır. Tarixi əsasa malik olan həmin konflikti doğuran motivlərin folklora keçərkən təhrif edilməsi müəyyən amillərlə şərtlənmişdir. Bu məsələ ilə bağlı müxtəlif alimlərin irəli sürdükləri arqumentlərə müəllif tərəfindən münasibət bildirilmişdir.

Açar sözlər: konflikt, kolliziya, mənəvi aspekt, "Kitabi-Dədə Qorqud", İç Oğuz, Daş Oğuz, kompozisiya.

Giriş. Xalqın şifahi yaradıcılığı həm də xalq pedaqogikasının əsasını təşkil edir. Folklor vaxtı maraqlı və əyləncəli keçirmək, müəyyən şəxsiyyətlərin adını əbədiləşdirmək, tarixi hadisələri yaddaşlara köçürmək, uşaqların nitqini, əqli və fiziki imkanlarını genişləndirmək, adət-ənənələri əsrdən-əsrə ötürmək vəzifələrindən başqa, bir də hər növbəti nəslə təməl mənəvi dəyərləri aşılamaq kimi bir missiyanı daşıyır. Ağız ədəbiyyatı nümunələri bu baxımdan pedaqogika elminin bünövrəsini qoyan, onu zənginləşdirən bir qaynaq rolunu oynamışdır. Akademik Q.Volkov yazmışdır: «Nəsillər arasındakı varislik şəxsiyyətin sosial inkişafı və xalqın mənəvi tərəqqisi amili kimi çıxış edən tərbiyənin vasitəsi ilə təmin olunur» (2, 22).

Folklor vasitəsilə mənəvi dəyərlərin təbliği həm birbaşa, həm də dolayı yolla, sətiraltı məzmunun köməyi ilə həyata keçirilir. Əsərin kompozisiyasının hər bir komponenti bu məsələyə öz payını verir. Oxucunu, dinləyicini əsərin personajları, zaman və məkan parametrləri ilə tanış edən, çox maraqlı deyilsə də, vacib və mütləq

sayılan ekspozisiyadan fərqli olaraq, konfliktin yaranması ilə düyün nöqtəsi formalaşır ki, bununla süjetə bir canlanma, dinamika gəlir. Konflikt tərəflərin zidd görüşlərinin, fərqli mövqe və maraqlarının kəsişməsini, qarşıdurmasını nəzərdə tutur, sözlü atışma, yaxud fiziki toqquşmanı (bəzən hər ikisini) ehtiva edir. Konflikt oxucu və ya dinləyicidə müxtəlif emosiyalar doğurmaqla yanaşı, süjetin inkişaf edib kulminasiya zirvəsinə çatmasına təkan verir. Həmçinin ayrı-ayrı personajları tanımaq fürsəti qazanan oxucu (dinləyici) müəyyən bir tərəf tutaraq onunla birlikdə sevinib kədərlənir, həyəcanlanır, haldan-hala düşür. «Konflikt» termini ənənəvi olaraq ədəbiyyatın dramatik və epik növlərinə, teatr və kinoya, yəni incəsənətin təsviri-dinamik formalarına tətbiq edilir» [1, c.165-166].

Nəzəri arayış. Folklor nümunələrindəki qarşıdurmalar «konflikt» terminindən başqa, bir də ilk dəfə Hegel tərəfindən nəzəri xarakteristikası verilmiş (3, 205-206) «kolliziya istilahı» ilə işarələnir. Yəni əsərdə bir deyil, bir neçə zidd tərəf mövcud ola bilər. Kolliziya – əsərin tarixi miqyası baxımından qlobal xarakterli təməl ziddiyyətidir ki, onun fonunu təşkil edir (məsələn, «Kitabi-Dədə Qorqud»da müsəlman Oğuzlarla kafir qıpçaq türkləri və qeyri-türk gürcü, abxaz tayfaları arasındakı qarşıdurmalar). Digər kiçik ziddiyyətlər bu böyük, daha çox insanı içinə alan antaqonizmin fonunda cərəyan edir (məsələn, Qazan xanla dayısı Aruz və onları təmsil edən İç Oğuzla Daş Oğuz arasındakı konflikt; Qazan xanla oğlu Uruz, yaxud Bəkil arasındakı anlaşılmazlıq; Selcan xatun – Qanturalı gərginliyi; 40 namərdlə Dirsə xan arasındakı konflikt; Təpəgözlə Oğuz eli düşmənliyi və s.). Bu konfliktlərin xarakteri, tərəflərinin say nisbəti, şiddəti ilə bağlı da fikir yürütmək mümkündür. Belə ki, konflikt iki xalq, tayfa, toplum arasında (müsəlman oğuzlar – kafirlər; İç Oğuz – Daş Oğuz) olduğu kimi, iki qəhrəman (Qazan xan – Bəkil); bir şəxslə cəmiyyət (Təpəgöz - Oğuz eli); qəhrəmanla fövqəltəbii qüvvələr (Dəli Domrul –Əzrayıl); qəhrəmanla özü (Təpəgöz) arasında təzahür edə bilər. Konflikt əsərin kompozisiyasının uyumlu şəkildə qurulması, əsas ideya istiqamətinin müəyyənləşməsi, surətlər arasında qarşılıqlı əlaqələrin təmini üçün zəruridir.

Konfliktin mövcudluğu həmçinin onun həllini də ehtiva edir. Bəzi əsərlərdə konfliktin yaranması, inkişafı və çözülməsi bir süjet daxilində izlənilə bilir. Məsələn, Qanturalı və Selcan Xatun arasındakı konflikt süjet daxilində həllini tapır. Lakin həll olunmayan, vəziyyət, şərait xarakteri daşıyan, sabit konflikt anlayışı da vardır. Buna nümunə kimi «Kitabi-Dədə Qorqud» dastanında oğuzlarla qıpçaqlar arasındakı konflikti göstərə bilərik. Oğuz bəyləri öz silahdaşları ilə ayrı-ayrı məlikləri cəzalandırsalar da, bir çox döyüşlərdən qalib ayrılsalar da, konfliktin köklü şəkildə çözülməsindən danışmaq olmaz.

Ehtirasların tüğyan etdiyi, maraqlı, kəskin, orijinal süjet məhz konflikt tərəflərinin emosionallığı, dinamikliyi, prinsipiallığı ilə müəyyənləşir.

Nəzərdən keçirilməli olan daha bir aspekt konfliktin motivləri, başqa sözlə, onu doğuran səbəblərdir. Həm folklor, həm də yazılı ədəbiyyat bunun sonsuz sayda variantlarını təqdim etsə də, bir çox əsərlərin əsasında duran, artıq klassikləşmiş

səbəbləri (motivləri) ümumiləşdirərək sadalamaq mümkündür: qan davası, köhnə intiqam, xəyanət, ərazi iddiası, hakimiyyət məsələsi, fərqli dinlərə mənsubluq, varislik prinsiplərinin pozulması, ənənələrdən kənaraçıxma, rəqabət, ögeylik, ailə münaqişəsi, müxtəlif nəsillər arasındakı anlaşılmazlıq və s. Zidd tərəflərdən hər biri dəqiq, aydın məqsədə malik olub, özünün doğru sandığı mövqeyini müdafiə edir. Əlbəttə ki, oxucunun rəğbəti məntiqli, mənəviyyatlı, ədalətli tərəfə olacaq, əxlaq, vicdan, haqq kimi dəyərləri heçə sayan qarşı tərəf isə onu qıcıqlandıracaq. Yəni konflikt oxucu və dinləyicinin süjetdəki hadisələrə laqeyd qalmasına imkan vermir. Onun daxilində bir münasibət formalaşdırır. Əslində bu zaman əsər qarşısına qoyduğu məqsədə çatmış olur, yəni əxlaqi-tərbiyəvi missiyasını icra edir, mənəvi mesajı oxucu və dinləyiciyə ötürür. Beləliklə, antaqonist kateqoriyalar olan xeyir-şər, doğru-yalan, ədalət-haqsızlıq konflikt tərəflərinin timsalında təzahür edərək öz təbliğat funksiyasını yerinə yetirir.

Yağmalama mərasimində üstü açılan həqiqətlər. Öz dramatizmi, faciəviliyi və bir çox suallar doğurması ilə diqqəti çəkən qarşıdurmanı dastanın "İç Oğuza Taş Oğuz asi olub Beyrək öldügi boy"unda izləyirik.

Oğuz cəmiyyətinin daxilində uzun müddət ərzində yetişmiş və əsaslı səbəblərdən qaynaqlanan, onu içəridən zəiflədən konflikt barədə XII boyda bəhs edilir. Bu, İç Oğuzla Daş Oğuz arasındakı ziddiyyətlərdir. Bu konflikti doğurmuş səbəbləri müəyyənləşdirmək üçün dastanın digər boylarına səpələnmiş ayrı-ayrı epizodları, işarəedici qəlpələri bir araya gətirərək ümumi mənzərəni bərpa etmək zəruridir.

Eyni kökdən şaxələnmiş, genetik bağları, qohumluq əlaqələri olan bu iki Oğuz tayfasının münasibətlərini pozan hadisə dastanın mətnində belə təsvir edilir: «Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş Oğuz bilə bulunmadı. Həmin İç Oğuz yağmaladı…. Taş Oğuz bəgləri Qazana gəlmədilər, ədavət eylədilər» [4, s.123].

Bu parçadan anlaşılır ki, ədavətə səbəb vaxtaşırı keçirilən ənənəvi yağmalama mərasiminin Daş Oğuz orada olmadığı vaxtda icra edilməsidir. Lakin bu xəsisliklə verilən informasiya oxucuda bir sıra suallar doğurur. Məsələn: Nə üçün İç Oğuz mərasimi keçirmək üçün Daş Oğuzun orada olmadığı vaxtı seçmişdir? Onları da dəvət etmək olmazdımı? Mərasim başqa vaxta təxirə salına bilməzdimi? Bəlkə elə Daş Oğuzun mərasimdə iştirakı arzuolunmaz imiş?

Yağmalama mərasiminin mahiyyətini araşdırmaqla məsələnin üzərinə bir qədər işıq salmaq mümkündür. Qazan xan Burla xatunun əlindən tutub evindən çıxar, bəylər isə onun var-dövlətini aralarında paylaşdırar, daşıyıb apararardılar. Yəqin ki, bəylərbəyinin bu jestini belə şərh etmək olar: «Mənim nəyim varsa, tayfama məxsusdur. Var-dövlətim sizə qurbandır. Sizin dostluğunuz, sədaqətiniz mənim üçün daha qiymətlidir».

Deməli, əgər Qazan xan öz var-dövlətini Daş Oğuzla bölüşmək istəməyibsə, onların dostluğuna, sədaqətinə inanmırmış. Belə çıxır ki, ədavət zaman etibarilə bir qədər də əvvələ dayanır və səbəb daha dərində gizlənir.

Oğuz boylarının adları nədən xəbər verir? Əgər bu iki tayfanın Oğuz xaqanın nəslindən olduğunu nəzərə alsaq və «Kitabi-Dədə Qorqud»u «Oğuz xaqan» dastanının davamı kimi götürsək, həqiqəti üzə çıxara bilərik. Oğuz türklərinin ulu əcdadı və dövlət kimi mühüm bir strukturu yaratdığına görə həm də demiurqu sayılan Oğuz xaqan hakimiyyətini övladları arasında bölərkən Üç ok adlandırdığı kiçik oğlanlarının Boz ok adlandırdığı böyük oğlanlarına tabe olmalı olduqlarını hökm etmişdi. Fəzlullah Rəşidəddin öz «Oğuznamə»sində 24 oğuz boyunun adlarını çəkmiş, onların Boz oklara və ya Üç oklara mənsubiyyətini də qeyd etmişdir. Bu qeydlərə əsasən Bayandır xanın aid olduğu «Bayandur» boyu, Qazan xanın aid olduğu «Salur»boyu Üç oklardandır [6, s.39-41]. Lakin «Kitabi-Dədə Qorqud» dastanında onların hakimiyyətdə olduqlarını görürük. Deməli, tarixin hansısa bir mərhələsində Oğuz xaqanın qoyduğu nizam pozulmuş, Üç oklar hakimiyyətə gəlmiş, Boz okları özlərinə tabe etmişlər. Dədə Qorqudun aid olduğu «Bayat» boyu isə Boz oklardandır. Deməli, Dədə Qorqudun yarı arzu, yarı öncəgörmə kimi dediyi «Axır zamanda xanlıq gerü — Qayıya dəgə, kimsənə əllərindən almıya. Axır zaman olıb qiyamət qopunca bu didügi Osman nəslidir. İşdə sürilib gidə-yürir» [4, s.31]sözləri heç də təsadüfi xarakter daşımır.

Dədə Qorqudun xatırlatdığı Qayı (Kayı) boyu da Boz okların ilk və əsas tayfasıdır. El ağsaqqalının «kimsənə əllərindən almıya» sözləri isə açıq-aşkar Boz okların hakimiyyəti itirdiklərinə işarədir. Qorqud Atanın "Qayıya dəğə" deyimi müasir ifadədə "Qayıya dönə", yəni yenidən qayıda deməkdir. Hakimiyyətin əvvəllər Qayı tayfasında olduğunu, sonradan əllərindən alındığını, lakin yenidən onlara dönməsinin arzulandığını bildirən bu cümlə mühüm bir tarixi faktın, haqsızlığın, iyerarxik ənənənin pozulmasının üstünü açır. Bəs nə üçün Dədə Qorqud dövlətin mövcud durumundan narazıdır və Qayıların hakimiyyətini həsrətlə xatırlayır? Çünki dövlət əvvəlkinə nisbətən xeyli zəifləmişdir.Vaxtilə çox miqdarda bac-xərac ("altun-aqça") verən vassallar bu vergini təhqiramiz səviyyəyədək azaltmışlar (Gürcüstan Bayındır xana bir at, bir qılınc, bir çomaq göndərir). Düşmənlər hər tərəfdən Oğuzların üzərinə ayaqlanmışlar. Ölkənin daxilində xeyli casus fəaliyyət göstərir və Oğuzların hər bir addımı, yerdəyişməsi barədə məlumat ötürür (Məsələn, Qazan xanın ova yollanmasından, Banu Çiçəyin Beyrəyə verilməsindən, bəzirganların Dərbənd yaxınlığında olmalarından, atdan yıxılan Bəkilin ayağını sındırmasından kafirlər məhz casuslar vasitəsilə xəbərdar olurlar). Ən əsası isə Oğuz xaqanın miras qoyduğu ərazi ilə müqayisədə Üç oklar xeyli torpaq itirmişlər. Dastanın müqəddiməsində Dədə Qorqud haqqında - "Oğuzın ol kişi təmam bilicisiydi, - nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq təala anın könlinə ilham edərdi" [4, s.31] – məlumatından sonra onun Qayılarla bağlı dediklərinin verilməsi həmin informasiyanın məhz öncədəngörmə olduğuna dəlalət edir. Dədə Qorqud Osmanlı

dövlətinin timsalında Qayıların yenidən hakimiyyətə qayıdacaqlarını qabaqcadan müjdələyir.

Beləliklə, dastandakı Daş Oğuz tayfası hakimiyyəti əlindən alınmış Boz oklardır. Əslində, mətnin bir neçə yerində buna işarələr vardır. Məsələn, «Salur Qazanın evi yağmalandığı boy»da ova yollanan Qazan Xandan dayısı, eyni zamanda Daş Oğuzun başçısı Aruz qoca soruşur ki, Gürcüstan sərhəddinə gedirsən, bəs ordunun üstünə kimi qoyursan? Qazan xan Oğuz elini təcrübəli Aruz qocaya əmanət etmək əvəzinə, hələ bərkə-boşa düşməmiş, gənc oğlu Uruza tapşırır. Bu, Qazan xanın Daş Oğuza sonadək güvənmədiyini və orduya nəzarəti Boz oklara verməyə ürək etmədiyini göstərən faktdır.

«Beyrəyin boyu»nda kafirin casusu Bayburd hasarının bəyinə xəbər apararkən deyir ki, Baybican bəy sənə verəcəyi qızını Beyrəyə verdi. Deməli, Daş Oğuzdan olan Baybican bəy hələ Banu Çiçək doğulmazdan öncə qızı olsa, Baburanın oğluna verəcəyi ilə bağlı digər bəylərin təklifinə dilucu «hə» desə də, artıq dualar Allah qatında qəbul olunduqdan, qızı dünyaya gəldikdən sonra onu Üç Oklara gəlin etməkdənsə, kafir bəyinə verməyi üstün tutmuş, onunla gizli sözləşməsi olmuşdur. Bu da köhnə ədavətin mövcudluğunu işarələyən əlamətdir.

Daha bir fakt Daş Oğuzdan olduğu güman edilən (dastanda bu məsələ tam olaraq açıqlanmır, lakin bəzi epizod, nüans və işarələr belə bir ehtimal irəli sürməyə imkan verir) Yalançı oğlu Yalancuqun Beyrəyin yalan ölüm xəbərini gətirib Banu Çiçəyə elçi düşməsidir. Bütün bunlar Oğuz elindəki zahiri idilliyanın aldadıcı olduğunu, necə deyərlər, «qazanların qapalı qaynadığını» nümayiş etdirməkdədir. Köhnə ədavətin ayrı-ayrı boylarda müşahidə etdiyimiz közərtiləri, nəhayət, alovlanıb hər iki tayfaya zərər vuracaq yanğına çevrilməli idi. Aruzun Qazana qarşı onunla birləşmək təklifinə Beyrəyin rədd cavabı verməsi, bunu öz ölümü ilə ödəməsi gizli konfliktin açıq-aşkar fazaya keçidi idi.

Tarixi baxımdan mənfi işarəli İç Oğuzların epik təfəkkürün məhsulu olan dastanda müsbət işarə qazanmasını və hər cür öyülməsini folklorşünas Əfzələddin Əsgərin aşağıdakı fikirləri ilə əsaslandırmaq mümkündür: “Boylarda epik sosiumun mənzərəsi, bizcə, Ağqoyunlu elinin maraqlarına uyğun şəkildə çəkilib… Bununla yanaşı, dastanlarda təqdim olunan epik düşmənlərin bir hissəsi Ağqoyunlu düşmənləridirsə, adı çəkilən oğuz tayfalarının da ən azı bir hissəsi Ağqoyunlu dostlarıdır” [8, s.142]. Müəllif dastanın əlyazmasının Bayandur tayfasından olan Ağqoyunluların dövründə tərtib olunduğunu, onların mövqeyinin və siyasi maraqlarının nəzərə alındığını hesab edir. Bu da sətirlərinin, deyimlərinin arxasında acılı-şirinli həqiqətlərin gizləndiyi söz abidəmizin daha bir sirri.

Bu məqamda dastan boyu rastımıza çıxan «Qalın Oğuz» anlayışına diqqəti yönəltmək yerinə düşər. Bu etnonim Üç ok və Boz ok (İç Oğuz və Daş Oğuz) tayfalarının birliyini ifadə edir. Folklorşünas Atif İslamzadə ayrıca bir məqalədə həmin etnonimi açıqlamağa çalışmışdır [bax:7, s.53-60].

«Qalın» sözü «nazik» kəlməsinin antonimi kimi möhkəmliyi, davamlılığı bildirir. Bir oxu sındırmaq asan olduğu halda, üç oxu birləşdirib qırmaq bəlli bir güc sərfini tələb edir və o qədər də sadə bir tapşırıq deyil. Başqa sözlə, yalnız bu tayfaların birliyi onları Qalın – yəni möhkəm, basılmaz, güclü edən faktordur. Qalın Oğuzun bəylərbəyi Qazan xanın vəzifəsi bu sarsılmış birliyi bərpa etmək, onun dayaqlarını laxladanları cəzalandırmaq, Beyrəyin vəsiyyətini ("Mənim qanım qomıyasan, alasan" [4, s. 125]) yerinə yetirməkdir. Aruzu məğlub etməklə Qazan xan artıq qardaş qanı tökmədən əfv diləyən Daş Oğuz bəylərini bağışlayır. Beləliklə, konflikt bitir. Bu, epos əxlaqının dəyişməz, sabit qanunudur və tarixi hadisələrə tabe deyil. Gerçəklikdə hadisələrin axarının istiqamətindən asılı olmayaraq, epos təfəkkürünün xalqın çoxəsrlik ənənələrinə əsaslanan öz dəyərləri var ki, heç bir vəchlə onlardan kənara çıxmır.

Nəticə.

Bu konfliktdən almalı olduğumuz mənəvi dərsləri belə xülasə edə bilərik:

- heç zaman cılız hakimiyyət hərisliyi dövlət maraqlarından üstün olmamalıdır;
- dövlətçiliyə xəyanətə təhrik edən mütləq cəzalanmalıdır;
- mərhumun vəsiyyətinin yerinə yetirilməsi zəruridir;
- cəmiyyət daxilində birlik və həmrəyliyin olması xalqın rifahını təmin edən faktordur;
- səhvini anlayıb əfv diləyənləri birliyə nail olmaq üçün bağışlamaq mümkündür;
- əsl düşmənə - xarici təhlükələrə qarşı möhkəm durmaqdan ötrü daxili anlaşılmazlıqları vaxtında həll etmək vacibdir.

"Kitabi-Dədə Qorqud" dastanının XII boyundakı ziddiyyətlərin bizə öyrətdikləri bunlardır.

ƏDƏBİYYAT

1. Литературный энциклопедический словарь (под общей редакцией В.М.Кожевникова и П.А.Николаева). М.: Советская энциклопедия, 1987, 752 с.
2. Волков Г.Н. Этнопедагогика. М.: Издательский центр «Академия», 1999, 168 с.
3. Гегель Г.В.Ф. Эстетика. Т 1. М., 1968, 312 с.
4. Kitabi-Dədə Qorqud (tərtib edənlər: Fərhad Zeynalov və Samət Əlizadə). Bakı: Yazıçı, 1988, 265 s.
5. Əliyev K. Açıq kitab – "Dədə Qorqud". Bakı: Elm və təhsil, 2015, 116 s.
6. Rəşidəddin F. Oğuznamə (fars dilindən tərcümə, ön söz və şərhlər R.M.Şükürovanındır). Bakı: Azərnəşr, 1992, 72 s.
7. İslamzadə A. Oğuz epik ənənəsində "Qalın Oğuzun dövləti" iyerarxiya işarəsi kimi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, II (49). Bakı: Elm və təhsil, 2016, s. 53-60
8. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.

Kamala Islamzadeh
Baku State University, Associate Professor

The reasons and moral aspects of the conflict in the XII story of the epos "Kitabi-Dede Korkud"

Summary

Keywords: conflict, collision, moral aspect, "Kitabi-Dede Korkud", Ich Oghuz, Dash Oghuz, composition

In both oral and written folk art, moral issues have always been in the foreground. Each stage of the composition of a work, to a certain extent, makes its contribution to the spiritual education of readers or listeners. The conflict that forms at the plot of the composition is also quite active in this regard.

The article characterizes the concepts “conflict” and “collision” from a theoretical standpoint. The causes of the conflicts in epic folklore samples are summarized and considered. Particular attention is also paid to such problems as the parties to the conflict, their number, the degree of severity of the contradictions, their personal- everyday or state nature. Conclusions arising from the antagonism of the parties on the positive and negative poles of the conflict have a large significance from the standpoint of promoting spiritual and moral values.

In the article, the conflict that can be traced in the XII story of the epos " Kitabi-Dede Korkud" is analyzed both in historical and folklore perspectives. Distortion of the motives of this conflict, which has historical basis, during the transition to folklore is due to certain factors. The author of this article expresses her attitude to the arguments and views of various scientists on this problem.

Кямаля Исламзаде
Бакинский Государственный Университет,
кандидат филологических наук

ПРИЧИНЫ И НРАВСТВЕННЫЕ АСПЕКТЫ КОНФЛИКТА В XII СКАЗАНИИ ЭПОСА “КНИГА МОЕГО ДЕДА КОРКУДА”

РЕЗЮМЕ

Ключевые слова: конфликт, коллизия, нравственный аспект, "Китаби-Деде Коркуд", Ич Огуз, Даш Огуз, композиция

Как в устном, так и в письменном народном творчестве нравственные проблемы всегда находились на переднем плане. Каждый этап композиции произведения в определенной степени вносит свою лепту в духовное воспитание читателей или слушателей. Конфликт, формирующийся в завязке композиции, в этом плане достаточно активен.

В статье дается характеристика понятий "конфликт" и "коллизия" с теоретической точки зрения. Обобщаются и рассматриваются также причины,

порождающие конфликты в эпических фольклорных образцах. Особое внимание уделяется и таким проблемам, как стороны конфликта, их число, степень остроты противоречий, их личный-бытовой или государственный характер. Выводы, вытекающие из антагонизма сторон, находящихся на положительном и отрицательном полюсах конфликта, имеют большое значение с точки зрения пропагандирования духовно-нравственных ценностей.

В статье конфликт, прослеживающийся в XII сказании эпоса "Китаби-Деде Коркуд", анализируется как в исторической, так и фольклорной плоскости. Искажение мотивов этого конфликта, имеющего историческую основу, при переходе в фольклор обусловлено определенными факторами. Автор настоящей статьи выражает свое отношение к аргументам и взглядам различных ученых на данную проблему.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: akademik Muxtar İmanov
tərəfindən çapa tövsiyə olunmuşdur

KUZƏHMƏDOVA NİGAR NAİL qızı
Azərbaycan Respublikasının Prezidenti Yanında
İdarəçilik Akademiyası
Kuzakhmedova@gmail.com

NADİR ŞAHİN MƏKTUBLARI

Xülasə

Nadir şah Əfşar 1688-ci il oktyabr ayının 22-də Xorasanın Dərəgəz vilayətinin Dəstgird kəndində dunyaya gəlmişdir.. İran şahı Nadir şah turk tayfalarından əfşarların Qırxlı boyundan idi. Başına bir dəstə toplayaraq Xorasan əyalətlərinin bir necəsini tutduqdan sonra ozunu Nadir bəy adlandırmağa başlamışdı. II Təhmasib Nadir bəyi Xorasanda oz canişini təyin etmiş, daha sonra Nadir ozunə Təhmasibqulu xan adını goturmuşdu. Məlik Mahmud idarəciliyinin mərkəzi Məşhəd alınan vaxt, Şah Təhmasibin fərmanı ilə Fətəli xan oldurulmuş, bundan sonra Nadir şahın silahlı quvvələrinin baş komandanı təyin edilmişdi. Bir qədər sonra Nadir Məlik Mahmudun qoşunlarını əzərək, onun ozunu qətlə yetirmiş və saraydakı movqeyi guclu şəkildə mohkəmlənmişdir. 1729-cu ilin 30 sentyabrında Mimandost cayı sahilindəki doyuşdə (Mimandost doyuşu) Əşrəfin qoşunları darmadağın edilmiş, bu parlaq qələbəsi ilə də Nadir olkənin yadellilərdən təmizlənməsi uğrunda mubarizəsinin başlanğıcını qoymuşdu. Nadirlə Əşrəf arasında həlledici doyuş 1729-cu ilin 13 noyabrında İsfahan yaxınlığında (İsfahan doyuşu) baş vermişdi. Bu dəfə Nadir birləşmiş əfqan-turk qoşunları uzərində parlaq qələbə qazanmışdı. Nadir təntənəli şəkildə şəhərə girmiş və oz əlləri ilə Səfəvi tacını Şah Təhmasibin başına qoymuşdu. Olkənin Şərqi tamamilə təmizlənmiş, qarşıda yalnız Azərbaycanı və onun yaxınlığındakı torpaqları Osmanlı turklərindən azad etmək qalmışdı. 1732-ci ildəki hərbi əməliyyatlar nəticəsində Nadir şah osmanlıları əzərək, Azərbaycanı, Həmədanı və Kirmanşahı azad etmişdi. Osmanlılar yalnız Arazdan şimalda qalmışlar. Təhmasib ozunun zəifləmiş nufuzunu bərpa etməkdən otru həmin əyalətləri şəxsən azad etmək qərarına gəlmişdi. Ancaq məğlub olaraq, 1731-ci ildə olkə ucun biabırcı bir sulh muqaviləsi (Kirmanşah muqaviləsi) bağlamışdı. Həmin muqaviləyə əsasən, Araz cayının şimalındakı butun ərazilər, eləcə də Kirmanşahın bir sıra əyalətləri osmanlılara verilmişdir. Nadir şah muqaviləni tanımaqdan imtina etmiş və qədim turk ənənələrinə gorə, xan və əyanların qurultayını cağırmışdı. Qurultay şah Təhmasibi taxtından salaraq, onun III Şah Abbas adlandırılan səkkiz aylıq oğlunu şah elan etmişdi. Faktiki olaraq, butun hakimiyyət Nadirin əlində cəmləşmişdi. Nadir şahın tabeciliyindən ilk cıxan belə mustəqil xanlıq Şəki xanlığı olmuşdu. 1737-ci ildə Nadir şah usyana qalxmış əfqanlara qarşı cıxmış və həm Heratı, həm də Qəndəharı tutmuşdu. Hindistanı tutduqdan sonra 1740-cı ildə Buxara və Xivə xanlıqlarını oz dovlətinin tərkibinə qata bilmişdi. 1741-ci ildə Mazandaran meşələrindən kecərkən

Nadirə olan sui-qəsd, Dağıstandakı uğursuzluqlar və 1743-1747-ci illərin usyanları Nadir şahı qəzəbləndirmiş və o, kutləvi cəza tədbirlərinə başlamışdı. Bunun da nəticəsində sarayda sui-qəsd havası yetişmiş və 1747-ci ilin iyununda, Nadir şah gecə ikən oz cadırında qətlə yetirilmişdi.

Açar sözlər: Nadir şah, hakimiyyət, məktub, xarici siyasət, qoşun, xalq, müharibə.

1722-ci ildə başına dəstə toplayan Nadir böyük xərac qarşılığında xanları əfqan basqınlarından qorumağa başlayır. Bu zaman xidmət etdiyi Kosa Əhmədli Babaəli xanın qızını qaçırıb onunla evlənir və Nadir bəy adlandırılır. Kəlatda yaşayan qoca əmisi bir gün Nadiri yanına dəvət edir. Əmisindən dəyərli məsləhətlər alan Nadir əhalini incidən əfqanlara qarşı mübarizəyə başlayır. 1725-ci ildə 400 nəfərlik bir dəstə ilə Məşhəd şəhərinə basqın edir və buradakı əfqan birliklərini tamamilə məhv edir. Müqəddəs İmam Rza məqbərəsini azad edən Nadir bütün Səfəvi dövləti ərazisində şöhrət qazanır. Ölkənin hər tərəfindən könüllüləri qəbul edəndən sonra Səfəvi şahı Təhmasibin yanına gəlir. Şah Nadiri böyük hörmətlə qarşıladıqdan sonra ona Mazandaranın əfqanlardan təmizlənməsi tapşırığını verir. Tapşırığa böyük ustalıqla əməl edən sərkərdə əfqan qoşunlarını darmadağın edərək vilayəti onlardan təmizləyir. Bu qələbə münasibətilə şah Təhmasibdən sultan titulunu qəbul edir və Mazandaran və Xorasan hakimi təyin olunur. Onun köməyi ilə şah İsfahana daxil olur və rəsmi tacqoyma mərasimi keçirir. 1729-cu ildə Heratı da ələ keçirən Nadir bəy əfqanları ölkədən tamamilə qovur. (4, 72)

Artıq Səfəvi şahının ümidi yalnız Nadir bəyə bağlanmışdı. Onun bundan öncəki ard-arda qələbələri şahı daha da cürətləndirirdi. Nadir bəy Osmanlılar üzərində ilk qələbəni Marağada çalaraq, iri sənətkarlıq və ticarət mərkəzləri olan Ərdəbili və Təbrizi tutur. Onun bu qələbələri həm orduda, həm də özündə ciddi uğur ovqatı yaradır və o digər Azərbaycan şəhərləri olan Şamaxının, Gəncənin, İrəvanın və Naxçıvanın azad edilməsini tələb edir. Fəqət hadisələrin gedişi Nadirin planlarını dəyişir. Belə ki, Xorasanda üsyanın baş verməsi və qardaşının öldürülməsi təcili olaraq onun həmin vilayətə hərəkət etməsinə səbəb olur. Nadirin qələbələrindən ruhlanan Təhmasib şah özü müharibəni davam etdirməyi qərara alır. O, 1731-ci ildə Naxçıvanı və İrəvanı türklərdən geri almaq üçün yürüşə çıxır. Təhmasibin qoşunu Eçmiədzin yaxınlığında epizodik uğur qazansa da, İrəvan yaxınlığında ciddi bir zərbə alır. O, sağ qalmış qoşununu götürüb Təbrizə qayıdır. Məğlubiyyətdən ayılmayan Təhmasib yenidən hücuma qərar verir. Bu dəfə isə hədəf Azərbaycanın şimal torpaqları idi. Fəqət Gəncə və Şamaxının güclü müdafiə olunduğunu anlayaraq fikrindən daşınır. Belə olduqda osmanlılar əks hücuma keçərək Təbpizi tutur. Osmanlıların ölkənin içərilərinə irəlilədiyini görən Təhmasib təcili müqavilə imzalayır. Müqaviləyə əsasən Şamaxı, Şirvan əyalətləri, Dağıstan, Naxçıvan, İrəvan, Tiflis yenidən Türkiyəyə verilir. Fəqət Xorasanda üsyanı uğurla yatıran Nadir bəy özünü yetirərək ilk öncə Təhmasibi hakimiyyətdən kənarlaşdırır. 1732-ci ildə onun 8

aylıq oğlunu III Abbas adı ilə şah elan edib özü də onun qəyyumu olur. Bundan sonra Təhmasibin osmanlılarla bağladığı rüsvayçı müqaviləni ləğv edərək təcili olaraq Azərbaycanın işğal altında olan bütün torpaqlarını tələb edir, lakin rədd cavabı aldıqdan sonra müharibəyə qərar verir.(1,3)

Obrazlı desək, Nadir şahın həyat yolunu yalnız öz zəhmətinə, zəkasına söykənərək sonsuz çətinliklər girdabından ləyaqətlə xilas olmağın, zirvələrə yüksəlməyin nəinki özü üçün, həm də xalqı naminə böyük qələbələr qazanmağın salnaməsi adlandırmaq olar". Ön sözdə Nadir şah bəzi tarixçilərin iddia etdiklərindən fərqli olaraq böyük sərkərdə olduğu qədər də dövlətçiliyin inkişafında əvəzsiz rol oynamış dövlət başçısı, milli varlığını, türklüyünü dərk edən vətənpərvər hökmdar kimi xarakterizə edilir. Nadir şahın sünni-şiə məzhəbləri, Osmanlı-Azərbaycan türkləri arasındakı ixtilafları aradan götürmək cəhdlərindən danışılır.

Mənbələrin və tarixi ədəbiyyatın araşdırılması bütün aydınlığı ilə sübut edir ki, Nadir şah orta əsrlər hərb tarixinin ən parlaq simalarından biridir. O, bəşər tarixinin Makedoniyalı İsgəndər, Əmir Teymur kimi sərkərdələrinin Asiyadakı uğurlarını təkrar edərək özünə Asiyanın sonuncu böyük fatehi kimi bir ad qazanmışdı. Bu insanın heyrət doğuracaq fəaliyyəti elə indinin özündə də hərb işinin davamçılarının heyranlıqla öyrəndiyi və müraciət etdiyi qiymətli bir mirasdır. Nadir şah fatehlik və sərkərdəlik əzəməti ilə hərbə yeni məzmun gətirən bir şəxsiyyətdir. O, məğlubedilməzlik simvoluna çevrilməklə hərbi peşəkarlığı ən yüksək zirvəyə çatdıra bildi. Nadir şah üçün mümkünsüz olan heç bir hərbi vəzifə yox idi. Hətta insan zəkasının təsəvvür edə bilməyəcəyi qərarları qəbul edərək onların icrasında çox böyük məharət, ustalıq və əzmkarlıq nümayiş etdirən Nadir şah müasirləri üçün əlçatmaz olan məqsədlərə çox asanlıqla çatırdı. Məhz bunun nəticəsi idi ki, Nadir şah Səfəvi dövlətinin az qala yarıya qədər əldən getmiş ərazilərini geri qaytardı, Yaxın Şərqi öz imperiyasına qatmış Osmanlı dövlətinin hərb maşınının qarşısını aldı, sürətlə güclənməkdə olan Rusiya dövlətini onunla hesablaşmağa məcbur etdi, Hindistanı, Əfqanistanı və Türküstanı fəth etdi və özünün yeni imperiyasını yaratdı.

Qeyd etmək istərdik ki, Nadir şahın haqqında danışdığımız məktublaşmaları XVIII əsrin görkəmli Azərbaycan tarixçisi Mirzə Mehdi xan Astrabadinin "İnşa" adlı əsərindən götürülmüşdür. Mirzə Mehdi xan əslən Səfəvilər nəslindən olmuş, Səfəvi hökmdarlarından Şah Sultan Hüseynin (1696-1722) və II Təhmasibin (1722-1732) sarayında yüksək vəzifələr tutmuşdur. M.M.Astrabadinin geniş biliyinə, istedadına yüksək dəyər verən Nadir şah (1688-1747) onu baş vaqiənəvis-sarayın baş tarixçisi vəzifəsinə təyin etmişdi. Mirzə Mehdi xan Səfəvilər dövründə də, Nadirin hakimiyyəti zamanında da ölkədə baş verən bütün əsas siyasi hadisələrdən xəbərdar idi, buna görə də bu vəzifəsinə tam uyğun gəlirdi. O, sarayda katiblik-münşilik vəzifəsini də icra edir, Nadir şahı hərbi yürüşlərdə müşayiət edir, xarici ölkələrlə danışıqlarda, dövlətin xarici siyasət məsələlərinin həllində fəal iştirak edirdi. M.M.Astrabadi "Tarixi-Nadiri" adı ilə tanınan "Tarixi-cəhanquşayi-Nadiri", "Dürreyi-Nadirə", "İnşa", "Sənglax" və "Məban əl-lüğət" adlı dəyərli əsərlərin

müəllifidir. Bunlardan tam adı "Tarixi-cəhanquşayi-Nadiri" ("Dünyanı fəth edən Nadirin tarixi") olan əsərdə Nadir şahın, xələfləri Əli və İbrahimin, daha sonra ölkəni idarə etmiş şəxslərin tarixindən bəhs olunur.

Dünya kitabxanalarında bu əsərin çoxlu əlyazmaları vardır. Kitab dəfələrlə daşbasma və müasir üsulla orjinalda-fars dilində nəşr edilib. Əsərin 39 əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Bunlardan 137 vərəqdən ibarət ən mükəmməli 1827-ci ilin iyulunda köçürülüb. (2.27).

Mirzə Mehdi xan "Məbən əl-lüğət" ("Sözlərin əsası"), və "Sənglax" adlı əsərlərini ömrünün son çağlarında, təxminən 1760-cı ildə bitirmişdir. "Məbən-əl-lüğət" cığatay dilinin qrammatik oçerkindən, "Sənglax" isəcığatayca-farsca lüğətdən ibarətdir. "Məbən əl-lüğət"in tam adı "Sərfü nəhfi-lüğəti-cığatayi"dir. Qrammatik oçerk də, lüğət də başlıca olaraq böyük özbək şairi Əlişir Nəvainin əsərləri əsasında tərtib edilmişdir.

Mirzə Mehdi xanın "İnşa" əsəri əfşarlar dövrünün ən məşhur nəsr nümunəsi, Azərbaycanın, İranın bir sıra qonşu ölkələrin tarixinə dair dəyərli sənədlər toplusudur. Bildirdiyimiz kimi, M.M.Astrabadi bir sıra tarixi hadisələrin, diplomatik missiyaların, müqavilələrin imzalanmasının, rəsmi dövlət sənədlərinin tərtibinin bilavasitə iştirakçısı olmuşdur. Buna görə də onun bu əsəri dövrün tarixinə dair ciddi mənbə hesab edilir.

Müəllif buraya əvvəlki dövrlərə aid sənədləri, məktubları da daxil etmişdir. Məsələn, Əmir Teymurun (1336-1405) Osmanlı imperatoru İldırım Bəyazidə (1389-1402), Babur şahın (1483-1530) Seyid Məhəmməd Nurbəxşə, I Təhmasibin (1524-1576) Osmanlı imperatoru I Sultan Süleymana (1520-1566) və başqa məktublar belələrindəndir. Topluda Səfəvi hökmdarlarından Sultan Hüseynə (1694-1722) və II Təhmasibə (1722-1732) dair sənədlər də vardır. Lakin sənədlərin, məktubların çoxu Nadir şah Əfşara aiddir.

"İnşa"ya aşağıdakı materiallar daxil edilmişdir: Əyanların təyinatına dair Şah Sultan Hüseynin, II Şah Təhmasibin, Nadir şahın fərmanları, Nadirlə Osmanlı dövləti arasında imzalanmış sülhnamə (sülh müqaviləsi), fəthnamə (qələbə barədə yazılı məlumat), Mirzə Mehdi xanın vəqfnaməsi, Nadir şahın İbrahim xanı əhv etməsi barədə məktubu, Nadir şahın İranın ayrı-ayrı vilayət hakimlərinə göndərdiyi məktubları, Nadir şahın Hindistanın fəthindən sonra Rzaqulu Mirzəyə yazdığı məktub, Mirzə Mehdi xanın Bağdad alimlərinə məktubu, Nadirin Moğol imperatoru Məhəmməd şaha, Osmanlı imperatoruna, Rus imperatriçasına, Əfqan şaha məktubları, Mirzə Mehdi xanın ayrı-ayrı şəxslərə məktubları. (2,14)

Qeyd etmək lazımdır ki, münşəat (məktub, sənədlər toplusu) eyni zamanda bədii janr olmuşdur və məsələn, Məhəmməd Füzulinin Osmanlı dövlətinin yüksək vəzifəli məmuru Nişançı Paşaya yazdığı, "Şikayətnamə" adı ilə məşhur olan məktubu bədii əsər, nəsr nümunəsi kimi oxunmuşdur və oxunmaqdadır. Görkəmli Azərbaycan şairi, rəssamı və ədəbiyyatşünası Sadiq bəy Əfşarın (1533-1610) cığatayca və farsca məktublardan ibarət toplusu "Münşəati-türki və farsi ke, be

müləmməat məşhur əst" ("Müləmməat kimi məşhur olan türkcə və farsca münşəat") adlandırılmışdır. Onun cığatayca məktubları tərəfimizdən ayrıca kitabça halında nəşr edilibdir.Münşəatlar, məktub və sənədlər toplusu katiblər tərəfindən köçürülər və ən müxtəlif oxucular üçün maraq doğuran sənədlər nümunəsi kimi yayılardı. Müxtəlif Şərq əlyazmaları kitabxanalarında məktub və sənəd topluları-münşəatların əlyazma nüxsələri saxlanmaqdadır.

Ədəbiyyat siyahısı:

1. Nadir şahın məktub və fərmanları. Fars dilindən tərcümə edən dosent Əkrəm Bağırov, Rauf Şeyxzamanlı və ərəb dilindən tərcümə edən Minaxanım Şahbazova. Bakı, Qanun nəşriyyatı – 2021, 254 səh.
2. Nadir şahın məktubları . Fars dilindən tərcümə edən, nəşrə hazırlayan, qeydlərin müəllifi R.Şeyxzamanlı, redaktor P.Kərimov. Şərq-Qərb nəşriyyatı -2015.
3. Nərimanov N. Seçilmiş əsərlər. Bakı -2004. Lider nəşriyyatı, 496 səh.
4. Oğuz Yunus. Nadir şah.
5. Paşayeva Q. Nadir Şah Avşar ailəsinin varislərindən olaraq Yunus Oğuza təşəkkür edirəm.

Kuzahmadova Nigar

LETTERS OF NADİR ŞAH
SUMMARY

Nadir Shah Afshar was born on October 22, 1688 in the Dastgird village of Daregaz province of Khorasan. Shah Nadir Shah of Iran was from the Kirkhli clan of the Afshars, one of the Turkic tribes. He started to call himself Nadir Bey after he gathered a group and captured some provinces of Khorasan. Tahmasib Nadir Bey II appointed his deputy in Khorasan, after which Nadir named himself Tahmasibgulu Khan. When Mashhad, the center of Malik Mahmud's administration, was captured, Fatali Khan was made Khan by order of Shah Tahmasib, and then he was appointed the commander-in-chief of Nadir Shah's armed forces. A little later, Nadir crushed the troops of Malik Mahmud, killed him and strongly consolidated his position in the palace. On September 30, 1729, Ashraf's troops were defeated in the battle on the banks of the Mimandost creek, and with this brilliant victory, Nadir started his struggle to rid the country of foreigners. The decisive battle between Nadir and Ashraf took place near Isfahan on November 13, 1729 (Battle of Isfahan). This time, Nadir won a brilliant victory over the combined Afghan-Turkish troops. Nadir solemnly entered the city and placed the Safavid crown on the head of Shah

Tahmasib with his small hands. The East of the country was completely cleared, and the only thing left to do was liberate Azerbaijan and its neighboring lands from the Ottoman Turks. As a result of military operations in 1732, Nadir Shah crushed the Ottomans and liberated Azerbaijan, Hamedan and Kermanshah. The Ottomans remained only north of Araz. To restore his weakened authority, Tahmasib decided to personally liberate the other provinces. However, being defeated, in 1731 he concluded a shameful peace treaty (Kirmanshah treaty) for the country. According to that agreement, all the territories north of Araz Bay, as well as a number of provinces of Kermanshah, were given to the Ottomans. Nadir Shah refused to recognize the treaty and, according to ancient Turkish traditions, called a congress of khans and nobles. The Kurultay deposed Shah Tahmasib and declared his eight-month-old son Shah Abbas III as the king. In fact, all power was concentrated in the hands of Nadir. Sheki Khanate was the first such independent khanate to break away from Nadir Shah's rule. In 1737, Nadir Shah went against the Afghans who rose in rebellion and captured both Herat and Kandahar. After conquering India in 1740, he was able to include the khanates of Bukhara and Khiva as part of his state. The assassination attempt on Nadir while passing through the Mazandaran forests in 1741, the failures in Dagestan and the rebellions of 1743-1747 enraged Nadir Shah and he started solemn punitive measures. As a result of this, an atmosphere of conspiracy arose in the palace, and in June 1747, Nadir Shah was murdered in his tent at night.

Key words: Nadir Shah, power, letter, foreign policy, troops, people, war.

КУЗАХМАДОВА НИГЯР

РЕЗЮМЕ

ПИСЬМА НАДИР-ШАХА

Надир Шах Афшар родился 22 октября 1688 года в селе Дастгирд Дарегаз провинции Хорасан.Шах Надир Шах Ирана происходил из клана Кирхли афшаров из тюркских племен.После сбора группы и захвата некоторых провинций Хорасана , он стал называть себя Надир-беем. II Тахмасиб Надир-бей назначил своего заместителя в Хорасане, в честь которого Надир назвал себя Тахмасибгулу-ханом. Когда Мешхед, центр администрации Малика Махмуда, был взят, он был назначен Фатали-ханом по приказу шаха Тахмасиба , а после этого был назначен главнокомандующим вооруженными силами Надир-шаха. Разгромил его войска, убил собственного сына, а его позиции во дворце были сильно укреплены. 30 сентября 1729 года войска Ашрафа потерпели поражение в сражение на берегу ручья Мимандост, и этой блестящей победой Надир положил начало борьбе за очищение страны от инородцев.Между Надиром и Ашрафом Решающее сражение произошло под

Исфаханом 13 ноября 1729 года (Исфаханская битва).На этот раз Надир одержал блестящую победу над объединенными афгано-турецкими войсками.Надир торжественно вошел в город и голыми руками возложил на голову шаха Тахмасиба корону Сефевидов.Восток страны был полностью очищен.,единственное, Осталось сделать-освободить Азербайджан и соседние с ним земли от турок-османов.В результате военных действий в 1732 году Надир-шах разгромил османов и освободил Азербайджан, Хамадан и Керманшах.Османцы остались только севернее Араза.Тахмасиб лично взял под свой контроль из этих других провинций, чтобы восстановить свое ослабленное влияние. Однако в 1731 году, после поражения, он подписал унизительный для страны мирный договор (Керманшахский договор), согласно которому все территории к северу от Аразского залива, как а также ряд провинций Керманшаха, были отданы османам.Надир-шах отказался признать договор.и по древним турецким традициям созвал съезд ханов и знати.Курултай сверг шаха Тахмасиба и объявил о своем восьмимесячном сроке. старый сын шах Аббас III на посту короля.Фактически вся власть была сосредоточена в руках Надира.Первым таким независимым ханством, вышедшим из-под контроля Надир-шаха, было Шекинское ханство.В 1737 году Надир-шах выступил против восставших афганцев поднял восстание и захватил Герат и Кандагар.После захвата Индии в 1740 году он смог включить в свое маленькое государство Бухарское и Хивинское ханства.В 1741 году Надир был убит при прохождении через Мазандаранские леса, неудачи в Дагестане и восстания 1743-1747 годов привели Надир-шаха в ярость и он начал принимать праздничные карательные меры.В результате во дворце возникла атмосфера заговора, и в июне 1747 года Надир-шах был убит ночью в своей палатке.

Ключевые слова: Надир Шах, власть, письмо, внешняя политика, войска, народ, война.

Redaksiyaya daxil olma tarixi: 11.12.2023
Çapa qəbul olunma tarixi: 30.12.2023
Rəyçi: fil.ü.f.d. Samirə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ NURİYEVA
Fəlsəfə üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
İstiqlaliyyət küç. 53
kamala.nur@mail.ru
ORCHID İD: https://orcid.org/0000-0002-0062-306X

GÖYTÜRK ƏLİFBASI İLƏ YAZILMIŞ KİTABƏLƏRDƏ EPİTAFİYA İZLƏRİ

Xülasə

Qədim dövrlərdə istər Şərqdə, istərsə də Qərbdə bir şəxsin vəfatından sonra xatirə və adının yaşaması üçün müxtəlif dəfn ayinləri icra edilirdi. Bu qəbildən olan əməllər sırasında vəfat edən üçün məzar daşı qoyulur və üzərində müxtəlif yazılar əks etdirilirdi. Məzar ədəbiyyatı və ya kitabə adlandırılan bu yazılar əksər hallarda mənzum formada olurdu və dəfn edilən şəxsin üstünlüklərindən bəhs edilirdi.

Elmə məlum olan ən qədim türk dəfn yazıları göytürk əlifbası ilə yazılmış kitabələrdir. "Türk" kəlməsinin, türk millətinin adının keçdiyi, türk mədəniyyətinin, adətlərinin, hərb sənətinin, qədim sivilizasiyasının əks olunduğu kitabələr türk etnomədəniyyətinin öyrənilməsi üçün mühüm sənəddir. Monqolustanda Orxon çayının qədim yatağında və Sibirdə Yenisey çayı yatağında tapıldığı üçün Orxon-Yenisey kitabələri adı ilə məşhurdur. Orxon abidələri göytürk yazısı ilə məlum olan ən böyük mətnlərdir. Orxon çayı ətrafında 20-dən artıq abidə müəyyən edilmişdir. Yenisey abidələri isə təxminən 140-145 qəbir daşından ibarətdir. Göytürk əlifbası ilə olan yazılar müasir Qırğızıstan və Qazaxıstan ərazisində də məlumdur. Bu kitabələr türklərin tarixi, etnoqrafiya və dilinin araşdırılması üçün zəngin mənbə olduğundan tarixçilərin, dilşünasların diqqətini çəkmiş, bir neçə aspektdən araşdırma aparılmışdır. Amma qədim türk adətlərinin öyrənilməsi baxımından zəif tədqiq edilmiş, hələ də elmi təhlilə açıqdır. Orxon və Yenisey hövzəsindən tapılmış kitabələr epitafiya xarakteri daşıyır. Bu səbəbdən məqalədə Orxon-Yenisey kitabələri ibtidai epitafiya nümunəsi olaraq nəzərdən keçirilir, mətnlərdə türklərin o zaman üçün dəfn və yas mərasimi ayinlərinin icrası ilə bağlı adətlərin müəyyən edilməsinə çalışılır.

Açar sözlər: epitafiya, məzar poeziyası, Göytürk əlifbası, runik yazılar, hüzn ədəbiyyatı

Giriş. Epitafiya hərfi mənası "qəbirüstü yazı" olan, qədim Yunanıstanda meydana gəlmiş məzar ədəbiyyatıdır. Termin olaraq təkcə bugünkü mənada anladığımız qəbirüstü yazıları əhatə etmir. Qədim Yunanıstanda dəfn nitqləri, vəfat

edənin şərəfinə keçirilən müxtəlif yarışlar və başqa bir sıra dəfn ayinləri ümumilikdə epitafiya adlanırdı. [6, s. 661] Lakin ən geniş mənada epitafiya ya birbaşa məzar üzərində, baş daşına həkk olunan yazılardır, ya da məzarlıqda və ya dini yerlərdə ucaldılmış lövhələr üzərində verilmiş xatirə yazılarıdır. Epitafiyalar, yaxud qəbirüstü yazılar böyük tarixi əhəmiyyət daşıyır və bir sıra hallarda tarixi hadisələrin açılmasında rol oynayır. Bu mənada epitafiya müəyyən qədər sənədli ədəbiyyat xarakteri daşıyır. Epitafiyalar zamanla bədii əsər kimi kitablarda da qələmə alınmışdır, bu gün də kitab epitafiyaları məlumdur. Amma yenə də məzar daşlarında olduğu kimi lakonikliyi saxlayır. Ədəbi vasitələr baxımından qəbiristanlıq epitafiyaları kağız epitafiyalarından daha üstün və fərqli olur. Məsələn, kitab epitafiyaları istisnalar olmaqla əksər hallarda ölənə müraciətlə yazılır. Məzar epitafiyaları isə ya vəfat edənə, ya vəfat edən adından yaşayanlara (əksər hallarda "yoldan ötənə"), bəzən isə daşın dilindən ya dəfn olunana, ya da yanından keçənə ünvanlanırdı.

Yalnız kitablarda çap olunan ədəbi epitafiyalar dəfn lövhələrinə cavab olaraq yaranmışdı. Məsələn, qədim yunan şairi Simonidin (e.ə.556-468/69) epitafiyaları məzar daşlarına həkk olunub, amma bəzi nümunələri və ona yazılmış nəzirələr yalnız epiqrammatik toplularda yer alıb. Müəyyən bir dövrdə bu ənənə geniş yayıldığından hələ sağ olan insan üçün ("özü özünə epitafiya" şəklində) epitafiyalar yaranmağa başlamışdı. [7] Orxon və Yenisey kitabələri də qədim türk epitafiyasının nümunələridir. Bu kitabələr epitafiyanın bir neçə terminoloji mənasını əhatə edir. Yenisey abidələrinin əksəriyyəti məzar daşlarında, baş daşlarında yazılmış, lakonik informasiyalı nümunələrdir. Orxon kitabələrindən məşhur üç böyük abidə – Kül Tigin, Bilgə Kağan, Tonyukuk kompleksin bir parçası olaraq məzardan kənarda ayrıca lövhələr şəklində qoyulmuş kitabələrdir. Kül Tiginin şərəfinə ucaldılmış kitabə Bilgə (Mogilyan) xaqanın dilindən söylənmiş nitqdir. Göytürk əlifbası ilə yazılmış Orxon-Yenisey kitabələrini qədim türk epitafiya nümunəsi kimi təhlil etmədən öncə kitabələrə qısa nəzər salmağı məqsədəuyğun hesab etdik:

1. **Göytürk əlifbası ilə yazılı elmə məlum ən qədim kitabələr haqqında**

Orxon və Yenisey abidələrinin adı ilk dəfə XIII əsr şərq tarixçisi və şairi Əlaəddin Ata Məlik Cüveyninin "Tarixi-cihanguşa" əsərində yer alsa da, XVII-XVIII əsrlərdə bəzi avropalı səyyah və tarixçilər tərəfindən haqqında məlumatlar verilsə də, kitabələr ilk dəfə XIX əsrin sonlarında İsveç və Rusiya tədqiqatçıları tərəfindən öyrənilməyə başlanmışdır. [3] Abidələr müasir Monqolustan ərazisindəki Orxon və Rusiya ərazisindəki Yenisey çaylarının hövzəsindən tapıldığı üçün bu adla – Orxon-Yenisey kitabələri adı ilə məşhurdur. Bəzi Avropa tədqiqatçıları bu əlifbanı runik yazılar, türk runikası kimi də təqdim edir. F.İ.Stralenberq qədim türk yazı işarələrini ilk dəfə olaraq german runikasına çox oxşadığına görə "runik yazısı" adlandırır. Skandinaviya ölkələrində, o cümlədən İsveç ərazisində "runa" adlandırılan və indiyədək oxunmayan işarələrlə çoxlu yazılar vardır. [8, s.11-12; 5, s.XXIX] "Runa" fin sözüdür və mənşəyi məlum olmayan mahnını belə adlandırırlar.

[2, s. 7] V əsrlə IX əsr aralığında Yenisey kitabələrində və Orxon abidələrində, kağız üzərində Orxon yazısının istifadə edilməsi faktdır. Orxon əlifbasının türk icadı olduğunu irəli sürənlər bu yazının damğalardan və şəkillərdən meydana gəldiyini qəbul edirlər, və bəzi hərf şəkillərinin türk mənşəyini göstərdiyini təsbit edirlər. (Muharrem Ergin bununla bağlı çoxsaylı nümunələr göstərir.) Orxon hərflərindən daha əvvələ aid edilən Yenisey yazılarında 150-dən artıq şəkil var. Bu işarələr Orxon yazılarında 38 hərflik bir əlifba halını almışdır. [5, s.XXIX]

Qədim göytürk əlifbası ilə günümüzə gəlib çatmış ən irihəcmli yazılar Orxon kitabələridir. Orxon abidələrinə Kül Tigin, Bilgə Kağan, Ongin, Tonyukuk, Kuli çor, Moyun çor, Suci, Hoyto-Temir, İhe-Ahset, Terxin və Tes abidələri daxildir. Yenisey abidələri sayca 140-150 arasında olsa da həcmcə kiçikdir. Onlar qayaüstü və qəbirüstü epitafiyalardır. Orxon-Yenisey abidələri içərisində Kül Tigin (732-ci il), Bilgə (Mogilyan) Xaqan (735-ci il) və Tonyukukun (716-cı il) şərəfinə ucaldılan abidələr, Ongin abidəsinin (731-ci il) mənbəşünaslıq baxımından elmi dəyəri böyükdür. [2, s. 12] Müasir Qazaxıstan ərazisində də Göytürk əlifbası ilə yazılmış kitabələr aşkarlanmışdır. Elmi ədəbiyyatda bunlar daha çox Talas yazıları adı ilə məşhurdur. Bu günə qədər məlum olan ağac üzərində həkk olunmuş yeganə nümunə Talasda tapılmış, yol göstərən nişanı xatırladan Talas çubuğudur. Talas kitabələri arasında da məzarüstü yazılar məlumdur.

Orxon-Yenisey abidələri VI-VIII əsrlərdə Qərbi Türk xaqanlığı və Şərqi Türk xaqanlığı dövlətlərinin siyasi tarixi, bu dövlətlərin qonşu türk etnosları ilə münasibətləri problemlərinin tədqiq edilməsi üçün mühüm yerli yazılı mənbələrdir. [2, s. 6] Bu abidələr həmçinin qədim türk adət-ənənəsinin, folklorunun, xüsusən, məzarüstü yazılar olduğu üçün dəfn ayinlərinin öyrənilməsində mühüm tarixi mənbədir.

2. Orxon və Yenisey kitabələri məzar ədəbiyyatı nümunəsi kimi

Kitabələrinin oxunmasında ilk açar Kül Tigin abidəsinin üzərindəki çin heroqlifləri ilə verilmiş fraqment olmuşdur. 1893-cü ildə macar alimi V.Tomsen (1842-1927) göytürk əlifbası ilə olan mətni çin heroqlifləri ilə olan mətnlə qarşılaşdıraraq “tenqri”, “türk”, “kül” və “tigin” kəlmələrini oxuya bilmiş və bununla kitabələrin oxunmasının və tədqiqinin əsası qoyulmuşdur.

Kül Tigin Bilgə Xaqanın kiçik qardaşı, ordularının baş sərkərdəsi olmuşdur. 16 yaşından müxtəlif döyüşlərdə iştirak edən şahzadə xaqan qoşununa başçılıq etdiyi 15 il (716-731) ərzində on iki döyüşə rəhbərlik etmiş və heç bir döyüşdə məğlub olmamışdır. Qalib sərkərdə olan Kül Tiginin xatirəsinə yaradılmış abidə kompleksi bu günə qədər məlum olan abidələr içərisində ən böyük ərazini (təxminən 4,5-5 km.) əhatə edir. Qədim türk adətinə görə qəhrəmanlıqla həlak olmuş döyüşçülərin məzarı ətrafında onun döyüşlərdə öldürdüyü əsas düşmənlərinin sayını göstərmək üçün daşdan yonulmuş kobud, çox da hündür olmayan insan heykəlləri (balbal) ucaldardılar. Məsələn, atasının vəfatından danışanda Bilgə Xaqan “*qırğız xaqanını atamın məzarına balbal qoydum*” – deyir. [4, I, s.302] Kül Tiginin abidə

kompleksində 169 belə heykəl vardır. Bu, indiyə qədər aşkarlanmış abidələr arasında balbal sayı ən çox olan kompleksdir.

Kül Tigin kitabəsindən məlum olur ki, abidə kompleksini böyük qardaş Bilgə Xaqan saldırmışdır. Həm türk, həm də çincə mətn onun dilindən verilir. Kitabənin və ümumilikdə kompleksin yaradılma səbəbinin sadəcə böyük qardaşın öz kiçik qardaşının xatirəsini yaşatmaq olmadığı üzərindəki mətndən anlaşılır. Məsələn, kitabələrin bir neçəsində "*ey türk sərkərdələri və xalqı! Buna baxanda (yəni kitabəyə) bilin ki*..." və ya "*oxuyanda xatırlayın ki*..." [8, s.11-12] ifadələri işlənir və ardınca yaşadıqları tarixdən hansısa məlumatlar verilir. Demək ki, mətnin müəllifi gələcək nəsillərə müraciət edir. Bilgə Kağan obeliskinin şimal tərəfində qeyd edilir ki, "*türk xalqının toplanıb el (dövlət) tutacağını burada həkk etdim (daşa vurdum), yanılıb öləcəyini də burada həkk etdim (daşa vurdum), nə qədər sözüm (nitqim) vardısa, hamısını əbədi daşa həkk etdim (vurdum). Onu görərək bilin.*" [4, I, s.350] Üç xaqanın vaxtında vəzirlik etmiş Tonyukukun şərəfinə ucaldılmış obeliskdə isə "*türk müdrik xaqan eli üçün yazdırdım mən müdrik Tonyukuk*" [4, I, s.382] ifadəsi qeyd edilən fikri sübut edir. Yəni, vəfat edənin xatirəsini əbədiləşdirmək məqsədi daşısaydı Yenisey kitabələri kimi bir neçə cümlə ilə dəfn olunan haqqında informasiya ilə kifayətlənmək yetərli olardı, bu həcmdə kompleks yaradılmaz və obelisk qoyulmazdı. Lakin, Orxon abidələri, xüsusən Bilgə Kağan, Kül Tigin və Tonyukukun kitabələri sadə məzar daşı deyil, xüsusi lövhələrdir.

Kül Tigin kitabəsindən o da anlaşılır ki, sərkərdə hər hansı bir istila yürüşündə həlak olmamışdır. Bilgə Xaqanın başçılığı altında ordu yürüşdə olarkən Kül Tigin azsaylı əsgərlə xaqanlığın mərkəzinin mühafizəsində qalmış, xain basqının qarşısını alarkən mühafizədə öldürülmüşdür: "Qışı *Amqa qalasında* (S.Malov bu qalanı Maq qalası kimi tərcümə edir – K.N.) *keçirib yazda Oğuza doğru ordu çıxardıq. Müdafiə üçün Kül Tigini Ordada* (xaqanlığın mərkəzi – K.N.) *qoyub tədbir aldıq. Oğuz düşmən Ordanı basdı. Kül Tigin oxsuz atına minib doqquz kişini mizraqladı, mərkəzi vermədi."* [5, s.27]

Burada Bilgə Xaqan həm də onu oxucusunun diqqətinə çatdırır ki, bir tərəfdən özünün hücum etdiyi, digər tərəfdən xaqanlığın mərkəzinə hücum edən "Doqquz oğuz" milləti öz millətidir – "*Göy, yer qarğıdığı üçün düşmən olduq. Bir ildə 5 dəfə savaşdıq.*" [5, s.25] Müəllifin bu məlumatı verməsi bir daha göstərir ki, Kül Tigin abidə kompleksinin ucaldılmasının bir səbəbi xaqanın öz qardaşının adını yaşatmaq istəyi idisə, digər bir səbəbi tarixi gələcək nəsillərə ötürmək idi. Bu qəbildən olan epitafiyalar sənədli xarakter daşıyır.

Sonrakı sətirlərdə Bilgə (Mogilyan) Xaqan qardaşının ölümünə kədərini ifadə etsə də – *"Kül Tigin olmasa hamınız öləcəkdiniz. Kiçik qardaşım Kül Tigin vəfat etdi. Özüm kədərləndim. Görür gözüm görməz oldu, bilən ağlım bilməz oldu. Özüm fikrə daldım. Zamanı Tanrı yaşayar. İnsan övladı ölmək üçün yaradılmış.*" [5, s.27], dövlət rəhbəri olduğunu unutmur, əhalisinin, millətinin daha çox hüznə batacağını düşünərək kədərini gizlətməyə çalışır: "*Elə düşüncəyə daldım. Gözdən yaş gəlsə*

mane olaraq, könüldən ağlamaq gəlsə geri çevirərək düşüncəyə daldım. Müdhiş düşüncəyə daldım. İki şadın və kiçik qardaş oğlunun, oğlumun, bəylərimin, millətimin gözü pis olacaq deyib düşüncəyə daldım. Yasçı, ağlayıcı olaraq Kıtay, Tatabı millətindən başda Udar general gəldi" [5, s.29].

Orxon kitabələrində epitafiyalar üçün xarakterik olan öləni tərif demək olar ki yoxdur. Daha çox hadisələr, faktlar sadalanır, görülən işlər təqdim edilir və epitafiyanın tərif funksiyası bu şəkildə təmin edilir. Məsələn, Bilgə Kağan obeliskində atalarının vəfatından danışılarkən dövləti və milləti üçün gördüyü işlərdən bəhs edilir. "*Əcdadım Bumın Kağan, İstəmi Kağan oturmuş. Oturaraq türk millətinin ilini, adətini seçmiş, nizama salmış. Dörd tərəf hamısı düşmən imiş. Ordu sövq edərək dörd tərəfdəki millətin hamısını almış, tabe etmiş. Başlıya baş əydirmiş, dizliyə diz çökdürmüş. Şərqdə Kadırkan meşəsinə qədər, qərbdə Dəmir Qapıya qədər uzatmış. İkisi arasında çox təşkilatsız Göytürkü nizama salaraq eləcə oturmuş. Bilgili xaqan imiş, səliqəli xaqan imiş. Bilgili imiş təbii, cəsur imiş təbii. Bəyləri də, milləti də doğru imiş. Özü eləcə vəfat etmiş.*" [5, s.33].

Buradakı "vəfat etmiş" sözü üzərində ayrıca durmaq lazımdır. Orxon kitabələrində, həmçinin Yenisey məzar daşlarında "öldü, vəfat etdi" sözləri əvəzinə "yox oldu", "uçdu", "tanrı yuxarı qaldırdı" ifadələri daha çox istifadə edilir. "Uçdu" sözünə müraciət digərləri ilə müqayisədə çoxdur. Bir insanın öldüyünü ifadə etmək üçün "uçdu" kəlməsinin istifadəsi "Dədə Qorqud" dastanlarında da müşahidə edilir. "Koroğlu" dastanının son dövrlərdə yazıya alınmış "Koroğlunun ölümü" qolunda da Koroğlunun vəfatı qayadan uçmaqla təsvir edilir. Araşdırsaq yəqin ki, bir çox xalq dastanlarında "ölüm hadisəsi" bu ifadələrlə əks olunub. Qeyd olunan ifadələr kitabələrdə bir neçə dəfə təkrarlansa da yalnız Kül Tigin üçün "bulud çökdürdü" ifadəsindən istifadə edilir: "*Kül Tigin qırx yeddi yaşında bulud çökdürdü*" [5, s.29]

Göytürk kitabələrində digər bir epitafiya izi vəfat edənlərin ölüm tarixlərinin dəqiq verilməsidir. Kül Tiginin, Bilgə Xaqanın, atalarının vəfat, dəfn və abidələrin ucaldılması tarixləri öz əksini tapır. Məsələn, Kül Tigin kitabəsinin şimal-şərq tərəfində qeyd edilir ki, "*Kül Tigin qoyun ilində on yeddinci gündə uçdu. Doqquzuncu ay, iyirmi yeddinci gündə yas mərasimi tərtib etdik. Türbəsini, rəsmini, bir kitabə daşını meymun ilində yeddinci ay, iyirmi yeddinci gündə tam bitirdik. Kül Tigin özü qırx yeddi yaşında bulud çökdürdü. Bunca rəsimciyi Tuygut vali gətirdi*" [5, s.29] Yaxud, atalarının vəfatı haqqında Bilgə Kağan kitabəsində deyilir ki, "*Bu qədər qazanıb atam xaqan it ili, onuncu ay, iyirmi altıda uçub getdi. Donuz ili, beşinci ay, iyirmi yeddidə yas mərasimi keçirdim. Bukağ vali.... atası Lisun Tay generalın rəhbərliyində beş yüz igid gəldi. ... Çox-çox qızıl, gümüş gətirdi. Yas mərasimi ətrini gətirdi. Sandal ağacı gətirib öz ... bu qədər millət saçını, qulağını .... kəsdi. Yaxşı minik atını, qara samurunu, mavi sincabını saysız gətirib qoydu.*" [5, s.55]

Əvvəldə qeyd olunduğu kimi Orxon kitabələrindən təkcə tarixi faktları deyil, adət-ənənəni də öyrənmək mümkündür. Yuxarıda nümunə göstərdiyimiz fraqment və

aşağıda qeyd edəcəyimiz parça yas və dəfn mərasimi haqqında bizə maraqlı məlumatlar verir. Bilgə Kağan kitabəsində ataları İltəris xaqanın yas mərasimi haqqında "*Yasçı, ağlayıcı, şərqdə gün çıxandan Collu xalq, Çin, tibet, avar, Bizans, qırğız, uc kurıkan, otuz tatar, kıtay, tatabı, bunca millət gəlib ağlamış, yas tutmuş.*" [5, s.35] deyilir. Birinci növbədə dəfn və yas mərasiminin nə qədər təntənəli keçdiyini görürük. Müxtəlif xalqların və dövlətlərin nümayəndələri İltəris xaqanın yas mərasimində iştirak edir. Gələnlər toya gəlirmiş kimi çoxlu qızıl-gümüş və başqa qiymətli hədiyyələr gətirir. Digər maraqlı məqam isə odur ki, yas ayinin icrasında xüsusi ətirdən istifadə edilirmiş. İlk baxışda İltəris xaqanın dövlət rəhbəri olduğu üçün belə təntənəli yas mərasimi keçirildiyini düşünmək olar. Lakin, bu təntənə, müxtəlif millətlərdən qonaqların gəlməsi Kül Tiginin dəfn mərasimi üçün də keçərlidir: "*...gündoğandan Böklü çöllük el, Tabğaç, Tibet, avar, böyük Roma, qırğız, üç kurıkan, otuz tatar, kıtay, tatabı - bu qədər xalq gəlib ağı demiş*" [4, I, s.341].

Qeyd edilməlidir ki, Bilgə Kağan kitabəsi də Kül Tigin kitabəsi kimi Mogilyan xaqanın öz dilindən verilir, bir növ özü özünə epitafiyanın ibtidai nümunəsi hesab edilə bilər. Mətnin böyük hissəsi Kül Tigin obeliskinin mətni ilə üst-üstə düşür. Yalnız sonlar fərqlidir. Piramidal kitabənin qərb üzündə cəmi yeddi sətirdən ibarət kiçik bir mətndə xaqanın ölümü qeyd edilir:

"*[1] ... üstdə ...*
[2] Bilgə Kağan uçdu.
[3] Yay olsa, üstdə göy
[4] davulu gurlar kimi, eləcə və
[5] dağda yabanı ceyran gurlaşa, eləcə
[6] matəmə qərq oluram. Atam xaqan
[7] daşım özüm xaqan" [5, s.63]

Ehtimal ki, bu hissə Bilgə Xaqanın vəfatından sonra katib tərəfindən həkk edilmişdir.

